# GENDERƏ GİRİŞ

## mühazirələr toplusu

## *Dərs vəsaiti*

***Bakı Dövlət Universitetinin***
***Rektorunun 14.06.2017-ci il tarixli***
***R-69 saylı əmri ilə təsdiq edilmişdir.***

**Bakı – 2017**

**Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) professor ELMİRA SÜLEYMANOVANIN ümumi redaktəsi ilə**

**Tərtib edən:**

**Lamiyə Zeynalova -** Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının Hüquqi maarifləndirmə, elmi-analitik, informasiya və beynəlxalq əlaqələr şöbəsinin Elmi-analitik sektorunun baş məsləhətçisi, Ombudsmanın qadın hüquqları və gender bərabərliyi üzrə ixtisaslaşmış müşaviri

**Elmi redaktor:**

**Rəna İbrahimbəyova**, Bakı Dövlət Universiteti Sosial elmlər və Psixologiya fakültəsi Gender və tətbiqi psixologiya kafedrasının müdiri, psixologiya üzrə fəlsəfə doktoru, professor

**Rəyçilər:**

**Əmir Əliyev**, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin dekanı, hüquq üzrə elmlər doktoru, professor

**Rəna Mirzəzadə**, AMEA-nın Fəlsəfə İnstitutu, fəlsəfə üzrə elmlər doktoru, professor

**Redaktor:**

**Faiq Ağayev** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının Hüquqi maarifləndirmə, elmi-analitik, informasiya və beynəlxalq əlaqələr şöbəsinin müdiri

**Zemfira Məhərrəmli** – pedaqogika üzrə fəlsəfə doktoru

**Genderə giriş. Mühazirələr toplusu.** Dərs vəsaiti. Bakı: "Bakı Universiteti Nəşriyyatı", 2017, 432 s.

Kitabda gender bərabərliyinin və qadın hüquqlarının aktual məsələlərinə həsr olunmuş mühazirələr öz əksini tapmışdır. Əsas etibarilə insan hüquqlarının və genderin anlayışı, mahiyyəti, qadın hərəkatının inkişaf mərhələləri, qadın hüquqlarının milli və beynəlxalq hüquqi müdafiəsi, qadın hüquqlarının müdafiəsində müasir mexanizmlər, o cümlədən ombudsmanın rolu, habelə gender münaqişələri, qadınlara qarşı zorakılıq və reproduktiv hüquqların qorunması kimi mövzulara həsr olunmuş mühazirələr verilmişdir.

Gender probleminin hüquqi məsələlərini əks etdirən bu kitab ali məktəblərin professor-müəllim heyəti, tələbələr, magistrlər, tədqiqatçılar, bu sahədə çalışan mütəxəssislər və geniş oxucu kütləsinin istifadəsi üçün nəzərdə tutulmuşdur.

$$Z\frac{0302030000}{M-658(07)}-03-2017$$

*© "Bakı Universiteti Nəşriyyatı", 2017*
*© Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman), 2017*

***Azərbaycan Respublikasının***
***müstəqilliyinin bərpasının 25,***
***BMT-nin Mülki və Siyasi hüquqlar, həmçinin,***
***İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Paktların***
***qəbul olunmasının 50 illiyinə həsr olunur***

***“Azərbaycan qadını öz ağlı, zəkası, müdrikliyi, sədaqəti, qəhrəmanlığı, vəfası, yüksək analıq keyfiyyəti ilə bizim xalqımızı, millətimizi daim ucaldıbdır”.***

**Azərbaycan Xalqının Ümummilli Lideri**
**Heydər Əliyev**

***“Azərbaycan qadınının cəmiyyətimizdə qazandığı yüksək mövqe və elmdə, təhsildə, mədəniyyətdə fəth etdiyi zirvələr bizim tarixi nailiyyətimiz, əbədi qürur mənbəyimizdir”.***

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham Əliyev**

***“Mənəvi dəyərlərin daşıyıcısı olan qadın öz yaradıcı potensialından istifadə edərək, bəşəriyyətə yeni gender bərabərliyi modelini təklif edəcək”.***

**Azərbaycan Respublikasının birinci vitse-prezidenti,**
**UNESCO və İSESCO-nun Xoşməramlı səfiri,**
**Heydər Əliyev Fondunun prezidenti**
**Mehriban Əliyeva**

## Ön söz

Müstəqil Azərbaycan Respublikasında qadın hərəkatının özünəməxsus tarixi, inkişaf istiqamətləri, ənənələri vardır. Bu, bir qürurverici faktdır ki, aparılan uğurlu dövlət siyasəti nəticəsində Azərbaycan qadınları həm ölkəmizin ictimai-siyasi, həm də iqtisadi-sosial və mədəni sahələrdəki inkişafında mühüm rola malik aparıcı qüvvə kimi cəmiyyətdə ciddi mövqe əldə edə bilmişlər. Bu gün onlar qanunverici, icra və məhkəmə hakimiyyəti orqanlarında, bələdiyyə sistemində, vətəndaş cəmiyyəti institutlarında, o cümlədən qeyri-hökumət təşkilatlarında, kütləvi informasiya vasitələrində, həmçinin texniki və humanitar sahədə səmərəli fəaliyyət göstərirlər.

Böyük ehtiram hissi ilə qeyd etmək lazımdır ki, qadın hüquqlarının müdafiəsi, onların cəmiyyətin bərabərhüquqlu üzvü olması üçün sistemli və davamlı dövlət siyasətinin həyata keçirilməsi xalqımızın Ümummilli lideri Heydər Əliyevin siyasi xəttinin prioritet istiqamətlərindən birini təşkil etmiş və Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam və daha da inkişaf etdirilmişdir. Həmin siyasət nəticəsində ölkəmizdə insan hüquqlarının ayrılmaz tərkib hissəsi olan qadın hüquqlarının həyata keçirilməsi və təmini dövlət siyasətində aparıcı yerlərdən birini tutur.

Bu gün uğurla aparılan dövlət qadın siyasəti nəticəsində Azərbaycan qadınlarının inkişafına, hüquqlarının müdafiəsinə, qadın və kişilər arasında hüquq bərabərliyinin təmin edilməsi üçün bərabər imkanların yaradılmasına, onların respublikamızın həyatında fəal iştirakına, o cümlədən idarəetməyə cəlb olunmasına xüsusi önəm verilir.

Ölkə rəhbərliyinin təşəbbüsü sayəsində şəhər və rayon icra hakimiyyətlərində qadınların rəhbər vəzifələrə irəli çəkilməsi faktı isə həm də qadının idarəetmə bacarığına, intellekt və düşüncə səviyyəsinə, eləcə də mənəvi keyfiyyətlərinə cəmiyyət tərəfindən verilən qiymətin getdikcə yüksəlməsinin, ona olan inam və etimadın artmasının əlamətidir.

XXI əsrdə Azərbaycan qadını da beynəlxalq aləmdə özünəməxsus yer tuta bilmişdir. Bu mənada ölkəmizin birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, UNESCO

və İSESCO-nun Xoşməramlı səfiri Mehriban xanım Əliyevanın həyata keçirdiyi beynəlxalq əhəmiyyətli layihələr onun simasında Azərbaycan qadınına dünya miqyasında şöhrət və ehtiram qazandırmışdır.

Prezident Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış ümumxalq səsverməsi (referendum) yolu ilə 1995-ci ildə qəbul edilmiş müstəqil dövlətimizin ilk Konstitusiyası kişi ilə qadının eyni hüquqlara və azadlıqlara malik olmasını təsdiq etmiş, demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazasını yaratmışdır.

Dövlətimiz müxtəlif beynəlxalq müqavilələrə qoşulmuş, eyni zamanda ölkə daxilində qadınların hüquq və azadlıqlarının qorunması istiqamətində bir çox normativ hüquqi aktlar qəbul etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli "Dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Fərmanı bütün dövlət strukturlarında qadınlarla kişilərin eyni səviyyədə təmsil olunmasını təmin edir.

Bundan başqa "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının qanunlarını, Ailə Məcəlləsində edilən son dəyişiklikləri ölkəmizdə bu sahədə həyata keçirilən hüquqi islahatların bariz nümunəsi kimi göstərmək olar.

Ölkə Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası digər məsələlərlə yanaşı, gender bərabərliyinin təmin olunmasını və ailənin inkişaf etdirilməsini özündə ehtiva edir, qadın hüquqlarının müdafiəsində hakimiyyət orqanlarının rolunu müəyyənləşdirir, onların ictimai təşkilatlarla əməkdaşlığı üçün yeni imkanlar açır.

Qeyd etmək istərdim ki, ölkəmizdə gender bərabərliyinin təmini istiqamətində aparılan işlər bunda maraqlı olan bütün qurumların – istər dövlət, istərsə də qeyri-hökumət təşkilatlarının birgə, əlaqələndirilmiş fəaliyyəti nəticəsində çox əhəmiyyətli uğurlara imza atmağa imkan verir.

Ombudsman təsisatı öz fəaliyyətində qadınların hüquq və azadlıqlarının müdafiəsi, təmini və təbliği işinə geniş yer ver-

miş, qadınlara qarşı zorakılıq hallarının aradan qaldırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirmiş, Müvəkkil qadınlar və kişilər arasında fərqlənən rəhbərlik üslubları, qadın və kişilər üçün daha yaxşı karyera modelləri, tədqiqat və innovasiyalarda gender bərabərsizliyinin aradan qaldırılması, yəni elm müəssisələrində qadınlara kişilərlə eyni imkanlar verilməsi üçün ən yaxşı strategiya barədə müxtəlif auditoriyalar qarşısında çıxışlar etmişdir.

Təqdim etdiyimiz təkliflərin də böyük əksəriyyəti nəzərə alınmaqla, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr və 2011-cı il 27 dekabr tarixli Sərəncamları ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı" və bu sənədin məntiqi davamı olan "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nda qadın hüquqlarının təmini, müdafiəsi və təbliğinə yönəlmiş müddəalar vardır.

Həmin sənədlərdə dövlətimizin tərəfdar çıxdığı insan hüquqlarına və azadlıqlarına dair beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin həyata keçirilməsi və Azərbaycan Respublikasının normativ hüquqi aktlarının beynəlxalq hüquqi sənədlərə uyğunlaşdırılması, məişət zorakılığının qarşısının alınması, psixoloji və tibbi yardım, bu cür zorakılığın qurbanları üçün zəruri kompensasiya və reabilitasiyanın təmin edilməsi üzrə tədbirlər də daxil olmaqla, qadınlara qarşı zorakılığın bütün formalarına qarşı mübarizə aparılması, qadınların hüquqlarının daha yaxşı səviyyədə müdafiəsi üçün tədbirlər nəzərdə tutulmuşdur.

Sözügedən hər iki sənədin həyata keçirilməsinin əlaqələndirilməsi üzrə işçi qrupunun fəaliyyətinə rəhbərlik də Mü-vəkkilə tövsiyə olunmuşdur.

Ombudsman təsisatı ötən illər ərzində qadın hüquqları sahəsində qanunvericilik aktlarının, o cümlədən müxtəlif proqram, strategiya və digər sənədlərin hazırlanması və ya təkmilləşdirilməsi ilə bağlı təkliflər irəli sürmüşdür.

Bütün bunlarla yanaşı, vətəndaşların hüquq düşüncəsi və hüquq mədəniyyətinin inkişaf etdirilməsinə önəm verir və bu istiqamətdə mühüm tədbirlər həyata keçiririk.

Təhsilin, gender bərabərliyi və qadınların səlahiyyətlərinin genişləndirilməsini təmin edən ən qiymətli vasitələrdən biri olduğunu nəzərə alaraq, Müvəkkilin təşəbbüsü ilə Bakı Dövlət Universitetinin Hüquq fakültəsində “İnsan hüquqları” fənni tədris edilməyə başlandı. Eyni zamanda, həmin fakültənin magistratura pilləsində insan hüquqları üzrə kadr hazırlığına başlanmışdır ki, bu da respublikamız üçün bu sahədə ixtisaslı kadrların yetişdirilməsinə, müvafiq tədris proqramları və dərsliklərin nəşrinə, hüquqi maarifləndirmə prosesinin yüksək səviyyədə təşkilinə və hüquqların daha etibarlı müdafiə edilməsinə təkan verir.

Bizim daha bir təşəbbüsümüzlə Bakı Dövlət Universitetinin Hüquq fakültəsində Gender bir fənn kimi tədris olunur və eyni zamanda “İnsan hüquqları anlayışı”, “Gender və bərabər imkanlara təminat”, “Gender bərabərliyi üzrə beynəlxalq və milli qanunvericilik”, “Genderin mədəni, iqtisadi və sosial aspektləri” və s. mövzularda mühazirələr oxunur.

Bununla yanaşı, müntəzəm olaraq, Müvəkkil və Ombudsman Aparatının müvafiq əməkdaşları tərəfindən ictimaiyyət arasında, o cümlədən Ədliyyə Akademiyasında, Əmək və Sosial Münasibətlər Akademiyasında, Dövlət İdarəçilik Akademiyasında, habelə Həmkarlar Konfederasiyasının kadrları və fəalları üçün gender probleminin müasir aspektləri üzrə tədris kursları təşkil edilir, məruzələr oxunur və interaktiv diskussiyalar aparılır. Aidiyyəti dövlət orqanlarının nümayəndələri, QHT və icmalardan olan dinləyicilərə insan hüquqları, əmək, sosial təminat, həmkarlar ittifaqı ilə bağlı qanunvericilik aktları, kişi və qadınlar arasında hüquq bərabərliyinin təminatı - gender bərabərliyi, qadınların hüquqları üzrə beynəlxalq sənədlər və milli qanunvericilik və s. barədə ətraflı məlumat verilir, müvafiq nəzəri biliklər aşılanır.

Elmin bütün sahələrində qadınların fəallığının artırılmasının, müxtəlif elmi tədqiqatların, layihələrin yerinə yetirilməsinin, gender üzrə maarifləndirmə standartlarına əməl olunmasının və gender məsələlərinin elmin bütün istiqamətlərinə inteqrasiyasının vacibliyini prioritet məsələ kimi daim gündəmdə saxlayırıq.

Olkəmizdə 2015-ci ildən sonrakı dövr üçün nəzərdə tutulan prioritetlərdə ölkə səviyyəsində həyata keçirilən islahatlar və

qazanılmış uğurlarla qeyd edilməklə, bir sıra istiqamətlərə diqqətin artırılması tövsiyə olunur. Bunlar gender bərabərliyi və qadınların səlahiyyətlərinin genişlənməsi istiqamətində əldə olunan uğurlara əsaslanmaqla stereotiplərə qarşı mübarizə, kənd və rayon yerlərində gender siyasətinə diqqətin artırılmasını, bu sahədə mövcud boşluqların aradan qaldırılmasını nəzərdə tutur. Bu istiqamətdə Müvəkkil tərəfindən geniş fəaliyyət həyata keçirilməklə qadın hüquqlarının təbliğinə böyük önəm verilir.

Ümidvaram ki, müəllim və tələbələrin, o cümlədən geniş oxucuların diqqətinə təqdim olunan bu mühazirələr toplusu Azərbaycanda gender əsaslı hüquqların, gender bərabərliyinin təmin olunmasına, bu sahədə beynəlxalq sənədlərin və yerli qanunvericiliyin özünəməxsus cəhətlərini daha dərindən öyrənməyə dəstək olacaq və bərabər hüquqlu gələcəyin qurulmasına öz töfhəsini verəcəkdir.

**Hörmətlə,**

**professor Elmira Süleymanova**
**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili**
**(Ombudsman)**

## “GENDERƏ GİRİŞ”
## fənninin

## PROQRAMI

**Mövzu 1. Эnsan hьquqlarэ anlayэюэ, klassifikasiyasэ və təminolunma mexanizmləri**

*Məzmunu: Эnsan hьquqlarэnэn anlayэюэ, klassifika-siya-sэ, xьsusiyyətləri və prinsipləri. Эnsan hьquqlarэnэn milli və beynəlxalq təminolunma mexanizmləri. Эnsan hь-quqlarэnэn BMT sistemində qorunmasэ.*

**Mцvzu 2. Mьstəqil Azərbaycan Respublikasэnda Эnsan Hьquqlarэ ьzrə Mьvəkkil (Ombudsman) və onun qadэn hьquqlarэnэn təmin olunmasэ sahəsində fəaliyyəti**

*Məzmunu: Ombudsman anlayэюэ. Azərbaycan Res-publikasэnda Эnsan Hьquqlarэ ьzrə Mьvəkkil (Ombuds-man) təsisatэnэn yaradэlmasэ və Paris Prinsiplərinə uypun fəaliyyəti, “A” statusu barədə məlumat.*

**Mцvzu 3. Qadэn hərəkatэnэn inkiюaf mərhələləri. Feminizm**

*Məzmunu: Qadэn hərəkatэnэn inkiюaf mərhələləri, fe-minizm etnoqrafiyasэ, Beynəlxalq Qadэnlar Gьnь və Azərbaycanda qadэn məsələsinin tarixзəsi.*

**Mцvzu 4. Gender anlayэюэ və Azərbaycanda gender siyasəti**

*Məzmunu: Gender anlayэюэ, terminləri, psixologiyasэ, bьdcəsi və kvotasэ. “Gender (kiюi və qadэnlarэn) bəra-bərliyinin təminatlarэ haqqэnda” Azərbaycan Respublikasэ Qanununun təhlili.*

**Mцvzu 5. Azərbaycan Respublikasэnэn strategiya və Dцvlət Proqramlarэnda qadэn hьquqlarэ və gender məsələləri**

*Məzmunu: Sosial-iqtisadi vəziyyətin qadэn hьquqlarэ-*

*na təsiri. Qadən problemlərini və gender məsələlərini əhatə edən Milli Plan və Proqramlar. "Azərbaycan 2020: gələcəyə baxэю" Эnkiюaf Konsepsiyasэnda gender bərabərliyi.*

**Mцvzu 6. Qadэnlarэn qərar qəbuletmədə rolu və ictimai fəallэрэ**

*Məzmunu: Emansipasiya, qadэn liderliyi və sahibkarlэрэ. Qadэnlara mьnasibətdə dцvlət siyasətinin nцvləri. Qadэnlarэn liderlik qabiliyyətinin inkiєaf etdirilməsi yollarэ. Azərbaycanda qadэnlarэn qərar qəbuletmədə rolu.*

**Mцvzu 7. Gender mьnaqiєələrinin həll olunmasэnэn texnologiyasэ**

*Məzmunu: Münaqişələrin tipologiyası, təsnifatı və həlli yolları. Silahlı münaqişələr vəziyyətində yaşayan qadınların hüquqları və sülh quruculuğu prosesində qadınların rolu.*

**Mцvzu 8. Mədəni mьxtəliflik, multikulturalizm, dini etiqad və tolerantlэq. Gender və mədəniyyət**

*Məzmunu: "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında Konvensiya"ya Azərbaycan Respublikasının qoşulması. Sülh mədəniyyəti. İslamda qadın və kişilərə verilən bərabər dəyərlər. Azərbaycanda dini etiqad və tolerantlıq.*

**Mцvzu 9. Beynəlxalq sənədlərdə qadэn hьquqlarэ. Pekin Bəyannaməsi və Fəaliyyət Platformasэ**

*Məzmunu: Qadın hüquqlarının müdafiəsi sahəsində beynəlxalq müqavilələr və qadınların vəziyyətinə dair Ьmumdьnya Konfranslarэ, Pekin Bəyannaməsinin və Fəaliyyət Platformasэnэn təhlili.*

**Mцvzu 10. Qadэnlara qarюэ zorakэlэq beynəlxalq və milli sənədlərdə**

*Məzmunu: Qadınlara qarşı zorakılıq, növləri və onunla bağlı hüquqi aktlar. Məiєət zorakэlэрэnэn qarюэsэnэn alэnmasэ haqqэnda Azərbaycan Respublikasэ Qanunu. "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının*

*ləğv olunması haqqında" Konvensiya (CEDAW).*

**Mцvzu 11. Mьlki və Siyasi Hьquqlar haqqэnda Beynəlxalq Paktda təsbit olunmuю qadэn hьquqlarэ**

*Məzmunu: Mülki və siyasi hüquqlar anlayışı, İnsan hüquqları komitəsinin yaradılması və səlahiyyətləri, Mьlki və Siyasi Hьquqlar haqqэnda Beynəlxalq Paktda təsbit olunmuю qadэn hьquqlarэnэn təhlili. Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə qoşulması.*

**Mцvzu 12. Эqtisadi, Sosial və Mədəni Hьquqlar haqqэnda Beynəlxalq Paktda təsbit olunmuю qadэn hьquqlarэ**

*Məzmunu: Эqtisadi, sosial və mədəni hьquqlarэn anlayэюэ və rolu. İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktda təsbit olunan qadın hüquqlarının təhlili. Azərbaycan Respublikasında iqtisadi, sosial və mədəni hü-quqların təmin edilməsi. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin iqtisadi, sosial və mədəni hüquqlara dair bərabər imkanlarla bağlı bəzi qərarları.*

**Mцvzu 13. Qadэnlarэn təhsil hьququ**

*Məzmunu: Qadэn təhsilinin tarixi, gender tədqiqatlarэ. Azərbaycan Respublikasında Dövlətin təhsil siyasəti. Beynəlxalq sənədlərdə və Azərbaycanda qadınların təhsil hüququ.*

**Mцvzu 14. Reproduktiv Saplamlэpэn gender aspektləri və ətraf mьhit**

*Məzmunu: Səhiyyə və reproduktiv saplamlэq. Reproduktiv hьquqlar, qadэn saplamlэpэ və ətraf mьhit. Ombuds-manın ailə planlaşdırılması və reproduktiv sağlamlıqla bağlı fəaliyyəti.*

**Mцvzu 15. Qadэnlar və Kьtləvi Эnformasiya Vasitələri**

*Məzmunu: Kütləvi İnformasiya Vasitələrinin yaranma tarixi və növləri. Kütləvi İnformasiya Vasitələrinin inkişafı tarixində qadınların rolu.*

## Mühazirə 1. İnsan hüquqları anlayışı, klassifikasiyası və təminolunma mexanizmləri

1. ***İnsan hüquqları anlayışı***
2. ***Əsas insan hüquq və azadlıqları, onların təsnifatı (klassifikasiyası)***
3. ***Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin əsas prinsip və müddəaları***
4. ***İnsan hüquqlarının xüsusiyyətləri***
5. ***İnsan hüquqlarının milli və beynəlxalq təminolunma mexanizmləri***
6. ***İnsan hüquqlarının BMT sistemində müdafiəsi***

### 1. İnsan hüquqları anlayışı

İnsan hüquqları anlayışına izah verərkən müxtəlif ədəbiyyatlarda fərqli müddəalara rast gəlmək olur. Həm hüquq, həm də onun anlayışı insan cəmiyyəti ilə bağlıdır. Cəmiyyət insanların yalnız sadə birliyi deyil, həm də mürəkkəb orqanizm, insanların qarşılıqlı münasibətlərinin məhsulu, onların həyati nemətlərin istehsalı, dəyişdirilməsi və istehlakı ilə bağlı fəaliyyətlərinin müəyyən təcəssümüdür. Hüquq ─ sosial hadisədir, onsuz sivilizasiyalı cəmiyyətin mövcudluğu qeyri-mümkündür. İnsan hüquqları anlayışı ilkin olaraq insanların siyasi, hüquqi və sosial hüquqlarının dövlət tərəfindən müdafiəsi ideyasına əsaslanır.

İnsan hüquqları şəxsin hakimiyyət və dövlətlə qarşılıqlı münasibətlərindəki statusunu səciyyələndirən hüquqi anlayışdır. İnsan hüquq və azadlıqları, ən əvvəl, insan taleyinə, onun başqaları ilə münasibətdə yeri və roluna dair fəlsəfi təsəvvürlər sistemidir.

İnsan hüquqları dünyanın quruluşuna, humanizm prinsiplərinə əsaslanan dərketmə və dünyagörüşü sistemidir. Bu sistem cəmiyyətdə insan hüquqlarına hörmətlə yanaşmaqla qarşılıqlı münasibətlərin qurulmasında humanizm prinsiplərinə xidmət edir. Cəmiyyət üzvləri arasındakı münasibətlər mənəvi-etik normalardan ibarət sosial-tənzimləmə sistemi kimi qiymətləndirilir. İnsan hüquqları mənəvi əxlaq normaları üzərində qurulsa da, həm də hüquq normaları kimi dəyərləndirilir.

Hüquq - ictimai-siyasi məfhum olmaqla bərabər, həm də insanlara ixtiyar və səlahiyyət verən başlıca kriteriyadır.

İnsan hüquqları - İnsanın ləyaqətinə görə malik olduğu hüquqlardır. İnsanın hərəkətləri onun hüquqlarının formalaşmasında mühüm rol oynayır. Hüquq münasibət tərəflərinə ixtiyar və səlahiyyətlər verir. Buradan isə məsuliyyətlər meydana gəlir.

İnsan hüquqları həm də şəxsiyyətin azadlığını ifadə edən, onun həyatının cəmiyyət, dövlət və digər fərdlərlə qarşılıqlı münasibətinin ayrılmaz və zəruri vasitəsi kimi başa düşülür. İnsan hüquqları ayrılmazdır. Heç kim insanı yaşamaq, şəxsi toxunulmazlıq, vicdan, fikir, əqidə azadlığı, həyat fəaliyyətinin azad seçimi və digər hüquqlarından məhrum edə bilməz. Bu hüquqlar azadlıq, bərabərlik, ədalət prinsiplərinə əsaslanaraq universal xarakter daşıyır.

İnsan hüquqlarının mənbəyi insan özüdür. Bu hüquqlar dövlətdən öncə yaranıb və ondan əvvəl gəlir. Dövlət bunları yaratmır, ancaq müəyyən edir. Siyasi cəmiyyət xaricində də bu hüquqlar olub və olmaqda davam edəcəkdir. Bu hüquqlara insan məhz insan olduğu üçün sahibdir. Elə buna görə də insan hüquqlarına bəzən "şəxsdən ayrılmaz" hüquqlar deyilir.

İnsan hüquqları - insanların dövlətə olan münasibətlərində hüquqi statuslarını müəyyən edən, onun imkanlarını, iqtisadi, sosial, siyasi və mədəni sferada iddialarını xarakterizə edən anlayışdır. İnsan hüquqları anlayışı burjua inqilabı dövründə meydana gəlmişdir. İnsan hüquqlarının azad və səmərəli qaydada həyata keçirilməsi hüquqi dövlətin və vətəndaş cəmiyyətinin mühüm əlamətlərindən biridir.

Əsas insan hüquqları şəxsiyyətin hüquqi statusunun bünövrəsini qoyur, dövlətin mövcudluğunun zəruri şərti kimi dövlət tərəfindən tanınaraq qorunur. Buraya yaşamaq hüququ, azadlıq hüququ, mülkiyyətin toxunulmazlığı hüququ, cəmiyyətin və dövlətin idarə olunmasında iştirak etmək hüququ, hər bir kəsin şəxsi və ailə həyatına hörmət tələb etmək hüququ, yaşayış və yazışma hüququ, öz fikrini sərbəst şəkildə ifadə etmək hüququ və s. aiddir. Azərbaycan Respublikasının Konstitusiyasında və mühüm beynəlxalq aktlarda nəzərdə tutulmuş bütün bu hüquqlar törəmə hüquqlar üçün hüquqi baza təşkil edir.

Belə bir fikir mövcuddur ki, insan hüquqları konsepsiyası Roma hüquq elminin və dini humanizmin sintezi əsasında yaranıb və müasir Avropa sivilizasiyası məhz bu iki mədəniyyətin vəhdətinə əsaslanır. Hələ Roma hüquqşünasları və Bizans siyasi mütəfəkkirləri belə bir fikir irəli sürüblər ki, insan azadlığının müəyyən zəruri minimum həddi var və bu hədd dövlət tərəfindən pozula bilməz. Həmçinin, vətəndaşların qanun və məhkəmə qarşısında bərabərliyinin zəruri olması haqqında da təsəvvürlər mövcud olmuşdur.

Eramızdan əvvəl (e.ə.) V-IV əsrlərdə mövcud olan qədim yazılarda (Afina, Roma) insan hüquqlarının əks olunması, vətəndaşlıq prinsipinin meydana çıxması mühüm addım hesab olunurdu. E.ə. VI əsrdə Afina arxontu Solonun işləyib hazırladığı qanunlarda demokratiyanın bir sıra elementləri və dövlət məmurlarının vəzifələri öz əksini tapıb. Doğrudur, bu fikirlər o zaman insan hüquqları adlanmasa da, onlar öz mahiyyəti etibarilə indiki insan hüquqlarının ilk rüşeymləri idi. Buna misal olaraq, ilk demokratlardan olmuş afinalı Periklin xalqın xeyrinə həyata keçirdiyi islahatları və ya qədim Romada plebeylərlə patrisilər arasında gedən mübarizəni misal çəkmək olar. Lakin o dövrdə insan hüquqları dedikdə yalnız quldarlara məxsus hüquqlar göstərilirdi və qulların heç bir hüququ yox idi.

İnsan azadlığının inkişafına böyük töhfə vermiş romalılar hakimiyyət bölgüsünü tətbiq edərək, təbii hüquq ideyalarını işləyib hazırlamış və qəbul etmişlər.

Cəmiyyət inkişaf etdikcə insanlar öz hüquqları uğrunda daha mütəşəkkil mübarizə aparmağa başladılar. Elə bunun məntiqi nəticəsi olaraq, 1215-ci ildə İngiltərədə dünya tarixində insan hüquqlarına dair ilk sənəd olan "Böyük Azadlıqlar Xartiyası" (Magna Carta) qəbul olundu və bu sənəd indi də öz əhəmiyyətini saxlayır. Həmin sənədin əhəmiyyəti ondan ibarətdir ki, dünya tarixində ilk dəfə olaraq, kral öz hakimiyyətini feodalların xeyrinə məhdudlaşdırırdı. Bundan sonra İngiltərədə insan hüquqları uğrunda mübarizə daha da gücləndi və 1689-cu ildə Hüquqlar haqqında Bill qəbul olundu ki, bu da bəşəriyyətin insan hüquqları sahəsində daha bir nailiyyəti idi.

XX əsrdə insan hüquqları tarixində yeni mərhələ başlanıb və bu mərhələ kollektiv beynəlxalq tədbirlərlə səciyyələnib.

Buna baxmayaraq, XX əsrin ortalarına kimi insan hüquqlarını hələ də bütün dünya ölkələri qəbul etmirdi.

Bu yolda ilk addım Birləşmiş Millətlər Təşkilatı tərəfindən atıldı: 1948-ci il dekabrın 10-da BMT-nin Baş Assambleyası Ümumdünya İnsan Hüquqları Bəyannaməsini qəbul etdi. Bəyannamə preambula və 30 maddədən ibarət idi. Burada göstərilirdi ki, irqindən, dərisinin rəngindən, cinsindən, dilindən, əqidəsindən, siyasi mənsubiyyətindən, milli və sosial mənşəyindən, əmlak vəziyyətindən və digər hallardan asılı olmayaraq, Bəyannamədə göstərilən hüquqlar bütün insanlara aiddir. Bu Bəyannamədən sonra, 1996-cı il dekabrın 16-da BMT "Mülki və Siyasi hüquqlar haqqında" və "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktlar qəbul etdi ki, bunlar bu gün də insan hüquqlarına aid əsas sənədlər sayılır.

Qeyd olunmalıdır ki, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin məqsəd və məramları, həmçinin Avropa Şurası tərəfindən qəbul olunmuş İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyada (1950-ci il), Avropa Mədəniyyət Konvensiyasında (1954-cü il), Terrorizmin qarşısının alınması haqqında Konvensiyada (1977-ci il), Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyasında (1995-ci il), Avropa Sosial Xartiyasında (1996-cı il), ATƏT səviyyəsində imzalanmış 1975-ci il Helsinki Yekun Aktında, Yeni Avropa üçün Paris Xartiyasında (1990-cı il) və digər beynəlxalq sənədlərdə özünün gələcək inkişafını tapmışdır.

İnsan hüquqları dövlətlə qarşılıqlı münasibətdə hər bir insanın fərdi azadlığa nail olmaq, cəmiyyətin təşkilində iştirak etməkdən ibarət olan əxlaqi və hüquqi normalardır.

İnsan hüquqları sahəsində əsas prinsipləri belə formalaşdırmaq olar:

- İnsan hüquqları fərd anadan olandan ona məxsusdur, odur ki təbii, ayrılmaz və toxunulmaz hüquqlardır;
- İnsan hüquqları universaldır və bərabərlik prinsipinə əsaslanır; odur ki, dövlət onun yurisdiksiyası altında olan bütün ərazilərdə yaşayan vətəndaşların, vətəndaşlığı olmayan şəxslərin, siyasi mühacirlərin, qaçqınların, miqrantların, sığınacaq axtaranların, xarici ölkə vətəndaşları da daxil olmaqla bütün şəxslərin hüquqlarına təminat verir;

- İnsan hüquqları ali dəyərlərdir, onlara hörmət olunması, riayət edilməsi və bu hüquqların müdafiəsi dövlətin vəzifəsidir;
- İnsan hüquqları hakimiyyət üzərində nəzarət vasitəsidir. Dövlət insan hüquqları ilə müəyyən edilmiş azadlıqların sərhədini keçməməlidir;
- Fərdin hüquq və azadlıqlarının həyata keçirilməsi başqalarının hüquq və azadlıqlarını pozmamalıdır;
- Hüquq və azadlıqların təmini zamanı hər hansı əlamətə görə ayrı-seçkiliyə yol verilməməlidir;
- Əsas hüquq və azadlıqlar dövlətin bütün ərazisində vahid olmalıdır;
- Mülki, siyasi, iqtisadi, sosial və mədəni hüquq və azadlıqlar bərabərdir; bunların vahid sistemində heç bir iyerarxiyası (yəni bir- birindən üstünlüyü) yoxdur;
- Kollektiv hüquqlar fərdi hüquqlardan ayrılmazdır, onlar fərdi hüquqlara zidd olmamalıdır;
- İnsan hüquqları qanunla tənzimlənməlidir;
- İnsan hüquqları və azadlıqları yalnız qanunla, Konstitusiya və beynəlxalq hüquqi aktlarda nəzərdə tutulmuş hallar əsasında məhdudlaşdırıla bilər.

İnsan hüquqları, bunların sosial kökləri və təyinatı bəşəriyyətin tarixi, sosial və mədəni inkişafının əbədi problemləri kimi, minilliklərdən keçərək daim siyasi, hüquqi, etik, dini və fəlsəfi təfəkkürün diqqət mərkəzində olub. İnsan hüquqları mürəkkəb və çoxölçülü məfhumdur.

İnsan hüquqlarının əsas prinsipləri olan bərabər hüquqluluq və qeyri-ayrıseçkilikdən danışarkən mütləq Cins, Gender, Gender bərabərliyi, Gender stereotipləri, cəmiyyətdə və mədəniyyətdə gender rollarına və s. məsələlərə nəzər salınmalıdır.

Mütərəqqi dünya təcrübəsi göstərir ki, müasir dövrdə hər bir ölkədə insan hüquqlarının ən başlıca komponentlərindən birinə ─ gender tarazlığının təmin edilməsinə nail olmadan, bu sahədə mövcud problemlərin həlli istiqamətində məqsədyönlü və davamlı addımlar atmadan, ölkədə vətəndaş cəmiyyəti quruculuğu, davamlı sosial və sosial-iqtisadi inkişafa çatmaq mümkün deyil.

## 2. Əsas insan hüquq və azadlıqları, onların təsnifatı (klassifikasiyası)

Hüquq, azadlıq və vəzifələrin dairəsinin daim genişlənməsi hər hansı bir hüquq institutu ilə bağlı problemlərin öyrənilməsini asanlaşdıran müəyyən təsnifatın aparılmasını tələb edir.

Təsnifləşdirmə müxtəlif əsaslara görə yerinə yetirilə bilər, ancaq nəzərə almaq lazımdır ki, əksər hallarda bu, kifayət qədər şərti xarakter daşıyır. Çünki eyni bir hüquq, eyni bir azadlıq eyni vaxtda iki və ya daha çox təsnifat qrupuna mənsub ola bilər.

Təsnifləşdirmə üçün əsaslardan biri insan hüquqlarına və vətəndaş hüquqlarına (müvafiq olaraq azadlıqların və vəzifələrin də) bölünməsidir. İnsan hüquqları (azadlıqları) dedikdə, bütün insanların malik olduğu hüquqlar (azadlıqlar) başa düşülür. Bu hüquqlar (azadlıqlar) insan doğulduğu andan, insanın doğulması ilə necə deyərlər, "avtomatik surətdə" əmələ gəlir. Özü də insanlar göstərilən hüquqları (azadlıqları) yaşadığı dövlətə mənsubiyyətindən, həmin dövlətin vətəndaşı sayılmasından asılı olmayaraq, əldə edirlər. Dövlətlər öz qanunları ilə vətəndaşlarına bu cür hüquqlar verə bilməzlər, çünki həmin hüquqları insanlar doğulan kimi qazanırlar.

İnsan hüquqları (azadlıqları) sırasına ənənəvi olaraq yaşamaq hüququ, azadlıq hüququ, təhlükəsizlik hüququ, mülkiyyət hüququ, şəxsiyyətin ləyaqət hüququ, şəxsi və ailə sirrini saxlamaq hüququ aid edilir.

Vətəndaş hüquq və azadlıqları odur ki, onlar dövlət tərəfindən qanun əsasında müəyyən edilir. Vətəndaşlara bu hüquq və azadlıqları dövlətin özü verir ("dövlət bəxş edir"). Onlar insanın anadan olması (doğulması) ilə əldə edilmir və buna görə də təbii (anadangəlmə) hüquq və azadlıqlar sayılmır. Özü də həmin hüquqların (azadlıqların) verilməsi və müəyyən edilməsi şəxsin dövlətin vətəndaşı olması faktı ilə (vətəndaşlıq faktı ilə), onun dövlətə mənsub olması faktı ilə bağlıdır. Vətəndaş hüquqları da dövlət tərəfindən qorunur və müdafiə edilir, yəni təmin edilir. Ona görə ki, insan hüquqları kimi, vətəndaş hüquqları da Konstitusiyada nəzərdə tutulmuşdur. Əksər hallarda insan və vətəndaş hüquq və azadlıqları və vəzifələri öz xarakterinə görə fərdidir. Hüquqları və azadlıqları, habelə vəzifələri əsas və əlavə kimi də təsnifləşdirmək olar.

Sonuncular birincilərdən törəmədir, onları konkretləşdirir. Məsələn: dövlətin idarə olunmasında iştirak etmək hüququ (Azərbaycan Respublikası Konstitusiyasının 55-ci maddəsi) əsas, seçki hüququ (Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsi) isə ondan törəmə, onun təzahürlərindən biridir.

Toxunulmaz və pozulmaz olmaq insan hüquqlarının (azadlıqlarının) digər prinsipidir. Bu prinsipə görə hər kəs insan hüquqlarını (azadlıqlarını) cinayət və digər hərəkətlərlə poza və onlara qəsd edə bilməz.

Təsnifləşdirmə digər əsas hüquqların, azadlıqların və vəzifələrin xarakteri ilə bağlıdır. Söhbət hüquqların, azadlıqların və vəzifələrin fərdi və kollektiv olmasından gedir.

Əsas təsnifatlardan birinə görə, hüquqlar üç nəslə, yəni birinci, ikinci və üçüncü nəsillərə bölünür. İnsan hüquqlarının 3 nəslə bölünməsi, 1979-cu ildə Strasburqdakı Beynəlxalq İnsan Hüquqları İnstitutunun üzvü, milliyyətcə çex olan Karel Vasak tərəfindən irəli sürülüb. Birinci nəsil hüquqlara mülki və siyasi hüquqlar, ikinci nəslə iqtisadi, sosial və mədəni hüquqlar, üçüncü nəslə isə kollektiv hüquqlar daxildir. Bu hüquqların bir-birindən ayrı təmin edilməsi qeyri-mümkündür.

Birinci nəsil hüquqları həm də klassik və ya təbii hüquqlar adlandırırlar. Təbii hüquqlar kimi, ilk növbədə, yaşamaq və azadlıq hüququnu misal göstərmək olar. Mülki hüquq və azadlıqlara ləyaqət hüququ, şəxsi toxunulmazlıq hüququ, mənzil toxunulmazlığı hüququ, vicdan azadlığı və digərləri də daxildir. Siyasi hüquq və azadlıqlar isə yalnız ölkənin vətəndaşına aiddir. Buraya söz və etiqad, dinc yığıncaq və birləşmək azadlığı, dövlətin və cəmiyyətin idarə edilməsində iştirak etmək kimi hüquqlar daxildir.

Seçki hüququ da ən mühüm siyasi hüquqlardandır. Bu hüquq vətəndaşın dövlətin seçkili orqanları və yerli özünüidarəetmə orqanlarının formalaşmasında iştirakını, bununla da xalqın suverenliyi və xalq hakimiyyəti prinsipini təmin edir. Beləliklə, vətəndaşlar öz seçmək və seçilmək hüququnu gerçəkləşdirir.

Azərbaycan Şərqdə ilk dövlətdir ki, burada hələ 1918-ci ildə Cumhuriyyət tərəfindən qadınlara seçmək və seçilmək hüququ verilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddə-

sində ölkə vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ təsbit olunmuşdur.

İkinci nəslə aid olan sosial hüquqlar cəmiyyətdə sosial tərəqqiyə və layiqli həyat səviyyəsini təmin etməyə, əhalinin rifahının, həyat tərzinin yüksəlməsinə yönəlir. Bu hüquqlara əmək, təhsil, sağlamlıq, qidalanma hüququ, məşğulluq, mənzil hüququ, mədəni və sair hüquqlar aiddir.

Həmin hüquqlar 1966-cı ildə qəbul olunmuş İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktda, habelə 12 dekabr 1961-ci ildə qəbul edilmiş Avropa Sosial Xartiyasında öz əksini tapmışdır. Xartiyada qeyd olunur ki, hər bir dövlət öz xalqının iqtisadi, sosial və mədəni inkişafına dəstək olmasına görə məsuliyyət daşıyır. Bu hüquqların təmin olunması ilə bağlı bir sıra beynəlxalq normalar da qəbul edilmiş, habelə dövlətin Konstitusiyasında (maddə 12) və normativ-hüquqi aktlarda təsbit olunmuşdur.

Üçüncü nəsil adlandırılan kollektiv hüquqlar təbii hüquqlar deyil və cəmiyyətin, yaxud kollektivin maraqlarına uyğun formalaşır. Ekoloji hüquqları, inkişaf hüququnu, sülh hüququnu və sair hüquqları buna misal göstərmək olar. Bunlar fərdi hüquqlarla sıx bağlı olmaqla, onların pozulmasına yönəlməməlidir. Əsas xüsusiyyəti ondan ibarətdir ki, bu hüquqlar dövlət tərəfindən tanınır və mahiyyətcə ictimai hüquqlardır, yəni insanın cəmiyyət halında yaşamasından irəli gəlir. Beləliklə, insan hüquqları öz strukturuna görə fərdi və kollektiv hüquqlara ayrılır.

Qeyd etmək lazımdır ki, siyasi və mülki hüquqların ehtiva edildiyi BMT-nin Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktı, bu Pakta əlavə olaraq qəbul edilmiş Fakültativ Protokollar, iqtisadi, sosial və mədəni hüquqların təsbit edildiyi İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktı, 1948-ci il Ümumdünya İnsan Hüquqları Bəyannaməsi birlikdə insan hüquqları üzrə Bill kimi tanınır.

İnsan hüquqları təsnifatlarından söz açdıqda, onu da demək lazımdır ki, qeyd etdiyimiz ümumi hüquqlardan başqa, əhalinin ayrı-ayrı qruplarının — qadınların, uşaqların, ahılların, əlilliyi olan insanların, hərbi qulluqçuların, məhkumların və digərlərinin xüsusi, onlara mənsub (spesifik) hüquqları da vardır ki,

bunlar da ayrı-ayrı beynəlxalq konvensiyalar və milli qanunvericiliklə tənzimlənir.

Digər bir ümumi təsnifat bütün hüquqların pozitiv və neqativ hüquqlara bölünməsidir. Bu təsnifatın əsasını həmin hüquqlarda azadlığın neqativ və pozitiv cəhətlərinin təyin olunması təşkil edir. Neqativ mənada azadlıq hər hansı zorakılığın, fərdə münasibətdə hər hansı məhdudiyyətin olmaması, müsbət mənada isə seçim azadlığı, ən əsası isə insanın öz məqsədlərinə nail olmaq qabiliyyəti kimi başa düşülür.

### 3. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin əsas prinsip və müddəaları

İnsan hüquqları beynəlxalq hüquq normaları tərəfindən müəyyən edilir və əsasən beynəlxalq hüquq sənədlərində öz əksini tapır. İkinci Dünya Müharibəsindən sonra BMT insan hüquqlarının müəyyən olunmasında və irəli çəkilməsində başlıca rol oynamışdır. Bu hüquqlar isə sonradan əsasən dövlətlər çərçivəsində inkişaf etdirilmişdir. Bunun nəticəsində, ölkələrin əksəriyyəti tərəfindən ratifikasiya edilmiş müxtəlif sazişlərdə və sənədlərdə insan hüquqları sistemləşdirilmişdir (məsələn, İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyada). 1948-ci ildə BMT Baş Assambleyası tərəfindən qəbul edilmiş Ümumdünya İnsan Hüquqları Bəyannaməsi bu sahədə əsas sənəd olaraq qalmaqdadır. Xüsusilə qeyd etmək lazımdır ki, tövsiyə xarakterli olmasına baxmayaraq, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi tarixdə ilk universal sənəd kimi, dövlətlərarası münasibətlərin inkişafının yeni dövrünü şərtləndirib.

İnsan hüquqlarının tarixi onu göstərir ki, təbii hüquq ideyaları məcrasında formalaşan insan hüquqları haqqında təsəvvürlər insan və vətəndaş hüquqları, insanın və vətəndaşın hüquqi statusu ilə əlaqədar müasir konsepsiyalar, hüququn hökmranlığı və qanunun aliliyi, vətəndaş cəmiyyəti və hüquqi dövlət haqqında müasir əsasnamələrin bünövrəsini təşkil edir. Bu təbii hüquq kimi yanaşma (müasir modifikasiyada) Azərbaycan Respublikasının Konstitusiyasında da öz əksini tapır, belə ki, məhz insan, onun hüquq və azadlıqları ən ali dəyər hesab olunur.

Ümumdünya İnsan Hüquqları Bəyannaməsi özündə ümum-

bəşəri dəyərləri əks etdirərək, bütün dövlətlərin və xalqların insan hüquqlarını tanımaq, hüquq və azadlıqlarını təmin etmək, hər bir fərdə münasibətdə hər hansı bir fərqli əlaməti nəzərə almadan, ayrı-seçkiliyə yol vermədən, hüquq bərabərliyini bütün səviyyələrdə əsas tutaraq, ölkədaxili münasibətlərdə, bəşəriyyətdə ədalət prinsipinin bərqərar edilməsinə nail olmağı, vahid hüquq məkanı yaratmaq zəruriliyini bəyan etdi.

Bəyannamə öz hüquqi qüvvəsinə görə, icrası mütləq sənəd olmasa da, onun bəyan etdiyi prinsiplər qlobal miqyasda tanındı və qısa müddətdə bir çox ölkələrin Konstitusiyasında, qanunvericilik aktlarında, habelə beynəlxalq konvensiyalarda və başqa rəsmi normativ-hüquqi sənədlərdə özünə yer tapdı. Bununla da hüquq bərabərliyi və ayrı-seçkiliyə yol verməmək prinsipi imperativ xarakter daşımağa başladı. Bu prinsiplərin tətbiqi, implementasiyası dövlət hakimiyyətini məhdudlaşdırır, qanunlara və qoşulduğu konvensiyalara bir növ tabe edir, məmur özbaşınalıqlarının qarşısını alır. Belə ki, hər bir suveren hüquqi dövlət beynəlxalq sazişləri ratifikasiya etdiyi təqdirdə, bilavasitə öz üzərinə beynəlxalq öhdəliklər götürmüş olur və həmin beynəlxalq hüquqi normalar milli qanunvericilik aktları üzərində üstünlüyə malikdir. Bu, habelə Azərbaycan Respublikası Konstitusiyasının “Beynəlxalq aktların hüquqi qüvvəsi” adlı 151-ci maddəsində öz əksini tapmışdır. Həmin maddəyə görə, Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ-hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

İnsan hüquqları BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktda, İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasında və digər aktlarda aşağıdakı kimi təsbit olunub:

- insan hüquqları insana anadangəlmə məxsusdur, buna görə də bu hüquqlar təbii, alınmaz və ayrılmazdır;
- insan hüquqları bərabərlik prinsipinə əsaslanır, universal xarakter daşıyır;

- dövlətin yurisdiksiyasında olan hər bir vətəndaşa bu hüquqlara zəmanət verilir;
- insan hüquqları ali dəyərdir, bunlara hörmət, riayət etmək və bu hüquqları müdafiə etmək hər bir dövlətin vəzifəsidir;
- hər hansı bir əlamətə görə insana münasibətdə ayrı-seçkilik yolverilməzdir;
- insan hüquq və azadlıqlarının həyata keçməsi digər şəxslərin hüquq və azadlıqlarını pozmamalıdır;
- əsas hüquq və azadlıqlar dövlətlərin bütün ərazisində vahid formada həyata keçirilməlidir;
- mülki, siyasi, iqtisadi, sosial və mədəni hüquq və azadlıqlar eyni dərəcədə əhəmiyyətlidir; bu hüquqların vahid sistemində iyerarxiya mövcud deyildir;
- kollektiv hüquqlar fərdin hüquqlarından ayrılmazdır; onlar fərdin hüquqlarına zidd olmamalı, şəxsiyyətin hüquqi statusunu məhdudlaşdırmamalıdır; kollektiv hüquqlar bir və ya bir neçə qrupa aid edilə bilər;
- insan hüquqları Qanunla tənzimlənir;
- konstitusiya və mühüm beynəlxalq-hüquqi aktlarda göstərilən hallarda: konstitusiya quruluşunun əsaslarına, əhalinin mənəviyyat və sağlamlığına, dövlət və ictimai asayişə, digər şəxslərin hüquqi və qanuni mənafeyinə təhlükə yaranarsa, insan hüquq və azadlıqları Qanunla məhdudlaşdırıla bilər. Müharibə, hərbi vəziyyət və fövqəladə vəziyyət, habelə səfərbərlik elan edilərkən insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsi qismən və müvəqqəti məhdudlaşdırıla bilər.

İnsan hüquqları cəmiyyətin möhkəmlənməsinə, siyasi qarşıdurmanın aradan qaldırılmasına yönəlmişdir, çünki öz təbiətinə görə onlar konsensualdır və "mənim azadlığım başqalarının azadlığına zərər yetirməməlidir" prinsipinə əsaslanır. Rifah və inkişaf kateqoriyasına əsaslanan bu xüsusiyyət insan hüquqlarının dəyərini daha da artıraraq, cəmiyyətin mənəvi təkmilləşməsinə, həmrəyliyin formalaşmasına əsaslanır və cəmiyyətin inkişafına, islahatların həyata keçirilməsinə zəmin yaradır.

İnsan hüquqları dövlət hakimiyyətinin hüdudlarını müəyyən edir və eyni zamanda dövlətlərdən insanlar tərəfindən insan hüquqlarının həyata keçirilməsi üçün müvafiq mühiti təmin edən müsbət tədbirlər görməyi tələb edir.

İnsan hüquqları həyatımızın bütün aspektlərini əhatə edərsə, qadınlar və kişilər öz həyatlarını azadlıq, bərabərlik və insan ləyaqətinə hörmət mühitində qurar və müvafiq imkanlar əldə edə bilərlər. İnsan hüquqları mülki və siyasi, sosial, iqtisadi və mədəni hüquqlar, həmçinin bərabərlik, inkişaf, sülh və sağlam ətraf mühit şəraitində yaşamaq hüququndan ibarətdir.

## 4. İnsan hüquqlarının xüsusiyyətləri

İnsan hüquqlarının təbiəti haqqında danışarkən, ilk növbədə, bəzi xarakterik xüsusiyyətləri qeyd etmək lazımdır. Bu xüsusiyyətlər, əsasən aşağıdakılardan ibarətdir:

- insan hüquqları fərd anadan olandan ona məxsusdur və ona görə də təbii, ayrılmaz və toxunulmaz hüquqlardır;
- insan hüquqları universaldır və bərabərlik prinsipinə əsaslanır; dövlətin yurisdiksiyası altında olan hər bir şəxs üçün həmin hüquqlara təminat verilir;
- insan hüquqları ali dəyərdir, onlara hörmət olunması, riayət edilməsi və müdafiəsi dövlətin vəzifəsidir;
- insan hüquqları hakimiyyət üzərində nəzarət vasitəsidir. Bu hüquqlar dövlətin tam hakimiyyətliliyini məhdudlaşdırır. Dövlət insan hüquqları ilə müəyyən edilmiş azadlıqların sərhədini keçməməlidir;
- hüquq və azadlıqların həyata keçirilməsi başqalarının hüquq və azadlıqlarını pozmamalıdır;
- hüquq və azadlıqların təmini hər hansı əlamətə görə ayrı-seçkiliklə bir araya sığmır;
- əsas hüquq və azadlıqlar dövlətin bütün ərazisində vahid olmalıdır;
- mülki, siyasi, iqtisadi, sosial və mədəni hüquq və azadlıqlar bərabərdir; bu hüquqların vahid sistemində heç bir iyerarxiya yoxdur;
- kollektiv hüquqlar fərdi hüquqlardan ayrılmazdır; onlar fərdi hüquqlara zidd olmamalı, şəxsiyyətin hüquqi statusunu məhdudlaşdırmamalıdır;
- insan hüquqları qanunla tənzimlənməlidir;
- insan hüquq və azadlıqları qanunla, konstitusiya və beynəlxalq hüquqi aktlarda nəzərdə tutulmuş hallar əsasında məhdudlaşdırıla bilər. Hüquq və azadlıqların müvəqqəti məhdud-

laşdırılması bu cür məhdudiyyətin zəruriliyini müəyyən edən vəziyyətə müvafıq və proporsional olmalıdır.

İnsan hüquqları universal xarakterlidir. Beynəlxalq ümumi hüquqi aktlar və demokratik dövlətlərin, o cümlədən müstəqil Azərbaycan Respublikasının Konstitusiyası bütün insan hüquq və azadlıqlarının bərabərliyinə, onları fərqləndirən hər hansı bir əlamətdən asılı olmadan — irqindən, etnik mənsubiyyətindən, cinsindən, dilindən, mənşəyindən, əmlakından, yaşayış yerindən, dini, siyasi mənsubiyyətindən və digər səbəblərə baxmayaraq təminat verir.

İnsan hüquqlarının ümumi xarakteri isə bunların dövlətdaxili deyil, həm regional, həm də qlobal miqyasda tanınmasıdır ki, bu da bir çox beynəlxalq sənədlərdə öz təsdiqini tapır (BMT-nin Baş Assambleyası, Avropa Şurası, ATƏT, BMT-nin Qlobal Konfranslarında qəbul edilmiş fəaliyyət proqramları və yekun sənədlərində və s.). İnsan hüquqları ayrılmazdır və təbii xarakter daşıyır. Heç kəs yaşamaq, şəxsi toxunulmazlıq, vicdan, fikir, əqidə və digər hüquq və azadlıqlardan heç bir fərdi məhrum edə bilməz.

Hər bir hüquqi dövlətin davamlı inkişafı, beynəlxalq aləmdə nüfuzu məhz insan hüquqlarının vəziyyəti və həyata keçirilməsi ilə sıx əlaqəlidir. Odur ki, müasir dünyada insan hüquqları ümumbəşər mədəniyyətin ayrılmaz tərkib hissəsidir. İnsan hüquqları konsensual xarakter daşıyır, yəni heç kəsin azadlığı başqalarının azadlığına zərər yetirməməlidir, bu da onların yüksək əxlaqi keyfiyyətlərinin cəmiyyətin təkmilləşməsinə, həmrəyliyinə xidmət etdiyini göstərir.

## 5. İnsan hüquqlarının milli və beynəlxalq təminolunma mexanizmləri

İnsan hüquqlarının təmin olunması tələbi insanlarla dövlətin qarşılıqlı münasibətlərinin təbiətindən irəli gəlir, siyasi, hüquqi, sosial tərəqqiyə xidmət edir.

Hər bir dövlət tərəfindən mütləq müdafiə olunmalı hüquqlara insanların sosial fəaliyyəti, ictimai münasibətləri, həyat şəraiti ilə sıx bağlı olan, ən əvvəl yaşamaq hüququ, ləyaqət, şəxsiyyətin toxunulmazlığı, vicdan, fikir, əqidə azadlığı, siyasi və ictimai həyatda iştirak etmək hüququ, işgəncələrə məruz

qalmamaq və s. hüquqlar daxildir. İnsan hüquqlarının (azadlıqlarının) təminatı dedikdə, onların dövlət tərəfindən müdafiəsi başa düşülür. Dövlət hüquqları (azadlıqları) qorumaq üçün müəyyən tədbirlər nəzərdə tutur və müəyyənləşdirir.

İnsan hüquqlarının dövlətdaxili müdafiə mexanizmləri vardır ki, bu da öz növbəsində insan hüquqlarının səviyyəsini artıran, onun dəyərini yüksəldən mühüm qanunauyğunluqdur:

1) Ədalət mühakiməsi ilə təmin olunan məhkəmə müdafiəsi;

2) İnsanın və vətəndaşın hüquq və azadlıqlarının məhkəmədənkənar müdafiəsi;

a) Azərbaycan Respublikası Prezidenti

b) İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman)

c) Azərbaycan Respublikasının hökuməti, qanunvericilik və icra hakimiyyəti orqanları

Demokratik dövlətlərdə insan və vətəndaş hüquq və azadlıqlarının başlıca təminatçısı məhkəmədir. Çünki məhkəmə heç bir başqa dövlət orqanından asılı olmayan və yalnız qanuna tabe olan hakimiyyətin müstəqil qoludur. Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər (Konstitusiyanın 125-ci maddəsinin 1-ci hissəsi). Hamı qanun və məhkəmə qarşısında bərabərdir (Konstitusiyanın 25-ci maddəsinin 1-ci hissəsi).

Konstitusiyanın 60-cı maddəsi isə hüquq və azadlıqların inzibati və məhkəmə təminatına həsr edilmişdir. Hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir. Hər kəsin hüququ var ki, onun işinə qərəzsiz yanaşılsın və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılsın. Hər kəsin inzibati icraat və məhkəmə prosesində dinlənilmək hüququ vardır. Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, hüquqi şəxslərin, bələdiyyələrin və vəzifəli şəxslərin hərəkətlərindən və hərəkətsizliyindən inzibati qaydada və məhkəməyə şikayət edə bilər. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə əlaqədar mübahisələri məhkəmələr həll edir (Konstitusiyanın 71-ci maddəsinin 7-ci hissəsi).

Hüquq və azadlıqların təsbiti, təmini və müdafiəsi konstitusiyanın əsasıdır. Təsadüfi deyildir ki, konstitusiya kimi mühüm

siyasi-hüquqi sənədin hazırlanmasında başlıca məqsəd insanın hüquq və azadlıqlarının bütün özbaşınalıqlardan və qəsdlərdən müdafiəsini təmin etmək olmuşdur. Yalnız sərbəst və azad insan cəmiyyət üçün zəruri olan maddi və mənəvi nemətlərin yaradıcısı kimi çıxış edə bilər.

Müxtəlif sahələrdə boşluqların aradan qaldırılması üçün fərman və sərəncamlar imzalayan, qanunvericilik təşəbbüsü hüququna malik olan, Parlamentə qanun layihələri təqdim edən, qanunlar imzalayan, siyasi sığınacaq verən və s. tədbirləri həyata keçirən Azərbaycan Respublikasının Prezidentidir. Prezidentin Konstitusiya ilə nəzərdə tutulmuş bu və ya digər səlahiyyətləri müəyyən dərəcədə onun insan və vətəndaş hüquq və azadlıqlarını təmin etmək funksiyalarının icrası ilə əlaqədardır. Azərbaycan Respublikasının Prezidenti məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır.

İnsan hüquqları mənəvi-siyasi imperativdir. Bu hüquqlar uğrunda aparılan mübarizə gedişində o, hüquqi forma almış və ictimai inkişafın sonrakı mərhələsində konstitusiya hüququnun ən mühüm institutlarından birinə çevrilmişdir. Müasir dövrdə isə insan hüquq və azadlıqları, onların müdafiəsi və təminatı beynəlxalq hüququn da müstəqil institutuna çevrilmişdir. Deməli, insan hüquq və azadlıqları, bu hüquqların müxtəlif vasitələrlə təmini və müdafiəsi ümümbəşəri bir problem kimi formalaşmışdır.

İnsan hüquq və azadlıqlarının konstitusiya təminatı institutları içərisində, hazırda dünya birliyi ölkələrində geniş tətbiqini tapmış Ombudsman mühüm yer tutur. Ombudsman insan hüquqlarının müdafiəsi üzrə səlahiyyətləndirilmiş, müvəkkil edilmiş şəxsdir (fiziki şəxs). Bu şəxs bəzi ölkələrdə komissar, elçi, xalq müdafiəçisi, İnsan Hüquqları üzrə Müvəkkil və sair adlandırılır. Məsələn, Skandinaviya ölkələrində, o, Ombudsman, İspaniyada - xalq müdafiəçisi (o cümlədən Kolumbiyada), Fransa Respublikasında - elçi, Rumıniya Respublikasında - xalqın vəkili, Azərbaycan Respublikasında isə İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) adlandırılır.

Son dövrlər Azərbaycanda vətəndaşların hüquq və azadlıqlarının təmini sahəsində bir çox beynəlxalq prinsiplər qanuni qüvvəsini almış, dövlət tərəfindən insan hüquqlarının qorun-

ması, hüquq və azadlıqlarının təmin olunması sahəsində ardıcıl tədbirlər həyata keçirilmişdir.

Avropa Şurasına üzv qəbul olunduqdan sonra Azərbaycan "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasına" qoşuldu. Bu zaman o, öz üzərinə milli qanunvericiliyin beynəlxalq Avropa standartlarına uyğun təkmilləşdirilməsi öhdəliyini götürdü.

Bu istiqamətdə atılan addımlardan ən mühümü ölkəmizdə Ombudsman təsisatının yaradılması idi. 2001-ci il dekabrın 28-də Milli Məclis tərəfindən "Azərbaycan Respublikasının İnsan hüquqları uzrə Müvəkkil (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu qəbul olundu.

Ombudsman təsisatının yaradılması günün zəruri tələbatı idi. Belə ki, ombudsman insan hüquqlarının müdafiəsinin vasitələrindən istifadə edilməsi üçün ən təkmil hüquq-müdafiə strukturlarından biri sayılır. Bu institutun mövcudluğu ölkəmizin vahid dünya hüquq məkanına inteqrasiyası prosesində katalizator rolunu oynayır.

Məhkəmə və prokurorluq orqanlarından fərqli olaraq, Ombudsmanın insan hüquqlarının müdafiəsi istiqamətində apardığı təhqiqatı qanunçuluqla yanaşı, həm də səmərəlilik, məqsədəuyğunluq, vicdanlılıq və ədalətlilik nöqteyi-nəzərindən həyata keçirilir.

Hər bir dövlətin imicini onun insan hüquqlarına münasibəti, həmin dövlətdə insan hüquqlarının vəziyyəti müəyyən edir. Demokratiya və insan hüquqları bir-birilə qırılmaz sürətdə bağlıdır və biri digərini şərtləndirir. Yalnız cəmiyyətdə mövcud olan demokratik iqlim insan hüquqlarının qorunmasına real təminat verir. Digər tərəfdən isə əsas insan hüquq və azadlıqlarının qanunvericilikdə və real həyatda təmin edilməsi cəmiyyətdə demokratiyanın təşəkkülü və geniş inkişafı üçün həlledici amil rolunu oynayır.

Hüquqi, demokratik və vətəndaş cəmiyyətli dövlət quruculuğunda inamlı və qətiyyətli addımlarını atan müstəqil Azərbaycan Respublikası 18 oktyabr 1991-ci ildə qəbul etdiyi Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktından irəli gələn müddəalar 1995-ci ildə qəbul olunmuş ilk milli Konstitusiyamızın da başlıca qayəsini təşkil etdi.

Konstitusiyada insanların əsas hüquq və azadlıqlarının müdafiəsi əhəmiyyətli yer tutur. Ali hüquqi qüvvəyə malik olan bu sənəddə vətəndaşların digər hüquqları ilə yanaşı, onların mülki hüquqlarının, xüsusilə mülkiyyət hüququnun qorunmasına yüksək səviyyədə təminat verilir.

İnsan hüquqlarının təmin edilməsi ölkəmizdə gedən böyük demokratik proseslərin tərkib hissəsi kimi, daim dövlətin diqqət mərkəzində olan məsələlərdən biridir. Bu hüquqlar gündəlik həyatımızda öz real təminatını almaqla yanaşı, həm də normativ-hüquqi sənədlərdə öz əksini tapır.

Azərbaycanda insan hüquqları sahəsində uğurların səbəbləri həm də onların üç strateji sənəd üzrə həyata keçirilməsidir:

1) İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı (18 iyun 1998-ci ildə Prezident Heydər Əliyev tərəfindən təsdiq olunub);

2) Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planı (28 dekabr 2006-cı ildə Prezident İlham Əliyev tərəfindən təsdiq olunub);

3) Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı (27 dekabr 2011-ci ildə Prezident İlham Əliyev tərəfindən təsdiq olunub)

Ölkəmizdə insan hüquqları sahəsində beynəlxalq müqavilələrə qoşulma prosesi davam etdirilir, yeni qanunvericilik aktları qəbul edilir, insan hüquqları sahəsində beynəlxalq təşkilatlarla, o cümlədən BMT-nin insan hüquqları sahəsində ixtisaslaşan qurumları, Qaçqınlar üzrə Ali Komissarlıq, UNESCO, UNICEF, habelə Dünya Bankı, Avropa Şurası, Avropa İttifaqı və digər regional təşkilatlarla birgə əməkdaşlıq proqramları həyata keçirilir, həmçinin korrupsiya ilə mübarizə gücləndirilir, əhaliyə göstərilən elektron xidmətlərin inkişaf etdirilməsi sahəsində vətəndaş cəmiyyəti ilə əməkdaşlıq genişləndirilir.

Məlum olduğu kimi, Azərbaycan Respublikası Konstitusiyasının 164 maddəsindən 48-i əsas insan və vətəndaş hüquq və azadlıqlarına və onların təminatına həsr edilmişdir.

Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir. İstisnasız olaraq hakimiyyətin bütün qollarına şamil edilən bu öhdəlik insan və vətəndaş hüquq və azadlıq-

larına hörmət etmək, onları müdafiə etmək və dəstəkləmək, eləcə də həyata keçirmək vəzifələrini ehtiva edir.

Eyni zamanda, Azərbaycan Respublikasının Milli Məclisi aşağıdakı məsələlər üzrə ümumi qaydaları müəyyən edir:

- Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarından və azadlıqlarından istifadə, bu hüquqların və azadlıqların dövlət təminatı;
- Fiziki və hüquqi şəxslərin statusu və s.

İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsinin beynəlxalq mexanizmləri də mühüm əhəmiyyətə malikdir:

1) BMT-nin Saziş Qurumları
2) Avropa İnsan Hüquqları Məhkəməsi
3) ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu

BMT-nin Saziş və ya Müqavilə qurumları Dövlətləri beynəlxalq insan hüquqları müqavilələri qarşısında üzərlərinə götürdükləri beynəlxalq öhdəlikləri yerinə yetirmək və icrasına nəzarət etmək və həvəsləndirmək məqsədilə yaradılmışdır. Müqavilə qurumları müstəqil ekspertlərdən ibarət olan beynəlxalq komitələrdir ki, bunlar tərəfdar dövlətlərin insan hüquqları müqavilələrinin hər birinin və onlara əlavə protokolların icrasına nəzarət edirlər. Hər bir beynəlxalq müqavilə üzrə nəzarət onun komitəsi tərəfindən aparılır.

Hazırda 9 saziş qurumu/komitələr insan hüquqları üzrə 9 beynəlxalq konvensiyanın icrasına nəzarəti həyata keçirir.

Avropa İnsan Hüquqları Məhkəməsi Fransanın Strasburq şəhərində yerləşən beynəlxalq məhkəmədir. O, Avropa Şurasına üzv olan, İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi Haqqında Konvensiyanı ratifikasiya etmiş dövlətlərin sayı qədər hakimlərdən ibarətdir. Avropa İnsan Hüquqları Məhkəməsi Avropa Konvensiyasını tətbiq edir. Məhkəmənin vəzifəsi Avropa Şurasına üzv olan dövlətlərin Konvensiyada əks olunan hüquqlara və onlarla bağlı zəmanətlərə hörmətlə yanaşmasını təmin etməkdir. Bu iş fərdi şəxslər, bəzən isə dövlətlər tərəfindən təqdim edilən şikayətlərə (onlara "şikayət ərizəsi" də deyilir) baxılması yolu ilə həyata keçirilir. Əgər Avropa Şurasına üzv olan dövlət tərəfindən qeyd olunan hüquqlar və onlarla bağlı zəmanətlərdən birinin və yaxud bir neçəsinin pozulması

müəyyən edilərsə, Məhkəmə bu haqda qətnamə çıxarır. Qətnamələrin icrası məcburidir: Konvensiyanı pozan müvafiq dövlətlər onlara əməl etməlidirlər.

İnsan hüquqlarının təşviqi və müdafiəsi sahəsində Azərbaycanın əməkdaşlıq etdiyi təşkilatlardan biri də Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatıdır (ATƏT). Azərbaycanla ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu (DTİHB) arasında sıx əməkdaşlıq münasibətləri əldə olunmuşdur. 1998-ci ildən başlayaraq DTİHB Azərbaycan Respublikasının hökuməti ilə fəal əməkdaşlıq etmiş və birgə əməkdaşlıq nəticəsində demokratikləşmə, qanunun aliliyi, qanunvericiliyin, xüsusilə də seçki qanunvericiliyinin təkmilləşdirilməsi, miqrasiya, gender bərabərliyi və digər sahələrdə bir çox layihələr həyata keçirilmişdir. DTİHB Azərbaycanda keçirilmiş prezident, parlament və bələdiyyə seçkilərində fəal iştirak etmiş, 1999-ci ilin noyabrın 25-də imzalanmış Qarşılıqlı Anlaşma Memorandumu ATƏT və Azərbaycan arasında əməkdaşlığa yeni təkan vermişdir. Memorandumun Əlavəsində ölkədə insan hüquqları sahəsində demokratik islahatların həyata keçirilməsi istiqamətində sıx əməkdaşlıq nəzərdə tutulmuşdur.

18 iyul 2000-ci ildə ATƏT-in Bakıdakı ofisinin rəsmi açılışı baş tutmuşdur. ATƏT-lə Azərbaycan arasında səmərəli əməkdaşlığın inkişafı ölkəmiz üçün böyük əhəmiyyət kəsb etdiyindən, xüsusi olaraq Azərbaycanda ATƏT-in Dostları Qrupu yaradılmışdır. ATƏT-in Parlament Assambleyasında təmsil edilən və Azərbaycandan olan deputatlar hər il PA-nın iclaslarında iştirak edirlər.

2014-cü il 24 sentyabr tarixində Azərbaycan Respublikası Hökuməti ilə ATƏT arasında "ATƏT-in Bakıdakı Layihə Əlaqələndiricisi haqqında" Anlaşma Memorandumu imzalanmış və bu sənəd 20 noyabr 2014-cü il tarixli Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmişdir.

İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiya xüsusilə aşağıdakı hüquqları müdafiə edir:

- Yaşamaq hüququ;
- Ədalətli məhkəmə araşdırması hüququ;
- Fikir ifadə etmək azadlığı;
- Vicdan və din azadlığı;

- Səmərəli hüquqi müdafiə vasitələri hüququ;
- Nikah hüququ;
- Azad seçki hüququ və s.

Konvensiya xüsusilə aşağıdakıları qadağan edir:

- İşgəncə və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanı;
- Əsassız və qanunsuz həbsi;
- Konvensiyada təsbit olunmuş hüquq və azadlıqların istifadəsində ayrı-seçkiliyi;
- Dövlətin öz vətəndaşlarını ərazisindən çıxarmasını və ya onlara həmin dövlətin ərazisinə daxil olmağa qadağa qoymasını;
- Ölüm cəzasının tətbiq edilməsini;
- Əcnəbi vətəndaşların ölkədən kollektiv şəkildə çıxarılmasını.

Bütün bu deyilənlərdən belə bir nəticə hasil olur ki, insan hüquqları dekorativ xarakter daşımamalıdır, çünki vətəndaş cəmiyyətinin yetkinlik və inkişaf dərəcəsi insan hüquqları ilə əlaqədar olan işlərin vəziyyətindən, bu hüquqların həcmindən və onların həyata keçməsindən mühüm dərəcədə asılıdır. İnsan hüquqları nəinki dövlətin idarə olunmasında iştirak etmək, hətta əqidə seçimi, mülkiyyət, dinə münasibət, şəxsi həyat sferasında öz müqəddəratını həll etmək imkanı verir. İnsanla dövlətin xüsusi olaraq, siyasi-hüquqi əlaqəsi mövcuddur. İnsan və vətəndaşın hüquqi statusu nəinki milli, hətta beynəlxalq qanunvericilik normalarının inkişafı nəticəsində genişlənir.

## 6. İnsan hüquqlarının BMT sistemində müdafiəsi

26 iyun 1945-ci il tarixdə dövlətlər tərəfindən əsas insan hüquqları və azadlıqlarına hörmət prinsipini ifadə edən sənəd — Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi qəbul olunmuşdur. 24 oktyabr 1945-ci ildə qüvvəyə minmiş bu sənəd mahiyyətinə görə insan şəxsiyyətinin hüquqları və azadlıqları sahəsində suveren dövlətlər və xalqların bundan sonrakı əməkdaşlığı üçün əsas siyasi, hüquqi və ideoloji bünövrə olmuşdur. Beləliklə, qeyd olunduğu kimi, "insan hüquqları" anlayışı 1945-ci ildən, BMT Nizamnaməsinin qəbul olunduğu vaxtdan üzv dövlətlər tərəfindən tanınmışdır.

BMT Nizamnaməsi fundamental beynəlxalq müqavilə olaraq, müasir beynəlxalq hüquqda insan hüquqlarına hörmət və

onlara riayət olunması prinsipini təsbit etmiş və üzv dövlətlərin üzərinə müvafiq hüquqi vəzifələr qoymuşdur. BMT Nizamnaməsinin qəbul edilməsi insan hüquqları sahəsində beynəlxalq münasibətlərin keyfiyyətcə yeni mərhələsinin başlanğıcı olmuş və beynəlxalq münasibətlər tarixində dövlətlərin insan hüquqları üzrə əməkdaşlığının inkişafını şərtləndirən çoxtərəfli müqavilə olmuşdur.

Qeyd olunmalıdır ki, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (ÜİHB) 1948-ci ildə qəbul edilmiş, BMT-nin Nizamnaməsindən irəli gələn "insan hüquqları" ideyasını ilk dəfə olaraq dəqiqləşdirmiş və sistemləşdirmişdir.

Əvvəldə göstərildiyi kimi, ÜİHB, Mülki və Siyasi Hüquqlara dair Beynəlxalq Pakt, habelə İqtisadi, Sosial və Mədəni Hüquqlara dair Beynəlxalq Pakt biri-birindən fərqlənən və eyni zamanda biri-birini tamamlayan mülki, siyasi, iqtisadi, sosial və mədəni hüquqları özündə birləşdirmişdir. ÜİHB və bu iki Pakt birlikdə beynəlxalq insan hüquqları müdafiəsinin minimum standartlarını formalaşdıran Beynəlxalq Bill kimi tanınmışdır. Daha sonra isə ayrı-ayrı spesifik tematik sahələr (məsələn, irqi ayrı-seçkilik) üzrə və ya həssas qrupların (qadınlar, uşaqlar, miqrantlar və ya əlilliyi olan insanlar) hüquqlarının müdafiəsi üzrə digər beynəlxalq insan hüquqları konvensiyaları Beynəlxalq Bill-də təsbit olunmuş xüsusi hüquqları genişləndirmiş və mahiyyəti üzrə tamamlamışdır.

BMT-nin aşağıdakı ixtisaslaşmış qurumları, proqramları və fondları mövcuddur:

1. Beynəlxalq Əmək Təşkilatı (BƏT)
2. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO)
3. BMT-nin Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə Təşkilatı (UNESCO)
4. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST)
5. Ümumdünya Poçt İttifaqı (ÜPİ)
6. Beynəlxalq Telekommunikasiya İttifaqı (BTİ)
7. Beynəlxalq Mülki Aviasiya Təşkilatı (ICAO)
8. Ümumdünya Meteorologiya Təşkilatı (ÜMT)
9. Beynəlxalq Dənizçilik Təşkilatı (BDT)
10. Beynəlxalq İntellektual Mülkiyyət Təşkilatı (WIPO)
11. Beynəlxalq Kənd Təsərrüfatının İnkişafı Fondu (IFAD)

12. Sənaye inkişafı üzrə Birləşmiş Millətlər Təşkilatı (YUNİDO)

13. Beynəlxalq Valyuta Fondu

14. Dünya Bankı (o cümlədən Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (BYİB), Beynəlxalq İnkişaf Assosiasiyası (BİA), Beynəlxalq Maliyyə Korporasiyası (BMK), Çoxtərəfli İnvestisiyalar üzrə Zəmanət Agentliyi (MİGA)

15. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı

16. BMT-nin İnkişaf Proqramı (UNDP)

17. Ümumdünya Ərzaq Proqramı (WFP)

18. BMT-nin Ətraf Mühit üzrə Proqramı (UNEP)

19. BMT-nin Məskunlaşma Proqramı (UN HABİTAT)

20. BMT-nin İİV/QİÇS üzrə Proqramı (UNAİDS)

21. BMT-nin Uşaq Fondu (UNICEF)

22. BMT-nin Əhali Fondu (UNFPA)

23. BMT- Qadınlar (UNWomen)

24. BMT-nin Dünya Turizm Təşkilatı (UNWTO)

25. BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC)

26. BMT-nin Atom Enerjisi üzrə Beynəlxalq Agentliyi (MAQATE)

27. BMT-nin Ümumdünya Ticarət Təşkilatı (WTO)

28. Kimyəvi silahların qadağan edilməsi üzrə Təşkilat (KSQET)

29. BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı ( BMT-nin daimi hökumətlərarası orqanı)

30. Fələstinli qaçqınlara kömək və işlərinin təşkili üçün BMT-nin Yaxın Şərq Agentliyi

İnsan hüquqlarının beynəlxalq müdafiəsi sahəsində BMT-nin müqavilə qurumlarının əhəmiyyətli rolu vardır. Universal səviyyədə insan hüquqlarına dair beynəlxalq normaların implementasiyası üzərində beynəlxalq nəzarəti BMT-nin konvension orqanları (saziş qurumları) yerinə yetirir. Hazırda bu qurumların sayı doqquzdur:

1. İrqi ayrı-seçkiliyin ləğvi üzrə komitə
2. İnsan hüquqları komitəsi
3. Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması üzrə komitə

4. İqtisadi, sosial və mədəni hüquqlar üzrə komitə
5. İşgəncə əleyhinə komitə
6. Uşaq hüquqları komitəsi
7. Bütün əməkçi-miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi üzrə komitə
8. Əlillərin hüquqları üzrə komitə
9. Zorakılıqla yoxaçıxarmaya qarşı komitə

Bu qurumların hər biri müvafiq beynəlxalq müqavilə əsasında təsis edilib, yalnız İqtisadi, sosial və mədəni hüquqlar üzrə komitə eyniadlı Pakt əsasında deyil, İqtisadi və Sosial Şuranın (ECOSOC) qətnaməsi əsasında yaradılmışdır.

Dövri məruzələrə baxarkən komitələr əsasən aşağıdakı məqamlara diqqət yetirirlər:

- müvafiq beynəlxalq aktda təsbit olunmuş hüquq və azadlıqların pozulduğu halda, onların bərpası üçün səmərəli dövlətdaxili hüquq müdafiə mexanizmlərinin (məhkəmə, inzibati və digər) mövcudluğu;
- beynəlxalq səviyyədə tanınmış insan hüquqlarının milli hüquqda, ilk növbədə, əsas qanunda və digər qanunvericilik aktlarında təsbit olunması;
- insan hüquqlarına dair beynəlxalq aktların milli qanunvericiliyə münasibətdə hüquqi statusu, dövlətdaxili hüquqda normativ-hüquqi aktların iyerarxiyasında onların yeri;
- dövlətin iştirakçısı olduğu insan hüquqlarına dair beynəlxalq hüquqi aktların milli səviyyədə birbaşa tətbiqi imkanları;
- insan hüquqları sahəsində ınilli nəzarət mexanizmlərinin mövcudluğu və fəaliyyəti;
- dövlət tərəfindən müvafıq konvension normaların implementasiyası sahəsində həyata keçirilən fəaliyyət, əldə olunan uğurlar, mövcud çətinliklər və s.

Komitələr tərəfindən dövlətlərin dövri məruzələrinə baxılmasının aşağıdakı məqsədlərini qeyd etmək olar:

1) milli qanunvericiliyin təhlili, ayrı-ayrı qanunvericilik aktlarının beynəlxalq hüquq normalarına uyğunluğunun müəyyən edilməsi;
2) dövlətlər tərəfindən insan hüquqlarının təmininə diqqətin artırılması, daim bu məsələnin nəzarət altında saxlanılmasının təmin edilməsi;

3) dövlətlərə müvafiq beynəlxalq müqavilədən irəli gələn öhdəliklərin nə dərəcədə yerinə yetirilməsi ilə bağlı məlumat vermək imkanının yaradılması;

4) insan hüquqlarının təmini sahəsində ictimai nəzarətin gücləndirilməsinə və inkişafına nail olunması;

5) insan hüquqlarının təmini sahəsində dəqiq indikatorların müəyyən edilməsi;

6) dövlətlərə insan hüquqlarının implementasiyası, pozulmuş hüquq və azadlıqların bərpası sahəsində mövcud nöqsan və çatışmazlıqların aşkarlanmasında yardımçı olmaq;

7) qarşılıqlı informasiya mübadiləsi və mövcud nöqsanların birgə səylərlə aradan qaldırılmasına nail olunması.

BMT insan hüquqları sahəsində çoxsaylı sənədlər qəbul etmişdir. İnsan hüquqları və demokratikləşmə sahəsində hökumətlər üçün BMT-nin hazırladığı belə sənədlər bir yol xəritəsi mahiyyətindədir, keçid və transformasiyanı sürətləndirir və daha təsirli hala gətirir. BMT-nin müxtəlif peşə sahiblərinin, uşaqların, qadınların hüquqlarının müdafiəsi sahəsində diqqətlə və keyfiyyətlə hazırlanmış müxtəlif sənədləri vardır. İslahat aparmaq istəyən hökumətlər, BMT sənədlərini öz milli qanunvericiliyinə daxil edərək, əhəmiyyətli irəliləyişə nail ola bilərlər. Bu gün beynəlxalq insan hüquqları hüququ beynəlxalq hüququn ən intensiv inkişaf edən və dövlətdaxili hüquqla ən sıx "əməkdaşlıq edən" sahəsidir.

**Tələbələrin biliklərinin qiymətləndirilməsi üçün suallar:**

1. İnsan hüquqları anlayışı
2. İnsan hüquqlarının hansı növləri var?
3. İnsan hüquqlarının əsas xüsusiyyətləri hansılardır?
4. İnsan hüquqlarının hansı əsas prinsipləri var?
5. İnsan hüquqlarının milli təminolunma mexanizmləri hansılardır?
6. İnsan hüquqlarının beynəlxalq təminolunma mexanizmləri hansılardır?
7. İnsan hüquqları haqqında Beynəlxalq Bill hansı sənədlərdən ibarətdir?
8. Mütləq hüquqlar hansı beynəlxalq hüquqi aktda nəzərdə tutulmuşdur?

## Mühazirə 2. Müstəqil Azərbaycan Respublikasında İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) və onun qadın hüquqlarının təmin olunması sahəsində fəaliyyəti

1. *Ombudsman anlayışı və onun inkişaf tarixi*
2. *Azərbaycanda İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) təsisatının yaradılması və mandatı*
3. *Təsisatın Paris Prinsiplərinə uyğun fəaliyyəti, "A" statusu*
4. *İnsan hüquqları üzrə Milli Fəaliyyət Planı və proqramları*
5. *Müvəkkilin Qadın hüquqları və Gender bərabərliyinin təmin olunması üzrə fəaliyyəti və təşəbbüsləri*

### 1. Ombudsman anlayışı və onun inkişaf tarixi

Dünyada insan hüquqlarının məhkəmədənkənar müdafiə mexanimzləri sırasında ən geniş yayılmış Ombudsman təsisatıdır. Ombudsman təsisatı ilkin olaraq Qərbi Avropada, əsas etibarilə Skandinaviya ölkələrində uzun müddətli təkamül prosesi keçmişdir.

Dünyada klassik Ombudsman modeli kimi tanınan qurum 1809-cu ildə İsveçdə yaranmış və inkişaf edərək bir çox Avropa və dünya dövlətlərində yayılmışdır. Ombudsman İsveç mənşəli söz olub, "ombud" anlayışından götürülmüşdür. Sözün mənası qüvvəli, nüfuzlu, vasitəçi və ya digər şəxslərin nümayəndəsi olan şəxs anlamını verir.

XX əsrin ortalarında bu təsisat yalnız İsveç və Finlandiya kimi iki Avropa ölkəsinin dövlət mexanizminə daxil idisə, XXI əsrin əvvəllərində artıq sivil dünyanın 50-ə yaxın dövlətində Ombudsman institutu formalaşdırılmış və onlar insan hüquqlarının müdafiəsi sferasında öz töhfələrini verməkdədir. Bu, onu göstərir ki, insan hüquqlarının nə qədər təkmil müdafiə mexanizmləri mövcud olsa da, zaman keçdikcə cəmiyyətin inkişafı ilə ayaqlaşa bilən bu təsisata ehtiyac daha da artır.

Artıq demokratik Avropa dövlətlərində ombudsman institutunun müxtəlif modelləri (İsveç, Böyük Britaniya və Fransa) formalaşmış və ixtisaslaşmış müvəkkil institutları yaranmışdır.

XX əsrin birinci yarısından Ombudsman təsisatının təka-

mülü güclənərək o, hüquq mühafizə orqanından hüquq müdafiə orqanına çevrilib.

İsveç modeli inkişaf edərək, ilkin olaraq Skandinaviya ölkələrində təşəkkül tapmağa başladı. İsveçdən sonra 1919-cu ildə Finlandiyada yaradılan bu təsisat demək olar ki, İsveç modelindən fərqlənmirdi. 1952-ci ildə Norveçdə, 1953-cü ildə Danimarkada Ombudsman təsisatı yaradıldı. İsveç modelinin uğurlu olmasına baxmayaraq, bir çox ölkələr üçün Ombudsman institutu Danimarkada yaradıldıqdan sonra tanınmağa başladı. Məhz bu model dünya hüquq müdafiə mexanizmləri sırasında öz yerini tapdı.

Ombudsman institutunun bütün dünyada sürətlə inkişafına təkan verən amillərdən biri də II Dünya Müharibəsindən sonra insan hüquqlan sahəsində mühüm beynəlxalq sənədlərin qəbul edilməsi olmuşdur. Bu sənədlər sırasında 10 dekabr 1948-ci ildə qəbul edilmiş Ümumdünya İnsan Hüquqları Bəyannaməsi xüsusi yer tutur.

Bu təsisatın dövlətlərin demokratik inkişafında rolu və əhəmiyyəti həmin qurumun bütün dövlətlərdə sürətlə yayılmasına səbəb olmuşdur. Ombudsman ideyası artıq Skandinaviya ölkələrindən Avropa, Amerika, Asiya və Afrika ölkələrinə geniş yayılmağa başlamışdır. Ombudsman təsisatları 1967-ci ildə Kanadanın bir sıra əyalətlərində, 1979-cu ildə Avstraliyanın ərazisində, 1969-cu ildən başlayaraq Amerikanın ayrı-ayrı ştatlarında yaranmağa başlamışdır. 1967-ci ildə Böyük Britaniyada "Ombudsman institutu haqqında" qanun qəbul edilmişdir.

Ombudsman təsisatı həm dövlətə, həm də cəmiyyətə lazımdır. Belə ki, insan hüquqlarının həyata keçirilməsi üçün Ombudsman dövlət və cəmiyyət arasında vasitəçilik funksiyasını yerinə yetirir. Onun vasitəçilik missiyası Ombudsmana bir sıra ölkələrdə verilən adlardan da görünür: Vasitəçi (Fransa), Vətəndaş müdafiəçisi (İtaliya), Xalq müdafiəçisi (İspaniya) və sair. Ombudsman cəmiyyətin maraqlarını dövlətə çatdırır, dövlət orqanlarının diqqətindən yayınan, yaxud yol verdikləri nöqsan və çatışmazlıqları müəyyən edir və onların aradan qaldırılmasında kömək edir.

## 2. Azərbaycanda İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) yaradılması və mandatı

Azərbaycanda Ombudsman institutunu təhlil edərkən, ilk öncə, insan hüquqları sahəsində qanunvericilik aktlarının inkişaf tendensiyasına nəzər salmaq zəruridir.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə əlaqədar qəbul edilən İstiqlaliyyət Bəyannaməsində müstəqil Azərbaycan dövlətinin əsas fəaliyyət prinsipləri əks olunmuşdur. Burada hakimiyyətin xalqa məxsus olması, vətəndaşların mülki və siyasi hüquqlarının təmin edilməsi, bütün insanların milli, dini, sinfi və cinsi mənsubiyyətlərindən asılı olmayaraq, azad inkişafı və hüquqlarının təmin olunması, hakimiyyətin bölgüsü prinsipinin formalaşması və dövlətin məhz bu əsaslarla qurulması nəzərdə tutulmuşdu.

İnsan hüquqları ilə əlaqədar bir sıra normativ-hüquqi aktlar qəbul edilmişdir ki, bunların arasında seçki hüququnun təmin edilməsi, qadınların və kişilərin hüquqlarının bərabərləşdirilməsi xüsusən diqqətəlayiqdir. Lakin ilk müstəqil Azərbaycan dövlətinin ömrü 23 ay çəkdi. 28 aprel 1920-ci il işğalından sonra AXC-nin süqutu müstəqillik prinsiplərinin kənarda qalması ilə nəticələndi ki, artıq ölkəmiz Sovetlər dövlətinin tərkib hissəsi oldu, bu da insan hüquqlarına öz mənfi təsirini göstərdi.

Azərbaycanda insan hüquqlarının keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyması Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun Azərbaycana rəhbərlik etdiyi birinci dövrdə, 1969-1980-ci illərin sonunadək və sonra 1993-cü ildən - 2003-cü ilədək olan ikinci dövrdə ölkəmiz hərtərəfli, o cümlədən insan hüquqları sahəsində köklü, ardıcıl islahatlar məkanına çevrilmişdir. Artıq 21 aprel 1978-ci ildə qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyasının 2-ci bölməsi dövlət və şəxsiyyət münasibətlərinə həsr edilmiş və burada insan hüquqları təsbit olunmuşdur.

1969-cu ildən 1987-ci ilədək Heydər Əliyevin Azərbaycanda həyata keçirdiyi geniş sosial, iqtisadi, mədəni və hüquqi islahatlar bütün sahələrdə inkişafın özülünü qoydu.

18 oktyabr 1991-ci ildə isə Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul edilməsi və 1993-cü ildə Heydər Əliyevin ikinci dəfə xalqın təkidli

tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkəmizdə dövlət quruculuğunun yeni sürətli inkişaf mərhələsi başlamışdır. Bu dövrdən Azərbaycan Respublikasının insan hüquqları və azadlıqlarının təmini sahəsindəki fəaliyyəti üç mühüm istiqamətdə inkişaf etdi:

- beynəlxalq sazişlərə qoşulmaq və beynəlxalq təşkilatların fəaliyyətində fəal iştirak etmək;
- dövlətdaxili normativ-hüquqi aktlar qəbul etmək;
- qəbul edilmiş normativ-hüquqi aktları beynəlxalq hüquq normalarına uyğunlaşdırmaqla təkmilləşdirmək.

Artıq Azərbaycan insan hüquqları sahəsində 230-dan çox beynəlxalq müqavilənin iştirakçısı və çoxsaylı nüfuzlu beynəlxalq təşkilatın üzvüdür (BMT, AŞ, ATƏT, İKT və s).

12 noyabr 1995-ci ildə Heydər Əliyevin rəhbərlik etdiyi Komissiya tərəfindən hazırlanmış müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul olundu. Ümumilikdə müstəqillik dövründə insan hüquqlarına dair standartlara uyğunluğun tətbiq və təmin edilməsi dövlət səviyyəsində həyata keçirilmişdir. Bu məqsədə xidmət edən vasitələrdən biri də milli insan hüquqları təsisatlarının yaradılması olmuşdur. BMT-nin tövsiyəsi ilə belə təsisatlar insan hüquqlarının dəstəklənməsi və müdafiəsi məqsədilə hökumətlər tərəfindən təsis edilir.

Milli insan hüquqları təsisatları öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı imkan və səlahiyyətlərə malik olmalıdırlar:

- insan hüquqlarına dair hər hansı məsələ ilə əlaqədar hökumətə tövsiyələr, təkliflər və məruzələr təqdim etmək;
- qanunların və təcrübənin beynəlxalq standartlara uyğun olmasını dəstəkləmək;
- insan hüquqlarının pozulması barədə fərdi və qrup şikayətləri qəbul etmək və onları araşdırmaq;
- insan hüquqlarına dair beynəlxalq standartların təsdiq və tətbiq edilməsini təşviq etmək;
- insan hüquqları üzrə beynəlxalq sazişlərə əsasən hesabat prosedurlarına öz töhfəsini vermək;
- məlumatlandırma və maarifləndirmə vasitəsilə insan hüquqları bilikləri artırmaq və bu sahədə araşdırmalar aparmaq;

- BMT, regional təsisatlar, digər ölkələrin milli təsisatları və QHT-lə əməkdaşlıq etmək.

Azərbaycanda hüquqi dövlət quruculuğu istiqamətində aparılan hüquqi islahatların məntiqi davamı kimi, Ombudsman təsisatının təşəkkülü yeni səmərəli hüquq-müdafiə mexanizmlərinin yaradılması sahəsində atılan mühüm addımlardan biridir.

İnsan hüquqlarının təmin edilməsi ölkəmizdə gedən böyük demokratik proseslərin tərkib hissəsi kimi, daim dövlətin diqqət mərkəzində olan məsələlərdəndir. Bu hüquqlar gündəlik həyatımızda öz real təminatını almaqla yanaşı, həm də müvafiq normativ-hüquqi sənədlərdə öz əksini tapır. Azərbaycanın konkret inkişaf mərhələsinə uyğun olaraq, insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq məqsədi ilə Prezident Heydər Əliyev tərəfindən 22 fevral 1998-ci il tarixli "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər" haqqında Fərman, habelə 18 iyun 1998-ci il tarixli "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalanmışdır.

Bu ilk rəsmi sənəddir ki, burada Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) sözünə rast gəlinir. Belə ki, bu sənədlərdə insan hüquqlarının müdafiəsi sahəsində mühüm tədbirlərin həyata keçirilməsi, o cümlədən Azərbaycan Respublikasının İnsan hüquqları üzrə səlahiyyətli müvəkkili təsisatının yaradılması təsbit olunmuşdur.

28 dekabr 2001-ci il tarixdə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanunu qəbul edilmişdir. Müvəkkil təsisatının yaradılması və fəaliyyət göstərməsi üçün maddi və hüquqi baza yaradılmışdır.

5 mart 2002-ci ildə Azərbaycan Respublikasının Prezidenti "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tətbiq edilməsi haqqında Fərman imzalamışdır.

Həmin Fərmanda Azərbaycan Respublikasının Nazirlər Kabinetinə qüvvədə olan qanunvericilik aktlarının "Azərbaycan

Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğunlaşdırılması barədə təkliflərin Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi, Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının həmin Konstitusiya Qanununa uyğunlaşdırılmasının təmin edilməsi, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) qanuni fəaliyyətinin məhdudlaşdırılmasına və ya fəaliyyətinə müdaxilə edilməsinə görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktlarının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi, öz səlahiyyətləri daxilində "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunundan irəli gələn digər məsələlərin həll edilməsi tapşırığı verilmişdir.

Ombudsman təsisatının yaradılması ilə bağlı qanunvericilikdə öz əksini tapmış bu yeniliklərə əsasən, 2002-ci il avqustun 24-də keçirilən ümumxalq səsverməsi (referendum) nəticəsində ölkə Konstitusiyasına müvafiq əlavə və dəyişikliklər edildi.

Ombudsman haqqında Qanunun Konstitusiya statuslu olması dövlətin bu təsisatın fəaliyyətinə, ümumiyyətlə insan hüquqlarının müdafiəsi işinə verdiyi böyük əhəmiyyətin göstəricisidir. Konstitusiya qanunları qanunvericilik sisteminin əsasını təşkil edir və ali qanun olan Konstitusiyanın ayrılmaz hissəsidir.

Yeri gəlmişkən, Azərbaycanda dövlət hakimiyyətinin üç qolu – qanunvericilik hakimiyyəti, icra hakimiyyəti, məhkəmə hakimiyyəti təsbit olunmuş, Azərbaycan Respublikasının Konstitusiyasında bu hakimiyyətin heç birinin tərkib hissəsi olmayan, müstəqil dövlət orqanı olan Ombudsmanla bağlı normalar təsbit olunmuşdur.

Belə ki, Konstitusiyanın 95-ci maddəsinin I hissəsinin 6-cı bəndində "Azərbaycan Respublikasının Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin seçilməsi" Azərbaycan Respublikası Milli Məclisinin həll etdiyi məsələlər sırasında göstərilmişdir.

Konstitusiyanın 109-cu maddəsinin 14-cü bəndində göstərilir ki, ölkə Prezidenti, "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin seçilməsi" haqqında Azərbaycan Respublikasının Milli Məslisinə təqdimat verir. Həmçinin Konstitusiyanın 130-cu maddəsində göstərilir ki, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili insan hüquq və azadlıqlarını pozan qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ aktlarından, bələdiyyə və məhkəmə aktlarından qanunla müəyyən edilmiş qaydada bu maddənin III hissəsinin 1-7-ci bəndlərində göstərilən məsələlərin Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi tərəfindən həll edilməsi üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu verə bilər.

Azərbaycan Respublikasının ilk Ombudsmanı 2002-ci il iyulun 2-də Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Azərbaycan Respublikasının Prezidentinin təqdim etdiyi üç namizəd arasından 111 səslə (112 səsdən) seçilmişdir.

2 iyul 2002-ci il tarixdə "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.

Ombudsman haqqında Konstitusiya Qanununun 1.1-ci maddəsində deyilir ki, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili vəzifəsi (bundan sonra "müvəkkil" adlandırılacaq) Azərbaycan Respublikası Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş və Azərbaycan Respublikasının dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi və bu Konstitusiya Qanunu ilə müəyyən edilmiş hallarda insan hüquqları pozuntularının qarşısının alınması üçün təsis edilir. Bundan əlavə, Müvəkkilin səlahiyyət müddəti haqqında 4-cü maddədə deyilir: 4.1. Müvəkkil 7 il müddətinə seçilir. 4.2. Eyni şəxs Müvəkkil vəzifəsinə iki dəfədən artıq seçilə bilməz. 4.3. Müvəkkilin səlahiyyət müddəti bitdiyi gün yeni Müvəkkil seçilmədikdə, o, səlahiyyətlərinin icrasını davam etdirir. Bu halda

onun səlahiyyət müddəti yeni Müvəkkilin seçildiyi gündən bitmiş hesab olunur. Ombudsmanın seçilməsindən üç ay sonra, 2002-ci il oktyabrın 28-də artıq Ombudsman Aparatında ərizəçilərin qəbuluna və şikayətlərin araşdırılmasına başlanılmışdır.

Ombudsman təsisatının Azərbaycan üçün yeni olduğunu, İnsan Hüquqları üzrə Müvəkkil haqqında məlumatların cəmiyyətdə yayılmasına böyük ehtiyac duyulduğunu, bu təsisatın digər dövlət orqanları ilə əməkdaşlığının qurulması zərurətini nəzərə alaraq, 2002-ci ilin sentyabr-oktyabr aylarında BMT-nin İnkişaf Proqramının "Ombudsmanın yaradılmasına və Azərbaycan Respublikası parlamentinin potensial imkanlarının artırılmasına yardım" layihəsi çərçivəsində Avropa Şurasının İnsan hüquqları üzrə Ali Komissarı cənab Alvaro Hil-Roblesin iştirakı ilə "Azərbaycanda Ombudsman təsisatının yaradılması və demokratiyanın inkişafında rolu" mövzusunda, "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) tərəfindən şikayətlərə baxılması qaydası" mövzusunda, Avropa Şurasının, ATƏT-in, BMT-nin və digər beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə "Azadlıqdan məhrum edilmiş şəxslərin hüquqlarının qorunması sahəsində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin fəaliyyəti" mövzusunda, Kosovonın Ombudsmanı Marek Novitskinin və Avropa Şurası Katibliyinin İnsan hüquqları üzrə ikinci Direktorluğunun Baş direktoru K.Zimanın iştirakı ilə "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının Ombudsman təsisatı tərəfindən tətbiqi" mövzusunda silsilə seminarlar keçirilmişdir.

Bu seminarlar Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təşkil edilmiş və Milli Məclisin deputatları, ölkə Prezidenti İcra Aparatının (Prezident Administrasiyasının), Milli Məclis Aparatının, Konstitusiya Məhkəməsinin, Ali Məhkəmənin, Apellyasiya Məhkəməsinin, Baş Prokurorluğun, Daxili İşlər Nazirliyinin, Ədliyyə Nazirliyinin, digər dövlət orqanlarının və müxtəlif QHT-lərin nümayəndələri və KİV-lərin iştirakı ilə keçirilmişdir. Seminarlarda iştirak edən şəxslərin məruzələri, maraq doğuran sualların cavablandırılması, mövzular ətrafında fikir mübadilələri təsisatın əməkdaşlarının praktiki biliklərə yiyələnməsinə imkan yaratmış və bu biliklər gələcək-

də təsisatın fəaliyyəti üçün faydalı olmuşdur.

21 dekabr 2010-cu il tarixdə Azərbaycan Respublikası Milli Məclisi tərəfindən "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Konstitusiya Qanunu birinci səsvermədə, 24 iyun 2011-ci il tarixdə isə ikinci səsvermədə (6 aydan sonra təkrar səsvermədən keçdikdən sonra) qəbul edilmiş, ölkə Prezidenti tərəfindən bu Qanunun tətbiqi haqqında 8 avqust 2011-ci il tarixli Sərəncam imzalanmış və qüvvəyə minmişdir.

Məlumdur ki, Konstitusiya Qanununa əsasən, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) vəzifəsi Azərbaycan Respublikasının Konstitusiyasında, ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş və dövlət, yerli özünüidarə orqanları, vəzifəli şəxslər tərəfindən pozulan insan hüquqlarının və azadlıqlarının bərpa edilməsi üçün təsis olunub.

"Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" 24 iyun 2011-ci il tarixli Konstitusiya Qanunu ilə Müvəkkilin səlahiyyət dairəsi genişləndirilmişdir. Belə ki, sözügedən Qanunun 1-ci maddəsinə görə, Müvəkkil Konstitusiya Qanunu ilə müəyyən edilmiş hallarda insan hüquqları pozuntularının qarşısının alınması üzrə də fəaliyyət göstərir.

Həmin qanunun 1.2-ci maddəsinə əsasən Müvəkkil 13 yanvar 2009-cu ildən ölkəmiz tərəfindən ratifikasiya edilmiş "İşgəncə və digər qəddar, qeyri-insani və ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizm (MPM) funksiyalarını həyata keçirən təsisat qismində müəyyən edilmişdir, İşgəncənin və digər qəddar, qeyri-insani və ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısını almaq məqsədi ilə təsisat saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə müntəzəm surətdə və ya zəruri saydığı hallarda baş çəkir. Bununla yanaşı, 12-ci maddədə insan hüquqlarının pozulmasına dair şikayətə baxılması və milli preventiv mexanizmin funksiya-

larının həyata keçirilməsi qaydaları təsbit olunmuşdur.

Bundan əlavə, Müvəkkil informasiya sahibi olan dövlət orqanlarının, yerli özünüidarə orqanlarının və vəzifəli şəxslərin "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn vəzifələrin yerinə yetirilməsinə nəzarəti həyata keçirir. Qanunun 1.3-cü maddəsinə görə, Müvəkkil informasiya sahibi olan dövlət orqanlarının, yerli özünüidarə orqanlarının və vəzifəli şəxslərin "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn vəzifələri yerinə yetirməsinə nəzarəti həyata keçirir. Fəaliyyət istiqamətlərinə gəldikdə:

- Ombudsman vətəndaşların real problemləri ilə tanış olur və onların operativ həllinə nail olur;
- İnsan hüquqlarının müdafiəsi və təmini istiqamətində qanunvericiliyin təkmilləşməsinə kömək edir;
- Əhali arasında insan hüquq və azadlıqları ilə bağlı geniş maarifləndirmə işi aparır;
- Səriştəsiz idarəetmə və sui-istifadə məsələlərini qaldırmaqla, dövlət və hakimiyyət orqanları və vəzifəli şəxslərin hakimiyyət hüduduna riayət etməsinin təminatçısı olur;
- Vətəndaş və dövlət münasibətlərinin tənzimlənməsi, daxili siyasi gərginliyi aradan qaldırmaqla dövlətçiliyi möhkəmləndirir;
- Hakimiyyətlə vətəndaş cəmiyyəti arasında körpü rolunu oynayır;
- Ombudsman təsisatı insan hüquq və azadlıqlarını müdafiə etmək üçün əlavə müstəqil dövlət mexanizmi kimi çıxış edir.

Dünya təcrübəsində ombudsman institutunun üç modeli mövcuddur:

- icraçı ombudsman icraçı orqan hesab olunur, hökumət və ya ölkə prezidenti tərəfindən təyin olunur, onun nəzarəti altındadır və ona hesabat verir, məsələn Fransada və indiyədək ombudsmanı olmayan ABŞ-ın bəzi ştatlarında);
- Parlament ombudsmanı (parlament tərəfindən seçilir və ona hesabat verir);
- müstəqil ombudsman ki, hakimiyyətin heç bir qoluna aid deyil, xüsusi müstəqil qurumdur (prezident və ya parlament

tərəfindən təyin və ya seçilə bilər, lakin sonra müstəqil fəaliyyət göstərir). Azərbaycan Respublikasının Ombudsmanı da bu modelə aiddir və bu model daha uğurlu və səmərəlidir.

O, heç kəsə hesabat vermir, lakin cari ildən iki aydan gec olmayaraq, illik məruzəsini Azərbaycan Respublikası Prezidentinə təqdim edir, habelə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə, Azərbaycan Respublikasının Ali Məhkəməsinə və Azərbaycan Respublikasının Baş prokuroruna göndərir və Azərbaycan Respublikası Milli Məclisi qarşısında çıxış edir. İllik məruzədə insan hüquqlarını pozan, müvəkkilin tələbləri ilə hesablaşmayan dövlət və yerli özünüidarə orqanlarının, vəzifəli şəxslərin adları çəkilir və bununla əlaqədar görülmüş tədbirlər barədə məlumat verilir.

Müvəkkilin illik məruzəsində insan hüquqlarının təmin edilməsi ilə əlaqədar ümumi fikir, rəy və tövsiyələr öz əksini tapmalıdır.

İllik məruzə ictimayyətin tanış olması üçün "Qanun" jurnalında və "Azərbaycan Respublikasının qanunvericilik toplusu"nda dərc edilir. Bundan başqa, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin rəsmi saytında (www.ombudsman.gov.az) onun fəaliyyəti, tədbirləri və s. barədə geniş ictimaiyyət üçün məlumatlar yerləşdirilir.

Beləliklə, Ombudsman yüksək səviyyəli müstəqil vəzifədir. Bu, onun yüksək statusunu və fəaliyyətinin effektivliyini təmin edən demokratik xüsusiyyəti ilə bağlıdır.

Dövlət orqanları sistemində müstəqil mövqe, onu seçən parlamentin bütün səlahiyyət müddətində dəyişilməzliyi, yeni qanunvericilik aktlarının qəbul olunması və qanunvericiliyin insan hüquqları baxımından təkmilləşdirilməsi ilə bağlı təkliflərlə çıxış etmək hüququ, öz hüquq və azadlıqlarının müdafiəsinə ehtiyacı olan insanlar (vətəndaşlar, əcnəbilər, vətəndaşlığı olmayan və sığınacaq axtaran şəxslər) üçün açıq və əlçatan olması, şikayət və müraciətlərin araşdırılmasında formal prosedurların olmaması, vətəndaşlara göstərilən yardımın ödənişsiz olması və s.

Ombudsmanın fəaliyyətinin əsaslandığı bütün bu prinsip və prosedurlar insanların hüquq və azadlıqlarının dövlət orqanları

və vəzifəli şəxslərin sui-istifadəsi və özbaşınalığından müdafiə funksiyasının həyata keçirilməsində xüsusi əhəmiyyətə malikdir.

Bütövlükdə, Ombudsman cəmiyyətdə hüquqi şüurun, hüquqi düşüncənin və hüquqi mədəniyyətin inkişafına təkan verir və idarəetmənin demokratikləşməsinə xidmət edir.

Ombudsman təsisatının ən böyük üstünlükləri:

- açıq ictimai və demokratik xarakteri;
- qeyri-formal və təxirə salınmadan yardım göstərmək imkanı;
- müraciətin təmənnasız və əlçatan olması;
- bürokratik əngəllərin aradan qaldırılması ;
- idarəçiliyin təkmilləşməsinə, şəffaflığın təmin edilməsinə xidmət etməsi;
- müstəqil olması və toxunulmazlığıdır.

### 3. Təsisatın Paris Prinsiplərinə uyğun fəaliyyəti, "A" statusu

BMT-nin Baş Assambleyası 1993-cü ildə insan hüquqları üzrə milli təsisatların yaradılmasına dair prinsiplər qəbul etmişdir. Paris prinsipləri kimi tanınan bu prinsiplər belə təsisatların rolu və funksiyalarına dair minimal standartlar müəyyən edən beynəlxalq səviyyədə qəbul edilmiş meyara çevrilmişdir. Azərbaycan Respublikasının Ombudsman Təsisatı da ölkədə milli insan hüquqları təsisatı vəzifələrini daşıyır və fəaliyyətini bu prinsiplərə tam uyğun şəkildə həyata keçirməkdədir.

Azərbaycan Ombudsman İnstitutu BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı nəzdində fəaliyyət göstərən Milli İnsan Hüquqları Təsisatlarının Beynəlxalq Əlaqələndirmə Komitəsi (BƏK) tərəfindən 2006-cı ildə Avropanın 10 nüfuzlu Ombudsman institutu sırasında A statusu ilə akkreditasiya olunmuşdur. Bu status Ombudsman təsisatına BMT-nin Saziş qurumlarına, eləcə də İnsan Hüquqları Şurasına Hökumət tərəfindən təqdim olunan hesabatların hazırlanması işində iştirak etmək, bu hesabatlarla bağlı öz rəyini bildirmək, paralel və ya alternativ əlavə hesabatlar hazırlamaq, insan hüquqları sahəsində dövlətin iştirakçısı olduğu beynəlxalq müqavilələrin monitorinqini həyata keçirmək səlahiyyətləri verir. 2012-ci ilin

aprel ayında Beynəlxalq Əlaqələndirmə Komitəsinin Akkreditasiya üzrə Alt Komitəsi tərəfindən yenidən qiymətləndirilən Azərbaycan Ombudsman İnstitutu həm qanunvericilik, həm də fəaliyyəti baxımından Paris Prinsiplərinin aşağıda göstərilən tələblərinə tam cavab verdiyi üçün bir daha ən yüksək status olan A statusuna layiq görülmüşdür.

***1) Milli İnsan Hüquqları Təsisatları (MİHT) müstəqil olmalı və onların müstəqilliyi qanun və ya konstitusiya ilə təmin olunmalıdır***

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun 5-ci maddəsinə görə, Müvəkkil müstəqildir və yalnız Azərbaycan Respublikası Konstitusiyası və qanunlarına tabedir. Bu müstəqillik Müvəkkilin dəyişilməzliyi, toxunulmazlığı, onun fəaliyyətinə müdaxilənin yolverilməzliyi ilə təmin edilir. Eyni zamanda Konstitusiya Qanununa əsasən Müvəkkilin maddi və sosial təminatları da mövcuddur. Müvəkkilin, onun aparatının və reqional mərkəzlərinin fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsi hesabına maliyyələşdirilir. Müvəkkilin fəaliyyətinin maliyyələşdirilməsi üçün ayrılan illik vəsaitin tərkibinə cari xərclərin məbləği əvvəlki maliyyə ilində bu məqsəd üçün nəzərdə tutulmuş məbləğdən az ola bilməz.

Fövqəladə və ya hərbi vəziyyətin elan edilməsi Müvəkkilin fəaliyyətini dayandırmır və ya məhdudlaşdırmır. Müvəkkil aparatının və regional mərkəzləri isçilərinin Müvəkkil tərəfindən işə götürülməsi və işdən azad edilməsi də onun müstəqilliyinin təminatlarındandır. Eyni zamanda Müvəkkilin siyasi fəaliyyətlə məşğul ola bilməməsi də onun müstəqilliyinin daha bir göstəricisidir.

***2) MİHT fəaliyyətləri və tərkibi baxımından plüralist olmalıdır***

Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin fəaliyyəti çoxşaxəlidir. O, bir tərəfdən Azərbaycan Respublikasının dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquqlarının və əsas azadlıqlarının bərpa edilməsi, digər tərəfdən Konstitusiya Qanunu ilə müəyyən edilmiş hallarda insan hüquqları pozuntularının

qarşısının alınması üçün fəaliyyət göstərir. Bundan başqa, Müvəkkil əfv, vətəndaşlıq, siyasi sığınacaq verilməsi məsələlərinin həlli ilə bağlı Azərbaycan Respublikasının Prezidentinə, insan hüquq və azadlıqlarının təmin edilməsi məqsədi ilə qanunların qəbul edilməsinə və ya yenidən baxılmasına dair, habelə amnistiya elan edilməsi barədə Milli Məclisə təkliflər verə bilər. Lakin Müvəkkilin fəaliyyəti bununla məhdudlaşmır. O, "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizmin funksiyalarını həyata keçirir, eyni zamanda "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərindən irəli gələn bəzi məsələlərin yerinə yetirilməsinə nəzarəti həyata keçirir. Müvəkkil fəaliyyət istiqamətlərinə uyğun olaraq, müxtəlif dövlət, yerli və beynəlxalq qurumlar, o cümlədən qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq edir.

***3) MİHT mümkün qədər geniş səlahiyyətlərə malik olmalıdır***

Müvəkkilin dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxslərin qərar və hərəkəti (hərəkətsizliyi) nəticəsində pozulmuş insan hüquqlarının bərpasını tələb etmək, bu hüquqların bərpası üçün məhkəməyə müraciət etmək, lazım gəldikdə əlavə kassasiya qaydasında şikayət etmək hüququna malik olan subyektlərə müraciət etmək, şəxsin hüquqları qüvvədə olan normativ aktlarla pozulduqda Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət etmək, şikayətin araşdırılması zamanı cinayət əlamətləri aşkar edildikdə müvafiq orqanlara cinayət işinin başlanması barədə müraciət etmək hüquqları vardır.

***4) MİHT araşdırmalar aparmaq üçün kifayət qədər geniş səlahiyyətlərə malik olmalıdır***

Müvəkkil insan hüquqlarının pozulmasına dair şikayətlərə baxarkən lazımi sənəd, material və məlumatlarla tanış olmaq, vəzifəli şəxslərdən yazılı arayışlar tələb etmək, şikayətdə əks etdirilmiş halların yoxlanılması üçün müvafiq orqanlara tapşırıq vermək səlahiyyətlərinə malikdir, müvafiq dövlət or-

qanları və təşkilatlarına ekspert rəyinin hazırlanmasını tapşıra bilər, şikayətdə əks olunan halların araşdırılması və milli preventiv mexanizmin funksiyalarının həyata keçirilməsi məqsədilə əlaqədar yerlərə (məsələn, hərbi hissə, cəzaçəkmə müəssisəsi və s.) daxil olmaq, bu yerlərin rəhbərləri, eyni zamanda dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının rəhbərləri və digər vəzifəli şəxsləri tərəfindən təxirə salınmadan qəbul edilmək hüquqları vardır.

***5) MİHT mütəmadi olaraq (yəni fasiləsiz) səmərəli fəaliyyət göstərməlidir***

Paris Prinsiplərinə görə, insan hüquqları üzrə milli təsisatların fəaliyyəti fasiləsiz olmalıdır. Bu baxımdan İnsan hüquqları üzrə Müvəkkilin fəaliyyəti də mütəmadi xarakter daşıyır.

***6) MİHT müvafiq qaydada maliyyələşdirilməlidir***

Milli insan hüquqları üzrə fəaliyyət göstərən təsisatların müstəqilliyi üçün onların maliyyə təminatlarının olması da çox əhəmiyyətlidir. Konstitusiya Qanununa görə, Müvəkkilin, onun aparatının və regional mərkəzlərinin fəaliyyəti dövlət büdcəsi hesabına maliyyələşdirilir və bunun üçün ayrılan illik vəsaitin tərkibində cari xərclərin məbləği əvvəlki maliyyə ilində bu məqsəd üçün nəzərdə tutulmuş məbləğdən az ola bilməz.

***7) MİHT geniş ictimaiyyət üçün açıq olmalıdır***

Konstitusiya Qanununa görə, Müvəkkilin fəaliyyəti aşkarlıq, şəffaflıq, qanunçuluq, ədalət, qərəzsizlik prinsipləri əsasında qurulur.

Eyni zamanda Azərbaycan Respublikası vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, hüquqi şəxslər insan hüquqlarının pozulması ilə bağlı Müvəkkilə şikayət verə bilərlər. Müvəkkil insan hüquqlarının pozulmasına dair şikayətdə əks etdirilmiş halların araşdırılması zamanı barəsində şikayət verilən orqanın və vəzifəli şəxsin həmin şikayətlə bağlı mülahizələrini öyrənir və hüquq pozuntusu aşkar olunduğu halda, onun aradan qaldırılması məqsədilə Qanunla müəyyən edilmiş səlahiyyətləri çərçivəsində müvafiq tədbirlər görür.

## 4. İnsan hüquqları üzrə Milli Fəaliyyət Planı və Proqramlar

Dünyanın heç bir ölkəsində insan hüquqları ilə bağlı vəziyyət eyni deyil. Hər bir ölkənin siyasi, iqtisadi, mədəni, tarixi və hüquqi xüsusiyyətlərinə uyğun onun insan hüquqları siyasətini inkişaf etdirmək zəruriliyi baxımından vahid model mövcud deyil, lakin BMT tərəfindən ümumi strategiyalar qəbul edilmişdir və üzv dövlətlər tərəfindən tətbiq olunur. Bununla belə, 1993-cü ildə keçirilmiş insan hüquqları üzrə Vyana Qlobal Konfransı dövlətləri öz vəziyyətlərinə uyğun insan hüquqları strategiyasının inkişaf etdirilməsi məqsədilə insan hüquqları üzrə milli fəaliyyət planı hazırlamağa dəvət etmişdir. Milli fəaliyyət planı Hökumət tərəfindən dəstəklənməli və cəmiyyətin bütün sektorlarına aid olmalıdır, çünki onun uğurluluğu əhalinin ona sahib olma dərəcəsindən asılıdır.

Belə planın əsas funksiyası – insan hüquqlarının dəstəklənməsi və təmin olunmasının təkmilləşdirilməsidir. Bu məqsədlə, insan hüquqları sahəsində təkmilləşməyə nail olmaq xüsusi proqramların həyata keçirilməsi, hökumətin və cəmiyyətin müvafiq sektorlarının iştirakı, habelə zəruri vəsaitlərin ayrılması ilə gerçəkləşir. Belə Plan ölkənin insan hüquqları sahəsində ehtiyaclarının dəqiq müəyyən edilməsinə, qiymətləndirilməsinə əsaslanmalıdır. Bu zaman hökumətin nümayəndələri, QHT-lər, peşə qrupları, müəllimlər və vəkillər, habelə vətəndaş cəmiyyətinin digər üzvləri üçün insan hüquqlarının dəstəklənməsi və müdafiəsi üzrə vəzifələrə dair prinsiplər və tədbirlər nəzərdə tutulmalıdır. Planda həmçinin insan hüquqları üzrə sənədlərin təsdiq olunması, habelə, əhalinin həssas qruplarının insan hüquqlarının təminatı ilə bağlı vəziyyətə xüsusi diqqət yetirməklə müvafiq standartlar müəyyən edilməlidir.

Milli fəaliyyət planının effektivliyinə müsbət təsir göstərən amillər aşağıdakılardır:

- davamlı siyasi dəstək;
- şəffaf və əhalinin iştirakçılığı ilə planlaşdırma;
- insan hüquqları ilə bağlı vəziyyətin hərtərəfli təhlili;
- həll edilməli problemlərin, real prioritetlərin müəyyən edilməsi və fəaliyyətə yönələn yanaşma;
- şəffaf icra prosesi, habelə monitorinq və qiymətlən-

dirmə üçün güclü mexanizmlər;

- ehtiyatların müvafiq tələbata uyğun şəkildə bölünməsi.

Məlum olduğu kimi, insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılmasında, bu sahədəki tədbirlərin daha mütəşəkkil həyata keçirilməsində Strategiyalar, Dövlət Proqramları və Milli Fəaliyyət Planları böyük əhəmiyyət kəsb edir. Azərbaycanın müxtəlif inkişaf mərhələsində insan hüquq və azadlıqlarının daha səmərəli təmini sahəsində mühüm sənədlər qəbul olunmuşdur.

Prezident Heydər Əliyev tərəfindən imzalanmış “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət proqramı”nda, ölkəmizin insan hüquqları üzrə beynəlxalq sazişlərə qoşulması, bu sahədə elmi-tədqiqat institutunun yaradılması, normativ-hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, hüquqi mexanizmlərin təkmilləşdirilməsi, müvafiq beynəlxalq qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi, bu sahədə fəaliyyət göstərən beynəlxalq institut və mərkəzlərdə tədqiqat və təhsil proqramları üzrə mütəxəssislərin hazırlanması, insan hüquqları haqqında öhdəliklərə riayət edilməsi və digər məsələlər təsbit olunmuşdur.

Daha sonra Heydər Əliyev siyasətini uğurla həyata keçirən Prezident İlham Əliyevin Sərəncamları ilə daha iki strateji sənəd qəbul olunmuşdur. Bunlar 28 dekabr 2006-cı ildə “Azərbaycan Respublikasında İnsan Hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı” (MFP) və 27 dekabr 2011-ci ildə “Azərbaycan Respublikasında İnsan hüquqları və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”dır (MFPr). Bu sənədlər insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması, cəmiyyətdə hüquq mədəniyyətinin inkişaf etdirilməsi, normativ-hüquqi bazanın və hüquq müdafiə sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin davamlılığının təmin edilməsi məqsədi ilə təsdiq edilmiş və insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, universal və regional səviyyədə yeni əməkdaşlıq strategiyasının qurulmasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət etmişdir. Eyni zamanda, bu sənədlərin həyata keçirilməsinin əlaqələndirilməsi üzrə işçi qrupunun fəa-

liyyətinə rəhbərlik Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə (Ombudsmana) tövsiyə olunmuşdur.

Müvəkkilin təşəbbüsü ilə ilkin olaraq Milli Fəaliyyət Planının cəmiyyətə təqdim edilməsi, bu sahədə əhalinin maarifləndirilməsi istiqamətində müəyyən tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının 28 dekabr 2006-cı il tarixli Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planından fərqli cəhəti ondan ibarətdir ki, Milli Fəaliyyət Proqramı insan hüquqlarının müdafiəsi istiqamətində daha geniş tədbirləri nəzərdə tutur, bu proqramın icrasına daha çox dövlət qurumu cəlb olunmuşdur.

Belə ki, əgər Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planının icrasına 31 dövlət qurumu cəlb olunmuşdursa, Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının icrasına 43 dövlət qurumu, o cümlədən, Azərbaycan Respublikasının şəhər və rayon icra hakimiyyəti orqanları cəlb edilmişdir. Sərəncamda həmçinin, müvafiq icra orqanlarına Milli Fəaliyyət Proqramının həyata keçirilməsində vətəndaş cəmiyyəti institutları ilə sıx əməkdaşlığın tapşırılması adı çəkilən proqramın daha səmərəli icra olunmasına dəstək vermişdir.

Müvəkkil fəaliyyəti dövründə insan hüquq və azadlıqlarının daha səmərəli təmini və müdafiəsi məqsədilə qəbul edilmiş Dövlət Proqramlarının və Milli Fəaliyyət Planlarının həm hazırlanması prosesində, həm də həyata keçirilməsində təşəbbüs göstərmiş və fəal iştirak etmişdir.

Müvəkkilin təklifinə əsasən, İnsan Hüquqları üzrə ilk Dövlət Proqramının qəbul olunduğu tarix – 18 iyun günü ölkə Prezidenti cənab İlham Əliyevin 2007-ci il 18 iyun Sərəncamı ilə dünyada ilk ölkə olaraq Azərbaycanda Milli İnsan Hüquqları günü kimi elan edilmişdir. Həmin gün geniş silsilə tədbirlər, o cümlədən ənənəvi olaraq Ombudsmanların Bakı Beynəlxalq Konfransları və bu mötəbər toplantılarda Bakı Bəyannaməsinin qəbul edilməsi ilə qeyd olunur.

## 5. Müvəkkilin qadın hüquqları və gender bərabərliyinin təmin olunması üzrə fəaliyyəti və təşəbbüsləri

Beynəlxalq ictimaiyyət cari minillikdə bəşəriyyətin inkişaf məqsədlərini müəyyənləşdirərkən demokratiyanın inkişafının, sosial ədalət və tolerantlığın əldə olunmasının gender bərabərliyindən asılı olduğunu bəyan etmişdir. Lakin beynəlxalq səviyyədə aparılan fəaliyyətlərə, müxtəlif sənədlərin qəbul edilməsinə baxmayaraq, bütün dünyada qadınlara qarşı tətbiq olunan ayrı-seçkiliyin ləğv olunmasına tam nail olunmayıb. Məhz bu zərurətdən BMT Baş Assambleyası 18 dekabr 1979-cu il tarixdə bu sahədə çox əhəmiyyətli olan bir sənədi "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyanı qəbul etdi.

Cəmiyyət inkişaf etdikcə qadınların fəallığının daha da artması müşahidə olunur. Təqdirəlayiq haldır ki, bu gün ölkə əhalisinin ümumi sayının 50,2 faizini təşkil edən Azərbaycan qadınları cəmiyyətimizin tamhüquqlu üzvləri kimi ölkənin ictimai-siyasi həyatında, idarəetmədə və qərar qəbuletmədə fəal iştirak edirlər.

Azərbaycan Respublikası öz dövlət müstəqilliyini bərpa etdikdən sonrakı dövrdə qadınların qarşısında yeni məqsəd və vəzifələr qoymuş, dinamik proselərdə vətəndaşların fəallığının yüksəldilməsi yolunda görülən işlər qadınların cəmiyyətdəki rolunun artmasına səbəb olmuşdur. 1992-ci ildə Azərbaycan Respublikası BMT-nin Qadınların siyasi hüquqları haqqında Konvensiyasına, 1995-ci ildə "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyasına, 2000-ci ildə isə onun Əlavə Protokoluna qoşulmuşdur. Müstəqil Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş ilk Konstitusiyası qadınların kişilərlə bərabər hüququnu təsdiq etmiş və demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazasını yaratmışdır.

Müxtəlif konvensiyalara qoşulmaqla yanaşı, ölkə daxilində də qadınların hüquq və azadlıqlarının qorunması istiqamətində bir çox normativ-hüquqi aktlar qəbul edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 6 mart 2000-ci il tarixli "Dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Fərmanı bütün dövlət strukturlarında qadınlarla kişilərin eyni səviyyədə təmsil

olunmasını təmin edir. Bundan başqa, "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunlarını, Ailə Məcəlləsində edilən dəyişiklikləri bu sahədə ölkəmizdə həyata keçirilən hüquqi islahatların bariz nümunəsi kimi göstərmək olar.

Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planının (28 dekabr 2006) müddəaları əsasında qadınlara qarşı zorakılıq, o cümlədən məişət zorakılığı ilə mübarizənin gücləndirilməsi, bu cür təsirlərə məruz qalmış şəxslərlə iş, reproduktiv sağlamlığın qorunması vasitəsilə arzuolunmaz hamiləliklərin qarşısının alınması, ümumilikdə gender məsələsinə geniş yer ayrılmışdır. Ölkəmizdə ana və körpələrin sağlamlıq hüququnun müdafiəsinin milli prioritetlərdən olduğu nəzərə alınaraq, Minilliyin İnkişaf Məqsədlərindən biri kimi, dövlət və qeyri-hökumət təşkilatlarının, millət vəkillərinin, BMT-nin müxtəlif agentliklərinin (BMT-nin Əhali Fondunun, İctimai İnformasiya Departamentinin və s.), KİV-lərin diqqəti qeyd olunan məsələyə yönəldilmişdir.

İcrası uğurla başa çatmış Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2006-cı il tarixli Sərəncamı ilə təsdiq edilən Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planında nəzərdə tutulmuş qadınlara qarşı zorakılıq, bu cür zorakılığın qurbanları üçün hüquqi müdafiə vasitələrinin, zəruri kompensasiyanın, reabilitasiyanın, tibbi və psixoloji yardımın təmin olunması və bu sahədə geniş maarifləndirmə işinin təşkil edilməsi uğurla həyata keçirilmiş, şəhər və kəndlərdə belə bir fəaliyyətdən minlərlə qadın yararlana bilmişdir. Eyni zamanda, bu Fəaliyyət Planı çərçivəsində UNESCO-nun "Təhsil hamı üçün" prinsipinin təbliği, hüquqi maarifləndirmə işinin genişləndirilməsi, insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi məqsədilə Müvəkkilin səyləri nəticəsində əhalinin müxtəlif qrupları kimi, qadınlar da mülki, siyasi, iqtisadi, sosial və mədəni hüquqları barədə geniş maariflənmə işinə cəlb olunmuşlar.

Müvəkkil öz fəaliyyətində qadınların təhsil, sağlamlıq hüquqlarının müdafiəsi, təmini və təbliği işinə geniş yer vermiş, qadınlara qarşı zorakılıq hallarının qarşısının alınması

və belə halların aradan qaldırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirməklə yanaşı, qadınlar və kişilər arasında fərqlənən rəhbərlik üslubları, qadın və kişilər üçün daha yaxşı karyera modelləri, tədqiqat və innovasiyalarda gender bərabərsizliyinin aradan qaldırılması, elm müəssisələrində də qadınlara kişilərlə eyni imkanlar verilməsi üçün ən yaxşı strategiyalar barəsində geniş auditoriyalarda çıxışlar etmişdir.

Müvəkkilin tövsiyələri və təklifləri nəzərə alınmaqla, ölkə Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramında, eyni zamanda 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasında dövlətimizin tərəfdar çıxdığı insan hüquqlarına və azadlıqlarına dair beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin həyata keçirilməsi və Azərbaycan Respublikasının normativ-hüquqi aktlarının beynəlxalq hüquqi sənədlərə uyğunlaşdırılması, məişət zorakılığının qarşısının alınması, psixoloji və tibbi yardım, bu cür zorakılığın qurbanları üçün zəruri kompensasiya və reabilitasiyanın təminedilməsi, qadınlara qarşı zorakılığın bütün formalarına qarşı mübarizə aparılması, onların hüquqlarının daha yaxşı səviyyədə müdafiəsi üçün tədbirlər nəzərdə tutulmuşdur.

Məlumdur ki, BMT tərəfindən 2015-ci ilin sentyabr ayında qəbul edilmiş və özündə 17 məqsədi birləşdirən 2016-2030-cu illər üçün Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) 5-ci məqsədi məhz gender bərabərliyinə nail olmaq, bütün qadın və qızlara səlahiyyətlər verməkdir. Bu baxımdan Müvəkkil "Gender zorakılığı zəminində yaranan mübahisələrin təhlili və zorakılığa məruz qalmış şəxslərə yardımın göstərilməsi sahəsində Milli Strategiya və Fəaliyyət Planı"nın layihəsi hazırlanarkən, qeyd olunan milli və beynəlxalq əhəmiyyətli sənədlərdən irəli gələn müddəaların nəzərə alınmasını tövsiyə etmişdir. Sözügedən Milli Strategiya və Fəaliyyət Planı layihəsinə Müvəkkilin bir sıra təklifləri də daxil edilmişdir. "Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında" Avropa Şurası Konvensiyasının ratifikasiya edilməsi, ölkəmiz tərəfindən 2008-ci il 17 noyabr tarixində imzalan-

mış "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasının ratifikasiyası prosesinin və "Uşaqların cismani cəzadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanun layihəsinin qəbul edilməsinin sürətləndirilməsi, "Aliment Fondu"nun yaradılması və s. təkliflər bu qəbildəndir.

Müvəkkil bu sahədə fəaliyyətini qadın hüquqlarını özündə ehtiva edən və əsas beynəlxalq sənədlərdən olan Pekin Fəaliyyət Platformasının 12 prioritet istiqaməti üzrə həyata keçirməkdədir. Gender balansı, bərabər səlahiyyətlər əsasında ictimai həyatın bütün sahələrində, xüsusilə də qərar qəbuletmə və siyasətin işlənib hazırlanması işində qadınların tam iştirakı və təşəbbüslərinin artırılması məqsədilə Müvəkkil yerli və mərkəzi icra hakimiyyəti orqanları, QHT və KİV-lə, icmalarla əməkdaşlıq edir, mövcud problemlərin həlli istiqamətində tədbirlər təşkil edir.

Milli Fəaliyyət Proqramında qadınların hüquqlarının müdafiəsi ilə bağlı tədbirlər həyata keçirilmişdir. İlkin olaraq, ölkəmizin tərəfdar çıxdığı insan hüquqlarına və azadlıqlarına dair beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin həyata keçirilməsi və Azərbaycan Respublikasının normativ-hüquqi aktlarının beynəlxalq hüquqi sənədlərə uyğunluğunun təmin edilməsi (1.2), Beynəlxalq Əmək Təşkilatının 2000-ci il "Analığın mühafizəsi haqqında" və 1981-ci il "Kişi və qadın işçilər üçün bərabər imkanlar: ailə vəzifələri olan işçilər haqqında" Konvensiyalarından irəli gələn öhdəlikləri nəzərə alaraq, işləyən qadınların və ailə vəzifələri olan işçilərin əmək hüquqları ilə əlaqədar əmək qanunvericiliyinin təkmilləşdirilməsi (1.2.9.), qadınların əmək bazarında rəqabət qabiliyyətinin artırılması, qadınlar arasında sahibkarlığın inkişaf etdirilməsi, qadınlar tərəfindən yeni peşələrin əldə edilməsinə yönəlmiş kursların təşkili (2.13), Məişət zorakılığına məruz qalmış qadınlar üçün reabilitasiya proqramlarının hazırlanması (2.14), qadınlara qarşı zorakılıq, o cümlədən məişət zorakılığı ilə mübarizənin gücləndirilməsi, bu cür zorakılığın qurbanları üçün hüquqi müdafiə vasitələrinin, zəruri kompensasiyanın, reabilitasiyanın, tibbi və psixoloji yardımın təmin olunması (2.15), bölgələrdə zorakılıq və insan alveri qurbanları, kimsəsizlər, narkomani-

yadan və alkoqolizmdən müalicəyə ehtiyacı olanlar üçün krizis mərkəzlərinin yaradılması (2.19), UNESCO-nun "Təhsil hamı üçün" prinsipinin təbliği, insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi məqsədilə əhalinin müxtəlif qrupları (qadınlar, uşaqlar, gənclər, əlilliyi olanlar, ahıllar, qaçqın və məcburi köçkünlər, məhkumlar, hərbi qulluqçular, narkomaniya və HİV/AİDS-ə yoluxmuş insanlar) üçün hüquqi maarifləndirmə sahəsində təlimçilərin hazırlanması (4.8), reproduktiv sağlamlıq və ailə planlaşdırılması üzrə əhalinin maarifləndirilməsi üçün könüllülərin hazırlanması (4.18), Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşmış təsisatları və beynəlxalq regional təşkilatlarla birgə layihələrin hazırlanması və həyata keçirilməsi (5.1), BMT-nin "Minilliyin inkişaf məqsədləri"nin təbliği və həyata keçirilməsi üçün BMT-nin İnsan Hüquqları Şurası ilə səmərəli əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi (5.3) nəzərdə tutulmuşdur.

Müvəkkil Proqramın icrası ilə bağlı Milli Məclis üzvlərinin, dövlət orqanlarının, qeyri-hökumət təşkilatlarının, habelə media nümayəndələrinin iştirakı ilə konfrans, seminar, dəyirmi masalar təşkil etmiş və məsləhətləşmələr aparmışdır. ATƏT-də məruzə olunmuş və yüksək dəyərləndirilmişdir.

Gender məsələsi, milli qanunvericiliyin dövlətin qoşulduğu beynəlxalq sənədlərə uyğunlaşdırılması və cinsi əlamət əsasında bərabərsizliyə səbəb ola biləcək sosial nəticələrin aradan qaldırılması deməkdir. Elə buna görə də ölkəmizdə yeni qanunlar qəbul olunmuş, bəzi mövcud qanunlara isə müvafiq əlavə və dəyişikliklər edilmişdir.

Müvəkkilin fəaliyyətinin ilk illərindən başlayaraq, onun ünvanına müxtəlif məzmunlu şikayət və ərizələr daxil olur. Şikayət və ərizələrdən əlavə, Müvəkkilə sosial, məişət, sağlamlıq, təhsillə əlaqəli problemlər barədə müraciətlər də ünvanlanır ki, bunlara da xüsusi həssaslıqla yanaşılaraq, lazımi tədbirlər həyata keçirilir.

Bütün bunlarla yanaşı, Müvəkkilin ünvanına daxil olan müraciət və şikayətlər üzrə gender stereotipləri, diskriminasiya halları, gender bərabərliyinin özəyini təşkil edən siyasi, sosial, ailə, reproduktiv sağlamlıq və digər məsələlərlə bağlı müraciətlər araşdırılır və səlahiyyətlər çərçivəsində müvafiq tədbirlər

görülür.

Müvəkkilin səlahiyyətləri çərçivəsində baxılan şikayətlərin çoxu təmin olunur. Müraciət edənlərin sırasında ahıllar, əlilliyi olan şəxslər, qaçqın və məcburi köçkünlər qadınlar da olmuşdur. Gender bərabərliyi və qadın hüquqlarının təmin olunması sahəsində müvafiq nazirliklər, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, müxtəlif dövlət qurumları, o cümlədən beynəlxalq təşkilatlar, QHT və KİV-lə, ümumilikdə vətəndaş cəmiyyətinin, icmaların nümayəndələri ilə sıx əməkdaşlıqda qadın hüquqlarının təbliğinə dəstək verilir.

Müvəkkil tövsiyələri də nəzərə alınmaqla 2015-ci ildə Milli Məclisin tərkibində Ailə, qadın və uşaq məsələləri komitəsi də yaradılmışdır ki, bu da müvafiq insan hüquqlarının təmin olunması üçün daha bir səmərəli mexanizmdir.

Müvəkkil və aparatın, regional ofislərin əməkdaşları vətəndaş cəmiyyətinin üzvləri ilə birlikdə bölgələrdə, ucqar rayon və kəndlərdə yaşayan qadınlar üçün qadın sahibkarlığı, gender bərabərliyi, habelə məişət zorakılığı, insan alveri və erkən nikahlara qarşı mübarizə mövzusunda seminar və məşğələlər təşkil edir və müntəzəm olaraq, intensiv maarifləndirmə işi aparırlar. Nəticədə, minlərlə qadın öz hüquqları barədə bilgilər əldə edir və bununla da onların cəmiyyətdəki fəallığı artır. 15 sentyabr 2008-ci ildə qəbul edilmiş "Yoxsulluğun azaldılması və Davamlı İnkişaf üzrə Dövlət Proqramı"nda (2008-2015) gender komponenti geniş şəkildə öz əksini tapmışdır və bu sənədə daxil edilən həmin məsələ BMT tərəfindən Mərkəzi Asiya və Qafqaz ölkələri arasında ən güclü komponent kimi qiymətləndirilmiş, regionda "yaxşı təcrübə" kimi təklif edilmişdir.

Müvəkkil elmin bütün sahələrində (tibb, biologiya, texnologiya və innovasiyalar, bioetika, təhsil, informasiya-kommunikasiya texnologiyaları və s.) qadınların elmi fəallığının artmasını, müxtəlif elmi tədqiqatların, layihələrin yerinə yetirilməsini, gender sahəsində maarifləndirmə standartlarına əməl olunmasının və genderin elmin bütün sahələrinə inteqrasiyasının vacib olduğunu prioritet məsələ kimi daim gündəmdə saxlayır. Siyasətdə, qanunvericilikdə, sənaye, kənd təsərrüfatı, habelə təhsil və səhiyyə sahələrində, əsasən qərar qəbuletmə səlahiyyəti olan vəzifələrdə qadınların kifayət qədər təmsil

olunmaması narahatlıq doğuran bir məqam kimi vurğulanır.

Qadın məhkumların hüquqlarının müdafiəsinə də həssaslıqla yanaşmaqla, bu sahədə də davamlı tədbirlər görülür. Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Qadın cəzaçəkmə müəssisəsində mütəmadi görüşlər, hüquqi maarifləndirmə, "açıq qapı" tədbirlərinin təşkil olunması ilə yanaşı, məhkum qadınların problemləri, yaşayış və saxlanma şəraiti, sağlamlığı, psixoloji durumu öyrənilir, onların ərizə və müraciətləri qəbul edilir və araşdırılır. Bundan əlavə, Müvəkkil Konstitusiya Qanununun 1.7-ci maddəsini rəhbər tutaraq, məhkumların əfv olunması ilə əlaqədar ölkə başçısına müraciətlər ünvanlamış və onun vəsatətləri üzrə ümumilikdə yüzlərlə məhkum, o cümlədən, qadın, yeniyetmə, ahıl, əlil, ağır xəstə məhkumlara üstünlük verilərək əfv edilmişdir.

Müvəkkilin nikah yaşının kişi və qadınlar üçün 18 yaş müəyyən olunması ilə bağlı Ailə Məcəlləsinə əlavə və dəyişikliklərin edilməsi, qadınların qərar qəbuletmədə iştirakı, sahibkarlıq fəaliyyəti və iqtisadi imkanlarının genişləndirməsi üçün "gender büdcəsi"nə dair təklifləri normativ-hüquqi bazanın təkmilləşdirilməsində mühüm rol oynamışdır. "Reproduktiv sağlamlıq haqqında" Qanunun qəbul edilməsi də çox mühümdür.

Azərbaycanda 2015-ci ildən sonrakı dövr üçün nəzərdə tutulan prioritetlərdə ölkə səviyyəsində həyata keçirilən islahatlar və qazanılmış uğurlar qeyd edilməklə yanaşı, bir sıra istiqamətlərə diqqətin artırılması tövsiyə olunur. Bunlar gender bərabərliyi və qadınların səlahiyyətlərinin genişlənməsi istiqamətində əldə olunan uğurlar əsasında stereotiplərə qarşı mübarizə, kənd və rayon yerlərində gender siyasətinə diqqətin artırılması və bu sahədə mövcud boşluqların aradan qaldırılmasını nəzərdə tutur. Müvəkkil tərəfindən geniş fəaliyyət həyata keçirilməklə qadın hüquqlarının təbliğinə böyük önəm verilir.

Müvəkkilin qadın hüquqlarının qoruması və gender bərabərliyi sahəsindəki fəaliyyəti nəinki ölkə daxilində, eləcə də beynəlxalq səviyyədə genişlənməkdədir.

Müvəkkilin qadın hüquqları sahəsində fəaliyyəti BMT-nin Saziş Qurumları, Universal Dövri İcmal, Avropa Şurası və digər beynəlxalq təşkilatlar tərəfindən müsbət təcrübə kimi yüksək qiymətləndirilməkdədir.

Onu da qeyd etmək lazımdır ki, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun (ATƏT/DTİHB) 2012-ci ildə hazırladığı "İnsan Hüquqları üzrə Təsisatların qadın hüquqları və gender bərabərliyin təbliği və müdafiəsində rolu" adlı kitabda qadın hüquqlarının müdafiə və inkişaf strategiyası, vətəndaş cəmiyyəti ilə əməkdaşlıq, üzv ölkələrin insan hüquqları təsisatlarında qadın hüquqlarının müdafiəsi imkanlarının artırılması və s. məsələlər öz əksini tapmış və yalnız bir neçə ölkənin müsbət təcrübəsi nümunə kimi göstərilmişdir. Kitabda Azərbaycan Ombudsmanının qadın hüquqlarının müdafiəsi və gender bərabərliyinin təminatı sahəsində gördüyü işlər, Ombudsmanın Ahılların Resurs Mərkəzinin müntəzəm fəaliyyəti, o cümlədən qaçqın və məcburi köçkün, məhkum, əlilliyi olan şəxslər, zorakılığa məruz qalanların, tənha qadınların hüquqlarının müdafiəsi üzrə görülmüş işlər, onlara göstərilən təmənnasız hüquqi, tibbi və psixoloji yardım, Müvəkkilin təşəbbüsü ilə Bakı və regionlardakı bir sıra orta məktəblərdə həyata keçirilən uşaq hüquqları üzrə pilləli tədris beynəlxalq qurumlar tərəfindən uğurlu sayılaraq, müsbət təcrübə kimi təqdim olunmuşdur.

2010-cu ildə Almaniya İnsan Hüquqları İnstitutu da Azərbaycan Ombudsmanının bu sahədə fəaliyyətini yüksək qiymətləndirərək, Avropa Şurası müvafiq Komitəsində hazırlanan "Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onlarla mübarizəyə dair Avropa Şurasının Konvensiyasının" (İstanbul, 11.05.2011) layihəsinə dair təkliflər və şərhlər hazırlamaqla bağlı Müvəkkilə müraciət etmişdir. Müvəkkilin rəhbərliyi ilə Konvensiyanın maddələrinə dair təkliflər hazırlanaraq Avropa Şurasına təqdim olunmuşdur. Burada qadınların zorakılığa məruz qaldıqları halda, Avropa Şurasına birbaşa müraciətlərinin və Konvensiya üzrə onların hüquqlarını müdafiə etmək mexanizminin hazırlanması, Konvensiyanın ucqar kənd yerlərində, qaçqın, məcburi köçkün qəsəbələrində, milli azlıqlar və əhalinin digər həssas qrupları arasında yayılması üçün maarifləndirmə işlərinin aparılmasına xüsusi diqqət yetirilməsi, sığınacaqlarda ödənişsiz hüquqi, psixoloji, tibbi və sosial reabilitasiyaların təşkili, layihədə "iqtisadi zorakılıq" ifadəsinin əlavə olunması kimi təkliflər irəli sürülmüşdür. Təqdim

olunan təklif və tövsiyələr uyğunlaşdırılmış qaydada Konvensiya layihəsində öz əksini tapmışdır. Yeri gəlmişkən, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili 2005-ci ildə Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı postuna irəli sürülmüş və müsabiqədə iştirak etmiş ilk və yeganə qadın namizəd olmuşdur.

Azərbaycan Ombudsmanı klassik Ombudsman təsisatının fəaliyyətinə öz yeniliklərini, təşəbbüslərini də gətirmişdir. Bunların sırasında Ombudsman yanında aparıcı qeyri-hökumət təşkilatları üzvlərinin təmsil olunduğu müstəqil Ekspertlər Şurasının, ahıllar və uşaqların hüquqlarının müdafiəsi üzrə resurs mərkəzlərinin, ali təhsil müəssisələrini əhatə edən hüquq klinikaları şəbəkəsinin yaradılması, əhalinin müxtəlif təbəqələrinin hüquqlarının daha etibarlı təmin edilməsi məqsədilə ayrı-ayrı sahələr (qadın, uşaq, ahıl, əlilliyi olan şəxslər, qaçqın və məcburi köçkünlər, məhkumlar, hərbi qulluqçular və b.) üzrə ixtisaslaşdırılmış müşavirlərin təyini və fəaliyyət göstərməsi, insan hüquqlarının müasir tələblər səviyyəsində müdafiəsi sahəsində kadrların yetişdirilməsi, insan hüquqları sahəsində öhdəliklərin və tövsiyələrin icrası üzərində müstəqil monitorinqin həyata keçirilməsini və digərlərini qeyd etmək olar. Bu tədbirlər çərçivəsində ilk dəfə olaraq orta məktəblərdə pilləli uşaq hüquqlarının və ölkənin ən qocaman ali məktəbi olan Bakı Dövlət Universitetində həm bakalavr, həm də magistratura səviyyələrində insan hüquqlarının və gender nəzəriyyəsinin tədrisinə başlanılmışdır.

Bunlarla yanaşı, Müvəkkilin təşəbbüsü ilə insan hüquqları sahəsində kadrların hazırlanması üçün Ombudsman Aparatında yaradılmış "İnsan hüquqları sahəsində xüsusi qısamüddətli təhsil şəbəkəsi" də fəaliyyətini davam etdirməkdədir. Bu təhsil şəbəkəsinin proqramına insan hüquqları və azadlıqlarının əsasları, milli və beynəlxalq qanunvericilik aktları, Ombudsman institutunun mahiyyəti, ölkəmizdə insan hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində həyata keçirilən hüquqi islahatlar, insan hüquqlarının milli və beynəlxalq müdafiə mexanizmləri, müraciətetmə qaydaları və s. mövzularda məruzələr və seminarlar daxil edilmişdir.

Belə ki, Bakı Dövlət Universiteti, Azərbaycan Respublika-

sının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Dillər Universiteti, Bakı Slavyan Universiteti, Qafqaz Universitetinin Hüquq, Beynəlxalq hüquq və beynəlxalq münasibətlər, Siyasi idarəetmə, Regionşünaslıq və beynəlxalq münasibətlər, İqtisadiyyat və idarəetmə, Beynəlxalq münasibətlər fakültələrinin müxtəlif kurslarında təhsil alan tələbə və magistrantları Ombudsman Aparatında istehsalat təcrübəsi keçirlər.

Eyni zamanda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, hüquq-mühafizə orqanları üçün kadr hazırlığını həyata keçirən Polis Akademiyası, Ədliyyə Akademiyası, Baş Prokurorluğun tədris mərkəzi, hərbi sahədə kadr hazırlayan təhsil müəssisələrində həmin tədris müəssisələrinin proqramına, o cümlədən Ombudsmanın tədbirlər planına əsasən, gənc müdavimlərə, ixtisaslaşmaya cəlb olunmuş şəxslərə, hakimlərə, vəkillərə, dövlət qulluqçularına ünvanlanan ardıcıl maarifləndirici seminarlar təşkil olunur ki, bu da insan hüquqları tədrisi vasitəsilə onların bilik və bacarıqlarının artırılmasına xidmət edir.

Artıq Azərbaycanın hüquq-müdafiə mexanizmləri sırasında uğurla fəaliyyət göstərən Ombudsman təsisatı özünə səmərəli, müstəqil, ədalətli qurum kimi yer tapmış və nüfuz qazanmışdır.

Azərbaycan qadınlarının hələ də istifadə olunmayan böyük professional, intellektual, işgüzar, mənəvi potensialı vardır ki, bunları hərəkətə gətirmək, bərabər hüquqlara və bərabər imkanlara nail olmaqla keyfiyyətcə yeni səviyyəyə qaldırmaq, sözün əsl mənasında, gender bərabərliyinin inkişafına doğru mühüm addımlardır. Buna görə də bir milli insan hüquqları təsisatı olaraq, Ombudsman təsisatı müxtəlif beynəlxalq tədbirlərdə, görüşlərdə, mübadilə proqramlarında iştirak etməklə, bu sahədə əldə edilmiş nailiyyətlərdən daha səmərəli şəkildə yararlanır və bu təcrübə zamanın tələblərinə uyğun qadınların fəallığının artmasına xidmət edir.

**Tələbələrin biliklərinin qiymətləndirilməsi üçün suallar:**

1. Ombudsman institutunun yaradılması tarixi və modelləri.
2. Azərbaycan Respublikasında İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) təsisatının yaradılması.
3. İnsan Hüquqları üzrə Müvəkkilin vəzifələri və səlahiyyətləri hansılardır?
4. Azərbaycan Ombudsman İnstitutu hansı tələblərə cavab verdiyi üçün "A" statusu almışdır?
5. Müvəkkilin Qadın Hüquqları və Gender bərabərliyinin təmin olunması üzrə fəaliyyəti.
6. Dövlətin qadın siyasətinin həyata keçirilməsi.
7. Dayanıqlı İnkişaf Məqsədlərində Gender bərabərliyi.
8. İnsan hüquqlarının müdafiəsində Milli Fəaliyyət Planı və Dövlət Proqramlarının əhəmiyyəti.

## Mühazirə 3. Qadın hərəkatının inkişaf mərhələləri. Feminizm.

1. *Feminizm*
2. *Feminist etnoqrafiya*
3. *Qadın hərəkatının inkişaf mərhələləri*
4. *Beynəlxalq qadınlar günü*
5. *Azərbaycanda qadın məsələsinin tarixçəsi*

### 1. Feminizm

Feminizm (ingiliscə-feminism) sözü latın sözü femina (qadın) əsasında yaradılıb. Feminizm - burjua quruluşu çərçivəsində qadınlara kişilərlə bərabər hüquqlar verilməsi uğrunda mübarizə aparan ictimai hərəkatdır. Qeyd edək ki, "feminizm" terminini ilk dəfə işlədən və "Qadının sosial vəziyyəti ictimai tərəqqinin meyarıdır" kəlamının müəllifi utopik sosializmin nümayəndəsi Şarl Furyedir. Daha sonra bu termin 1895-ci ildə Elis Rossi tərəfindən istifadə olunmuşdur.

Ənənəvi olaraq hesab edilirdi ki, femininlik bioloji xüsusiyyətlə şərtlənir və ona passivlik, mülayimlik, özünü analığa həsr etmək, qayğıkeşlik, emosionallıq və s. kimi keyfiyyətlər aiddir. Bu təsəvvürlər qadınların ictimai deyil, xüsusi sferaya aid edilməsinə müvafiq gəlirdi. Lakin feminist tədqiqatlar sosiomədəni xarakteristika və proseslərin bioloji fərqlərlə şərtlənməsi fikrini tənqid edirdi.

Qadın tədqiqatları, qadın tarixi və feminizmin əsas nəzəriyyələrini təhlil edərkən, qadın hərəkatının – "femin etirazı"nın üç mərhələsi seçilir.

Feminizmin ilk dalğası XIX əsr və XX əsrin birinci yarısına təsadüf edir və onun əsas mahiyyəti cinslərin hüquq bərabərliyinə nail olmaq uğrunda mübarizədən ibarətdir.

XX əsrin ortalarından etibarən feminizmin ikinci dalğası başladı və onun da əsasında qadınlarla kişilərin faktiki bərabərliyi uğrunda mübarizə dururdu. 70-ci illərin ortalarında və sonunda Qərbdə, xüsusilə ABŞ-da hərəkat daha kütləvi xarakter almışdı və müxtəlif çoxsaylı aksiyalarla, bir sıra təşkilatların və nisbətən kiçik olan çoxsaylı qrupların yaradılması ilə

müşayiət olunurdu.

80-ci illərin ortalarında feminizmin təsiri bir qədər azalmağa başladı. Tədqiqatçılar bunu Qərb ölkələrində neokonservativ istiqamətin möhkəmlənməsi, həmçinin feminizmin öz daxilində yaranan kəskin özünütənqidlə izah edirlər. Postmodernizm feminizminin tərəfdarları subyekt anlayışını bütövlükdə rədd edirlər. Onlar dəqiq müəyyən edilmiş keyfiyyətlərə mənsub olan sabit, universal subyektin özünü belə tənqid edirlər. Nəticədə feminizmin nəzəriyyəçiləri və praktikləri (icraçılar) arasında ziddiyyətlər artır. Beləliklə, feminizm ideyaları ictimai psixologiyaya çox böyük təsir göstərir. Çoxları qadının cəmiyyətdə roluna yeni nəzər salır, öz ailə üzvlərinə münasibəti dəyişirlər.

Təqribən XX əsrin 60-70-ci illərində dövründə feminizm ideyalarının təsiri altında elmi biliklər sistemində yeni bir cərəyan – feminizm tədqiqatları meydana gəldi.

Butövlükdə bu tədqiqatlar, humanitar elmlərin bütün sahələrinə yönələrək, ənənəvi intellektual və mədəni təsəvvürlərin tənqidi təhlili halını aldı. Belə tənqidin nəticəsində "subyekt-obyekt", "insan-təbiət", "kişilik"-"qadınlıq", "mən"-"qeyri-mən" kimi təsəvvürlər yenidən öyrənilib nəzərdən keçirilibdi. Nəticədə tədqiqatçıların qarşısında əvvəllər mümkün olmayan yeni araşdırma perspektivi açıldı. Qeyd edilməlidir ki, feminizm tədqiqatçıları apardıqları araşdırma prosesində siyasiləşməni ifrat dərəcəsinə çatdırdılar.

Feminizm tədqiqatlarına xas olan tənqidi mövqe onları sonradan formalaşan qadın, bir də gender tədqiqatlarından fərqləndirir. Feminizm bioloji-anatomik deyil, mədəni-psixoloji xarakter daşıyır. Buraya əmək bölgüsünün müəyyən tiplərini, tabeliliyin iyerarxik prinsiplərini, elmin, fəlsəfənin, tərəqqinin mücərrəd texnoloji anlamını aid etmək olar.

Feminizmin bir sıra istiqamətləri mövcuddur, onlardan bir qismi az tanınmış (məsələn, anarxofeminizm, konservativ feminizm, humanist feminizm), bəziləri isə kifayət qədər geniş müzakirə olunandır (burjua feminizmi, radikal feminizm, "qara feminizm"). Mübahisəli hesab edilməsinə baxmayaraq, bu bölgünü hələ də bəziləri qəbul edir. Bundan əlavə, qadınlar arasında həmrəylik və qarşılıqlı əlaqə bir termin kimi *bacəlıq (sis-*

*terhood)* adlandırılırdı. Bu, feminizmin ikinci dalğası tərəfindən qəbul olunmuş konsepsiyadır. Qadın cəmiyyətlərində qarşılıqlı dəstək, qayğı, can yandırma hər zaman mövcud olduğu üçün feminist hərəkatı qadınların bu münasibətlər sistemini siyasi termin kimi formalaşdırdı. Qərbdə erkən feminizmin şüarlarından biri "Güc bacılıqdadır!" ("Sisterhood is powerful!") fikri ilə ifadə olunub. Burada həmçinin feminist genezisini də nəzərdən keçirmək lazımdır. *Genezis*- yunan sözü olub mənşə, mənbə, yaranma mənalarında işlədilir. Bu termin etnoqrafiyada müəyyən bir xalqın, etnik birliyin mənşəyini öyrənən zaman qarşıya çıxır.

## 2. Feminist etnoqrafiya

*Feminist etnoqrafiya* — sosial antropologiya və sosiologiya üzrə empirik tədqiqatlar praktikasıdır. Feminist etnoqrafiya ənənəvi etnoqrafiyadan fərqli olaraq, yad cəmiyyətə uyğunlaşma ilə bağlı araşdırmaların nəticələrini təsviretmə üsullarından yararlanmağı, uzunmüddətli qarşılıqlı müşahidələr aparmaqla yanaşı, həm də alimlərin diskriminasiyaya qarşı yönəlmiş tədqiqatlarını da nəzərdə tutur. Feminist etnoqrafiya çox vaxt sosial məlumatların toplanmasına və analizinin pozitivist sxemlərinə əsaslanmış elmi təhlildə öz yeri olan sosial, o cümlədən gender və irsi bərabərsizliyin aradan qaldırılmasına istiqamətlənir.

Genderə etnoqrafik mətnlərin təhlili kateqoriyası kimi maraq, ilk dəfə XIX əsrin əvvəllərində yaranıb. Bu dövrə F.Raytın 1821-ci ildə nəşr olunmuş "Bu ölkədən İngiltərədəki dostlara göndərilmiş məktublarda Amerika cəmiyyətinə və adətlərinə baxış (1818, 1819, 1920-ci illər)" əsəri və Amerika cəmiyyətinin X.Martinin "Amerika cəmiyyəti" (1837) əsərində həyata keçirilmiş, etnoqrafik dəlillərə əsaslanmış feminist analizi aid edilir. XIX əsrin 80-ci illərində Siu hindli tayfasına yalnız baş çəkməklə kifayətlənməmiş, həm də uzun müddət onların arasında yaşamış və onların adətləri ilə yaxından tanış olmuş antropoloq A.Fletçerin işləri geniş şöhrət qazanmışdır. Onun Amerikanın kiçik Middltaun şəhərində 1924-cü ildə nəşr olunmuş məşhur etnoqrafik tədqiqatlarında gender aspektinin kifayət qədər geniş təqdim olunması ilə ilk genişmiqyaslı etno-

qrafik layihənin əsası qoyuldu.

Britaniyada feminist etnoqrafiya XX əsrin 50-ci illərində Mançester layihəsinin tətbiqi ilə inkişaf etdi. Brandis adına Amerika Hüquq Universitetinin Qadın Tədqiqatlar Mərkəzinin direktoru Şulamit Reynxarts feminist etnoqrafiyadan danışarkən, tədqiqat məqsədləri baxımından fərqlənən üç istiqaməti ayırır:

a) qadınların həyat və fəaliyyətinin sənədlərlə əsaslandırılması;

b) qadın təcrübəsinin onların öz nöqteyi-nəzərindən dərk edilməsi (bu istiqamət Q.Zimmelin işlərinə aiddir);

c) sosial konteksti ifadə edən qadın davranışlarının konseptuallaşdırılması.

Qadınların həyat və fəaliyyətinin sənədlərlə əsaslandırılması ənənəvi etiraz kimi və feminist sosioloqların fikrincə, əksər hallarda androsentrik meylli sosial tədqiqatlara qarşı narazılıq kimi meydana çıxır. Məsələn, belə tədqiqatlar yoxsul qaradərili qadınlara və irlandiyalı yaşlı işçilərə münasibətlərin təhlilində həyata keçirilib.

Tədqiq olunan qrupların həyatını özləri üçün daha məqbul etmək məqsədilə tədqiqatçılar dərin müşahidə praktikasını onların gündəlik həyatında intensiv iştirak etməklə birləşdirdilər. Qadınların, öz maraqları baxımından özlərini dərk etməsi onların fəaliyyətinin və düşüncə tərzinin bəsit olması haqqında (kişilərin qadınlar barədə bir qayda olaraq düşüncələri) qeyri-feminist müşahidənin əsas qüsurunu təshih (korrektə) edir. Üçüncü istiqamətdə feminist etnoqraflar qadın davranışını sosial kontekstdə nəzərdən keçirməyə cəhd göstərirlər və buna anatomiya, mədəniyyət və sinif anlayışlarından ayrılıqda baxılmasından çəkinirlər.

Feminist etnoqrafiyanın, əsasən, qadın məsələlərinin öyrənilməsi üzrə yönəldilməsinə baxmayaraq, genderin insan davranışına təsirinin düzgün başa düşülməsi üçün hər iki cins ilə bağlı tədqiqatlar da aparılır. "İştiraklı müşahidə" etnoqrafiyanın əsas metodudur. İstənilən halda iştiraklı müşahidənin strategiyasını müəyyən edən mülahizələr bir çox cəhətdən etnoqrafik tədqiqatların gedişatını şərtləndirir. Məşhur amerika sosioloqu Arli Hohşildin fikrincə, qadınlar tərəfindən həyata

keçirilmiş etnoqrafik müşahidələr (onların feminist olub-olmasından asılı olmayaraq) mahiyyətinə görə kişilərin yaratdığı etnoqrafik baxışlardan fərqlənir.

Yaxın dövrlərə kimi ölkəmizdə də feminizmin əleyhdarları bütün vasitələrlə sübut etməyə çalışırdılar ki, onun bizdə tətbiq olunmasına ehtiyac yoxdur, çünki dövlətin yürütdüyü siyasətin nəticəsində bu hərəkatın ali məqsədinə — qadınların siyasi və sosial-iqtisadi bərabərliyinə tam nail olunmuşdur. Odur ki, onların qarşılarına qoyduğu məqsədlər üçün mübarizə aparmağa heç bir əsas yoxdur. Lakin beynəlxalq təcrübə onu göstərir ki, feminist konsepsiyaların sosioloqlar və politoloqlar tərəfindən tədqiq olunmasına, alınmış nəticələrin real həyatda tətbiqinə ehtiyac duyulur.

Tədqiq olunması vacib olan məsələlər aşağıdakılardır:

- siyasi baxışların inkişafı yolu və qadınların cəmiyyətin sosial- siyasi plüralizm şəraitində davranışı;
- qadınların iqtisadiyyat haqqında düşüncələri və bazar münasibətləri;
- qadın menecmenti, qadınların siyasi liderliyi;
- qadınların ictimai rəyi və hakimiyyət institutları:
- qadınların seçkilərlə bağlı davranışı və seçki kampaniyaları;
- qadın elitası;
- bazar münasibətlərinə keçid zamanı qadınların sosial müdafiəsi və sosial zəmanətlər;
- sosial gərginlik və qadın kütləsi.

Ümumiyyətlə, belə bir sual meydana çıxır: qadınların ictimai fikri öyrənilməlidirmi? Əslində, qadın bir fərd kimi müstəqil subyektdir və ictimai fikrin əsas daşıyıcılarından biridir. Bu fikri Qərb alimləri də öz tədqiqatları ilə dəfələrlə sübuta yetirmişlər. Misal üçün göstərmək olar ki, bir çox inkişaf etmiş Qərb ölkələrində — ABŞ, Kanada və s. ölkələrdə cəmiyyətin müxtəlif problemləri ilə bağlı qadınların ictimai fikrini öyrənən xüsusi elmi mərkəzlər mövcuddur.

Qadınlar öz ictimai fikirlərində siyasətin subyekti kimi çıxış edirlər. Bir ictimai qrup kimi, onlar cəmiyyətin həyatına təsir göstərir, həm də spesifik qadın maraqlarını qoruyur, nəticə etibarilə öz sosial statuslarının artmasına nail olurlar. Aparılmış

tədqiqatlar onu göstərir ki, qadınlar öz mövqelərini ailə, məişət, istehsalat, mədəni və sosial məsələlərdə və yaxud ictimai fikrin müxtəlif sahələrində daha dəqiq və birmənalı şəkildə təyin edirlər. Siyasi proseslərin və onların gündəlik həyatımıza təsirinin qiymətləndirilməsində qadınlar kişilərdən fərqli olaraq, daha mülayim mövqe tuturlar. Qadınların ictimai rəyi kişilərinkindən fərqlənir, daha konstruktiv və pozitivdir. Görünür, belə hallarda qadına xas olan dözümlülük və rəhmlilik kimi xarakterik xüsusiyyətlər özünü göstərir. Qadın ictimai rəyi siyasi və iqtisadi proseslərin inqilabi yolla deyil, evolyusiyalı inkişafına üstünlük verir. Onun tənzimləyicisi sosial tələblər və uzunmüddətli xarakterik maraqlardır: ailənin qorunması, uşaqlar və yaxınları haqqında qayğı, yaşamaq hüququna real təminat, gələcək həyata ümid, sosial sabitlik və ictimai sakitlik marağı.

### 3. Qadın hərəkatının inkişaf mərhələləri

Bəşəriyyətin inkişaf tarixi mərhələləri boyunca qadınlar kişilərlə bərabər eyni hüquqlar qazanmaq uğrunda mübarizə aparmışlar. Sözügedən mübarizənin özünəməxsus inkişaf yolu və böyük tarixi vardır.

"Qadın hərəkatı" anlayışının mənası qadınların öz hüquqları və maraqları uğrunda mübarizə formalarının müxtəlifliyini göstərir. Sosioloqlar əsasən, qadın hərəkatını sosial hərəkatın bir forması kimi öyrənirlər. Qadın hərəkatı özlüyündə bir məqsəd ətrafında birləşmiş, ümumi mənəvi dəyərlərə, normalar sisteminə və qadın mənafelərinə malik olan müxtəlif sosial, demoqrafik, etnik və milli qadın qruplarının birgə fəaliyyət istiqamətidir.

Bu hərəkatın kökləri hələ XVII əsrə aparıb çıxarır. O dövrdə feminizmi qadınların bərabərliyinin əsas məqsədləri kimi bəyan etmiş inqilabi ruhlu burjuaziya sinfinin mütərəqqi fikirlərindən bəhrələnən əks cins üçün ideologiyaya çevrilmişdi. XVII əsrin feminist qadınları öz siniflərinin, zəmanələrinin nümayəndələri idilər. Lakin onlar feodalizmin kapitalizmə keçməsi nəticəsində cəmiyyəti əhatə etmiş dəyişikliklərin qadınların vəziyyətinə təsiri ilə heç cür barışa bilmirdilər. XVIII əsrin uğurlarına qədər qadınların siyasi, ictimai haqları demək

olar ki, yox idi. İstər dini məzhəblər, istərsə də qanunlar qadınları bir çox haqlardan məhrum edirdı. Qadınlar özləri mülkiyyət sahibi ola, heç bir işə qatıla bilmirdilər. XVIII əsrin axırlarında feminist qadın hərəkatına qatılanlar özlərinin ideoloqu kimi Böyük Fransa inqilabının tərəfdarı, ingilis jurnalisti, xanım M.Uolstonkraftı irəli çəkirlər. Onun kəskin məzmunlu ifşaedici çıxışları və məqalələri, qadını alçaldan ictimai quruluşun dəyişdirilməsinə yönələn çağırışları, sanki barıt partlayışına bənzəyirdi.

Bu ideyalar uzun müddət yaşadı və sonradan qadınların bərabərhüquqluluğu uğrunda mübarizənin tərəfdarları olan sufrajist qadınlar tərəfindən daha da inkişaf etdirildi.

"Sufrajizm" — İngiltərədə XIX əsrin ikinci yarısında yaranıb. Sufrajizm iki, sağ və sol qollara ayrılır. Sağ qolda birləşən liberal hərəkatın nümayəndələri mübarizənin konstitusion üsullarla aparılmasının tərəfdarları kimi çıxış edirdilər. Sol — radikal Britaniya sufrajizminin "Militant" adlanan nümayəndələri sağ qolun sufraistlərindən yalnız taktikaları ilə fərqlənirdilər. Onlar əzmli, qeyri-konstitusion vasitələrdən istifadə edirdilər. Liberal və radikalların seçki mitinqlərini pozmağa çalışır, ictimai yerlərdə nümayişlər təşkil edir, icazəsiz paradlar və yürüşlər keçirirdilər. Sufrajist qadınların əsas tələbi onlara seçmək hüququnun verilməsi idi. Bu qadınlar səmimiyyətlə inanırdılar ki, seçmək hüququ qadınların kişilərlə bərabər hüquqluluğunu təmin edəcək, əmək sahəsində bərabər ödənişin aparılmasına imkan yaradacaq, məktəblərə, kolleclərə və müxtəlif ixtisaslı peşələrə yiyələnməyə yol açacaqdır. Eyni zamanda bu vasitə ilə cəmiyyətdə qadınlara qarşı zorakılıq və cinayətlər dalğasının qarşısı alınacaqdır.

XX əsr sosial transformasiya, elmi-texniki yüksəliş və inkişaf dövrü olmaqla yanaşı, "qadın inqilabı" dövrüdür. Dünya tarixindən məlumdur ki, bir sira iri siyasi sosial-iqtisadi böhranlar dövründə qadınlar ictimai hərəkatların yaranmasının ilkin təşəbbüskarı və bəzən də liderləri rolunda iştirak etmişlər. Bu zaman onlar nəinki "güclü cinsi" təkrar etmir, hətta kişilərə, onların əxlaqına, dünyagörüşünə və s. nüfuz edirdilər. Qadınlar dövrün nəbzini tutaraq, həm də siyasətin subyekti kimi, qadınlar özlərinin güclü olmayan strukturlu özünütəşkil forma-

larını yaradırlar. Bu təşkilatlarda ümumi maraq dairəsi olan qadınlar qısa və ya uzun müddətə birləşirlər.

Qadınların Azadlığı Uğrunda Hərəkatın (QAUH) iştirakçıları -neofeminist qadınlar da fəallıq göstərirlər. Bu hərəkat öz-özünə yaranmamışdı, qadınların cəmiyyət tərəfindən alçaldılmasına qarşı etirazının təşkilatlanmış formada təsdiqi idi. QAUH əsrimizin 60-cı illərində ABŞ-da iqtisadi və siyasi həyatda, ailədə hüquqların tapdanmasına, qadın mənliyinin alçaldılmasına, mənəvi zorakılığa qarşı mübarizədə meydana gəlmişdir. Feminist qadınların ideyaları kütlə arasında canlı əks-sədaya səbəb olmuşdur. Bir çox tədqiqatçıların fikrincə, bu illərdə ABŞ-ın qadın hərəkatını məhz feminist qadınlar idarə edirdilər. Bu hərəkat tezliklə Böyük Britaniya, Kanada, Avstraliya, Yeni Zelandiya və Skandinaviya ölkələrində geniş vüsət tapdı.

XX əsrin əvvəllərində həmçinin "qadınların azad olmasının humanist yolları" ideyası da ortaya çıxmışdı. Bu fikrin müəllifi, feminist utopiyanın banisi Ş.P.Kilman belə hesab edirdi ki, mübarizənin əsasında qadınların ictimai prosesləri dərk etməsinin inkişafı durmalıdır. Qadınların azad olmasının bütün əvvəlki ideyalarına qarşı müəllif tamamilə yeni, humanist nəzəriyyəni "sosializm uğrunda qadınların dinc kollektiv çıxışları" ideyasını qoyurdu.

XX əsrin əvvəllərində bir çox ölkələrdə qadınlar arzu etdikləri siyasi hüquqlara nail ola bildilər, lakin bu, onların həyatında heç bir əhəmiyyətli, nəzərəçarpacaq dəyişikliklərə gətirib çıxarmadı və qadınlar bunu çox sonralar dərk edə bildilər.

İkinci Dünya Müharibəsindən sonra, sufrajist qadın hərəkatının başında dayanmış, əhalinin orta təbəqəsindən olan amerikalı və ingilis qadınlar, uzun müddət demokratik hüquqlar uğrunda gedən mübarizədən kənarda qalmışdılar. Onların mübarizəyə qoşulmasına və aktivləşməsinə 1963-cü ildə işıq üzü görmüş "Qadınlığın mistikası" kitabı (müəllifi xanım B.Fridandır) qüvvətli təkan verdi. Bu kitabın əsasını sosioloji tədqiqatlar təşkil edirdi. Kitab təbliğat maşını tərəfindən yaradılmış ideal burjua ailəsini, amerikansayağı qadın xoşbəxtliyini və istehlakçı-qadın stereotipini tamamilə ifşa edir, kollec qadınların özlərinə ər tapa biləcəyi yer kimi səciyyələndirilirdi.

Qadın cinsindən olan tələbələr həddindən artıq "düşünən" görünməmək üçün öz biliklərini nümayiş etdirməməliydilər. Müəllif etiraz etməyə çağırır və belə nəticəyə gəlmişdi ki, "Yalnız xəstə cəmiyyət öz problemlərini görmək istəmir, öz üzvlərinə bərabər imkanlar yaratmır və qadınlarının bacarıqlarına biganə qalır". Tənqidçilərin və mətbuatın etiraf etdiyinə görə, xanım B.Fridanın kitabı əhalinin orta təbəqəsinə mənsub qadınlar üçün ensiklopediyaya çevrilmişdi.

Elə bu dövrdə xanım B.Fridanın həmfikirləri Qadınlar Milli Təşkilatını (QMT) təsis etdilər. Təşkilatın əsas tələblərini, əməyin ödənilməsində qadınlara qarşı hüquq pozuntularının ləğv edilməsi və qadınların imkanlarına biganə qalan qanunvericiliyə yenidən baxılması idi. Bu təşkilat liberal feminizmin əhval-ruhiyyəsini əks etdirirdi, bir çox ölkələri bürümüş qadın azadlığı uğrunda hərəkatın tərkib hissəsi idi.

1970-ci ildə Nyu-York şəhərində "Qadınların birliyi hər şeyə qadirdir" adlı antologiya işıq üzü gördü. Toplunun 50 müəllifinin hamısı (yazıçılar, jurnalistlər, müəllimlər, həkimlər, hüquqşünaslar, rəssamlar və b.), müxtəlif millətlərin və siniflərin nümayəndələri, radikal feminizm ideyalarının tərəfdarları idi. Onların əksəriyyəti tələbələrin kütləvi etiraz çıxışlarının iştirakçısı olmuşdu və solçu hərəkatın sıralarında birləşirdi. QMT-nin bəzi iştirakçıları belə hesab edirdilər ki, qadınların bu vəziyyətinin kökünü dövlətin siyasi sistemində axtarmaq lazımdır və onların fikrincə, belə sistemi yaradan kişilərdir. Nəticədə, kişilərə qarşı mübarizə aparmaq lazımdır. Lakin hərəkatın başında duran kişilərin qadınların tələblərinə biganə qalmaları QMT-nin yalnız qadınlardan ibarət müstəqil hərəkat yaratmasına səbəb oldu.

Qeyd etdiyimiz kimi, Qadınların Azadlığı Uğrunda Hərəkat əsrimizin 60-cı illərinin ortalarında ABŞ-da yaranmışdı. İlk vaxtlar ölkənin bir neçə iri şəhərində fəaliyyət göstərdiyi halda, artıq 70-ci illərdə bu hərəkat dalğası ABŞ-ın bütün şəhərlərini bürümüşdü. Bundan əlavə, tibb bacıları və silahlı qüvvələrdə xidmət göstərən qadınlar qruplar şəklində hərəkata qoşulurdular. Eyni zamanda yaşlı qadınların da bu hərəkatda ayrıca qrupu yarandı. Katolik kilsələrində xidmət göstərən rahibə qadınlar bütünlükdə kişilərdən ibarət olan klerikal iyerarxiyadan özləri üçün daha çox müstəqillik tələb etməyə başladılar. Qadın əməyinin

qiymətləndirilməsindəki haqsızlığa və abortun qadağa olunması ilə bağlı qanuna etiraz əlaməti olaraq çox sayda nümayişlər və marşlar keçirilirdi. Feminist qadınlar (hərəkatın əvvəlində iştirakçılar tamamilə ağ irqə mənsub qadınlardan ibarət idi) ABŞ-ın qara dərili qadınlarına da müəyyən təsir göstərirdilər. Əvvəllər bu qadınlar vətəndaşlıq hüquqları uğrunda öz irqlərinə mənsub kişilərlə bərabər mübarizə apardıqları halda, sonralar ayrılaraq qaradərili qadınların azad olunması uğrunda müstəqil hərəkat yaratdılar. Amerikalı neofeminist qadınların hərəkatı digər ölkələrdə də geniş vüsət aldı. Tezliklə Qadınların Milli Təşkilatının ardıcılları Kanadada, Fransada, Avstraliyada, İsveçdə, Yaponiyada, Almaniyada, Hollandiyada, Finlandiyada və Böyük Britaniyada meydana çıxdı. Bu hərəkatın əsas tələbləri:

- əməyə görə bərabər ödənişlər;
- bərabər təhsil və imkanlar haqqı;
- sutka ərzində ödənişsiz körpələr evi;
- abort etmək haqqı və hamiləliyin qarşısını almaq üçün ödənişsiz vasitələr;
- ailə vəziyyətindən asılı olmayaraq, bütün qadınların təcavüzə məruzqalma qorxusundan azad olmaları;
- kişilərin üstünlüyünü və qadınlara qarşı güc tətbiq olunmasını müdafiə edən bütün institutların ləğv edilməsi və s.

80-ci illərin əvvəllərində İngiltərə, Şotlandiya, Uels və Şimali İrlandiyanın müxtəlif guşələrində kişilərin təcavüzündən qorunan qadınlar üçün 100-dən artıq sığınacaq yaradılmışdı. Burada onların özləri və övladları üçün kişilərdən iqtisadi cəhətdən asılı olmamaq uğrunda mübarizə yolları öyrədilirdi. Feminist qadınlar etiraz yürüşləri təşkil edir, qadınların özlərini küçələrdə təhlükəsiz hiss etmələri uğrundakı mübarizəsinə ictimaiyyətin diqqətini cəlb etməyə çalışırdılar. Zor işlətməyə qarşı keçirilən etiraz həftələri zamanı feminist qadınlar müvafiq ədəbiyyat və vərəqələr yayır, teatrlaşdırılmış tamaşalar göstərirdilər. Bundan əlavə, QAUH-un iştirakçıları öz qrupları nəzdində uşaq bağçaları və körpələr evləri təşkil etmiş, boşanan qadınlar üçün qadın evləri və məsləhətxanaları açmışdılar. Eyni zamanda onlar həbsdə olan qadınların azad edilməsi məqsədilə xüsusi fondlar yaratmışlar.

Qarşıya qoyulmuş tələblərin hamılıqla qəbul olunması,

konkret fəaliyyət istiqamətləri, aktiv iş metodları, qarşılıqlı anlaşma və yardım mühitinin yaradılması üçün edilən səylər, neofeminist qadın hərəkatını güclü və hesablaşmalı qüvvəyə çevirmişdi. "Sırf qadın problemləri"nin dar çərçivəsindən tədricən çıxaraq, daha geniş spektrə malik qlobal problemlərə müdaxilə etdikcə, QAUH-un nümayəndələri demokratik və mütərəqqi qüvvələrin ümumi mübarizəsinə qoşulmağa başladılar.

Feminist qadınların müharibə əleyhinə aparılan hərəkatda da öz yerləri olmuşdur. Müdafiə Nazirliyinin qarşısında piketlər keçirilməsi və hərbi bazaların ətrafında sülh düşərgələrinin yaradılması ilə bağlı tələblər səslənirdi. Feminist qadınların və sosialist ölkələri qadınlarının kütləvi nüvə qırğın silahlarının tamamilə ləğv olunmasına çağırış tələbi BMT-nin Baş Assambleyasının II xüsusi sessiyasına ünvanlanmış və birgə petisiya hazırlanmışdır. Bu sənəd kütləvi nüvə qırğın silahlarının tamamilə ləğv olunmasına çağırış tələbi idi. Nəhayət, 1982-ci ildə Qərb və Şərq ölkələrindən keçməklə, birgə sülh yürüşünün təşkili ideyası gerçəkləşdi. Danimarkanın Kopenhagen şəhərindən başlanğıcını götürmüş bu yürüş Finlandiya, sovet şəhərləri olan Leninqrad (indiki Sankt-Peterburq) və Minskdən keçərək Belarusdakı Xatın memorial-xatirə kompleksində sona yetdi. Bu yürüşün İsveçdən, Danimarkadan, Norveçdən, Finlandiyadan, keçmiş Sovetlər İttifaqından olan iştirakçılarını eyni şüarlar və tələblər birləşdirirdi. Beləliklə, altı illik mübarizənin nəticəsi olaraq, nüvə silahlarının qarşılıqlı ləğv olunması haqda Sovet-Amerika Müqaviləsi imzalandı.

Dünya qadın hərəkatının inkişaf mərhələlərini nəzərdən keçirərkən qeyd olunmalıdır ki, son onilliklər beynəlxalq qadın hərəkatının ciddi bir siyasi qüvvəyə çevrilməsi ilə əlamətdardır. Son dövrlər ideoloji baxımdan fərqli baxış tərzlərinə baxmayaraq, bütün səylərin birləşdirilməsi üçün qarşılıqlı addımların atılması istəyi aydın nəzərə çarpır. Beynəlxalq forumlar, konfranslar miqyasında görüşlər təşkil olunaraq, ümumi qərarlar qəbul edilməsi üçün platformalar müəyyən edilir. Qadınlar "soyuq müharibə" nəticəsində uzunmüddətli fasilələrə səbəb olmuş və arası kəsilmiş qarşılıqlı əlaqələri ya bərpa etmiş, ya da daha da möhkəmləndirmişlər. Onlar xalq diplomatiyasının təşəbbüskar və fədakar nümayəndələrinə çevrilmiş, mübarizləş-

mişlər. Bu bir faktdır ki, XX əsr qadınların cəmiyyətdə statusunu dəyişdirmiş, onların dövlət quruculuğuna cəlb edilməsi, idarəçilik və idarəetmə sahəsində qadın və kişilərin bir-birini tamamlamasına zəmin yaratmışdır.

**4. Beynəlxalq qadınlar günü**

8 Mart bayramı qadın hərəkatı sayəsində meydana gəlib və başlanğıcda özünü siyasi aksiya kimi göstərmişdir. Qadınların kişilərlə bərabər hüquqlu olmaq uğrunda apardığı mübarizənin başlanğıcı olaraq, 8 Mart 1857-ci il tarixində ABŞ-ın Nyu-York şəhərində tikiş və ayaqqabı fabrikinin 40.000 qadın işçisinin daha yaxşı iş şərtləri tələbi ilə nümayişə çıxıb, tətil etməsi qəbul edilir. O zaman qadınlar gündə 16 saat işləyirdilər, çünki onların əməyi daha az peşəkar hesab edilirdi. Nyu-Yorkun toxucuları aşağı qazanclara və yarıtmaz əmək şəraitinə qarşı etiraz edərək, şəhərin küçələri ilə marşla keçdilər. Ancaq polisin işçilərə hücum etməsi, onların fabrikdə qıfıllanmış qapı arxasında qalması, ardınca da baş verən yanğın səbəbindən işçilərin fabrik qarşısında qurulan barrikadalardan qaça bilməməsi nəticəsində çoxu qadın olmaqla 129 işçi dünyasını dəyişdi. İşçilərin torpağa tapşırılması mərasiminə 100 mindən çox adam qatıldı.

1857-ci il 8 Mart tarixindən sonra ilk dəfə olaraq qadın üzvlərdən ibarət yeni "həmkarlar ittifaqı" təşkilatı yarandı. Həmin gün Nyu-Yorkun bir çox müəssisəsində yüzlərlə qadın nümayişə çıxaraq, "seçki" hüququnu tələb edirdilər.

8 mart 1908-ci ildə Nyu York Sosial-Demokrat Qadın Təşkilatının çağırışı ilə 15 min qadın, daha qısa iş saatı, kişilərlə bərabər əmək haqqı və səsvermə hüququ üçün nümayiş keçirdi. Nümayişdə ilk dəfə olaraq ayrıca dekret məzuniyyəti icazəsini istəyən qadınların şüarı "Çörək və çiçək" sözləri idi. Çörək həyat eşqini, qarın toxluğunu, çiçək isə daha yüksək həyat rifahı və tərzini ifadə edirdi.

26-27 avqust 1910-cu il tarixində Danimarkanın Kopenhagen şəhərində İlk Beynəlxalq Qadınlar Yığıncağında (Beynəlxalq Sosialist Qadınlar Konfransı) Almaniya İctimai Demokrat Partiyası liderlərindən Klara Setkin, 8 mart 1857-ci il tarixindəki tekstil fabriki yanğınında ölən qadın işçilərin

xatirəsinə 8 mart tarixinin "Dünya Qadınlar Günü" kimi qeyd olunması təklifini irəli sürdü və bu təklif qəbul edildi. Odur ki, alman inqilabçısı Klara Setkin Beynəlxalq qadınlar günü ideyasının müəllifidir.

1911-ci il 19 mart tarixində bu bayram Avstriya, Danimarka, Almaniya və İsveçrədə qeyd olundu. O zaman milyondan artıq kişi və qadın nümayişlərdə iştirak etdilər. "Seçmə və rəhbər vəzifələri tutma hüququ" ilə yanaşı qadınlar kişilərlə bərabər, eyni işləri icraetmə hüququnu da tələb edirdilər.

Yeri gəlmişkən, 1918-ci ildə Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətində qadınlara kişilərlə bərabər seçib-seçilmək hüququ verilmişdir.

15 aprel 1915-ci ildə Birinci Dünya Müharibəsi ərəfəsində Haaqada (Niderland) qadinların kütləvi iclası keçirildi. Bu mötəbər tədbirdə 12-dən artıq ölkəni təmsil edən 1300-dən çox iştirakçı var idi.

1917-ci ildə Çar Rusiyasında qadınlar Sankt-Peterburqda "Çörək və Sülh" uğrunda, I Dünya Müharibəsinin, Rusiyadakı ərzaq qıtlığının və çarizmin sonunu tələb edərək tətilə çıxdılar. Bu nümayişlər Fevral İnqilabının əsasını qoydu. 4 gün sonra II Nikolay taxtdan düşdü. Müvəqqəti hökumət qadınlara seçmə hüququnu zəmanət etdi. Sovet hakimiyyətinin ilk illərində bolşeviklər siyasi zərurətə uyğun olaraq, yeni Sovet qadını obrazı yaratdılar, onun rol və vəzifələrinə uyğun xüsusiyyətlərini müəyyən etdilər. Həm də, 8 martın bayram kimi qeyd edilməsindən Sovet qadınının həyatının məhz ictimai tərəfini gücləndirmək üçün istifadə olundu. Bolşevik ideologiyası "zəhmətkeş" siniflərin - fəhlə və kəndli qadınların maraq və tələbatlarına üstünlük verərək, bərabərliyin sinfi xarakterini təkidlə qeyd edirdi.

1920-ci illərdən başlayaraq, 8 mart qadınların öz hüquqları uğrunda mübarizə aparmaq kimi siyasi aksiyadan Beynəlxalq İşçi Qadınlar Gününə çevrildi və istirahət günü kimi təsbit olunmamasına baxmayaraq, rəsmi bayram statusu aldı.

1930-cu illərdən başlayaraq, dövri mətbuat müntəzəm olaraq, Beynəlxalq Qadınlar Günündə iddia edirdi ki, SSRİ-də qadınların hüquq bərabərliyi heç də formal deyil, onlar real olaraq öz hüquqlarından istifadə edirlər.

Beynəlxalq Qadınlar Gününün bayram edilməsi dövlət miqyası alırdı. Bayramın ictimai xarakteri qadınların öz hüquqları uğrunda beynəlxalq hərəkat tərəfindən dəstəklənirdi.

Müxtəlif illərdə bəzi ölkələrdə qeyd edilməsi qadağan olunan 8 mart tarixi 1960-cı ildən sonra ABŞ-da da qeyd edilərək dünyanın gündəminə gəlməyə başladı.

1975-ci il dünya qadınları üçün xüsusi əhəmiyyət daşıyır. Həmin ilin Beynəlxalq qadın ili elan edilməsindən sonra BMT-də 1975-ci ilin 8 mart günü ilk dəfə Beynəlxalq Qadınlar Günü olaraq keçirildi. İki il sonra 1977-ci ildə isə BMT-nin Baş Assambleyası ilin bir gününü beynəlxalq qadın hüquqlarına və beynəlxalq sülh gününə həsr olunması ilə bağlı Qətnamə qəbul etdi. 1981-ci ildən 21 sentyabr tarixi bütün dünyada Beynəlxalq Sülh Günü kimi qeyd edilir.

Azərbaycanda 8 mart bayramı 1917-ci ildən qeyd olunur. Beynəlxalq qadınlar günü Sovetlər hakimiyyətinin ilk illərindən dövlət bayramı kimi qeyd edilir. 1965-ci ildən isə bu gün artıq iş günü hesab olunmurdu.

Birliyinin dağılmasına baxmayaraq, 8 mart bir çox post-sovet ölkələrində - Azərbaycan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Tacikistan, Türkmənistan, Ukrayna və Belarusda bu günə qədər qeyd olunur. Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra da bayram öz mahiyyətini qoruyub saxladı.

Beynəlxalq Qadınlar Günü eyni zamanda qadın hüquqlarının genişləndirilməsinin və bu gün qadının daha azad olmasının tarixi səbəblərinin xatırlanması üçün də xüsusi əhəmiyyət kəsb edir. 8 mart günü siyasi ənənə olaraq, bəzi ölkələrdə, o cümlədən Avstraliyada indiyədək fəal surətdə dəstəklənir. XX əsrin sonu - XXI əsrin başlanğıcında isə əksər ölkələrdə bu bayram qadın hərəkatlarının yeni simvolik resurslarına çevrilərək, yenidən yaranması dövrünü yaşayır. Xüsusilə 8 mart günündə zorakılığa qarşı aksiyalar, krizis mərkəzlərinin təqdimatları, qadın və hüquq müdafiəsi təşkilatlarının beynəlxalq forumları keçirilir.

## 5. Azərbaycanda qadın məsələsinin tarixçəsi

Qərbdə və bütün dünyada qadın hərəkatının tarixi, onun əldə etdiyi nailiyyətlər Azərbaycanda feminizmin inkişaf im-

kanları və perspektivinin aşkar olunmasını, öyrənilməsini, düzgün strategiya seçmək üçün onun inkişaf mərhələlərinin, əsas istiqamətlərinin işıqlandırılmasını zəruri edir. Lakin burada yerli milli ənənələrin, xüsusiyyətlərin, mentallığın nəzərə alınması olduqca əhəmiyyətlidir. Bunun üçün də tarixə nəzər salmaq – Azərbaycanın tarixində qadının rolu və fəaliyyətini, onun bu sahədə təcrübəsini aşkar etmək gərəkdir.

Azərbaycanda qadınlara aid tarixi məqamlar 1960-cı ildə arxeoloqların kəşf etdiyi Azıx mağarasındakı tapıntılarda, Qobustanda, Qarğalartəpəsi və başqa yerlərdəki mezolit, neolit və eneolit məskənlərində aşkar edilmiş təsvirlərdə və digər çox qədim məkanlarda öz əksini tapmışdır. Tarixi Azərbaycan da Qafqaz kimi, dini sistemlərin – konfessiyaların (zərdüştlük, xristianlıq, iudaizm və nəhayət, islam) mərkəzi idi. Bütün bunlar qadının vəziyyətində də öz əksini tapırdı.

Orta əsrlərdə alban qadınları – çariçələr, knyaginyalar cəmiyyətin mədəni həyatına aktiv şəkildə daxil olmağa başladılar. Müxtəlif tikililərin divarındakı çoxsaylı yazılar və tarixçilərin şəhadətləri təsdiq edir ki, müxtəlif əsrlərdə abidələrin tikintisində alban qadınlarının rolu mühüm olmuş və onlar xüsusən ruhani xidmətli tikililərinin yaradılmasında seçilmişlər. Alban knyaginyaları monastırların, kilsələrin ucaldılmasına və bəzədilməsinə külli miqdarda maliyyə vəsaiti ayırırdı. Bu, onların alban mədəniyyəti və təhsilinin inkişafı və yayılması işində tutduqları böyük və mühüm rolu anladıqlarından irəli gəlirdi. O dövrün tarixçiləri həmin alban qadınlarının adını öz əsərlərində böyük minnətdarlıqla çəkirdi.

Azərbaycan qadını öz iradəsi və mərdliyi, saflığı və sədaqəti ilə cəmiyyətimizin həyatında, xalqımızın milli-mənəvi dəyərlər sisteminin formalaşdırılmasında müstəsna rol oynamışdır. Xalq yaradıcılığı nümunələrində, qədim rəvayət və dastanlarımızda yüksək mənəvi dəyərlərlə səciyyələnən gözəl qadın obrazlarının bədii təsviri verilmişdir.

Azərbaycan qadınının cəmiyyətimizin inkişafında əvəzedilməz rolunu yazıçı – jurnalist, araşdırmaçı, alim Sabir Gəncəli də araşdırmışdır. Azərbaycan nağıllarını, dastanlarını, ulu tariximizin möhtəşəm yadigarı olan "Kitabi Dədə-Qorqud" və xalqımızın qəhrəman keçmişindən bəhs edən kitabları oxu-

yanda Azərbaycan qadınının vətənpərvərliyi, işgüzarlığı, qoçaqlığı göz önündə canlanır. Qədim yunan şairi Esxil yazırdı: "Midiyada və Qafqazda yaşayan qızlar qorxmazdırlar".

Azərbaycan hökmdarı Tomris hələ e.ə. VII əsrdə İran şahı Kirin Azərbaycana hücumunun qarşısını almaq üçün böyük səy, ağıl və mətanət göstərmişdir.

E.ə. 65-ci ildə Roma sərkərdəsi Pompeyin qoşunları Azərbaycana soxulanda döyüşlərdə kişilərlə bərabər əli silahlı qadınlar da doğma yurdunu işğalçılardan qoruyur, vuruşmalarda əsl igidlik göstərirdilər. Qədim Roma tarixçisi Appian yazırdı ki, yaralı döyüşçülər arasında çoxlu qadın da vardı.

Xalqımızın ərəb istilasına qarşı əsrlər boyu apardığı mübarizə tarixinə Azərbaycan qadınları şanlı səhifələr yazmışlar. Xürrəmilərin və xalq qəhrəmanı Babəkin başçılığı altında ərəb işğalçıları əleyhinə qalxan xalq qiyamında neçə-neçə igid qadın əri və oğlu ilə çiyin-çiyinə vuruşmuşdur.

XII-XIII əsrlərdə yaşamış bir çox azərbaycanlı qadının adı tarixə düşmüşdür.

Öz ağlı, fəaliyyəti ilə məşhurlaşan Azərbaycan qadınlarından biri Möminə xatun (doğulduğu il müəyyən olunmayıb, 1175-ci ildə vəfat edib) idi. O, II Sultan Toğrulun arvadı idi. Onun ölümündən sonra isə Atabəylər dövlətinin banisi Şəmsəddin Eldənizin arvadı olan Möminə xatun ərinin və övladları Nəsrəddin Məhəmməd Cahan Pəhlivanın və Müzəffərəddin Osman Cahan Arslanın hökmdarlığı dövründə böyük siyasi rol oynayıb. Salnaməçi Sədrəddin əl Hüseyni yazır ki, Möminə xatun həmişə Şəmsəddin Eldənizi ölkə səyahətlərində müşayiət edirdi, dövlət əhəmiyyətli məsələlərin həllində onun fikri ilə hesablaşırdılar. Möminə xatun xalq arasında da böyük hörmətə layiq idi, çünki ölkə vətəndaşlarının taleyinə və maraqlarına biganə deyildi, mədəniyyətin, maarifin inkişafına yardım edirdi. Bu ağıllı və hörmətəlayiq qadının şərəfinə Naxçıvanda nadir və möhtəşəm məqbərə tikilib.

Azərbaycan xalqının təşəkkül tapdığı bu çətin, gərgin dövrdə səlcuqilər, oğuzlar, atabəylər nəsillərindən olan qadınlar böyük ağıl, kamal, mətanət nümayiş etdirmiş, hərbi-siyasi hadisələrdə fəal mövqelərdə olmuşlar. Cahan Pəhlivanın arvadı Qüteybə xatun, Zahidə xatunun qızı Cəlaliyyə və nəvəsi, Ruin

Dec qalasının sahibəsi Silafə xatun və başqa xanımlar tarixdə unudulmaz iz qoymuşlar.

Sultan Toğrulun qızı, Atabəylər dövlətinin son hökmdarı olan Müzəffərəddin Özbəyin arvadı, XIII əsrin əvvəlində yaşayan Mehrican xatun da görkəmli şəxsiyyət olub. O, dövlətin idarə olunması və siyasətlə bağlı məsələlərdə fəal mövqeyə malik idi. Xarəzmşah Cəlaləddin çoxminlik ordusu ilə Atabəylərin hakimiyyətində yerləşən əraziyə soxulanda iradəsiz və qeyri-təşəbbüskar, vaxtını kef məclislərində keçirən Atabəy Özbək Gəncəyə, oradan da Naxçıvana qaçdı, sonra isə Əlincə qalasında gizləndi. Qorxaq ərindən fərqli olaraq, Mehrican xatun Təbrizi tərk etmədi, ətrafındakıları və xalqını başsız qoymadı. Onun mərdliyindən xəbər tutan və iti ağlı, möhkəm xasiyyəti barədə eşitmiş olan Xarəzmşah Cəlaləddin Urmiyada Salmas vilayətinin Xoy şəhərinin hökmdarlığını ona tapşırdı. Özü isə vətənini monqollardan xilas etmək üçün ölkəni tərk etdi. Lakin vaxt keçdikdən sonra onun sədaqətsiz vəziri Atabəylər nəslini onların malik olduğu torpaqlardan məhrum edərək, bu vilayəti Mehrican xatundan almaq fikrinə düşdü. Özünəməxsus ağıl və bacarıqla Mehrican xatun öz xalqını yadelli işğalçıya qarşı mübarizəyə qaldıraraq düşmənə müqavimət göstərdi və Azərbaycan torpaqlarının müstəqilliyini saxlaya bildi. Onun ağlı, dövlət xadiminə xas olan xüsusiyyətləri xüsusən Təbrizin müdafiəsi zamanı aşkar oldu. Maraqlıdır ki, Naxçıvan şəhərinin də müdafiəsinə qadın-Cahan Pəhlivanın qızı Cəlaliyyə başçılıq edirdi və işğalçılar biabırçılıqla geri çəkilməli olmuşdu. Onu da qeyd edək ki, görkəmli alim, Azərbaycanın xalq yazıçısı Əzizə Cəfərzadə Cəlaliyyə xatunun qəhrəmanlığını məşhur "Cəlaliyyə" romanında təsvir edib.

XIV-XV əsrlərdə Qaraqoyunlu dövlətinin başçısı Qara Yusifin arvadı Əleykə Könüldaş öz cəsurluğu, ağlı və ərinə sadiqliyi ilə şöhrət qazanmışdı. 1421-ci ildə Təbriz yaxınlığındakı Aləşkərd çölündə Sultan Şahroxun qoşunlarına qarşı vuruşmalarda Qara Yusifin oğlu Cahanşahla yanaşı, mərd, qorxmaz Əleykə Könüldaş da böyük şücaət göstərmişdir.

Ağqoyunlu Uzun Həsənin anası Sara xatunun siyasi və dövlət işlərində uzaqgörənliyi, tədbirliliyi diqqəti cəlb edirdi. Sara xatun Şərq aləmində görkəmli diplomat qadın idi. Onun

təşəbbüsü və səyləri nəticəsində bir sıra diplomatik danışıqlar müsbət nəticələr vermişdi.

Azərbaycanın qüdrətli Səfəvilər dövlətinin təşəkkülü, idarəsi və möhkəmlənməsi işində böyük xidmətləri olmuş neçə-neçə igid, ağıllı, tədbirli qadının adı tariximizin qızıl səhifələrinə yazılmışdır. Şah İsmayıl Xətainin qızı Məhinbanu Sultan sülhsevər, xeyirxah və tərəqqipərvər bir xanım olmuşdur.

Osmanlı dövləti ilə Səfəvi şahlığı arasında ziddiyyətlərin yumşaldılması və sülh yolu ilə həll olunmasında o, böyük rol oynamışdı. Məhinbanu xanım türk sultanının qızı ilə yazışır, öz məktublarında sultan qızını da müharibə əleyhinə olmağa sövq edir və hər iki hökmdarı bu qanlı yoldan çəkindirməyə çalışırdı.

XVIII əsrin ortalarında Azərbaycanı feodal-xanlıqların ziddiyyətlərindən xilas edib vahid bir dövlət yaratmaq işində Qubalı Fətəli xana onun mərd, ağıllı arvadı Tuti Bikə yaxından kömək edirdi. Azərbaycanı vahid bir dövlət kimi görmək Tuti Bikənin idealı idi. Bu ülvi arzu onu hətta öz doğma qardaşı Əmir Həmzəyə qarşı çıxmağa vadar etmişdi. Fətəli xan dövləti Tuti Bikə ilə birlikdə idarə edirdi. O, bir yana gedəndə Tuti Bikəni öz yerində qoyurdu.

Əmir Həmzə öz qoşunları ilə Dərbəndə hücum edəndə Tuti Bikə əyninə kişi paltarı geyib şəhərin müdafiəsini öz əlinə almışdı. Dərbənd tarixini tədqiq edən Y.İ. Kozubski yazırdı: "Fətəli xanın igid arvadı Tuti Bikə qardaşına qarşı duraraq, şəhəri mərdliklə müdafiə edirdi. O, qala bəndlərində şir kimi dayanaraq, hər şeyə özü rəhbərlik edir, qala toplarının atəşi ilə qardaşını hədələyirdi". O, 9 ay ərzində düşməni Dərbəndə yaxın buraxmamış, tarixdə qəhrəman qadın kimi tanınmışdır.

1803-cü ildə P.D. Sisianovun başçılığı ilə rus qoşunları Gəncəni işğal edəndə Cavad xanın arvadı Bəyim xanım əyninə kişi paltari geyib, əlinə silah götürüb qalanın baş bürcünü qoruyurdu.

1850-ci ilin yazında Cənubi Azərbaycanın Zəncan şəhərində yoxsulların və sənətkarların üsyanında Rüstəmə xanım böyük igidlik göstərmişdir. Zeynəb Paşa isə XIX əsrin sonlarında Təbrizin Əmi Zeynəddin məhəlləsinin qadınları arasında təbliğat aparıb onları üsyana qaldırmışdı.

1905-ci il inqilabının təsiri nəticəsində İranda ümumxalq hərəkatı yeni vüsət alanda azadlıq uğrunda gedən bu mübarizədə kişilərlə bərabər qadınlar da iştirak edirdilər.

XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda qadınların ictimai fəallığının gözəl nümunələri mövcuddur. XIX əsr Azərbaycanın həyatında qadınların fəallığı və böyük yaradıcılıq uğurları ilə səciyyələnir. Bu mənada Xurşud Banu Natəvanın, Ağa Bəyim Ağa Ağabacının, Gönçəbəyimin, Fatma xanım Kəminənin, Şahnigar xanımın, Qəmərbəyim Şeyda Qarabağinin və başqalarının yaradıcılığı diqqəti cəlb edir.

Həmin əsrdə Azərbaycanda baş verən siyasi, iqtisadi və mədəni proseslər qadınların maariflənməsi və ictimai həyatda daha fəal iştirak etməsinə güclü təkan verdi. XIX əsrin sonları – XX əsrin əvvəllərində Azərbaycanda qadınlar, onların siyasi rolu və ictimai statusu ictimai müzakirələrin obyektinə çevrildi. Bu problemin meydana çıxması müasir ictimai sahənin və müasir danışıq dilinin inkişafı, müstəmləkəçilik ideologiyasındakı dəyişikliklər və Rusiya imperiyasında vətəndaşlıq konsepsiyası, milli burjua elitasının meydana çıxması və Bakıda neft bumunun yaranması ilə sıx əlaqəli idi. Gender əsaslı ayri-seçkilik qadınların ictimai həyatda fəal iştirakına, təhsil almasına və sosiallaşmanın yeni formalarında iştirak etməsinə mane olan əsas amil idi.

O vaxtın qabaqcıl qadınları kifayət qədər düşünülmüş dərəcədə yeni gender münasibətlərinin kontekstini yaradırdılar. Elə düşünmək olar ki, məhz onlar adi xeyriyyəçilik aksiyaları, ilk qadın məktəblərinin, qadın yığıncaqlarının və klublarının yaradılması vasitəsilə müxtəlif sosial qadın qruplarının təşkilinin təşəbbüskarları olmuşlar. Azərbaycanda "müasirləşmə" milli şüurun müəyyənləşdirilməsi və yaradılması prosesi ilə sıx əlaqəli idi. Formalaşmaqda olan elita qadınların statusunda mühüm dəyişikliklər əks etdirən ciddi sosial islahatların aparılmasını tələb edirdi.

Qadın azadlığı uğrunda mübarizənin ön səhnəsinə birinci olaraq imtiyazlı sinfin qadınları çıxmışlar. Onlar üçün feminizm və ya bərabər seçki hüququ anlayışının özü nə isə uzaq olan bir anlayış idi.

Elə həmin S.Tağıyeva-Ərəblinskaya da, L.Tuqanova da,

İ.Aşurbəyova da, xeyriyyəçilik və maarifçilik fəaliyyətləri ilə məşhurlaşmış bir çox digər qadınlar da, yaxşı təhsil almış və tez-tez xaricdə olmuş, klassik, liberal, humanist feminizmin ideyaları ilə tanış idilər. Lakin digər tərəfdən Azərbaycanın neft sənayeçilərinin arvadları və qızlarının Qərbin feminizm ideyalarına meylliliyi, bununla bağlı bilgiləri barədə yazılı və şifahi dəlil qalmamışdır.

Rusiya qəzetləri qadın hərəkatları haqqında yazırdılar və məlum olduğu kimi, kübar qadınlar mətbuat nümunələrinin oxucuları idilər. Lakin rusiyalı feministlər "raznoçin" təbəqələrdən çıxmışdı, Azərbaycanın kübar qadın cəmiyyəti isə özünün sosial identikliyini nə isə bir aristokratik birlik keyfiyyətində qururdu. Daha qətiyyətlə demək olar ki, bizim qəhrəman qadınlarımız Amerikanın toxucu qadınlarının tətili xatirəsinə elan edilmiş Beynəlxalq Qadınlar Günü haqqında heç nə eşitməmişdilər, halbuki, bu tətil də, 8 martı qadın bayramı elan edən Kopenhagen konfransı da Azərbaycan xeyriyyəçiliyinin çiçəklənməsi dövrünə təsadüf etmişdi.

Qərb feministlərinin "Dünyaya xeyriyyəçilik gərək deyil, dünyaya ədalət lazımdır" döyüş çağırışı Azərbaycanın kübar qadınları üçün konseptual olaraq yad idi. Zəngin ailələrdən olan xanımların sərf etdikləri əsas qüvvə məhz xeyriyyəçilik, maarifçilik fəaliyyəti olmuşdur. Onlar ilk növbədə azərbaycanlı qızların təhsil almasına imkan yaratmağa çalışırdılar.

Beləliklə, müsəlman xeyriyyə cəmiyyətlərindən olan kübar qadınlar, qadın məktəbləri və uşaq evlərinin himayəçiləri Azərbaycan maarifçiliyi yolunda xeyirxahlıq edənlər ölkəmizdə qadın hərəkatının hələ başlanğıcında idilər.

Azərbaycanda qadın hərəkatının inqilabdan əvvəlki güc toplayan dövrü təkcə onun kübar qanadının deyil, həm də demokratik qanadının mövcudluğu ilə fərqlənirdi.

1906-ci ildən başlayaraq görkəmli yazıçı Cəlil Məmmədquluzadənin yaratdığı məşhur "Molla Nəsrəddin" (1906-1930) satirik jurnalı sosial islahatları təbliğ etməyə başladı, çoxarvadlılığı, arvadın döyülməsini, uşaq nikahlarını kəskin tənqid etdi və qadınların statusu ilə bağlı bir sıra mühüm məsələlər qaldırdı (təhsil, erkən nikah, qadın hüquqları və s.). "Molla Nəsrəddin" və eləcə də "Təzə Həyat", "Kaspi" və digər dövri nəşr-

lər Azərbaycan qadınları üçün həm də yeni qadınlıq xüsusiyyətlərinin sərhədlərini müəyyənləşdirmək uğrunda mübarizə aparan yeni ziyalılar üçün açıq müzakirə meydanına çevrildi.

Azərbaycanın azadlıq sevən qadınları çarizmə və əsarətə qarşı ümumxalq hərəkatında, 1912-1914-cü illərdə Bakıda, Gəncədə, Şəkidə baş verən fəhlə iğtişaşlarında, 1918-1920-ci illərdə istiqlal və milli müstəqillik uğrunda mübarizədə fəal iştirak edirdilər.

Yeni yaranmış Azərbaycan burjuaziyası və ziyalıları qadınların savadlanması naminə kampaniyalara başladılar və bu iş üçün sərmayə qoydular, xeyriyyə təşkilatları və qadınlar jurnalı təsis etdilər. Müsəlman ziyalıları arasındakı fəal qruplar cəmiyyətin inkişafına və millətin irəliləyişinə nail olmaqdan ötrü qadınların ənənəvi adətlərdən azad olmasını ilkin şərt hesab edirdilər. Təhsil və daha yaxşı sosial status və mütəhərriklik vasitəsilə qadınların azad edilməsi ümumilikdə “millətin qorunması və böyüməsi üçün zəruri” islahat hesab edilirdi. Gövhər xanım Qacar, Həmidə xanım Cavanşir, Nigar xanım Şıxlinskaya, Məsmə xanım Talışinskaya, Səltənət xanım Əhmədova və digərlərinin yaratdıqları qadın xeyriyyə cəmiyyətləri böyük iş aparırdı. O dövrün möhtəşəm abidəsi olan Təzəpir məscidi də Nabat xanım Aşurbəyli-Rzayeva tərəfindən həmin xeyriyyə tədbirlərindən biri kimi tikdirilmişdir. Bütün bu işlərin məntiqi nəticəsi olaraq, tariximizdə ilk dəfə 1918-ci ildə qadınlara seçib-seçilmək hüququ verildi.

Qadınların hüquqları ilə bağlı məsələ birinci Azərbaycan Demokratik Respublikası (ADR, 1918-1920) dövründə qanuni təsdiqini tapdı. Öz qısamüddətli mövcudluğu ərzində ADR qadınlara tam siyasi və vətəndaş hüquqları, o cümlədən səsvermə hüququ verdi. Lakin müstəqilliyimiz uzun sürmədi və məcburi şəkildə Sovetlər İttifaqına daxil olduq. Onu da danmaq olmaz ki, Azərbaycanda qadınların fəallığı və inkişafı Sovet dövründə xeyli surətləndi. Qadınların problemləri, cinsi fərqliliyi və gender əsaslı qurumları sahəsində Sovet siyasəti müxtəlif tarixi dövrləri əhatə etməklə bir sıra inkişaf mərhələlərindən keçib. 1918-1930-cu illər arasındakı müddət, erkən Sovet ideologiyası qadınların azadlığını “ailənin zəifldədilməsi” ilə əlaqələndirdi, bütün ev təsərrüfatı və ziyalıların ictimai sahəyə yönəldilməsini

qarşısında məqsəd kimi qoydu. Lakin artıq 1930-cu illərin ortalarında bu siyasətə bütövlükdə düzəliş edildi və Sovet hökuməti "ailə ittifaqının gücləndirilməsi"nə başladı.

XX əsrin 20-30-cu illərinin ictimai-siyasi həyatı ölkənin, o cümlədən Azərbaycan qadınlarının tərəqqisində böyük rol oynadı. Artıq bu dövrdə savadsızlıq ləğv olunmuş, maarif və mədəniyyət xeyli inkişaf etmiş, həyatda, məişətdə yeniliklər baş vermişdi. Qadınlar təsərrüfat işlərində, sənaye müəssisələrində, elm və mədəniyyət sahələrində yeni-yeni nailiyyətlər qazanırdılar.

1921-ci il Azərbaycan tarixinə qadınların ilk qurultayı ili kimi daxil olmuşdur. Bu qurultayın əsas qayəsini qadın azadlığı ideyaları təşkil etmişdi. Qurultaydan keçən qısa müddət ərzində Azərbaycan qadınlarının maariflənməsi, ictimai fəallığının artırılması sahəsində böyük işlər həyata keçirildi. Həmin ildə qızlar üçün təşkil olunmuş Məktəbəqədər tərbiyə institutu bir il sonra Ali Qadın Pedaqoji İnstitutuna çevrildi. Ceyran Bayramovanın təşəbbüsü ilə yaradılmış ilk qadın klubu bu dövrdə qadın hərəkatının inkişafında mühüm rol oynadı.

1923-cü ildə "Şərq qadını" jurnalının nəşrə başlaması Azərbaycanda qadın hərəkatı tarixində əlamətdar hadisə oldu. "Şərq qadını" jurnalına nəzər yetirdikcə biz bir neçə idmançı qızın adına rast gəlirik. Bakı təyyarəçilik klubuna yazılan qızların sayı günbəgün artırdı. Azərbaycanın ilk təyyarəçi qızları Leyla Məmmədbəyova, Sona Nuriyeva, Züleyxa Seyidməmmədova o zaman bütün ölkədə tanınırdı.

1930-cu illərin ortalarından 1950-ci ilə kimi olan dövrə keçmiş Sovet İttifaqında qadınların kütləvi istehsalata cəlb olunması, onların çiyinlərinə ailə problemləri daxil olmaqla "ikiqat əziyyət" yükləmiş oldu.

II Dünya Müharibəsi dövründə oğullarını cəbhəyə yola salmış ağsaçlı analardan tutmuş gənc qızlara kimi hamı cəbhə üçün işləmiş və ölkədə müdafiə fondunun yaradılmasında əsl vətənpərvərlik nümunəsi göstərmişdi.

Sovet Azərbaycanında "qadınların azadlığı"na dair dövlət siyasəti qanunvericilikdə şəriət qanunlarını ləğv edən dəyişikliklərə başladı və qadınların ailədəki və cəmiyyətdəki mövqeyini dəyişdirdi. Çıxarılan ilk fərmanlar nikah yaşını qızlar üçün

16-ya, oğlanlar üçün isə 18-ə qaldırılmaqla erkən nikahlara son qoymaq, çoxarvadlılığı, müvəqqəti nikahları (siğə) qanunsuz elan etmək, qadınlara boşanma və öz uşaqları üzərində himayə hüququ vermək məqsədi daşıyırdı. Sovet hökuməti kütləvi kampaniyalar keçirməklə qadınların savadlılığını təşviq edir və çadranı qınayırdı. Sovet hakimiyyəti dövründə Azərbaycan qadınlarının 1957, 1967 və 1972-ci illərdə keçirilmiş qurultayları da ölkəmizdə qadın hərəkatının inkişafında, onun daha mütəşəkkil forma almasında mühüm rol oynadı.

Azərbaycan qadınları XX əsrdə qısa müddət ərzində yüzilliklərə bərabər inkişaf yolu keçmişdir. Onların cəmiyyətdə, ictimai həyatda, ailədəki mövqeyində köklü dəyişikliklər baş vermişdir.

Ölkədə qadınların azad olunmasına dair partiya proqramının həyata keçirilməsi üçün "Jenotdellər" (Kommunist Partiyasının Qadın Şöbələri) təsis olundu. "Jenotdellərin" yaradılmasında məqsəd dövlətin maliyyələşdirdiyi özəl sahənin transformasiyasını gücləndirmək idi. "Jenotdel"lər və onların varisləri olan "Jensovet"lər döyülməyə və zorakılığa məruz qalmış qadınlar və məcburi nikahlardan qaçıb gizlənən qadınlar üçün sığınacaq kimi fəaliyyət göstərirdi. Qadınlar iclaslara, konqreslərə, toplantılara, forumlara, kütləvi mitinqlərə (xüsusilə də, qadın problemlərinə həsr olunduqda, yaxud qarışıq gender gündəlikləri və iştirakçıları olduqda) fəal cəlb olunurdular.

İctimai strukturun inqilabi transformasiyası, hüquq sahəsində gender bərabərsizliklərinin köklü surətdə aradan qaldırılması və qadınların kütləvi şəkildə təhsilə və sənaye əməyinə cəlb olunması Sovet qadınlarının və kişilərinin ev təsərrüfatı daxilində bərabərliyi ilə nəticələnmədi. Sovet ideologiyası qadının ailədə ər və uşağın himayəçisi rolunu təyin edirdi. Bu yanaşma milli kişi elitaları tərəfindən dəstəklənirdi. Qadınlara edilən güzəştlər onların mövqeyinin irəliləməsini nəzərdə tutan dövlətin maliyyələşdirdiyi emansipasiya tədbirləri ilə birlikdə Azərbaycan qadını olmaq modelini formalaşdırdı və Azərbaycan ailəsi daxilində yeni münasibətlərin inkişafına köklü surətdə təsir etdi.

Azərbaycanda qadınların cəmiyyətin müxtəlif sahələrində fəal iştirakının təmin edilməsi xətti məhz Ümummilli lider

Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər Azərbaycana rəhbərlik etdiyi dövrdə qadın siyasəti məsələlərinə daim böyük diqqət yetirmişdir. Məhz 1969-1982-ci illərdə Azərbaycanda qadın hərəkatı yeni vüsət almış, dünya qadın hərəkatının bir qolu kimi Azərbaycan Qadınlar Şurası özünün yerli bölmələri ilə birlikdə dünyada qadın problemləri və hüquqları sahəsində aparılan mübarizənin ön sıralarında durmuşdu.

Sovet ittifaqının dağılmasından sonra qadınlar yeni ictimai sahədə nəzərəçarpacaq dərəcədə iştirak etməyə başladılar. Azərbaycan qadınları müstəqillik yollarında gedən mübarizələrin ön sıralarında olmuşlar. 1988-ci ildən respublikada cərəyan edən mürəkkəb proseslərdə qadınlar kişilərlə bərabər iştirak edirdilər. 1990-cı il yanvarın 19-20-də sovet qoşunlarının Bakıda və respublikanın digər şəhər və rayonlarında törətdikləri qanlı faciənin qurbanları arasında qadınlar da var idi. Azərbaycanın milli qəhrəmanları - Qarabağ cəbhəsində həlak olmuş jurnalist Salatın Əsgərova və həkim Gültəkin Əsgərova yeni dövrün fədakarlıq rəmzi kimi xatırlanır.

Ermənistanın Azərbaycana qarşı Dağlıq Qarabağ üzərində irəli sürdüyü ərazi iddiaları 1988-ci ildə postsovet məkanında ən faciəvi regional münaqişələrdən birinə gətirib çıxardı. Bu münaqişə Azərbaycan ərazilərinin 20 faizinin işğalı ilə nəticələndi. Ölkə öz ərazisi, həm də infrastrukturunun mühüm bir hissəsini itirdi və təxminən ata-baba torpaqlarından didərgin düşmüş bir milyondan çox qaçqın və məcburi köçkün əhalini qəbul edərək sığınacaq verdı. Azərbaycanın ərazi bütövlüyünün BMT-nin bütün üzv dövlətləri tərəfindən tanınmasına və 1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin Azərbaycan ərazisindən dərhal çıxarılmasını tələb edən dörd qətnamə qəbul etməsinə baxmayaraq, Ermənistan hələ də beynəlxalq hüquqa zidd mövqeyini davam etdirir və bu qətnamələri yerinə yetirmir.

Dövlət müstəqilliyimizi bərpa etdikdən sonra, 1993-cü ildə Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı, ölkədə yaranan sosial və iqtisadi sabitlik qadınların sosial inkişafına təkan verdi. O zamanlar respublikada qadın problemi ilə məşğul olan dövlət qurumu olmadığından 1994-cü il sentyabrın 19-da Heydər Əliyev “Qadınların IV Ümumdünya Konfransına hazırlıqla

əlaqədar Azərbaycan qadınlarının Milli Komitəsinin yaradılması haqqında" Fərman imzaladı.

Müstəqil Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş ilk Konstitusiyası qadınların kişilərlə bərabər hüququnu təsdiq etdi və demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazasını yaratdı.

Həyatın bütün sahələrində aydın hiss olunan canlanma Azərbaycan qadınlarının fəaliyyətində də müşahidə olunmağa başladı. Prezident Heydər Əliyev 14 yanvar 1998-ci il tarixdə "Azərbaycan qadınlarının rolunun artırılması haqqında" Sərəncam imzaladı. Sərəncamda dövlət strukturları tərəfindən daha çox diqqət tələb edən sahələr müəyyənləşdirildi. Ölkə başçısının 14 yanvar 1998-ci il tarixli digər Fərmanı ilə ölkədə qadın siyasətini həyata keçirmək məqsədilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradıldı və Nazirlər Kabinetinə ölkənin siyasi, sosial, iqtisadi, mədəni həyatında qadınların rolunu artırmaq üçün müvafiq təkliflər hazırlamaq tapşırıldı. Tibb elmləri doktoru, əməkdar elm xadimi, Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin sədri, professor Zəhra Quliyeva bu Komitənin sədri təyin edildi. Belə bir Komitənin fəaliyyətə başlaması ölkədəki qadın təşkilatlarının mərkəzləşdirilmiş şəkildə idarə olunmasına zəmin yaradırdı. Bununla da Ulu öndərimiz ailə, qadın və uşaq problemlərinin həlli sahəsində fəaliyyətin bünövrəsini qoymuşdu.

Ümummilli liderin dəstəyi ilə keçirilən Azərbaycan qadınlarının qurultayları ölkənin qadın hərəkatı tarixində yeni səhifələr açdı.

1998-ci ilin 14-15 sentyabrında müstəqil Azərbaycan qadınlarının qurultayı keçirildi. Bu möhtəşəm toplantıda respublikanın bütün şəhər və rayonlarından 2000-dən çox nümayəndə iştirak edirdi. Qurultay qadınların fəallığı və onların həll edilməmiş problemlərinin təhlili baxımından mühüm əhəmiyyət daşıyırdı. Kişilər və qadınlar arasında bərabərliyin, xüsusilə onların dövlət idarəçiliyinin müəyyən səviyyələrində təmsil olunmasının təmin edilməsi məqsədilə 6 mart 2000-ci il tarixdə dövlət başçısı tərəfindən "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Fərman imzalandı. Bu Fərman gender bərabərliyi və qadınların imkanlarının

genişləndirilməsi sahəsində dövlət strategiyasının yaradılmasının əsasını qoymuşdur. Fərman, kişilərlə yanaşı, qadınların da bütün dövlət strukturlarında bərabər səviyyədə təmsil olunmasını, həmçinin qanunvericiliyin gender ekspertizasının keçirilməsini nəzərdə tuturdu. Həmin dövrdə ölkə həyatının bütün sahələrində qadınlar idarəçilikdə fəal surətdə təmsil olunmağa başladılar. Müstəqil Azərbaycan qadınlarının 2003-cü ildə keçirilmiş II qurultayı ölkədə qadın hərəkatının fəallaşmasının təsdiqi idi və Prezident Heydər Əliyev qadın siyasətinin təntənəsini təcəssüm etdirirdi.

Azərbaycan həm də Avropa Şurasının qadınlarla bağlı bürosunda təmsil olunur, BMT-nin qadın məsələləri üzrə komissiyasının tam hüquqlu üzvüdür. 1995-ci ildə isə Azərbaycan "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" beynəlxalq konvensiyaya qoşulub.

1995-ci ildə Pekində keçirilmiş IV Ümumdünya Qadın Konfransında dünyanın 189 ölkəsindən gələn təmsilçilər arasında Azərbaycan qadınlarından ibarət böyuk nümayəndə heyəti də iştirak edirdi. Burada Pekin Bəyannaməsi və Fəaliyyət Platforması qəbul olundu. Platformanın əsas məqsədi qadınların siyasi, iqtisadi və sosial vəziyyətlərinin yaxşılaşdırılması idi. Pekin Bəyannaməsi və Fəaliyyət Platforması bütün dünya qadınlarının hüquqlarının qorunacağını və onların sülhə, gender bərabərliyinə nail olmaq üçün inkişaf proseslərində yaxından iştirakına mane olan amillərin aradan qaldırılacağını bəyan etdi. IV Ümumdünya Qadın Konfransı Azərbaycanda qadın hərəkatının dönüş nöqtəsi kimi qiymətləndirilə bilər. Azərbaycan bu öhdəliklərin yerinə yetirilməsi istiqamətində siyasi iradə nümayiş etdirmişdir.

Qadınlar dağılmış iqtisadiyyatın və müharibə dövrünün çətinliklərini geridə qoymaqla, dövlət siyasətində passiv obyektlər kimi qalmadi, əksinə, onlar gələcək nəsillər üçün yeni cəmiyyəti daha yaxşı yetişdirmək məqsədilə belə cəmiyyətin konturlarının formalaşmasına fəal şəkildə cəlb olundular. Savadlılığını və fəallıq tarixçəsi nəzərə alınmaqla, qadınlar yeni formalaşan üçüncü sektorun yaradıcılarından və bələdçilərindən birinə çevrildilər. Ümummilli miqyasda fəaliyyət göstərən qadın təşkilatları təşəkkül tapdı. Bu qurumların əsas məqsədi

Azərbaycanda qadının vəziyyətinin yaxşılaşdırılması, onun sosial-iqtisadi problemlərinin həlli, gender bərabərliyi və s. məsələlərdən ibarət idi. Yeni qadın təşkilatlarının formalaşması, mövcud təşkilatların öz şəbəkəsini, fəaliyyət dairəsini genişləndirməsi bu gün də davam edir.

Hazırda Azərbaycanda qadınlar demokratik, hüquqi, sivil, dünyəvi dövlət quruculuğunda fəal iştirak edir, sosial-siyasi və mədəni həyatımızın bütün sahələrində geniş fəaliyyət göstərirlər.

Ölkəmizin birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva həm ictimai-siyasi fəaliyyəti, həm də elmi yaradıcılığı ilə seçilir. O, müasir Azərbaycan qadın hərəkatının lideri kimi dövlətimizin tərəqqisi naminə geniş fəaliyyət göstərir. Rəhbərliyi altında keçirilən çoxsaylı beynəlxalq toplantılar, o cümlədən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunu, birinci Avropa Oyunlarını (2015) və digər çoxsaylı tədbirləri xüsusilə qeyd etmək lazımdır.

**Tələbələrin biliklərinin qiymətləndirilməsi üçün suallar:**

1. Feminizm hərəkatının tarixi.
2. Feminizm tədqiqatlarının hansı istiqamətləri var?
3. Qadın hərəkatının inkişaf mərhələləri.
4. Beynəlxalq qadınlar günü.
5. Feminist etnoqrafiyası.
6. Liberal və sosial feminizm.
7. Azərbaycan tarixinə adı düşmüş hansı qadınları qeyd edə bilərsiniz?
8. Azərbaycanda gender məsələlərinin tarixçəsi.

## Mühazirə 4. Gender anlayışı və Azərbaycanda gender siyasəti

1. *"Gender" anlayışı*
2. *Gender terminləri, ideyası və ideologiyasi*
3. *Gender psixologiyası və sistemi*
4. *Gender büdcəsi və kvotası*
5. *Azərbaycanda gender siyasəti, "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbayca Respublikasının Qanunu*

### 1. "Gender" anlayışı

Davamlı insan inkişafı konsepsiyasına görə cəmiyyətin idarə edilməsi o zaman uğurlu hesab oluna bilər ki, həmin toplumda irqindən, dinindən və yaxud hər hansı bir xüsusi qrupa mənsubluğundan asılı olmayaraq, hər bir şəxsin fərdi potensialının reallaşdırması üçün əlverişli şərait yaradılsın.

Bir çox ölkələrdə qadınların hüquqi biliklərinin çatışmaması, zəruri resursların olmaması, hüquq-mühafizə və məhkəmə işçilərinin qadınların hüquqları barədə məlumatlarının az olması, onların çox vaxt qadın hüquqlarına, insan şəxsiyyətinə və ləyaqətinə hörmətsiz yanaşması halları mövcuddur. Qadın və qızların reproduktiv hüquqları və bu hüquqların həyata keçirilməsinə mane olan amillər lazımı səviyyədə tanınmır. Bəzi qadın və qızlar hələ də irqi mənsubiyyət, yaş, dil, mədəniyyət, din, əlillik və ya sosial-iqtisadi durum, milli və etnik azlıqlara mənsubiyyət, köçkün, qaçqın, miqrant, o cümlədən işçi miqrant olmaları üzündən hüquqlarının tapdalanması və ədalətsizliklə üzləşirlər.

Dünya miqyasında ilk dəfə olaraq, qadınlar və onların problemləri haqqında məsələ 1975-ci ildə qaldırıldı və həmin il "Qadın ili" elan olundu. Elə həmin il Mexikoda Qadınların I Ümumdünya konfransı çağırıldı. II Ümumdünya Qadın Konfransı 1980-ci ildə Danimarkada, III 1985-ci ildə Nayrobidə, IV isə Pekində 1995-ci ildə keçirildi. Bu konfransların hər birinin mövzusu "Bərabərlik, inkişaf və sülh" problemləri idi. Ancaq hər zaman qadın və kişi hüquqlarının bərabərliyi ön plana çəkilirdi.

Son əsrlərin texniki nailiyyətləri qadınların həm məişətdə, həm də istehsalatda oynadığı rolu dəyişdirmişdir. XX əsrin sonunda “Gender” (ingilis dilində - “cins”) anlayışı formalaşmışdır ki, bunu da “sosial cins” kimi xarakterizə etmək olar. Qeyd edək ki, sosial cins - yəni “gender” və bioloji cins – “seks” anlayışları, hər biri ayrı-ayrı mənalar kəsb etsə də, bir-birini tamamlayır. Gender - bioloji cinsindən asılı olaraq, insanlara cəmiyyət tərəfindən təlqin olunmuş sosial və mədəni normaların məcmusunu ifadə edir. Qadın və kişilərin psixoloji xüsusiyyətlərini, davranış modellərini, peşə və fəaliyyətinin növlərini müəyyən edən sosial-mədəni qaydalardır. Cəmiyyətdə yalnız kişi və ya qadın olmaq anatomik xüsusiyyətlərə sahib olmaq deyil, həm də cəmiyyət tərəfindən müəyyən edilmiş gender rolunu icra etmək deməkdir.

Gender, cəmiyyətdə kişi və qadınlar arasında hüquqların bərabər təminatı deməkdir. Qadın və kişilər arasında sosial bərabərlik gender bərabərliyi kimi qəbul edilir. Real gender bərabərliyi təkcə qanundakı bərabərliyi nəzərdə tutmur, bu həm də o deməkdir ki, ictimai və siyasi həyatın bütün sahələrində qadınlarla kişilər bərabər mövqeyə, bərabər səlahiyyətlərə, vəzifələrə malikdirlər. Bərabərlik cinslər arasında hökmən eyni cür davranışın olmasını nəzərdə tutmur, əksinə, məsələyə fərqli yanaşma başa düşülməlidir. Əslində kişilərlə qadınlar arasında bərabərsizlik problemi fərqləndirmə siyasətindən istifadə edilməklə həll olunmalıdır. Gender zəminində fərqlər kişilərlə müqayisədə qadınları daha çətin vəziyyətə salsa da, kişilər də kişiliyin interpretasiyası səbəbindən məhdudiyyətlərə məruz qalırlar.

Tədqiqatçıların əksər hissəsi təsdiq edir ki, “gender anlayışı” XX əsrin 60-70-ci illərində elmi kateqoriyalara daxil edilmişdir. S.Xrisanovanın “Gender terminləri lüğəti”ndə bu haqda müfəssəl məlumat verilir. İlk dəfə “gender” termini XX əsrin 70-ci illərində ingilis tədqiqatçısı Enn Qakley və onun həmkarları tərəfindən işlədilmişdir. Termin kişi və qadın xüsusiyyətlərinin təsvirində onların sosial təyinatının bioloji təminatına əks olduğunu göstərmək üçün istifadə olunmuşdur. Bu isə artıq araşdırmalardan bəlli olan cins (seks) və gender (sosial) kateqoriyalarının diferensiasiyasında yeni bir

nəzəriyyəyə keçid mərhələsi idi. Cins və gender arasındakı nəzəri fərq haqqında Enn Qakleyin və həmkarlarının təlimi çox faydalı oldu. Bu, problemə universal baxış idi. Məhz amerikalı tarixçi sosioloq Coan Skott 1986-cı ildə "Gender: Tarixi analizin faydalı kateqoriyası" (Scott Joan W. "Gender: A useful category of historical analysis") əsərində gender tarixinin nəzəri-metodoloji aspektlərini açıqlamağa cəhd etdi.

Gender anlayışının yaranmasının əsasında qadın hərəkatı durur. Problemin terminoloji anlayışını təhlil edəndə aydın olur ki, ilkin olaraq bu məsələlər feminizmin inkişafı mərhələsində, daha sonra isə xüsusilə də gender tədqiqatlarının araşdırılması prosesində vəhdət yaratmış, "genderşünaslıq" və ya "genderologiya" kimi aktuallaşmışdır. Gender problemlərinin təkcə bir elm çərçivəsində öyrənilməsi düzgün deyil, o, tədqiq, məntiq, ədəbiyyat, psixologiya, linqvistika, genetika, statistika, iqtisadiyyat, tibb, mədəniyyətşünaslıq, dinşünaslıq və bir sıra digər elmlərin predmetlərini əlaqələndirir. Gender termininin bir çox tərifi məlumdur. Gender anlayışının elmi terminologiyaya daxil edilməsi, mövzu haqqında ümumi təsəvvür yaranması üçün problemin üç hissəyə ayrılması daha məqbuldur: birincisi, kişi və qadın kimi qütbləşən cinslərin "ilahi təyinatı", "təbii yaradılması" kimi formalaşan təsəvvürün fərziyyə olduğunu açıqlamaq; ikincisi, insanlığı bioloji-fizioloji müstəvidən çıxarıb ictimai-tarixi, siyasi-hüquqi səviyyədə tədqiq etmək; üçüncüsü isə cins terminini sosial amillər ─ sinif, yaş, etnos və s. daxil olmaqla kateqoriya kimi təhlil etmək.

Müasir cəmiyyətşünaslıqda "gender" anlayışı sosiallaşmanın təzahürü olaraq, artıq aktuallıq baxımından çox geniş şəkildə istifadə olunur. Gender hazırda qloballaşaraq beynəlxalq, regional, həm də milli problem kimi çoxtərəfliliyi ilə də kütləviləşmişdir.

Gender yanaşmasına görə, kişi və qadınların davranışında və görüşlərindəki fərqlər bir o qədər onların fizioloji xüsusiyyətləri ilə deyil, həm də tərbiyə və bir mədəniyyətdə kişiliyin və qadınlığın məğzi haqqında yayılmış təsəvvürlər kimi sosial amillərlə müəyyənləşir. İnsanın bu və ya digər cinsə məxsusluğu şəxsiyyətin bəzi davranış normalarını, baxışlarını şərtləndirir, müxtəlif sosial rolları qabaqcadan müəyyən edir. Bununla

belə, bu davranış normaları universal deyil, onlar bir çox sosial və qeyri-sosial (coğrafi, iqlim) amillərin təsiri altında müxtəlif cəmiyyətlərdə və həmin cəmiyyətlərin inkişafının müxtəlif mərhələlərində fərqlənir. İrq, sinif, sosial-iqtisadi inkişaf səviyyəsi, mentalitet, mədəniyyət - bunlar hamısı sosial mövqelərin bölüşdürülməsinə təsir edir. Bioloji cinsdən fərqli olaraq, gender dinamikdir, dəyişə bilir, çünki kişi və qadınların sosial rolu həmişəlik müəyyənləşə bilməz. Gender mürəkkəb sosial amildir: rollarda, davranışda, kişilik və qadınlıq arasındakı əqli və emosional xarakteristikalarda cəmiyyət tərəfindən qurulan fərqlərdir. Bu, nəinki cinslərin şəxsiyyətlərarası ünsiyyətini və qarşılıqlı əlaqəsini səciyyələndirən, həmçinin cəmiyyətin əsas institutlarında onların münasibətlərini də şərtləndirən cinslərarası sosial münasibətlər modelidir. Gender, digər parametrlərlə yanaşı, sosial sistemi təşkil edən cəmiyyətin sosial strukturunun baza ölçülərindən biridir. Bu, imkan verir ki, genderə, bütün sosial sistemin nizamlanmasını tələb edən cəmiyyətin sosial strukturunun vacib göstəricilərindən biri kimi baxılsın. Gender məxsusluğunun dərk edilməsi, cəmiyyət tərəfindən yaradılmış cinslərarası fərqlərə əsaslanan quruluşun elementidir. Cəmiyyətin ən aktual problemləri – hakimiyyət, zorakılıq, özünüdərk, insan azadlığı və sosial rolların cinsi eyniləşdirilməsidir. Bir çox fəlsəfi problemlərə – insan mahiyyəti, məna və vəzifələri, insan varlığının zaman və məkanı kimi problemlərə gender ölçüləri tətbiq edilmişdi. Bu vəziyyətin dərk edilməsi bütün dünyada geniş vüsət alan gender araşdırmalarında öz əksini tapdı. Gender tədqiqatlarına cəlb olunan elmlərin əhatəsi çox genişdir — fəlsəfə, sosiologiya, iqtisadiyyat, demoqrafiya, tarix, antropologiya, psixologiya, politologiya, etnoqrafiya, kulturologiya, sənətşünaslıq — öz müstəsna əhəmiyyətinə görə gender tədqiqatları artıq praktikaya və təhsil təcrübəsinə geniş tətbiq edilməlidir. Gender problemləri araşdırılarkən müxtəlif baxışlar üzə çıxır, məsələn:

***1. Gender dünyagörüşü müasir fəlsəfənin yeni sahəsidir.*** Bu yeni elmi istiqamət də fəlsəfənin kateqoriyalar, funksiyalar və metodlar sistemindən istifadə edir. Ümumiyyətlə, sosiumda kişi-qadın münasibətləri haqqında yeni elm sahəsi olan gender varlığın və idrakın ümumi formaları, insanla (istər kişi, istər

qadın cinsli) ətraf mühitin qarşılıqlı əlaqəsi, təbiət, cəmiyyət və təfəkkürün ümumi qanunauyğunluqları haqqında elm olan fəlsəfədən daim istifadə edir.

*2. Gender öz tədqiqat sahəsində ictimai inkişaf mərhələlərini,* hadisə və prosesləri, tarixi şəxsiyyət və mütəfəkkirlərin fikir və ideyalarını, mədəni və yazılı abidələrdə cinslərə münasibət məsələsini öyrəndiyi üçün fəlsəfə tarixi elmi ilə də sıx bağlıdır.

*3. Baş verən dəyişikliklər, inkişaf edən mədəniyyətlər* cinslərin hadisə və proseslərdə mövqeyi, tarixi faktlar və dəqiq rəqəmlər gender elmi üçün böyük əhəmiyyət kəsb edir, buna görə də tarix elminin materiallarından genderin tədrisində istifadə olunur.

*4. Cinslərin psixoloji stereotiplərini,* davranış və fəaliyyətini öyrənmək üçün gender psixologiya elmindən istifadə edir. Gender psixologiyası cinslər arasında olan ziddiyyətlərin, harmoniyanın, subyektiv və obyektiv fərdiliklərini şüur və şüuraltı mexanizmlərin tədqiqində psixologiya elmi ilə əlaqələndirilir.

***5. Gender sosiologiya elminin empirik xidmətlərindən istifadə edir,*** cəmiyyətdə cinslərin qarşılıqlı münasibət məsələsini araşdırır, sorğular keçirir, konkret elmi dəlillərlə əsaslandırıb, yekun nəticəyə gəlir, təklif və tövsiyələr verir.

***6. Gender elmi siyasət haqqında elm olan politologiya ilə əlaqələndirilib, gender siyasəti kursu yaradılmışdır.*** Bu kursun öyrəndiyi istiqamətlərə siyasət fəlsəfəsindən başlayaraq müasir siyasətşünaslıq, beynəlxalq münasibətlər, cinslərin siyasətdə yeri və rolu məsələsi də daxildir.

*7. İnsan hüquqları və gender siyasəti,* beynəlxalq və milli qanunvericilikdə cins məsələsi və s. bu kimi problemlərin öyrənilməsində hüquq elminin köməyindən istifadə edir.

Gender tədqiqatları qadın tədqiqatları ilə sıx bağlıdır. XX əsrin ortalarından Qərbdə hər yerdə xüsusi proqramları olan qadın tədqiqatları mərkəzləri yaradılırdı. Onların əsas vəzifəsi qadın məsələsinin, qadın təcrübəsinin məhz qadınların nöqteyi-nəzərindən öyrənilməsi idi. Genderin feminizm nişanı altından çıxmasına maskuninliyə diqqətin artırılması kömək etdi. Müəyyən olunmuşdur ki, cəmiyyətdə yalnız qadınların deyil, kişi-

lərin də bəzən çox mürəkkəb və kəskin olan problemləri mövcuddur. Gender tədqiqatlarının vacib istiqaməti yalnız qadın problemlərinin deyil, həm də kişi problemlərinin araşdırılmasıdır. Gender problemlərinin çoxplanlılığı və mürəkkəbliyi onların bütün cəmiyyət tərəfindən öyrənilməsi və həllinə kompleks yanaşmasını tələb edir. 90-cı illərdə gender anlayışı feminizmin və sosiologizmin hüdudlarından kənara çıxsa da, onlarla genetik əlaqəsini itirmədi. Bu zaman həmin anlayış onun cinsin ümumi kateqoriyasının ekvivalenti kimi istifadə edilməsinə meyl göstərən müxtəlif elmlərin predmeti sahəsində spesifik səslənmə oldu. Beləliklə, gender tədqiqatları bir o qədər qadın problemləri deyil, nə qədər ki, iki ziddiyyətin ayrılmaz birliyində cəmiyyətin potensialının artmasına kömək edən cinslər arasında harmoniyanın axtarışı təcrübəsidir. Cəmiyyətdə cinslər arasında mövcud olan cinsi rol tipləri bölgüsünün dəyişdirilməsi köhnəlmiş sosial bünövrənin və stereotiplərin dağılması prosesidir. Qadınla kişi arasındakı köhnə, patriarxal tipli münasibətlər yeni, eqalitar tipli münasibətlərlə əvəz olunur və bu münasibətlər hakimlik və tabelik üzərində deyil, cəmiyyətdə və ailədə bir-birini qarşılıqlı tamamlama və bərabərlik üzərində qurulur. Cinslər arasında bərabərlik prinsipinin eqalitar anlaşılması şəxsiyyətin özünü realizə etməsi üçün tam bərabər imkanlara əsaslanan daha yaxşı inkişaf etmiş mürəkkəb cəmiyyətə doğru hərəkət etməkdir.

Əksər ölkələrdə müvafiq şəraitin yaradılması, o cümlədən siyasi ölçülərin qəbul edilməsi, mühafizə və monitorinq mexanizmlərinin təkmilləşdirilməsi, hüquqi maarifləndirmə kampaniyalarının bütün səviyyələrdə həyata keçirilməsi vasitəsilə qadınların öz hüquqlarından faktiki istifadə imkanlarının təmin edilməsi sahəsində müəyyən addımlar atılmışdır. 187 ölkə BMT-nin "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyasını ratifikasiya etmiş və onun tam icrası prosesi Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması üzrə Komitəsi tərəfindən dəstəklənmişdir. Özünün 54-cü sessiyasında BMT-nin Baş Assambleyası bu Konvensiyaya dair Fakültativ Protokol qəbul etmişdir ki, bu da Konvensiyanı qəbul etmiş dövlətlərdə yaşayan qadına, Konvensiyada nəzərdə tutulmuş hü-

quqları pozulduqda Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi Komitəsinə müraciət etmək imkanı verir. Əsasən qeyri-hökumət təşkilatları belə bir sənədin qəbul olunması işinə dəstək göstərmiş, qadın hüquqları barədə məlumatlılığın artırılmasında iştirak etmiş, eləcə də Beynəlxalq Cinayət Məhkəməsinin Roma statusunun işlənməsində gender aspektinin nəzərə alınması üçün töhfələrini vermişlər. Roma Statusunu 121 ölkə ratifikasiya etmişdir. Bu sənədə cinsi və gender əsaslı zorakılıq cinayətlərinin təqibi ilə bağlı mühüm müddəalar daxil olunmuşdur. Zorlama, cinsi köləlik, məcburi fahişəlik, məcburi hamiləlik, məcburi sterilizasiya və cinsi zorakılığın digər formaları insanlığa qarşı cinayətlər və müharibə cinayətləri kimi müəyyən edilir. Mühüm əlavə odur ki, hüququn tətbiqi və şərhi beynəlxalq səviyyədə tanınmış insan hüquqlarına uyğun olmalıdır və cins, yaş, irq kimi əsaslara hər hansı fərq qoyulmamalıdır.

Həmçinin qadın hüquqları və gender aspektinin Birləşmiş Millətlər Təşkilatı sisteminə, o cümlədən Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığı və İnsan Hüquqları Komissiyasının işinə tətbiq edilməsi sahəsində irəliləyiş əldə edilmişdir.

Hələ də bəzi ölkələrdə gender ayrı-seçkiliyi və ayrı-seçkiliyin bütün başqa formaları, o cümlədən irqçilik, irqi ayrı-seçkilik, ksenofobiya və onunla bağlı dözümsüzlük hələ də qadınların öz fundamental hüquq və azadlıqlarından istifadə imkanları üçün təhlükə yaradır. Silahlı münaqişələr və xarici irtica vəziyyətində qadınların hüququ kobudcasına pozulur. Gender bərabərliyi tədricən daha geniş anlamda qəbul edildiyi halda, çox ölkələr Konvensiyanın müddəalarını tam həyata keçirməyiblər. Ayrı-seçkiliyə yol verən qanunvericilik, ziyanlı ənənələr, qadın və kişilər haqqında mənfi stereotiplər hələ də mövcuddur.

Gender anlayışı Azərbaycanda psixoloq R.İbrahimbəyova, filosoflardan Ə.Abasov, Z.Quluzadə, R.Mirzəzadə tərəfindən geniş araşdırılmışdır.

Ə.Abasovun fikrincə, cinslərin əlamətlərinə görə fərqləndirilməsi toplumun dünyagörüşü və mədəniyyəti ilə bağlıdır və konkret cəmiyyətin dəyərləri və ideallar sistemini əks etdirir. Buna görə də cəmiyyəti həyatının bütün sahələrində, hətta

dildə də, qadın və kişi cinsləri arasında süni yaradılmış fərqlərlə qarşılaşmaq mümkündür. Alim daha sonra bu anlayışın açıqlanmasında dilin xüsusi məna kəsb etməsini belə izah edir ki, ingilis dilində “he - she – it” (rus dilində “он - она – оно”) fərqləndirməsi halı olsa da, türk dillərində bu mövcud deyil. Dilimizdə bu üç söz sadəcə “o” şəxs əvəzliyi ilə ifadə olunur.

Həmin müəllifə görə, qadın və kişi arasında təbii (bioloji), sosial fərqləri iki mərkəzi anlayış: cins (seks) və genderlə (soy) möhkəmlətmək zəruridirsə, Z.Quluzadənin fikrincə, gender münasibətləri bioloji, psixoloji, sosial və mədəni aspektləri özündə sintezləşdirir və onların üzvi vəhdətidir. Cins tam və bütöv, hər iki tərəfin tədqiqi obyekti olmalıdır.

Yuxarıda adlarını çəkdiyimiz müəlliflər də təsdiq edirlər ki, gender məfhumu - ən yeni elmi dünyagörüşü anlayışlarından biri olaraq, humanitar təmayüllü, o cümlədən, həm də tibb elmlərinin kateqoriya və terminləri ilə qarşılıqlı münasibətdə müəyyənləşdirilməklə açıqlanır.

Yeniləşən cəmiyyətdə kişi-qadın münasibətlərinə aid yanaşma tərzi də müasirləşərək, ətraflı tədqiqatların bünövrəsi qoyulmuşdur. Bu baxımdan fəlsəfədə də, yeni bir elmi istiqamət olaraq, gender tədqiqatlarının dövrün tələblərinə uyğun olaraq araşdırılmasına zəmin yaratmışdır. Artıq insanların dünyagörüşündə yeni istiqamətli elm kimi formalaşan gender nəzəriyyəsi və onun metodologiyası təşəkkül tapmağa başlamışdır.

## 2. Gender terminləri, ideyası və ideologiyasi

*Gender ideologiyası* cəmiyyətin quruluşu və cəmiyyətdə iki sosial birlik kimi qadınların və kişilərin qarşılıqlı münasibətləri haqqında anlayışlar və təsəvvürlər, ideya və baxışlar sistemidir. Burada hər iki sosial qrupun ─ qadınların və kişilərin maraqları nəzərə alınır və ifadə olunur. Buna görə də gender mahiyyət etibarılə yeni qarşılıqlı münasibət mədəniyyəti daşıyan konstruktiv ideologiyadır. Bu ideologiya, XX əsrin humanist nailiyyətidir. Bu sosial birliklər ümumi, həm də tamamilə müxtəlif maraq və dəyərlərlə malikdir. Məhz qadın və kişilərin maraqlarının müxtəlifliyi genderin əsas problemidir. Bunun üçün isə iki müxtəlif sosial qrup kimi həm ümumi, həm də müxtəlif maraqların təmin olunmasına imkan yaradan müəyyən ideolo-

giya lazımdır. Bu həm ümumi, həm də müxtəlifliyi özündə əks etdirən gender ideologiyasıdır. Gender ideologiyasının təmsilçiləri, əsasən, BMT və Avropa Şurasıdır və hazırda XXI əsrin metaparadiqması kimi qəbul olunur.

Gender ideologiyasını fərqləndirən xüsusiyyət onun əhatəli sülhsevər və beynəlmiləl xarakteri, əməkdaşlıq yolları və üsullarının konstruktiv axtarışıdır. Gender ideologiyası müxtəlif yaşlı, əqidəli, həmçinin müxtəlif millətlərdən və ölkələrdən olan insanları birləşdirə bilir. Onun reallaşması çox vaxt tələb edir. Qadın və kişilərin bərabərhüquqlü və müştərək idarəetmə fəaliyyətini tədqiq edən gender ideologiyası həm insanın, həm də bütünlüklə əhalinin sərvətlər oriyentasiyasının (meyllərinin), ictimai fikrin və dövlət səlahiyyətlərinin dəyişməsini, adət olunmuş bir çox təsəvvür və gerçəkliklərin yenidən müzakirə edilməsini ifadə edir, cinslərarası münasibətlərin və cəmiyyətdə onlar tərəfindən yaradılmış sosial şərtlər və hakimiyyət quruluşunun ictimai maraqlar naminə yenidən mənalandırılması üçün geniş imkanlar açır. Gender ideologiyası qadın və kişilərin bərabərhüquqlu cavabdehliyi və münasibətləri, o cümlədən, iqtisadi və sosial, siyasi və mədəni, elmi-maarif, tarix, hüquq normaları sahələrində mövcud bir sıra elmi problemlərin həll olunması üçün real fəaliyyət mexanizmlərinə və üsullarına xidmət edir. O, xüsusilə "atalıq" və "analıq" vəzifələrinin formalaşdırılmasına və onların reallaşdırılmasının hüquqi mexanizmlərinin işlənib hazırlanmasına imkan yaradır. Gender ideologiyası ─ XX əsrin humanist nailiyyəti, hər iki sosial birliyin özünü tam reallaşdıra bilməsi üçün bərabər imkanlarının həyat fəaliyyətinin bütün sahələrində dünya və inkişaf maraqları naminə onların konstruktiv, ədalətli və yaradıcı xarakterli qarşılıqlı münasibətlərinin möhkəmləndirilməsi gender ideyasına əsaslanmış yeni dünyəvi, fəlsəfi, sosioloji və siyasi düşüncə tərzidir. Gender ideologiyası öz-özünə möhkəmlənmir. Onun reallaşması üçün gender siyasətinə, daha doğrusu, konstitusiyaya əsaslanan qanunvericilik təməlinin qurulması zəruridir.

*Gender ideyası* ─ sosial-iqtisadi, siyasi və mədəni sahələrdə iki sosial qrupun - qadın və kişi münasibətlərinin harmoniyası haqqında ideyadır. Bu ideyanın inkişafı cəmiyyətin bütün fəaliyyət sahələrində iki sosial qrupun bərabər imkanlarının

reallaşmasını, gender bərabərliyinə nail olmaq üçün sosial-iqtisadi, siyasi və mədəni şərtlərin, eləcə də ictimai-dövlət vasitələrinin yaradılmasını nəzərdə tutur. Gender ideyası Gender ideologiyasının əsasını təşkil edir. Gender bərabərsizliyi kişilərin qadınlara qarşı olmasından və ya qadınların kişilərə qarşı mübarizə aparmasından daha mürəkkəb məsələdir. Bu, kişiləri qadınlardan üstün tutan və özlərinə daha böyük səlahiyyətlər verən ideologiyanı şübhə altına qoymaq deməkdir. Bu, həmin dəyərləri dəstəkləyən təsisatları da şübhə altına almaq deməkdir.

*Gender analizi* - bütün cəmiyyət və dövlət sferalarında mövcud və ya təklif olunan proqramlar, qanunvericilik, siyasi dövlət kursları vasitəsilə qadınlara və kişilərə göstərilən təsirin qiymətləndirilməsi prosesidir. Gender analizi iqtisadiyyatda və cəmiyyətdə gender tendensiyalarının yüksək keyfiyyətli informasiya və anlayışlarının yığılmasına və bu biliklərdən gündəlik işdə potensial problemlərin və həlli yollarının meydana çıxarılması üçün istifadə olunmasına əsaslanır. Eyni zamanda o, sosial prosesləri anlamaq üçün bir vasitədir. Gender yanaşması əsasında aparılan təhlil (gender təhlili) dövlət siyasətinin universal sosial-iqtisadi təhlilinin mühüm bir hissəsidir. Gender analizi, cinsindən asılı olmayaraq, hər bir insana siyasi kurslar, proqramlar və qanunvericiliyin eyni dərəcədə təsir etməsini şübhə altına alır. Belə təsəvvür neytral gender siyasətinə müvafiqdir. Gender analizinin təcrübədə tətbiq edilməsinin müxtəlif üsulları mövcuddur. Birləşmiş Millətlər Təşkilatı, Beynəlxalq Əmək Təşkilatı, Dünya Bankı vasitəsilə beynəlxalq səviyyədə gender analizi üzrə tədris vəsaitləri hazırlanıb və ya gender analizi haqqında bəyanatlar verilib.

*Gender bərabərliyi (cinslərin hüquq bərabərliyi)* — qadınların və kişilərin, oğlanların və qızların bərabər hüquqları, vəzifələri və imkanları deməkdir. Bərabərlik kişiləri və qadınları eyniləşdirmir, əksinə onların fərqli ehtiyaclarını, prioritetlərini və maraqlarını nəzərə almağı tələb edir. Gender bərabərliyi — siyasi qərarların qəbul edilməsi zamanı bu bərabərliyin nəzərə alınması sisteminin cəmiyyətin bütün səviyyələrində həyata keçirilməsi strategiyasıdır. Bu, eyni zamanda qadın və kişilərin hüquq bərabərliyi, bu hüquqların həyata keçirilməsi üçün

bərabər imkanlar, kişi və qadınların cəmiyyətdə bərabər sosial vəziyyəti deməkdir.

*Gender bərabərsizliyi* — müxtəlif sosial qrupların (burada - kişi və qadınların) cəmiyyətdə qeyri-bərabər imkanlara və davamlı fərqlərə malik olması ilə müşayiət olunan sosial quruluşun xarakteristikasıdır. Gender bərabərsizliyi 1980-ci ildə müasir feminist nəzəriyyəsinin əsası kimi gender anlayışının meydana çıxması ilə sosial və humanitar elmlərin tədqiqatçıları tərəfindən irəli sürülmüşdür. Bu anlayış xüsusilə sosiologiyada daha çox istifadə olunur (əməyin fərqləndirilməsi, məşğulluq problemləri və s.). Gender konseptualizasiyası eyni olmayan sosial dəyərlər və biri-birinə zidd olan kateqoriyalar kimi, "kişilik" və "qadınlığın" sosial konstruktivləşmə prosesinə işıq saldı. Psixoloji-cinsi fərqlərə aid 1600-dən çox tədqiqatı təhlil edərək, E.Makkobi və K.Jaklin belə nəticəyə gəliblər ki, mövcudluğuna görə, qadın və kişilərin psixoloji xüsusiyyətlərində fundamental anadangəlmə fərq yoxdur. Hər halda, kiçik uşaqlarda olan həmin fərqlər cinsi sosial halların ənənəvi qeyri-bərabərliyinə əsaslanmaq üçün kifayət deyil. Gender bərabərsizliyi anlayışı xüsusilə sosiologiyada fəal istifadə olunur (əməyin fərqləndirilməsi, məşğulluq asimmetriyası problemi və s.).

Gender bərabərsizliyinin əsas hədəfi qızlar və qadınlar olsa da, bu sosial bəladan zərər çəkən təkçə qadınlar deyil. Hərbi münaqişələr zamanı əsasən yeniyetmə oğlanları hədəf götürən ölümcül əməliyyatlar tarixin faciəvi səhifələrinə həkk olunub. Bu qəddar cinayətlərin məhz oğlanlara qarşı törədilməsinin əsasında konkret cəmiyyətlərdə oğlanlara gələcək döyüşçü, ailə və ya tayfanın əsas təminatçısı vəzifəsini təyin edən gender vəzifələri durur. Statistik məlumatlar göstərir ki, gender bərabərsizliyi bütöv cəmiyyətin və ayrı-ayrı fərdlərin inkişafına saysız-hesabsız zərbələr vurur. Yoxsulluğun, xəstəliklərin, ailədaxili zorakılığın, savadsızlığın öhdəsindən gəlmək üçün bəşəriyyət kişi və qadın bərabərliyinə nail olmalıdır. İnsan inkişafına yönəlmiş siyasət qanunvericilik, sosial təsisatlar, ictimai və ailədaxili münasibətlər səviyyələrdə gender bərabərsizliyinin aradan qaldırılmasına çalışır:

*Gender həssaslığı* cinsi ayrı-seçkiliyin təməlində olan sosial və mədəni faktorların (amillərin) başa düşülməsi və nəzərə

alınması deməkdir.

*Gender xurafatları* bir cinsin digər cinsdən üstün (güclü) və ya zəif olması haqqında təsəvvürlərdir. Gender xurafatları gender stereotiplərinin bir hissəsidir.

**3. Gender psixologiyası və sistemi**

Gender psixologiyası — insanların cinsi mənsubiyyətindən asılı olaraq, sosial davranışını müəyyən edən gender identikliyinin xüsusiyyətlərini öyrənən psixologiya sahəsidir. Elmdə bu problemin meydana çıxması, ümumiyyətlə münasibətlər və cinslərarası münasibətlər problemlərinin psixologiya, sosial psixologiya və sosiologiya çərçivəsində öyrənilməsi ənənəsi ilə bağlı idi.

Gender psixologiyası differensial psixologiya ilə inkişaf psixologiyasının qovşağında və əsasında formalaşmış psixoloji bilik sahəsidir. Psixologiya elmi çərçivəsində gender münasibətləri psixologiyası cinsin psixologiyası, sosiologiyada cinsin sosiologiyası, sosial psixologiyada isə onun böyük sosial qrupların psixologiyası, qruplararası münasibətlərin psixologiyası və şəxsiyyətlərarası münasibətlərin psixologiyası kimi bölmələrinə istinad edir. Gender münasibətləri psixologiyası — sosial-psixoloji reallığın bütün əsas elementlərinin birləşdirildiyi yeni tədqiqat sahəsidir. Psixologiya elminin göstərilən bölmələri gender psixologiyasının əsas strukturunu müəyyən etmişdir ki, bu da iki əsas məlumat bloku ilə təqdim edilir: cinsi fərqlər psixologiyası (cins psixologiyası bölməsinin əsas mövzusu) və gender sosiallaşması. Cinsi fərqlər bölməsində kişi və qadın cinsinin nümayəndələri arasındakı psixoloji fərqlərin bütöv spektri nəzərdən keçirilir, bu şəxsiyyətin koqnitiv, motivasiya, emosional, davranış və digər sferaları arasındakı fərqlərdir. Bu zaman psixologiyanın ənənəvi anlayışlarından, şəxsiyyətin strukturunu açmağa yönəlmiş psixoloji məfhumlardan istifadə olunur. Yeni olan "maskulinlik", "femininlik", "androgenlik" və "gender stereotipləri" anlayışlarıdır. Gender sosiallaşması bölməsində oğlan və qızların, kişi və qadınların cins-rol inkişafında sosial institutların rolu təhlil olunur. Əsas anlayışlar sırasında cinsi rollar və onların adekvatlığı da yer alıb.

Gender münasibətləri psixologiyasının əsas anlayışlarının

strukturu və sistemi gender münasibətləri təhlilinin bir neçə səviyyəsi ilə müəyyənləşdirilir. Belə ki, makrososial səviyyədə münasibətlər – "şəxsiyyət - cəmiyyət - mədəniyyət", "qrup - cəmiyyət - mədəniyyət" sistemində təhlil edilir. Qruplararası qarşılıqlı təsir səviyyəsində münasibətlər "qrup-qrup" sistemində təhlil olunur. Bu səviyyədə münasibətləri müəyyən edən amillər kimi sosial stereotiplər çıxış edir, cinslərarası münasibətlərin determinantları isə gender stereotipləridir. Şəxsiyyətlərarası münasibətlər səviyyəsində təhlil obyekti – "şəxsiyyət-şəxsiyyət", "şəxsiyyət-qrup" sistemidir. Şəxsiyyətdaxili səviyyədə isə təhlil obyekti ─ şəxsiyyətin "Mən" konsepsiyası və onun strukturunda şəxsi və sosial identikliyin nisbətidir.

Gender münasibətləri psixologiyasının əsas tədqiqat metodologiyası gender yanaşmasıdır. O, dominantlıq sisteminin təhlilinə yönəlib və cinsi mənsubiyyətdən asılı olmayaraq, bərabərlik ideyasını bəyan edir. Gender yanaşması çərçivəsində cinslərarası münasibətlər yalnız ictimai münasibətlər səviyyəsində (həyat fəaliyyətinin siyasi, iqtisadi sahələri) deyil, həm də psixoloji münasibətlər səviyyəsində (şəxsiyyətlərarası və qruplararası qarşılıqlı təsir) hakimiyyət və dominantlıq mövqeyindən təhlil olunur. Sosial gözləmələr, rollar və davranışın cinsi adekvatlığının şərti tələbləri davranışın gender xarakteristikasının indikatorları kimi çıxış edir. Bioloji cinsin davranış və sosial rolların psixoloji xarakteristikasının ilkin səbəbi olmaması ideyasının qəbul edilməsi cinsi rollar haqqında təsəvvürlər sisteminə bağlanmış "Mən" - obraz və həyat ssenarisinin yenidən təşkil olunmasına yol verir, kişilərin və qadınların öz imkanlarını və iddialarını yenidən qiymətləndirmələrinə, həyat və yaradıcılıq perspektivlərini müəyyən etmələrinə, özünürealləşdırma və şəxsiyyətlərarası münasibətləri optimallaşdırma sahəsində subyektiv strategiya seçmək üçün şəxsi ehtiyatlarını aktivləşdirmələrinə imkan yaradır.

Gender psixologiyası sahəsinə aid olan tədqiqatların böyük əksəriyyəti üçün vahid metodik üsul xarakterikdir. Onun mahiyyəti bir-birilə müqayisə edilməsi üçün iki müxtəlif cinsli tədqiq olunanlar qrupunun ayrılmasından və konkret psixoloji xarakteristikaların diaqnostikasından ibarətdir. Bu zaman ənənəvi psixoloji metod və metodikalardan istifadə olunur. Gender

psixologiyasında perspektiv tədqiqatlar kimi kişi və qadınların psixoloji oxşarlığının axtarışına yönəlmiş tədqiqatlar qəbul olunmalıdır. Onlar kişi və qadınlar tərəfindən ənənəvi gender stereotiplərinin aradan qaldırılması üçün produktiv strategiya və davranış taktikalarının öyrənilməsi, eyni zamanda qadınların professional, kişilərin isə ailə sferasında özünü uğurlu reallaşdırmasının şəxsi amillərinin təhlilinə yönəlməlidir.

***Gender sistemi (gender münasibətləri sistemi)*** **—** bu anlayışa müxtəlif komponentlər daxildir və bu sistem tədqiqatçılar tərəfindən fərqli şəkildə izah olunur. Gender sistemi - cinsə müvafiq sosial qurumlar, davranış və qarşılıqlı sosial təsirdir. Bura üç bir-biri ilə əlaqəli komponent daxildir: bioloji cins əsasında gender kateqoriyalarının sosial konstruksiyası; əməyin cinsə görə bölgüsü; cinsəlliyin sosial tənzimlənməsi.

İlk dəfə "cins-gender sistemi" termini amerikalı feminist-antropoloq Geyl Rubin tərəfindən istifadə olunmuşdur. Rubin cins-gender sistemini onun vasitəsilə cəmiyyət tərəfindən bioloji cinsəlliyi və insan fəaliyyətinin məhsullarını yaradan "mexanizmlər toplusu" kimi müəyyən etmişdir. Bu sistemin tətbiqi cinslər arasında sosial mütəşəkkil münasibətləri başa düşməyə kömək edir. Həmin terminin istifadəsi cinsin aid edilməsi ilə əlaqədar meydana çıxan münasibətlərin təkrar istehsalının makromexanizmlərinə diqqət yönəldərək, strukturalizm və struktur funksionalizmin ənənələrinə istinad edir. Gender sistemi nisbətən sabitdir və cəmiyyətin normativ sistemləri vasitəsilə təkrar istehsal olunur.

Robert Konnell isə gender sistemini təsvir edən gender münasibətlərinin üç nisbi müstəqil struktur modelini ayırır. Birinci model cinslər arasında əməyin açıq iqtisadi və evdarlıq sahəsində sosial bölgüsünü konseptuallaşdırır. İkinci model cəmiyyət münasibətlərini təsvir edir, bu, siyasi sferadır. Üçüncü model "Kateksis" adlanaraq, emosional və cinsi münasibətləri təsvir edir. Sonralar Konell gender sistemi terminindən imtina edərək, "gender kompozisiyası" terminınə üstünlük vermişdir

Sovet cəmiyyətinin gender sistemini etakratik (etakratiya-dövlət hökmü deməkdir) və patrimonial adlandırmaq olar. Həmin dövrün gender sistemi, sovet vətəndaşlarının gündəlik həyatı, onların həyat strategiyaları sərt dövlət tənzimlənməsi ilə

şərtlənirdi. Bu tənzimləmə həm ictimai, həm də şəxsi sahədə fəaliyyət imkanlarını müəyyənləşdirirdi. Etakratik sistem hakimiyyətin normallaşdırıcı və nəzarətedici mexanizmləri vasitəsilə həyata keçirilirdi. O, normativ sənədlər, ideoloji kampaniyalar, sosial vəziyyətin dövlət tərəfindən təşkil olunmuş mexanizmləri, kütləvi informasiya vasitələri ilə tənzimlənirdi. Sovet hakimiyyətinin ilk illərindən dövlət etakratik gender sistemi çərçivəsində qadınları xüsusi sosial kateqoriya kimi müəyyən edərək onların sosial vəziyyətinin tənzimlənməsi üçün xüsusi tədbirlər işləyib həyata keçirirdi. Məqsədli "qadın siyasəti" vətəndaşların cinsə görə kateqoriyalarını qarşı-qarşıya qoyub gender qütbləşməsi və konflikti üçün zəmin yaradırdı. Əsas gender kontraktı isə "işləyən ana" adlanırdı.

Sovet hakimiyyətinin son dövrlərinə qadın siyasətinin böhranı xasdır. Bu maskulinliyin tənəzzülü və qadınların rollarının birləşməsi böhranında büruzə verirdi. Postsovet dövründə mülkiyyət münasibətlərinin dəyişməsi, sosial təminatın dövlətsizləşdirilməsi, plüralizm və diskursların rəqabəti ilə şərtlənən sovet gender sisteminin transformasiyası müşahidə olunur.

### 4. Gender büdcəsi və kvotası

Son illər xüsusən beynəlxalq təşkilatların dəstəyi ilə gender siyasətinin müxtəlif tətbiqi mexanizmləri və bəzi yeni istiqamətləri formalaşır. Bunlardan biri də gender büdcəsi yanaşmasıdır. Geniş ictimaiyyətin, habelə qadınların büdcə prosesi ilə bağlı məlumatlarının artırılması, gender büdcəsi təhlilinin metodoloji bazasının gücləndirilməsi istiqamətində bir sıra addımlar atılmışdır. Gender büdcəsi — *"gender-sensitiv büdcə" ("genderə həssas büdcə")* və ya *"qadın büdcəsi"* gender yanaşması əsas götürülməklə dövlət büdcəsinə başlıca olaraq milli səviyyədə müxtəlif qadın və kişi qruplarının təsirini qiymətləndirməyə imkan verən proses və alətlərin məcmusudur. Lakin gender büdcəsi ayrıca qadınlar üçün bir büdcə deyildir. Gender büdcəsi yalnız gender yönümlü ayırmaların — məsələn, qadınlar üçün xüsusi proqramların təhlilini, bütün sahələr və xidmətlər üzrə əsas xərclərin qadın və kişilərə ayrılıqda təsirini, dövlət xidmətləri sferasında bərabər imkanlar yaradılmasına istiqamətlənən strategiya və ayırmaların öyrənilməsini əhatə

edir. Son dövrlər geniş ictimaiyyətin, habelə qadınların büdcə məsələsi ilə bağlı məlumatlılığının artırılması, gender büdcəsi təhlilinin metodoloji bazasının gücləndirilməsi istiqamətində bir sıra addımlar atılmışdır.

Gender büdcəsi sahəsində mühüm tədqiqatçılardan hesab edilən Diane Elson gender büdcəsinin tədqiqində nəzərdən keçirilməli olan 7 aləti dəqiqliklə göstərmişdir:

*1. Gender əsaslı siyasətin qiymətləndirilməsi:* büdcədən maliyyələşən proqramlara gender perspektivindən yanaşılmalı və büdcə müəyyən siyasətin davamı olmalıdır. Bu qiymətləndirmə büdcə siyasəti ilə büdcə ayırmaları arasında birbaşa və güclü əlaqə qurmağa xidmət edir. Belə analitik yanaşma detallaşdırmanı yox, ümumiləşdirməni əsas götürür. Siyasət, strategiya və proqram səviyyəsində gender məsələləri məcmu halda qiymətləndirilməlidir.

*2. Benefisiarların gender əsaslı qiymətləndirilməsi:* benefisiarların (faydalananların) büdcə ayırmaları onların ehtiyacına uyğun qiymətləndirilməlidir. Belə bir vasitə vətəndaşın səsinin eşidilməsinə imkan verir. Büdcə qadın və kişilərin prioritetlərinə uyğun təhlil edilir. Qiymətləndirmələr müxtəlif hökumət qurumları və ya vətəndaş cəmiyyəti tərəfindən aparıla bilər.

*3. Xərclərin gender əsaslı təhlili:* dövlət xərclərinin bölgüsündən qadın və kişilərin, oğlan və qızların nə dərəcədə faydalandığının təhlil edilməsi. Bu alət müvafiq dövlət proqramları üzrə ayrılan dövlət vəsaitinin kişi və qadın, oğlan və qızlar qrupları arasında bölgünü qiymətləndirir.

*4. Gəlirlərin gender əsaslı təhlili:* gəlirlərin mənbəyində gender faktorunun təhlili nəzərdə tutulur. Belə təhlil gəlirin vergi komponentini tədqiq edir. Bu birbaşa və dolayı vergilərin müxtəlif fərdlər və ev təsərrüfatları tərəfindən hansı miqdarda ödənilməsini əhatə edir. Gəlirlərin gender əsaslı detallaşdırılmış təhlilinin tələb etdiyi gəlir informasiyaları, adətən, ev təsərrüfatları arasında keçirilmiş sorğular və vergi orqanlarının sənədləri əsasında əldə edilir.

*5. Büdcə zamanlamasənən gender yönümlü analizi* milli büdcə ilə ev təsərrüfatlarının fəaliyyəti arasındakı əlaqəni əhatə edir. Eyni zamanda burada dövlət tərəfindən haqqı ödənilməyən işlərin gender bölgüsü də öyrənilir. Hətta bu cür yanaşma

qadınların uşaqlara və ya xəstələrə baxması nəticəsində xeyli vaxt itirdiyini və real gəlir əldə etmək imkanlarının azaldığını kompensasiya etməyi də nəzərdə tutur.

*6. Orta müddətli iqtisadi siyasət çərçivəsinin gender təhlili:* milli büdcələrin gender analizi orta müddətli xərclərin planlaşdırılması modellərinin nəzərə alınmasıdır. Orta müddətli iqtisadi modelləşdirmə iki səviyyədə həyata keçirilir. Ümumi səviyyədə bütün iqtisadiyyat modelləşdirilir ki, burada iqtisadi artım tempi, büdcə kəsiri, inflyasiya, faiz dərəcəsi və məşğulluq kimi makro göstəricilərdən istifadə olunur. Genderə həssas büdcə məqsədləri üçün uyğun olan, daha detallaşdırılmış səviyyədə isə çoxillik büdcə ayırmaları modelləşdirilir. Məhz burada gender göstəriciləri modelə rahatlıqla daxil edilə bilər. Bu analiz növü yüksək modelləşdirmə vərdişləri və geniş iqtisadi məlumatlara çıxış imkanı tələb edir.

*7. Gender büdcəsi hesabatı:* hər bir hökumət yuxarıdakı amillərin proqram və büdcəyə təsirini, habelə zəruri indikatorları əhatə edən hesabat verməlidir. Bu hesabat hökumətin büdcə siyasətinin, proqramlarının və müvafiq maliyyə vəsaitinin gender əsaslı auditini özündə əks etdirir. Belə bir sənəd hazırlanarkən əvvəldə sadalanan metod və alətlərdən istifadə etmək olar. Gender əsaslı büdcə hesabatı hökumətin qarşıya qoyduğu gender bərabərliyi məqsədlərinə çatmaq və gender büdcənin təkmilləşdirilməsi yolları haqqında hesabatlılıq sənədidir.

Gender büdcəsi həssas anlayışdır və Diane Elsonun bu təhlil alətləri hər bir ölkənin məlumatlılıq səviyyəsi və hökumətin öhdəlikləri nəzərə alınmaqla spesifik kontekstə uyğunlaşdırıla bilər (*Mənbə: Elson, Diane. “Accountability for the progress of women: women demanding action”, in Progress of the World’s Women: UNIFEM Biennial Report, New York, United Nations Development Program, 2002).*

Dünya Bankının eksperti Simel Esim büdcə xərclərinin gender təhlili üçün aşağıdakı metodlardan istifadə olunmasını uyğun hesab edir: klassik iqtisadi analiz; büdcə xərclərinin təsnifatlar üzrə təhlili; institusional təhlil - resurslardan səmərəli istifadə imkanlarının artırılması; xidmətlərin çatdırılması mexanizmlərinin təhlili - hökumətə alternativlər daxil olmaqla;

xidmətlərin keyfiyyətinin təhlili; stakeholder (maraqlı tərəflərin) analizi - imkanlar və çatışmazlıqlar nəzərə alınmaqla; dövlət xərclərinin əhatə dairəsinin təhlili- ev təsərrüfatlarının davranışlarından və ayırmaların xüsusiyyətlərindən asılı olaraq; kəmiyyət metodları, o cümlədən benefisiarların qiymətləndirilməsi və yoxsulluğun dəyərləndirilməsi.

Gender büdcələşdirməsi yüksək siyasi iradə, adekvat resurslar və bacarıqlar, institusional və hüquqi baza, vətəndaş cəmiyyətinin bu sahədə yüksək məlumatlılıq səviyyəsini tələb edir. Ümumi büdcə prinsipləri olan *hesabatlılıq, şəffaflıq, bərabərlik və effektivlik* gender büdcəsinə də aid edilməlidir.

Gender büdcəsi təhlilinin formalaşmasına doğru atılan addımların ardıcıllığı:

1-ci addım - milli büdcə sisteminin hüquqi, iqtisadi və təşkilati əsaslarının bu istiqamətdə təkmilləşdirilməsi;

2-ci addım - vəzifələrin formalaşdırılması: bərabər hüquqlar və bərabər imkanlar siyasətini təmin etmək üçün resursların cinslərə uyğun bölünməsi;

3-cü addım - informasiya toplanması: beynəlxalq və milli qanunvericilik, büdcə layihələri və büdcə icrası hesabatları, statistik və sosioloji informasiyalar;

4-cü addım - büdcənin, xüsusən sosial xərclərin cari, ortamüddətli və uzunmüddətli perspektivdə gender ekspertizası;

5-ci addım - maliyyələşmə mənbələri, büdcə ayırmalarının əsaslandırılması və büdcənin yeni tərtibatı haqqında əsaslandırılmış tövsiyələrin formalaşdırılması.

Gender büdcəsində qadınların problematik məsələlər kimi nəzərdən keçirilməli olan maraq sahələri bunlardır: məşğulluq və işsizlik; bərabər iş müqabilində bərabər əməkhaqqı; dövlət qərarlarının qəbulunda iştirak; ana və uşaq sağlamlığının qorunması.

Gender büdcəsinin vəzifələri: qadэnlarэn dцvlət resurslarэna əlзatəmlэlэpэnэn artэrэlmasэ; dцvlət bьdcəsinin gender baxэmэndan effektivliyinin artэrэlmasэ; vətəndaє cəmiyyəti təюkilatlarэnэn, həmзinin qadэn qeyri-hцkumət təюkilatlarэnэn qərar qəbul etmə prosesindəki rolunun artэrэlmasэ; alternativ bьdcələєdirmə (bəzi Latэn Amerikasэ цlkələrində QHT-lər dцvlət bьdcəsini geniє təhlil etdikdən

sonra xərclərin gender perspektivindən yeni strukturunu tərtib etmiєlər).

Gender büdcəsi təşəbbüsləri hazırda dünyanın 50-dən çox ölkəsində həyata keçirilməkdədir. Onlardan bəzilərini nəzərdən keçirmək yerinə düşərdi, çünki müvafiq beynəlxalq təşəbbüsləri, bir sıra xarici ölkələrin təcrübəsinin müsbət və mənfi tərəflərini təhlil etməklə daha təkmil gender büdcəsi tərtib etmək olar.

Avstraliyanın gender büdcəsi dünyada ən uzunömürlüdür və digər ölkələrin təşəbbüsləri üçün bir növ örnəkdir. Ölkənin ilk qadın büdcəsi 1980-ci illərin ortalarında Əmək Partiyasının iqtidara gəlməsindən sonra bərqərar olub. Avstraliyanın qadın büdcəsi hökumət daxilində hazırlanan sənəddən və mövcud proseslərdən ibarətdir. Bu proses hökumət tərəfindən gender menecment mexanizmi vasitəsilə əlaqələndirilir, bu işdə müxtəlif nazirliklər də iştirak edirlər.

Həmin gender büdcəsi 300 səhifədən ibarət ümumi metodologiyalar üzrə hazırlanan büdcə təhlili sənədindən və bunun əsasında tərtib olunan sadələşdirilmiş sənədlərdən ibarətdir.

1995-ci ildə Cənubi Afrika parlamentinin ьzvləri, QHT nьmayəndələri və tədqiqatзəlarэ qadən bьdcəsinin təhlili təєəbbьsьnь qəbul etdilər, 1997-ci ildə isə hökumət bu təşəbbüsü həyata keçirdi.

Rusiya Federasiyasında gender büdcəsi təşəbbüsləri 2002-2003-cü illərdə bir sıra qadın təşkilatları tərəfindən gündəmə gətirilib. 2004-2006-cı illərdə UNIFEM-in dəstəyi ilə “Rusiyada gender büdcəsi” layihəsi reallaşdırılıb. Layihədə məqsəd büdcə vəsaitlərinin bölgüsü ilə bağlı dövlət qərarlarının qəbulunda qadınların iştirakının artırılması idi.

Fransada 2000-ci ildə qəbul edilən Büdcə Aktı hökumətdən hər ilin dövlət büdcəsinə gender bərabərliyinin maliyyə təminatını əks etdirən ayrıca əlavənin daxil edilməsini tələb edir. Fransa İqtisadiyyat, Maliyyə və Sənaye Nazirliklərinin hazırladığı hesabat onu göstərmişdir ki, yoxsulluq həddində yaşayan daha çox qadınlardır.

Filippin hökuməti 1994-cü ildə gender və inkişaf yönümlü büdcə siyasətini təsdiqlədi ki, bu da hər bir hökumət qurumundan onun büdcəsinin ən azı 5 faizini gender və inkişaf məqsəd-

lərinə ayırmasını tələb edirdi.

Britaniya Millətlər Birliyinin (Birlik цlkələrinin 1995-ci ildə qəbul etdikləri fəaliyyət planı - Commonwealth Plan of Action on Gender and Development - əsas tənzimləyici sənəddir) bəzi цlkələri bьdcənin hazэrlanmasэnda əsas məsul olan nazirliklərdə "gender perspektivi yanaюmasэ"nэ tətbiq edirlər. Bu halda həmin nazirlik və ya bьtцvlьkdə hцkumət bьdcə ilə eyni zamanda xərc hissəsinin gender təhlilini də aparэb təhvil verir. Belə gender təhlili nazirliklərdən tələb edir ki, gender bərabərliyinin təminatlarэnэn bərqərar olmasэ ьзьn ayrэlan xərclərin, qadэnlarэn sosial problemlərinin həlli ьзьn prioritet təєkil edən dцvlət xidmətlərinin, qadэnlarla iю ьzrə dцvlət qurumunun fəaliyyətinə ayrэlmэю xərclərin və s. dəqiq hesabatэnэ aparsэn. Bir məqamэ da nəzərə almaq lazэmdэr ki, bəzən bərabər imkanlar, bərabər real istifadəyə gətirib зэxarmaya bilər. Bu baxэmdan, gender bьdcəsi mərkəzi, regional və yerli bьdcə ayэrmalarэnda qadэnlarэn fərqli sosial ehtiyaclarэnэn nəzərə alэnmasэnэ da əhatə etməlidir.

BMT-nin 1995-ci ildə Pekində keçirilmiş IV Ümumdünya Qadın Konfransında qəbul edilmiş Fəaliyyət Platformasının 345 və 346-cı maddələri birbaşa olaraq gender büdcəsi ilə bağlıdır. 345-ci maddə dövlət proqramları və siyasətləri üzrə büdcə qərarlarında gender perspektivinin inteqrasiyasını, eyni zamanda gender bərabərliyinin təmin edilməsi üçün hökumətlərdən adekvat maliyyələşməni tələb edir. 346-cı maddə isə hökumətlərin qadınların büdcə xərclərindən necə faydalandığının sistematik şəkildə monitorinqini aparmasını, habelə büdcənin dövlət xərclərinə bərabər çıxışa imkan verən şəkildə tərtibini nəzərdə tutur.

Gender büdcəsinin istər hökumətdaxili, istərsə də hökumətdənkənar formada tərtibi təşəbbüsləri bu gün Kanada, Hindistan, Tanzaniya, Meksika, Zimbabve kimi ölkələrdə də həyata keçirilir.

***Gender Kvotaları***

Bu kvotalar hakimiyyət orqanlarında qadın və kişilərin təmsil olunmasının qanuniləşdirilmiş səviyyəsidir və onun əsasında bu bərabərliyin müasir konsepsiyası durur. Gender

Kvotalarının əsas ideyası qadınların siyasi təmsil olunmasını artıraraq, onları qərar qəbuletmə səviyyəsinə cəlb etmək və siyasi həyatdan təcrid olunmalarına imkan verməməkdir. Kvotalar digər pozitiv formalar kimi, bərabər imkanların qazanılmasında vasitə rolunu oynayır. Hakimiyyətdə gender bərabərliyinə nail olmaq demokratiya şəraitində ədalətli və zəruridir. Kvotalar sisteminin vəzifəsi qadınların müxtəlif qurumlarda, məsələn ölkə parlamentində, yerlərin 30-40 faizinin qadınlar tərəfindən təmsil olunmasından ibarətdir. Kvotalaşdırma siyasi proseslərə, bütövlükdə siyasi mədəniyyətə əhəmiyyətli dərəcədə təsir göstərə bilər. Bu sistemin səmərəliliyi, ədalətliliyi və nəticələri barədə fikirlər kifayət qədər müxtəlif olmaqla yanaşı, geniş müzakirə obyektidir. Həmin sistemin istifadəsinin daha səmərəli yolları müzakirə olunur və belə sistemdən istifadə edən ölkələrin təcrübəsi öyrənilir. Lakin kvotalar sistemi müvəqqəti tətbiq olunur.

**5. Azərbaycanda gender siyasəti, “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının Qanunu**

Kişilərlə qadınlar arasında qanunda və təcrübədə bərabərlik insan hüquqlarının və demokratiyanın ayrılmaz tərkib hissəsidir. Demokratik cəmiyyət gender bərabərliyi prinsipinə əsaslanır və sosial-siyasi həyatda qadınların aktivliyi cəmiyyətin inkişafında mühüm rol oynayır. Təsadüfi deyil ki, Azərbaycan hökuməti də ölkədə gender bərabərliyinin təmin olunmasına xüsusi diqqət yetirir. Azərbaycan qadını ölkənin ictimai-siyasi həyatında daim mühüm yer tutub. Tariximizin və mədəniyyətimizin bir çox parlaq səhifələri Azərbaycan qadınının adı ilə bağlıdır.

Milli qadın siyasəti tariximizin hələ Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət statusu almışdır. 1918-ci ildə ilk dəfə olaraq müsəlman Şərqində qadına seçmək və seçilmək hüququnun verilməsi tarixi nailiyyət hesab olunur. Bununla da nəinki Şərqdə, hətta demokratiyanın beşiyi sayılan bir sıra Avropa ölkələrindən və ABŞ-dan əvvəl qadına cəmiyyət həyatında siyasi proseslərə qoşulmaq hüququ verilmişdir.

Erkən sovetləşmə dövründə və sonrakı sovet cəmiyyətində

Azərbaycan qadınları güclü emansipasiya proseslərinin təsirinə məruz qalmışdılar və sürətli inkişaf nəticəsində yetərincə yüksək siyasi (partiya), iqtisadi və ictimai (sosial) statusa malik olmuşlar. Onların maraqları daha çox partiya-dövlət, həmkarlar və qadın təşkilatları xətti ilə təmsil olunurdu.

Xalqımızın hüquq və azadlığını daim qorumuş Heydər Əliyev qadın hərəkatını, qadınlarla bağlı məsələləri daim diqqət mərkəzində saxlamışdır. O, 1969-cu ildə respublikamıza ilk dəfə rəhbər təyin olunanda qadınlara diqqət və qayğı göstərərək, onları bilik və bacarıqlarına görə, istedad və intellektinə görə irəli çəkməyə, yüksək vəzifələrə təyin etməyə başlamışdı. O dövrdə bir çox rayonlara rəhbərlik qadınlara tapşırılmışdı. Nazir və nazir müavinləri arasında bir neçə qadın var idi. Respublikamızın tarixində ilk dəfə olaraq, ali məktəblərə qadın rektorlar təyin edildi. Həmin illərdə neçə-neçə qadın "Sosialist Əməyi Qəhrəmanı", "Qəhrəman ana" fəxri adları aldı. Respublikada qeyri-hökumət qadın cəmiyyətləri və təşkilatları yaranmağa başladı.

Sovet hakimiyyəti dövründə Azərbaycan qadınlarının 1957, 1967 və 1972-ci illərdə keçirilmiş qurultayları da Azərbaycanda qadın hərəkatının inkişafında, onun daha mütəşəkkil forma almasında mühüm rol oynadı.

Azərbaycan müstəqilliyini ikinci dəfə əldə etdikdən sonra əvvəlki dövrdən fərqli olaraq, qadınlar daha çox ictimai və iqtisadi böhranın təsirlərini öz üzərlərində hiss etmişdilər. 90-cı illərin əvvəllərində bir ictimai qrup kimi, qadın və qızların hüquqlarının müdafiəsində xeyli boşluqlar yaranmışdı və bunun nəticəsi olaraq onların hətta istismar və zorakılıq obyektinə də çevrilməsi müşahidə edilmişdir. Bu dövrdə cərəyan edən real sosial-iqtisadi proseslər və Qarabağ münaqişəsi qadınların vəziyyətini daha da ağırlaşdırdı və obyektiv diskriminasiya vəziyyətində olan qadınların sayını xeyli dərəcədə artırdı. Bunların sırasında müvəqqəti köçkünlərin və xüsusən başçısını itirmiş ailələrdə qadın və qızların vəziyyəti olduqca ağır olmuşdur.

Məlumdur ki, dünyanın inkişaf etmiş ölkələrində qadınlarla iş Pekin Konfransında qəbul edilmiş 12 strategiya əsasında aparılır. Həmin müddəalardan biri də cəmiyyəti bu gün ən çox

düşündürən yeniyetmə qızlar problemidir. Qaçqın və məcburi köçkünlərin əzab-əziyyətlə üzləşməsi gənclərimizin, o cümlədən qızlarımızın vəziyyətinə mənfi təsir göstərir. Mənəvi-əxlaqi dəyərlərə uyğun olmayan mövcud neqativ halların aradan qaldırılması, şəxsiyyətlər yetişdirəcək XXI əsrin gələcək nəslinin anaları olacaq qızlarımızın fiziki, əqli və mənəvi inkişafının yüksəlişi üçün hamının səfərbər olması zəruridir.

Artıq Azərbaycanda gender bərabərliyi üçün siyasi iradə nümayiş etdirilmiş, beynəlxalq tələblərə uyğun tədbirlər görülmüşdür. Azərbaycan Respublikasında qadın hüquqlarının qorunması üzrə mühüm addımlar atılaraq, müvafiq qərarlar qəbul olunmuşdur Gender 1995-ci il noyabrın 12-də qəbul edilmiş Konstitusiyamızda gender məsələlərinin əks olunması ilə gender qanunvericiliyinin inkişafına təkan verilmişdir.

Lakin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində bir milyondan artıq qaçqın və məcburi köçkünün əksəriyyətini təşkil edən qadınlarımızın ən kobud şəkildə pozulmuş təməl hüquqları hələ də bərpa olunmamış, beynəlxalq təşkilatların, BMT və Avropa Şurasının Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən qərarlarının mövcud olmasına baxmayaraq, həmin insanları doğma yurdlarına qaytarmaq səyləri hələ də nəticəsiz qalır.

Azərbaycan bu sahədə bütün mühüm beynəlxalq sənədlərə, o cümlədən, 1992-ci ildə BMT-nin "Qadınların siyasi hüquqları", 1995-ci ildə "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyasına, 2000-ci ildə isə onun Əlavə Protokoluna qoşulmuşdur. 1995-ci ilin sentyabr ayında Pekində keçirilən IV Ümumdünya Qadın Konfransında Azərbaycan qadınlarından ibarət yüz nəfərə yaxın - hökumətdən 25 nəfər və qadın qeyri-hökumət təşkilatlarından 70 nəfər nümayəndə heyəti iştirak etmişdir. Konfransdan sonra respublikamızda qadınların fəallığı artmış, onların problemlərinə digər ölkələrdə olduğu kimi, Azərbaycanda da diqqət və maraq çoxalmışdır. Bu isə Parlament seçkilərində qadınların rəhbər vəzifələrə irəli çəkilməsində (qadın deputatların sayı 2 dəfə artdı) özünü göstərmişdir.

Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında Konvensiyaya (CEDAW) qoşulması

ilə əlaqədar 1996-cı ildə Azərbaycan hökuməti BMT-yə ilkin məruzə təqdim etdi. Pekin Platformasına uyğun olaraq gender siyasətinin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 14 yanvar tarixli Fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradıldı (2006-cı il fevralın 6-dan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi). Komitə öz fəaliyyətini QHT-lər, siyasi partiyalardakı qadın qrupları, həmkarlar ittifaqları, kütləvi informasiya vasitələrində çalışanlarla birlikdə həyata keçirir. Gender tədqiqatları mərkəzlərinin yaradılması, qadın problemlərinin həllinə yönəlmiş layihələrin həyata keçirilməsi, cəmiyyətin gender sahəsində məlumatlandırılması bu milli mexanizmin uğurlu fəaliyyətinə yardım etmişdir.

1998-ci ildə vətəndaş cəmiyyətinin formalaşmasında böyük rolu olan Qeyri-Hökumət Təşkilatlarının fəallığı artdı.

1994-cü ildə yaranmış Azərbaycan Qadın və İnkişaf Mərkəzi (AQİM) Azərbaycanda BMT-nin İqtisadi və Sosial Şurası (ECOSOC) ilə xüsusi məsləhətçi statusu alan ilk və yeganə qadın qeyri-hökumət təşkilatdır. AQİM qadın problemləri üzrə ilk elmi praktiki təşkilatdır ki, fəaliyyət göstərdiyi dövr ərzində 150-dən çox konfransda, o cümlədən 110-dan artıq beynəlxalq konfransda məruzə və çıxışlarla iştirak etmişdir. Ombudsman Elmira Süleymanovanın yaratdığı və ilk prezidenti olduğu AQİM-in qarşısında əsas məqsəd kimi qadınların davamlı inkişaf prosesində iştirakı, onların vəziyyətinin yaxşılaşdırılması və hüquqlarının müdafiəsi kimi mühüm vəzifələr dururdu. Fəaliyyət göstərdiyi illər ərzində Mərkəz qadın və uşaq hüquqlarının öyrənilməsi və gender sahəsində çoxsaylı konfranslar, müşavirələr və seminarlar keçirmiş, geniş maarifləndirmə işi aparmış, müxtəlif layihələr yerinə yetirmişdir. Hazırda AQİM-in fəaliyyəti durmadan genişlənir və respublikanın bəzi regionlarında mərkəzin filialları fəaliyyət göstərir.

Gender sahəsində tədqiqatçı, fəlsəfə elmləri doktoru Rəna Mirzəzadənin sədrliyi və respublika alimlərinin təşəbbüsü ilə “Gender və İnsan Hüquqları” Araşdırma İctimai Birliyi demokratik inkişafda gender münasibətləri və insan hüquqları problemlərinin qarşılıqlı elmi-tədqiqini aparmaqla fəaliyyətini genişləndirmişdir. Həmçinin, o, qadın hüquqlarına dair nəşrlərin,

kitabların və dərsliklərin müəllifidir.

2000-ci ilin sentyabrında Gender sahəsində məsul şəxslərin təyin edilməsi barədə Sərəncam verildi. "Gender İnkişafda" Qurumunun direktoru Rəna İbrahimbəyova Nazirlər Kabinetinin "Elm, mədəniyyət, təhsil və sosial problemlər" şöbəsinin müdir müavini, BDU-nun "Gender və psixologiya" kafedrasının rəhbəri oldu. "Gender İnkişafda" layihəsinin əsas əhəmiyyəti cəmiyyətdə "Gender yanaşmasının" ("gender mainstreaming") dəstəklənməsinə xidmət etmişdir. "Gender İnkişafda" layihəsi tərəfindən QHT-lərə dəstək verilmiş, 12 qadın təşkilatı öz tələbatlarına uyğun olaraq avadanlıqla təmin edilmiş, ingilis dili kursları təşkil edilmişdir. Qadınların sosial fəallığı artırılmış, müxtəlif treninqlər, seminarlar, konfranslar keçirilmisdir. 2000-ci ilin yanvar ayından başlayan bir illik layihə çərçivəsində Azərbaycanda ilk dəfə olaraq "Genderşünaslıq" Azərbaycan Beynəlxalq elmi-kütləvi jurnalı (Azərbaycan və ingilis dillərində) çap edilmişdir. Bir il ərzində 4 sayı buraxılan bu jurnalın baş redaktoru Rəna Mirzəzadə olmuşdur.

2000-ci ilin mart ayında ölkə Prezidenti "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi" haqqında Fərman imzalayıb. Bu sənəd respublikamızın bütün dövlət strukturlarında qadın və kişilər arasında bərabərliyin təmin olunması, müvafiq dövlət proqramlarının hazırlanması ilə qaçqın və məcburi köçkün qadınların işlə təmin olunması, gender nöqteyi-nəzərindən qanunvericiliyə yenidən baxılmasını nəzərdə tutmuşdur. Bu Fərman artıq bir sıra bölgələrdə həyata keçirilmişdir.

2000-ci ilin iyun ayında Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasında qadın məsələləri üzrə 2000-2005-ci illər üçün Milli Fəaliyyət Planı" qəbul etdi. Bu proqram milli prioritetləri nəzərə alaraq, Pekin Strategiyası əsasında hazırlanıb. Proqram siyasət, iqtisadiyyat, sosial, mədəniyyət, təhsil və səhiyyə sahələrini, eləcə də qaçqın və məcburi köçkün qadınların problemlərini əhatə etmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Fərman və Sərəncamları ilə respublikamızda gender siyasətinin həyata keçirilməsində müəyyən hüquqi baza yaradılmışdır və Prezident İlham Əliyev bu bazanın daha da möhkəmləndiril-

məsi istiqamətində fəaliyyətini davam etdirir.

Azərbaycan Respublikasında gender sahəsində Konstitusiyadan sonra qəbul edilən ən mühüm sənəd kimi "Gender bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanununu hesab etmək olar. Konstitusiyanın 25-ci maddəsində cinsi ayrı-seçkiliyin qadağan olunması ilə bağlı əks olunmuş prinsipin təminatlarını tənzimləyən "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" 10 oktyabr 2006-cı il tarixli Azərbaycan Respublikası Qanununun məqsədi cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaqla, kişi və qadınlara ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanlar yaratmaqla gender bərabərliyinin təmin edilməsindən ibarətdir. Bu qanuna əsasən cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması, kişilərə və qadınlara bərabər imkanların yaradılması, dövlətin idarə olunmasında və qərarlar qəbul edilməsində bir cinsin nümayəndələrinin üstünlüyünə yol verilməməsi üçün dövlət tədbirlər görür.

"Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilmişdir. "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanunun 5-ci maddəsində bu sahədə dövlət siyasətinin dörd əsas istiqaməti göstərilir:

1. Gender bərabərliyinin təmin edilməsi üçün normativ-hüquqi bazanın formalaşdırılması, təkmilləşdirilməsi və inkişafı;
2. Normativ-hüquqi aktların gender ekspertizasından keçirilməsi;
3. Gender bərabərliyinin təmin edilməsi üçün dövlət proqramlarının hazırlanması və həyata keçirilməsi;
4. Gender bərabərliyi mədəniyyətinin təbliği.

Bu Qanunun özəlliyi həmçinin ondan ibarətdir ki, burada bir çox anlayışların mənası əks olunmuşdur. Belə ki, gender - ictimai həyatın siyasi, iqtisadi, mədəni və digər sahələrində kişi və qadın münasibətlərinin sosial cəhəti, gender bərabərliyi isə

qadın və kişilərin hüquq bərabərliyi və bu hüquqların həyata keçirilməsi üçün bərabər imkanlar və onların cəmiyyətdə bərabər sosial vəziyyəti başa düşülür. Bərabər imkanlar dedikdə insan hüquqlarının həyata keçirilməsində qadınlar və kişilər üçün yaradılan bərabər şərait və təminatlar önə çəkilir. Bundan əlavə, Qanunda cinsi mənsubiyyətə görə ayrı-seçkilik və seksual qısnamaya anlayış verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 15 may tarixli 2167 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər)" təsdiq edilmişdir. Məşğulluq sahəsində gender bərabərliyinin təmin edilməsi məqsədi ilə proqram çərçivəsində müvafiq tədbirlər həyata keçirilmişdir.

Bir sıra normativ-hüquqi aktlarla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası da ölkədə gender bərabərliyinin təmin edilməsi və dövlət siyasətində gender əsaslı zorakılıq hallarının qarşısının alınması üzrə tədbirlərin görülməsini nəzərdə tutur ki, bu da müvafiq dövlət proqramları vasitəsilə reallaşdırılmaqdadır.

28 dekabr 2001-ci il tarixində Azərbaycan Respublikası Milli Məclisi tərəfindən qəbul edilmiş "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanunu əsasında yaradılmış Ombudsman təsisatı gender bərabərliyinin təmini sahəsində müvafiq normativ-hüquqi bazanın təkmilləşdirilməsi, beynəlxalq təcrübənin öyrənilməsi, vətəndaşların hüquqi biliklərinin artırılmasına yönəlmiş maarifləndirmə tədbirlərinin keçirilməsi, qadınlara liderlik bacarıqlarının aşılanması işində mühüm rol oynayır. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili vəzifəsi Azərbaycan Respublikası Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş və Azərbaycan Respublikasının dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi və Konstitusiya Qanunu ilə müəyyən edilmiş hallarda insan hüquqları pozuntularının qarşısının alınması üçün təsis edilib. Müvəkkil bu qanuna uyğun səlahiyyətləri və vəzifələri

çərçivəsində, o cümlədən qadın hüquqlarını özündə ehtiva edən və əsas beynəlxalq sənədlərdən olan Pekin Fəaliyyət Platformasının 12 prioritet istiqaməti üzrə öz fəaliyyətini həyata keçirməkdədir.

Burada gender balansına, bərabər səlahiyyətlər əsasında ictimai həyatın bütün sahələrində, xüsusilə də qərar qəbuletmə və siyasətin işlənib hazırlanması işində qadınların iştirakı və təşəbbüslərinin artırılması məqsədilə Müvəkkil yerli və mərkəzi icra hakimiyyəti orqanları, QHT və KİV-lə, icmalarla əməkdaşlıq edir, mövcud problemlərin həlli istiqamətində fəaliyyətini təşkil edir. Müvəkkil ölkədə gender siyasətinin həyata keçirilməsi və qadın hüquqlarının effektiv təmini istiqamətində mövcud problemlərə diqqət yetirir, müvafiq qurumlara təklif və tövsiyələr verir.

XXI əsrdə Azərbaycan qadını beynəlxalq aləmdə özünəməxsus yer tutmuşdur. Bu mənada ölkəmizin Birinci Xanımı, Heydər Əliyev Fondunun Prezidenti, UNESCO və İSESCO-nun Xoşməramlı səfiri Mehriban xanım Əliyevanın həyata keçirdiyi beynəlxalq əhəmiyyətli layihələr onun simasında Azərbaycan qadınına dünya miqyasında şöhrət və ehtiram qazandırmışdır.

Müstəqil Azərbaycan Respublikasında milli qanunvericilik qadınların hüquq bərabərliyini təmin edərək, hər cür ayrı-seçkiliyin qarşısını almağa xidmət göstərir, gender məsələləri ilə bağlı dövlət siyasəti isə qadınların bərabər imkanlarının gerçəkləşdirilməsinə yönəlib. Hazırda respublikamızda gender üzrə milli prioritet hədəf və göstəricilərin müəyyənləşdirilməsi müvəffəqiyyətlə davam edir.

**Tələbələrin biliklərinin qiymətləndirilməsi üçün suallar:**

1. “Gender” anlayışı, predmeti və vəzifələri
2. Gender tədqiqatlarında işlənən hansı üsullar mövcuddur?
3. Gender ideyası və ideologiyası.
4. Gender bərabərliyi və bərabərsizliyi.
5. Gender münasibətləri psixologiyasının mahiyyəti?
6. Gender büdcəsi sahəsində hansı tədqiqatçıları geyd edə bilərsiz və onların təhlil metodları hansılardır?

7. Gender kvotaları nədir?
8. Azərbaycanda Gender siyasəti və hüquqi təminat.

## Mühazirə 5. Azərbaycan Respublikasının strategiya və Dövlət Proqramlarında qadın hüquqları və gender məsələləri

1. ***Sosial-iqtisadi vəziyyətin qadın hüquqlarına təsiri***
2. ***Müstəqillik dövrünün islahatlarının qadın hüquqlarına təsiri***
3. ***Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı***
4. ***Strategiya və Dövlət Proqramlarında qadın hüquqları və gender məsələləri***
5. ***27 dekabr 2011-ci il tarixli "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nda qadın hüquqlarının müdafiəsi***
6. ***"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında gender bərabərliyi***

### 1. Sosial-iqtisadi vəziyyətin qadın hüquqlarına təsiri

Yaşadığı tarixi dövrdən, onun sosial-iqtisadi vəziyyətindən, coğrafi məkandan, irqindən, dilindən, dinindən asılı olmayaraq, qadın bəşəriyyətin inkişafının bütün mərhələlərində aparıcı qüvvə olub. Qadın siyasəti müstəqil Azərbaycan dövlətinin əsas prioritet sahələrindəndir. Qeyd etmək lazımdır ki, gender bərabərliyi və qadınların imkanlarının genişləndirilməsi inkişafın fundamental əsasıdır və qloballaşma prosesində önəmli yer tutur. Hüquqi dövlət şəxsiyyətin sosial müdafiəsini, bütün cəmiyyət üzvləri üçün normal həyat şəraitini təmin etməyə xidmət edir. Qadınlar üçün uyğun şəraitin yaradılması, məşğulluq, sağlamlıq, təhsil və sosial siyasət sahəsində gender bərabərliyinin inkişaf etdirilməsi dövlət üçün mühüm amildir.

Gender məsələlərinə diqqət bir neçə baxımdan aktualdır. Son illərdə bütün dünyada qadınların hüquq bərabərliyinin təmin edilməsi sahəsində xeyli işlər görülmüşdür. Ümumi insan hüquqları kontekstində qadın hüquqlarına verilən diqqət öz əksini bir çox sənədlərdə tapmışdır. Bu sənədlərdə qeyd olunur ki, stabil inkişafın, demokratiyanın, sosial ədalətin təmin edil-

məsinin əsas şərtlərindən biri qadın və kişilərin hüquq bərabərliyinin təmin edilməsi, yəni gender bərabərliyidir. Dünya təcrübəsindən məlumdur ki, necə ki, qadınların vəziyyəti ölkənin iqtisadi inkişafına, cəmiyyətdə sosial və siyasi sabitliyə birbaşa təsir göstərdiyi kimi, ölkədəki sosial-iqtisadi vəziyyətin də insan hüquqlarının bir hissəsi olan qadın hüquqlarına təsiri vardır.

Hələ sovet dövründə qəbul edilən sənədlərdə qadın hüquqlarının təmini məsələsi öz əksini tapmışdır. Məsələn, Azərbaycan SSR Nazirlər Sovetinin 1983-cü il 14 oktyabr tarixli 418 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan SSR ərazisində mənzil şəraitini yaxşılaşdırmağa ehtiyacı olan vətəndaşları uçota götürməyin və yaşayış sahələrini bölüşdürməyin Nümunəvi Qaydaları"nda qadın hüquqlarının təmin edilməsinə dair çox mütərəqqi müddəalar öz əksini tapmışdır. Mənzil şəraitini yaxşılaşdırmağa ehtiyacı olan, "Qəhrəman ana" adı verilmiş, yaxud "Analıq şərəfi" ordeni və ya "Analıq medalı" ilə təltif olunmuş qadınlara, onlarla bir yerdə yaşayan dörd və daha çox uşağı olan ailələrə və tək analara birinci növbədə üstünlük verilmişdir. Verilən yaşayış sahəsinin ölçüsü müəyyən edilərkən ailədə hamilə qadın olması nəzərə alınırdı.

XX əsrin sonlarında iqtisadi keçid dövrünün ciddi problemləri çətin ictimai-siyasi vəziyyət yaratmışdı. Keçən əsrin 80-ci illərinin sonunda kəskinləşən dərin iqtisadi böhran, keçid dövrünün ilkin mərhələsində, bütün postsovet məkanında olduğu kimi, Azərbaycanda da təsərrüfat fəaliyyətinin iflic vəziyyətə düşməsinə, sosial sarsıntılara, geniş əhali təbəqələrinin maddi vəziyyətinin ağırlaşmasına, işçi qüvvəsinə tələbatın və sosial müdafiənin kəskin şəkildə azalmasına səbəb oldu. Bu vəziyyət erməni millətçilərinin ölkəyə təcavüzü nəticəsində daha da ağırlaşdı. Torpaqların 20 faizinin işğalı, 4 mindən artıq sənaye və kənd təsərrüfatı müəssisəsinin və 300 mindən artıq iş yerinin işğal olunmuş ərazilərdə qalması, bir milyondan çox qaçqın və məcburi köçkün vətəndaşın öz yurd yerlərindən didərgin salınması iqtisadi və sosial duruma son dərəcə mənfi təsir göstərmiş, məşğulluq sahəsində vəziyyəti olduqca gərginləşdirmişdi.

Bütün bu problemlərə baxmayaraq, qadınlarımız özlərində

güc taparaq, Azərbaycanın inkişafı və müstəqilliyinin gücləndirilməsi prosesində fəal iştirak etməyə başlamışlar. Qadınların iqtisadi və sosial vəziyyətinin təhlili, onlara qarşı ayrı-seçkiliyin səbəblərinin araşdırılması və aradan qaldırılması yollarının müəyyən edilməsi Azərbaycan üçün həm insan hüquqlarının qorunması, həm cəmiyyətdə gender bərabərliyinin təmin edilməsi, həm də yoxsulluğun aradan qaldırılması baxımından aktual idi.

Keçid dövrü ilə əlaqədar meydana çıxan iqtisadi çətinliklər, sosial sahələrdəki dəyişikliklər patriarxal ideologiyanın güclənməsinə səbəb olmuşdur. Bu isə öz növbəsində qızların məktəbdən yayınmasında, erkən yaşda nikahların artmasında, qadınların sosial statusunun aşağı düşməsində özünü büruzə vermişdir. Ailənin yoxsullaşması, uşaq müəssisələrinin azalması və ya fəaliyyətinin zəifləməsi, məişət xidmətlərinin bahalaşması və kənd yerlərində olmaması qadınları ictimai həyatdan və gəlir gətirən əməkdən uzaqlaşdırmışdır. Digər tərəfdən, kişilər arasında işsizlik, ailə büdcəsinin aşağı düşməsi ailənin qadın tərəfindən dolandırılmasına səbəb olmuşdur. Halbuki bu, bir gədər əvvəlki dövrə xas olmayan cəhət idi. Xüsusilə iqtisadiyyatın qeyri-formal sektorunda işləyən qadınların sayı artmışdır. Lakin bu sahədə işləyən qadınların məvacibi eyni işi görən kişilərin məvacibindən çox aşağı idi.

Son illər ölkəmizdə aparılan sosial, iqtisadi və hüquqi islahatlar nəticəsində insan hüquqlarının, o cümlədən qadın hüquqlarının müdafiəsi dövlət siyasətinin tərkib hissəsi olmuşdur. Bu hüquqların müdafiəsinə dövlət təminat verərək, bir sıra mühüm qanunlar, dövlət proqramları qəbul edilmiş və uğurla icra edilməkdədir.

Bu günə kimi Azərbaycan Respublikası 250-ə yaxın beynəlxalq müqavilə, konvensiya, protokol və reqlament kimi sənədlərə qoşulmuş və qanunvericilik bazasına yüksək tələblərə cavab verən minlərlə normativ-hüquqi aktlar daxildir.

Müstəqilliyin bərpasına nail olmuş, 1991-ci ildən bəri yenidən müstəqillik yolu ilə inamla irəliləyən dövlətimizdə xüsusi olaraq qadın hüquqlarına dair bir, bilavasitə insan hüquqları sahəsində sayca üç, tərkibində qadın hüquqları və gender bərabərliyi məsələləri ilə bağlı müddəalar olan onlarca belə

mühüm strateji əhəmiyyətli sənədlər qəbul edilmişdir. Yeri gəlmişkən, Milli Fəaliyyət Planlarının konsepsiyası və demokratik inkişafda əhəmiyyəti hələ 1993-cü ildə Vyanada keçirilmiş İnsan Hüquqları üzrə Dünya Konfransının yekun tövsiyələrində öz əksini tapmışdır.

Həmin konfransda hər bir dövlətə insan hüquqlarının müdafiəsi və təşviq olunmasını daha da təkmilləşdirə biləcək addımları müəyyənləşdirən Fəaliyyət Planının hazırlanmasının məqsədəuyğunluğunu nəzərdən keçirmək tövsiyə olunmuşdur.

Həyata keçirilən islahatların məntiqi davamı olaraq, ölkə Prezidentinin 28 dekabr 2006-cı il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planı təsdiq edilmişdir. Bu Planda BMT-nin "Minilliyin inkişaf məqsədlərinin" və Avropa Şurasının 3-cü Zirvə Görüşünün insan hüquqlarının müdafiəsi və demokratiyanın, qanunun aliliyinin təmini sahəsində müəyyən etdiyi prioritetləri nəzərə alınmışdır. Planın 17-ci bəndində (Qadınlara qarşı zorakılıq, o cümlədən məişət zorakılığı ilə mübarizənin gücləndirilməsi, bu cür zorakılığın qurbanları üçün hüquqi müdafiə vasitələrinin, zəruri kompensasiyanın, reabilitasiyanın, tibbi və psixoloji yardımın təmin olunması, bu sahədə geniş maarifləndirmə işinin təşkil edilməsi), 18-ci bəndində (Azərbaycan Respublikasının tərəfdar çıxdığı BMT-nin Mülki və siyasi hüquqlar, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Paktlardan, Uşaq hüquqları haqqında, Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında Konvensiyalardan, habelə Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyaya İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında Protokoldan irəli gələn öhdəliklərin tam həcmdə yerinə yetirilməsi və həmin sənədlərə riayət olunmasının təmin edilməsi), 38-ci bəndində (UNESCO-nun "Təhsil hamı üçün" prinsipinin təbliği, hüquqi maarifləndirmə işinin genişləndirilməsi, insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi məqsədilə insan hüquqlarının müxtəlif kateqoriyaları üzrə (mülki, siyasi, iqtisadi, sosial və mədəni hüquqlar) əhalinin müxtəlif qrupları (qadınlar, uşaqlar, gənclər, əlilliyi olan şəxslər, ahıllar, qaçqın və məcburi köçkünlər, məhkumlar, hər-

bi qulluqçular, habelə narkomaniyaya və İİV/QİCS-ə yoluxmuş insanlar) üçün həmin qrup və yerli icmaların köməyindən istifadə etməklə hüquqi maarifləndirmə sahəsində müəllimlərin, məruzəçilərin, təlimatçıların hazırlanması) qadınların hüquqlarının müdafiəsi ilə bağlı müddəalar vardır. Həmin Plan insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, beynəlxalq səviyyədə yeni əməkdaşlıq strategiyasının qurulmasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət etmiş, bununla da davamlı, köklü islahatların ardıcıl, mütəşəkkil proseslərin bünövrəsi qoyulmuşdur.

Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının icra vəziyyəti mütəmadi qaydada təhlil edilmiş, onun icrası və nəticələrinin müzakirəsi üçün cəmiyyətin müxtəlif təbəqələrinin nümayəndələrinin iştirakı ilə ölkəmizin bütün rayon və şəhərlərində ictimai dinləmələr keçirilmişdir. Hər il Planda nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti, ictimai dinləmələrin nəticələri təhlil olunmuş, irəli sürülmüş təkliflər ümumiləşdirilərək kitab şəklində nəşr olunmuş, ölkə rəhbərliyinə və ictimaiyyətə təqdim olunmuşdur. Bu nəşrlərdən müxtəlif qurumlar arasında təcrübə mübadiləsi və əməkdaşlıq əlaqələrinin inkişafında dəyərli vəsait kimi istifadə olunmuşdur. Lakin zaman dəyişdikcə hər yeni inkişaf mərhələsi insan hüquqlarının təmin olunması sahəsində yeni məqsədlər, prioritetlər, problemlər və onların həlli məsələlərini doğurur ki, bu da yeni islahatların zəruriliyini gündəmə gətirir.

Qadın hüquqları həm qanunlar, həm də bir sıra məcəllələrdə (Ailə, Mülki, Cinayət, İnzibati Xətalar və s. məcəllələr) təsbit olunmuşdur. Qəbul olunmuş bir sıra dövlət proqramları, o cümlədən, "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı", "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı", "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları" ölkənin siyasi, sosial, iqtisadi, mədəni həyatında qadınların rolunun artırılmasında mühüm əhəmiyyət daşıyır. Azərbaycan Hökuməti "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında"

Konvensiyaya qoşulması ilə əlaqədar BMT-yə dövri hesabatlar verir. Artıq hər hesabatdan sonra irəli sürülən tövsiyələrin sayının azalması onu göstərir ki, ölkənin siyasi, sosial, iqtisadi və mədəni həyatında qadınların rolunu artırmaq, onların beynəlxalq səviyyədə təmsil olunmalarını təmin etmək üçün Azərbaycanda qadınlara kişilərlə bərabər imkan və hüquqlar ildən-ilə artırılır.

### 2. Müstəqillik dövrünün islahatlarının qadın hüquqlarına təsiri

Azərbaycanda qadın problemi sahəsində gedən inkişafın ümumbəşəri prosesslərlə uyğunluğuna baxmayaraq, milli dəstxətt də özünü büruzə verir. Məsələn, qədim dövrlərdə xalq arasında klassik patriarxal yanaşmaların üstünlük təşkil etdiyi şəraitdə qadınların ictimai və siyasi fəallığına müsbət baxışlar mövcud idi. Azərbaycan qadınları bu vaxta qədər bir sıra sahələrdə müəyyən nailiyyətlər əldə etmişdir və müstəqil respublikamız qadınların cəmiyyətdə rolunu daha da artırmaq məqsədi ilə dövlət tərəfindən məqsədyönlü işlər aparılır.

Azərbaycanın müxtəlif inkişaf mərhələsində insan hüquq və azadlıqlarının daha səmərəli təmini sahəsində müvafıq dövrün prioritetlərinə uyğun bir çox sənədlər qəbul olunmuşdur.

Müstəqillik tariximizin ilk illərində neft və qaz hasilatının artmasına ölkənin qarşıdakı iqtisadi və sosial çətinliklərinin aradan qaldırılmasının əsas vasitələrindən biri kimi baxılırdı. Belə bir şəraitdə maliyyə vəsaitinin məhdudluğu xarici şirkətlərin və investorların cəlb olunmasını strateji zərurətə çevirmişdi. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə yanaşı, ölkəni bürümüş daxili ziddiyətlər, özbaşınalıq Qərbin neft şirkətlərini Azərbaycandan çəkindirdi. Eyni zamanda aparılan danışıqlarda Azərbaycanın iqtisadi maraqları tam təmin olunmurdu.

Neft müqaviləsi üzrə müzakirələrə, danışıqlara faktiki olaraq yenidən başlandı və nəhayət, çətin danışıqlar prosesindən sonra Azərbaycanın maraqlarına tamamilə cavab verən müqavilə şərtləri əldə edildi.

"Əsrin müqaviləsi" təkcə dünya bazarının yüksək keyfiyyətli neftlə təminatına deyil, eyni zamanda, ölkəmizin və bü-

tövlükdə Cənubi Qafqazın makroiqtisadi dirçəlişinə imkan yaratmış, Qərbin bir sıra aparıcı dövlətləri, habelə Mərkəzi Asiya regionu dövlətləri üçün strateji əhəmiyyət daşımışdır. Ən əsası isə bu saziş Azərbaycan Respublikasının dövlət müstəqilliyinin mühüm təminatına çevrilmiş, onun dünya birliyinə sıx inteqrasiyasını təmin etmişdir. Dövlət başçısı hələ 24 noyabr 2003-cü il tarixdə imzaladığı "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Fərmanında neft gəlirlərindən düzgün istifadəni nəzərdə tutan uzunmüddətli strategiyanın hazırlanmasını mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmişdir. Bu strategiyanın əsas mahiyyəti isə neftdən əldə olunan gəlirləri dövlətin uzunmüddətli inkişafına yönəltməkdən, qeyri-neft sektorunu inkişaf etdirməkdən ibarət idi. Əlbəttə, neftdən gələn gəlirlər və sosial-iqtisadi inkişafla yanaşı, insan hüquqlarının bərqərar olması ölkə vətəndaşlarının layiqli həyat səviyyəsinin əsas ünsürlərindən biridir.

1996-cı ildə Heydər Əliyevin təşəbbüsü ilə torpaq islahatı proqramı hazırlandı və bu proqram əsasında torpaq islahatlarının həyata keçirilməsini təmin edən hüquqi baza yaradıldı. Azərbaycan MDB-də torpaq islahatlarına başlayan ilk ölkə oldu. Heydər Əliyevin ciddi səyləri nəticəsində ölkəmizdə ticarət sektorunun inkişafı Azərbaycanı dünya bazarlarına çıxardı. 1993-cü ilin ortalarından başlayaraq, aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində ictimai-siyasi sabitliyin təmin olunması, istehsalda yaranmış geriləmə proseslərinin qarşısının alınması və digər tədbirlərdən sonra iqtisadiyyatda tənəzzül tədricən aradan qaldırıldı və bununla da Azərbaycanın iqtisadi inkişafında mahiyyətcə yeni mərhələnin təməli qoyuldu.

Məhz bu illərdə iqtisadi islahatların mühüm istiqaməti olan özəlləşdirmə prosesi uğurla həyata keçirildi. 1996-cı ildən ümumidaxili məhsul istehsalı ilbəil artmağa başladı. 1997-ci ildən sənaye məhsullarının buraxılışında artım müşahidə edildi. Bu sıradan neft emalı, metallurgiya, ağac emalı, şüşə və çini-saxsı məhsullar istehsalında artım daha yüksək oldu. Sənayenin inkişafı ilə yanaşı, respublikada kənd təsərrüfatının inkişaf etdirilməsinə də xüsusi diqqət yetirilirdi. Məhz bu diqqətin nəticəsində respublikada 40-dan çox normativ-hüquqi akt qəbul edildi, kənd təsərrüfatı məhsullarının satışında qiymətlər tam

sabitləşdi, idxal-ixrac əməliyyatlarında bütün maneələr aradan qaldırıldı.

Müstəqillik dövrünün ilk Konstitusiyası Azərbaycan cəmiyyətinin irəliyə doğru inkişafının bünövrəsini qoydu. Heydər Əliyev Konstitusiya Komissiyasının sonuncu iclasında demişdir: “...bu sənədin hazırlanmasına xeyli vaxt sərf etmişəm. Haqqım var deyəm ki, çox zəhmət çəkmişəm. Hər bir kəlmənin, hər bir sözün mənasını dəfələrlə araşdırmışam, onun bu gün üçün, gələcək üçün nə qədər əsaslı olmasını dəfələrlə təhlil etmişəm. Mən çox rahatlıq hissi ilə bu layihənin altından imza atıram və bu layihəyə görə tam cavabdeh olduğumu bu gün bəyan edirəm.”

Gender amilinin ümumi siyasətə daxil edilməsi dövlətin öz strategiyaları və proqramlarının təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Gender məsələləri üzrə məsul şəxslərin təyin edilməsi ilə bütün dövlət qurumları və digər təsisatların gender bərabərliyinin təmin edilməsi ilə bağlı fəaliyyəti təkmilləşdirilmişdir. Nəticədə, gender problemləri bu strukturların siyasətinə və proqramlarına daxil edilməkdə davam edir. Bu halda nazirliklər və digər dövlət təşkilatları gender problemləri ilə bağlı əldə olunmuş nailiyyətlərin monitorinqini asanlıqla aparmaq imkanı əldə edir.

### 3. Qadэn Problemləri ьzrə Milli Fəaliyyət Planı və onun əsas prioritetləri və məqsədləri

Azərbaycan Respublikasэ Nazirlər Kabinetinin 6 mart 2000-ci il tarixli, 33 nцmrəli Sərəncamэ ilə “Azərbaycan Respublikasэnэn Qadэn Problemləri ьzrə Milli Fəaliyyət Planэ (2000 –2005)” təsdiq edilmiюdir. Adэ зəkilən Milli Fəaliyyət Planэ qadэnlarэn hьquqlarэnэn mьdafiəsi sahəsində xьsusi əhəmiyyət kəsb etmiєdir. Bu Plan 1995-ci ildə Pekində keçirilən BMT-nin Qadınlarının IV Ümumdünya Konfransının qəbul etdiyi Pekin Fəaliyyət Platforması (PFP) və Azərbaycanэn qoєuldupu “Qadэnlara mьnasibətdə ayrэ-seзkiliyin bьtьn formalarэnэn ləpv olunmasэ haqqэnda” Konvensiya əsasında respublikadakэ mцvcud vəziyyəti və prioritetləri nəzərə almaqla tərtib edilmiєdir. Həmin Plan qadэn problemlərinin həllinə yцnəlmiє hцkumət, qeyri-hцkumət və beynəlxalq təюkilatlarэn

iюtirakэ ilə hazэrlanmэю beynəlxalq standartlara uypun ilk xьsusi dцvlət sənədi olmuєdur. Bu sənəddə respublikada qadэn problemləri ilə baplэ təxirəsalэnmaz konkret tədbirlərin həyata keзirilməsi, eləcə də dцvlət proqramlarэnэn hazэrlanmasэ nəzərdə tutulmuєdur. Bu fəaliyyət planэnda mьvafiq 5 ildə tam həllini tapmayan və indiki dцvrdə də aktuallэpэnэ itirməyən onlarca vacib tədbir yer almэюdэr və respublikada qadэn problemləri ilə baplэ təxirəsalэnmaz konkret tədbirlərin həyata keзirilməsi, eləcə də dцvlət proqramlarэnэn hazэrlanmasэ nəzərdə tutulmuєdur.

Ümumilikdə Milli Fəaliyyət Planı aşağıdakı 12 bəndi əhatə etmişdir:

1. Qadın və iqtisadiyyat;
2. Qadın və təhsil;
3. Qadın və sağlamlıq;
4. Qadın və zorakılıq;
5. Qadın və silahlı münaqişələr;
6. Qaçqın və məcburi köçkün qadınlar;
7. Qadınlar və insan hüquqları;
8. Qadınlar və kütləvi informasiya vasitələri;
9. Qadın və ətraf mühit;
10. Qız uşaqları;
11. Qadınların hakimiyyət orqanlarında və qərar qəbuletmə proseslərində iştirakı;
12. Beynəlxalq qadın təşkilatları ilə əlaqələrin inkişaf etdirilməsi.

MFP-nı həyata keçirmək və gender tarazlığına nail olmaq üçün Qadın Problemləri üzrə Dövlət Komitəsi (QPDK) İdarələrarası Şura təsis etmişdir. Dövlət İdarələrinin nümayəndələri (focal points) və qadın QHT-lərindən ibarət olan Şura koordinasiya funksiyasını yerinə yetirir. İdarələrarası Şuranın üzvləri müntəzəm görüşlər keçirərək MFP-nin icra vəziyyətini müzakirə edir, maneələri və onların həlli yollarını müəyyən edirlər.

Milli Fəaliyyət Planında qadınlara qarşı zorakılığın bütün formalarının, qadın alverinin və istismarının qarşısının alınması məsələlərinə ayrıca bir bölmə həsr edilmişdir. Sənəddə qadın hüquqlarının pozulmasında təqsirkar şəxslərə qarşı qanunla nə-

zərdə tutulan qaydada, məsuliyyətə cəlbetmə də daxil olmaqla, müvafiq ölçülərin götürülməsi nəzərdə tutulmuşdur.

Milli Fəaliyyət Planında qadınlar arasında sahibkarlığı inkişaf etdirmək məqsədi ilə dövlət və qeyri-dövlət bank sistemlərindən, müxtəlif beynəlxalq yardım fondlarından dəstək alaraq, sahibkarlıq fəaliyyəti ilə məşğul olan qadınlara zəmanətsiz, güzəştli, uzunmüddətli mikrokreditlərin verilməsi və verilmə mexanizminin sadələşdirilməsi, "Gender" fənninin öyrənilməsinin təşkil edilməsi barədə təkliflərin hazırlanması, azyaşlı uşaqları olan və hamilə qadınların əmək şəraitinin yaxşılaşdırılması ilə bağlı qanunvericiliyə yeni əlavələrin və güzəştlərin daxil edilməsinə dair təkliflərin hazırlanması, ətraf mühitin insanın reproduktiv funksiyalarına təsirinin öyrənilməsi üçün elmi-tədqiqat işlərinin aparılması, tək qadınlar və ailə başçısı olan qadınların problemlərinin öyrənilməsi və onlara müvafiq kömək göstərilməsi üçün təkliflərin hazırlanması, qadınlara (qızlara) qarşı hər cür zorakılıq hallarının cinsi, irqi, milli, dini, sosial, regional xüsusiyyətlərlə əsaslandırılmasının qarşısının alınması üçün tədbirlərin görülməsi, müharibə nəticəsində əsir və girov götürülmüş qadın və uşaqların geri qaytarılmasına dair BMT-nin Qadın Statusu üzrə Komissiyasının qətnaməsinin həyata keçirilməsi və onların qaytarılması üçün beynəlxalq təşkilatların imkanlarından istifadə etməklə tədbirlərin görülməsi, müharibə zamanı zorakılığa məruz qalmış qadınların və uşaqların hüquqlarının bərpası və onların sosial-psixoloji reabilitasiyası, qaçqın və məcburi köçkün qadınların reproduktiv sağlamlığının qorunması, tibbi, sosial, təhsil xidmətlərindən geniş istifadənin təmin edilməsi və digər mühüm məsələlər əhatə olunmuşdur.

### 4. Strategiya və Dövlət Proqramlarında qadın hüquqları və gender məsələləri

Məlum olduğu kimi, Azərbaycan Respublikasında insan hüquqlarının, o cümlədən onların ayrılmaz tərkib hissəsi olan qadın hüquqlarının müdafiəsi sahəsində və ümumiyyətlə gender bərabərliyinin təmin edilməsində, həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılmasında və daha mütəşəkkil həyata keçirilməsində Dövlət Proqramları, Strategiyalar və Milli Fəa-

liyyət Planları böyük əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 may 1994-cü il tarixli 185 nömrəli qərarı ilə "Azərbaycan Respublikasında əlillərin və ya sağlamlıq imkanları məhdud uşaqların problemləri üzrə kompleks Proqram" təsdiq edilmişdir. Bu sənədlə müəyyən edilən Əlillərin və ya sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsinə yönəldilmiş tədbirlər siyahısına "Müəssisə və təşkilatlarda, tədris müəssisələrində əmək və təlim şəraitinin sanitariya qayda və normalarına, təhlükəsizlik texnikası tələblərinə uyğunlaşdırılması, ağır fiziki əməklə məşğul olan fəhlələrin (xüsusilə, qadınların) sayının və əlverişsiz istehsal amilləri olan iş yerlərinin azaldılması tədbirlərinin hazırlanması və həyata keçirilməsi" daxil edilmişdir.

Azərbaycan Respublikası 1995-ci ildə BMT-nin "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyasına qoşulmuş və bu Konvensiyanın ölkədə həyata keçirilməsi haqqında dövri hesabatları BMT-nin eyniadlı Komitəsinə təqdim edir.

Milli Məclis tərəfindən qəbul olunmuş "Gender (kişi və qadınların) bərabərliyi haqqında" Qanununun məqsədi kişi və qadınlar üçün ictimai həyatın bütün sahələrində bərabər hüquqların təmin edilməsi və cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasıdır. Bu Qanuna görə, hüquqi, təşkilati və digər mexanizmlər vasitəsilə dövlət kişi və qadınların dövlətin idarə olunmasında və qərar qəbul edilməsində bərabər təmsilçiliyinə, bərabər imkanların yaradılmasına, gender bərabərliyinin təmin edilməsinə və ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasına təminat verir.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 07 avqust 1996-cı il tarixli əmri ilə "Ali təhsil müəssisələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında Əsasnamə" qəbul edilmişdir. Həmin əsasnamənin 1.8-ci maddəsinin tələblərinə əsasən, hamiləlik və doğum dövründə, həmçinin 3 yaşa kimi körpə uşağı olan qadınların tutduğu vəzifəyə müsabiqə elan olunmur.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 27 yanvar 1997-ci il tarixli əmri ilə təsdiq edilmiş "Ümumtəhsil məktəbləri, məktəbəqədər və məktəbdənkənar tərbiyə müəssisələri

pedaqoji işçilərinin attestasiyasının keçirilməsi haqqında" Əsasnamədə də gender məsələlərinə toxunulur. Attestasiya pedaqoji kadrların yaradıcılıq fəaliyyətinin yüksəldilməsinə, o zaman qüvvədə olan Təhsil Qanununun tələbləri baxımından onların ixtisasının, təşəbbüskarlığının artırılması, tədris müəssisələrində kadrların seçilib yerləşdirilməsi işinin yaxşılaşdırılmasına və onlarla aparılan işin stimullaşdırılmasına xidmət edir. Həmin tədris müəssisəsində tutduğu vəzifədə bir ildən az işləmiş işçilər, göndərişlə və azad təyinatla işə başlayan gənc mütəxəssislər üç il ərzində, habelə hamilə qadınlar attestasiyaya daxil edilmir. Uşağa qulluq etdiyi üçün analıq məzuniyyətində olmuş pedaqoji işçilər işə qayıtdıqdan bir il sonra attestasiyadan keçirilə bilər. Vəzifəyə təyin olunanlar başqa məktəbdən gəlibsə, birinci ildə attestasiyadan keçmir, əvvəlki iş yerində attestasiyadan keçibsə, həmin nəticə nəzərə alınır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 iyul 1997-ci il tarixli 77 nömrəli qərarı ilə təsdiq edilmiş "İxtisasartırma və kadrların yenidən hazırlanması müəssisələrinin Nümunəvi Əsasnaməsi"nə əsasən, Dövlət mülkiyyət növündən asılı olmayaraq, ixtisasartırma və kadrların yenidən hazırlanması müəssisələrinə qəbulda, tələbələrin təqaüdlə təmin edilməsində, tədris planının seçilməsində və biliyin qiymətləndirilməsində kişi və qadınlar üçün bərabər imkanlar yaradılmasını təyin edir.

Azərbaycan Respublikası Prezidentinin 20 avqust 1998-ci il tarixli Fərmanı ilə qəbul edilən "1998-2002-ci illərdə dövlət statistika sistemində islahatların aparılmasına dair" Dövlət Proqramını da qeyd etmək lazımdır. Bu proqramın məqsədi statistik müşahidələr sisteminin kompleks islahatı, Azərbaycanda formalaşan bazar münasibətləri nəzərə alınmaqla onun keçid dövrü iqtisadiyyatının tələblərinə uyğunlaşdırılması yolu ilə cəmiyyətin statistik informasiyaya olan tələbatının tam təmin edilməsindən ibarətdir. Qeyd olunan Fərman əsasında tərtib edilən Tədbirlər planına əsasən, Dövlət Statistika Komitəsi, habelə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə Gender statistikası üzrə (kişi və qadınların sosioloji problemləri baxımından) göstəricilər sisteminin və metodologiyanın beynəlxalq tövsiyələrə uyğun olaraq işlənib hazırlanması tapşırığı

verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 22 fevral 1998-ci il tarixli Fərmanından irəli gələn məqsəd və vəzifələri nəzərə alaraq imzaladığı 18 iyun 1998-ci il tarixli Sərəncamı ilə "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq edilmişdir. Bu Proqram Azərbaycanın konkret inkişaf mərhələsinə uyğun olaraq, insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq məqsədi ilə təsdiq edilmişdir. Proqramda Azərbaycan Respublikasının insan hüquqları haqqında beynəlxalq sazişlərə qoşulması, bu sahədə elmi-tədqiqat institutunun yaradılması, normativ-hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, hüquqi mexanizmlərin təkmilləşdirilməsi, insan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi, bu sahədə fəaliyyət göstərən beynəlxalq institut və mərkəzlərdə tədqiqat və təhsil proqramları üzrə mütəxəssislərin hazırlanması, insan hüquqları haqqında öhdəliklərə riayət edilməsi və digər məsələlər nəzərdə tutulmuş və ötən dövr ərzində uğurla icra edilmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində doğma torpaqlarından didərgin salınmış bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünün sosial problemləri Azərbaycan dövlətinin gündəlik problemlərinə çevrilmişdir. Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra bu problemin həlli istiqamətində görülən ən böyük tədbirlərdən biri Azərbaycan Respublikası Prezidentinin 17 sentyabr 1998-ci il tarixli Sərəncamına əsasən, "Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi olmuşdur. 1999-cu ildə isə ölkə Prezidentinin Fərmanı ilə dünya təcrübəsində ilk dəfə olaraq Məcburi Köçkünlərin Sosial İnkişafı Fondu təşkil edilmişdir. Sosial problemlər, ilk növbədə, öz torpaqlarından qovulmuş və ya məcburi köçürülmüş azərbaycanlıların yaşayış yeri ilə təmin olunması məsələsindən ibarətdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16 fevral 1999-cu il tarixli 27s nömrəli Sərəncamı ilə təsdiq edilmiş

Gənc Ailə Proqramı (1999-2003) isə gənc qadınların sağlamlığının təmini ilə bağlı müəyyən müddəalara malik olmuşdur. Bu Proqramın əsas məqsədi yeni qurulan hər bir gənc ailənin nikahdan əvvəl və nikahdan sonrakı problemlərinin kompleks təhlili əsasında elə təkliflər sistemi hazırlamaq olmuşdur ki, həyata keçiriləcək tədbirlər eyni zamanda həm hər bir ailənin xoşbəxtliyinə, həm də ölkənin tərəqqisinə ciddi kömək edə bilsin. Nəzərdə tutulan tədbirlər gənclərin ailə qurarkən və ailə həyatında üzləşdiyi problemləri həll etməkdə dövlətin rolunu artırmaq və gənclərin sosial və ailə problemlərinin həllini harmonik surətdə uzlaşdırmağa kömək etmək, son nəticədə ailə institutunun sabitləşməsinə, ailə nüfuzunun və dəyərlərinin gənclər arasında artmasına və sağlam nəslin yetişməsinə gətirib çıxarmaqdan ibarət olmuşdur. Proqramın əsas istiqamətləri respublikada ailə institutunun mövcud problemlərinin nəzərə alınması, gənc ailənin problemlərinin kompleks şəkildə həll edilməsi prinsipi ilə müəyyənləşdirilmişdir. Bu istiqamətlər gənclərin uşaqlıqdan başlayaraq nikaha girənədək ailə həyatına hazırlanması, gənc ailənin reproduktiv sağlamlığının qorunması, ailə mənəviyyatının möhkəmləndirilməsi, ailənin sosial oriyentasiyası, uşaqların tərbiyəsi, ailənin sosial müdafiəsi və s. istiqamətlərdən ibarət olmuşdur.

Ölkə Prezidentinin 9 dekabr 1999-cu il tarixli, 290 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası" təsdiq edilmişdir. Bu Konsepsiya milli maraqlar əsas götürülməklə və 1994-cü ildə Qahirədə keçirilmiş Əhali sakinliyi və inkişafı üzrə Beynəlxalq Konfransın Fəaliyyət proqramı, 1995-ci ildə Kopenhagendə Sosial İnkişaf Naminə Ümumdünya Sammitində və Pekində qadınların vəziyyətinə həsr edilmiş Ümumdünya Konfransında qəbul edilmiş sənədlər nəzərə alınmaqla hazırlanmışdır.

6 mart 2000-ci il tarixli "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanına müvafiq olaraq qadınların kişilərlə hüquq bərabərliyini, xüsusilə onların dövlət idarəçiliyi sistemində lazımi səviyyədə təmsil olunmasını əməli surətdə təmin etmək məqsədilə ölkəmizin bütün dövlət qurumlarında, fəaliyyət növü nəzərə alınmaqla, qadınların rəhbərlik

səviyyəsində kişilərlə bərabər təmsil olunmasının təmin edilməsi barədə qərar qəbul edilmişdir. Dövlət Statistika Komitəsinə Qadınların Problemləri üzrə Dövlət Komitəsi ilə birlikdə respublikada qadınların vəziyyətinə dair beynəlxalq standartlara cavab verən statistik məlumat hazırlanması barədə göstəriş verilmişdir. Prezident tərəfindən Nazirlər Kabinetinə tapşırılmışdır ki, ölkədə gedən iqtisadi islahatlar çərçivəsində həyata keçirilən işlərdə gender siyasəti tələblərini rəhbər tutmaqla qadınlar üçün kişilərlə bərabər imkanlar yaradılmasını təmin etsin; qaçqın və məcburi köçkün qadınların məşğulluğunun təmin edilməsi məqsədilə onların münasib işlə təmin edilməsi proqramını hazırlayıb həyata keçirsin; qadınların hüquqlarının müdafiəsinin gücləndirilməsi məqsədi ilə Azərbaycan Respublikasının qanunlarında müvafiq dəyişikliklər və əlavələr edilməsi məqsədilə mövcud qanunvericiliyi təhlil edib təkliflər versin. Bu Fərmana müvafiq olaraq, Nazirlər Kabineti nazirlik, komitə, şirkət, konsern və digər dövlət müəssisə və təşkilatlarında daxili imkanlar çərçivəsində gender siyasəti tələblərinə uyğun olaraq qadın məsələləri ilə məşğul olan şəxslərin təyin edilməsi barədə qərar qəbul etmişdir

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 26 sentyabr tarixli 176 nömrəli qərarı ilə təsdiq edilmiş “Qaçqın və məcburi köçkün qadınların münasib işlə təmin edilməsi Proqramı” da çox mühüm sənədlərdəndir. Bu Qərara əsasən, qaçqın və məcburi köçkün qadınlar üçün aşağıdakıların həyata keçirilməsi barədə tədbirlər paketi işlənib hazırlanmışdır:

• tikiş, toxuculuq sexləri və digər istehsal sahələrinin yaradılması;

• müvəqqəti istifadə və icarə məqsədi ilə qanunvericiliklə müəyyən edilmiş qaydada torpaq sahələrinin ayrılması və əmək qabiliyyətli qadınların işə cəlb olunması;

• özünüməşğulluğun təmin edilməsi məqsədi ilə yerli şəraitə uyğun olaraq pilot proqramların hazırlanıb həyata keçirilməsi;

• fərdi əməklə məşğul olmaq üçün müvafiq kreditlərin verilməsinin təşkil edilməsi;

• dövlət məşğulluq xidməti orqanları tərəfindən işədüzəltmədə qadın işsizliyinin səviyyəsini nəzərə alaraq, qaçqın və

məcburi köçkün qadınların münasib işlə təmin olunmasına üstünlüyün verilməsi;

• əmək bazarında rəqabətədavamlı peşə və ixtisaslara malik qadınların hazırlanmasının həyata keçirilməsi;

• kompakt məskunlaşdığı bölgələrdə, xüsusilə çadır şəhərciklərində daha çox qadınların cəlb olunduğu haqqı ödənilən ictimai işlərin təşkili;

• əmək yarmarkalarının keçirilməsində, Əmək Birjası xidmətində qaçqın və məcburi köçkün qadınların işlə təmin olunmasına üstünlük verilməsi;

• qadınların müəssisə və təşkilatlarda kvota üzrə müəyyən edilmiş xüsusi iş yerləri ilə təmin edilməsi;

• qadınların məşğulluğu ilə bağlı problemlərin həllinə beynəlxalq humanitar təşkilatların, ictimai qurumların cəlb edilməsi və s.

Keçən əsrin sonlarından başlayaraq iqtisadiyyatda müşahidə olunan sabit artım templəri ölkənin sosial yönümlü inkişafını təmin etmiş, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, yeni iş yerlərinin açılması və məşğulluğun artırılması üçün əlverişli şərait yaratmışdır. Məhz bu illərdə əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsində əhəmiyyətli uğurlar qazanılmış, keçid dövrünün ilkin mərhələsində üzə çıxan iqtisadi və sosial problemlər artıq həll olunmağa başlamışdır. Bazar iqtisadiyyatı münasibətlərinin təşəkkül tapması, sahibkarlığın inkişaf etdirilməsi, əlverişli işgüzar mühitin yaradılması istiqamətində atılan önəmli addımlar əmək bazarı və məşğulluq sahəsində irəliləyiş əldə etməyə imkan vermişdir.

Yeni iqtisadi reallıqlar şəraitində dövlətin məşğulluq siyasətinin hüquqi, iqtisadi və təşkilati əsaslarının müddəaları 2001-ci il iyulun 2-də qəbul olunmuş "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda və həmin Qanunun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 9 avqust tarixli Fərmanında öz əksini tapmışdır. Həmin müddəaların həyata keçirilməsi ölkədə əmək bazarının tənzimlənməsində dövlət siyasətinin əhəmiyyətini artırmaqla, əhali məşğulluğunun inkişaf etdirilməsində bu siyasətin vasitə və istiqamətlərinin formalaşmasında, müvafiq institusional mü-

hitin yaradılmasında və təkmilləşdirilməsində mühüm rol oynamışdır.

Azərbaycan Respublikasında müasir mərhələdə dövlət məşğulluq siyasətinin gücləndirilməsi bu sahədə mövcud olan problemlərin həllinə və əhalinin səmərəli məşğulluğunun təmin edilməsinə istiqamətlənir. Yeni iş yerlərinin açılması və müvəqqəti sərbəstləşmiş işçi qüvvəsinin sosial müdafiəsi məsələləri sahəsində görülən tədbirlərlə yanaşı, əmək bazarının sosial-iqtisadi inkişaf templərinə və xüsusiyyətlərinə uyğunlaşma mexanizminin müasir səviyyədə qurulması, ölkənin əmək potensialından daha dolğun istifadə edilməsi dövlətin diqqət mərkəzində olan məsələlərdəndir.

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 oktyabr tarixli, 1068 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)" təsdiq edilmişdir. Strategiyanın 2006-2010-cu illəri əhatə edən birinci mərhələsinin icrası nəticəsində işsizlik səviyyəsinin nəzərəçarpacaq dərəcədə azaldılmasına, işsizlərin, həssas əhalinin təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsinə nail olunmuşdur. Bununla yanaşı, əmək bazarının təkmilləşdirilməsi, əmək ehtiyatlarının keyfiyyətcə yaxşılaşması, rəqabət gücünün artırılması, iqtisadi fəallığın yüksəldilməsi üçün əlverişli şəraitin yaradılması sahəsində də müvafiq tədbirlər həyata keçirilmişdir.

Bu proqramın ikinci mərhələsi (2006-2015-ci illər) işçi qüvvəsinə tələbatın stimullaşdırılmasını, səmərəli işgüzarlıq mühitinin formalaşmasını, struktur islahatlarının dərinləşdirilməsini, investisiya fəallığının daha da artırılmasını və insan kapitalının yüksək inkişaf səviyyəsinin təmin edilməsini nəzərdə tutur. Adıçəkilən Dövlət Proqramı ilə qarşıya bir sıra vəzifələr də qoyulmuşdur. Proqramda makroiqtisadi siyasət və sahibkarlığın inkişafı sahəsində ölkədə makroiqtisadi sabitliyin daha da möhkəmləndirilməsi, inflyasiyanın məqbul səviyyədə saxlanması, yerli sənaye məhsullarının dünya bazarında rəqabət qabiliyyətinin yüksəldilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi, regional iqtisadi əlaqələrin genişləndirilməsi, neft ixracından əldə olunan gəlirlərin bir hissəsinin insan amilinin inkişafına istiqamətləndirilməsinin diqqət mərkəzində saxlanılması nəzər-

də tutulur. Bu məqsədlərə nail olmaq üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi irəli sürülmüşdür:

- sahibkarlığın, xüsusilə də kiçik və orta sahibkarlığın, əhalinin özünüməşğulluğunun inkişafı üçün zəruri şərait yaratmaq;
- məşğulluğun səmərəli inkişafını təmin edən investisiya fəallığını dəstəkləmək;
- işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsini gücləndirmək, qeyri-formal əmək münasibətlərinin leqallaşdırılması istiqamətində tədbirlər həyata keçirmək;
- əmək bazarında tələb və təklif arasında dinamik uyğunluğun gücləndirilməsinə yönəldilmiş institusional infrastrukturu təkmilləşdirmək;
- kadr hazırlığı sisteminin, o cümlədən peşə hazırlığı və ixtisasartırma şəbəkəsinin fəaliyyətini dinamik inkişaf edən əmək bazarının tələblərinə uyğunlaşdırmaq.

Məşğulluq Strategiyasının 3.7-ci bəndində sosial cəhətdən həssas qrupların, o cümlədən məşğulluğun inkişafı ilə bağlı müddəalar təsbit olunmuşdur.

Belə ki, qadınlara məşğulluq sahəsində kömək edilməsinə xüsusi diqqət tələb olunur və bu sahədə aşağıdakılar həyata keçirilməkdədir:

- sosial infrastruktur yönümlü işlərin inkişaf etdirilməsi, xalq tətbiqi sənətinin dirçəldilməsi və inkişafı, turizm və istirahət zonalarının yaradılması hesabına qadınların məşğulluğunun artırılması;
- özünüməşğulluğun inkişaf etdirilməsi istiqamətində həyata keçiriləcək çevik proqramlar çərçivəsində işsiz qadınlar üçün peşə hazırlığı kurslarının təşkili;
- kiçik sahibkarlığın inkişafında gender bərabərliyinin təmin edilməsi;
- qadın sahibkarlığının inkişaf etdirilməsi məqsədilə onlara zəruri köməyin göstərilməsi;
- qadınlar üçün əlavə iş yerləri yaratmaq məqsədilə çevik məşğulluq formalarının (natamam iş günü və iş həftəsi, dəyişkən iş qrafiki, evdə iş və s.) geniş tətbiqi;
- uşaqlı qadınlar üçün qanunvericiliklə müəyyən edilmiş qaydada iş yerlərinin müəyyənləşdirilməsinin iqtisadi cəhətdən stimullaşdırılması.

Azərbaycan Respublikasının Məşğulluq Strategiyası 2006-2015-ci illəri əhatə etməklə, qeyd olunan məsələlərin həllinə yönəlmişdir. Strategiya "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 24 noyabr tarixli Fərmanına, ölkə Prezidentinin 2004-cü il 11 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramına (2004-2008-ci illər)" əsaslanır və Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 15 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" ilə uzlaşdırılaraq, ölkəmizdə məşğulluq siyasətinin iqtisadi proqramlarda qadın məsləhətçilərin sayının artırılması, qadınların çalışdığı ənənəvi istehsal sahələrinin xüsusilə regionlarda bərpası, qadınlarla bağlı statistikanın təkmilləşdirilməsi və s. kimi əsaslarını müəyyən etmişdir.

17 fevral 2003-cü il tarixli Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiyasında (2003-2012-ci illər) gender problemlərinin həllində informasiya və kommunikasiya texnologiyalarından istifadə edilməsi prioritet istiqamət kimi göstərilmişdir.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (2004-2008-ci illər; 2009-2013-cü illər) və "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Fərmanda qarşıya qoyulan strateji vəzifənin – Azərbaycanın hərtərəfli inkişafı və iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilməsi vəzifəsinin yerinə yetirilməsində çox mühüm mərhələ olmuşdur. Həmin proqram 2004-cü ildə fevralın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fərmanı ilə təsdiq olunmuş və icrası davam etdirilir. Bu proqram ölkənin hərtərəfli sosial-iqtisadi inkişafı üçün müstəsna əhəmiyyət kəsb edir. İstehsal müəssisələrinin fəaliyyətinin bərpası və yeni sənaye obyektlərinin yaradılması, regionların inkişafı üçün zəruri infrastrukturun təşkili, aqrar sektorda intensiv metodlardan istifadə olunması, investorların regionlara cəlb olunması üçün əlverişli şəraitin bərqərar olması,

yeni iş yerlərinin açılması, digər kompleks tədbirlərin görülməsi nəticəsində regionların sosial-iqtisadi inkişafında dönüş yaranmışdır.

Regionların hərtərəfli inkişafı sahəsində 2004-cü ildən başlanılmış məqsədyönlü siyasətin davamı olaraq, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2014-cü il tarixli Fərmanı ilə təsdiqlənmişdir. Bu proqramın icrası ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb etməklə, makroiqtisadi sabitliyin təmin olunmasında, regionlarda sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və iş yerlərinin yaranmasında, irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsində, kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsində, nəticədə əhalinin rifah halının daha da yaxşılaşdırılmasında və yoxsulluq səviyyəsinin aşağı düşməsində müstəsna rol oynayır.

Regionların sosial-iqtisadi inkişafı bir sıra ölkələrin iqtisadi siyasətinin əsas istiqamətlərini müəyyənləşdirir. Bu baxımdan Azərbaycanda da regionların sosial-iqtisadi inkişafı ölkədə həyata keçirilən iqtisadi diversifikasiya və digər islahatlar nəticəsində reallaşır. Regionların sosial-iqtisadi inkişafı üzrə aparılan fəaliyyətlərə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası və eyni zamanda Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi üçün aparılan islahatlar aspektindən yanaşmaq məqsədəuyğundur.

Ana və uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması dövlətin sosial yönümlü siyasətinin əsas prioritet istiqamətlərindən biridir. Son illər bu sahədə mühüm tədbirlər həyata keçirilmişdir. 15 sentyabr 2006-cı ildə Nazirlər Kabinetinin 211 №-li qərarı ilə "Ana və uşaqların sağlamlığının qorunması üzrə tədbirlər proqramı" təsdiq edilmişdir. Bu Proqramda aşağıdakı məsələlər öz əksini tapmışdır: Azərbaycan Respublikasının şəhər və rayonlarında ana və uşaq sağlamlığının qorunması xidmətinin fəaliyyəti üzrə monitorinqin keçirilməsi və nəticələrin təhlili; reproduktiv sağlamlıq, ana və uşaqların mühafizəsi sahəsində qanunvericilik aktlarının Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə uyğunlaşdırılması məqsədilə təkliflərin hazırlanması; mamalıq patologiyası

üzrə yeni müalicə və diaqnostika üsullarının tətbiq olunması üçün beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə elmi-praktik konfrans və seminarın keçirilməsi; əhali arasında sanitar-maarifçilik işinin genişləndirilməsi, reproduktiv sağlamlıq və ailə planlaşdırılması mövzusunda xüsusi radio və televiziya verilişlərinin təşkili.

Ana və uşaqların sağlamlığının qorunması üzrə Dövlət Proqramının, həmçinin yenidoğulanların "Elektron sağlamlıq kartları" ilə təmin edilməsi, "Yoluxucu xəstəliklərin immunoprofilaktikası" proqramlarının ana və uşaqların sağlamlığının qorunması işində əhəmiyyətli rolu olmuşdur. Yeddi perinatal mərkəzin yaradılması, yeni uşaq xəstəxanalarının tikilməsi və ya yenidən qurulması, həmçinin digər tədbirlər bu sahəyə göstərilən xüsusi qayğının nümunəsidir. Son illərdə respublikamızda həyata keçirilən belə tədbirlərin nəticəsində ana və uşaqların sağlamlığını xarakterizə edən göstəricilərdə müsbət dinamika müşahidə olunur. Proqramın əsas qarşıya qoyduğu vəzifələr aşağıdakılardan ibarətdir:

- əhalinin reproduktiv sağlamlığının qorunmasının təşkilinin və təhlükəsiz analığın təmin edilməsi;
- mama-ginekoloji və pediatriya xidmətində çalışan tibbi kadrların hazırlanması və ixtisaslarının artırılması işinin yaxşılaşdırılması;
- respublika və rayonlararası perinatal mərkəzlərin təşkili;
- mama-ginekoloji və pediatriya xidməti göstərən tibb müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi və onların müasir müalicə-diaqnostika avadanlıqları ilə təchiz edilməsi;
- mama-ginekoloji və neonatoloji xidmətin təkmilləşdirilməsi;
- doğuşayardım müəssisələrinin dərman preparatları ilə təminatının yaxşılaşdırılması.

Həyata keçirilmiş tədbirlər nəticəsində respublikada ana və körpə ölümü göstəriciləri azalmışdır. Belə ki, ana ölümü əmsalı hər 100 min diridoğulana 2006-cı ildə 34,2 olmuşdursa, 2015-ci ildə bu rəqəm 14,4 təşkil etmişdir. Körpə ölümü göstəricisi isə hər 1000 diridoğulana həmin illərə görə 11,9-dan 11-ə en-

mişdir. Bununla belə, ölkəmizdə ana və uşaqların sağlamlığının qorunması sahəsində həll olunmalı problemlər hələ də qalmaqdadır."Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı"nın qəbulu və həyata keçirilməsi də nəzərdə tutulmuş, bu Proqram ölkə Prezidentinin 13 iyun 2014-cü il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

Dövlət Proqramının məqsədi ölkəmizdə qadınlara və uşaqlara göstərilən müalicə-profilaktika yardımının keyfiyyətini yüksəltmək, onların sağlamlıq vəziyyətini daha da yaxşılaşdırmaqdan ibarətdir.

Azərbaycan Respublikası Prezidentinin 27 iyul 2007-ci il tarixli, 2288 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyası" təsdiq edilmişdir.

Bu konsepsiya ölkədə QHT sektorunun inkişafının yeni mərhələsinin başlanması üçün baza prinsiplərini müəyyənləşdirib.

Azərbaycanda vətəndaş cəmiyyətinin dəstəklənməsinə və inkişafına yönələn ən mühüm addımlardan biri vətəndaş cəmiyyətinin aparıcı elementlərindən olan qeyri-hökumət təşkilatlarının xarici donorlardan asılılığının azaldılması və dövlətin bu təşkilatlar üçün əsas donora çevrilməsi mexanizminin formalaşdırılmasıdır. Belə ki, son bir neçə ilə qədər Azərbaycanda fəaliyyət göstərən QHT-lər öz təşəbbüslərini həyata keçirmək üçün ancaq xarici donorlardan, beynəlxalq təşkilatlardan və fondlardan maliyyə dəstəyi ala bilirdilər. Dövlətlə QHT-lər arasında tərəfdaşlıq o qədər də inkişaf etməmişdi. Nəhayət, geniş ictimai müzakirələrdən, bu sahədə beynəlxalq təcrübənin öyrənilməsindən sonra Azərbaycanda da bir çox inkişaf etmiş Avropa ölkələrində olduğu kimi, dövlət-QHT tərəfdaşlığı üçün mexanizmin yaradılması məsələsi həllini tapmışdır. Azərbaycanın iqtisadi imkanlarının artması QHT-lərin təklif etdikləri layihələrin, sosial-ictimai həyatın ən müxtəlif aspektlərinə dair faydalı təşəbbüslərin dövlət tərəfindən maliyyələşdirilməsinə də imkan yaradıb.

Konsepsiya ilə bağlı ictimai sektorda gedən müzakirələrdən sonra ölkə Prezidentinin 13 dekabr 2007-ci il tarixli Fərmanı

ilə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası yaradılıb və Şuranın Əsasnaməsi təsdiq edilib. Daha sonra QHT nümayəndələri arasında keçirilmiş şəffaf seçkilər yoluyla Şura üzvləri seçilib və QHT-lərə dövlət dəstəyi üçün formalaşdırılan mexanizm 2008-ci ilin aprelindən tətbiq olunub. Bu Konsepsiyada uşaq, qadın və gənclərin sosial, fiziki və mənəvi inkişaf sahələri üzrə qeyri-hökumət təşkilatlarının təqdim etdikləri proqram və layihələrə üstünlük verilməsi qeyri-hökumət təşkilatlarına dövlət dəstəyinin prioritet sahələri sırasına daxil edilmişdir.

Ölkəmizin iqtisadi və sosial həyatında müşahidə olunan müsbət meyllərin, o cümlədən əhalinin rifah halının yaxşılaşdırılması və yoxsulluğun səviyyəsinin azaldılması sahəsində tədbirlərin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 15 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" təsdiq olunmuşdur. Dövlət Proqramı əsas 9 strateji məqsədi əks etdirir. Belə ki, makroiqtisadi sabitliyi saxlamaq və qeyri-neft sektorunu tarazlı inkişaf etdirməklə davamlı iqtisadi artımın təmin edilməsi, əhalinin gəlir əldə etmək imkanlarının genişləndirilməsi, yaşlı əhalinin, aztəminatlı ailələrin və sosial cəhətdən xüsusilə həssas qrupların sosial riskinin azaldılması, qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması tədbirlərinin davam etdirilməsi, təhsil və səhiyyə sahəsində xidmətlərin keyfiyyətinin yüksəldilməsi, sosial infrastrukturun inkişaf etdirilməsi Dövlət Proqramının əsas strateji istiqamətlərindəndir. Dövlət Proqramına 1 nömrəli Əlavə olaraq təsdiq edilmiş müvafiq Tədbirlər Planının (2008-2010-cu illər) 1.4.3.6 (Gənclərin və əhalinin həssas qruplarının (qadınlar, əlillər və məcburi köçkünlər) sahibkarlıq fəaliyyətinin dəstəklənməsi), 2.1.5.1 (Qadınların əmək bazarında rəqabət qabiliyyətlərinin artırılması, qadınlar arasında sahibkarlığın və özünüməşğulluğun inkişaf etdirilməsi, qadınların yenidən ixtisaslaşdırılmasına yönəldilmiş tədbirlər planının hazırlanması və həyata keçirilməsi), 2.1.5.2 (Sahibkarlıqda qadınların iştirakının stimullaşdırılması üçün biznes təlim proqramlarının təşkil edilməsi), 2.1.5.3 (Özəl sektorda işləyənlərin, xü-

susilə də qadınların əmək şəraitinin və sosial müdafiəsinin yaxşılaşdırılması məqsədilə dövlət və ictimai nəzarətin gücləndirilməsi), 3.5.1.6 (Qərarların qəbul edilməsi prosesində qadınların iştirakının artırılmasına mane olan səbəblərin araşdırılması və qiymətləndirilməsi), 3.5.1.9 (Ümumrespublika Qadın Qurultayının keçirilməsi), 3.5.1.10.2 (Dində qadının rolu haqqında yanlış təsəvvürlərin aradan qaldırılması üzrə müvafiq maarifləndirmə işinin aparılması), 3.5.1.10.3 ("Qadınlara qarşı zorakılıq - insan hüquqlarının pozulmasıdır" mövzusunda müzakirələrin təşkil edilməsi), 3.5.2 (Gender zorakılığı, uşaqlara qarşı zorakılıq, eləcə də insan alveri hallarına qarşı mübarizənin gücləndirilməsi), 3.5.2.1 (Gender zorakılığı və uşaqlara qarşı zorakılıq sahəsində qanunvericiliyin təkmilləşdirilməsi), 3.5.2.2 (Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə etibarlı monitorinq mexanizminin yaradılması), 3.5.2.3 (Gender zorakılığı və uşaqlara qarşı zorakılığı yaradan səbəblər və qarşısının alınmasına mane olan amillərin müəyyən edilməsi üzrə qiymətləndirmənin aparılması), 3.5.2.4 (Erkən nikah hallarının azaldılması istiqamətində fəaliyyətin gücləndirilməsi), 3.5.2.4.1 (Nikah yaşına təsir göstərən sosial-iqtisadi amillərin öyrənilməsi məqsədilə qiymətləndirmənin aparılması), 3.5.2.4.2 (Erkən nikah hallarının azaldılması məqsədilə mövcud qanunvericiliyin pozulması hallarına qarşı mübarizənin gücləndirilməsi və ictimai nəzarətin artırılması), 3.5.2.50 (Gender zorakılığı və uşaqlara qarşı zorakılıq, eləcə də insan alveri hallarının aşkar edilməsi, qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində fəaliyyət göstərən müvafiq qurumların (hüquq-mühafizə, tibb, sosial xidmət, təhsil, miqrasiya strukturları və KİV) potensialının gücləndirilməsi), 3.5.2.6 (Qadınların ölkədən kənarda məşğulluğunun təhlükəli tərəfləri və mümkün nəticələri haqqında əhalinin maarifləndirilməsi), 3.5.2.7 (Azərbaycan Respublikasında İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planının icrasının təmin olunması), 5.2.11.3 (Məcburi köçkünlər arasında qadınların faiz nisbətinə dair məlumatın hazırlanması və nəşr etdirilməsi), 5.2.11.4 (Qadınlara və uşaqlara qarşı zorakılıq halları haqqında məlumatın toplanması və nəşr etdirilməsi), və 5.2.11.5 (Cinslər üzrə qruplaşdırılmış məlumatların toplanması, təhlili və sənəd-

ləşdirilməsi sistemini təkmilləşdirmək üçün müvafiq qurumların potensialının inkişaf etdirilməsi) bəndlərində öz əksini tapmış tədbirlər ötən dövr ərzində icra edilmişdir. Qəbul olunmuş bir sıra dövlət proqramları, o cümlədən əvvəldə göstərilmiş “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı” ölkənin siyasi, sosial, iqtisadi, mədəni həyatında qadınların rolunun artırılmasına müsbət təsir göstərmişdir.

BMT-nin “Transmilli mütəşəkkil cinayətkarlığa qarşı” Konvensiyasını və onu tamamlayan “İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması” haqqında Palermo Protokolunu 2003-cü il mayın 13-də ölkəmizdə ratifikasiya etməklə, Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizə fəaliyyətinin əsası qoyulmuşdur. 2004-cü il mayın 6-da Prezident İlham Əliyev tərəfindən insan alverinə qarşı mübarizə üzrə 2004-2008-ci illəri əhatə edən ilk Milli Fəaliyyət Planı təsdiq edilmişdir. Azərbaycan Respublikasının tərəfdar olduğu beynəlxalq müqavilələrin prinsiplərindən, qüvvədə olan qanunvericilikdən irəli gələn hüquq və vəzifələrin səmərəli həyata keçirilməsi məqsədilə 2009-2013-cü illər üçün ikinci Milli Fəaliyyət Planı qəbul edilmişdir. Ölkə Prezidentinin 2014-cü il iyulun 24-də imzaladığı Sərəncamla 2014-2018-ci illər üçün üçüncü Milli Fəaliyyət Planı da təsdiq edilərək icrasına 27 dövlət qurumu ilə yanaşı, vətəndaş cəmiyyəti nümayəndələri və beynəlxalq təşkilatlar cəlb olunmuşdur.

Dünya birliyinin davamlı səylərinə baxmayaraq, insan alveri müasir dövrün ən aktual problemlərindən biri kimi qalmaqdadır. Azərbaycan da insan alverinin qarşısının alınmasında öncül, regionda ən fəal və mütərəqqi siyasət reallaşdıran dövlətlərdəndir. Müvafiq cinayətlərin qarşısının alınması, qurbanların müdafiəsi, hüquqlarının bərpası, sosial reabilitasiyası və təhlükəsiz repatriasiyasının təmin olunması istiqamətində böyük fəaliyyət ortaya qoyulmuşdur.

**5. 27 dekabr 2011-ci il tarixli “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nda**

**qadın hüquqlarının müdafiəsi.**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 dekabr 2011-ci il tarixli, 1938 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" insan hüquqları üzrə strateji sənəddir. Bu sənəd insan hüquq və azadlıqlarının daha səmərəli təmini istiqamətində yeni prioritetləri nəzərə almaqla, insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması, hüquq mədəniyyətinin inkişaf etdirilməsi, normativ-hüquqi bazanın və hüquq-müdafiə sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə qəbul edilmişdir. Bu Proqramın müəyyən hissələri məhz qadın hüquqlarının müdafiəsinə həsr edilmişdir. Məsələn, Proqramın 1.2.9-ci bəndində (Beynəlxalq Əmək Təşkilatının 2000-ci il "Analığın mühafizəsi haqqında" və 1981-ci il "Kişi və qadın işçiləri üçün bərabər imkanlar: ailə vəzifələri olan işçilər haqqında" Konvensiyalarından irəli gələn öhdəlikləri nəzərə alaraq işləyən qadınların və ailə vəzifələri olan işçilərin əmək hüquqları ilə əlaqədar əmək qanunvericiliyinin təkmilləşdirilməsi), 2.13-cü bəndində (Qadınların əmək bazarında rəqabət qabiliyyətinin artırılması, qadınlar arasında sahibkarlığın inkişaf etdirilməsi, qadınlar tərəfindən yeni peşələrin əldə edilməsinə yönəlmiş kursların təşkili) və s. bəndlərdə də qadınların hüquqlarının müdafiəsi ilə bağlı müddəalar öz əksini tapmışdır.

Yeri gəlmişkən, Milli Fəaliyyət Proqramının həyata keçirilməsinin əlaqələndirilməsi üzrə İşçi qrupuna Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili rəhbərlik edir və qrupun fəaliyyəti barədə müntəzəm olaraq ölkə Prezidentinə məlumat verilir.

Qeyd etmək lazımdır ki, bu Proqram 2006-cı ildən uğurla həyata keçirilən İnsan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının məntiqi davamı olaraq yeni istiqamətlər müəyyən etmişdir. Şübhəsiz ki, Proqramın həyata keçirilməsi, hamının, xüsusən də əhalinin həssas qruplarının yaşayış səviyyəsinin yüksəlməsinə yönəlmiş ayrı-ayrı sahələr üzrə daha səmərəli sosial proqramların qəbul olunmasına, bütövlükdə isə milli həmrəyliyin güclənməsi, daxili sabitliyin qorunub saxlanması,

demokratik idarəetmənin təkmilləşməsinə, dövlətçiliyin möhkəmlənməsinə və ölkəmizin beynəlxalq aləmdə imicinin daha da artmasına zəmin yaratmışdır.

**6. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında gender bərabərliyi**

Azərbaycan Respublikasının Prezidenti 29 noyabr 2011-ci il tarixində "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyasının hazırlanması barədə Sərəncam imzalamışdır. Bu sənədlə Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Həmin mərhələnin əsas hədəfi çoxşaxəli, səmərəli və innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, sosial sahədə önləyici inkişafın təmin olunması və əhalinin rifahının layiqli, qabaqcıl beynəlxalq standartlara uyğun səviyyəyə çatdırılması, habelə elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunmasıdır. İnkişaf Konsepsiyasının layihəsi hazırlanarkən Azərbaycan Respublikasının müvafiq dövlət orqanlarının, elmi təşkilatlarının yüksək ixtisaslı mütəxəssisləri cəlb olunmuş, bu sahədə qabaqcıl dünya təcrübəsindən yararlanmaq məqsədi ilə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı və digər beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq həyata keçirilmiş və vətəndaş cəmiyyəti təsisatlarının iştirakı təmin edilmişdir. 29 dekabr 2012-ci il tarixində ölkə başçısı "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının təsdiq edilməsi haqqında Fərman imzaladı. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası böyük əhəmiyyətə malik olan strateji sənəddir. Mükəmməl konsepsiyada heç bir sahə diqqətdən kənarda qalmamış, yoxsulluğun azaldılması, məşğulluğun səviyyəsinin yüksəldilməsi, həssas qrupların sosial müdafiəsi, sahibkarlığın inkişaf etdirilməsi, yüksək keyfiyyətli təhsil sisteminin yaradılması, təbii sərvətlərdən istifadənin azaldılması və digər məsələlər barədə əsaslı inkişaf proqramı ortaya qoyulmuşdur. Bu məqsədlərə nail olmaq üçün isə ciddi elmi əsaslara söykənən ən müasir idarəetmə üsullarının tətbiqi tələb edilir və strateji yanaşmaların daha uzunmüddətli dövrü əhatə etməsi zərurəti yaranır. Elmin və inkişafın planlaşdırılması və idarə edilməsinə əsaslanan səmərəli idarəetmə sistemi, davamlı yüksəliş, ekoloji sivilizasiya və digər bu kimi sahələrin də kon-

sepsiyada öz əksini tapması sənədin əhəmiyyətini artırmaqdadır.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasını davamlı inkişafın yol xəritəsi hesab etmək olar. Çünki bu sənəd qarşıdakı illər ərzində Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılması, nəqliyyat, tranzit və logistika infrastrukturunun təkmilləşdirilməsi, bölgələrin tarazlı inkişafı, informasiya cəmiyyətinə keçidin təmin olunması, insan kapitalının inkişafı, səmərəli sosial müdafiə sisteminin qurulması, institusional islahatların davam etdirilməsi və ətraf mühitin qorunması məsələlərini geniş əhatə edir. Konsepsiyanın 7.4-cü bəndi Gender bərabərliyinin təmin olunması və ailənin inkişafı məsələlərinə həsr edilmişdir. Burada göstərilir ki, ölkədə gender bərabərliyinin təmin edilməsi məsələsi diqqət mərkəzində saxlanılacaq və onun həlli istiqamətində müvafiq tədbirlər gerçəkləşdiriləcəkdir. Bu sahədə dövlət siyasətinin əsas istiqamətlərini gender əsaslı zorakılıq hallarının qarşısının alınması üzrə tədbirlərin görülməsi, qadınlar və kişilər üçün əmək bazarında bərabər imkanların yaradılması, qadınların işdə irəli çəkilmək, rəhbər vəzifə tutmaq imkanlarının daha da genişləndirilməsi təşkil edəcəkdir. Ana və uşaqların sosial müdafiəsi və mühafizəsinin gücləndirilməsi, BƏT-in ratifikasiya olunmuş "Ailə öhdəlikləri olan işçilər haqqında Konvensiya"sına uyğun olaraq, işləyən valideynlər üçün uşağa baxmağın asanlaşdırılması, uşaq bağçalarının sayının artırılması, həmçinin ailə planlaşdırma xidmətlərinin inkişaf etdirilməsi dəstəklənəcəkdir. Bu Konsepsiyanın mahiyyətinə və əhatə etdiyi sahələrə görə beynəlxalq təcrübəyə söykənən analoji sənədlərdən fərqi ondadır ki, həmin uzunmüddətli strateji sənədlər daha çox sosial-iqtisadi hədəfləri əks etdirir, bu Konsepsiya isə cəmiyyətimizin qarşısında duran məsələlərin böyük əksəriyyətini ehtiva edir.

Qeyd edilən istiqamətlərin reallaşdırılması üçün bir sıra məqsədli sənədlər qəbul ediləcəkdir. Bununla bağlı "Azərbaycan ailəsi Strategiyası"nın, gender bərabərliyi üzrə Milli Fəaliyyət Planının, Uşaq Məcəlləsinin və Milli Uşaq Strategiyasının hazırlanması nəzərdə tutulur. Eyni zamanda "Ailə psixoloqu" institutu, məişət zorakılığına məruz qalmış şəxslər üçün yardım mərkəzləri və sığınacaqlar, həmçinin ölkədə zora-

kılıq, təhsildən yayınma və erkən nikah halları üzrə monitorinq sistemi yaradılacaqdır.

Ümumiyyətlə, hər bir ölkənin uzunmüddətli inkişafının hədəflərini və prinsiplərini özündə əks etdirən belə bir sənədə ehtiyacı vardır. Bu mənada qarşıya qoyulmuş məqsədlərin həyata keçirilməsi baxımından "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası böyük əhəmiyyətə malik bir strateji sənəddir. Konsepsiyada irəli sürülmüş qarşıdakı məqsədləri reallaşdırmaq üçün Azərbaycanın geniş imkanları var və burada əksini tapan məsələlərin həyata keçirilməsi ölkəmizin daha sürətli inkişafını təmin edəcəkdir. Bu Konsepsiya Azərbaycan dövlətinin və vətəndaşlarının yeni böyük uğurlarının başlanğıcıdır.

**Tələbələrin biliklərinin qiymətləndirilməsi üçün suallar:**

1. Sovet dövründə qadın hüquqlarının təmini.
2. Sosial-iqtisadi vəziyyət qadın hüquqlarına necə təsir edir?
3. Müstəqillik dövründə qadın hüquqları.
4. Hansı Dövlət proqramları qadın hüquqları və gender bərabərliyi sahəsində əhəmiyyət kəsb edir?
5. Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı hansı sahələri əhatə edib?
6. Qadınların məşğulluq problemlərinin Məşğulluq Strategiyasında təsbiti.
7. Ana və uşaqların sağlamlığının qorunması üzrə Dövlət proqramının əsas vəzifələri hansılardı?
8. Qaçqın və məcburi köçkün qadınların rifahının yaxşılaşdırılması istiqamətində görülmüş işlər.
9. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında Gender bərabərliyi.

**Mühazirə 6. Qadınların qərar qəbuletmədə rolu və ictimai fəallığı**

1. ***Dövlət idarəçiliyində qadınların rolu, emansipasiya***
2. ***Qadınlara münasibətdə dövlət siyasətinin növləri***
3. ***Qadın liderliyi***
4. ***Qadınların imkanlarının genişləndirilməsi***
5. ***Qadın sahibkarlığı***
6. ***Azərbaycan Respublikasında qadınların qərar qəbuletmədə rolu və ictimai fəallığı***

**1. Dövlət idarəçiliyində qadınların rolu**

Bu mövzunu təhlil edərkən, ilk növbədə, "dövlət" anlayışını nəzərdən keçirmək lazımdır. Bu anlayış barədə ətraflı olaraq hüquq nəzəriyyəsində və konstitusiya hüququnda məlumatlandırılır.

Hüquq dövlət tərəfindən rəsmi qaydada müəyyən olunan və xalqın iradəsini ifadə edən müəyyən davranış qaydalarının sistemidir. Hüququn tarixi zəruriliyi ictimai münasibətlərin daimi inkişafından, iqtisadiyyatın tərəqqisindən, həmin münasibətləri hamı üçün ümumi olan normalarla tənzim etmək zərurətindən irəli gəlir. Hüquq dövlətin funksiya və vəzifələrinin həyata keçirilmə vasitəsi kimi çıxış edir. Başqa sözlə, dövlət olmasa, hüququn da mövcudluğundan hər hansı söhbət gedə bilməz.

Dövlət və hüquq bir-birinə qarşılıqlı təsir göstərən iki mürəkkəb ictimai hadisədir. Nəticə etibarı ilə onların hər ikisi vahid iqtisadi bazisdən törəyir, həmin bazisi möhkəmləndirmək və mühafizə etməklə ona xidmət edir. Deməli, onlar vahid məqsəd və vəzifələr, eyni sosial təyinata malikdirlər.

Dövlət və hüququn qarşılıqlı təsiri onların bir-birindən asılılığında da ifadə olunur. Dövlət hüquqdan öz funksiya və vəzifələrini həyata keçirmək vasitəsi kimi istifadə edir. Hüquq da öz növbəsində dövlətdən həm yaranması, həm də həyata keçirilməsinə görə asılıdır.

Dövlətin mahiyyəti aşağıdakı səciyyəvi əlamətlərlə xarakterizə olunur:

- dövlət xüsusi məcburiyyət aparatına malik olan kütləvi

hakimiyyətdir;

- dövlət əhalinin ərazi bölgüsü ilə xarakterizə olunur;
- dövlət sərəncamları bütün əhali üçün ümumməcburi xarakterə malikdir;
- dövlət hakimiyyətin suveren təşkilatıdır (suverenliyin dövlət suverenliyi və milli suverenlik kimi növləri fərqləndirilir).

Dövlət hüquqyaratma fəaliyyəti prosesində bilavasitə hüquq normaları yaradır. Hüquqyaratma funksiyasından başqa, dövlət hüquqicra və hüquqqoruma funksiyalarını da yerinə yetirir.

Bəşər sivilizasiyasının inkişafında və bugünkü müasir səviyyəyə çatmasında kişilərlə bərabər qadınların da əvəzsiz rolu və xidmətləri olmuşdur. Cəmiyyət həyatının elə bir sahəsi yoxdur ki, qadınların fəaliyyəti olmadan orada müvəffəqiyyətlər qazanılsın, uğurlar əldə edilsin. Lakin tarixə nəzər salsaq görərik ki, ayrı-ayrı mərhələlərdə qadına münasibətdən asılı olaraq, cəmiyyətdə zərif cinsin rolu da müxtəlif olmuşdur. Çünki qadınların cəmiyyət həyatındakı rolu mövcud ictimai-siyasi şəraitdən və onlara göstərilən münasibətdən asılı olaraq, fərqli sivilizasiyalarda və cəmiyyətlərdə fərqli formalarda özünü büruzə vermişdir. Bütün bunlara rəğmən qadınların cəmiyyətdə rolu, ictimai və dövlət həyatında iştirakı daim bəşəriyyəti düşündürən sosial problem olaraq diqqəti çəkmişdir.

Qadınların qərar qəbuletmə səviyyəsində iştirakı və ictimai fəallığı hakimiyyətin bu məsələyə yanaşmasından asılıdır.

Hakimiyyəti insanların davranış və fəaliyyətini hər hansı üsulla (iradə, nüfuz, hüquq, dövlət qurumları sistemi) bütün cəmiyyətin, ayrı-ayrı sosial qrupların iradəsinə tabe etdirmək vasitəsi kimi xarakterizə etmək olar. Hakimiyyət istənilən insan münasibətlərinin ayrılmaz hissəsidir. Hakimiyyətdə qadınların təmsil olunması üçün cəmiyyətdə səlahiyyətlərin yenidən bölünməsi, həmçinin xarakterinin dəyişdirilməsi əsas məqsədlərdən biridir. Qadınların bərabər hüquqlar əldə etmək uğrunda uzun zaman mübarizəsi onların siyasi hakimiyyətə daxil olmaq istəyinə misaldır. Bu, eyni zamanda hakimiyyəti yalnız kişilərlə bölüşmək deyil, həm də onun dəyərini düzgün qiymətləndirməkdir.

BMT-nin sabiq Baş Katibi Kofi Annan qeyd etmişdir ki, gender bərabərliyi inkişaf məqsədi olmaqla bərabər, həm də yoxsulluğun azaldılması, davamlı inkişafın əldə olunması və səmərəli idarəçiliyin qurulması üçün mühüm şərtdir.

**Qadınların emansipasiyası**

Emansipasiya (lat. *Emancipatio* - asılılıqdan azad olunma) — asılılıqdan azadlıq, məhdudiyyət olmaması, hüquqlarda bərabərləşdirilmə. Qadınların emansipasiyası - xüsusi sosial qrup kimi sosial differensiasiyası və xüsusi sahədən ümumi sahəyə çıxması ilə əlaqədar qadınların sosial mobilliyi prosesləridir. Termin XIX əsrin ortalarında meydana çıxıb və ilkin mənası tabelikdən və ya təzyiqdən xilas olunmaq, cinsi əlamətlərə görə məhdudlaşdırılmanın ləğv olunması, cinslərin hüquq bərabərliyinə nail olmaq naminə hərəkatları ehtiva edir. Bu qəbildən olan hərəkatın məqsədləri qadınların sosial vəziyyəti ilə bağlı mövcud sosial mövqelərin dəyişdirilməsinə — əməkhaqqında, təhsil almada və s. bərabər hüquqlara nail olmağa istiqamətlənib. Bu proseslər qadın hərəkatının sosial hərəkat kimi rəsmiləşdirilməsi ilə müşayiət olunur.

Qadınların emansipasiyası onlar tərəfindən ümumi məkanda yaşama təcrübəsinin, özünü fərd kimi təqdimetmə təcrübəsinin, sosiumda öz maraqlarını irəlisürmə təcrübəsinin qazanılması ilə əlaqədardır. XIX əsrin ortalarından etibarən Qərbi Avropa qadınları artıq əvvəldə sadalanan təcrübə və vərdişlərə malik idilər. Ümumi məkanda müstəqil olma bacarığı ilə ictimai mübarizə təcrübəsi Qərbi Avropa qadınlarının öz hüquqları uğrunda mübarizəyə başlamalarına imkan yaratdı. Bu mübarizə XIX əsrdə sufrajizmə çevrilmiş xüsusi mütəşəkkil qadın hərəkatı vasitəsilə təşkil olunmuşdu. Qadınların emansipasiyası müxtəlif səviyyələrdə baş verir:

1) hüquqi səviyyədə – kişilərlə bərabər hüquq və imkanların əldə edilməsi;

2) sosial səviyyədə – qadınların digər sosial qruplardan fərqli xüsusi qrup kimi differensiasiyası və öz hüquqlarını müdafiə etmək təcrübəsinə yiyələnməsi vasitəsilə;

3) fərdi səviyyədə – qadın şəxsiyyətinin dəyərlərinin dərk olunması.

XX əsrdə dünyada iqtisadi inkişafın sürətlənməsi, qloballaşma prosesinin təsiri nəticəsində beynəlxalq münasibətlərdə fəal iştirak edən ölkələrin sayının artması ilə nəticələndi. Buna görə də qadınların problemləri Avropa və ya başqa bir region çərçivəsindən çıxaraq, beynəlxalq müstəvidə müzakirə edilməyə başlandı.

1985-ci ildə Nayrobidə keçirilən Qadınların vəziyyətinə dair III Ümumdünya Konfransından sonra qadın maraqlarının ön plana çəkilməsinin siyasi strategiya əlaməti kimi, müxtəlif sahələrdə qadın imkanlarının və nüfuzunun artması "səlahiyyətlərin genişlənməsi" (empowerment) anlayışı kimi vüsət tapdı.

Bu dövrün konsepsiya müəllifləri hakimiyyəti — sosial həyatın geniş imkanlarına və vəsait mənbələrinə nəzarət etmək hüququ, qərar qəbuletmə imkanı, bütün fəaliyyət sahələrində və səviyyələrində transformasiya potensialına sahib olmaq kimi müəyyənləşdirirlər.

Müxtəlif dövlət və ictimai idarəetmə səviyyələrində qərarların hazırlanmasında və qəbul edilməsində gender bərabərliyinə nail olmaq üçün dövlətdən, siyasi partiyalardan və vətəndaş cəmiyyətlərindən konkret səylər tələb olunur. Dövlət gender siyasətini qanunların və ya digər məcburi göstərişlərin köməyi ilə müəyyən edir.

## 2. Qadınlara münasibətdə dövlət siyasətinin növləri

Qadınlara münasibətdə dövlət siyasəti – böyük sosial-demoqrafik qrup olan qadınların maraqlarına toxunan, onların hüquqi və sosial statuslarını formalaşdıran, cəmiyyətlə qarşılıqlı əlaqələrini nizamlayan ümumi sosial siyasətin bir hissəsidir. Qadınlara münasibətdə dövlət siyasəti konkret tarixi xarakter daşıyır. Onun məzmunu və səmərəliliyi aşağıdakılardan asılıdır: birincisi, cəmiyyətdə və siyasi elitada hakim mövqe tutan "qadın məsələsi" anlayışından, qadınlara münasibət üzrə ideologiyadan; ikincisi, iqtisadi münasibətlərin tipindən və dövlətin sosial-iqtisadi inkişaf səviyyəsindən; üçüncüsü, siyasi rejimin xarakterindən, dövlətdə və cəmiyyətdə demokratiyanın səviyyəsindən; dördüncüsü, dövlət siyasəti subyektlərinin hakim strukturların, siyasi partiyaların, ictimai hərəkatların

mövqeyindən və təşəbbüskarlığından.

Qadınlara münasibətdə dövlət siyasətinin bir neçə tipi fərqləndirilir. Onlardan hər biri cəmiyyətin müəyyən gender modelinə əsaslanır: qadınlara münasibətdə patriarxat tipli dövlət siyasəti, qadınlara münasibətdə paternalist tipli dövlət siyasəti, qadınlara münasibətdə liberal tipli dövlət siyasəti. Sadalanan siyasət tipləri çərçivəsində həyata keçirilən dövlət tədbirlərinin böyük əksəriyyəti, əsasən, sosial-demoqrafik qrup kimi qadınların spesifik tələbatlarına toxunur və cəmiyyətdə gender asimmetriyasını yüngülləşdirmək məqsədilə onların status xarakteristikalarının gücləndirilməsinə yönəldilir.

Beləliklə, "qadın" dövlət siyasəti cəmiyyətin bir hissəsinin maraqlarına toxunur və hətta qarşıya cinslərin statusunun bərabərləşdirilməsi məqsədi qoyulduqda belə, kişi amilini nəzərə almır.

Qadınlara münasibətdə dövlət siyasətinin *paternalist* tipi – çərçivəsində qadınlara münasibətdə dövlət proteksionizmi həyata keçirilir. Bu siyasət tipi üçün aşağıdakılar xarakterikdir:

- dövlət tərəfindən cinslərin hüquq bərabərliyinin tanınması, ictimai həyatın bütün sferalarında, ailə-nikah münasibətlərində qadın və kişilərin hüquq bərabərliyini təmin edən qanunvericiliyin qəbul olunması;
- qadınların reproduktiv, istehsalatda və ailədə olan rollarının bir yerə cəmlənməsi üçün şəraitin yaradılması məqsədilə xidmət sahələrinin inkişafı;
- imtiyaz, müavinət, dünyaya uşaq gətirmə və ona qulluqla əlaqədar məzuniyyətlər, qadın əməyinin məhdudlaşdırılması və s. şəkildə qadınların sosial müdafiə sisteminin yaradılması.

Bu tipli siyasətin əsasında "işləyən ana üçün müqavilə" və ya "uşaqlara dövlət qayğısı zəminində tək işləyən" kimi modelləri birləşdirən gender sistemi durur. Paternalist tipli dövlət siyasəti dövlətin əsas ictimai, suveren rol oynadığı və öz konsepsiyasına "qadınların spesifik maraqlarına dair daimi qayğı əlavə etdiyi marksist-leninçi ideologiyasına əsaslanan ictimai quruluş formasına xas olandır. Rusiya alimlərinin əsərlərində haqlı olaraq qeyd edilir ki, qadınlara münasibətdə dövlət proteksionizmi ideologiyası onun "sosial cəhətdən zəiflənəsi" mənasını verir və gender münasibətlərində patriarxat sistemin

təkrarlanmasına gətirib çıxarır.

Qadınlara münasibətdə *liberal* tipli dövlət siyasəti – cəmiyyətdə qadınların maraqlarını nəzərə alan, cinslərin qarşılıqlı münasibətlərinin modellərinə əsaslanan siyasət tipidir. Bu modellər üçün bir tərəfdən ümumi və xüsusi sferalarda qadın və kişilərin vəziyyətlərinin, imkan və hüquqlarının tarazlaşdırılması, digər tərəfdən isə, məşğuliyyət, siyasət, idarəetmə və digər sferalarda cinsi əlamətlərə görə diskriminasiya xarakterikdir. Bu siyasət tipinə xas olan əlamətlər aşağıdakılardır:

− əmək haqqı ödənilən işlərdə qadınların tam məşğulluğunun təmin edilməsi;

− qadınların dövlət və siyasi hakimiyyətin yüksək dairələrində iştirak etməkdən kənarlaşdırılması;

− uşaqlara qayğı və onların tərbiyə edilməsi funksiyalarının, ilk növbədə, ailənin funksiyası olduğunu, qadınların reproduktiv funksiyalarının dəstəklənməsində dövlətin yetərincə iştirak etməməsinin vurğulanması;

− qeyri-müstəqil, evdar qadın obrazının kütləvi informasiya vasitələrində təbliğ edilməsi.

Bu tipli dövlət siyasətinə bir-birinə zidd proseslərin həyata keçirildiyi postindustrial tipli və ya iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə rast gəlinir: iqtisadiyyatın inkişafı qadınların professional sferalara daxil edilməsinə təkan verir və eyni zamanda cinsi rollar ideologiyası qadınların ənənəvi evdar qadın roluna təhkim edilməsinə səbəb olur.

*Eqalitar* tipli dövlət siyasəti əsasən, cinsi mənsubiyyətindən asılı olmayaraq, hər bir şəxsiyyətin bütün sferalarda özünü reallaşdıra bilməsi üçün bərabər şərtlərin yaradılması prinsipini əks etdirən siyasətdir.

Adətən, açıq cəmiyyətdən danışarkən, onun iki şərhini fərqləndirirlər - Anri Berqsonun (1859-1941) elitar və Karl Popperin (1902-1994) eqalitar konsepsiyalarını. Birincisi - əsasında antaqonizmlərdən azad, beynəlxalq insani birlik, ümumbəşəri, antiutilitar əxlaqa dayanan, şəxsiyyət azadlığı və yaradıcılığının, həmrəylik və humanizmin vüsət tapdığı ideal cəmiyyət quruluşunu nəzərdə tutur. Bu konsepsiyanın mühüm müddəaları A.Berqsonun "Əxlaq və dinin iki mənbəyi" əsərində verilib. Həmin əsər onun son əsəridir və 1932-ci ildə nəşr

edilib. Qeyd edək ki, A.Berqson 1928-ci ildə ədəbiyyat üzrə Nobel mükafatı laureatı adına layiq görülmüşdür.

Fəlsəfə elmləri doktoru, akademik Ramiz Mehdiyevin "Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə (yanvar 2002 – dekabr 2006) kitabında qeyd edilir ki, "Azərbaycanda mühafizəkar-liberal sistem tamamilə tarazlaşdırılmışdır: o, bir tərəfdən, güclü dövlət hakimiyyətini və hüquq qaydasını, digər tərəfdən isə, iqtisadi fəaliyyət sərbəstliyini dəstəkləyir. Bu sistemdə dövlətpərəst meyllərin və dövlət təməllərinin, milli və universal elementlərin müştərək mövcudluğuna nail olunmuşdur. Liberalizm müəyyən dinamik ruh gətirmiş, mühafizəkarlıq bu ruhu sapmalardan qorumuşdur. Sosial – demokratizm isə çalışmışdır ki, eqalitar prinsiplər, yəni hüquq bərabərliyi prinsipləri unudulmasın. Heydər Əliyevin nadir dövlət idarəçiliyi qabiliyyəti ondadır ki, o, həmin ideoloji müştərəklikdən (uyğunlaşmadan və qismən də qarşılıqlı əvəzetmədən) müstəqil, demokratik Azərbaycan quruculuğunda məharətlə istifadə etmişdir."

Eqalitar siyasətin əsas istiqamətləri bunlardır:

- qadın və kişilərin, dövlətin idarə edilməsi də daxil olmaqla, bütün professional sahələrdə bərabər iştirakı;
- ailə üzvlərinin gündəlik ev işlərinin yerinə yetirilməsindən maksimum dərəcədə azad edilməsi üçün şərtlərin yaradılması;
- hər iki valideynin uşaqlara qulluqla əlaqədar dövlət imtiyazlarının genişləndirilməsi;
- gender bərabərliyinə nail olmağın vacib şərti kimi, hər iki cinsin nümayəndələrinin bərabər təhsil imkanları ilə təmin edilməsi;
- cəmiyyətdə kişi və qadın ənənəvi rolları ilə bağlı mövcud mənfi stereotiplərin aradan qaldırılması, gender bərabərliyi haqqında müvafiq ictimai fikrin yaradılması;
- bütün səviyyələrdə rəhbərlərin və mütəxəssislərin gender bərabərliyi probleminin mahiyyətini dərk etmələrinə imkan yaradan dövlət məmurlarının hazırlanması sisteminin qurulması.

Əslində "iqtisadi artım" "gəlirlərin yenidən ədalətli paylaşması" ilə birgə fəlsəfi cəhətdən cəmiyyətin rifahı nəzəriy-

yəsində eqalitar və utilitar modellərin mübahisəsinə gətirib çıxarır. Utilitarçıların fikrinə əsasən, ən mühüm meyar cəmiyyətin ümumi gəlirinin artırılması olduğu halda, eqalitarçılar ən vacib hədəf kimi, ən yoxsul təbəqələrin gəlirinin artırılmasını nəzərdə tuturlar (bir şərtlə ki, ən yoxsul təbəqə varlıları üstələməsin).

Əslində ABŞ liberal inkişaf modeli utilitar, İsveç klassik sosial modeli isə eqalitar yanaşmadan irəli gəlir. Onu da qeyd etmək lazımdır ki, riyazi baxımdan ən əlverişli bölüşmə hər bir təbəqəyə ayrılıqda aid olan gəlirin maksimal olmasındadır. Bu isə çoxmeyarlıq deməkdir. Odur ki, meyarları müəyyən bir üsulla birləşdirməyə cəhd göstərilir. Əgər ümumi əldə edilən gəlirin bölüşdürülməsi zamanı birləşmiş meyar kimi cəmiyyətdəki müxtəlif təbəqələrin gəlirləri cəm şəkildə təsəvvür edilirsə və bu cəm maksimuma yönəldilirsə, deməli, həmin utilitar yanaşmaya əsaslanır. Digər tərəfdən, birləşmiş meyar kimi ən az faydalanan təbəqənin gəliri maksimaldırsa, demək, eqalitar yanaşma istifadə olunur.

Eqalitar siyasət XXI əsrdə cəmiyyətdə gender simmetriyasına nail olmağın yeni strategiyası kimi cinsi bərabərlik probleminə kompleks yanaşmaya əsaslanır. Avropa dövlətlərində bu strategiya "gender meynstriminq" (gender mainstreaming) adı alıb, Rusiya sosiologiyasında bu siyasət tipinə münasib olaraq, eqalitar siyasət (эгалитарная государственная политика) və ya gender bərabərliyi siyasəti terminlərindən istifadə olunur. Eqalitar siyasət "iki ailə başçısı" modelinə, qadın və kişilərin ictimai həyatın bütün sahələrinə simmetrik şəkildə daxil edilməsi modelinə istinad edir. Bu tipli siyasətin reallaşdırılması üçün hüquqi bazanın mövcudluğu, cinsi əlamətlərə görə diskriminasiyanın aradan qaldırılması, komitə və şuraların yaradılması, hər bir nazirlikdə cinsi bərabərlik məsələləri ilə məşğul olan departament və ya bölmələrin açılması, gender problematikasına dair elmi-tədqiqat işlərinin aparılması və hər iki cinsin vəziyyətini əks etdirən etibarlılıq, obyektiv statistik bazanın yaradılması tələb olunur. Eqalitar siyasət strategiyası əhalinin spesifik sosial-demoqrafik qrupu kimi qadına aid ənənəvi siyasətin dəyişdirilməsini deyil, onun tamamlanmasını təklif edir.

### 3. Qadın liderliyi

Qadın liderliyi – müxtəlif dövlət və ictimai idarəetmə səviyyələrində qərarların hazırlanmasında və qəbul edilməsində qadınların iştirakıdır. Qərarların qəbul edilməsi sferasında gender bərabərliyinə nail olmaq üçün dövlətdən, siyasi partiyalardan və vətəndaş cəmiyyəti təşkilatlarından konkret səylər tələb olunur. Dövlət gender siyasətini qanunların və ya digər məcburi göstərişlərin köməyi ilə müəyyən edir. Qeyd etmək lazımdır ki, liderliyə müxtəlif anlayışlar verilir. Məsələn, liderlik müəyyən şərtlər altında fərdi və ya qrup məqsədlərini həyata keçirmək üçün hər hansı bir insanın başqalarının fəaliyyətlərinə dəstək olması və onları idarə etməsidir.

Lider idarə edən, təsir edən, gözəl örnəklər verə bilən, düzgün yol göstərən bir insandır. Cəmiyyətə yararlı olanı düzgün yönəltmək üçün məsuliyyətlə, ağılla davranan insana lider deyilir. Lider gücündən düzgün istifadə edərək, ətrafındakılara təsir edən bir insandır. O, lazım olduğu zamanlarda verdiyi qərarların nəticələrinin arxasında durmağı bacarır.

Burada qadın liderliyinin əhəmiyyətini xüsusi qeyd etmək lazımdır. Qadın liderliyinin formaları: siyasi, iqtisadi və ictimaidir.

*Siyasi formaya,* qadınların dövlət hakimiyyətinin ali və yerli qanunverici və icraedici orqanlarında, o cümlədən qadın dövlət rəhbərləri, siyasi partiyaların, BMT və s. kimi beynəlxalq təşkilatların rəhbərliyində təmsil olunması aid edilir.

*İqtisadi forma*, qadınların iqtisadi məsələlərlə məşğul olan milli dövlət orqanlarında, idarə, müəssisə, təşkilatlarda, beynəlxalq və regional maliyyə müəssisələrində rəhbər və ya aparıcı mövqe tutmasıdır, o cümlədən, idarə, müəssisə və təşkilatlarda rəhbər, yüksək idarəetmə bacarıqlarına malik beynəlxalq və regional maliyyə müəssisələrində işçi olmasıdır.

Qadın liderliyinin *ictimai forması,* qadınların vətəndaş cəmiyyəti sahəsində, özünüidarə orqanlarında, QHT və kütləvi informasiya vasitələrində təmsil olunmasıdır.

BMT-nin "Qadınların siyasi hüquqları haqqında" Konvensiyasına (1953) müvafiq olaraq, "Qadınlar açıq seçki tələb edən, milli qanunlarla təsis edilmiş qurumlara kişilərlə bərabər seçilə bilərlər" (maddə 2); "Qadınlar ictimai dövlət xidmət-

lərində vəzifə tutmaq hüququna malikdirlər" (maddə 3). 1979-cu ildə BMT tərəfindən qəbul edilmiş "Qadınlara qarşı münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiya bütün dövlətlərin qarşısına dövlət siyasətinin işlənməsi və həyata keçirilməsində qadınların kişilərlə bərabər şərtlərlə təmsil olunmaq, qadınların bərabər əmək haqqı imkanlarını təmin etmək öhdəliyini qoyur. IV Ümumdünya Qadın Konfransının Fəaliyyət Platformasında (Pekin, 1995) göstərilir ki, qərarların hazırlanmasında qadın və kişilərin bərabərhüquqlu iştirakı demokratiyanı möhkəmləndirir və onun çərçivəsində fəaliyyət imkanlarını genişləndirir.

Qədim Yunanıstanda, Afina polisində yaranmış milli idarəçilik ideya və praktikası əvvəllər vətəndaş hesab olunmayan qadınların iştirakını tələb etmirdi. Din və inkişaf edən bütün ictimai proseslər — böyük mədəni intibah, inqilablar və hüquqlar haqqında qanunlar daha çox kişilərin maraqlarını diqqət mərkəzində saxlayırdı.

Yalnız XIX əsrin sonlarında qadınlara kişilərlə bərabər səsvermə hüquqlarının verilməsi prosesi başlandı. Lakin qadınların nə vaxtdan seçki hüququnu əldə etməsindən asılı olmayaraq, əksər ölkələrin siyasətində qadın liderliyi və qadın-kişi partnyorluğu problemi həll edilməmiş qalır. Kişilərdən fərqli olaraq, uğurun zirvəsinə çatmağa çalışan qadın liderləri sıradan çıxaran, gözə görünməyən, lakin real maneələr mövcuddur.

Vəziyyəti dəyişmək məqsədilə ABŞ-da və Qərbi Avropada bir çox təşkilatlar ictimai fikrin təzyiqi altında "bərabər imkanlar siyasəti" adlanan siyasət həyata keçirirlər. Lakin aydın olur ki, bu siyasət reallıqda həyata keçirilərkən, iş yerində kişi personalı tərəfindən müqavimətlə qarşılanır.

Qadını rəhbərlik vəzifəsinə aparan istiqamətdə cinslərin sosializasiyası ilə bağlı maneələr ciddi rol oynayır: insanların əksəriyyəti qadının aşağı siyasi statusa malik olmasında sosial haqsızlığın mövcudluğunu görmürlər. Qadın liderlərin keyfiyyətlərinə görə kişi həmkarlarından fərqlənmədiyinə baxmayaraq, onların liderlik rolu üçün yararsızlığı haqqında sabit təsəvvürlər mövcuddur.

Dünyanın müxtəlif ölkələrində qadınların sosiallaşması elə şəkildə baş verir ki, bu onların öz karyerasını və siyasi cəhd-

lərini gücləndirən xüsusi ambisiyalarının inkişafına mane olur. Qadınlar üçün liderlik məktəbi qeyri-hökumət təşkilatları olub. QHT-yə üzvlükdə opponentlər tərəfindən bu cür qarşıdurma mövcud deyil, çünki QHT-lər siyasi fəaliyyətlə məşğul olmur.

Qərar qəbul edilməsində kişilərin üstünlüyü ona gətirib çıxarır ki, qadın maraqları nəzərə alınmır. Bu, onların, onsuz da bərabərsizliyə malik mövqelərini daha da zəiflədir və mövcud gender rollarının dəyişməsinin qarşısını alır. Qadınların qərar qəbuletmənin bütün səviyyələrində irəli çəkilməsi – istər qadınların özündən, istərsə də dövlətdən səy tələb edən strategiyaların işlənməsini tələb edir.

Bütün bunları nəzərə alaraq, qeyd etmək lazımdır ki, sosial fikir ayrılıqları gender iyerarxiyasının zorakılıqla həyata keçirilməsinə, hakimiyyətin cinsi mənsubiyyətə görə bölünməsinə gətirib çıxarır. İnsan hüquqlarının qorunması üçün yalnız dövlət və onun institutları tərəfindən bu sahədə qanunların yazılması və onların səmərəli icra mexanizmlərinin formalaşdırılması yetərli deyil, insanların özlərinin də buna marağı və bu istiqamətdə bacarıqlarının olması zəruridir. Əgər qadınlar öz hüquqlarını bilmirsə, nə onları qoruya, nə əldə edə, nə də istifadə edə bilərlər. Bundan əlavə qadınların hüquqi məlumatsızlığı dövlət orqanlarının özbaşınalığına, hüquqi strukturların hərəkətsizliyinə yol açır. Əgər demokratiyanın, vətəndaş cəmiyyətinin, hüquqi dövlətin inkişafının, yerli özünüidarəetmənin və cəmiyyətin idarə olunmasında vətəndaşların güclü rolu olmazsa, o zaman heç bir perspektivdən söhbət gedə bilməz.

İnsanların düşüncəsindəki ədalət, vətəndaşın hüquqi maarifçiliyinin aşağı səviyyəsi hüquqi dövlət və vətəndaş cəmiyyətinin qurulması yolunda olan çox ciddi və çətin aradan qaldırılan əngəldir.

Bəzi ölkələrin təcrübəsi göstərir ki, bir çox hallarda qanunların reallaşdırılması zamanı qadınların diskriminasiyası halları müşahidə olunur. Bunun əsas səbəbləri aşağıdakılardır:

- seçkilər zamanı qadınların adları əvvəlcədən mümkün namizədlər siyahısında qeyd edilmir, onların maliyyə, təşkilati və məlumat resursları yetərincə olmur;
- qadın namizədlər seçkilərə partiya siyahısı ilə yox, müstəqil namizəd kimi getməyə məcbur olur ki, bu da onların re-

surslarının məhdudlaşması ilə nəticələnir.

Bəs qadınların ictimai-siyasi həyatda və dövlət əhəmiyyətli qərarların qəbul olunmasında iştirakı üçün hansı əsaslar var?

- Demokratiya və bazar iqtisadiyyatına keçidin qadınların ictimai-siyasi həyatda iştirakına və təmsilçiliyinə kəmiyyət və keyfiyyət baxımından təsiri;

- Qadınların ictimai-siyasi həyatda təmsil olunmasına yerli səviyyədə köklü və şəxsi xarakterli maneələr;

- Qadınlar kişilərlə müqayisədə ictimai-siyasi həyata hansı yeniliklər gətirir, qadın və kişilərin ictimai-siyasi səviyyədə liderliyinin hansı özəllikləri var;

- Bu məqsədlə ictimai strukturlar, siyasi partiyalar və həmkarlar ittifaqları qadınların yerli əhəmiyyətli məsələlərdə rolunu artırmaqdan ötrü onların hansı məsləhətlərə ehtiyacı olduğunu təyin etməlidirlər.

Qərb ədəbiyyatında qadınların ictimai-siyasi həyatda fəal iştirakını əsaslandıran 5 əsas arqument önə çəkilir: cinsi bərabərlik; siyasi quruluşun legitimliyinin əsasları; maraqların fərqliliyi; ictimai siyasətə yeni baxış bucağı; insan resurslarından daha səmərəli istifadə olunması.

*Cinsi bərabərlik* universal insan hüquqlarının bərabərhüquqlu gerçəkləşdirilməsini tələb edir. Cinslərin de-fakto və de-yure bərabərliyi insanın əsas hüququ olmalıdır. Bu hüquq həm milli, həm də beynəlxalq qanunvericilikdə əksini tapıb. Qadınlar əhalinin yarısını təşkil edir və onlar ictimai-siyasi həyatda da proporsional təmsil olunmalıdır.

*Siyasi quruluşun legitimliyinin əsasları*- nümayəndəlik demokratiyasının prinsiplərinə riayət etməkdir. Demokratik şəraitdə insanların kimlərin təmsil etdiklərini və onların adından hansı qərarların verildiyinə nəzarət və araşdırmanı nəzərdə tutur. Həm statistika, həm də araşdırmalarımızın nəticələri sübut edir ki, bələdiyyə siyasəti sahəsində kişilərin inhisarı mövcuddur. Qadınların təmsilçiliyi yetərincə olsa da, mövcud bələdiyyə orqanlarının bütün cəmiyyətin maraqlarına cavab verməsinə hələ də nail olunmamışdır.

*Maraqların fərqliliyi*. Qadınlar xüsusi qrup olaraq, aşağıdakı səbəblərdən fərqli maraqlara malikdirlər: a) tarixən uzun müddət qadınlar heç bir (siyasi) hüquqlara malik olmayıb; b)

əmək sahəsində qadınlar üfqi və şaquli istiqamətlərdə ayrı-seçkiliyə məruz qalır; c) qadınlara işçi qüvvə istehsalı və uşaqların tərbiyəsində məsuliyyət hissinin aşılanması ailədə gender bölgüsünün əsasını qoyub. Üstəlik, gender araşdırmaları göstərir ki, qadınlar öz obyektiv maraqlarını kişilərdən daha yaxşı müəyyənləşdirə və əsaslandıra bilirlər.

*İctimai siyasətə yeni baxış bucağı.* Qadınların siyasi strukturlarda iştirakı "kritik həddə" çatanda siyasət anlayışı dəyişir, onun ənənəvi əsaslarından uzaqlaşma baş verir, qərar qəbul olunma mədəniyyəti dəyişikliyə uğrayır. Belə ki, artıq Avropada 30 ildən çoxdur ki, siyasi məsələ sayıla biləcək sahələrin sayı artıb. Əlavə olunan məsələlərə uşaqlara qayğı, cinsiyyət, ailə planlaşdırılması, bu baxımdan qadınlara qarşı zorakılıq və s. aid etmək olar. Kişilərin liderliyi çoxpilləliyi, avtoritarlığı, mərkəzləşdirmə və texnokratlığı ilə fərqlənir.

*İnsan resurslarından səmərəli istifadə.* Qadın və kişilər müxtəlif təcrübəyə, biliyə və intuisiyaya malikdirlər. Bütün anlayışların nəzərə alınması daha dəqiq maarifçi siyasətin formalaşmasına yardımçı ola bilər. Qadınların ictimai-siyasi həyatda rolunun artırılmasından danışarkən bu sahədə mövcud olan beynəlxalq norma və konvensiyalara müraciət etmək zəruridir. Əvvəldə göstərildiyi kimi, Ümumdünya İnsan Hüquqları Bəyannaməsində təsbit olunmuş və vətəndaşların öz ölkələrinin idarə olunmasında iştirakını nəzərdə tutan bir neçə hüquqi sənəddə qadınlarla bağlı müddəalar inkişaf etdirilib: Qadınların siyasi hüquqları haqqında Bəyannamə (1952), Qadınlara münasibətdə ayrı-seçkiliyin aradan qaldırılması haqqında Bəyannamə (1967), Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında Konvensiya (1979) və Pekin Fəaliyyət Platforması (1995).

Ümumilikdə, belə qənaətə gəlmək olar ki, qadın lider ola bilər. Ancaq bunun üçün o, ilk növbədə, öz hüquqlarını bilməli və fəaliyyətlərində düzgün istifadə etməlidirlər. Azərbaycan Respublikasında qadın hüquqlarını qoruyan qanunlar mövcuddur, həmçinin bu qanunların icrasına nəzarət və icra edən qurumlar da fəaliyyət göstərir. Azərbaycan qadınlarının güclü potensialının olduğunu əsrlər boyu bütün dünyaya çatdıran qadın siyasətçilərimiz, alimlərimiz, mədəniyyət və incəsənət xadim-

lərimiz olmuşdur.

Bütün dünyada qəbul olunmuş faktdır ki, qadınların fikirləri, istəkləri, məsləhətləri nəzərə alınmırsa, həmin dövlətdə, bölgədə, kənddə, ailədə tərəqqi, yaşayış səviyyəsinin yüksəlməsi və s. mümkün deyil. Beynəlxalq analitiklər sübut ediblər ki, siyasi strukturlarda qadınların təmsilolunma 20 faizdən az olmamaq şərti ilə təmin olunursa, dövlətdə, iqtisadi baxımdan səviyyəsi aşağı olan insanların vəziyyətində, təhsil və səhiyyə sahələrinin inkişafında real dönüşlər müşahidə edilir.

**4. Qadınların imkanlarının genişləndirilməsi**

Qərar qəbuletmə səviyyəsində qadınların təmsil olunmasına, eləcə də fəaliyyətin bütün sahələrində onların səlahiyyətlərinin genişləndirilməsinə, resurslara nəzarət və idarəetməyə yönəldilmiş məqsədyönlü siyasət və ya tədbirlər kompleksini əhatə edən qadın maraqlarının irəli çəkilməsi uğurlu siyasi strategiyadır. Bu strategiya 1985-ci ildə Nayrobidə keçirilmiş Qadınların vəziyyətinə dair III Ümumdünya Konfransı zamanı DAWN (Development Alternatives with Women for a New Era) qadın şəbəkəsi tərəfindən irəli sürülüb və 1995-ci ildə Pekində Qadınların vəziyyətinə dair IV Ümumdünya Konfransında təsdiq olunub. Qadınların imkanlarının genişləndirilməsi strategiyası onlarla bağlı layihələrin ümumi inkişafa yönəlmiş Proqramlara əlavə edilməsi strategiyasından fərqlənir. O, yerli və regional xüsusiyyətləri nəzərə almaqla sosial və iqtisadi münasibətlərdə köklü dəyişikliklərin edilməsi əsasında inkişaf prosesinin istiqamətinin dəyişilməsini tələb edir və BMT-nin siyasi proqramlarında, hökumət və ictimai təşkilat nümayəndələrinin çıxışlarında xüsusilə vurğulanır.

Qadınların maraqlarının inteqrasiyasının milli mexanizmi – başlıca funksiyası dövlət siyasətinin hazırlanması olan və praktikada həyata keçirilməsi zamanı cəmiyyətin qadın hissəsinin ehtiyaclarını və əhval-ruhiyyəsini nəzərə alan dövlətlərin qadın sosial birliklərinin maraqlarını müdafiə edən obyektiv mühüm vasitədir. Belə dövlət siyasətinin həm ümumi, həm də konkret istiqamətlərinin hazırlanmasının və reallaşdırılmasının ilk mərhələsindən sonuncuya kimi qadınların maraqlarını qeydə almaq məqsədi güdür. Əgər qadınların sosial maraqlarının inteqrasi-

yası əvvəlcədən baş vermirsə, bu halda onların sosial hüquqlarının reallaşdırılmasında çətinliklər meydana çıxır. Hüquq və azadlıqların reallaşdırılmasının mexanizmləri olmadan həqiqi gender hüquq bərabərliyinə nail olmaq mümkün deyil. Elə buna görə də qadınlar və kişilər arasında bərabərliyi möhkəmləndirən milli mexanizmlərin rolu olduqca yüksəkdir Bu, beynəlxalq sənədlərdə, məsələn, "Qadınların vəziyyətinə dair IV Ümumdünya Konfrans"ının sənədlərində (Pekin, 1995) xüsusi qeyd olunur. Qadınların maraqlarının inteqrasiyasının milli mexanizmi modeli bu inteqrasiya siyasətinin seçilmiş konsepsiyası ilə müəyyən olunur. Bu konsepsiya qəbul olunmuş siyasi kursların və işlənmiş dövlət proqramlarının ölkənin qadın və kişi əhalisinə mümkün təsirlərin nəzərə alınmasının zəruriliyindən irəli gəlir. Qadınların maraqlarının inteqrasiyasının milli mexanizmini qanunverici və idarəedici aparatın struktur şöbəsinin mövcudluğu ilə izah etmək düzgün olmazdı. Milli mexanizm üç əsas ölçüyə malikdir: hüquqi, təşkilati və məzmun ölçüsü. Milli mexanizm müxtəlif səviyyəli gender analizinə əsaslanır və məcazi mənada cəmiyyətdə gender bərabərliyinə nail olmaq üçün vasitədir.

## 5. Qadın sahibkarlığı

SSRİ tərkibində olduğu zaman Azərbaycanda mərkəzi siyasi orqanların göstərişlərinə uyğun olaraq qadınlar qanunvericilik və icra hakimiyyəti orqanlarında müvafiq nisbətdə təmsil edilirdi. Bundan başqa, qadınlar iqtisadiyyatın, infrastrukturun, elmin, təhsilin, xidmət sferasının bütün sahələrində çalışırdılar. Aqrar sahədə qadınların əksəriyyəti kolxoz və sovxozlarda adətən fəhlə peşələrində işləyirdilər. Ənənəvi olaraq, milli əxlaq normalarının və adətlərin təsiri altında evdar qadınların sayı yüksək idi. SSRİ dağıldıqdan sonra və məlum hadisələr nəticəsində müstəqilliyini bərpa etmiş respublikamızın iqtisadiyyatı dərin böhran vəziyyətində idi. Əhalinin, xüsusən də qadınların məşğulluq səviyyəsi kəskin olaraq aşağı düşmüşdü. Bu vəziyyət Ermənistanın hərbi təcavüzü, Dağlıq Qarabağ və onun ətraf rayonlarının işğalı nəticəsində daha da ağırlaşmış, cəmiyyətin qaçqın və məcburi köçkünlərdən ibarət həssas və müdafiəyə ehtiyacı olan bir təbəqəsi yaranmışdı.

Ancaq 90-cı illərin ortalarından başlayaraq, iqtisadiyyatda vəziyyəti dövlət mülkiyyətinin özəlləşdirilməsi, sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi, torpaq islahatlarının keçirilməsi sayəsində sabitləşdirmək mümkün olmuş və əhalinin məşğulluğu sahəsində müsbət dəyişikliklər baş vermişdi.

O zaman qəbul olunan bir sıra qanunlarda qadın hüquqlarının qorunması, qadınların istər dövlət, istərsə də özəl sektorda fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində işlərin görülməsi nəticəsində sahibkar qadınların sayı durmadan artmaqdadır, qadın sahibkarlığı inkişaf etməkdədir. Amma yenə də, qadın sahibkarların sayı yetərincə deyil. Dövlət tərəfindən bu sahənin inkişafı üçün lazımi şərait yaradılıb, lakin müəyyən problemlərin olması qadınların sahibkarlıq fəaliyyətində çətinliklər törədır. Bu çətinliklərin aradan qaldırılması məqsədilə Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramında (2011) sahibkarların və istehlakçıların hüquqlarının möhkəmləndirilməsi, həmçinin, qadınların əmək bazarında rəqabət qabiliyyətinin artırılması, qadınlar arasında sahibkarlığın inkişaf etdirilməsi, qadınlar tərəfindən yeni peşələrin əldə edilməsinə yönəlmiş kursların təşkili də nəzərdə tutulmuşdur.

Azərbaycanda qadınların daha çox iqtisadi hüquqları pozulur. İşəgötürənlər kişilərə üstünlük verirlər, çünki qadın məişət qayğıları ilə bağlı olaraq işdən daha çox yayına bilər. Nəticədə isə, qadınlar özləri istəməsələr də, evdar qadın olurlar və cəmiyyətin həyatında fəal iştirakdan kənarda qalırlar.

Qadınların cəmiyyətdə fəal iştirakını təmin edən mühüm istiqamətlərdən biri də onların iqtisadi sahədə qərar qəbuletmənin yüksək pillələrində təmsil olunmasıdır. Təəssüf ki, qadınların bu sahədə qeyri-bərabər təmsil olunması onların bilavasitə iqtisadi qərarların qəbul edilməsi prosesində iştirakını da məhdudlaşdırır. Diskriminasiyanın aradan qaldırılması, cəmiyyətdə şəxsiyyətin özünü reallaşdırması, sosiallaşması üçün nisbətən bərabər şəraitin yaradılması baxımından siyasi mədəniyyəti artırmaq istiqamətində maarifləndirmə işləri gücləndirilməlidir.

Qadın sahibkarlığının inkişafı üçün bir çox sahələrdə müvafiq tədbirlər həyata keçirilir. Bu işin dəstəklənməsi və tən-

zimlənməsi cəmiyyətdə gender bərabərliyinə nail olmaq üçün mühüm vasitədir.

Getdikcə qadınların sahib olduğu müəssisələrin sayının artdığı müşahidə olunur. Sahibkarlığın və kiçik biznesin inkişafı yeni iş yerlərinin yaradılması, işsizliyin azaldılması və məşğulluğun artırılması sahəsində səmərəli vasitə olduğu nəzərə alınsa, mövcud və potensial qadın sahibkarların inkişaf proseslərində iştirakı təmin edilə bilər. Belə ki, qadın sahibkarlığının inkişafı yoxsulluğun azaldılmasına, qadınların iqtisadi və sosial nüfuzunun artmasına və bir çox hallarda cəmiyyətdə gender bərabərsizliyinin aradan qaldırılmasına yardım edir. Qadın sahibkarlığının ehtiyaclarının, problem və xüsusiyyətlərinin təhlili qadın sahibkarlığının, ümumilikdə kiçik və orta sahibkarlığın inkişafına yardım edir. Qadınların məşğulluq imkanlarının artırılması, biznesə başlamaq və inkişaf etdirmək üçün onlara müvafiq mənbə və bacarıqların verilməsi sahəsində dövlət, donorlar, həm yerli, həm də beynəlxalq QHT-lər tərəfindən bir çox tədbirlər həyata keçirilməkdədir. Bununla belə, hələ də ölkədə qadınların produktiv resurslardan, xüsusilə, kredit resurslarından, bazarın imkanlarından və s. istifadəsini məh-dudlaşdıran bir sıra maneələr qalmaqdadır. Bundan başqa, cəmiyyətdə üstünlük təşkil edən mövcud stereotiplər də ümumilikdə, qadınları bizneslə məşğul olmaqdan çəkindirir. Qadın sahibkarlığının inkişafını təmin edəcək düzgün proqramların və strategiyanın müəyyənləşdirilməsi qadın sahibkarlığı ilə bağlı problemləri aradan qaldırmaqdadır.

### 6. Azərbaycan Respublikasında qadınların qərar qəbuletmədə rolu və ictimai fəallığı

Azərbaycanda qadın fəallığı ənənələrinin tarixi kifayət qədər rəngarəngdir. XX əsr bütün dünyada qadınların cəmiyyətdə rolunun artması ilə muşahidə olunmuşdur. Azərbaycan qadınları istər Xalq Cümhuriyyəti dövründə və sovet hakimiyyətində, istərsə də müstəqillik illərində yaradılan imkanlardan xalqın, dövlətin, cəmiyyətin mənafeyi naminə çox səmərəli istifadə etmişlər.

Azərbaycan qadınları müstəqillik yollarında mübarizələrin daim ön sıralarında olmuş, 1988-ci ildən respublikada cərəyan

edən mürəkkəb proseslərdə kişilərlə bərabər iştirak etmişlər. 1990-cı il yanvarın 19-20-də keçmiş Sovet İttifaqının qoşun hissələrinin Bakıda və respublikanın digər şəhər və rayonlarında törətdikləri qanlı faciənin qurbanları arasında qadınlar da var idi. Erməni qəsbkarlarının Azərbaycanın ərazisinin beşdə bir hissəsini işğal etməsi nəticəsində öz doğma ev-eşiyindən didərgin düşmüş bir milyondan çox insanlar arasında qadınların sayı çoxluq təşkil edir. Qarabağ müharibəsinin nəticələrindən yaranan əsas problemlərin, o cümlədən qaçqınlıq və köçkünlük həyatının ağırlığı başlıca olaraq qadınların — anaların, bacıların, qız-gəlinlərin üzərinə düşdü. Həmişə sülhün, əmin-amanlığın çarçısı olmuş Azərbaycan qadınları respublikada baş verən mürəkkəb ictimai-siyasi proseslərin gedişində daim milli dövlətçilik mövqeyindən çıxış etmişlər.

Azərbaycan qadınları XX əsrdə qısa müddət ərzində yüzilliklərə bərabər inkişaf yolu keçmiş, onların siyasətdə və cəmiyyətdə, ictimai həyatda, ailədəki mövqeyində köklü dəyişikliklər baş vermişdir. Azərbaycanda uzun illər ərzində idarəetmə fəaliyyəti kişilərin əlində cəmləşmişdir. Son illər bununla bağlı stereotipləri bir qədər sarsıtmaq mümkün olsa da, problem hələ də tam həll olunmamışdır. Dövlət qurumlarında, idarə və müəssisələrdə kişilər əksəriyyət təşkil edir, eyni zamanda qadınlar kişilərə nisbətən rəhbər vəzifələrdə olduqca az təmsil olunurlar, bu səbəbdən onların qərarların qəbul olunmasına kifayət qədər təsiri olmur, lakin cəmiyyətdə qadınların rolu, onların inkişafa təsiri danılmaz fakt olaraq qalır. Azərbaycan Konstitusiyası qadınların kişilərlə bərabər hüququnu təsdiq edib və demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazasını yaradıb.

Azərbaycan müstəqillik əldə etdikdən sonra qadınların hüquqlarını müdafiə edən çoxsaylı beynəlxalq sənədlərə qoşulub. Onların əksəriyyəti sırf qadın hüquqlarının müdafiəsilə bağlıdır. Azərbaycanın qadın hüquqları ilə bağlı milli qanunvericiliyi həmin beynəlxalq sənədlərə uyğunlaşdırılıb. Bu sənədlər ölkədə qadın hüquqlarının təmin olunması sahəsində mühüm əhəmiyyətə malikdir. Qadınların dövlət orqanlarında fəal iştirakını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti 2000-ci il martın 6-da "Dövlət qadın siyasətinin həyata

keçirilməsi haqqında" Fərman verib. Fərmanda bütün dövlət qurumlarında fəaliyyət növü nəzərə alınmaqla, qadınların rəhbər vəzifələrdə kişilərlə bərabər təmsil olunması, Dövlət Statistika Komitəsinə qadınlar haqqında geniş məlumatların hazırlanması və yayılması, Nazirlər Kabinetinə ölkədə gedən iqtisadi islahatlar çərçivəsində həyata keçirilən işlərdə gender siyasəti tələblərini əsas tutaraq, qadınlar üçün kişilərlə bərabər imkanların yaradılması, qadınların hüquqlarının müdafiəsinin gücləndirilməsi məqsədilə qanunlarda dəyişikliklər və əlavələr edilməsi üçün təkliflər irəli sürülməsi ilə bağlı tapşırıqlar verilib. Bu Fərmandan sonra nazirlik, komitə və icra hakimiyyəti başçılarına qadınların rəhbər vəzifələrə irəli çəkilməsi tapşırılıb. Prezidenti İlham Əliyev bu siyasəti davam etdirərək əvvəlki Qadın Problemləri üzrə Dövlət Komitəsi əsasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təsis edilməsi haqqında Fərman imzalayıb. Bununla Azərbaycanda qadınların cəmiyyətdə rolunun artırılması istiqamətində yeni mərhələnin əsası qoyulub.

Milli və beynəlxalq hüquqi aktların Azərbaycanda daha effektiv həyata keçirilməsinin təmin olunması məqsədilə qəbul olunan dövlət proqramları ildən-ilə öz müsbət nəticələrini verməkdədir. Azərbaycanda qadınların hüquqlarının qorunması və onların cəmiyyətdə fəallığının artırılması istiqamətində dövlət başçısı tərəfindən imzalanan sərəncamlar və ali qanunverici orqan olan Milli Məclisdə (Parlamentdə) qəbul edilən qanunlar zərif cinsin nümayəndələrinin cəmiyyətdə özünəlayiq yer tutmasına öz töhfəsini verir. Bunun nəticəsidir ki ölkənin bütün ictimai-siyasi həyatında qadınların təmsilçiliyi artıb. Qadınların müxtəlif sənət seçmələri və müxtəlif vəzifələrdə çalışmasına heç bir sərhəd qoyulmayıb.

Azərbaycan qadını Milli Məclisin sədr müavini, İnsan Hüquqları üzrə Müvəkkil, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, habelə Konstitusiya Məhkəməsinin sədr müavini kimi yüksək vəzifələrdə təmsil olunur. Ölkənin 85 rayonu üzrə icra hakimiyyəti başçısının qadın müavinlərinin sayı artaraq 78-ə çatıb. Bələdiyyə üzvü seçilmiş qadınların sayı əvvəlki seçkilərə nisbətən artaraq, 4 faizdən 35 faizə qalxmış, 2015-ci ildə keçirilən parlament seçkilərində seçilən 125 millət

vəkilindən 21-i qadın olmuşdur. Minlərlə Azərbaycan qadını müxtəlif dövlət və qeyri-hökumət təşkilatlarında rəhbər vəzifələrdə çalışır.

Lakin bu istiqamətdə müəyyən işlər görülsə də, hələ də qadınlar hakimiyyət orqanlarında və rəhbər vəzifələrdə kişilərə nisbətən az təmsil olunurlar. Onlar daha çox qeyri-hökumət təşkilatlarında fəallıq göstərirlər.

Ekspertlər qadınların yüksək vəzifələrdə yer tuta bilməsi üçün əlverişli şəraitin və bərabər imkanların yaradılmasını vurğulayırlar. Qadınların seçkili orqanlarda iştirakı bərabərhüquqlu cəmiyyətə yol açır. Ölkədə bu sahəyə xüsusi diqqət göstərilir və mövcud maneələrin aradan qaldırılması üçün mütəmadi olaraq müvafiq tədbirlər görülür.

Beləliklə, Azərbaycanda bu məsələ özünəməxsus bir şəkildə inkişaf etməkdədir. Qanunvericiliyin gender bərabərliyi prinsipi əsasında inkişaf etməsi, ölkəmizin sürətli iqtisadi inkişafı, dünya iqtisadiyyatında rolunun artması, demokratiyanın təkmilləşməsi ölkəmizdə qadınların ildən-ilə fəallığının artmasına xüsusi zəmin yaradır.

Respublikamızda qadınların inkişafı, intellektual səviyyəsinin yüksəldilməsi, ictimai fəallığının artırılması, onların qərar qəbuletmədə, ailə, qadın və uşaq hüquqlarının müdafiəsi və həyata keçirilməsində iştirakının təmin edilməsinə yönəlmiş mühüm işlər görülməkdədir.

Ölkəmizdə həyata keçirilən dövlət qadın siyasətindən bəhs edərkən, heç şübhəsiz, Azərbaycan qadınlarına nümunə olan Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli və səmərəli fəaliyyətini göstərmək olar.

Heydər Əliyev Fondu ölkənin yaradıcı və elmi potensialının artırılmasına kömək etməyə, uşaq müəssisələrinin infrastrukturunu inkişaf etdirməyə, ekologiya sahəsində mühüm tədqiqatları dəstəkləməyə, sağlam həyat tərzini təbliğ etməyə, ölkəmizdə və xaricdə aktual mövzulara dair xeyriyyəçilik tədbirləri, konfrans və seminarlar, eləcə də, uşaqların, yaradıcı gənclərin, incəsənət xadimlərinin sərgilərini təşkil etməyə, dini tolerantlığın bərqərar olmasına, vətəndaş cəmiyyəti quruculuğuna, qloballaşan dünyaya inteqrasiya prosesində milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına dəstək verməyə öz fəaliy-

yətində prioritet məsələlər kimi yanaşır. Bir sözlə, Heydər Əliyev Fondunun fəaliyyəti ölkənin ictimai həyatının bütün sahələrini əhatə edir. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə yaradılan "Xocalıya ədalət!" beynəlxalq kampaniyası Xocalı faciəsini dünyaya çatdırmaq istiqamətində atılan ən önəmli addımlardandır. Təsadüfi deyil ki, məhz bu kampaniyaya start veriləndən sonra bir sıra ölkələrin parlamentləri Xocalı soyqırımının tanınması ilə bağlı qərarlar qəbul edib, ayrı-ayrı dövlətlərdə Xocalı soyqırımı abidələri ucaldılıb.

Mehriban xanım Əliyevanın yüksək təşkilatçılıq bacarığı sayəsində Bakıda nüfuzlu "Eurovision-2012" mahnı müsabiqəsi, "Bakı-2015" birinci Avropa Oyunları, bir çox mötəbər beynəlxalq konfranslar ən yüksək səviyyədə keçirilib. Bu da ölkəmizin dünyada tanıdılmasına və nüfuzunun artmasına xüsusi töhfələr verib.

Bir sözlə, bu gün adı cəmiyyətimizdə xeyirxahlıq, insanlara kömək, nəciblik ilə assosiasiya olunan Mehriban xanım Əliyevanın çoxşaxəli və səmərəli fəaliyyətinin Azərbaycan qadınlarının ölkənin ictimai-siyasi həyatında aktiv iştiraka marağının artmasında, cəmiyyətimizdə qadın fəallığı ənənələrinin güclənməsində rolu böyükdür.

**Tələbələrin biliklərinin qiymətləndirilməsi üçün suallar:**

1. Qadınların qərar qəbuletmədə və ictimai fəallığında hakimiyyətin rolu.
2. Emansipasiya nədir?
3. Qadınlara münasibətdə dövlət siyasətinin paternalist tipi.
4. Qadınlara münasibətdə liberal tipli dövlət siyasəti.
5. Qadınlara münasibətdə eqalitar tipli dövlət siyasəti.
6. Qadın liderliyi nədir və hansı formaları var?
7. Qadınların qərar qəbul etmədə iştirakının vacibliyinin hansı əsasları mövcuddur?
8. Qadın sahibkarlığının inkişafı.
9. Azərbaycan Respublikasında qadınların qərar qəbuletmədə rolu.

## Mühazirə 7. Gender münaqişələrinin həll olunmasının texnologiyası

1. ***Münaqişələrin tipologiyası və təsnifatı***
2. ***Gender münaqişələrinin növləri və yaranma səbəbləri***
3. ***Münaqişənin tənzimlənməsi, həlli yolları, modelləri və texnikası***
4. ***Silahlı münaqişələr vəziyyətində yaşayan qadınların hüquqları***
5. ***Münaqişələrin həllində və sülh quruculuğu prosesində qadınların rolu***

### 1. Münaqişələrin tipologiyası və təsnifatı

Bəşəriyyətin bütün tarixi inkişafı ərzində mübahisələr, toqquşmalar və müharibələr baş verib. Onları dini, mədəni, ideoloji, etnik və digər ziddiyyətlər yaradıb. Hər bir münaqişə özünə görə nadir yaranma səbəblərinə, iki və daha artıq tərəflərin qarşılıqlı təsir formasına, başlanğıcına və nəticəsinə görə təkraredilməzdir. Hər bir münaqişənin standart inkişaf sxemində toqquşmaya gətirib çıxaran bilavasitə səbəbi var. Əksər hallarda münaqişə iştirakçılarına qarşılıqlı anlaşmanı, qiymətləndirmədəki fərqləri, tərəflərin baxışlarındakı ziddiyyətləri dərk etmək müyəssər olmur.

Bir çox tədqiqatçılar münaqişələrin təsnifatını yaratmağa cəhd göstəriblər. Münaqişələrin təhlili və qiymətləndirilməsi onların qruplaşdırılması, sistemləşdirilməsi, səciyyəvi əlamətlərə, növlərə və tiplərə görə bölünməsini nəzərdə tutur. Münaqişələrin təsnifatı ona görə vacibdir ki, o, özünəməxsus ifadəolunma formalarını tapmaq və həllolunma yollarının mümkün variantını seçməyə imkan yaradır.

Tədqiqatçıların baxışlarını təhlil etdikcə, belə bir qənaətə gəlmək olar ki, istənilən münaqişəni birmənalı və tam şəkildə özündə əks etdirən vahid tipologiyanı tərtib etməkdən imtina edilib, bir neçə təsnifatın mümkünlüyü ideyası qəbul olunub.

Hər bir münaqişə yetişəndən, açıq toqquşma şəklinə düşəndən sonra öz qanunları üzrə inkişaf etməyə başlayır. Münaqişələrin dinamikası və inkişaf tendensiyaları (meylləri) bir sıra amillərlə müəyyən olunur: onları yaradan səbəb və şəraitin

mürəkkəbliyi dərəcəsi, iştirakçıların emosional təəssüratlanma dərəcəsi; öz məqsədlərinə nail olma tələblərinin ödənilməsi üçün real imkanlar, tərəflərin maddi, maliyyə, təşkilati vasitələrinin olması; onların qarşılıqlı güzəştlərə getmək hazırlığı; xarici amillərin təsiri və s.

Sosioloqlar münaqişələrin makro və yaxud mikro səviyyələrinə, sosial-iqtisadi, milli-etnik və siyasi formalarına daha çox diqqət yetirirlər. Hüquqşünaslar sistemdaxili və sistemdənkənar münaqişələri və onların ifadəolunma sahələrini fərqləndirirlər. O cümlədən ailə-məişət, mədəni, sosial-əmək, bunlarla yanaşı, bazar iqtisadiyyatı şəraitində yaranan təsərrüfat, maliyyə, əmlak və mülkiyyət münaqişələrini idarəetmə konfliktologiyasının da öz yanaşması var. Burada münaqişələrin əsas elementləri, onların ifadəolunma, inkişafı və idarəolunması üsullarının müxtəlifliyini daha aydın təsəvvür etmək zəruridir.

Bir çox alimlər münaqişələrin təsnifatında sistemli yanaşmadan istifadə edirlər. Bu yanaşmaya görə, sistemdə məqsədə nail olmaq üçün müəyyən vasitələr istifadə olunur, yəni sistemin elementləri müəyyən funksiyaları icra etməklə, sistemli məqsədlərə nail olmağa çalışır. Struktur-funksional təhlil nəzəriyyəsinin nümayəndələri (T.Parsons, R.Merton, K.Devis və b.) sosial sistemin sabitliyini təmin edən strukturları və mexanizmləri öyrənərkən, sistemlərdə, az ya çox dərəcədə münaqişələrlə bağlı olan struktur və funksiyaların tipologiyasını yaradıblar.

T.Parsons sistemdə dörd labüd tələb irəli sürür: xarici faktorlara adaptasiya (uyğunlaşma), qarşıya məqsəd qoymaq, sistemin elementləri arasında münaqişəsiz vəziyyəti qoruyub saxlamaq (inteqrasiya), institusional (sosial institutların normalarına riayət etmək), normativ göstərişlərin yerinə yetirilməsi.

T.Parsonsdan fərqli olaraq, R.Merton öz diqqətini funksiyaların pozulması hallarına yönəldib, pozulmasının səbəbini o, sosial strukturlarda yaranan ziddiyyətlər və gərginliklərdə görürdü. O, öz “Sosial struktur və anomiya” əsərində fərdlərin cəmiyyətə uyğunlaşmasının beş növünü qeyd edir: konformizm (tam uyğunlaşmaq, öz formasını itirmək), innovasiya (yeniliyi axtarmaq), ritualizm (adət-ənənəyə riayət etmək), retritizm (qaydalara riayət etməmək, reallıqdan qaçmaq) və qiyam. Hər bir qeyd edilən, növündən kənarlaşmaq – ya hakimiyyət, ya da

reprezentativ adlanan (yəni nümayəndəsi olduğu) qrupla münaqişənin qaçılmazlığını təsdiqləmək deməkdir.

Münaqişələrin sistemdaxili və sistemdən kənardakılarla bölgüsünün həm idraki, həm də praktiki əhəmiyyəti var. Xüsusilə sistemdaxili sosial ziddiyyətlər üzərində qurulan münaqişələr əhəmiyyətlidir. L.Kozer hesab edirdi ki, cəmiyyəti rigidli (qapalı) və plüralist (açıq) növlərə bölmək olar. Rigidliyə görə, cəmiyyətlərdə böyük qruplar öz maraqlarına inqilabı zorakılıq yolu ilə, plüralizm cəmiyyətlərində isə – müxtəlif sosial institutlar vasitəsilə nail olurlar. E.Giddinsin mövqeyi də bu mənada müəyyən maraq kəsb edir. Onun fikrincə, cəmiyyətin hər bir ayrılıqda götürülmüş növündə, hökmranlıq və istismar formaları plüralizmi (müxtəlifliyi) ilə səciyyələnir; burada vahid empirik prinsip mümkün deyil, sinfi istismarla yanaşı, digər istismarçı münasibət növləri də var: dövlətlər, etnik qruplar, qadın və kişilər arasındakı cinsi əlamətə görə istismar və s. Beləlilkə, sistemdaxili ziddiyyətlər münaqişələrin tipologiyasının əsasında dura bilər.

K.Bouldinqin münaqişələrin ümumi nəzəriyyəsinə görə, ictimai münaqişələr, tərəflərin təşkilolunma səviyyələrinə görə üç böyük qrupa bölünür. Bu səviyyələrə uyğun təsnifat da verilir: fərdlər arasında münaqişələr; məkanda müəyyən ərazidə yerləşən qruplar arasında sərhədyanı münaqişələr; məkanda toqquşan qruplar arasında ekoloji münaqişələr; fərdlər və təşkilatlar, fərdlər və qruplar arasındakı münaqişələr və s.

A.Rapoportun ümumi münaqişələr nəzəriyyəsində isə üç başlıca növ və eyni zamanda münaqişələrin üç səviyyəsi göstərilir: müharibə, oyun və mübahisə. Müharibə axıra qədər, qələbəyəcən aparılan, istənilən, o cümlədən zorakı vasitələrin istifadəsinə yol verən güzəştsiz mübarizədir. Oyun qabaqcadan müəyyən edilmiş qaydalar üzrə münaqişənin həlli üçün görülən tədbirlərdir; nəticədə qalib gələn tərəf, mühüm, lakin həyati əhəmiyyəti olmayan üstünlüklər qazanır. Mübahisə zamanı yalnız dinc vasitələrdən istifadə olunur; məqsəd - digər tərəfin razılığının qazanılmasıdır.

Məşhur amerikalı politoloq Robert Dal da (1915-2014) münaqişələrin maraqlı tipologiyasını tərtib edib. Onun fikrincə:

- ikiqütblü və çoxqütblü (münaqişənin iştirakçılarının sayı-

na görə) münaqişələr;

- kumulyativ (güclənən) və çarpazlaşan (münaqişə iştirakçılarının tərkibində oxşar və ya fərqli cəhətlərin olub-olmamasından asılı olaraq) münaqişələr;

- iştirakçılar arasında ziddiyyətlərin şiddətliliyinə görə qütbləşməyə və bölünməyə gətirib çıxaran münaqişələr mövcuddur.

Qütbləşmə dedikdə, cəmiyyətin iki bir-birinə zidd olan qruplara dərindən parçalanması nəzərdə tutulur; bu zaman ziddiyyətin dinc vasitələrlə həlli artıq mümkün deyil.

Bölünmə (seqmentləşmə) variantı – cəmiyyətin, müxtəlif mənafe və dəyərlərə görə fərqlənən qruplara bölünməsi müşahidə edilir, bununla da belə cəmiyyətdə sabitlik, qarşılıqlı güzəştlər, danışıqlar və məsləhətləşmələr sistemi vasitəsilə təmin olunur. Cəmiyyətin ictimai-siyasi əsaslarını laxlatmayan münaqişələrin inkişafı mövcud siyasi sistemin institutları hüdudlarında baş verə bilər. Əslində belə münaqişələr tərəflərin müəyyən razılığı əsasında kompromisə, yəni qarşılıqlı razılaşmaya çevrilə bilər.

Ümumiyyətlə, münaqişələri müxtəlif əsaslara görə fərqləndirmək olar, məsələn, səbəbə, tərəflərin tərkibi, inkişaf dinamikası, onların fəaliyyət formaları, sosial məqsədlər və nəticələrə görə və s. Münaqişələr daha çox aşağıdakı meyarlar əsasında qiymətləndirilir: münaqişənin tərəfləri, münaqişəyə gətirib çıxaran tələbatların məhdudlaşdırılması; münaqişənin istiqaməti, yönümü; münaqişənin zaman hədləri. Tərəflərdən asılı olaraq, münaqişələr şəxsiyyətdaxili, şəxsiyyətlərarası, qrupdaxili (şəxsiyyət və qrup arasında), qruplararası, beynəlxalq və s. münaqişələrə bölünür.

Şəxsiyyətdaxili münaqişə – insanın daxili aləmində əmələ gələn ən mürəkkəb psixoloji münaqişələrdən biridir. Şəxsiyyətdaxili münaqişə – şəxsiyyətin daxili aləmində bir-birinə zidd olan motivlərin (tələbatlar, maraqlar, dəyərlər, məqsəd və ideallar) toqquşması deməkdir. Şəxsiyyətdaxili münaqişə o zaman yaranır ki, insana qarşı müxtəlif xarakterli, çox vaxt ziddiyyətli tələblər irəli sürülür, bu tələblər isə onun şəxsi tələbatları və yaxud dəyərləri ilə uzlaşmır. Şəxsiyyətdaxili münaqişənin səbəbləri iki növ olur: daxili (şəxsiyyətin özündə mövcud

olan ziddiyyətlər); xarici (sosial qrupda və cəmiyyətdə şəxsiyyətin mövqeyi). Z.Freydin psixoanaliz nəzəriyyəsində şəxsiyyətdaxili ziddiyyət, "O" və "Fövqəl-Mən" (yəni instinktiv yönümlər, əxlaqi duyğular və tələbatlar) arasında mövcud olan ziddiyyətin nəticəsində yaranır. Psixoanaliz nəzəriyyəsinin hədlərində şəxsiyyətdaxili münaqişə nəzəriyyəsini K.Yunq, A.Adler, K.Horni və digərləri işləyib hazırlamışlar.

Ən geniş yayılmış psixoloji münaqişələr sırasında şəxsiyyətlərarası münaqişələri göstərmək olar. Belə münaqişələr əslində cəmiyyətdə bütün fəaliyyət sahələrini əhatə edir. Alimlər haqlı olaraq qeyd edirlər ki, şəxsiyyətlərarası münaqişə – insan nəslinə xas olan ən qədim xüsusiyyətlərdən biridir. Şəxsiyyətlərarası münaqişələr - qarşılıqlı fəaliyyət quran subyektlərin açıq qarşıdurmasıdır. Şəxsiyyətlərarası subyektlər – öz maraqlarını müdafiə edən, məqsədlərinə nail olmağa çalışan iştirakçılardır. Münaqişənin obyekti – onun iştirakçılarının nəyə isə meyl saldıqları zaman yaranır. Bu, həmin məqsəddir ki, qarşıdurma iştirakçılarının hər biri ona nail olmağa çalışır. Belə vəziyyətdə münaqişənin predmeti isə – subyektlərin əks maraqlarını ifadə edən ziddiyyətlərdir.

Qrup münaqişələri - qarşıdurma tərəflərindən heç olmasa biri kiçik qrup olduğu təqdirdə yaranır. Belə qarşıdurma bir-birinə zidd mövqeli qrup motivləri əsasında yaranır. Qrup münaqişələrinin iki əsas növünü göstərmək olar: qrupdaxili ("şəxsiyyət-qrup" münaqişəsi); qruplararası ("qrup-qrup" münaqişəsi). Qrupdaxili münaqişənin "şəxsiyyət-qrup" növü şəxsiyyətlərarası münaqişədən əsaslı şəkildə fərqlənmir, burada fərq onun çoxölçülü olmasındadır.

Qrupa bir çox münasibətlər daxildir, burada formal və yaxud qeyri-formal lider var və s. Münaqişənin şəxsiyyətdaxili və şəxsiyyətlərarası səbəblərinə qrup təşkilatı ilə müəyyən edilən səbəblər də əlavə olunur. Şəxsiyyət və qrup arasında münaqişələr qrupun daxilində mövcud olan qarşılıqlı münasibətlərin inkişafı nəticəsində yaranır, bəzən burada özünəməxsus xüsusiyyətlər də yaranır. Birinci xüsusiyyət münaqişənin strukturu ilə bağlıdır; münaqişə ilə bağlı fəaliyyət şəxsi və qrup motivlərinin toqquşması əsasında aparılır. İkinci xüsusiyyət – nəzərdə tutulan münaqişənin səbəblərinin mahiyyətini özündə əks

etdirir. Səbəblər isə bilavasitə fərdin qrupda mövqeyi ilə bağlıdır; bu mövqeyi “vəziyyət”, “status”, “daxili mövqe”, “rol”, “qrup normaları” kimi anlayışlar xarakterizə edir. Şəxsiyyət və qrup arasında yaranan münaqişələrin səbəbləri birbaşa rol gözləmələri ilə bağlıdır; şəxsiyyətin statusuna daxili mövqe (“gözləmə”) uyğun gəlməyəndə, rol gözləmələri pozulanda münaqişə baş verir. Üçüncü xüsusiyyət – öz əksini hər hansı bir münaqişənin ifadəolunması formalarında tapır; məsələn, qrup tərəfindən sanksiyalar (cəza tədbirləri) tətbiq olunur, qrupun üzvləri münaqişədə olanla qeyri-formal ünsiyyəti kəsirlər; münaqişə edəni kəskin şəkildə tənqid edirlər, bəzən onda eyforiya (yüksək əhval-ruhiyyə) yaranır və s. Qruplararası münaqişə – əks mövqeli qrup motivlərin, maraqların, dəyərlər və məqsədlərin toqquşması nəticəsində yaranır. Belə münaqişələrin səciyyəvi cəhəti məhz qeyd edilən xüsusiyyətdir. Münaqişələrin belə növü müxtəlif ölçüdə (kiçik, orta, iri) qruplar arasında ola bilər. Hansısa məhdudlaşdırılan tələbat səbəbindən əmələ gələn münaqişələri maddi, status və rolla bağlı olan, mənəvi kimi növlərə bölmək olar.

Münaqişələrin istiqamətlənməsinə görə onlar üfqi (partnyorlar, həmkarlar arasındakı) və şaquli (tabeçilikdə olanlar və müdiriyyət arasında) olanlara bölünür.

Zaman hədlərinə görə münaqişələr qısamüddətli, ötkəm, uzunmüddətli (məsələn, dövlət, milli, dini) olur. Nəticə etibarilə ölçülən meyara görə münaqişələr iki yerə bölünür:

1. düşünülmüş, normal, müsbət nəticələr; bu zaman qruplar öz bütövlüyünü saxlayır, qruplararası münasibətlər əməkdaşlıq və kooperasiya xarakteri daşıyır;

2. dağıdıcı, patoloji (xəstəliyə bənzər), neqativ (mənfi) xarakter daşıyan nəticələr; burada insanlar arasında qarşılıqlı münasibətlər qeyri-sivil (qeyri-normal, qeyri-insani) xarakter alır, qarşıdurma və mübarizə ilə nəticələnir.

Sosial əlaqələr mürəkkəb olduqca, fərdlərin qarşılıqlı münasibətlərində əməkdaşlıqla yanaşı, rəqabət, psixoloji qarşıdurma, mənafelərin əks olduğu və məqsədə nail olmaq yollarının müxtəlifliyi də özünü biruzə verməyə başlayır. Bu kimi ziddiyyətlərin kəskinləşməsi, onların intensivləşməsi son nəticədə fəal qarşıdurmaya, münaqişələrə gətirib çıxarır.

Münaqişələr çox geniş yayılsa da, müvəqqəti hadisədir. Nəzərə almaq lazımdır ki, cəmiyyətin sabit xassələri – razılıq, əməkdaşlıq, partnyorluq, dostluq və sevgi münasibətləridir.

### 2. Gender münaqişələrinin növləri və yaranma səbəbləri

Qadın və kişilərin cəmiyyətdə qəbul olunmuş normalara uyğun davranışı haqqındakı təsəvvürlər və ayrı-ayrı insanların ya qrupların bu təsəvvürlərə uyğun gəlmək arzusunda olmaması, ya da, bacarmaması arasındakı ziddiyyətin əsasında gender münaqişəsi yaranır. Makrosəviyyədə gender münaqişəsi sosial münaqişə kimi qiymətləndirilməlidir. Sosial münaqişənin əsasında öz məqsədlərinə nail olmaq uğrunda mübarizə aparan sosial qruplar durur. Yəni makrososial səviyyədə gender münaqişəsini mənafelər münaqişəsi kimi, cəmiyyətdə daha yüksək statusa (mövqeyə) nail olmaq arzusunda olan qadınlar sosial qrupunun mübarizəsini göstərmək və qiymətləndirmək olar. Məlumdur ki, tarix boyu cəmiyyətlərdə qadınların statusu kişilərə nisbətən çox aşağı olub. "Sosiologiya" əsərində E.Qiddens qeyd edir ki, "indiyə qədər qadınların səlahiyyətləri kişilərinkindən üstün olan cəmiyyət tapılmayıb".

Cəmiyyətdə kişilərin üstünlük təşkil etdiyi ictimai fəaliyyət sahələri və qadınların üstünlük təşkil edən xüsusi sahələr arasında tarazlıq yaradılmayıb. Qadınların analıq funksiyası, əvvəllər olduğu kimi, ev və ailə işinin təşkilində məsuliyyətin onların üzərinə qoyulması üçün əsas səbəbdir. Nəticədə, kişilərin işlədiyi əsas sahələr – beynəlxalq diplomatiya, silahlanma məsələləri, qiymətli kağızlar bazarında əməliyyatlar, dövlət büdcəsinin paylanılması – çox hallarda qadınlar üçün əlçatmaz olaraq qalır. Beləliklə, dövlətin idarəolunması işi bilavasitə kişilərin üzərindədir, onlar bütün ölkələrin hökumətlərində və parlamentlərində çalışanların əksəriyyətini təşkil edir. Bu isə, öz növbəsində, onların öz mənafelərini ödəmək işi ilə bağlı olan dəyərlər sisteminin üstünlüyünə gətirib çıxarır.

Genderin çoxşaxəli quruluşu dörd qrup keyfiyyətlə xarakterizə olunur: bioloji cins, gender stereotipləri, gender normaları və gender identikliyi (bənzədilməsi). Gender identikliyi – şüurun bir aspektidir (cəhətidir). Burada insan özünün

müəyyən cinsin nümayəndəsi olduğunu dərk edir. Bu xüsusiyyət şəxsiyyəti müəyyən edən başlıca amildir; o, kişi və ya qadın cizgilərinin psixoloji interiorizasiya (mənimsəmə) nəticəsində yaranır, sosiallaşma prosesi zamanı əmələ gəlir. İnsanın sosiallaşmasının istiqamətlərindən biri – onun öz cinsi mənsubiyyətini dərk etməsi və gender identikliyinin formalaşmasıdır.

Gender sosiallaşması prosesi müxtəlif sosial və mədəni vasitələrlə müəyyən olunur və istiqamətləndirilir. Bunun üçün hər bir cəmiyyətdə müəyyən gender rolları mövcuddur. Sözün geniş mənasında rol, şəxsiyyətlərarası sistemdə insanların davranış tərzini müəyyən edir; davranış tərzi isə öz növbəsində mövcud cəmiyyətdə qəbul olunmuş normalar, qaydalar və gözləmələr toplusuna uyğundur və insanların cəmiyyətdə tutduqları mövqedən asılı olur. Gender rolu dedikdə, insanın kişi və ya qadın statusuna aidiyyatını bildirən sosial standartlar və stereotiplər sisteminə uyğunluğu nəzərdə tutulur. Stereotip – qrupdakı insanların şəxsi keyfiyyətləri haqqında rəydir; bu rəy qeyri-dəqiq və həddindən artıq ümumiləşdirilmiş ola bilər. Stereotiplər (o cümlədən gender) tez-tez insanlar haqqında həddindən artıq şərti və sadələşdirilmiş təsəvvürlər yaradır, digər insanlar haqqında gözləmə və mövqelər müəyyən edir, həm də formalaşdırır. Hətta şəxsiyyətin özü haqqındakı təsəvvürlər də stereotiplərlə sıx əlaqədə ola bilər. Öz bacarıqlarını aşkarlayan qadın imkanlarını realizə etmək yolunda, tez-tez qadının cəmiyyətdə yeri və rolu haqqındakı təsəvvürlərlə toqquşur və münaqişəli vəziyyətə düşür; ola bilsin ki, burada özü bir şəxsiyyət olaraq, öz-özü ilə də qarşıdurmaya çıxır. Qadınlar özlərinə qarşı hədsiz tələbkarlıqla, işə qəbul zamanı işdə vəzifə paylananda hüquqlarının pozulması ilə rastlaşırlar. Bütün bunlar qadınları özünü ifadə etmək imkanından məhrum edir, müxtəlif münaqişələrə gətirib çıxarır.

Gender stereotipləri kişilərə də mənfi təsir göstərir. Onlardan da çoxu müvəffəqiyyətin rəmzləri sayılan normalara (status, fiziki, zehni sabitlik, “antiqadınlıq”) uyğun gəlmir, nəticədə stress yaranır, əvəz çıxmaq arzusu irəli sürülür: onlar çalışır ki, emosiyalara varmasınlar, öz cinsindən olanlara fobiya (qorxu) göstərirlər, rəqabətə, müvəffəqiyyətə nail olma meylini beynlərindən çıxara bilmirlər.

Gender rollarının sosial-psixoloji təhlili, şəxsiyyətlərarası, şəxsiyyətdaxili rollarla bağlı münaqişələr kimi psixoloji problemlər haqqında düşünməyə imkan verir. Hər hansı bir sosial rolu yerinə yetirən fərdin davranışı gözlənilən nümunəyə uyğun gəlirsə, o uğurlu sayılır. Fərd vəzifələri (rolları) lazımi qaydada yerinə yetirmək üçün bir sıra amilləri nəzərə almalıdır: öz rolunu bilməsi; yerinə yetirilən rolun əhəmiyyətli olması; üzərinə götürdüyü rolun öhdəsindən gəlmək, öz real davranışını düşünüb təhlil etmək bacarıqları. Rolun yerinə yetirilməsində yaranan qüsurlar münaqişəyə səbəb ola bilər. Müəyyən bir cinsin nümayəndələri, sosial rollarında gender stereotipləri olduqda, həm də gender münaqişələrinin yaranmasına zəmanət alırlar (ilk növbədə şəxsiyyətdaxili səviyyədə). İnsan bir-birinə zidd olan müxtəlif təsəvvürlər, motivlər, davranış modelləri ilə üzləşərək, öz daxilində müəyyən bir vəziyyətə düşür. Qadınların rol davranışına olan ənənəvi normativ tələblər və onların həyat fəaliyyətində yaranan real situasiyanın qarşıdurmasının ən parlaq ifadəsi – sosial-psixoloji ədəbiyyatda "işləyən qadının rol münaqişəsi" adlanan fenomendir. Bu münaqişə qadının çoxsaylı sosial rolları yerinə yetirməsi ilə bağlıdır; onun nə vaxtı, nə gücü bu rolların mükəmməl yerinə yetirilməsi üçün çatmır. İşləyən qadının rol münaqişəsi – onun, peşəkar və ailə sahələrində rolların öhdəsindən gəlməsinə mənfi qiymət verilərkən yaranan subyektiv mənfi təəssüratlar kompleksidir. Rol münaqişəsinin ən biruzə verən, dağıdıcı təsirə malik olan göstəricisi – qadında öz rollarını qavramaq tərzindən irəli gələn günahkarlıq hissinin yaranmasıdır. Günahkarlıq hissi çox sabit, davamlı və ifadəli olur – qadının uşaqlara, ərinə, işinə, özünə olan münasibətlərində bu hiss özünü biruzə verir. Şəxsiyyətdaxili gender münaqişələrinin ehtimalı o zaman artır ki, insan, öz arzu və istəklərinin əksinə olaraq, müəyyən sosiomədəni göstərişlərə əməl edir ("kişi belə özünü aparmaz", "qadın belə etməz"). Kişilər öz həyatlarında yeganə və ən əsas meyarı — peşəkarlıq fəaliyyəti mənsəbinə çatmağı nəzərdə tutduqları üçün işi itirəndə və yaxud təqaüdə çıxanda ekzistensial (köhnə lt. *exsistentia* – insan mövcudluğu) münaqişəsi vəziyyətinə düşürlər. Qadınlar isə sırf qadın vəzifəsini, yəni ana olmaq, evin ocağını qorumaq vəzifəsini reallaşdırarkən, artıq böyümüş

uşaqlarının, ailəsindən psixoloji cəhətdən ayrıldığı zaman belə böhran vəziyyətinə düşürlər. Ekzistensial münaqişə, həyatın adi axarını pozaraq, insanı öz ömrünə yenidən qiymət verməyə vadar edir. Belə münaqişənin öhdəsindən gəlmək onun üçün həyati əhəmiyyət kəsb edir, nəticədə isə həyatda hansısa yeni keyfiyyətlər, yeni şərait meydana gəlir.

Gender münaqişələrinin növləri və ifadəolunma sahələri müasir dünyada baş verən sosial-iqtisadi və siyasi dəyişikliklər, ictimai həyatın sərt templəri qadınlardan və kişilərdən bir sıra şəxsi keyfiyyətlərinin səfərbər olunmasını tələb edir. Münaqişə subyektlərinin vəzifəsi – həddindən artıq kəskinləşmiş ziddiyyətləri dəf etmək, maraqlar, qiymətləndirmə və məqsədlərin ciddi şəkildə fərqlənməsi şəraitində yaranmış qarşıdurmadan optimal çıxış yolunu tapmaqdır.

Əsrlər boyu "qızıl qayda" tapılmışdır: hər bir insan, digər insanlarla münasibətlərində loyallığı (başqasının mövqeyinə hörmət), dözümlülüyü, xoş məramını, ədalətliliyi ifadə etməlidir; ümumiyyətlə insanlar öz münasibətlərini qarşılıqlı etibarlılıqda, sözdə və işdə bütöv olması əsasında qurmalıdırlar. Məlumdur ki, insanlar istər işgüzar, istərsə də şəxsi müstəvidə olan münasibətləri yalnız tərəflərin qarşılıqlı güzəştli olmaq və səbirlilik, əməkdaşlıq, münaqişə və ziddiyyətlərin həllinə meyllilik əsasında qurmalıdırlar. Lakin insanlar həm də digərləri ilə qarşılıqlı fəaliyyət zamanı bəzən elə bir münasibət qururlar ki, nəticədə ziddiyyət və gərginlik, barışmazlıq və düşmənçilik yaranır.

Gender münaqişəsində yaranan hər hansı bir ziddiyyət kişi və qadın arasında gedən mübarizənin təzahürü kimi qiymətləndirilir; nəticədə kimsə (əksər hallarda kişi) mütləq qalib gəlməlidir. Münaqişə iştirakçısı bütün mümkün vasitələrdən istifadə edir ki, öz istədiyinə nail olsun, maksimum dərəcədə arzuladığını əldə etsin, partnyorun üzərində üstünlüyə malik olsun. Əksər kişilər daha çox üstünlük qazanmağa meyllidir, qadınlar isə – daha çox asılılıq və tabeçilik əqidələrində qalırlar. Müasir psixoloqlar insanın gələcəyini, qarşılıqlı fəaliyyətdə partnyorluq əlaqələrinin bərqərar olması ilə bağlayırlar. Cəmiyyət, hökmranlıq, hakimiyyət, vəzifə, mövqe uğrunda mübarizənin nəticəsində məhv ola bilər. Gender yanaşması mütərəqqi tərzdə

düşünən psixoloqlara imkan verir ki, onlar bərabərhüquqlu, qarşılıqlı əməkdaşlıq fəaliyyəti prinsipinə əsaslanan universal insan psixologiyasını yaratmış olsunlar.

### 3. Münaqişənin tənzimlənməsi, həlli yolları, modelləri və texnikası

Psixologiya üzrə ədəbiyyatda münaqişəli vəziyyətdə səmərəli və səmərəsiz davranış üsulları təsvir edilib. Səmərəli üsullara – əməkdaşlıq, kompromis (qarşılıqlı güzəşt), qarşılıqlı anlaşma, səmərəsizlərə isə – rəqabət, düşmənçilik, uyğunlaşma və boyunqaçırma kimi üsulları aid etmək olar.

Müasir filosoflar, sosioloqlar, psixoloqlar "qarşılıqlı anlaşmanı" müxtəlif şəkildə şərh edirlər. Qarşılıqlı anlaşma – bir-birinə yanaşmada rolların qəbul edilməsi kimi; qarşılıqlı anlaşma – imkan və bacarıqların və özünü qiymətləndirmənin qarşılıqlı qəbul edilməsi kimi; qarşılıqlı anlaşma – müxtəlif insanların dünyaya və eyni dəyərə baxışlarının üst-üstə düşməsi, oxşarlığı və ya sadəcə səs uyğunluğudur və s. İnsanlar arasında nisbi ünsiyyət üslubu özünü aparmaq qaydası, fəaliyyət obrazını fərqləndirən xarakterik üsulların toplusu, daha doğrusu, bu halda münaqişəli vəziyyəti aradan qaldırmaq, münaqişəyə gətirib çıxaran problemləri həll etmək yoludur.

İnsanlar arasında bütün əlaqələr kimi, münaqişələr də ictimai davranış normaları ilə nizama salınır. Bunun üçün müxtəlif növ normalar fəaliyyət göstərir: əxlaqi, dini, hüquqi, siyasi. Münaqişəni nizama salmaq üçün normadan istifadənin özünəməxsus xüsusiyyətləri var, belə ki, onlar spesifik şəraitdə, tərəflərin mübarizəsi prosesində fəaliyyət göstərir. Münaqişələrin nizama salınmasında insan davranışının əxlaqi normaları daha böyük əhəmiyyət daşıyır. Onların nöqteyi-nəzərində münaqişə və bu münaqişənin iştirakçıları əxlaqi qiymətlər alır. Amma bu qiymətlər birmənalı deyil, bəzən isə tamamilə fərqli, hətta ziddiyyətlidir. Münaqişə situasiyaları dini normalarla da nizama salına bilər. Bu dini qaydalar dini münasibətlərdən başqa, vətəndaş həyatının nikah, ailə, təhsil və s. sahələrinə siraət edən dinlərə xüsusilə xas olandır. İctimai münasibətlərin dəyişilməsi müvafiq olaraq, həm də fərdlər, müxtəlif sosial qruplar və təbəqələr arasında, kişilər və qadınlar arasında yeni müna-

sibətlərə keçidi tələb edir.

Əvvəldə qeyd etdiyimiz kimi, cəmiyyətdə münaqişələr qaçılmazdır. Birgə ictimai və şəxsi həyat prosesində insanlar arasında əks istiqamətlənmiş tələbatlar, maraqlar, məqsədlər, ideallar, rəylər və s. əsasında onların qarşıdurması ilə xarakterizə edilən münasibətlər formalaşır. Bu, bütün cəmiyyətlərdə təbii və normal hadisələr kimi qəbul edilib. Münaqişəyə yanaşmada xüsusi mövqeyi məşhur fransız sosioloqu Alen Turen (1925-ci il) göstərir. Müəllif 1984-cü ildə yazdığı "Fəaliyyətdə olan insanın qayıdışı" (Le Retour de l'acteur) kitabında qeyd edir ki, postsənaye cəmiyyətinə keçid şəraitində subyektin fəaliyyət göstərən şəxs kimi fəallığı, cəmiyyətin münaqişələr vasitəsilə özünütəşkil etmək bacarığı və ictimai hərəkat zəruridir. Sosioloq qeyd edir: "fəaliyyət göstərən şəxsin öz tərəfindən öz qarşılıqlı təsir sahəsinin idarəsinə can atdığı dərəcədə münaqişə əhəmiyyət daşıyır və real ictimai münaqişə kimi özünü təsdiq edir". Daha sonra o əlavə edir: "Konflikt nə ziddiyyət, nə də qiyam deyil, cəmiyyətin özünüifadə formasıdır, münaqişə sosial gerçəkliyin hər hansı bir sferası ilə bağlı deyil, o, hər yerdə və ictimai həyatın bütün sahələrində qəbul edilməlidir". Amma ictimai inkişaf prosesində münaqişə həmişə əməkdaşlıq, partnyorluq və razılaşma ilə qarşılıqlı əlaqəli olub.

Əməkdaşlıq münaqişə iştirakçıları tərəfindən maraqların reallaşmasına yönəlib, bütün tərəflərin məqsədlərinə cavab verəcək qərarın birgə axtarılmasıdır. Münaqişənin cəmiyyət həyatının normal hadisəsi kimi, həmçinin hər hansı tərəfə ziyan vurmadan, bu və ya digər problemi həll etmək ehtiyacı kimi qəbul edildiyi hallarda əməkdaşlıqdan istifadə olunur. Münaqişə situasiyalarında, o cümlədən genderlə bağlı münaqişə situasiyalarında əməkdaşlıq aşağıdakı hallarda mümkündür:

- fikir ayrılığı yaradan problem münaqişə tərəfləri üçün çox önəmlidir və heç biri onun birgə həllindən boyun qaçırmaq niyyətində deyil;
- tərəflər təxminən eyni mövqeyə malikdirlər və ya öz mövqeləri arasındakı fərqə heç diqqət yetirmirlər;
- son nəticədə bütün problemlər üzrə mühüm faydalı qərara dair tam razılığa gəlmək məqsədilə tərəflər mübahisəli məsələləri könüllülük və bərabərhüquqluluq əsasında müzakirə etmək

istəyirlər;

▪ tərəflər partnyorlar kimi hərəkət edir, bir-birinə etibar edir, opponentlərinin tələbləri və dəlillərinin üstünlüyü ilə hesablaşırlar.

Əməkdaşlığın faydası şübhəsizdir: hər bir tərəf minimal itki ilə maksimum xeyir götürür. Ümumi səyin mükafatı isə konstruktiv, hamını qane edən nəticə, münaqişədən birgə tapılmış optimal çıxış yolu, həmçinin qarşılıqlı partnyorluq əlaqələrinin möhkəmlənməsi olur.

Münaqişə iştirakçıları arasındakı ziddiyyətin nizama salınması üzrə qarşılıqlı güzəştlər əsasında razılaşma, öz maraqlarının qismən ödənilməsinə nail olmaq kompromisi kimi müəyyən edilir. Kompromisin üslubu adətən münaqişəyə mane olması, münaqişəyə cəlb olunmuş hər bir tərəfin iddialarını qismən də olsa ödəməyə imkan verməsi baxımından daha üstün tutulur. Münaqişə iştirakçıları kompromisə aşağıdakı hallarda müraciət edirlər:

▪ münaqişə subyektləri onun səbəbləri və inkişafı haqqında yaxşı xəbərdardırlar;

▪ səviyyə etibarilə bərabər olan tərəflər üçün yaranmış vəziyyəti barışmağın və təzyiqə fasilə verməyin zəruriliyini başa düşürlər;

▪ səviyyə etibarilə müxtəlif olan tərəflər vaxt udmaq və güclərini qoruyub saxlamaq üçün saziş əldə etməyə meyl göstərirlər;

▪ yaranmış vəziyyəti qiymətləndirən tərəflər münaqişə prosesində baş vermiş dəyişiklikləri nəzərə almaqla öz məqsədlərinə düzəlişlər edirlər;

▪ digər bütün davranış üslubları bu münaqişədə səmərə vermir.

Ümumiyyətlə, münaqişələri öyrənən alimlərin fikrincə, kompromis bacarığı – reallıq və yüksək ünsiyyət mədəniyyətinin əlamətidir. Lakin ehtiyac olmadan ona müraciət etmək, kompromis qərarların qəbuluna tələsmək və bununla konsensusa, daha doğrusu, birgə duyğu və fikirlərə, qarşılıqlı anlaşmaya gətirib çıxara bilən mürəkkəb problemlərin ətraflı müzakirəsini kəsmək deyil. Konsensus – istənilən cəmiyyətin xeyli sayda insanlarının sosial nizamının daha mühüm aspektlərinə

dair fəaliyyətlərdə ifadə edilən razılaşmasıdır. Konsensus – demokratiyanın universal prinsipi olub, ziddiyyət və münaqişələri həll etməyə və qarşısını almağa, cəmiyyətdə, kollektivdə, sosial qrup və təbəqələrdə gərginliyin aradan qaldırmasına imkan verir. Konsensusun effektivliyi hakimiyyətin, resursun, güzəştin, mükafatın ədalətli və bərabərhüquqlu bölgüsünün iştirakından, cinsindən, sosial vəziyyətindən və ya dinindən asılı olmadan insanların mədəniyyət və şüur səviyyəsindən asılıdır.

Münaqişələrin əsasında obyektiv və subyektiv amillər durur. Obyektiv amillərə cəmiyyətin müxtəlif qruplarının can atdıqları sərvətlər və nemətlər qıtlığını aid etmək lazımdır. Dövlət kimi institutun yaranmasının səbəbini məhz burada axtarmaq lazımdır. Bu sahədə yaranan "ilkin" toqquşmaları dövlət məcburi şəkildə tənzimləməyə başladı. Nəticədə cəmiyyətdə yaranmış müxtəlif qrupların qeyri-bərabər vəziyyəti hələ də aradan qaldırılmayıb. Münaqişələrin yaranmasında subyektiv şərtlərə sosial subyektlər tərəfindən öz məqsədlərinin uyğunsuzluğunun dərk edilməsi daxildir. Münaqişələrin kökü o zaman kəsilərdi ki, cəmiyyət, ictimai nemətlərin bölüşdürülməsində qismən də olsa ədalətliliyə, sosial bərabərliyə nail olmuş olsun. Münaqişənin yaranmasına səbəb ola biləcək mühüm amil onun şəraitidir. Münaqişə iştirakçıları onun mikromühitini təşkil edir. Bununla belə münaqişənin yaranması və inkişafında makro mühitin rolu da böyükdür. Söhbət onun formalaşmasının konkret tarixi sosial-psixoloji şəraitindən gedir. Məhz sosial mühit münaqişəni qidalandırır, onun yaranması və inkişafına səbəb olur. Buraya nəinki ən yaxın, həm də uzaq, daha geniş dairəni əhatə edən münaqişə iştirakçılarının mühiti, yəni onların aid olduqları sosial qruplar və cəmiyyət də daxildir.

### 4. Silahlı münaqişələr vəziyyətində yaşayan qadınların hüquqları

Qadınların beynəlxalq müdafiəsi ictimai həyatın bütün sahələrində qadın hüquqlarına hörmət və əməl olunmasının təmin edilməsi, həmin hüquqların təminat səviyyəsinin və mexanizmlərinin artırılması məqsədi ilə dövlətlərin və müvafiq beynəlxalq təşkilatların əməkdaşlığını tənzimləyən beynəlxalq hüquq normalarının məcmusundan ibarət hüquq institutudur.

Dünyanın hər bir yerində qadınlar müəyyən problemlərlə üzləşirlər. Lakin elə yerlər də vardır ki, burada qadın problemlərini daha da dərinləşdirən əlavə hallar mövcuddur. Bu o yerlərdir ki, orada silahlı münaqişələr, müharibələr baş verir.

Ümumiyyətlə, silahlı münaqişələr zamanı qadınlara hörmət və onların müdafiəsi gerçəkləşməlidir. Bu problemin həlli üçün beynəlxalq və milli qanunvericilikdə qadınların fiziki və psixoloji toxunulmazlığının müdafiəsi, gender məsələlərində ədalətin müəyyən edilməsi, sülhün qorunmasında qadınların iştirakı zərurəti aydın və dəqiq şəkildə ifadə olunmalıdır. Qeyd etmək lazımdır ki, qadınlar müharibədə daha çox əziyyət çəkən, iztirab və məhrumiyyətlərə məruz qalan əhali kateqoriyasına aiddir. Bu baxımdan müasir dövrdə onların beynəlxalq müdafiəsi məsələsinin beynəlxalq birliyin diqqət mərkəzində olması xüsusi aktuallıq kəsb edir.

Silahlı münaqişələr zamanı 12 avqust 1949-cu il tarixli dörd Cenevrə Konvensiyası və 2 əlavə Protokol qüvvədədir. "Müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında" dördüncü Cenevrə Konvensiyasının 27-ci maddəsinə əsasən, qadınlar onlara yönəlmiş hər cür qəsdlərdən, xüsusən zorlanmadan, fahişəliyə məcbur edilməkdən və ya onların mənəviyyatına hər hansı digər qəsdlərdən xüsusi qorunmalıdırlar.

Həmin Konvensiyanın 32-ci maddəsinə istinad edərək, razılığa gələn Yüksək Tərəflər xüsusi olaraq razılaşmışlar ki, onların öz ixtiyarında, himayəsində olan şəxslərin fiziki iztirablarına və ya məhvinə səbəb ola bilən hər hansı tədbirlər görməsi qadağandır. Bu qadağa təkcə qəsdən adam öldürməyə, işgəncəyə, cismani cəzalara, xəsarət yetirilməsinə və ya himayədə olan şəxsin tibbi müalicəsi zərurətindən irəli gəlməyən tibbi və ya elmi eksperimentlərə deyil, həm də mülki və ya hərbi hakimiyyət orqanı nümayəndələrinin hər cür digər kobud zorakılığına şamil edilir.

BMT-nin Baş Assambleyası 14 dekabr 1974-cü il tarixli 3318 saylı qətnaməsi ilə təsdiq edilmiş "Qadın və uşaqların fövqəladə hallarda, silahlı münaqişələr dövründə müdafiəsi haqqında Bəyannamə" mühüm əhəmiyyət kəsb edir. Orada göstərilir ki, mülki əhaliyə, xüsusən onun ən müdafiəsiz hissəsi olan qadınlara və uşaqlara saysız-hesabsız əzablar gətirən

hücumlar edilməsi qəti qadağandır. Buna görə də Bəyannamənin 5-ci maddəsi birmənalı şəkildə müharibə edən tərəflərin hərbi əməliyyatların gedişində və ya işğal edilmiş ərazilərdə həbsxanaya salma, işgəncə vermə, güllələnmə, kütləvi həbsə alma, kollektiv cəzalandırma, qadınlara və uşaqlara qarşı törətdikləri bütün repressiya və qəddar, insanlıqdan kənar davranış formalarını cinayətkar əməl hesab edir.

Tarixən hər zaman qadınların silahlı münaqişələrdə bu və ya digər şəkildə iştirakı danılmaz faktdır. Onların həm könüllü, həm də məcburi olaraq müharibənin iştirakçısına çevrilməsi ilə bağlı çoxsaylı praktiki nümunələr mövcuddur. İctimaiyyət çox zaman qadınların silahlı münaqişələrdə və bütövlükdə silahlı qüvvələrdə iştirakını dəstəkləmir. B.Mitçelin fikrincə, hərbi qulluqçu olan qadınlar real döyüşdə ciddi vəzifələri həll etmək imkanına malik olmurlar və bu, döyüş hazırlığının səviyyəsini aşağı sala bilər.

Silahlı münaqişə dövründə qadınlara gücləndirilmiş müdafiə təqdim edilməsi adətən onların "zəifliyi, həssaslığı və kövrəkliyi" ilə izah olunur. Qadınların kövrəkliyi daha çox onların xüsusi fiziki tələbatları, zəif fiziki inkişafı, habelə qadın ləyaqəti və qadın əxlaqı ilə bağlı uzun illər ərzində formalaşmış təsəvvürlərlə şərtlənir. Lakin öldürməyi öyrənən qadınlar ənənəvi qadın stereotipinin çərçivəsindən kənara çıxmağı və hərbi əməliyyatlarda lazımi şəkildə iştirak etməyi də bacarırlar.

Ümumiyyətlə, müharibə qurbanlarının ümumi müdafiəsinə dair bütün beynəlxalq humanitar hüquq normaları qadınlara da şamil olunur: "Hərbi əsirlər ilə rəftar haqqında" 1929-cu il, "Müharibə qurbanlarının müdafiəsi haqqında" 1949-cu il Cenevrə konvensiyaları; 1977-ci il Əlavə protokolları və s. Həmin sənədlərdə göstərilir ki, hər kəs qadınlarla onların cinsinə görə hörmətlə rəftar etməlidir.

İstənilən silahlı münaqişə zamanı qadınlar daha çox əzablara və məhrumiyyətlərə məruz qalan əhali qrupuna aiddir. 1993-cü ilin iyun ayında Vyanada keçirilən insan hüquqları üzrə beynəlxalq konfransda qəbul edilən sənədlərdə bəyan olunmuşdur ki, silahlı münaqişələr şəraitində qadın hüquqlarının pozulması beynəlxalq hüququn insan hüquqları və humanitar hüquq sahəsində əsas prinsiplərinin pozulması deməkdir. Bu sənəddə

həmçinin qadınlara qarşı zorakılığın qarşısının alınması üzrə işlərin aparılmasının vacibliyi vurğulanmışdır.

Silahlı münaqişələrdə iştirak edən qadınların sayının artması ilə bağlı və onların əsir düşdükləri zaman qadınlara əsir statusunun verilməsi məqsədi ilə Cenevrə konvensiyaları onların hüquqi vəziyyətini tənzim edir. Beynəlxalq humanitar hüquq normaları xüsusən axtarış, bir yerdən başqa yerə aparma, şəxsiyyətinin müəyyən olunması, qida və paltar təminatı, əqli inkişaf və təhsil sahəsində qadınlara əlavə təminatlar verir, onlar üçün daha əlverişli şərtlər nəzərdə tutur. Müdafiə qadınların geniş kateqoriyasına, həm münaqişə iştirakçısı olan, həm də belə münaqişədə iştirak etməyən neytral dövlətin vətəndaşı olan qadınlara şamil olunur.

Hərbi əsir və nəzarət altına alınan qadınlar tutula, axtarışa məruz qala, onlara qarşı ittiham elan oluna bilər, lakin istənilən halda axtarışın əks cinsin nümayəndəsi tərəfindən aparılması, qadınların kişilərlə eyni yerdə saxlanılması, qadınların gigiyena və sanitariya vasitələrindən məhrum edilməsi qadağan olunur. Onlar bilavasitə qadın müşahidəçilərin nəzarəti altında olmalıdırlar.

Hamilə və azyaşlı uşağı olan qadınlar əsirlikdən növbədənkənar azad olunmalıdırlar. “Hərbi əsirlərlə rəftar haqqında” üçüncü Cenevrə Konvensiyasına görə yaralı və xəstə qadınlar saziş əsasında öz vətəninə və ya neytral ölkəyə qaytarılmalıdırlar.

Cenevrə konvensiyaları və Əlavə protokollar hamilə, yeni doğulmuş və azyaşlı uşağı olan qadınların sağlamlığının qorunması üçün tutulma, həbs edilmə və nəzarət altında saxlama ilə bağlı xüsusi güzəştlər müəyyən edir. Onların işlərinə birinci növbədə baxılır. Onlar fiziki tələbatlarına uyğun olaraq əlavə qida və müalicə ilə təmin olunur. Əgər sağlamlıqlarına ziyan vurarsa, onların yerini dəyişmək olmaz.

Beynəlxalq humanitar hüquq normaları beynəlxalq silahlı münaqişələr zamanı hamilə qadınlar və azyaşlı uşağı olan analar barəsində ölüm hökmü çıxarılmasını və icra edilməsini məqsədəmüvafiq hesab etmir. Həmçinin beynəlxalq humanitar hüquq normaları ilə silahlı münaqişələr dövründə qadınların cinsi toxunulmazlığına, ləyaqətinə qəsd edilməsi, onlara qarşı

zorakılıq tətbiq edilməsi birbaşa qadağan olunur.

Məlum olduğu kimi, Azərbaycan torpaqlarının 20 faizi Ermənistanın təcavüzkar ordusu tərəfindən işğal olunmuş, bir milyondan çox qaçqın və məcburi köçkün öz torpaqlarından qovulmuşdur. Ermənistan Azərbaycan torpaqlarını işğal etdiyi zaman azərbaycanlı qadınlar ermənilər tərəfindən əsir və girov götürülmüş və orada saxlanılarkən zorakılığa və işgəncəyə məruz qalmışlar. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının 1 oktyabr 2016-cı il tarixinə olan məlumatına görə, əsir, itkin düşmüş və girov götürülmüş 4698 şəxsdən 355 nəfəri qadın, 27 nəfəri azyaşlı qız və 215 nəfəri yaşlı qadın olmuşdur.

Ermənilər tərəfindən, hərbi əsir və girov götürülənlərin, o cümlədən qadın və uşaqların hüquqlarının müdafiəsi üzrə beynəlxalq konvensiya və deklarasiyaların kobudcasına pozulmasını təsdiqləyən çoxsaylı faktlar vardır.

Atəşkəs elan olunması haqqında iki dövlət arasında imzalanmış sazişə, BMT-nin Təhlükəsizlik Şurası və Baş Assambleyasının Dağlıq Qarabağ və ətraf ərazilərin azad olunması haqqında qəbul etdiyi 822 (1993), 853 (1993), 874 (1993) və 884 (1993) saylı Qətnamələrə, habelə Avropa Şurası Parlament Assambleyasının 1416 nömrəli Qətnaməsinə və 1690 saylı tövsiyəsinə baxmayaraq, erməni hərbi qüvvələri müntəzəm olaraq atəşkəs rejimini pozur və azərbaycanlı hərbçiləri, mülki insanları qətlə yetirir və ya yaralayırlar. 2011-ci il mart ayının 8-də Beynəlxalq qadınlar bayramı günündə Ağdam rayonunun Orta Qərvənd kəndinin 9 yaşlı sakini Fariz Bədəlov öz evlərinin həyətində oynayan zaman erməni snayperi tərəfindən qətlə yetirilib. Elə həmin ilin iyul ayında iki qadın və bir qız uşağı erməni hərbi qüvvələrinin qurbanı olublar. İyulun 14-də ermənilər tərəfindən Tovuz çayına atılmış oyuncaqda yerləşdirilmiş gizli qurğunun partlayışı nəticəsində 13 yaşlı Aygün Şahmalıyeva qətlə yetirilimiş və anası Elnarə Şahmalıyeva ağır zədə almışdır. Həmçinin, 27 iyul 2011-ci ildə Qazax rayonunun Bağanis-Ayrım kəndinin sakini, 24 yaşlı Rahibə Poladova erməni snayperinin gülləsindən ciddi xəsarət almış və təcili olaraq, xəstəxanaya çatdırılmışdır.

Həmçinin 2 aprel 2016-cı il tarixdən başlayaraq erməni si-

lahlı qüvvələri tərəfindən Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərindən və Ermənistan Respublikası ərazilərindən qəflətən Azərbaycan Respublikasının əraziləri, cəbhəyanı bölgələrdə məskunlaşan mülki əhalinin yaşadığı çoxsaylı yaşayış məntəqələri, məktəblər və digər sosial obyektlər, habelə Azərbaycan Silahlı Qüvvələrinin qoşunlarının təmas xətti boyunca mövqeləri ağır artilleriyadan, iriçaplı silahlardan intensiv atəşə məruz qalmışdır. Nəticədə dinc əhali, o cümlədən uşaqlar, qadınlar və ahıllar həlak olmuş və ağır yaralanmışlar.

Beynəlxalq sənədlərin mövcudluğuna baxmayaraq, dünyada, eləcə də Azərbaycanda dinc əhalidən olan günahsız insanlar, o cümlədən qadınlar və uşaqlar, silahlı münaqişələrin qurbanı olurlar.

12 aprel 2016-cı ildə Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın mülki əhalisinin qətlə yetirilməsi ilə əlaqədar BMT-nin Baş Katibinə, BMT-nin Təhlükəsizlik Şurasına, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına, Avropa Komissiyasına, Avropa Şurasına,ATƏT-ə, Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına, Beynəlxalq Sülh Bürosuna, müxtəlif ölkələrin ombudsmanlarına, Azərbaycan Respublikasının xarici ölkələrdəki və xarici ölkələrin respublikamızdakı səfirliklərinə, Azərbaycanın diaspor təşkilatlarına bəyanat ünvanlamışdir.

Bəyanatda bildirilmişdir ki, Ermənistan silahlı qüvvələri tərəfindən törədilən bu hərbi cinayətlər nəticəsində beynəlxalq sənədlərin, o cümlədən Cenevrə konvensiyalarının müddəaları kobud şəkildə pozulmuşdur. 5 aprel 2016-cı il tarixdə Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində tərəflərin razılığı ilə əməliyyatların dayandırılması elan olunsa da, növbəti günlərdə də təmas xətti boyu Azərbaycan mövqeləri və mülki əhalinin yaşadığı yaşayış məntəqələri artilleriya daxil olmaqla ağır silahlardan atəşə tutulmuş və bütün bu hallar ölkəmizə səfər edən xarici jurnalistlər tərəfindən də müşahidə edilmişdir. Ombudsman beynəlxalq təşkilatları Ermənistan silahlı qüvvələrinin Azərbaycanın zəbt etdikləri ərazilərindən çıxarılması üçün müvafiq qərarlar qəbul etməyə çağırmışdır.

**5. Münaqişələrin həllində və sülh quruculuğu prosesində qadınların rolu**

Sülh anlayışı bir dəyər kimi hərtərəflidir. Yeni minillikdə bəşəriyyətin qarşısında zorakılığın bütün təzahür formalarını - ailədə, cəmiyyətdə, müxtəlif etnik qruplar və dövlətlər arasında aradan qaldırmaq problemi durur. Odur ki, sülh qlobal strategiyadır. Beynəlxalq ictimaiyyət dövlətləri qadınları silahlı münaqişələr zamanı qorumaq, qadınların münaqişələrin qarşısının alınması, həlli və sülhyaradan proseslərdə əsaslı iştirakını təmin etmək üçün müvafiq tədbirlərin görülməsinə çağırır.

Dünyanın proqressiv qadınları tolerantlıq göstərərək, milli maraqları və mədəniyyətlərin rəngarəngliyini nəzərə alaraq, ümumi bir ideyanın ətrafında — hər bir ailədə və hər bir ölkədə sülhün bərqərar olması ideyası ətrafında birləşirlər. Sülh, Bərabərlik və İnkişaf uğrunda beynəlxalq əməkdaşlıq zəruridir. Sülh mədəniyyətini insanlara aşılamaqdan ötrü müvafiq metodoloji xarakter daşıyan ədəbiyyatdan, dövri mətbuatdan (qəzet, jurnal, saytlar), tarixi sənədlərdən istifadə olunmalıdır.

Qeyd olunmalıdır ki, qadın təbiətində dağıtmaq deyil, yaratmaq durur. Bəlkə də bir çox beynəlxalq münaqişələrin həllinin uzanmasının səbəbi həm də qadınların siyasi qərarların qəbul olunması proseslərindən uzaqlaşdırılmasıdır. Bunu nəzərə alaraq, 2000-ci il 31 oktyabr tarixli BMT Təhlükəsizlik Şurasının 1325 saylı qətnaməsi sülh danışıqlarında iştirak edən tərəfləri sülh və təhlükəsizliyin qorunmasına yönəlmiş səylərdə qadınların bərabərhüquqlu iştirakının vacibliyinə gender bərabərliyi baxımından diqqət yetirməyə çağırır, münaqişələrin dinc yolla tənzimləməsində qadınların rolunu fəallaşdırmaq və bunun üçün qərarların qəbulunda onların iştirak etməsini tövsiyə edir. Qadınlar da silahlı münaqişələrə cəlb olunur: hərbi xidmətdə qulluq edirlər, hərbi geyimlərin hazırlanmasında və s. iştirak edirlər. Onların fəaliyyəti müharibə dövründə sosial qayda-qanunun bərqərar olması ilə də əlaqədardır. 1325 saylı qətnamənin qəbul edilməsi qadınların münaqişələrin qarşısının alınması və həllində, eləcə də sülh quruculuğunda oynadıqları rolun etiraf edilməsi sahəsində atılmış mühüm addımdır.

Azərbaycanda da bu qətnamənin müddəaları uğurla tətbiq olunur. BMT-nin Qadınlar üçün İnkişaf Fondunun (UNİFEM)

layihəsi çərçivəsində 1325 saylı qətnamənin prinsiplərinə əsaslanaraq, qadınların sülh prosesində fəal iştirakına təkan vermək məqsədi ilə “Koalisiya 1325” qadın qrupu yaradılmışdır. İlk gündən bu milli koalisiya qətnamənin məzmunu barədə Azərbaycan cəmiyyətinin məlumatını artırmağa və qadınların sülhyaratma proseslərində iştirakının vacibliyini vurğulamağa yönəlmiş bir sıra təşəbbüslər həyata keçirmişdir. Qısa bir zamanda koalisiya əvvəlcə o qədər də böyük olmayan bir qrupdan milli səviyyədə tanınan, gender bərabərliyinin tömininə səy göstərən bir təşkilata çevrilmişdir. Azərbaycan qadınları vahid bir koalisiyada birləşmişlər və onların məqsədi sülh yaratmaqdır. Tarixən Azərbaycan qadınları cəmiyyətin nəinki elmi-mədəni, həm də ictimai-siyasi həyatında fəal rol oynamış, bir sıra problemlərin həllində iştirak etmişlər. Bu gün də hər bir azərbaycanlı qadın xalqımızın ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi işində öz səyini əsirgəmir.

Daim münaqişə bölgəsində və ya dövlətində yaşaması, insanların şüurunda, düşüncəsində, onların gələcək davranış sistemini formalaşdıracaq tərbiyədə öz əksini tapır. Bununla belə hələ də gender, cinslərarası münasibətlərdə rast gəlinən zor tətbiqetmə, münaqişənin qeyri-dinc vasitələrlə həll olunmasına meylin artması problemi getdikcə güclənməkdədir.

1995-ci ildə Pekində keçirilən qadınların vəziyyəti ilə bağlı Dördüncü Beynəlxalq Konfransda Fəaliyyət Platforması qəbul olunmuşdur. Orada silahlı münaqişələrin qadınlara təsiri 12 prioritet məsələdən biri kimi göstərilir, hökumətlərdən və beynəlxalq birlikdən bu sahədə müvafiq tədbirlər görülməsi tələb edilir və qadınların qərarlar qəbul edilməsi səviyyəsində münaqişələrin həllində bərabər iştirakının zəruriliyi vurğulanır.

Qadınlar müharibə zamanında sülhün bərqərar olunmasında və qorunmasında mühüm rol oynayırlar. Lakin buna baxmayaraq, onlar sülh danışıqlarında və silahlı münaqişə ilə bağlı siyasi qərarların qəbul edilməsi prosesində, demək olar ki, iştirak etmirlər. Adətən, qadınlar silahlı qüvvələrdə xidmət etmirlər. Son dövrlər isə bir sıra ölkələrdə qadın hərbi qulluqçuların sayının artırılması üzrə tədbirlər görülmüşdür. Bu, qadınların öz ölkələrinin silahlı qüvvələrində xidmət etmək

hüququnun tanınmasından irəli gəlir. İnsan hüquqlarının ayrılmaz tərkib hissəsi kimi, qadın hüquqları əksər dünya dövlətlərində tam şəkildə reallaşdırılmır. Bu isə qadınların cəmiyyətdə rolu ilə bağlı ənənəvi yanaşma ilə bağlıdır.

Bir çox beynəlxalq sənədlərdə münaqişələrin qarşısının alınmasında, sülhün bərqərar olmasında ictimai təşkilatlara xüsusi yer verilir. İctimai təşkilatların vəzifəsi yalnız sülh ideyalarının təbliği deyil, birgə səylərlə konkret fəaliyyətin həyata keçirilməsinə çalışmaqdır. Getdikcə ölkəmizdə qeyri-hökumət təşkilatları, xüsusilə qadın təşkilatları və qrupları cəmiyyətdə dəyişikliyə nail olan qüvvə olmuşdur.

Münaqişələrin həllində iştirak edən qadınlar sülhün bərqərar olması üçün vacib məsələlərə daha çox diqqət yetirirlər, lakin bəzən insan hüquqları, ədalət, milli barışıq və iqtisadiyyatın bərpasına dair mühüm rəsmi danışıqlarda diqqətdən kənarda qalırlar. Onlar etnik və əyalət sərhədlərini nəzərə almadan koalisiya qurmağa və digər marjinal qrupların hüquqlarının müdafiəsinə meyllidirlər. Qadınlar kompromisi təmin edib, sülhün bərpa olmasında vasitəçi kimi çıxış edə bilərlər.

Artıq dünyanın bir çox regionlarında qadınların sülhün və təhlükəsizliyin bərpasına cəlb olunmasının əhəmiyyəti nümayiş etdirilmişdir.

Dünya əhalisinin yarısını təşkil edən qadınlar, müharibə, zorakılıq və qeyri-sabitlik təhlükəsi altında olan ölkələrdə münaqişələrin qarşısının alınması və sülh quruculuğuna dair beynəlxalq öhdəliklərin həyata keçirilməsində bərabər tərəfdaşlar qismində çıxış etməlidirlər və bu qlobal təhlükəsizlik üçün çox vacibdir.

Sivilizasiyalararası münasibətin yeganə yolu münaqişə deyil, məhz dialoqdur. Münasibətlərin gərginləşməməsi üçün insanlar daha tolerant, fəaliyyətlərində daha həssas və diqqətli olmalıdırlar.

Müxtəlif mədəniyyətlərin paralel şəkildə yaşamasını qəbul edən tolerant cəmiyyətin başlıca xüsusiyyətlərindən biri də multikulturalizmdır. Azərbaycanlıların Ermənistandan kütləvi deportasiyası bu respublikanı faktiki olaraq monoetnik dövlətə çevirdiyi halda, Azərbaycan Respublikası müxtəlif mədəniyyətləri və dinləri birləşdirən güclü dövlət kimi tanınmaqdadır.

Multikulturalizmdən bəhs edərkən qadın məsələsinə də xüsusi diqqət yönəldilməsi vacib şərtdir. Belə ki, tarixin müxtəlif inkişaf mərhələsində qadının sosial statusunda baş verən dəyişilmələrdə mədəni identiklik problemi siyasi sosioloji aspektdə özünü daha çox göstərir. Bu reallıq etnik azlıqlar və onların əsasən kişi səsinin üstün olduğu, milli mentalitetin qorunduğu cəmiyyətlərdə öz ənənəvi adətlərini də hifz etməyin yollarının öyrənilməsinə ehtiyac yaradır.

Multikulturalizmin təbliği istiqamətində ən əhəmiyyətli addımlardan biri də 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan edilməsi olmuşdur. Bu il çərçivəsində əhatəli tədbirlər planının hazırlanıb həyata keçirilməsi ilə Azərbaycan dünya multikulturalizminə öz növbəti dəyərli töhfəsini verməkdədir. Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun Bakı şəhərində keçirilməsi isə dünya ölkələrinin Azərbaycandakı multikultural mühitə olan münasibətinin real ifadəsidir.

**Tələbələrin biliklərinin qiymətləndirilməsi üçün suallar:**

1. Münaqişələrin təhlili və tipologiyası.
2. Şəxsiyyətdaxili və şəxsiyyətlərarası münaqişələr.
3. Münaqışələrin idarə olunmasının əhəmiyyəti və yolları.
4. Münaqışələrin yaranma səbəbləri.
5. Gender stereotipləti insanlara necə təsir edir?
6. Münaqişələr hansı üsullarla tənzimlənə bilər?
7. Silahlı münaqişələr zamanı qadınların hüquqları necə müdafiə olunur?
8. Münaqişələrin həllində qadınların rolu.

## Mühazirə 8. Mədəni müxtəliflik, multikulturalizm, dini etiqad, tolerantlıq. Gender və mədəniyyət

1. ***Mədəni müxtəliflik, multikulturalizm, "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında Konvensiya"ya qoşulma***
2. ***Gender və mədəniyyət***
3. ***Sülh mədəniyyəti konsepsiyası və məqsədi***
4. ***Sülh mədəniyyətində qadınların rolu***
5. ***İslamda qadın və kişilərə verilən bərabər dəyərlər***
6. ***Azərbaycanda dini etiqad və tolerantlıq***

### 1. Mədəni müxtəliflik, multikulturalizm, "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında Konvensiya"ya qoşulma

Məlumdur ki, mədəni müxtəliflik bəşəriyyətin ümumi irsini formalaşdırır. Hazırda dünyada müxtəlif milli, etnik, dini xüsusiyyətlərə, tarixi təcrübəyə əsaslanan bir çox sabit mədəni sistemlər mövcuddur. Belə şəraitdə mədəniyyətlər arasında istər-istəməz qarşılıqlı anlaşma problemi yaranır, çünki onlar arasındakı fərqlər bir çox hallarda təkcə əməkdaşlığa deyil, həm də münaqişələrə gətirib çıxarır. Qloballaşma şəraitində mədəni hüquqların, mədəni müxtəlifliyin və mədəni özünəməxsusluğun qorunması və mədəniyyətlərarası dialoqun inkişafı daha mühüm və kəskin xarakter almağa başlayır. Bu məsələlər beynəlxalq təşkilatların rolunu və məsuliyyətini daha da artırır.

Qlobal mədəni proseslərin idarə edilməsi ilə bağlı səlahiyyətlər BMT tərəfindən faktiki və hüquqi olaraq onun profil strukturuna UNESCO-ya həvalə edildiyindən dünya mədəniyyətlərinin inkişafı yolunda ortaya çıxan problemlərin həllində bu təşkilatın siyasi rolu danılmazdır. Dialoq və inkişaf naminə Ümumdünya Mədəni Müxtəliflik Günü ilk dəfə 2003-cü il mayın 21-də qeyd olunmuşdur. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası 2002-ci il dekabrın 20-də 57/249 saylı qətnamə ilə 21 may tarixinin Dialoq və inkişaf uğrunda Dünya Mədəni Müxtəliflik Günü kimi qeyd olunmasını qərara aldı və

bütün üzv dövlətlərə, hökumət orqanlarına, BMT sistemi təşkilatlarına və qeyri-hökumət təşkilatlarına mədəni müxtəlifliyin müsbət rolunu, onun dəyər və əhəmiyyətini maarifləndirmə və kütləvi informasiya vasitələrindən istifadə etməklə dünya ictimaiyyətinə çatdırmağı təklif etdi.

Hazırda dünya mədəniyyətini çox müxtəlif amillər təhdid edir. Bəzən milli özünəməxsusluğun həddən artıq qorunması müxtəlif azlıqların mədəniyyətləri üçün təhlükə yaradır, digər halda din mədəniyyətə təzyiq göstərir, üçüncü halda praktiki olaraq dünyanın bir çox ölkələrində qloballaşmanın təsiri altında dillər, ənənələr itirilir, zəif mədəniyyətlər kənarda qalır, bəzən isə tamamilə yox olur.

Bütün bu faktların nəzərə alınması və onların əhəmiyyətinin dərk edilməsi 2001-ci ildə UNESCO-nun "Mədəniyyətlərin müxtəlifliyinə dair" Bəyannaməsinin qəbul olunmasını zəruri etmişdir. Bu Bəyannamənin həyata keçirilməsi üçün iyirmi əsas istiqamətdən ibarət Fəaliyyət Planı qəbul olunmuşdur. Bəyannamədə müxtəliflik, dialoq və inkişaf arasında əlaqənin yeni anlayışı irəli sürülür. Bir sıra subyektiv və obyektiv amillər istisna olmaqla, bu gün UNESCO-nun fəaliyyəti bütün dünyada mədəniyyətlərin yaxınlaşmasına və dialoquna, beynəlxalq mədəni hüquqlar sisteminin möhkəmlənməsinə yönəlmişdir. Son dövrlərdə bu istiqamətdə beynəlxalq mədəni proseslərdə özünü göstərən müsbət meyllər, mədəniyyətin hər bir insan üçün və bütövlükdə bəşəriyyət üçün taleyüklü əhəmiyyət kəsb edən amilə çevrilməsi həm də UNESCO-nun məqsədyönlü səylərinin nəticəsidir. Sosial-siyasi sistemlər, idarəetmə modelləri, dünyagörüşü arasında fərqlərin olmasına baxmayaraq, bu gün müxtəlif mədəniyyətli xalqlar arasında qarşılıqlı anlaşma və dialoq üçün real imkanlar mövcuddur.

"Mədəni müxtəliflik" dedikdə, ayrı-ayrı qrupların və cəmiyyətlərin mədəniyyətlərinin öz ifadəsini tapdığı müxtəlif formalar nəzərdə tutulur. Bu özünüifadə formaları qruplar və cəmiyyətlər arasında və onların daxilində gerçəkləşir.

Mədəni müxtəliflik təkcə bəşəriyyətin mədəni irsinin ifadə olunduğu, artırıldığı və ötürüldüyü müxtəlif mədəni özünüifadə vasitələrinin tətbiqi ilə deyil, həmçinin hansı vəsaitlərdən və texnologiyalardan istifadə edilməsindən asılı olmayaraq, bədii

yaradıcılığın müxtəlif növləri, mədəni özünüifadə məhsullarının istehsalı, yayılmasının, paylaşılması və onlara yiyələnmə vasitəsilə meydana gəlir.

"Mədəni özünüifadə" dedikdə, ayrı-ayrı fərdlərin, qrupların və ya cəmiyyətlərin yaradıcılığının nəticəsi olan və mədəni məzmun daşıyan özünüifadə nəzərdə tutulur.

"Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında" 2005-ci il oktyabrın 20-də Paris şəhərində qəbul edilmiş Konvensiya Azərbaycan Respublikasının ona dair bəyanatları ilə 26 noyabr 2009-cu il tarixində təsdiq edilmişdir.

Ölkəmiz bu konvensiyaya xüsusi bir bəyanatla qoşulmuşdur. Bu da ondan ibarətdir ki, Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağ bölgəsində və ona bitişik yeddi rayonda Azərbaycan bu konvensiyanın göstərişlərini həyata keçirmək iqtidarında deyil. Ona görə də həmin regionda milli, mədəni müxtəlifliyin qorunması ilə bağlı vəziyyət üçün məsuliyyət daşımır.

Bu Konvensiyanın məqsədləri aşağıdakılardır:

1) mədəni özünüifadə müxtəlifliyini qorumaq və təşviq etmək;

2) müxtəlif mədəniyyətlərin çiçəklənməsi və qarşılıqlı səmərəli tərzdə bir-birinə sərbəst təsiri üçün şərait yaratmaq;

3) mədəniyyətlərarası hörmət və sülh mədəniyyəti naminə bütün dünyada geniş və tarazlı mədəni mübadiləni təmin etmək üçün mədəniyyətlərarası dialoqu təşviq etmək;

4) xalqlar arasında mənəvi körpülərin qurulması ruhunda mədəniyyətlərin qarşılıqlı əlaqələrini inkişaf etdirmək məqsədilə mədəniyyətlərarası qarşılıqlı fəaliyyəti dəstəkləmək;

5) mədəni özünüifadə müxtəlifliyinə hörməti təşviq etmək və yerli, milli və beynəlxalq səviyyədə onun dəyəri haqqında məlumatlılığı artırmaq;

6) bütün ölkələr, xüsusilə də inkişaf etməkdə olan ölkələr üçün mədəniyyət və inkişaf arasında əlaqənin əhəmiyyətini bir daha təsdiqləmək və bu əlaqənin əsl dəyərinin etirafını təmin etmək üçün milli və beynəlxalq səviyyədə görülən tədbirləri dəstəkləmək;

7) özünəməxsusluq, dəyər və məna daşıyıcısı olaraq mədəni fəaliyyətin, mədəni malların və xidmətlərin səciyyəvi

xüsusiyyətini tanımaq;

8) dövlətlərin öz ərazilərində mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi üçün uyğun hesab etdikləri siyasət və tədbirləri dəstəkləmək, qəbul etmək və həyata keçirmək kimi suveren hüquqlara malik olduqlarını bir daha təsdiqləmək;

9) mədəni özünüifadə müxtəlifliyini qorumaq və təşviq etmək sahəsində xüsusilə inkişaf etməkdə olan ölkələrin imkanlarını genişləndirmək məqsədilə tərəfdaşlıq ruhunda beynəlxalq əməkdaşlıq və həmrəyliyi gücləndirmək.

Qeyd olunan konvensiyada bu əsas prinsiplər öz əksini tapmışdır:

*1. İnsan hüquqları və əsas azadlıqlarına hörmət prinsipi*

Mədəni müxtəlifliyin qorunması və təşviqi ancaq ifadə, informasiya və kommunikasiya, fərdlərin mədəni özünüifadə formasını seçmək imkanı kimi insan hüquq və azadlıqlarının təmin olunduğu təqdirdə mümkündür. Heç bir kəs Ümumdünya İnsan Hüquqları Bəyannaməsində nəzərdə tutulmuş və beynəlxalq hüquq ilə təminat verilmiş insan hüquq və azadlıqlarına qəsd etmək və ya onları məhdudlaşdırmaq məqsədilə bu Konvensiyanın müddəalarından istifadə edə bilməz.

*2. Suverenlik prinsipi*

BMT-nin Nizamnaməsinə və beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq, dövlətlər öz əraziləri çərçivəsində mədəni özünüifadə müxtəlifliyini qorumaq və təşviq etmək üçün lazımi tədbirlər görmək və siyasətlər həyata keçirmək kimi suveren hüquqa malikdirlər.

*3. Bərabər ləyaqət və bütün mədəniyyətlərə hörmət prinsipi*

Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi bütün mədəniyyətlərin, o cümlədən azlıqlara və yerli əhaliyə mənsub insanların mədəniyyətlərinin bərabər ləyaqətə malik olmasını və onlara hörmət edilməsini nəzərdə tutur.

*4. Beynəlxalq həmrəylik və əməkdaşlıq prinsipi*

Beynəlxalq həmrəylik və əməkdaşlıq ölkələrə, xüsusilə də inkişaf etməkdə olan ölkələrə, istər formalaşmaqda olan, istərsə də artıq mövcud olan mədəniyyət industriyaları da daxil olmaqla, mədəni özünüifadə vasitələrini yaratmaq və gücləndirmək imkanının verilməsinə yönəlməlidir.

*5. İnkişafın iqtisadi və mədəni aspektlərinin bir-birini*

*tamamlaması prinsipi*

Mədəniyyət inkişafın əsas hərəkətverici qüvvələrindən biri olduğundan, inkişafın mədəni aspektləri onun iqtisadi aspektləri kimi mühüm əhəmiyyət kəsb edir, fərdlər və xalqlar bu sahədə iştirak etmək və bundan faydalanmaq hüququna malikdirlər.

*6. Davamlı inkişaf prinsipi*

Mədəni müxtəliflik fərdlər və cəmiyyətlər üçün dəyərli sərvətdir. Mədəni müxtəlifliyin qorunması, təşviqi və dəstəklənməsi mövcud və gələcək nəsillərin rifahı naminə davamlı inkişaf üçün vacib tələbdir.

*7. Bərabər imkan prinsipi*

Bütün dünyada mədəni özünüifadənin zəngin və çeşidli formalarına bərabər çıxış, həmçinin mədəniyyətlərin ifadə və yayılma vasitələrinə çıxışı mədəni müxtəlifliyin təmininin və qarşılıqlı anlaşmanı təşviqin mühüm elementlərini təşkil edir.

*8. Açıqlıq və tarazlıq prinsipi*

Dövlətlər mədəni özünüifadə müxtəlifliyini dəstəkləmək üçün tədbirlər həyata keçirdikdə, onların dünyanın digər mədəniyyətləri üçün açıqlığına çalışmalı və həmin tədbirlərin bu Konvensiyanın məqsədlərinə uyğunluğunu təmin etməlidirlər.

2013-cü ildə ənənəvi Dialoq və İnkişaf Uğrunda Dünya Mədəni Müxtəliflik Günü çərçivəsində UNESCO və BMT Sivilizasiyalar Alyansı "Müxtəlifliyin və inteqrasiyanın təşviqi üçün bir iş gör" şüarı altında müxtəliflik və iştirak uğrunda hərəkatı dəstəkləyən kampaniyaya start vermişdir.

Bütün dünyada insanları və təşkilatları müxtəlifliyin dəstəklənməsi üzrə konkret tədbirlər görməyə vadar edən bu kampaniya həm də mədəniyyətlərarası dialoqun, müxtəlifliyin və inteqrasiyanın vacibliyi barəsində məlumatlılığın qlobal miqyasda səviyyəsinin artırılması, real və gündəlik həyatda müxtəlifliyi dəstəkləməyə çalışan insanların dünya cəmiyyətinin formalaşdırılması məqsədini daşıyır.

Dünya cəmiyyəti, bununla mədəni müxtəlifliyin inkişafına töhfələr verməklə, mədəni irsin qorunması, müxtəlif mədəniyyətlərin nümayəndələri arasında münasibətlərin qurulmasının vacibliyini həmişə yadda saxlamalıdır.

Azərbaycan əsrlər boyu burada yaşayan bütün millətlərin,

bütün dinlərin nümayəndələri üçün Vətən olmuşdur. Bu gün ölkəmiz çoxmillətli və çoxkonfessiyalı bir ölkədir. Burada bütün dinlərin nümayəndələri, bütün millətlər bir ailə kimi sülh, mehribanlıq, qarşılıqlı anlaşma və əməkdaşlıq şəraitində yaşayırlar. Bu, bizim böyük sərvətimizdir, böyük üstünlüyümüzdür və Azərbaycanın uğurlu inkişafında bu amil də öz rolunu oynamışdır. Bütün dövrlərdə, ictimai-siyasi quruluşundan asılı olmayaraq, Azərbaycan dini tolerantlıq, dözümlülük məkanı olub. Müstəqillik dövrlərində bu müsbət meylləri biz nəinki qoruyub saxlaya bilmişik, həm də onları daha da gücləndirmişik. Azərbaycan tərəfindən irəli sürülmüş təşəbbüslər bütün dünyada əks-səda doğurur. Bizim siyasi, iqtisadi və digər sahələrlə bağlı təşəbbüslərimiz regional əməkdaşlıq üçün yaxşı şərait yaradır və xalqlararası, millətlərarası dialoqun aparılması bu müsbət meylləri daha da gücləndirir. Xalqlararası əlaqələrin sağlam zəmində qurulması siyasi və iqtisadi amillərin inkişafına da daha çox təkan vermiş olur.

Milli-mədəni müxtəliflik mədəni zənginlik deməkdir. Azərbaycan dövləti ölkədəki milli-mədəni müxtəlifliyin qorunub saxlanmasında, inkişafında maraqlıdır və buna dəstək verir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi: “Əsrlər boyu bütün mədəniyyətlər, dinlər və etnik qrupların nümayəndələri Azərbaycanda sülh və ləyaqət şəraitində bir ailə kimi yaşamışlar. Biz fəxr edirik ki, bu müsbət meyllər müstəqillik illərində daha da güclənmişdir. Bizim tarixi abidələrə nəzər salmaq yetər ki, Azərbaycanın mədəni müxtəlifliyi aydın görünsün. Biz tarixi və mədəni irsimizlə fəxr edirik”.

Azərbaycan Avropa və Asiya arasında yerləşir, bu da Azərbaycanın mədəni müxtəlifliyində rol oynayıb. Etnik azlıqlar və müxtəlif dinlərin təmsilçiləri həmişə Azərbaycanda tolerant şəkildə yaşayıblar. Tarixi irsimiz mədəni müxtəlifliyə yanaşmanı ortaya qoyur. Şamaxıda ən qədim məscidlərdən biri, Şəkidə alban kilsəsi, Abşeronda atəşpərəstlərin məbədi yerləşir.

Bu gün Azərbaycanda müxtəlif etnik qrupların nümayəndələri yaşayır və inkişafımıza töhfə verirlər. Müasir qloballaşma şəraitində mədəni müxtəliflik meyllərinin güclənməsi multikulturalizmin rolunu daha da artırır. Fəlsəfi lüğətlərdə multikultu-

ralizm (“multi”–“çox”, “çoxluq”, “müxtəliflik”, “kulturalizm” isə “mədəniyyət” deməkdir) mədəniyyətlərarası münasibətlərdə mədəniyyətlərin müxtəlifliyi və çoxçalarlılığı mənasında işlənilir. Tədqiqatçılar multikulturalizmin ilk olaraq Şimali Amerikada - əvvəl Kanadada, sonra isə ABŞ-da meydana gəldiyini iddia edirlər. “Qlobal mədəniyyət” mənşəcə Amerika mədəniyyətidir. Amerikanizmin qlobal mədəniyyət kimi meydana gəlməsinin səbəblərindən biri ABŞ-ın öz mədəniyyətini multikultural mədəniyyət kimi qəbul etməsi və multikulturalizmin inkişafda əhəmiyyətini dərk etməsidir.

Avropada multikulturalizm ünsürləri daha gec yaranmışdır. İnkişaf etmiş dünya ölkələri multikulturalizm siyasəti sayəsində ciddi nailiyyətlər əldə etmiş, cəmiyyətin bütün sahələrində, milli və vətəndaş həmrəyliyinin daha da möhkəmlənməsində uğurlar qazanmışlar. Bu həqiqətdir ki, mədəniyyətlərin müxtəlifliyinin, tolerantlığın, mədəni inteqrasiya və mədəniyyətlərarası dialoqun hökm sürdüyü ölkələrdə demokratiya özünün ən yüksək inkişaf səviyyəsinə çatır.

Qərb alimi S.Hantinqton multikulturalizmə belə tərif verib: “Dünyada insanlar arasındakı ən mühüm fərqlər nə siyasi, nə iqtisadi, nə də ideoloji fərqlərdir. Bunlar mədəni fərqlər və müxtəlifliklərdir. İnsanlar ən sadə suala cavab istəyirlər. “Biz kimik?” sualını din, dil, tarix, dəyərlər, adət-ənənələr, yəni mədəniyyət anlayışı ilə cavablandırırlar. Yalnız “kim” olduğunu biləndən, müəyyənləşdirəndən sonra hər bir xalq yaşayış siyasətini müəyyənləşdirməyə başlayır. Müstəqil, demokratik prinsiplərə söykənən hüquqi dövlət və vətəndaş cəmiyyətinin təşəkkül prosesində mədəniyyətdə mədəni-milli identiklik, mədəni özünəməxsusluq və multikulturalizm arasında qarşılıqlı təsir dinamikası qüvvətlənir”.

Dünyada multikulturalizmin Qərb, Avropa, postsovet, o cümlədən Azərbaycan modelləri mövcuddur. Azərbaycanın multikulturalizm modeli təkcə Cənubi Qafqazda, postsovet məkanında deyil, Qərbdə də diqqəti cəlb edən modellərdən biri hesab olunur.

XX əsrin sonlarında Cənubi Qafqazda millətlərarası münasibətlərdə münaqişələr, millətçilik tüğyan etməyə başladı. Azərbaycan öz tolerantlıq ənənələrinə sadiq qalaraq mə-

dəniyyətlərarası və millətlərarası gərginliyi aradan qaldırdı və multikultural dəyərlərə malik demokratik, hüquqi dövlətə çevrildi. Qərbdə multikulturalizmdən, demokratiyadan millətçiliyə keçid baş verdiyindən, ksenofobiya, islamofobiyadan bəhs edildiyi bir zamanda belə, Azərbaycanın multikulturalizm modeli dünyaya örnək sayılır. Ölkəmizdə multikulturalizm milli və ümumbəşəri dəyərləri, mədəni bərabərliyi, ədalət və mərhəməti, tolerantlığı, mədəni müxtəlifliyi və plüralizmi, birgəyaşayışı özündə əks etdirir.

Multikulturalizmin müxtəlif ölkələrdə fərqli təzahürü həmin ölkələrin demokratik durumundan, ənənəsindən, milli mentalitetindən asılıdır. Multikulturalizm olmayan regionlar münaqişələrdən, ziddiyyətlərdən, qarşıdurmalardan, siyasi gərginliklərdən "sığortalanmır". Multikulturalizmin "Azərbaycan modeli" də sübut edir ki, fərqli millətlərin və dinlərin təmsilçiləri öz identikliklərini qorumaqla və digərlərinə hörmətlə yanaşmaqla inkişaf etmək iqtidarındadırlar. Sadəcə olaraq bunu fərqlilikləri assimilyasiya etməyə çalışan ideologiya deyil, əsrlər boyu davam edən gündəlik həyat tərzi kimi qəbul etmək lazımdır.

## 2. Gender və mədəniyyət

Genderin nəzəri anlamında mərkəzi, əsas yer onun sosial-mədəni kateqoriya kimi şərhinə məxsusdur.

Genderə belə yanaşma, qanunauyğun olaraq, onun sosial təşkili və mədəni təşkili fenomen kimi tərifindəki fərqin dəqiqləşdirilməsinə ehtiyac ilə şərtləndirilir. Həmin səviyyədə genderin iki qarşılıqlı əlaqəli mahiyyət tərəfi – sosial və mədəni tərkib hissələri, maddi-praktiki, sosial-konkret və mədəni-mənəvi arasındakı fərq aşkar olunur. Genderin mədəni təşkili onun təhlili gedişində genderin ictimailəşməsinin, gender stereotipləri, rolları, gender eyniləşməsinin, təfəkkür proseslərinin formalaşması kimi amillərin və rəngarəng mədəni kontekst axınında yerləşənlərin genderin təşəkkülü və inkişafına, gender bərabərsizliyi və gender sistemlərinə təsirinin nəzərə alınmasını tələb edir.

Qeyd etmək lazımdır ki, genderin sosial-mədəni fenomen kimi ikili təbiəti onun sosial və mədəni təşkili proseslərinin

birgə, qarşılıqlı əlaqəli gedişini nəzərdə tutur.

Hazırda dünyamızda ən çox prioritet verilən sahələrdən biri də cəmiyyətdə gender mədəniyyətinin formalaşmasının zəruriliyidir. Buna əsas səbəb isə ictimai həyatda tez-tez baş verən hüquq pozuntuları, bir cins tərəfindən digər cinsin imkanlarının məhdudlaşdırılması, rolunun zəiflədirilməsidir. Cəmiyyətdəki əksər kataklizmlərin, qarşıdurmaların və digər neqativ halların baş verməsinin əsas səbəbi də buradan qaynaqlanır. Həmin problem isə cəmiyyətdə gender mədəniyyətinin aşağı olmasının birbaşa səbəbidir. Son illər qadın məsələsinin mütəşəkkiliyinə və qloballaşmasına baxmayaraq, qadınların vəziyyətində əsaslı dəyişikliklər, demək olar ki, hələ gözlənilən səviyyədə baş verməyib. Tarix boyu qadın hüquqları uğrunda getmiş mübarizə müasir dövrdə yeni çalarlar kəsb edir. Qadın məsələsinin qloballaşması, onun məqsəd kimi sosial-mədəni həyatın bütün sahələrində həqiqi real bərabərlik, cəmiyyətdə bütün rəhbər və nəzarətedici funksiyaların kişilərlə bərabər daşınması tələbini seçməsi, qadın məsələsinin aparıcı qüvvə və strukturlarının nümayəndəsi kimi, qadınlarla bərabər kişilərin də çıxış etməsi, yerli strukturlarla bərabər beynəlxalq qurumların qadın hüquqlarını müdafiə etməsi, qadın-kişi qarşıdurmasını onları birgə ahəngdar fəaliyyətə yönəldən, müntəzəm olaraq sayı artan gender konsepsiya və proqramlarının əvəz etməsi qadın probleminin yeni cəhətlərini və qadın hərəkatının müasir dövrdə yeni istiqamətini səciyyələndirən keyfiyyət göstəriciləridir.

Cinslərin fərqi, cəmiyyətdə rolu və yeri mədəni-dini quruluşların təməlindəki ənənəçiliyi və mühafizəkarlığı əks etdirən nümunələrdən biridir. Elə buna görə də, mədəni və dini problemlər bu gün gender baxımından nəzərdən keçirilməlidir. Xüsusən ona görə ki, müasir dövrdə kütlələrin milli, mədəni və dini şüuru əyalətlərlə məhdudlaşmır, əksinə, böyük şəhərlərdə də hakim olur və insanların davranışlarını tənzimləyir. Kişilər və qadınlar arasındakı qarşılıqlı əlaqələrin üsul və formalarını ümumiləşdirməklə, bir sıra sosial və mədəni fərqləri üzə çıxarmaq olar.

Cinslərin rollarındakı mədəni stereotiplər uşaqların gələcəkdə ictimailəşməsi prosesində daha fəal surətdə qəbul etdi-

rilir. Bizim cəmiyyətdə oğlan və qızların tərbiyəsi sisteminə, onların spesifik rollarına uyğun vərdişlərini və davranış stereotiplərini formalaşdıran müəyyənləşdirilmiş tələblər qoyulur. Hətta ən çox inkişaf etmiş sivilizasiyalı cəmiyyətdə də qadınlar, tez-tez ictimai fəaliyyətdən təcrid olunur və ev işlərinin çərçivəsində qalır.

Gender fərqlərinin müxtəlif mədəni modelləri mövcuddur:

- yayılma dərəcəsinə görə: şəhər-kənd, islam - xristian
- mənşəyinə görə: Şərqdə (pantürkist, panislamist), Qərbdə (milliyyətçilik, yalnız öz xalqının kökünü və ənənələrini üstün tutmaq)
- universallıq dərəcəsinə görə: partikulyar - qeyri-hərbi (feminizm modelləri, ənənəçi - mühafizəkar, konservativ-tradisionalist kişilər mədəniyyəti)

Bütün bu modellər öz cinsi xarakterinə görə universaldır. Adı çəkilən modellərin əksəriyyəti bir cinsin başqa cinsə münasibətdə institusional şəkildə möhkəmlənmiş dominantlığını aradan qaldırmağa qadir deyildir.

Keçmiş sovet məkanında ailə cəmiyyətdə əvvəllərdə olduğu kimi, yenə də patriarxallığın dayağı olmuşdur. Bu, iri miqyasda hər bir addımı yerli icma tərəfindən müəyyənləşdirilən saysız-hesabsız məhdudiyyətlərə düçar olan kənd qadınlarına da aiddir. Adətən, qadın hüquqlarının məhdudlaşdırılması necə var elə qəbul edilmir. Məsələn, Orta Asiya respublikalarında deyilənlərin itaətkarcasına dinlənməsi və yerinə yetirilməsi patriarxal ailələrdə ayrı-seçkiliyin xüsusi gizli növü kimi özünü göstərir, amma bu, adət-ənənə kimi qəbul olunur. Hər cür əməyin şərəfli olması ilə əlaqədar Sovet dövründə aparılan təbliğata baxmayaraq, cəmiyyətdə mədəni səviyyədə kök salmış peşə və fəaliyyət növlərinin iyerarxiyası olmuşdur və bu standartlar bütünlüklə mədəniyyətə, o cümlədən, dilə də nüfuz etmişdir. Dildə də bütövlükdə mədəniyyətdə olduğu kimi, qadının kişi tərəfindən dəyərləndirilməsi amili dominantlıq təşkil edir. Beləliklə, gender disbalansı linqvistik cins şəklində də formalaşır.

Hər ölkə dünya təcrübəsindən qidalanaraq öz sosial, siyasi, iqtisadi, mənəvi, hüquqi inkişafı və mentalitetinə uyğun inkişaf proqramı və onun daxilində gender və qadın problemləri ilə əlaqədar konkret və özünəməxsus modellər yaratmalıdır. Qeyd

etmək lazımdır ki, Azərbaycan qadını öz dəyanəti, iradəsi, ağlı, təfəkkürü, mərdliyi, mənəvi saflığı və kamilliyi ilə cəmiyyətimizin həyatında, xalqımızın milli-mənəvi dəyərlər sisteminin formalaşmasında olduqca əhəmiyyətli rol oynamışdır.

Fikrimizcə, dünyanın bir parçası olan Azərbaycanda fərqli bir mədəniyyət formalaşmışdır, bunun nəticəsində isə qeyd olunan problemin həlli istiqamətində müəyyən işlərin görülməsi bu cəmiyyətdə gender mədəniyyətinin təntənəsinə səbəb ola bilər.

Azərbaycanda gender mədəniyyəti mövzusunun xüsusi tədqiqat və geniş müzakirə obyekti olmasına ehtiyac danılmazdır. Gender mədəniyyətinə dair biliklərin təhlili və ümumiləşdirilməsi, əldə edilmiş elmi nəticələrin ictimai praktikada istifadəsi, maarifçilik yolu ilə gender mədəniyyəti prinsiplərinin sosial idrakda və ictimai fikirdə qərarlaşması ümummilli vəzifədir. Bu məsuliyyətli iş təxirəsalınmadan və ardıcıl surətdə həyata keçirilməlidir. Gender mədəniyyəti ideyası, onun dərin fəlsəfi-kateqorial mənası, məzmun-mahiyyəti geniş ictimaiyyətin nəzər-diqqətinə çatdırılmalıdır, insanlar bu məsələ ilə qayğılanmalı və yaşamalıdır. İlk öncə isə problemin alim-mütəxəssislər, ziyalılar, ictimai və siyasi xadimlər, QHT rəhbərləri və b. tərəfindən müzakirəsi, gender mədəniyyəti mövzusu ilə bağlı elmi konfrans, seminar-treninqlərin keçirilməsi, müvafiq tələblərə cavab verən əsərlərin, dərslik və vəsaitlərin yazılıb nəşr olunması məqsədəuyğundur.

Azərbaycanda gender mədəniyyətinin inkişafı cəmiyyəti təşkil edən üzvlərin mədəni səviyyəsi, hüquqi biliyi və ölkədə həyata keçirilən islahatların əhəmiyyəti ilə adekvatlıq təşkil edir və bütün əhali normal, stabil və sivil cəmiyyət quruculuğunda fəal iştirak etməlidir.

## 3. Sülh mədəniyyəti konsepsiyası və məqsədi

Sülh çox çətin əldə edilən və asanlıqla itirilən xoşbəxtlikdir. Onu həmişə qorumaq və möhkəmlətmək lazımdır. Bəşəriyyət daim əbədi sülh axtarışında olmuş, sülh, dinclik, əmin-amanlıq uğrunda mübarizə aparmışdır. Beləliklə, hüquqi dövlət, demokratik cəmiyyət quruculuğu prosesində sülh mədəniyyəti formalaşmışdır. Sülh mədəniyyəti bəşəriyyətin idealı ol-

muş, idealı olaraq da qalmaqdadır. Beynəlxalq təşkilatların — BMT-nin, UNESCO-nun nizamnamələrində sülh mədəniyyəti öz əksini tapmışdır. BMT nizamnaməsində göstərilir: "Birləşmiş Millətlərin xalqları, gələcək nəsilləri müharibə fəlakətindən xilas etmək qətiyyətilə insanların əsas hüquqlarına, insan şəxsiyyətinin ləyaqət və dəyərinə inam hissini yenidən təsdiq etmək və bu məqsədlərlə dözümlülük nümayiş etdirmək və mehriban qonşular kimi bir-biri ilə dinc yanaşı yaşamaq əzmindəyik".

Sülh mədəniyyətinin və ona nail olmaq üçün dəyərlər və anlayışlardakı zəruri olan dəyişikliklərin etik xarakterindən göründüyü kimi, qarşıya qoyulan belə bir sahənin tədrisi məqsədi konseptualdır. Məqsəd sülh mədəniyyəti, insan haqları və demokratiya problemləri haqqında konseptual vasitələrin tətbiqini genderə yönəltməkdir.

Sülh mədəniyyəti - qeyri-zorakılıq, zor işlətməmək prinsipi dünya dinləri - xristianlıq, buddizm və islamda habelə XVIII-XIX əsrlərin Qərbi Avropa filosofları və siyasətşünaslarının əsərlərində özünə geniş yer tapmışdır.

Bütün dinlər, bir qayda olaraq, xalqlar arasında, Allah və bəşəriyyət arasında barışın, insan və canlılar arasında ahəngdarlığın ilahi qanun əsasında bərqərar olmasını sosial sülh - ədalət əsasında cəmiyyət daxilində sülhün bərqərar olmasını bəşəriyyətin inkişafında mühüm addım hesab edir.

Sülh mədəniyyəti zəngin məzmuna malikiir. Buraya "Sülh mədəniyyəti" anlayışına aid edilən fəlsəfi, əxlaqi normalar daxildir.

Ümumiyyətlə, sülh mədəniyyətinin bir fenomen kimi çox dərin tarixi kökləri var. Belə ki, tanınmış italyan tarixçisi V.Mançelli beynəlxalq konfransların birində demişdir: "Xoşbəxtlikdən dünyada davakar siyasətçilərlə yanaşı, sülh barədə fikirləşən və pasifik fəlsəfəni formalaşdıran siyasətçilər də olmuşdur". Onlar sülh konsepsiyasını verməklə yanaşı, onun həyata keçməsi üçün çalışmışlar.

BMT bütün dünyada sülh və əmin-amanlığın təmin olunması, ixtilafların aradan qaldırılması və müharibəyə yol verilməməsi üçün çoxlu səylər edir. Amma beynəlxalq aləmdə böyük dövlətlər münaqişələri "həll etmək" üçün heç BMT-yə

məhəl qoymur və istədikləri kimi hərbi gücə əl atırlar. Hansı ölkəyə hərbi müdaxilə etmək istədikdə, onları dünya ictimaiyyətinin münasibəti zərrə qədər də olsa, maraqlandırmır.

Sülh mədəniyyətini, sülh fəlsəfəsini müharibə, savaş fəlsəfəsinə qarşı qoyanlar arasında L.Tolstoyun, M.Qandinin, F.M.Dostoyevskinin və Q.Toronun (Henry David Thoreau) adlarını xüsusi qeyd etmək olar. M.Qandi qeyri-zorakı yolla Hindistanda milli-azadlıq hərəkatına başçılıq etmiş, hindlilər və müsəlmanlar arasında sülh yaratmağa nail olmuşdur. XX əsrdə sülh mədəniyyətinin inkişafına Martin Lüter Kinq, A.Saxarov, A.Şveytser, V.Qabel də öz töhfələrini vermişlər. Çexlərin görkəmli ictimai xadimi V.Qabelin "hakimiyyətsiz hakimiyyət" ideyası bu sahədə xüsusi əhəmiyyət daşıyır.

Azərbaycan tədqiqatçısı Ə.Abbasov sülh mədəniyyətinin vətəndaş cəmiyyətinin inkişafında oynadığı rol haqqında yazır: "Demokratiyanın plürallığı şəraitində antimilitarist şüurun yaranması sülh mədəniyyətinin formalaşdırılması istiqamətində bütün siyasi sistemdə deyil, hələlik, yalnız vətəndaş cəmiyyətində olsa da, "patriarxallıq fəlsəfəsinin" korroziyasının ilk əlamətidir. Deməli, vətəndaş cəmiyyətində sülh mədəniyyəti mentallığının inkişafı - formalaşmış ümumbəşəri dünyagörüşünün dəyişdirilməsi yoludur ki, bu da totalitarizmdən demokratiyaya keçməkdə olan ölkələr üçün xüsusilə vacibdir. Qədəm qoymuş XXI əsr bəşəriyyətin, münaqişələrin həllinin güc metodlarının virtuallaşdırılması yollarının mənimsənilməsi dövrünə çevrilməlidir ki, bu da qısa vaxt ərzində sülh mədəniyyətinin və "yeni şüur fəlsəfəsinin" inkişafını tələb edir. Müasir dünyada sülh mədəniyyəti haqqında təsəvvürlər hələ də qeyri-müəyyəndir. Özü də onun əhəmiyyəti və aktuallığının qiymətləndirilməsində fikirlərin kəskin qütbləşməsi mövcuddur. Bununla bağlı əsas məsələ münaqişə tərəflərinə sülh mədəniyyətinin pozitiv və praqmatik rolunu nümayiş etdirməkdən, onun üstünlüklərini əyani surətdə göstərməklə və ətrafında yaranmış stereotip və mifləri tədricən dağıtmaqdan ibarətdir".

Sülh mədəniyyəti məğlubiyyət, milli maraqların nəzərə alınmaması deyil. Bu mədəniyyət milli maraqların müdafiəsi, tolerantlıq və kompromisin vəhdətindən ibarətdir.

Azərbaycan MEA-nın müxbir üzvü S.Xəlilov özünün məş-

hur “Lider. Dövlət. Cəmiyyət” əsərində sülh mədəniyyətinin mahiyyəti, strukturu haqqında ətraflı bəhs etmişdir: “Nədir sülh mədəniyyəti? Sülhü passiv mövqe kimi, milli maraqlar uğrunda mübarizədən əl çəkmək, təslimçilik əhvalı kimi başa düşənlər səhv edirlər. Daha doğrusu, beləleri “sülh mədəniyyəti”ndən uzaq olanlardır. Sülh mədəniyyəti sülhün mürəkkəb daxili quruluşunu, dinamikasını, dramatizmini dərk etmək, incə yollarla, qansız-qadasız mübarizə üsullarına yiyələnməkdir. Coğrafi-iqtisadi siyasət də, coğrafi trans-siyasət də, azad ticarət və iqtisadi məkan uğrunda mübarizə də “sülh mədəniyyəti”nin tərkib hissələridir”.

Sülh təhsili həmin sahəyə daxil olan bir çox müxtəlif mövzu və anlayışları əhatə edən geniş konsepsiyadır, daha sadə desək, təhsilin bir sahəsini əhatə edən və bir çox tərkib hissələrindən ibarət olan anlayışlardır. Sülh mədəniyyəti konsepsiyası həm də Sülh tədrisinin sosial məqsədlərini daha dolğun dərk etmək üçün aydınlıq gətirən bir anlayışdır. Bu şərhedici konsepsiyanı gender konsepsiyası ilə birləşdirməklə biz həmçinin sülh təhsilinin əhatə etdiyi real problemləri real insan həyatı baxımından dərk edə bilirik. BMT Baş Assambleyası Beynəlxalq Sülh Mədəniyyəti və Dünya Uşaqları üçün Zorakılıqsız Onillik elan etdikdə, BMT-nin Bəyannaməsi və Vahid Fəaliyyət Proqramında bəyan olunan Onilliyin (2000-2010) məqsədləri bütün dünyada milyonlarla insanlar tərəfindən Ümumdünya Sülh Mədəniyyəti kimi qəbul edildi. BMT-nin dünyanın müxtəlif yerlərində genderin gücləndirilməsi üzrə fəaliyyətini elan etməsi və müxtəlif mədəni kontekstlərdə inkişafı Sülh təhsili prosesinin bünövrəsini və məğzini təşkil edir.

UNESCO Sülh mədəniyyəti konsepsiyası və məqsədini inkişaf etdirməyi öz qarşısına bir vəzifə kimi qoyduqda o, bununla insan cəmiyyətinin sülh şəraitində yaşamaq istəyinə müharibənin və zorakılığın maneçilik törətdiyini bir daha təsdiqlədi. BMT-nin bəyan etdiyi Sülh Mədəniyyəti və Dünya Uşaqları üçün Zorakılıqsız Onillik “müharibə qamçısının” qadağan edilməsinə yönəlmiş mövcud qlobal siyasət və təşkilatlar çoxsaylı hərəkatlar yaratmış, kampaniyalar və ümumdünya konfransları keçirmişlər. Həmin hərəkatlar silahlar üzərində nəzarətə dair çoxsaylı sazişlər, gender bərabərliyi və ümumi insan

haqları üzrə dəyişiklik olunmuş beynəlxalq normalar və standartlar toplusu, inkişaf və yoxsulluq üzrə saysız layihələrlə nəticələnmişdir.

Lakin hələ də millətlər daxilində və millətlərarası müharibələr mövcud olaraq qalır. İnsan cəmiyyətləri siyasi, iqtisadi, sosial, mədəni, ekoloji və gender zorakılıqlarının müxtəlif formalarına məruz qalırlar.

Sülh mədəniyyətinin qarşısında duran əsas məsələlərindən biri də bir çox beynəlxalq və daxili münaqişələrin qarşısını almaqdır.

Sülh mədəniyyətini insanlara aşılamaqdan ötrü müvafiq metodoloji ədəbiyyatdan, dövrü mətbuatdan (qəzet, jurnal), tarixi sənədlərdən istifadə olunmalıdır. Sülh mədəniyyəti güc işlətməyə, insanların fundamental hüquq və azadlıqlarına hörmətə əsaslanan dəyərlər, əxlaq normaları və bunlara yanaşmaq qaydalarının vəhdətindən ibarətdir. Bu hüquqlar Ümumdünya İnsan Hüquqları Bəyannaməsində öz əksini tapmışdır. Sülh mədəniyyətində güc silahdan deyil, qarşılıqlı əlaqələrdən, dialoq və əməkdaşlıq prinsiplərindən doğur. Mübadilə, əməkdaşlıq və həmrəylik sahəsində qadınların qabiliyyət və bacarığı, gələcək nəslin tərbiyəsi və ailənin idarə olunması təcrübəsi sülh mədəniyyətinin inkişafı üçün olduqca vacibdir.

Sülh mədəniyyəti güclə qəbul etdirilə bilməz. Bu, müəyyən bir xalqın nümayəndələrinin inandırması və təsiri əsasında inkişaf edən bir prosesdir. Mozambikdə qoca bir kəndli UNESCO-nun nümayəndəsinə demişdir: “Siz müharibə mədəniyyətini təyyarədə və ya humanitar yardımı yük maşınında gətirə bilərsiniz, lakin siz bizə sülh mədəniyyətini gətirə bilməzsiniz, çünki o, kökləri bizim yerin çox dərinliklərinə gedən bir ağacdır”.

1998-ci ilin sonunda, UNESCO-nun təşəbbüsü ilə BMT 2000-ci ili rəsmən Sülh mədəniyyəti ili elan etmişdir. Bununla əlaqədar olaraq, Nobel mükafatları laureatlarının təşəbbüsü ilə 2000-ci ildə sülh manifesti hazırlandı və UNESCO bu təşəbbüsü bəyəndi. Azərbaycan Respublikası “Sülh manifestini” imzalayan ilk dövlətlərdən biri oldu.

Bundan əlavə UNESCO-nun təşəbbüsü ilə 2000-ci ilin BMT tərəfindən rəsmən “Sülh mədəniyyəti ili” elan edilməsini

nəzərə alaraq və ölkəmizin beynəlxalq tədbirlərdə daha yaxından iştirakını təmin etmək məqsədilə 2000-ci ilin Azərbaycan Respublikasında "Sülh mədəniyyəti ili" kimi geniş qeyd olunması və bununla əlaqədar Dövlət Komissiyasının yaradılması haqqında ölkə Prezidenti 28 dekabr 1999-cu il tarixində Sərəncam imzalamış və tədbirlər planına əsasən bir sıra tədbirlər həyata keçirilmişdir.

Sülh mədəniyyəti qeyri-zorakılığı, əsas hüquqlara və azadlıqlara hörmət, qarşılıqlı anlaşmaya, dözümlülüyə və həmrəyliyə, qadınların fəal iştiraka cəlb edilməsinə və onlara hakim funksiyaların tapşırılmasına, azad məlumat axınının qəbul edilməsinə və mübadiləsinə əsaslanmış ümumi məqsədlər, məqamlar, nəzərlər və davranışlar məcmusudur. Sülh mədəniyyətinin məqsədi elə bir dünya qurmaqdır ki, orada mədəniyyətin bütün müxtəlif növləri qarşılıqlı anlaşma və həmrəylik şəraitində mövcud olsun.

## 4. Sülh mədəniyyətində qadınların rolu

Qadınların sülh mədəniyyətindəki rolu onların hüquqlarının daha da genişlənməsinə və bununla da bərabərliyin, inkişafın və sülhün bərqərar olmasına səbəb olur.

Sülh, kişi-qadın bərabərliyi və inkişafı ilə ayrılmaz surətdə bağlıdır. Hərbi və xarici hakimiyyət, eləcə də terrorçuluq hələ də qadınların vəziyyətinin yaxşılaşmasına ciddi maneə olaraq qalır. Silahlı münaqişələr zamanı dinc əhaliyə, o cümlədən qadın və uşaqlara basqınlar onları məcburi köçməyə vadar edir, silahlı münaqişələr zamanı milli və beynəlxalq hüquq normaları pozulur, rəsmi və ya qeyri-rəsmi şəkildə uşaqlar hərbi xidmətə çağırılır və bu kimi məsələlər gender bərabərliyinə və qadın hüquqlarına mənfi təsir göstərir. Bütün dünyada əksəriyyətini qadınlar və uşaqlar təşkil edən qaçqınların tələbatlarının ödənilməsi üçün beynəlxalq təşkilatlar tərəfindən kifayət qədər resursların ayrılması və bu resursların düzgün qaydada bölüşdürülməsi sahəsində heç bir müvəffəqiyyət əldə edilməmişdir, çünki beynəlxalq yardım qaçqınların artan sayı ilə ayaqlaşmır. Dünyada gedən müharibələr zamanı məcburi köçkünlərin getdikcə artan sayı və onların, xüsusilə də qadın və uşaqların ehtiyaclarının təmini hələ də zərər çəkmiş ölkələr və onların

maliyyə resursları ikiqat yük olaraq qalmaqdadır.

Dünya üzrə təhlükəsizlik məsələləri, qlobal hərbi xərclər, silah alveri və silah istehsalına kapital qoyuluşu əldə olan mövcud vəsaitləri sosial iqtisadi inkişaf məqsədlərindən, xüsusilə də qadınların vəziyyətinin yaxşılaşdırılması işindən yayındırır. Bir çox ölkələrdə iqtisadi sanksiyalar mülki əhali, xüsusən qadın və uşaqlar üçün mənfi sosial və humanitar problemlərə gətirib çıxarmışdır.

Hərbi münaqişələr bəzi ölkələrdə beynəlxalq hüquq və Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olmayan məsələlərə gətirib çıxarır ki, bu da dövlətlərarası ticarət münasibətlərinə maneçilik törədir, sosial-iqtisadi inkişafın reallaşmasına imkan vermir, zərərçəkmiş ölkələrin əhalisinin həyat və məişətinə mənfi təsir göstərir və bu təsir özünü əsasən qadınların həyatında daha kəskin şəkildə biruzə verir.

Müharibə gender stereotiplərinə mənfi təsiri gücləndirir, qadınlara qarşı zorakılığı şiddətləndirir və hətta onu törədir. Bu şəraiti dəyişmək, sülh sistemi yarada bilmək və sülh mədəniyyətini gücləndirmək, həqiqətən, kişilərlə qadınların əməkdaşlığını tələb edir. Sülh qadınların və kişilərin hüquq bərabərliyi və ya inkişaf amili ilə möhkəm bağlıdır. Təcavüzkarlıq, xarici işğalçılıq, münaqişələrin etnik və digər zəmində təzahürü, dünyanın əksər regionlarında qadınlara və kişilərə təsir göstərən real həyat amilləridir.

Yaşadığımız dövrdə millətlər və xalqlar üçün ədaləti bərqərar edəcək bir sülh mədəniyyətinin tərbiyə olunması, aşılanması etibarlı sülhə nail olmaq üçün mühüm əhəmiyyət kəsb edir. UNESCO-nun "Qadınlar və sülh mədəniyyəti proqramı"-nın əsas məqsədi - gender perspektivini "Sülh mədəniyyətinə doğru" layihəsinə yönəltmək və fəaliyyət üçün "Pekin Platforması"nın tələblərini həyata keçirməkdən ibarətdir. Pekin Platforması təsdiq edir ki, qadınların hakimiyyət strukturlarında tam iştirakı və konfliktlərin qarşısını almağa yönəlmiş bütün səylərə cəlb olunması sülhü qorumaq və inkişaf etdirmək üçün vacib amildir.

Həmin proqramda aşağıdakılar xüsusi vurğulanır:

- gender bərabərliyi sülh mədəniyyətinin mütləq şərtidir;
- cəmiyyətin bütün səviyyələrində qadınların təcrübəsindən,

istedad, baxış və potensial imkanlarından tam istifadə edilməsi zəruridir.

Müharibə gender fərqlərinin və hər cinsə mənsub sosial dəyərlərin pozulmasına səbəb olan əsas amillərdəndir. Kişilər müharibəni planlaşdırır və gerçəkləşdirirlər. Müharibə və silahlı münaqişələrdən ən çox əziyyət çəkən isə qadınlar olur.

Silahlı münaqişələr zamanı qadınlardan sui-istifadələrin, o cümlədən onlara qarşı törədilmiş cinayətlərin cəzasız qalmasına son qoyulması problemlərinin həlli üçün milli və beynəlxalq səviyyələrdə təşəbbüslər göstərilir. Silahlı münaqişələr zamanı qadına qarşı zorakılıq probleminin həlli üçün keçmiş Yuqoslaviya və Ruanda üzrə Beynəlxalq Cinayət Tribunallarının işi mühüm əhəmiyyət kəsb edir.

Silahlı münaqişələr zamanı qadın hüquqları davamlı şəkildə pozulur. Bu isə beynəlxalq insan hüquqları qanunu və beynəlxalq hüquqa dair fundamental prinsiplərin pozulması deməkdir. Hərbi münaqişə şəraitində qadınlara qarşı zorakılığın bütün formaları, o cümlədən cinsi köləlik, zorlama, cinsi sui-istifadə, hamiləliyə məcbur etmə hallarının sayını artırır. Köçkünlük, yoxsulluq, boşanma, ailələrin dağılması və hərbi münaqişənin digər nəticələri evini və əmlakını itirən əhaliyə, xüsusən qadın və uşaqlara kəskin mənfi təsir göstərir. Hərbi münaqişələr zamanı beynəlxalq hüquqa zidd olaraq bəzən qızlar da hərbi əməliyyatlara cəlb edilir və ya oğurlanıb cinsi istismara məruz qalır, ya da ev xidmətçisi kimi istifadə olunurlar.

Beynəlxalq ictimaiyyət dövlətləri silahlı münaqişələr zamanı qadınları qorumağa, onların münaqişələrin qarşısının alınması, həlli və sülhyaradan proseslərdə iştirakını təmin etmək məqsədilə müvafiq tədbirlərin görülməsinə çağırır.

Hüquqi-demokratik dövlət, vətəndaş cəmiyyəti quruculuğu yolu ilə irəliləyən Azərbaycan sülh mədəniyyətinin bərqərar olduğu bir məkandır. Ölkəmizdə sülh mədəniyyətinin formalaşmasında və inkişafında Ulu öndər Heydər Əliyevin əvəzsiz xidməti olmuşdur və o da böyük Atatürk kimi “Cahanda sülh, ölkədə sülh” prinsipinə sadiq dahi şəxsiyyət idi. Lakin XX əsrin sonunda baş vermiş müharibə, başqa dövlətlərdə olduğu kimi, Azərbaycanın da tarixində qanlı izlər qoydu. Ermənistanın təcavüzü nəticəsində respublikamıza və xalqımıza ölçü-

yəgəlməz maddi və mənəvi zərər vurulmuş, uzun müddətdən bəri torpaqlarımızın 20 faizi işğal olunmuş, bir milyondan çox soydaşımız, ölkə əhalisinin hər səkkiz nəfərdən biri qaçqına və məcburi köçkünə çevrilmişdir. Doğma yurd yerlərindən didərgin düşmüş soydaşlarımız, həmçinin çadırlarda doğulmuş yüz mindən çox uşaq kütləvi surətdə bütün insan hüquqlarından məhrum olmuşdur. Məlumdur ki, müharibə dəhşətlərindən daha çox qadınlar və uşaqlar əziyyət çəkirlər.

Azərbaycanın zorla düçar olduğu müharibənin Ermənistanın əzəli torpaqlarımıza yersiz ərazi iddiaları ilə bağlı olduğunu bəyan edən Heydər Əliyev deyirdi: "Biz müharibə istəmirik, Ermənistanın torpaqlarına göz dikməmişik. Biz öz torpaqlarımızı, öz ərazimizi, öz Vətənimizi qoruyuruq".

Sülh mədəniyyətinə birtərəfli yanaşmaq düzgün deyildir. Bu mənada, Ulu öndərin münaqişəni həll etmək, sülhə nail olmaq konsepsiyası dahiyanə düşünülmüş sülh fəlsəfəsidir: "Əgər torpağımız sülh yolu ilə azad olunmazsa, biz nəyin bahasına olursa-olsun, torpaqlarımızı azad edəcəyik. Dünya bilməlidir, hamı bilməlidir və o cümlədən, Ermənistan tərəfi də bilməlidir ki, biz heç vaxt torpaqlarımızın bir metrini də, bir qarışını da heç kəsə verməyəcəyik. Dünya belə qalmayacaq. Heç kəs güman etməsin ki, torpaqlarımızın bir hissəsi - Dağlıq Qarabağ, yaxud başqa bir hissəsi zorla əlimizdən alına bilər. Xeyr, biz bununla heç vaxt razı ola bilmərik və heç vaxt razı olmayacağıq. Bizim xalqımız heç vaxt bununla razı ola bilməz, Azərbaycan Prezidenti heç vaxt bununla razı ola bilməz!".

Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə atəşkəsə nail olması, sülh dəyərlərinin əsas daşıyıcılarından olan Azərbaycan qadınlarına sülhün bərqərar olmasında və sülh mədəniyyətindəki rollarının artırılmasında irəliyə doğru təkan verdi. O, qadınların sülh təşəbbüslərini müdafiə etməklə yanaşı, onların demokratik proseslərdə iştirakına şərait yaratdı. Sülh quruculuq işləri: münaqişələrin qarşısının alınması, onların həll edilməsi istiqamətində dəyirmi masaların, seminarların, görüşlərin təşkili ölkədə formalaşan vətəndaş cəmiyyəti fəaliyyətinin tərkib hissəsinə çevrildi.

Qadınlarımızın sülh quruculuğu prosesindəki fəaliyyətinə nəzər salsaq görərik ki, hələ 1992-ci ildə hərbi əməliyyatların

getdiyi müddətdə "Sülh Karvanı" adlı beynəlxalq aksiya təşkil edildi. Yerevan və Bakıda aparılan belə aksiyaların məqsədi geosiyasi maraqların münaqişəyə səbəb olmasını açıqlamaq idi. 1994-cü ildə "Qazax-İcevan" sərhədində qadınlar və gənclər arasında məramı "Müharibəyə yox!" demək olan görüş keçirildi. Görüşdə qadınlar özgə torpağında hərbi qulluğun keçirilməsinə qarşı dair aksiyalar təşkil etdilər. 1996-cı ildə "Qadınların Zaqafqaziyada dialoqu" yarandı. Gürcüstanda və ABŞ-da bu dialoq çərçivəsində görüşlər keçirildi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 29 dekabr 1999-cu il tarixli ölkəmizdə "2000-ci ilin Sülh Mədəniyyəti ili" olması haqqında Fərmanı ilə əlaqədar Qadın Problemləri üzrə Dövlət Komitəsi BMT ilə birgə konfrans keçirdi.

Qadınlar çox vaxt silah və sözlə ədalətin, sosial islahatların xeyrinə bütün dünyada mübarizə aparırlar, lakin qadınlar sülh danışıqlarında, konfliktin həllinə həsr olunmuş forumlarda nadir hallarda iştirak edirlər. Bununla belə, onlar konfliktin müxtəlif həlli yollarını özünəməxsus şəkildə axtarmağa daim çalışmışlar. Sülhlə bağlı müxtəlif qeyri-hökumət təşkilatlarında qadınların iştirakı keçən əsrdə geniş vüsət almışdı: onlar müxtəlif sülh təşəbbüsləri, tədbirləri və proqramları ilə çıxış etmişlər. Bu təşəbbüslər onu göstərir ki, qadınların sülhə, təhlükəsizliyə və digər qlobal problemlərə yanaşmasında, kişilərdən fərqli olaraq, daha çox təşəbbüsləri var.

"BMT Təhlükəsizlik Şurasının 1325 saylı Qətnaməsinin 10 illiyi: nailiyyətlər, perspektivlər" mövzusunda konfransda Müvəkkil qadınların cəmiyyətin inkişafında, sabitlik və harmoniya yaradılmasında, sülh və təhlükəsizliyin qorunmasında səylərinin birləşdirilməsinin çox mühüm olduğunu vurğulamışdır. Ombudsmanın təşəbbüsü ilə ölkəmizdə hər il ənənəvi olaraq "Sülh aylığı" keçirilir, sülh mövzusunda və insan hüquqları üzrə silsilə tədbirlər, dəyirmi masalar, seminarlar, sərgilər təşkil olunur. Müvəkkilin sülh dialoqunun, sülh mədəniyyətinin, mədəniyyətlərarası, dinlərarası dialoqun yaradılması, dinlərin sülh körpüsünə çevrilməsi, vətəndaş cəmiyyətinin inkişaf etdirilməsi, bu istiqamətdə ixtisaslaşmış QHT-lərin yaradılması, qaçqın və məcburi köçkünlər arasında maarifləndirmə işi aparmaqla onların böyük repatriasiya, qayıdış prosesinə hazırlanması,

bu işdə dövlət qurumları, QHT-lər və beynəlxalq təşkilatların səylərinin birləşdirilməsi kimi təklifləri də çox önəmlidir.

Sülhün qədrini müharibə dəhşətlərini yaşamış xalqlar daha yaxşı bilirlər. Müharibənin canlı şahidi olan qadınlar həmişə sülh tərəfdarı olmuşlar. Adətən, qadınlar sülhpərvər kimi təsvir edilir və onların sülhə olan xüsusi rəğbətini analıq xisləti, qayğısı ilə əlaqələndirirlər. Nüvə silahına qarşı çıxan avstraliyalı qadın Helin Keldikotun (Helen Caldicott) yazdığı kimi, "...Ana kimi, biz dünyanın övladlarımız üçün sakit və dinc olmağına əmin olmalıyıq. Mən xüsusən qadınlara müraciət edirəm... çünki, biz həyatın mənşəyini yaxşı anlayırıq".

Əlbəttə dinindən, dilindən asılı olmayaraq, dünyada insanlara həyat bağışlayan qadınlar harada olursa-olsun, müharibəyə öz nifrətlərini bildirirlər. Onlar övladlarının dinc səma altında böyüməsini istəyirlər, qadınlar müharibəyə nifrət edərək sülhü seçirlər. Digər tərəfdən isə, müxtəlif mədəniyyətlər sülh məsələsində qadınların xüsusi rol oynadığını vurğulayır. Qadınlar "analıq simvolunu" əldə bayraq tutaraq böyük hərəkatlara qoşulmuşlar.

Qadınlar çox gözəl başa düşürlər ki, sülh yalnız müharibənin olmamasından ibarət deyildir. Sülh daha çox nailiyyətləri əhatə edir. Pekin konfransının müraciətində deyilir: "Biz, aşağıda imza atanlar, müxtəlif mədəniyyətlərə, dini baxışlara, etnik və sosial qruplara aid olan bütün qadın və kişiləri bizimlə həmrəy olmağa çağırırıq. Ancaq bərabərlik, əməkdaşlıq, tərəf müqabilliyi əsasında maneələrə, çarəsizliyə və süstlüyə qarşı mübarizə apara bilərik. Biz bir yerdə problemlərin mahiyyətini dərk edib, sülh mədəniyyətindən sülh mədəniyyətinə konkret addımlar ata bilərik".

## 5. İslamda qadın və kişilərə verilən bərabər dəyərlər

Dinlər müxtəlif mərhələlərdən keçərək, günümüzə qədər gəlib çıxmışlar. İbtidai qəbilə dinləri, milli dinlər və cahanşümul qəbul edilən dinlər müasir insanın inandığı dəyərlər sistemləridir. Bu dəyərlər sisteminin ən sonuncusu və ən gənci İslam dinidir. İslamdan əvvəl qadınlar bütün dünyada əhəmiyyətli sayılan heç bir haqqa malik deyildilər, onların heç bir statusu və dəyəri yox idi. Qız uşağının dünyaya gəlməsi bir ata

üçün ən böyük ayıb və üzqızardan xəbər idi. Qadının demək olar ki, kişinin başqa əşyalarından fərqi yox idi. Amma Quranın nazil olması bütün bu məsələləri kökündən dəyişdi. İslam dini qadını cəmiyyətin nəzərindəki qeyri-ədalətli vəziyyətdən çıxararaq müasir dünyanın yeni olaraq verdiyi haqları 1400 il əvvəl bəxş edərək, cinslər arasındakı uçurumu aradan qaldırdı. Bəzi başqa etiqadlardan fərqli olaraq, İslam dini nə oğlan, nə də qız uşağının dünyaya günahkar olaraq deyil, tam günahsız gəldiyini bəyan etdi. Qadın və kişi sözlərinin Quranda eyni sayda - 23 dəfə zikr edilməsi də İslamın qadın-kişi bərabərliyi ilə bağlı ən gözəl əyani sübutudur.

İslam dini gəldiyi andan etibarən qadınların məruz qaldıqları sıxıntıları aradan qaldırmağa başladı. “Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız pis əməllərdən ən çox çəkinəninizdir. Həqiqətən, Allah hər şeyi biləndir, hər şeydən xəbərdardır” *(“Hucurat” surəsi,13.)*; “Ey səhabələrim və ümmətim, övladlarınızın arasında eyni cür davranın. Mən övladlardan birini üstün tutsaydım, qadını daha üstün qəbul edər və onları seçərdim”. *(Həzrəti Muhəmməd)*

İslam dini maddi və mənəvi cəhətdən təhqir olunan qadının köməyinə gəldi. Allah Quranda hər kəsin kişi və qadın olmasından asılı olmayaraq, qazandıqlarında öz payı olduğunu bildirir: “Allahın birinizi digərinizdən üstün tutduğu (birinizə digərinizdən artıq verdiyi) şeyi arzulamayın. Kişilərin öz qazandıqlarından öz payı, qadınların da öz qazandıqlarından öz payı vardır. Allahın lütfündən istəyin! Şübhəsiz ki, Allah hər şeyi biləndir” *(“Nisa” surəsi, 32).* Allahın bəyan etdiyi bütün bu ayələrdən də aydın olduğu kimi, üstünlük qadın və ya kişi olmaqda, fiziki və maddi gücdə deyil, yeganə üstünlük insanın Allahın buyurduqlarını yerinə yetirməsi səviyyəsində, Ona olan bağlılığındadır. Quranda: “Şübhəsiz ki, sədəqə verən kişi və qadınlar, Allah yolunda gözəl borc verənlər üçün əməllərinin savabı qat-qat artırılacaqdır. Onları həm də çox qiymətli bir mükafat gözləyir!” *(“Hədid” surəsi, 18),* - yazılaraq həm kişilərə, həm də qadınlara əsl üstünlüyün Allahın bildirdiyi əxlaqı yaşamaqla əldə ediləcəyi xəbər verilir. İslam əxlaqına görə,

insanın qadın və ya kişi olması əsas deyil. Əsas olan Allaha iman gətirmək və buna uyğun davranmaqdır.

Quranda inanan qadınların və kişilərin xüsusiyyətlərindən belə bəhs edilir: "Mömin kişilərlə mömin qadınlar bir-birinə həyandırlar. Onlar insanlara yaxşı işlər görməyi əmr edər, pis işləri yasaq edər, namaz qılıb zəkat verər, Allaha və Peyğəmbərinə itaət edərlər. Allah, əlbəttə ki, onlara rəhm edəcəkdir. Allah, həqiqətən, yenilməz qüvvət, hikmət sahibidir!" *("Tövbə" surəsi, 71).*

İslamda qadın və kişi arasındakı bərabərlik qadına və kişiyə dünya həyatındakı "imtahan müddətində" bərabər haqlar verilməsindən də aydın olur: "İstər kişi, istərsə də qadın olsun, Mən heç birinizin əməlini puça çıxarmaram. Siz bir-birinizdənsiniz. Hicrət edənlərin, öz yurdlarından çıxarılanların, Mənim yolumda əziyyətə düçar olanların, vuruşanların və öldürülənlərin günahlarının üstünü Allahdan bir mükafat olaraq, əlbəttə, örtəcək və onları altından çaylar axan cənnətlərə daxil edəcəyəm. Ən yaxşı mükafat Allah yanındadır!" *("Al-İmran" surəsi, 195);* "Mömin olub yaxşı işlər görən kişi və qadına xoş həyat nəsib edəcək və etdikləri yaxşı əməllərə görə mükafatlarını verəcəyik" *("Nəhl" surəsi, 97).*

Bəzi insanlar Allaha dua edib övlad istəyərkən oğlan uşaqlarının olmasını arzulayırlar. Lakin İslam dini övlad üçün dua edərkən xeyirli və saleh övlad istəməyi tövsiyə edir. Bəzən din insanlar arasında öz maraqları üçün istifadədə bir alət olmuş və olaraq qalmaqdadır. Bəzən dini dəyərləri təhrif edərək, təbliğ etmək ideyasının əsasında cinslərin sosial iyerarxiyasını qoruyub saxlamaq və cəmiyyətdə qadınlara qarşı olan gizli ayrı-seçkiliyi müdafiə etmək dayanır. Amma Quran ayələrinə ümumi şəkildə nəzər salanda, Allahın qadına və kişiyə eyni cür səslənişini görmək olar. İslamda qadınla kişinin cəmiyyətdəki yeri tam bərabərdir.

### 6. Azərbaycanda dini etiqad və tolerantlıq

Tarix boyu Azərbaycanda ayrı-ayrı milli azlıqlar, müxtəlif din daşıyıcıları, təriqət sahibləri bərabər şəkildə yaşayaraq, öz ayinlərini azad şəkildə yerinə yetiriblər. Azərbaycanda yaşayan müxtəlif xalqların mənəvi yaddaş tarixi müxtəlif inkişaf mər-

hələsində zərdüştlükdən üzübəri dünyanın bütün əsas dinlərinin ən ülvi, bəşəri dəyərləri ilə zənginləşərək, mədəniyyət və mənəviyyatın çoxsaylı cəhətlərini özündə miras saxlamışdır. Azərbaycan tarixən də polietnik və müxtəlif dinli ölkə olmuşdur. Əhalisinin əksəriyyəti azərbaycanlı olan ölkəmizdə ta qədimdən İran, Qafqaz (gürcü, erməni, osetin və s.) etnosları, eləcə də yəhudi, rus, ukraynalı, tatar, belorus və başqaları da yaşamışlar.

Sovet İttifaqının dağılması regionda dini dözümlülük ənənələri üçün əsl sınağa çevrildi. Bu proseslərin nəticəsində keçmiş müttəfiq respublikaların xalqları müstəqilliklə yanaşı, əsl dini etiqad azadlığı da əldə etdilər. Azərbaycandakı mövcud tolerantlığın əsasları üçün ən böyük təhlükəni minlərlə dinc sakinin ölümünə və bir milyondan çox soydaşımızın doğma yurdlarından didərgin düşməsinə səbəb olan erməni təcavüzü yaratdı.

Müasir Azərbaycan dövlət-din münasibətləri modeli çərçivəsində bütün dini konfessiyalar qanun qarşısında bərabərdir və eyni statusa malikdirlər. Ölkə vətəndaşlarının əksəriyyətini təşkil edən müsəlmanlarla bərabər, digər dinlərin təmsilçilərinin hüquqlarına da təminat verilir. Belə ki, 1909-cu ildə məşhur Azərbaycan milyonçusu və xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyevin şəxsi maddi imkanı və ianələr hesabına inşa edilmiş, 1920-ci ildə bağlanmış Müqəddəs Mürdaşıyan Zənənlər Kafedralı və ya "Jen Mironosits" pravoslav kafedral kilsəsinin binası 1991-ci ildə Rus Pravoslav Kilsəsinə verilmişdir. Azərbaycanda səfərdə olan Moskvanın və bütün Rusiyanın Patriarxı II Aleksiy 27 may 2001-ci il tarixdə bu məbədi müqəddəs elan etmiş və ona baş kafedral kilsə statusu vermişdir. Açılış mərasimində prezident Heydər Əliyev, hökumət üzvləri, səfirliklərin nümayəndələri və dini icmaların başçıları iştirak etmişlər.

Qeyd etmək lazımdır ki, Allah evinin bərpasını Moskvada yaşayan azərbaycanlı iş adamı, dini mənsubiyyətinə görə müsəlman olan Aydın Qurbanov öz üzərinə götürmüşdür. Onun vəsaiti hesabına baş kafedral kilsə qısa bir zamanda bərpa edilərək dindarların ixtiyarına verilmişdir. Bundan başqa, 1999-2001-ci illərdə paytaxtda digər pravoslav məbədi-Müqəddəs Məryamın Miladı baş kilsəsi bərpa olunmuşdur. Polşalı keşiş

Yerji Pilyusun səyləri nəticəsində qeydiyyatdan keçən respublikanın katolik icması da hakimiyyətin qayğısından kənarda qalmır. İlk iclaslar dindarların mənzillərində keçirilirdi, 2000-ci ildə isə bu məqsədlər üçün bina alınmış və o, kiçik kilsəyə çevrilmişdi. Katolik icmasında Vatikanın təyin etdiyi iki keşiş xidmət göstərir, ibadətlər bazar və dini bayram günləri yerinə yetirilirdi. Hazırda respublikanın paytaxtında layihəsi Vatikan ilə razılaşdırılmış katolik kilsə inşa olunub. Öz xarici görkəminə görə o, əvvəllər Bakıda olan katolik kilsəsinə bənzəyir.

Azərbaycandakı yəhudilərə göstərilən ehtirama gəldikdə isə Quba rayonunda yerləşən "Qırmızı Qəsəbə"ni də qeyd etmək lazımdır. Bura keçmiş sovetlər məkanında yəhudilərin yığcam yaşadığı yeganə yerlərdən biridir (3500-dən çox əhalisi var). Azərbaycanda sovet hakimiyyətinin qurulmasına qədər qəsəbədə 11 sinaqoq var idi. Sovet dövründə onlardan yalnız biri fəaliyyət göstərirdi. 1996-cı ildən sonra dövlət tərəfindən daha iki sinaqoq bərpa olunmuşdur. 2001-ci ilin oktyabr ayında Azərbaycanın hökumət nümayəndələrinin və dünyanın bir çox ölkələrindən gələn qonaqların iştirakı ilə ikimərtəbəli, altıgümbəzli sinaqoqun bərpasına həsr olunmuş təntənəli mərasim keçirilmişdi. Azərbaycanda antisemitizmə heç vaxt yer olmayıb və hazırda da yoxdur.

Hazırda azərbaycanlılara məxsus Qərbi Azərbaycanda, Qarabağ və işğal olunmuş ətraf ərazilərdə bir çox məscidlər, ibadətgahlar erməni hərbi qüvvələri tərəfindən dağıdılıb və xarabalığa çevrilib. Digər tərəfdən, Bakıdakı Müqəddəs Qriqori Kilsəsi (Bakı Erməni Kilsəsi) dövlət tərəfindən qorunur.

Azərbaycanın dinlərarası dialoq və əməkdaşlıq sahəsində nadir təcrübəsi xaricdə yüksək qiymətləndirilmiş və tanınmışdır.

Qeyd etmək lazımdır ki, ölkə rəhbərliyi mütəmadi olaraq dini icmaların liderləri ilə görüşür, onların ehtiyac və problemlərinə maraq göstərir. Prezident İlham Əliyev müntəzəm olaraq ölkənin xristian və yəhudi icmalarını əsas dini bayramları münasibətilə təbrik edir. Bu müraciətlərdə qeyd olunur ki, tarixən respublikamızda formalaşmış tolerantlıq və dözümlülük Azərbaycan cəmiyyətini səciyyələndirən gözəl bir ənənəyə çevrilmişdir.

SSRİ dağıldıqdan sonra sovet məkanında mövcud olan bütün müsəlman dini təşkilatları böhrana məruz qaldığı, parçalandığı halda, Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi öz fəaliyyət dairəsini daha da genişləndirmişdir. 1998-ci ildə Bakıda Qafqaz müsəlmanlarının 10-cu qurultayı keçirilmişdir. Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Gürcüstanda və Dağıstanda da nümayəndəlikləri açılmışdır. QMİ beynəlxalq islam təşkilatları ilə əlaqəsini ardıcıl şəkildə təmin edir, qonşu müsəlman ölkələri ilə dini zəmində sıx əlaqələr yaradır. Bu gün QMİ öz səlahiyyətləri çərçivəsində Azərbaycanda islam dini icmalarına rəhbərlik edir, şəriət qayda-qanunlarının düzgün yerinə yetirilməsinə nəzarət edir. 1991-ci ildə yaradılmış Bakı İslam Universiteti ruhani kadrların yetişdirilməsi sahəsində böyük iş görür. Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsində də 1992-ci ildən ilahiyyatçı və islamşünas mütəxəssislər hazırlanır.

Ölkəmizdə eyni bir doğma ailə kimi yaşayan, tarixi gerçəklik, genetik-etnik yaddaş və qarşılıqlı münasibətlərin ötürücüsü olan müxtəlif xalqların nümayəndələri - talış, ləzgi, avar, kürd, tatar, udin, tat və başqaları da özünü azərbaycanlı adlandırır. Müstəqil Azərbaycan konstitusiyasında ölkə əhalisi multikulturalizm siyasəti kontekstində Konstitusiyada vətəndaşların cəmindən ibarət əhali "Azərbaycan xalqı" kimi təsbit olunubdur. Azərbaycan, vətəndaş birliyi, vətəndaş həmrəyliyi olduğuna görə, tolerant bir ölkədir. Tolerantlıq bizim böyük sərvətimiz, nailiyyətimizdir. Azərbaycanda bütün dinlərə məxsus olan abidələrdə təmir-bərpa işləri gedir, yüzlərlə yeni məscid tikilmişdir. Digər dinlərin məbədləri tikilir, təmir olunur və gələcəkdə də tikiləcəkdir. Bu, onu göstərir ki, Azərbaycanda bu sahədə heç bir ayrı-seçkilik yoxdur. Millətini sevən, dininə hörmətlə yanaşan insan başqa millətdən olan insanları da sevməli, başqa dinlərə də hörmətlə yanaşmalıdır. 2011-ci il 7-9 aprel tarixlərində Azərbaycan Respublikasında 102 dövlətin və 10-dan artıq beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir. Mədəniyyətlərarası dialoqun müxtəliflik və plüralizmlə səciyyələnən müasir cəmiyyətlərdə ayrı-ayrı aspektlərinin nəzərdən keçirilməsi, yerli, regional və qlobal səviyyələrdə güclən-

dirilməsinə təşviq edilməsi Forumun əsas məqsədi olmuşdur.

2012-ci ilin dekabr ayında keçirilmiş “Dövlət və din: dəyişən dünyada tolerantlığın gücləndirilməsi” I Beynəlxalq Bakı Forumunda Azərbaycanda dinlərarası əlaqələrin, tolerantlığın olduğu vurğulanmış, qeyd edilmişdir ki, bu, əsrlərdən bəri formalaşan köklü bir ənənədir.

Azərbaycanda keçirilən tədbirlər sırasında “Mədəniyyətlərarası dialoq: mədəniyyət və din arasında qarşılıqlı əlaqə” mövzusunda mədəniyyətlərarası dialoqun Din ölçüsü üzrə Avropa Şurasının mübadilə görüşü (1-2 sentyabr 2014), “Dinlərarası qarşılıqlı anlaşma: birgəyaşayışın modelləri” mövzusunda Azərbaycanın dini tolerantlıq modelinə həsr olunmuş Beynəlxalq konfrans (UNESCO 14 noyabr 2014), “Dini tolerantlığın möhkəmləndirilməsi (Azərbaycan modeli, ATƏT regionu və onun hüdudlarından kənarda çağırışlar)” mövzusunda Beynəlxalq konfrans (17-18 noyabr 2014), “İslam ənənəli dövlətlərdə dini birgəyaşayış. Müsəlman ölkəsində müxtəlif dinlərin yanaşı mövcudluğu: Azərbaycan təcrübəsi” mövzusunda Beynəlxalq konfrans (11dekabr 2014) çox mühüm əhəmiyyət kəsb edir.

2014-cü il sentyabrın 26-da Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 69-cu sessiyası çərçivəsində BMT-nin Sivilizasiyalar Alyansı Dostlar Qrupunun Nazirlər Toplantısında Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun 2016-cı ildə Azərbaycan Respublikasının paytaxtında keçirilməsi barədə qərar qəbul edilmişdi. 2016-cı ilin aprelin 25-dən 27-dək Bakıda keçirilən bu tədbirdə bir daha vurğulanmışdır ki, Azərbaycanda müxtəlif etnik qrupların mövcudluğu üçün bütün mümkün şərait yaradılmışdır.

Qeyd etmək lazımdır ki, ölkəmizdə mədəni müxtəliflik etnik azlıqların sadəcə cəmlənməsi kimi başa düşülmür, Azərbaycan ümummilli həmrəyliyin inkişafı və dinlərarası əməkdaşlıq üçün əlverişli mühitdir. Başqa sözlə, etnik, dini və digər mənsubiyyətindən asılı olmayaraq, ərazisində məskunlaşan hər bir vətəndaş Azərbaycanın sərvətidir.

**Tələbələrin biliklərinin qiymətləndirilməsi üçün suallar:**

1. Mədəni müxtəliflik və multikulturalizm nədir?
2. “Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında” Konvensiyanın məqsədləri hansılardır?
3. “Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında” Konvensiyanın əsas prinsipləri.
4. Multikulturalizmin “ Azərbaycan modeli”.
5. Genderin sosial-mədəni kateqoriya anlamı nəyə əsaslanır?
6. Sülh mədəniyyəti konsepsiyası nədən ibarətdir?
7. Azərbaycanda dini etiqad və tolerantlıq
8. Azərbaycanda sülh mədəniyyətində qadınların rolu.
9. İslamda qadın və kişilərə verilən dəyərlər bərabərdirmi?

## Mühazirə 9. Beynəlxalq sənədlərdə qadın hüquqları Pekin Bəyannaməsi və Fəaliyyət Platforması

1. ***Azərbaycan Respublikasının xarici siyasətinin qadın hüquqlarına təsiri***
2. ***Qadın hüquqlarının müdafiəsi sahəsində beynəlxalq müqavilələr***
3. ***Qadın hüquqlarını tənzimləyən beynəlxalq təşkilatlarda Azərbaycan Respublikasının üzvlüyü***
4. ***Qadınların vəziyyətinə dair Ümumdünya Konfransları***
5. ***Pekin Bəyannaməsi və Fəaliyyət Platformasə***

### 1. Azərbaycan Respublikasının xarici siyasətinin qadın hüquqlarına təsiri

Bu bir həqiqətdir ki, tarixin bütün dövrlərində və dünyanın hər bir məkanında qadın hüquqlarına münasibət həmişə gündəmdə olmuşdur.

Azərbaycan Respublikası dövlət müstəqilliyinin kifayət qədər ziddiyyətlərlə dolu bir dövr kimi xarakterizə edilən ilk illərində təəssüf ki, beynəlxalq birliyə inteqrasiya sahəsində ciddi problemlər yaşamış və 1993-cü ilə qədər faktiki olaraq gender bərabərliyi istiqamətində heç bir addım atılmamışdır.

Ölkəmizin qadın hüquqları sahəsində xarici siyasət fəaliyyətinin formalaşması və prioritet vəzifələrin müəyyənləşməsi Prezident Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun dövründə Azərbaycanın beynəlxalq münasibətlər sistemində iştirakı və özünəməxsus mövqe qazanması üçün lazımi tədbirlər görüldü.

1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev ilk günlərdən Azərbaycanın xarici siyasətini yeniləşdirdi və ölkənin strateji maraqları əsasında yenidən qurdu. Heydər Əliyev, ilk növbədə, keçmiş hakimiyyətin xarici siyasət sahəsində buraxdığı kobud səhvləri və bunun nəticəsində Azərbaycan ətrafında formalaşmış gərgin beynəlxalq siyasi vəziyyəti aradan qaldırmaq istiqamətində iş aparmağa, ölkənin strateji maraqlarını region dövlətlərinin və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqları ilə uzlaşdırmağa yönəlmiş siyasət yürütməyə başladı.

Hələ Milli Məclisin sədri seçilərkən Heydər Əliyev xarici siyasətin başlıca vəzifələrini və istiqamətlərini müəyyənləşdirdi: "Azərbaycanın müstəqilliyini təmin edən atributlardan biri xarici siyasətdir, Azərbaycanın sağlam xarici siyasəti olmalıdır, düşünülmüş xarici siyasəti olmalıdır, uzaqgörən xarici siyasəti olmalıdır, elə xarici siyasəti olmalıdır ki, Azərbaycanı dünya dövlətləri birliyinə bağlasın, Azərbaycanın bütün dövlətlərlə əlaqəsini, Azərbaycanın mənafeyini təmin etsin və Azərbaycanı de-fakto dünya miqyasında bir müstəqil dövlət kimi tanıtmağı təmin edə bilsin. Azərbaycanın indiyə qədər belə sağlam düşüncəli xarici siyasəti olmayıbdır".

Bunun ən önəmli nəticələrindən biri də ondan ibarət oldu ki, artıq həqiqi müstəqillik yoluna qədəm qoymuş Azərbaycana dünya birliyi ölkələrinin, beynəlxalq təşkilat və iş dairələrinin marağı artmağa başladı.

Belə vəziyyət isə Azərbaycana milyardlarla dollar xarici investisiyaların daxil olmasını təmin etməklə və onun dünyada mövqelərini möhkəmləndirməklə yanaşı, beynəlxalq hüququn daha güclü müstəqil subyektinə çevrilməsinə təkan verməkdə idi.

Azərbaycanın düzgün müəyyən edilmiş inkişaf kursunda demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridilməsi, vətəndaş cəmiyyətinin, xüsusən də insan hüquq və azadlıqlarının, o cümlədən də qadın hüquqlarının və gender bərabərliyinin təmin olunmasına mühüm yer verilib. Çünki bütün bunlar olmadan beynəlxalq birliyə, ilk növbədə isə Avroatlantik məkana istər hüquqi, istərsə də digər zəmində davamlı inteqrasiyası mümkünsüz idi.

Faydalı iqtisadi əməkdaşlıq isə öz növbəsində, siyasi münasibətlərin dərinləşməsi, qarşılıqlı etimadın güclənməsi yolunda mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanın dünya ölkələri ilə qarşılıqlı əlaqələrinin genişlənməsinə və beynəlxalq mövqelərinin möhkəmlənməsinə güclü təkan verdi. "Əsrin müqaviləsi" və sonrakı dövrdə imzalanmış çoxsaylı neft kontraktları Azərbaycanın dünya birliyinə inteqrasiyasını gücləndirir, qarşılıqlı faydalı əməkdaşlığın

inkişafı üçün ortaq təmas nöqtələrinin geniş şəbəkəyə malik olduğunu nümayiş etdirir.

Bütün bunlar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dünya birliyinin baxışlarının dəyişməsində də mühüm rol oynamaqla yanaşı, beynəlxalq ictimaiyyətin ölkəmizin ərazi bütövlüyünə, ədalətli mövqeyinə daha böyük dəstək verməsinə səbəb olmuşdur. Dünya aydın görürdü ki, Ermənistandan fərqli olaraq, Azərbaycan sərhədlərin toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə, sülhə, beynəlxalq hüquq normalarına sadiqdir və Dağlıq Qarabağ münaqişəsinin həllində məhz bu prinsiplərin tətbiq olunmasını istəyir. Azərbaycan diplomatiyası bu dövrdə bütün gücünü müstəqil dövlətimizin dünyada tanınmasına, onun beynəlxalq nüfuzunun artmasına, ictimai-siyasi, iqtisadi və mənəvi həyatın bütün sahələrində dünya birliyinə inteqrasiya olunmasına yönəldərək, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin, respublikamızın ərazi bütövlüyü problemlərinin həllinə əlverişli beynəlxalq dəstəyin təmin edilməsi zərurəti ilə qarşılaşmışdır. Bunun üçün bu problemin dünya səviyyəsinə çıxarılması və həlli ilə bağlı xüsusi bir konsepsiya hazırlanmış və bəzi konkret vəzifələrin həyata keçirilməsini nəzərdə tutan ardıcıl siyasi kurs yeridilmişdir.

Azərbaycan qısa müddət ərzində BMT, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, İslam Konfransı Təşkilatı, Türk Dövlətləri Birliyi, Müstəqil Dövlətlər Birliyi, Beynəlxalq Valyuta Fondu, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Ümumdünya Bərpa və İnkişaf Bankı və İslam İnkişaf Bankının üzvü oldu, Parlamentlərarası İttifaq, Avropa İttifaqı, Avropa Şurası, Avropa Parlamenti, NATO və başqa beynəlxalq və regional qurumlarla qarşılıqlı faydalı əlaqələr yaratdı. Bununla da, Azərbaycan dövləti qadın hüquqlarının qorunması sahəsində dünya təcrübəsini öyrənərək, özünün gender siyasətini müəyyənləşdirdi. Gender bərabərliyi müasir dövrdə demokratik cəmiyyətin inkişafının və insan hüquqlarının qorunmasının əsas prioritetlərindən birini təşkil edir.

Avropa İttifaqı ilə Azərbaycan arasında 1996-cı ildə imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi Azərbaycanda islahatlar prosesinin sürətləndirilməsinə, müxtəlif layihələrin

həyata keçirilməsinə yönəldilmişdir.

2003-cü ilin oktyabrından respublikaya uğurla rəhbərlik edən İlham Əliyev bu xarici siyasət kursunu yeni dövrün tələblərinə uyğun davam etdirmiş, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun daha da yüksəlməsinə, müstəqil siyasət yeritməklə milli maraqlarının yüksək səviyyədə qorunmasına nail olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda keçirilmiş Avropa Şurasına üzv dövlətlərin gender bərabərliyinə həsr olunmuş VII konfransın iştirakçılarına ünvanlanmış təbrikdə bildirmişdir ki, Azərbaycan Respublikası bu gün Avropa Şurası ilə ən müxtəlif sahələrdə qarşılıqlı faydalı münasibətlər quraraq səmərəli əməkdaşlıq həyata keçirir. Təşkilata üzv dövlətlərlə əlaqələrin genişləndirilməsi ölkələrimizin bir-birinə daha da yaxınlaşmasına və qarşıya çıxa biləcək problemlərin aradan qaldırılmasına əlverişli zəmin yaradır.

## 2. Qadın hüquqlarının müdafiəsi sahəsində beynəlxalq sənədlər

Qloballaşmaqda olan dünyada ümumi problemlərin mövcudluğu, iqtisadi münasibətlərin inkişafı dövlətləri daha sıx əlaqədə olmağa sövq edir. Qısa müddət ərzində Azərbaycan dünya birliyinin tam bərabərhüquqlu üzvü oldu. 1992-ci ilin martın 2-dən BMT-nin, 2001-ci ilin yanvarın 25-dən isə Avropa Şurasının üzvü olmuş Azərbaycan 230-dan artıq beynəlxalq müqavilənin iştirakçısı oldu ki, bunların da təxminən yarısı bilavasitə və ya dolayısı ilə insan hüquq və azadlıqları ilə bağlıdır. Azərbaycan Avropa Şurasının və BMT-nin üzvü olduğu üçün bu təşkilatlar tərəfindən qəbul edilən bütün sənədlər dövlətimiz tərəfindən nəzərə alınmaqdadır.

Azərbaycan qadın hüquqlarının müdafiəsi sahəsində bir sıra mühüm beynəlxalq müqavilələrə qoşulmuşdur, bunların sırasında BMT-nin bir neçə konvensiyasının iştirakçısıdır. Bu müqavilələrə misal olaraq, 20 dekabr 1952-ci il tarixli "Qadınların siyasi hüquqları haqqında" Konvensiyanı (4 avqust 1992-ci il tarixdə ratifikasiya edilib), 1962-ci il tarixli "Nikaha daxil olma, nikaha daxil olmaq üçün minimal yaş həddi, nikahların qeydə alınması" haqqında Konvensiyanı (31 may 1996-cı il

tarixdə), 18 dekabr 1979-cu il tarixli “Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında” Konvensiyanı (30 iyun 1995 il tarixdə), həmçinin Beynəlxalq Əmək Təşkilatının (BƏT) qadınların əmək və məşğulluq sahəsində qəbul etdiyi “Yeraltı işlərdə qadın əməyinin tətbiqi haqqında” 45 saylı BƏT Konvensiyasını, “Bərabər əməyə görə kişilərə və qadınlara bərabər haqq verilməsi haqqında” 100 saylı BƏT Konvensiyasını, “Analığın mühafizəsi haqqında” 103 saylı BƏT Konvensiyasını, “Əmək və məşğulluq sahəsində ayrı- seçkilik haqqında” 111 saylı BƏT Konvensiyasını və 29 yanvar 1957-ci il tarixli “Ərdə olan qadının vətəndaşlığı haqqında” Konvensiyanı qeyd etmək olar.

Həmin Konvensiyalar üzrə BMT-nin nəzdində Komitə yaradılmışdır. Bu Komitələr Konvensiyalara qoşulmuş üzv-dövlətlər tərəfindən həmin Konvensiyaların həyata keçirilməsinə nəzarət edir. Hər dövlət dörd ildən bir həmin Komitələrə Konvensiyanın ölkə daxilində həyata keçirilməsi haqqında hesabat göndərir. Bu Komitələr dövlətlərə Konvensiyaların icrası ilə əlaqədar tövsiyə verə bilərlər.

Şübhəsiz ki, Azərbaycan qadınları və ümumiyyətlə, dünyanın bütün qadınları üçün “Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında” Konvensiya xüsusi əhəmiyyətə malikdir. Bu Konvensiya - qadın hüquqlarının müdafiəsi üzrə əsas beynəlxalq sənəddir. Onun preambulasında deyilir ki, qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi, qadınlar və kişilər arasında bərabərliyin təmin edilməsi BMT-nin əsas prinsiplərindən biridir. Konvensiya qadınların vəziyyətinin yaxşılaşdırılması problemini müasir dövrün ən qlobal problemlərinə aid edir.

1975-ci ildə Beynəlxalq qadın ilinin, bundan sonra 1975-1985-ci illərdə Qadın onilliyinin keçirilməsi BMT-ni qadın hüquqlarının tənzimlənməsinə dair xüsusi beynəlxalq hüquqi aktın qəbul edilməsinə sövq etdi və 18 dekabr 1979-cu il tarixdə BMT-nin Baş Assambleyası “Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında” Konvensiyanı qəbul etdi. Konvensiyanın məqsədi qadınların bütün növ ayrı-seçkilikdən, həqiqətən, azad olunmasının təmin edilməsindən, qadınların inkişafı və özlərini realizə etmək üçün

bərabər imkanlar yaratmaqdan ibarətdir. Bu Konvensiyanın 1-ci hissəsi qadınların əsas hüquqları, onların yerinə yetirilməsi üçün konstitusiya ölçüləri, hökumətin öhdəlikləri ilə bağlıdır, 2-ci hissə qadınların ictimai həyatda fəal iştirakı haqqında, 3-cü hissə təhsil, məşğulluq və sağlamlıq, həmçinin vətəndaş azadlıqları daxil olmaqla bərabərliyin sosial və iqtisadi aspektlərindən bəhs edir. Konvensiyaya hazırda 190-a yaxın dövlət qoşulmuşdur. Bu fakt bir daha müasir dövrdə qadınların rolunun artırılmasına dünya cəmiyyətinin yüksək əhəmiyyət verməsini təsdiq edir. Konvensiya hər hansı bir ölkədə qadınların vəziyyətinin tanınmış beynəlxalq normalara uyğun olmasının təhlili üçün etibarlı vasitədir. Konvensiya qadınların hüquqi statusunun elə səviyyəsini yaradır ki, o, insan hüquqları sahəsində müasir beynəlxalq tələblərə uyğun olsun.

Azərbaycan Respublikası 30 iyun 1995-ci ildə Konvensiyaya qoşulub, bu Konvensiyanın həyata keçirilməsi haqqında öz üzərinə öhdəliklər götürüb və bununla da bərabərlik və demokratiya ideyalarına tərəfdar olduğunu təsdiq edib.

Bundan başqa, iştirakçı dövlətlər, nəinki Konvensiyanı milli səviyyədə həyata keçirməyi öz öhdələrinə götürmüşlər, hətta görülən tədbirlər haqqında və onların həyata keçirilməsi zamanı qarşıya çıxa bilən çətinliklər haqqında hesabatlar təqdim etməlidirlər. Həmin hesabatlar BMT-nin Baş Katibinə təqdim edilir. O, öz növbəsində, hesabatları baxılmaq üçün "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiya üzrə müvafiq Komitəyə təqdim edir. Azərbaycan Respublikasının Konvensiya üzrə ilk hesabatı Komitəyə 1996-ci ildə təqdim olunmuşdur. 20 yanvar 1998-ci ildə həmin Komitədə Azərbaycanda Konvensiyanın həyata keçirilməsi haqqında məruzə dinlənilmişdir.

2000-ci il iyun ayında Azərbaycan Respublikası "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyanın Fakultativ Protokolunu da imzalamışdır. Bu Protokolun mahiyyəti ondan ibarətdir ki, hər bir şəxs Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması üzrə Komitəsinə fərdi qaydada müraciət edə bilər. Azərbaycan ratifikasiya etdiyi beynəlxalq müqavilələrə uyğun öz milli qanunvericiliyini təkmilləşdirmək istiqamətində

bir sıra hüquqi islahatlar həyata keçirmişdir.

2001-ci ildə Azərbaycan BMT-nin Qadınlar üçün İnkişaf Fondunun "Zorakılıqsız Həyat" Regional Məlumatlandırma Kampaniyasına qoşulmuşdur. 2001-2002-ci illərdə Azərbaycan "Qafqazda Gender Zorakılığına qarşı 16 günlük fəaliyyət" aksiyasına qoşulmuşdur. Bu aksiya noyabr ayının 25-dən dekabr ayının 10-dək həyata keçirilir.

ATƏT-in Demokratik Təsisatlar İnstitutu tərəfindən 2001-2002-ci ildə hüquq-mühafizə orqanlarının işçiləri və hakimlər üçün məişət zorakılığı ilə mübarizə üzrə treninqlər keçirilmişdir.

İnsan alveri zorakılığın bir növü kimi, Azərbaycan üçün yeni və buna görə də kifayət qədər öyrənilməyən bir mövzudur. Son zamanlara qədər insan alveri problemi milli gündəliyə daxil edilməyib və bu problem geniş müzakirə olunmayıb. Beynəlxalq təşkilatların və xüsusilə Beynəlxalq Miqrasiya Təşkilatının səyləri Azərbaycanda insan alveri probleminin mövcudluğunun dərk edilməsinə səbəb oldu. Qeyd etmək lazımdır ki, Azərbaycanın əlverişli coğrafi mövqeyindən insan alverində tranzit ölkə və son tədqiqatlara görə həmçinin mənşə ölkəsi kimi istifadə edilir. 2005-ci ilə qədər Respublikamızın qanunvericiliyində insan alverini cinayət kimi müəyyən edən xüsusi maddə yox idi. Bu növ cinayətlərlə mübarizədə beynəlxalq əməkdaşlığın səmərəliliyinin artırılmasının vacibliyi nəzərə alınmaqla ABŞ, Avstriya, Bolqarıstan, Latviya, Rumıniya, Çin, Misir və s. ölkələrin müvafiq qurumları, eləcə də BMT, ATƏT, Beynəlxalq Miqrasiya Təşkilatı, İnterpol ilə əməkdaşlıq əlaqələri qurulmuşdur. Birləşmiş Ərəb Əmirlikləri, Pakistan, İran və Türkiyə ilə mütəşəkkil cinayətkarlıqla mübarizədə hüquqi yardıma dair ikitərəfli sazişlər bağlanmışdır. Azərbaycan bu problemlə bağlı bir neçə beynəlxalq konvensiyaya qoşulmuşdur. Belə ki, 2000-ci il dekabrın 12-də BMT-nin Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyası və onu tamamlayan, İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında Protokolu imzalanmışdır. Həmin Protokol Azərbaycana münasibətdə 2003-cü ildə qüvvəyə minmişdir.

Ölkə Prezidenti 6 may 2004-cü il tarixli Sərəncamla "Azər-

baycan Respublikasında İnsan Alverinə qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planı"nı təsdiq etmişdir. 2005-ci ildə "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu və bu sahədə bir sıra mühüm normativ-hüquqi aktlar qəbul edilmişdir. 30 sentyabr 2005-ci il tarixində Cinayət Məcəlləsinə insan alveri əməlinin cinayət kimi tanınması üçün əlavələr edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 6 fevral 2009-cu il tarixli və 24 iyul 2014-cü il tarixli Sərəncamları ilə İnsan Alverinə qarşı Mübarizə üzrə növbəti Milli Fəaliyyət Planları (2009-2013-cü və 2014-2018-ci illər) təsdiq edilmişdir.

İnsan alverinə qarşı fəaliyyət üzrə Avropa Şurası Konvensiyası ölkəmiz tərəfindən 25 fevral 2010-cu il tarixində imzalanmış və 11 may 2010-cu il tarixində ratifikasiya edilmişdir.

Beynəlxalq təşkilatlar ölkəmizdə mövcud olan vəziyyətin araşdırılması və Azərbaycanın dövlət qurumları, qeyri-hökumət təşkilatları və bu baxımdan həssas qruplar arasında təbliğatın aparılmasında mühüm rol oynayırlar.

Beynəlxalq sənədlərdə qadın hüquqlarının təhlili əksər hallarda insan hüquqları mövzusunu da əhatə edir. Hər bir ölkədə insan hüquqları milli normalara əsasən müdafiə olunur və pozulmuş hüquqların bərpası üçün ən səmərəli mexanizmlər dövlətdaxili mexanizmlərdir. Milli normalar qadın hüquqlarının tənzimlənməsində daha çevik mexanizmə malikdir. Beynəlxalq normaların əhəmiyyəti isə ondadır ki, bu normalar qadın hüquq və azadlıqlarına dair minimal standartları müəyyən edir.

Beynəlxalq normalara tərəfdar çıxmış dövlət öz milli normalarında bu sənədlərdə əks olunan hüquq və azadlıqlardan daha üstün hüquq və azadlıqlar nəzərdə tuta bilər. Azərbaycan Respublikasının qadın hüquqlarının müdafiəsi sahəsində iştirakçısı olduğu beynəlxalq müqavilələrin əsas siyahısını aşağıdakı şəkildə ümumiləşdirmək olar:

*1. "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi"*

(BMT Baş Məclisinin 1948-ci il 10 dekabr tarixli Qətnaməsi ilə qəbul edilmişdir)

*2. "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Pakt* (BMT Baş Məclisinin 1966-cı il 16 dekabr tarixli Qətnaməsi ilə qəbul edilmişdir. Azərbaycan Respublikası bu

Paktı Milli Məclisin 1992-ci il 21 iyul tarixli, 226 nömrəli qərarına əsasən ratifikasiya etmişdir)

*3. "Vətəndaş və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakt*

(BMT Baş Məclisinin 1966-cı il 16 dekabr tarixli Qətnaməsi ilə qəbul edilmişdir. Azərbaycan Respublikası bu Paktı Milli Məclisin 1992-ci il 21 iyul tarixli, 227 nömrəli qərarına əsasən ratifikasiya etmişdir)

*4. "Uşaq hüquqları haqqında" Konvensiya*

(BMT Baş Məclisinin 1989-cu il 20 noyabr tarixli Qətnaməsi ilə qəbul edilmişdir. Azərbaycan Respublikası bu Konvensiyanı Milli Məclisin 1992-ci il 21 iyul tarixli, 236 nömrəli qərarına əsasən ratifikasiya etmişdir)

*5. "Qadınların siyasi hüquqları haqqında" Konvensiya*

(BMT Baş Məclisinin 1952-ci il 20 dekabr tarixli Qətnaməsi ilə qəbul edilmişdir. Azərbaycan Respublikası bu Konvensiyanı Milli Məclisin 1992-ci il 4 avqust tarixli, 255 nömrəli qərarına əsasən ratifikasiya etmişdir)

*6. "Qaçqınların statusu haqqında" Konvensiya*

(BMT Baş Məclisinin 1951-ci il 28 iyul tarixli Qətnaməsi ilə qəbul edilmişdir. Azərbaycan Respublikası bu Konvensiyanı Milli Məclisin 1992-ci il 8 dekabr tarixli, 402 nömrəli qərarına əsasən ratifikasiya etmişdir)

*7. "Müharibə qurbanlarının müdafiəsi haqqında" Cenevrə Konvensiyaları*

(1949-cu il 12 avqust tarixində qəbul edilmişdir. Azərbaycan Respublikası bu Konvensiyaları Milli Məclisin 1993-cü il 21 aprel tarixli, 573 nömrəli qərarına əsasən ratifikasiya etmişdir)

*8. "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiya*

(BMT Baş Məclisinin 1979-cu il 18 dekabr tarixli Qətnaməsi ilə qəbul edilmişdir. Azərbaycan Respublikası bu Konvensiyanı Milli Məclisin 1995-ci il 30 iyun tarixli, 1074 nömrəli qərarına əsasən ratifikasiya etmişdir)

*9. "İrqi ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında" Konvensiya*

(BMT Baş Məclisinin 1965-ci 21 dekabr tarixli Qətnaməsi

ilə qəbul edilmişdir. Azərbaycan Respublikası bu Konvensiyanı 1996-cı il 31 may tarixli, 95-IQ nömrəli Qanuna əsasən ratifikasiya etmişdir)

*10. "Hərbi cinayətlərə və bəşəriyyətə qarşı cinayətlərə cinayət məsuliyyətinə cəlbetmə müddətinin tətbiq edilməsi haqqında" Konvensiya*

(BMT Baş Məclisinin 1968-ci il 26 noyabr tarixli Qətnaməsi ilə qəbul edilmişdir. Azərbaycan Respublikası bu Konvensiyanı 1996-cı il 31 may tarixli, 98-IQ nömrəli Qanuna əsasən ratifikasiya etmişdir)

*11. "Köləlik haqqında" Konvensiya*

(1926-cı il 25 sentyabr tarixdə qəbul edilmişdir. Azərbaycan Respublikası bu Konvensiyanı 1996-cı il 31 may tarixli, 99-IQ nömrəli Qanuna əsasən ratifikasiya etmişdir)

*12. "İnsan alveri və üçüncü şəxslər tərəfindən fahişəliyin istismarı ilə mübarizə haqqında" Konvensiya*

(1949-cu il 2 dekabr tarixdə qəbul edilmişdir. Azərbaycan Respublikası bu Konvensiyanı 1996-cı il 31 may tarixli, 102-IQ nömrəli Qanuna əsasən ratifikasiya etmişdir)

*13. "İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı" Konvensiya*

(BMT Baş Məclisinin 1984-cü il 10 dekabr tarixli Qətnaməsi ilə qəbul edilmişdir. Ölkəmiz bu Konvensiyanı 1996-cı il 31 may tarixli, 103-IQ nömrəli Qanuna əsasən ratifikasiya etmişdir)

*14. "Ərdə olan qadının vətəndaşlığı haqqında" Konvensiya*

(BMT Baş Məclisinin 1957-ci il 29 yanvar tarixli Qətnaməsi ilə qəbul edilmişdir. Azərbaycan Respublikası bu Konvensiyanı 1996-cı il 31 may tarixli, 104-IQ nömrəli Qanuna əsasən ratifikasiya etmişdir)

*15. "Vətəndaşsızlığın ixtisar edilməsi haqqında" Konvensiya*

(BMT Baş Məclisinin 1961-ci il 30 avqust tarixli Qətnaməsi ilə qəbul edilmişdir. Ölkəmiz bu Konvensiyanı 1996-cı il 31 may tarixli, 105-IQ nömrəli Qanuna əsasən ratifikasiya etmişdir).

*16. "Nikaha daxil olmağa razılıq, minimal nikah yaşı və nikahların qeydə alınması haqqında" Konvensiya*

(BMT Baş Məclisinin 1962-ci il 7 noyabr tarixli Qətnaməsi ilə qəbul edilmişdir. Azərbaycan Respublikası bu Konvensiyanı 1996-cı il 31 may tarixli, 107-IQ nömrəli Qanuna əsasən ratifikasiya etmişdir)

*17. "Bütün fəhlə miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında" Konvensiya*

(BMT Baş Məclisinin 1990-cı il 18 dekabr tarixli Qətnaməsi ilə qəbul edilmişdir. Ölkəmiz bu Konvensiyanı 1998-cı il 11 dekabr tarixli, 581-IQ nömrəli Qanuna əsasən ratifikasiya etmişdir)

*18. "Avropa Mədəniyyət Konvensiyası"*

(1954-cü il 19 dekabr tarixdə qəbul edilmişdir. Azərbaycan Respublikası bu Konvensiyanı 1997-ci il 22 aprel tarixli, 278-IQ nömrəli Qanuna əsasən ratifikasiya etmişdir)

*19. "Nikahdankənar doğulmuş uşaqların hüquqi statusu haqqında" Avropa Konvensiyası*

(1975-ci il 15 oktyabr tarixdə qəbul edilmişdir. Azərbaycan Respublikası bu Konvensiyanı 2000-ci il 17 mart tarixli, 832-IQ nömrəli Qanuna əsasən ratifikasiya etmişdir)

*20. "Zorakı cinayətlərin qurbanlarına vurulmuş ziyanın ödənilməsi haqqında" Avropa Konvensiyası*

(1983-cü il 24 noyabr tarixdə qəbul edilmişdir. Azərbaycan Respublikası bu Konvensiyanı 2000-ci il 17 mart tarixli, 836-IQ nömrəli Qanuna əsasən ratifikasiya etmişdir)

*21. "İcbari əməyin ləğv edilməsi haqqında" Konvensiya*

(1957-ci il 25 iyun tarixdə qəbul edilmişdir. Azərbaycan Respublikası bu Konvensiyanı 2000-ci il 24 mart tarixli, 847-IQ nömrəli Qanuna əsasən ratifikasiya etmişdir)

*22. "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyası*

(1950-ci il 4 noyabr tarixdə qəbul edilmişdir. Azərbaycan Respublikası bu Konvensiyanı 2001-ci il 25 dekabr tarixli, 236-IIQ nömrəli Qanuna əsasən ratifikasiya etmişdir)

*23. "İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında" Avropa Konvensiyası*

(1987-ci il 26 noyabr tarixdə qəbul edilmişdir. Azərbaycan Respublikası bu Konvensiyanı 2001-ci il 25 dekabr tarixli,

237-IIQ nömrəli Qanuna əsasən ratifikasiya etmişdir)

*24. "Avropa Sosial Xartiyası"*

(1996-cı il 3 may tarixdə qəbul edilmişdir. Azərbaycan Respublikası bu Konvensiyanı 2004-cü il 6 yanvar tarixli, 575-IIQ nömrəli Qanuna əsasən ratifikasiya etmişdir)

*25. "Təhsil sahəsində ayrı-seçkiliklə mübarizə haqqında" Konvensiya*

(1960-cı il 14 dekabr tarixdə qəbul edilmişdir. Azərbaycan Respublikası bu Konvensiyanı 2006-ci il 2 oktyabr tarixli, 146-IIIQ nömrəli Qanuna əsasən ratifikasiya etmişdir)

### 3. Qadın hüquqlarını tənzimləyən əsas beynəlxalq təşkilatlarda Azərbaycan Respublikasının üzvlüyü

Azərbaycan Respublikası BMT-nin bir çox xüsusi qurum və orqanları ilə fəal və səmərəli əməkdaşlıq edir. Onların sırasında BMT-nin İnkişaf Proqramı (BMTİP), BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR), BMT-nin Uşaq Fondu (UNICEF), BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO), Sənaye İnkişaf Təşkilatı (UNİDO), Ümumdünya Səhiyyə Təşkilatı (WHO), BMT-nin Qadınlar Fondu (UNİFEM, hazırda UNW), Atom Enerjisi üzrə Beynəlxalq Agentlik (IAEA), Nüvə Sınaqlarının Hərtərəfli Qadağan olunması haqqında Müqavilə Təşkilatını və s. qeyd etmək olar. Təhsil, elm və mədəniyyət məsələlərinin vacibliyini nəzərə alaraq, Azərbaycan Respublikası UNESCO ilə geniş əməkdaşlıq edir və bu məqsədlə 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən, Xarici İşlər Nazirliyi yanında UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası təsis edilmişdir. 2000-2002-ci illərdə Azərbaycan Qadınların statusu haqqında Komissiyanın üzvü olmuşdur. Azərbaycan, həmçinin Komissiyanın "Hərbi münaqişələr nəticəsində girov götürülmüş qadın və uşaqların azad edilməsi haqqında" qəbul etdiyi illik qətnamənin əsas sponsorudur. Azərbaycan BMT-nin müvafiq orqan və qurumlarına öz namizədliyini irəli sürməklə, bu orqanlara seçkilərdə fəal iştirak edir. Azərbaycan Respublikası 1995-1997, 1998-2000-ci illər ərzində UNICEF-in İcra Heyətinin və 2002-2004-cü illər ərzində BMT-nin Davamlı İnkişaf üzrə Komissiyasının üzvü

olmuşdur. Azərbaycan 2003-2005-ci illər üçün BMT-nin İqtisadi və Sosial Şurasının (ECOSOC) üzvü seçilmişdir.

2013-cü ilin oktyabr ayında Orta Şərqdə vəziyyətlə bağlı Qadın, sülh və təhlükəsizlik, Təhlükəsizlik Şurasının fəaliyyət metodları mövzusunda 3 açıq müzakirə təşkil edilmiş və Beynəlxalq Məhkəmənin sədri ilə görüş keçirilmişdir.

Azərbaycan ATƏM-in (1 yanvar 1995-ci ildən ATƏT) üzvlüyünə 1992-ci ilin yanvarın 30-da qəbul olunmuşdur. Qeyd etmək lazımdır ki, ATƏM Azərbaycanın daxil olduğu ilk Avropa təşkilatı olmuşdur. Gender bərabərliyi ATƏT-in hərtərəfli təhlükəsizlik mandatında əhəmiyyətli yer tutan fundamental insan hüququ və dəyərdir.

Azərbaycanın xarici siyasətinin əsas üstünlüklərindən birini Avropa İttifaqı (Aİ) ilə əməkdaşlıq təşkil edir. Avropa və Asiyanın sərhədində yerləşən Azərbaycanın strateji mövqeyi Aİ-na üzv dövlətlərin Azərbaycanla siyasi və iqtisadi münasibətləri inkişaf etdirmək marağını artırır. Azərbaycan Respublikası ilə Aİ arasında münasibətlərin hüquqi əsasını Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi (TƏS) qoymuşdur. Bu sənəd 22 aprel 1996-cı ildə Lüksemburq şəhərində imzalanmış və onu imzalayan bütün dövlətlər tərəfindən ratifikasiya edildikdən sonra 1 iyul 1999-cu il tarixində qüvvəyə minmişdir.

Aİ öz xüsusi elçisini 1998-ci ildə Azərbaycana göndərmiş və ölkəmiz 2000-ci ildə Aİ-da öz daimi nümayəndəliyini açmışdır.

Aİ TACİS (MDB ölkələrinə texniki yardım) proqramı çərçivəsində müvafiq texniki və ekspert köməyi vasitəsilə Azərbaycanda aparılan iqtisadi islahatları dəstəkləyir. TACİS proqramı keçmiş Sovet İttifaqının 12 dövləti və Monqolustana texniki yardım dəstəyini təmin etmək üçün 1991-ci ildə yaradılmışdır. TACİS proqramının Azərbaycanla bağlı hissəsində əməkdaşlığın üç əsas istiqamətinə üstünlük verilir: infrastruktur, özəl sektor və insan resurslarının inkişafı.

2003-cü ildə Avropa İttifaqı Azərbaycanla Avropa Qonşuluq Siyasəti üzrə qurduğu əlaqələrində yeni səhifə açmışdır. 2009-cu ilin may ayında ölkəmizin Şərq Tərəfdaşlığındakı iştirakı ilə bu istiqamətdə daha bir addım atılmışdır.

Tarixi keçmişi, dini, mədəni və mənəvi dəyərləri ilə islam

dünyasının ayrılmaz hissəsi olan Azərbaycan 1991-ci ilin dekabr ayında İslam Konfransı Təşkilatına (İKT) üzv oldu. Qeyd etmək lazımdır ki, respublikamıza müsəlman ölkələri tərəfindən göstərilən humanitar, texniki və s. yardımın böyük bir hissəsi İKT konfranslarının qəbul etdiyi sənədlər əsasında həyata keçirilir. 2014-cü ilin oktyabr ayında Bakıda "İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin inkişafında qadınların rolu" mövzusunda V Beynəlxalq konfrans keçirilmişdir. İslam Əməkdaşlıq Təşkilatının baş katibinin müavini Muhammad Naim Xan qeyd etmişdir ki, belə tədbirlərin təşkili qadınların inkişaf prosesində daha geniş iştirakına təkan verir.

2016-cı il aprelin 25-dən 27-dək Bakıda Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci qlobal forumu keçirilmişdir. "İnklüziv cəmiyyətlərdə birgə yaşama: çağırış və məqsəd" devizi altında düzənlənən forumda dünyanın 140-dan çox ölkəsindən nümayəndə heyətləri, çoxsaylı beynəlxalq təşkilatların, dini konfessiyaların, QHT-lərin nümayəndələri iştirak etmişlər. Tədbirdən dünyaya barış, əməkdaşlıq, sülh və dialoq mesajları verilmişdi. BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Nasir Əbdüləziz Əl-Nasir bildirmişdir ki, hamı razılıqla bu Forumun böyük uğurla nəticələndiyini qeyd edə bilər: "Biz Azərbaycan hökuməti ilə əməkdaşlığımızdan çox məmnunuq". Əl-Nasir vurğulamışdır ki, sülh olmadan cəmiyyətlər lazımi şəkildə inkişaf edə bilməz və dünyada sülhün bərqərar edilməsi üçün qarşıda görüləcək işlər hələ çoxdur. İnklüziv cəmiyyət sülhün təminatıdır və həmçinin məşğulluğa təminat verir, qeyri-bərabərliyi, təcridolunmanı aradan qaldırır.

BMT-nin Sivilizasiyalar Alyansı 2005-ci ildə BMT-nin sabiq Baş katibi Kofi Annanın siyasi dəstəyi, Türkiyə və İspaniyanın birgə təşəbbüsü ilə yaradılıb. İlk Forum 2008-ci ildə Madriddə, ikincisi 2009-cu ildə İstanbulda, üçüncüsü 2010-cu ildə Rioda, dördüncüsü 2011-ci ildə Dohada, beşincisi 2013-cü ildə Vyanada, altıncısı isə 2014-cü ildə Balidə keçirilmişdir.

BMT-nin ixtisaslaşmış təşkilatı olan UNESCO dünyanın təhsil, elm və mədəniyyət məsələləri sahəsindəki əməkdaşlığın ən böyük hökumətlərarası forumudur. Onun Nizamnaməsi 16 noyabr 1945-ci ildə Londonda imzalanmış, 4 noyabr 1946-cı

ildə isə 20 üzv dövlətdən ibarət təşkilat öz rəsmi fəaliyyətinə başlamışdır. UNESCO-nun fəaliyyəti təhsil, elm, mədəniyyət və kommunikasiya vasitəsilə insanların şüurunda sülhü müdafiə etmək ideyasını möhkəmləndirməyə yönəlmişdir.

2008-ci il 10-11 iyun tarixlərində Bakıda "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda beynəlxalq forum keçirilmişdir. Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyevanın təşəbbüsü, UNESCO-nun və İSESCO-nun dəstəyi ilə keçirilən forumda dünyanın müxtəlif ölkələrindən 300-dən çox nümayəndə, o cümlədən bir neçə ölkənin birinci xanımları, İSESCO-nun baş direktoru, UNESCO-nun xoşməramlı səfirləri iştirak etmişlər. Forumun yekununda Bakı Bəyannaməsi və Birinci xanımların Bəyanatı qəbul olunmuşdur.

2009-cu il 17 noyabr – "UNESCO-da Azərbaycan Günü" çərçivəsində UNESCO-nun mənzil-qərargahında Azərbaycan Respublikasının UNESCO yanında Daimi Nümayəndəliyi və ölkəmizin digər hökumət orqanları tərəfindən bir sıra tədbirlər təşkil edilmişdir. Bu tədbirlər sırasında "Azərbaycan qadını: dünən, bugün və sabah" mövzusunda konfransı qeyd etmək olar.

Azərbaycan-UNESCO münasibətlərinin inkişafında və canlanmasında Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın əvəzolunmaz rolu olmuşdur və o, UNESCO-nun Xoşməramlı səfiri adına layiq görülmüşdür.

MDB ölkələrinin iştirakı ilə təsis edilən subregional inteqrasiya təşkilatlarından biri 1997-ci ildə Azərbaycan, Gürcüstan, Ukrayna və Moldova tərəfindən yaradılan, 1998-ci ildə Özbəkistanın da daxil olduğu GUAM-dır (2005-ci il may ayının 26-da Özbəkistan bu qurumu tərk etmişdir). Həmin beynəlxalq təşkilat Azərbaycan, Gürcüstan, Moldova və Ukrayna prezidentlərinin 10 oktyabr 1997-ci ildə Strasburqda Birgə Kommunike imzalaması ilə bu dörd dövlətin birliyi kimi fəaliyyətə başlamışdır. Prezidentlər Kommunikedə suverenlik, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, demokratiya, hüququn aliliyi və insan hüquqlarına hörmət prinsipləri əsasında Avropada sabitliyin və təhlükəsizliyin gücləndirilməsi məqsədilə dörd-

tərəfli əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini vurğulamışlar. GUAM-ın 2 may 2006-cı ildə Kiyevdə keçirilən zirvə görüşündə bu qurum Demokratiya və İqtisadi İnkişaf Uğrunda Hərəkat adlandırılmışdır. GUAM Qərb istiqamətli siyasət yeridən, Qərbi Avropa nümunəsində siyasi, iqtisadi, sosial, mədəni inteqrasiyaya nail olmağa çalışan və ən əsası, bütün bu proseslərdə bərabərhüquqlu, qarşılıqlı-faydalı əlaqələr yaratmaq istəyən dövlətlərin birliyi hesab olunur.

2001-ci ilin yanvar ayında Azərbaycan Avropa Şurasına tamhüquqlu üzv qəbul edilmiş və bununla da Azərbaycan diplomatiyası Avropaya inteqrasiya proseslərinə qoşulmaq uğrunda mübarizədə böyük qələbə əldə etmişdir.

### 4. Qadınların vəziyyətinə dair Ümumdünya Konfransları

1945-ci ildə təsis edilmiş BMT Nizamnaməsində hər iki cinsin bərabər hüquqları, insan şəxsiyyəti və heysiyyətinin xüsusi yer tutmasına baxmayaraq, təşkilatın ilk üzvləri olan 51 ölkədən yalnız 30-da qadınların kişilərlə bərabər seçki hüququ təmin edilmişdi. BMT-nin qadınların problemlərinin həll olunması istiqamətindəki fəaliyyəti, ilk növbədə, onların hüquq və vətəndaş hüquqlarının müəyyən edilməsinə və bütün qadınların vəziyyətinə dair informasiyaların toplanmasına yönəldilirdi. Buna görə də 1975-1995-ci illər ərzində cinslərin bərabərliyi probleminin dünyanın diqqət mərkəzinə çevrilməsini təmin edən BMT tərəfindən qadınların dörd Ümumdünya Konfransı keçirilmişdir. Birinci Ümumdünya Qadınlar Konfransı Mexikoda (Meksika, 1975), ikinci konfrans Kopenhagendə (Danimarka, 1980), üçüncü konfrans Nayrobidə (Keniya, 1985), dördüncü konfrans isə Pekində (Çin, 1995) təşkil edilmişdir.

Bu möhtəşəm toplantıların hər birində insan hüquqları, xüsusilə qadın hüquqları geniş yer tutmuş, qadınların vəziyyətinin yaxşılaşdırılması prosesinə dair bir sıra mövqe və planlar hazırlanmış və yekun sənəd olaraq Pekin Fəaliyyət Platforması qəbul edilmişdir. Daha sonra Pekin+5 və Pekin+10 Konfransları da keçirilmişdir.

Bu qlobal forumlar insanları ümumi bir məqsədə nail olmaq naminə birləşdirdi və həmin toplantılarda bütün ölkələrdə

hər bir sahədə qadınların şəxsi və ictimai vəziyyətinin yaxşılaşdırılması üçün səmərəli fəaliyyət planı hazırlandı.

*Qadınların vəziyyətinə dair I Ümumdünya Konfransı* dünyanın bir çox ölkələrində qadınlara qarşı diskriminasiyalı münasibətlərin həll olunmamış qaldığını dünya ictimaiyyətinə çatdırmaq məqsədi daşıyan Beynəlxalq Qadın ilinin elan edilməsi ilə bağlı olmuşdur. Mexiko Konfransı beynəlxalq ictimaiyyətin diqqətini qadınların vəziyyətinin yaxşılaşdırılmasına dair fəaliyyət məqsədlərinin, səmərəli strategiyaların və planların işlənməsinin zəruriliyinə yönəltməli idi. Bunun üçün Baş Assambleya iştirakçıları sonralar BMT-nin qadınların problemlərinin həllinə dair işin başlıca istiqamətlərini təşkil edən əsas məsələləri müəyyən etdilər: tam gender bərabərliyi və cinsi əlamətlərə görə diskriminasiyanın aradan qaldırılması; qadınların inkişaf prosesinə cəlb olunması və onların dinamik proseslərdə tam hüquqlu iştirakı; bütün dünyada sülhün güclənməsində qadınların töhfəsinin artırılması.

Konfrans iştirakçıları Ümumdünya Fəaliyyət Planını – dünya ictimaiyyətinin və hökumətlərin qarşıdakı on ildə sadalanan məsələlərin həll olunmasına dair əsas fəaliyyət istiqamətlərini nəzərdə tutan sənəd hazırladılar. Fəaliyyət Planında 1980-ciilədək minimum proqram müəyyən olundu. Bu proqramın əsas vəzifəsi qadınların təhsil, məşğulluq, siyasi fəaliyyət, səhiyyə kimi sahələrə daxil olmaları üçün bərabər imkanların yaradılması, mənzil, təminat, qidalanma, ailə planlaşdırılmasının təmin edilməsi idi. Konfrans iştirakçıları qadınların inkişaf proseslərində bərabərhüquqlu iştirakını təmin etmək məqsədilə hökumətləri milli strategiyalar hazırlamağa, məqsəd və prioritetləri müəyyən etməyə çağırdılar. Konfrans zamanı qadınların vəziyyətinin yaxşılaşdırılmasına dair artıq mövcud olan Departamentə BMT sistemində qadınların vəziyyətinin yaxşılaşdırılması üzrə Beynəlxalq təhsil və elmi tədqiqat institutlarının və qadınların inkişafı üçün BMT Fondunun (UNİFEM, hazırda UNW) yaradılması barədə tövsiyə verildi.

Burada həmçinin, qadın qeyri-hökumət təşkilatlarının paralel Forumu təşkil olundu. Foruma toplaşan qadınlar arasında həmin dövrün siyasi və iqtisadi reallığını əks etdirən kəskin fikir ayrılığı meydana çıxdı. Belə ki, sosialist ölkələrini təmsil

edən qadınlar sülh məsələlərinə daha çox maraq göstərdikləri halda, Qərb ölkələrindən olan qadınlar bərabərlik problemini xüsusi qeyd edirdilər, inkişaf etməkdə olan ölkələrdən gəlmiş qadınlar isə əsas üstünlüyü inkişaf probleminə verirdilər. Bu forum QHT-lərin BMT ilə əməkdaşlığına və BMT siyasətinin hazırlanması prosesində qadınların iştirakının təmininə etməsinə kömək edən bir təkamül prosesinə təkan verdi.

*Qadınların vəziyyətinə dair II Ümumdünya Konfransında* BMT-yə üzv ölkələrin nümayəndələri 1975-ci il Ümumdünya Fəaliyyət Planının yerinə yetirilməsinin təhlili və qiymətləndirilməsi sahəsində əsaslı tərəqqiyə nail olmaq haqqında vahid rəyə gəldilər. Bununla yanaşı, 1979-cu ilin dekabrında Baş Assambleya tərəfindən "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyanın qəbulu mühüm dönüş nöqtəsi, qadın bərabərliyi uğrunda mübarizədə ən vacib vasitələrdən biri idi. "Qadın hüquqları haqqında Bill" adlandırılan bu Konvensiya BMT-yə üzv ölkələri birləşdirmiş oldu. Lakin əldə edilən tərəqqiyə baxmayaraq, təmin olunmuş hüquqlarla qadınların bu hüquqlardan istifadə etmək bacarığı arasında uyğunsuzluğun yaranması faktı konfransın gedişində etiraf olundu. Toplantı iştirakçıları bu problemin həlli üçün üç sahə ayırdılar - təhsilə bərabər daxil olmaq; işə düzəlmək imkanı; xüsusi məqsədyönlü tədbirlərin görülməsi zəruri olan tibbi xidmət

*Qadınların vəziyyətinə dair III Ümumdünya Konfransı* BMT tərəfindən qadınlarının onillik ərzində nailiyyətlərinin qiymətləndirilməsi məqsədilə "Bərabərlik, inkişaf və sülh" şüarı altında keçirilmişdir. Paralel olaraq, burada təşkil edilmiş QHT-lərin Forumunda konfrans "Ümumdünya feminizminin dünyaya gəlməsi" aktı kimi qiymətləndirilmişdir. Bir qədər əvvəl siyasi və iqtisadi reallıqlarla parçalanmış qadın hərəkatının artıq bərabərlik, inkişaf və sülh şüarı altında birləşən beynəlxalq qüvvəyə çevrildiyi Mexiko konfransında xüsusi olaraq qeyd edilmişdir. Təqdim olunan hesabatlar göstərdi ki, qadınların statusu real olaraq artmışdır, lakin diskriminasiyanın azaldılması üzrə səylər azalmağa doğru gedir. İnkişaf etməkdə olan ölkələrdə ən yaxşı halda qadınların vəziyyətində cüzi irəliləyişlər vardır. Deməli, Onilliyin ikinci məqsədlərinə hələ

tam nail olunmayıb. Ona görə də, Nayrobi Konfransının nümayəndələri məqsədlərə nail olmanın yeni yollarının axtarışına başladılar. BMT-nin 157 iştirakçı dövləti tərəfindən hazırlanmış və yekdilliklə qəbul olunmuş 2000-ci ilə qədərki perspektiv strategiyalar əsrin sonuna qədər qadınların vəziyyətinin yaxşılaşdırılmasının təkmilləşmiş layihəsi və gender bərabərliyi uğrunda mübarizədə yeni mərhələ idi. Qərar qəbuletmədə qadınların iştirakı və insan fəaliyyətinin bütün sahələrində idarəetmə imkanlarının olması nəinki onların qanuni hüququ, həmçinin, ictimai- siyasi zərurilik hesab olunurdu. Nayrobidə qəbul olunmuş perspektiv strategiyalara dair tədbirlər müxtəlif sahələrin geniş spektrini əhatə edirdi: məşğulluq, sağlamlıq, təhsil və sosial xidmətdən tutmuş, sənaye, elm, kommunikasiya və ətraf mühitədək. Bundan əlavə, qadınların sülhü möhkəmləndirmək, həmçinin onlara xüsusi çətin vəziyyətlərdə kömək etmək istiqamətində görüləcək milli tədbirlərin əsas istiqamətləri təklif olunmuşdu.

Yuxarıda deyilənlərə uyğun olaraq, bütün ölkələrin hökumətlərinə tövsiyə edildi ki, dövlət müəssisələrinə və dövlət proqramlarına qadın problemlərinin həlli ilə bağlı səlahiyyətlər verilsin. Konfransdan dərhal sonra Baş Assambleyanın nümayəndə heyətləri BMT-yə qadın problemləri üzrə əsas sualların fəaliyyətin bütün sahələrinə inteqrasiyası xahişi ilə müraciət etdilər. Konfransda qəbul edilmiş qadınların vəziyyətinin yaxşılaşdırılması probleminə daha geniş yanaşma çərçivəsində qadın bərabərliyinin ayrıca problem deyil, bilavasitə insan fəaliyyətinin bütün sahələrinə aid olduğu qəbul edildi. Ona görə də BMT Onilliyin məqsədlərinə nail olmaq üçün qadınların vəziyyətinin yaxşılaşdırılması perspektivləri və onların nəinki şəxsi həyatında, həm də cəmiyyətdə baş verən problemlərin həllində fəal iştirakının zəruriliyini təsdiqlədi.

*Qadınların vəziyyətinə dair IV Ümumdünya Konfransı* əvvəldə göstərildiyi kimi, 1995-ci ildə Pekində keçirilmişdir.

1975-ci ildə Mexiko Konfransından başlayaraq, təşəbbüs cəhdlərinin qadınların vəziyyətinin yaxşılaşdırılmasına və onların imkanlarının genişləndirilməsinə kömək etməsinə baxmayaraq, kişi və qadınlar arasındakı münasibətlərdə bərabərsizliyin struktur əsasına toxunulmurdu. Pekində baş verən

başlıca dəyişiklik qadınların əsas diqqətini gender konsepsiyasına yönəltmək, cəmiyyətdə qadın və kişi münasibətlərinin yenidən qiymətləndirilməsinin zəruriliyini dərk etmək oldu. Bu zaman vurğulandı ki, qadınlar yalnız cəmiyyətin və müvafiq qurumların köklü dəyişməsi, yenidən qurulması yolu ilə həyatın bütün sahələrində qanunla onlara məxsus olan yerləri kişilərlə bərabər tərzdə tutmaq imkanını əldə edə bilərlər. Bu dəyişiklik qadın hüquqlarının insan hüququ olmasını və gender bərabərliyi həll olunduğu halda, hamının bərabərlik qazanacağı faktını bir daha aydın şəkildə nümayiş etdirdi. Qərar qəbuletmə prosesində qadınların kişilərlə bərabərhüquqlu olaraq, öz şəxsi prioritetlərini və dəyərlərini irəli sürmək üçün hüquq və imkanlarının genişləndirilməsi yollarını axtarmağın vaxtı gəlib çatdığı xüsusi qeyd olundu.

Qadınların qərar qəbuletmə prosesinə cəlb olunması vacibliyinin təsdiqi 90-cı illərin əvvəllərində BMT tərəfindən müxtəlif inkişaf aspektləri üzrə keçirilmiş bir sıra ümumdünya konfranslarında öz əksini tapmışdır. Qadınların qərar qəbuletmə prosesində iştirakının əhəmiyyəti konfransda xüsusi vurğulandı və qadın problemi diskussiyalar proqramına və qəbul olunmuş sənədlərə daxil edildi. Konfransda qadınların imkan və hüquqlarının genişləndirilməsinin gündəliyini təqdim edən Pekin Bəyannaməsi və Fəaliyyət Platforması yekdilliklə qəbul edildi. Pekin Fəaliyyət Platformasını qəbul edən hökumətlər gender aspektinin dövlətin bütün institutlarına, strategiyalarına, planlaşdırılmaya və qərar qəbulolunma prosesinə səmərəli şəkildə daxil edilməsi öhdəliyini öz üzərlərinə götürdülər. Qərar qəbul etməzdən və ya planları reallaşdırmazdan öncə, onların həm qadınlar, həm də kişilər üçün nəticələrinin təhlil edilməsinin zəruri olması ilə də razılaşdılar.

Fəaliyyət Platformasını dəstəkləyən BMT Baş Assambleyası bütün dövlətləri, BMT qurumlarını və digər beynəlxalq təşkilatları, həmçinin, QHT-ləri və özəl sektoru bu Platformanın tövsiyələrinin həyata keçirilməsi üçün tədbirlər görməyə çağırdı. Bu konfrans dövlət və QHT nümayəndələrinin ən çox qatıldığı ən böyük toplantı oldu. Konfranslarla eyni vaxtda keçirilmiş QHT-lərin Forumuna 47.000-dən çox iştirakçı toplaşmışdı.

Pekində QHT-lər Fəaliyyət Platformasının məzmununa birbaşa təsir göstərdilər və sonralar öz hökumətlərindən bu Platformanın həyata keçirilməsinə dair üzərinə götürdükləri öhdəliklərin yerinə yetirilməsi haqqında hesabat tələb etməkdə mühüm rol oynadılar.

Qadın statusunun möhkəmləndirilməsi üçün daha əvvəl yaradılmış dövlət mexanizmlərinə yeni funksiya — gender komponentinin bütün institutlara və proqramlara tətbiq edilməsi üzrə mərkəzi uzlaşdırma orqanı funksiyası əlavə edildi. Fəaliyyət Platformasının həyata keçirilməsinə nəzarətdə əsas rol BMT-yə həvalə olundu. Pekin Konfransı istər miqyası, istər çox sayda ölkələrin təmsil edilməsi cəhətdən, istərsə də səmərəlilik aspektindən böyük uğur qazandı.

Dünyanın əksər ölkələrində bir çox qadınlar, xüsusilə də tənha analar öz ailə vəziyyəti, sosial-iqtisadi durumları, o cümlədən kənd yerlərində həyat şəraiti ilə əlaqədar nisbətən təcrid olunmuş qadınlar, qaçqın, məcburi köçkün, immiqrant və işləyən miqrant qadınlar təbii fəlakətlər, yoluxucu xəstəliklər, həmçinin onlara qarşı müxtəlif növ zorakılıqdan əziyyət çəkirlər. Milli və regional xüsusiyyətləri, müxtəlif tarixi, mədəni və dini amilləri nəzərə alınmaqla, hər bir dövlət öz siyasi, iqtisadi və mədəni sistemindən asılı olmayaraq, insanların bütün hüquqlarını və fundamental azadlıqlarını təmin və müdafiə etməyə cavabdehdir. Belə bir fəaliyyətin insanın bütün hüquqlarına və fundamental azadlıqlarına müvafiq qaydada, o cümlədən milli qanunlar çərçivəsində həyata keçirilməsi, strategiyaların, siyasətin, proqramların və inkişaf prioritetlərinin müəyyən edilməsi hər bir dövlətin suveren vəzifəsidir. Qadınların bütün hüquqlarının və fundamental azadlıqlarının tam təmin olunması üçün onların səlahiyyətlətinin genişləndirilməsi əsas şərtdir. Bu məqsədlərə uyğun olaraq, bir çox beynəlxalq təşkilatlar, xüsusən Birləşmiş Millətlər Təşkilatı və onun ixtisaslaşmış qurumları tərəfindən, qadınların hüquq və azadlıqlarını təmin edən beynəlxalq sənədlər qəbul olunmuşdur.

## 5. Pekin Bəyannaməsi və Fəaliyyət Platforması

15 sentyabr 1994-сь il tarixdə 4-сь Ьmumdьnya Qadənlar Konfransəna hazərləqla əlaqədar Azərbaycan qadənlarənən

Milli Komitəsinin yaradэlmasэ haqqэnda цlkə baюзэsэ Fərman imzalamэю və bu komitənin tərkibi o zaman dцvlət orqanlarэnda rəhbər vəzifələrdə зalэюan qadэnlar və qeyri-hцkumət qadэn təєkilatlarэnэn liderlərindən ibarət olmuєdur. Ьmumdьnya Pekin Konfransэ ərəfəsində Komitə geniю miqyaslэ hazэrlэq iюləri (konfranslar, seminarlar, sərgilər, mьzakirələr) aparmэюdэ. Azərbaycandan olan nьmayəndə heyəti Pekin Konfransэnэn iюində зox fəal iєtirak etmiєdir. Konfransda Azərbaycan qadэnlarэ, hцkumət nьmayəndə heyəti (25 nəfər) və qadэn qeyri-hцkumət təюkilatlarэnэn nьmayəndələri (70 nəfər) ilə təmsil olunurdu. 1995-ci ildə keзirilmiю IV Ьmumdьnya Qadэnlar Konfransэ qadэn hьquqlarэna aid ən geniє, qlobal forum olmuєdur. 189 цlkədən 17 mindən зox nьmayəndə qatэlmэю bu konfransda Pekin Bəyannaməsi və Fəaliyyət Platformasэ qəbul edilmiєdir.

BMT Nizamnaməsinin və beynəlxalq hüququn məqsəd və prinsiplərinə tam uyğun olan Pekin Fəaliyyət Platformasında göstərilir ki, qadınların problemləri ümumi xarakter daşıyır və bu problemlərin həlli bütün dünyada gender bərabərliyinə nail olmaq məqsədilə yalnız qadınların kişilərlə birlikdə, müttəfiqlik şəraitində çalışması sayəsində mümkündür.

Qadınların insan hüquqlarının beynəlxalq miqyasda müdafiəsinə həsr olunmuş bu sənədlərdə gender bərabərliyi, inkişaf və sülhün bərqərar olunması məqsədləri irəli sürülmüş, onların səlahiyyətlərinin genişlənməsinə nail olmaq və bu məqsədlərin gerçəkləşməsi üçün səmərəli tədbirlərin görülməsini tələb edən 12 prioritet istiqamət müəyyən edilmişdir.

Bu istiqamətlər fərqli olsa da, bir məqsədə yönəlmişdir: bütün qadınların səlahiyyətlərinin genişləndirilməsinə. Pekin Bəyannaməsi və Fəaliyyət Platforması qadınların bütün hüquqlarına və azadlıqlarına dəyər verməsinə, bu sənədlərin milli qanunlar çərçivəsində həyata keçirilməsi, habelə gender bərabərliyinin BMT-yə üzv dövlətlərin hər birinin strategiya, qadın siyasəti, proqramları və inkişaf prioritetlərinin müəyyən edilməsində böyük əhəmiyyət kəsb etməsinə görə indiyədək, 20 ildən çox vaxt keçdikdən sonra da öz əhəmiyyətini saxlayır, öyrənilir və yeni prioritetlərə uyğunlaşaraq tətbiq olunur.

Bu prinsiplər Azərbaycanda da qadın strategiyalarına şamil

olunur və tətbiq olunduqca bizim qadınların da ictimai siyasi fəallığının artması və onların qərar qəbuletmə səviyyəsində idarəetmədə iştirak etməsində imkanlarını getdikcə artırır.

Buna bariz nümunə kimi bir misal göstərmək kifayətdir: əgər ilk bələdiyyə seçkilərində bələdiyyə orqanlarında qadınların təmsilçiliyi 4 faiz olmuşsa, ikinci seçkilərdə onların sayı 26 faiz, üçüncü seçkilərdə isə 35 faiz olmuşdur.

Ümumiyyətlə, Pekin Konfransının tövsiyələrinin ölkəmizdə səmərəli təmin edilməsi məqsədilə 6 mart 2000-ci il tarixdə Azərbaycan Respublikasэnэn Nazirlər Kabineti 2000-2005-ci illər ьзьn Qadэn Problemləri ьzrə Milli Fəaliyyət Planэnэ təsdiq etdi. Bu Plan цlkədəki mцvcud vəziyyəti və prioritetləri nəzərə almaqla, Pekin Fəaliyyət Platformasэnэn strategiyalarэna əsasən iєlənib hazэrlanmэюdэ. Milli Fəaliyyət Planэ nazirliklərin, komitələrin və qeyri-hцkumət təюkilatlarэnэn iюtirakэ ilə hazэrlanmэю və bьtьn problemli sahələrdə gender bərabərliyinə yцnəldilmiє dцvlət sənədidir.

Gender bərabərliyinin mahiyyət etibarilə təşəkkül tapdığı əsas beynəlxalq sənədlər — Pekin Bəyannaməsi və Fəaliyyət Platformasının icrası və onun dəyərləndirilməsi sürətlə dəyişən beynəlxalq şəraitdə baş vermişdir. 1995-ci ildən bəri bir çox məsələlərin həllini tapması və yeni istiqamətlərə yönəlməsi hökumətlərin, hökumətlərarası təşkilatların, beynəlxalq təşkilatların, özəl sektorun və QHT-lərin müvafiq şəkildə gender bərabərliyi, inkişaf və sülh prinsipləri Platformanın tam və sürətli icrasına təkan vermişdir. Pekin Platformasının həyata keçirilməsi üçün bütün səviyyələrdə gender bərabərliyinə siyasi məsuliyyət artırılmışdır. Pekin Bəyannaməsində bütün dünya qadın və kişilərin tam bərabərliyinə nail olmaq qərarını bir daha bəyan etdi. Qadınların müdafiəsi və bəşəriyyətin inkişafının sürətləndirilməsi üzrə fəaliyyət Platformanın əsas vəzifələri kimi qeyd olundu. Qadın və qızların hüquqları insan hüquqlarının ayrılmaz hissəsidir və bu hüquqların pozulması bütün insanların ayrı-seçkiliyə məruz qalması deməkdir. Platforma bu mövqeyi daha da gücləndirmək məqsədini daşıyır. Platforma özündə gender bərabərliyi anlayışını xüsusilə vurğulamaqla əks etdirir. Bu sənəddə həmçinin dünyada sülh, ədalət və humanizm şəraitinin yaradılması üzrə tədbirlərin görülməsi

nəzərdə tutulmuşdur. Pekin Platformasına görə hər hansı bir dövlətdə siyasi idarəetmə insanların hüquq və azadlıqlarının həyata keçirilməsi və bütün insanların, onların yaşından, cinsindən, cəmiyyətin hansı təbəqəsinə mənsubiyyətindən asılı olmayaraq, hüquq bərabərliyi prinsipi üzərində qurulmalıdır.

Pekin Fəaliyyət Platforması uşaq hüquqlarından tutmuş, ətraf mühitin qorunmasına qədər müxtəlif sahələrdə dünya birliyinin hüquqla bağlı əldə etdiyi nailiyyət və nəticələri özündə cəmləşdirir və qlobal, siyasi, sosial-iqtisadi, ictimai inkişaf baxımından hərtərəfli olması ilə fərqlənir.

Platforma cinslər və müxtəlif yaş həddi olan insanlar arasında fərq qoymur, lakin dünya ictimaiyyəti tərəfindən fəal müdaxilə tələb edən aşağıdakı prioritet problemlər üzrə strateji istiqamətlər müəyyən edir:

*I prioritet sahə*

"Qadın və yoxsulluq" üzrə strateji məqsədlər kimi aşağıdakılar göstərilmişdir:

1. Yoxsulluq həddində yaşayan qadınların tələbat və ehtiyaclarını nəzərə alan inkişaf strategiyasının icmalı, qəbulu və həyata keçirilməsi, bu proseslərdə bütün məsələlər qadınların bilavasitə gender bərabərliyi perspektivləri baxımından təhlil olunmalıdır.
2. İqtisadi ehtiyatlardan istifadə olunmasında və qadınların hüquq bərabərliyinin təmin edilməsində qanunların və inzibati təcrübənin nəzərdən keçirilməsi (burada yoxsulluqda yaşayan qadınlara hüquqi maarifləndirmə işi də daxil olmaqla, ödənişsiz və ya güzəştli hüquqi yardım göstərilməsi də tövsiyə olunur).
3. Qadınların kredit, əmanət əldə etmək mexanizmləri və təsisatları tərəfindən təmin edilməsi.
4. Gender amilləri nəzərə alınmaqla metodologiyaların tədqiqi və yoxsulluğun feminizmləşmə probleminin həlli üçün tədqiqatların aparılması.

*II prioritet sahə*

"Qadınların təhsili və peşə hazırlığı" üzrə aşağıdakı strateji məqsədlər göstərilmişdir:

1. Təhsildə bərabərliyin təmin olunması.
2. Qadınlar arasında savadsızlığın ləğv olunması.
3. Qadınların fasiləsiz təhsil, elm və texnika sahəsində,

peşə-texniki hazırlıq və təhsilə yiyələnmək imkanlarının genişləndirilməsi.

4. Ayrı-seçkiliksiz təhsil və peşə hazırlığı.

5. Təhsil sahəsində islahatların həyata keçirilməsi məqsədilə ayrılan resursların monitorinqi.

6. Qız və qadınlara həyatları boyu təhsil və peşə hazırlığında kömək göstərilməsi.

*III prioritet sahə*

"Qadın və sağlamlıq" üzrə bu strateji məqsədlər göstərilmişdir:

1. Qadınlara həyatı boyu səhiyyə (sağlamlıq), informasiya və bunlarla həmsərhəd sahələrdə yüksək keyfiyyətli xidmətlər göstərilməsinin genişləndirilməsi.

2. Qadınların sağlamlığının möhkəmlənməsinə yönəldilən profilaktik proqramların təkmilləşdirilməsi.

3. İİV/QİCS və digər cinsi yolla yoluxan (CYY) xəstəliklər, cinsi və reproduktiv sağlamlığa dair gender əsaslı təşəbbüslərin həyata keçirilməsi.

4. Qadınların sağlamlığının müdafiəsi məsələlərinə dair tədqiqatların aparılmasına və informasiyanın yayılmasına kömək etmək.

5. Qadınların sağlamlığının müdafiəsinə ayrılan vəsaitlərin artırılması və bu sahədə fəaliyyətə nəzarət etmək.

*IV prioritet sahə*

"Qadınlara qarşı zorakılıq" üzrə strateji məqsədlər kimi bilavasitə göstərilib:

1. Qadınlara qarşı zorakılığın ləğv olunmasına dair tədbirlərin görülməsi.

2. Qadınlara qarşı zorakılığın səbəb və nəticələrinin tədqiqi və qabaqlayıcı tədbirlərin səmərəliliyinin artırılması.

3. Qadın alverinin ləğv olunması, fahişəlik və alver nəticəsində zorakılığın qurbanları olmuş qadınlara kömək göstərilməsi.

*V prioritet sahə*

"Qadınlar və silahlı münaqişələr" üzrə strateji məqsədlər:

1. Qərarların qəbul olunması səviyyəsində münaqişələrin tənzimlənməsində qadınların iştirakının genişləndirilməsi, xarici işğal və silahlı münaqişə şəraitində yaşayan qadınların

müdafiəsi.

2. Kəskin dərəcədə hərbi xərclərin ixtisarı və mövcud olan silahlara nəzarət.

3. Münaqişələrin zorakılıqsız (sülh yolu ilə) həlli formalarının tədbiq olunması və münaqişəli şəraitdə insan hüquqlarının pozulması hallarının azaldılması.

4. Qadınların Sülh mədəniyyətinə töhfəsi.

5. Beynəlxalq müdafiəyə ehtiyacı olan qaçqın, məcburi köçkün, ölkə daxilində mövcud qaçqınların müdafiəsi, onlara yardım və peşələrin verilməsi.

6. Müstəmləkələr və öz müqəddəratını həll edə bilməyən ərazilərdə yaşayan qadınlara yardımın göstərilməsi.

*VI prioritet sahə*

"Qadınlar və iqtisadiyyat" üzrə strateji məqsədlər:

1. Qadınların iqtisadi hüquqlarını və müstəqilliyini o cümlədən məşğulluq, əlverişli iş şəraiti və iqtisadi resurslar üzərində nəzarəti təmin etmək.

2. Qadınların resurslara, iş yerlərinə, əmək bazarına bərabər imkanlara dəstək göstərilməsi.

3. Xüsusilə az gəlirli sahibkar qadınlara biznes və peşə hazırlığı sahəsində xidmətlərin göstərilməsi və həmçinin onların bazar iqtisadiyyatı sahəsində məlumatla təmin etmək, texnologiyalardan istifadə etmək imkanların yaradılması.

4. Qadınların iqtisadi potensialı və kommersiya şəbəkələrinin möhkəmləndirilməsi.

5. Peşə və sənədlərə görə işçilərə qarşı ayrı-seçkiliyin bütün növlərinin aradan qaldırılması.

6. Qadın və kişilər arasında ailədə qayğı və vəzifələrin bərabər bölüşdürülməsi.

*VII prioritet sahə*

"Qadınların hakimiyyətdə və qərarların qəbul olunması prosesində iştirakı" üzrə strateji məqsədlər:

1. Qadınların rəhbər strukturlarda və qərarların qəbul edilməsi prosesində bərabər iştirak etmək imkanlarının təmin edilməsinə dair tədbirlərin görülməsi.

2. Qadınların bilik və bacarıqlarından qərar qəbuletmə və idarəetmə məsələlərində istifadə olunması hallarının artırılması.

*VIII prioritet sahə*

"Qadınların səlahiyyətlərinin genişləndirilməsi məqsədilə yaradılan institusional mexanizmlər" üzrə strateji məqsədlər:

1. Güclü mexanizmlərin və hökumət orqanlarının yaradılması və möhkəmləndirilməsi.
2. Gender aspektlərinin qanunvericilikdə dövlət siyasəti, proqramı və layihələri çərçivəsində nəzərə alınması.
3. Cinsi əlamətə görə məlumat bazasının yaradılması və yayılması.

*IX prioritet sahə*

"Qadınların insan hüquqları" üzrə strateji məqsədlər:

1. İnsan hüquqlarına dair bütün sənədlərin, xüsusən qadınlara qarşı ayrı-seçkiliyin bütün növlərinin ləğv edilməsinə dair Konvensiyanın həyata keçirilməsi vasitəsilə qadınların hüquqlarının müdafiəsi və dəstəklənməsi.
2. Praktiki fəaliyyətdə və qanuna müvafiq olaraq, bərabərlik və ayrı-seçkiliksizliyin təmin edilməsi.
3. Hüquq təhsilinin təmin edilməsi.

*X prioritet sahə*

"Qadınlar və kütləvi informasiya vasitələri (KİV)" üzrə strateji məqsədlər bunlardır:

1. Rabitə və yeni texnologiyalar sahəsində qadınların iştirakının artırılması, fikir və qərarlarının kütləvi informasiya vasitələri ilə ifadə olunmasının genişləndirilməsi.
2. KİV-də balansın və qeyri-stereotip qadın təsvirlərinin olması.

*XI prioritet sahə*

"Qadınlar və ətraf mühit" üzrə strateji məqsədlər:

1. Qadınların ekoloji problemlər üzrə bütün səviyyələrdə qərarların qəbul edilməsində iştirakı.
2. Davamlı inkişafa dair strategiya və proqramlarda gender probleminin və perspektivlərinin nəzərə alınması.
3. İnkişaf və ətraf mühit sahəsindəki siyasətin qadınlar üçün nəticələrinin dəyərləndirilməsi mexanizmlərinin milli, regional və beynəlxalq səviyyələrdə yaradılması və möhkəmləndirilməsi.

*XII prioritet sahə*

"Qız uşaqları" üzrə strateji məqsədlər belə göstərilir:

1. Qızlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması.

2. Qızlara qarşı mənfi ənənələrin və təcrübənin ləğv olunması.

3. Qızların hüquqlarının müdafiəsi və təşviq edilməsi, həmçinin onların tələbatı və potensialı haqqında ictimaiyyətin xəbərdarlığının artırılması.

4. Təhsil, bilik və bacarıqların inkişafı və peşə hazırlığı sahəsində qızlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi.

5. Sağlamlıq və qidalanma sahəsində qızlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi.

6. Uşaq əməyinin istismarının ləğv edilməsi və iş yerlərində qızların müdafiə olunması.

7. Qızlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi.

8. Qızlar arasında sosial, iqtisadi və siyasi məsələlərə dair təbliğat işi.

9. Qızların vəziyyətinin yaxşılaşdırılması işində ailənin rolunun möhkəmləndirilməsi.

Beləliklə, Pekin Fəaliyyət Platformasında qadınların vəziyyətinin yaxşılaşdırılması, onların imkanlarının genişləndirilməsinə nail olmaq baxımından sülh, inkişaf və bərabərlik məsələlərinə yönəlmiş 12 prioritet sahə müəyyən edilmiş və strateji məqsədlər irəli sürülmüşdür. Bunların uğurla həyata keçirilməsinə yönəlmiş hökumətlərə, dövlət, qeyri-hökumət təşkilatlarına, beynəlxalq qurumlara 285 tədbir tövsiyə olunmuşdur.

Hərtərəfli və fəaliyyətə əsaslanan siyasi prinsiplərin bütün ərazilərdə qəbul və icra edilməsi işinə gender aspektinin tətbiq edilməsində bütün səviyyələrdə siyasi iradə və məsuliyyət tələb olunur. Qadınların iqtisadi və maliyyə resurslarından, təlimlərdən, xidmət və təşkilatlardan bərabər istifadəsi və onlar üzərində bərabər nəzarətini, həmçinin onların qərar qəbuletmədə və idarəetmədə iştirakını təmin edən lazımi çərçivənin yaradılmasında siyasi öhdəliklərin icrası əsas şərtdir. Siyasətin tərtib olunması prosesi bütün səviyyələrdə kişi və qadınlar arasında müttəfiqliyin yaradılmasını tələb edir. Bundan əlavə, Fəaliyyət Platformasında əks etdirilmiş məqsədlərin həyata keçirilməsinə kişi və oğlanlar da fəal cəlb olunmalıdırlar.

Pekin konfransında iştirak edən tərəflər aşağıdakı istiqa-

mətləri rəhbər tutduqlarını təsdiq etmişlər:

1) Qadınların və kişilərin bərabərliyinə və insan ləyaqətinə, habelə Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində, Ümumdünya İnsan Hüquqları Bəyannaməsində və insan hüquqları sahəsində digər beynəlxalq sənədlərdə, xüsusilə də Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında Konvensiyada, Uşaq Hüquqları Konvensiyasında, eləcə də Qadınlara qarşı zorakılığın aradan qaldırılması haqqında Bəyannamədə və İnkişaf Hüquqlarına dair Bəyannamədə elan olunmuş digər məqsədlərə və prinsiplərə riayət etməyi;

2) Qadınların və qızların insan hüquqlarının, ümumi insan hüquqlarının və əsas azadlıqların ayrılmaz tərkib və bölünməz hissəsi kimi tam həyata keçməsini təmin etməyi;

3) Bərabərlik, inkişaf və sülh məqsədlərinə nail olmaq üçün, Birləşmiş Millətlər Təşkilatının əvvəlki yüksək səviyyəli konfranslarında və görüşlərində qadınların vəziyyətinin yaxşılaşdırılması üzrə Nayrobidə (1985), uşaqlar üzrə Nyu-Yorkda (1990), ətraf mühit və inkişaf üzrə Rio-de-Janeyroda (1992), insan hüquqları üzrə Vyanada (1993), əhali və inkişaf üzrə Qahirədə (1994) və sosial inkişaf üzrə Kopenhagendə (1995) əldə edilmiş konsensusa və tərəqqiyə nail olmağı;

4) Qadınların vəziyyətinin yaxşılaşdırılması sahəsində Nayrobi perspektiv strategiyasının tam və effektiv həyata keçirilməsini təmin etməyi;

5) Fikir, vicdan, din və əqidə azadlığı hüquqları daxil olmaqla qadınların vəziyyətinin yaxşılaşdırılmasına və imkanlarının genişləndirilməsinə, beləliklə də, qadınların və kişilərin mənəvi, etik, psixoloji və intellektual tələblərinin fərdi və ya başqaları ilə birlikdə təmin olunmasına və bunun vasitəsilə onlara öz şəxsi arzularına müvafiq həyatlarını formalaşdırarkən cəmiyyətdə öz potensialını tam həyata keçirməsinə şərait yaratmağı.

Hər bir dövlət öz milli səviyyəsində gender balansına, yəni kişilərlə bərabər səlahiyyət əsasında ictimai həyatın bütün sahələrində və bütün səviyyələrində, xüsusilə də, qərar qəbuletmə və hökumətlərin siyasətlərinin işlənib hazırlanması işində, bütün nazirliklər və əsas siyasi qurumlar, həmçinin yerli

təşkilat və orqanlarda qadınların iştirakına dair tərəqqinin sürətləndirilməsi məqsədilə planlar və proqramlar işlənib hazırlamalı, zərurət yaranarsa, kvotalar müəyyən edilməli və onların icrasına şərait yaradılmalıdır. 2015-ci ilə qədər bir çox qlobal konfranslarda təklif olunduğu kimi, bütün qızların və oğlanların pulsuz, məcburi və ümumi ibtidai təhsili təmin olunmalı və gender boşluğunu dərinləşdirən siyasi prinsiplər ləğv edilməlidir.

Bütün bunlarla bağlı Uşaq Hüquqları Konvensiyasının Şikayətlərin verilməsi mexanizmi ilə əlaqədar III Fakultativ Protokolunu bu sahədə əldə edilmiş nailiyyət kimi dəyərləndirmək olar.

1995-ci ildə qəbul edilən Pekin Platformasının qadınların vəziyyətinin yaxşılaşdırılması sahəsində müəyyən olunmuş 12 prioritet istiqaməti üzrə ölkəmizdə əsaslı tədbirlər həyata keçirilmişdir. Lakin bir sıra sahələrdə hələ də fəal iş aparmaq, əməkdaşlıq edərək, bu istiqamətləri inkişaf etdirmək lazımdır. Bu məsələlərə ölkə Prezidenti İlham Əliyev və Azərbaycan Hökuməti xüsusi diqqət yetirir. Əminliklə demək olar ki, respublikada gender siyasəti uğurla həyata keçirilir. Təcrübə göstərir ki, demokratik inkişaf yolu seçən hər bir müasir cəmiyyətdə zamanın dinamikası yeni vərdişlər, yeni bacarıqlar tələb edir. Bu da qadınların cəmiyyətin həyatında daha fəal iştirak etməsi ilə nəticələnir.

**Tələbələrin biliklərinin qiymətləndirilməsi üçün suallar:**

1. Ümummilli lider Heydər Əliyevin qadın hüquqları sahəsində fəalliyyəti və rolu.
2. Azərbaycan Respublikasının xarici siyasətinin qadın hüquqlarına təsiri.
3. Qadın hüquqlarına dair beynəlxalq sənədlər.
4. Azərbaycan Respublikası qadın hüquqlarını tənzimləyən hansı beynəlxalq təşkilatların üzvüdür?
5. Qadın problemlərinə həsr olunmuş konfranslar hansılardı?
6. IV Ümumdünya Qadın Konfransının nailiyyətləri və uğurları.
7. Pekin Fəaliyyət Platforması hansı sahələri əhatə edir?
8. Azərbaycanın Pekin konfransında iştirakı.

## Mühazirə 10. Qadınlara qarşı zorakılıq beynəlxalq və milli sənədlərdə

1. ***Qadınlara qarşı zorakılıq və onun növləri***
2. ***Qadınlara qarşı zorakılıqla bağlı hüquqi aktlar***
3. ***"Qadınlara qarşı zorakılıq" konsepsiyasının tarixi icmalı***
4. ***"Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiya (CEDAW)***
5. ***Gender əsaslı zorakılıqla mübarizədə KİV-in rolu***

### 1. Qadınlara qarşı zorakılıq və onun növləri

Qadınlara qarşı zorakılıq bütün dünyada geniş yayılmış hadisədir. Belə zorakılıq həm onun qurbanı olana, həm də bütöv cəmiyyətə ciddi təsir edir. Statistika və sorğular göstərir ki, dünyanın bir çox ölkələrində zorakılıq və xüsusən də gender əsaslı zorakılıqlar hələ də davam etməkdədir. Dünyada qadınlara qarşı ictimai və şəxsi həyatda törədilən zorakılıqların insan hüququ problemi olduğu geniş anlamda qəbul edilmişdir. Pekin Fəaliyyət Platformasında deyilir ki, dövlət və ya dövlət qurumları qadına qarşı zorakılıq tətbiq edilməsinə göz yumarsa, bu, insan hüquqlarının pozulması deməkdir. Eyni zamanda qəbul edilmişdir ki, dövlətlər öz qurumları və ya ayrı-ayrı şəxslər tərəfindən törədilən zorakılıq hallarının qarşısını almalı, onları araşdırıb törədənləri cəzalandırmalı və zərərçəkənlərin müdafiəsini təmin etməlidirlər. Zorakılıq hallarının qarşısını almaq məqsədilə hökumətlər, idarələrarası komitələr müvafiq qaydalar və protokollar, milli çoxşaxəli və əlaqələndirilmiş proqramlar kimi siyası islahatlar və mexanizmlər tətbiq etməlidirlər. Bəzi hökumətlər qadın və qızları hər cür zorakılıq hallarından qorumaq və günahkarları məsuliyyətə cəlb etmək üçün müvafıq qanunlar qəbul etmiş və yaxud mövcud qanunlarda islahatlar aparmışlar.

Ayrı-seçkiliyə səbəb olan sosio-mədəni münasibətlər, stereotiplər və iqtisadi qeyri-bərabərlik qadının cəmiyyətdəki asılı vəziyyətini ağırlaşdırır. Bu, qadınların hər cür zorakılıq hallarına, yəni ailədə baş verən fiziki, cinsi və psixoloji zorakılıqlara, o cümlədən təhqir, döyülmə, yetkinlik yaşına çatmamış

qızların zorlanması, ər zorakılığı və qadınlar üçün zərərli olan digər hallara, nikahdankənar zorakılığa gətirib çıxarır. Bir çox ölkələrdə sağlamlığı mühafizə sistemində, informasiya vasitələrində, ədliyyə sistemində, iş yerlərində zorakılığa qarşı mübarizəyə hərtərəfli və əlaqələndirilmiş yanaşma hələ də qənaətbəxş deyildir.

Zorakılığın müxtəlif növləri mövcuddur və geniş yayılmış forması- *psixoloji* zorakılıqdır.

Psixoloji zorakılıq bir davranış forması kimi, güc tarazlığı olduqda başqalarına təsir etmək üçün onları məcburetmə və ya onlara qarşı təzyiq göstərməkdir. Psixoloji zorakılıq insanların bir-biri ilə ünsiyyət halında olduğu hər hansı bir mühitdə — məktəb, ailə, iş yeri, evdə və s. meydana gələ bilər. Psixoloji zorakılıq ictimai qruplar və sosial siniflər arasında da mövcuddur.

Psixoloji zorakılıq davranışları ləqəbqoyma, şifahi ya da yazılı şəkildə təzyiq etməyi əhatə edə bilər. Bundan başqa, psixoloji zorakılığin qurbanı ictimai təcridolma, ya da təcridolma ilə təhdid etməklə üzləşə bilər.

Psixoloji zorakılıq ağır zorakılıq formalarından biri sayılır və zorakılığın bu növü çox vaxt intiharlara və ya intihara cəhdlər kimi ağır nəticələrə səbəb olur. İş yerində psixoloji zorakılıq təkrarlanan, sağlamlığa zərər vuran pis davranışlar, şifahi sataşma və ya təhdidedici rəftar, göz qorxuducu və ya işə müdaxiləedici təxribat və yaxud bunların cəmidir. Psixoloji zorakılıq cinsi təcavüzə nisbətən sayca bir qədər çox baş versə də, şifahi sataşma psixoloji zorakılığın ən geniş yayılmış formasıdır.

Məktəbdəki psixoloji zorakılıqdan fərqli olaraq, iş yerindəki psixoloji zorakılıq təşkilatın və cəmiyyətin mənimsədiyi qaydalar və siyasətlər çərçivəsində həyata keçirilir və bu zorakılığın orada çalışan insana və iş davranışına verdiyi zərər aydındır.

Aparılan araşdırmalara görə, əks cinsin nümayəndələri qadınları daha çox psixoloji zorakılığa məruz qoyur. Yəni kişilər fiziki zorakılıqdan daha çox psixoloji zorakılığa üstünlük verir. Qeyd etmək lazımdır ki, qadınlara qarşı zorakılıq tarix boyu kişilərlə zəif cins arasında aparılan qeyri-bərabər bölgü nəti-

cəsində yaranan ədalətsizlik səbəbindən baş verir və müasir dövr də daxil olmaqla, bütün dövrlərdə kişilər əksər hallarda öz mövqelərindən, eləcə də onlara verilən güc və səlahiyyətlərdən qadınlara qarşı sui-istifadə etmişlər. Zəif məxluq hesab olunan qadınlara qarşı yönəldilən ədalətsizliyin əsasən ailə daxilində baş verməsi faktı bu gün artıq dünya ictimaiyyətinin gündəmində duran əsas aktual məsələlərdəndir. Adətən, zorakılıq deyəndə bu, təkcə fiziki mənada başa düşülsə də, insana ən böyük zərbə vuran, onu mənən yaralayan və uzunmüddətli təsir, iz qoyan məhz psixoloji zorakılıqdır. Psixoloji zorakılıq, digər formalardan fərqli olaraq, davamlı və uzunmüddətli təsirə malikdir. Travmaların yaranmasının bilavasitə kökündə psixoloji zorakılıq dayanır. Zorakılığa meylli insanlar çox vaxt keçmişdə yaşadıqları zorakılığı gələcəkdə tətbiq edirlər.

Zorakılığın digər növü *fiziki* zorakılıqdır. Fiziki zorakılıq deyəndə, adından da bəlli olduğu kimi, fiziki güc tətbiqetmə nəzərdə tutulur. Fiziki zorakılıq bir nəfərin gücünün digər tərəfə tətbiq olunması və qarşı tərəfə fiziki cəhətdən zərərin verilməsi deməkdir. Bu zorakılıq forması bədəndə müxtəlif xəsarətlərlə nəticələnə bilər. Hətta bədənə xəsarət yetirilməsə belə, buna cəhd edilibsə, yenə də fiziki zorakılıq sayılır. Fiziki zorakılıq boğma, şallaqla döymə, şillə vurma, saç yolma, sürümə, dişləmə, çimdikləmə və s. kimi hərəkətlər ola bilər. Halbuki sonuncular Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, döymə kimi tövsif edilə bilər.

*İqtisadi* zorakılıq ailənin bir üzvünün digəri üzərində nəzarətinə səbəb olur. Həmin şəxs digərinin iqtisadi resurslara əlçatmasını məhdudlaşdırır, özünü iqtisadi baxımdan təmin etməsinə imkan vermir və onu özündən asılı vəziyyətdə saxlayır. Qeyd etmək lazımdır ki, psixoloji zorakılıq bəzən iqtisadi zorakılığa gətirib çıxarır. Məsələn, qadına işləməyə icazə verilmirsə, o zaman həmin qadına həm psixoloji, həm də iqtisadi zorakılıq tətbiq edilir. Belə ki, qadın çalışmırsa, o zaman həyat yoldaşının qazancından istifadə edir və bu zaman həyat yoldaşından asılı vəziyyətə düşür. Bu isə iqtisadi zorakılığa gətirib çıxarır. Bundan başqa, buraya həmin insanın şəxsi əmlakından, pensiya kartından və digər dəyərli mənbələrindən icazəsiz istifadə etmək, zor tətbiq edərək özünü onun vərəsəsi

kimi tanımağa məcbur etmək də aiddir.

Bir insana təhsil almağa imkan verməmək gələcəkdə onun iş imkanlarının olmamasına şərait yaratmaq və özündən asılı vəziyyətdə saxlamaqdır. Qeyd etdiyimiz kimi, ailədaxili zorakılığın ən böyük səbəblərindən biri iqtisadi asılılıqdır. Qadınlara qarşı müxtəlif zorakılıq halları onların sağlamlığına ciddi şəkildə mənfi təsir göstərir. Bu problemin həllində səhiyyə müəssisələrinin rolu mühümdür. Zorakılığa məruz qalmış qadın və uşaqlara lazımı xidmətləri, o cümlədən hüquqi, sığınacaq, tibbi və məsləhət xidmətləri göstərmək məqsədilə etimad telefonları və xüsusi təlim almış polis xidməti yaradılmışdır. Əksər ölkələrdə hüquq-mühafizə orqanlarının əməkdaşları, məhkəmə orqanlarının üzvləri, səhiyyə işçiləri və məişət xidməti əməkdaşlarının təhsil səviyyəsi təkmilləşdirilir. Burada qadınlar üçün ictimai xəbərdarlıq kampaniyaları, təlim materialları, həmçinin zorakılığın səbəbləri üzrə araşdırma materialları hazırlanır. Qadınlara qarşı zorakılığı aradan qaldırmaq üçün hökumət və qeyri-hökumət təşkilatları arasında uğurlu əməkdaşlıq gedir. Vətəndaş cəmiyyəti, xüsusilə də qadın təşkilatları və qeyri-hökumət təşkilatları məlumatlılığın artırılmasına yönəlmiş kampaniyaların keçirilməsi və zorakılıqdan zərər çəkmiş qadınlara yardım xidmətlərinin göstərilməsində çox əhəmiyyətli rol oynayırlar. Lakin bütün dünyada qadınların zorakılığın müxtəlif formalarının qurbanı olması davam edir.

1960-cı ilin 25 noyabrinda üç bacı ─ Patria, Minerva və Maria Teresa Mirabal Dominikan Respublikasında hakim Rafael Trujillonun əmri ilə öldürüldü. Mirabal bacıları Trujillo diktaturasına qarşı mübarizə aparırdılar. 1981-ci ildən bəri qadın hüquqları üzrə aktivistlər Mirabal bacılarının öldürüldüyü günü Qadınlara qarşı zorakılğın azaldılması günü kimi qəbul ediblər.

1999-cu ilin 17 dekabrında isə BMT-nın Ümumi Assambleyasında 25 noyabr tarixinin Qadınlara qarşı zorakılığın aradan qaldırılması günü kimi qeyd edilməsi haqqında qərar qəbul edilib. Hər il noyabrın 25-dən ─ Beynəlxalq Qadınlara qarşı zorakılığın aradan qaldırılması Günündən başlayaraq 10 dekabr ─ Beynəlxalq İnsan Hüquqları Gününədək bütün dünyada Gender zorakılığına qarşı 16 günlük fəallıq kampaniyası çərçivə-

sində qadınlara dəstək aksiyaları keçirilir. Bu aksiya ailədə və işdə qadınlara qarşı törədilən zorakılıq hallarının azaldılması, cəmiyyətin diqqətini bu məsələyə cəlb etmək məqsədini daşıyır.

Avropa Şurası Parlament Assambleyasının "Qadınlara qarşı zorakılığa son qoyaq!" kampaniyası Avropa Şurasına daxil olan bütün ölkələrdə keçirilir. Qadınlara qarşı zorakılığın aradan qaldırılması gününün qeyd olunmasının səbəbi hakimiyyət, beynəlxalq və qeyri-hökumət təşkilatlarının, həmçinin ictimaiyyətin diqqətini qadınlara qarşı zorakılığa yönəltməkdir. Avropa Şurasının Parlament Assambleyası bu kampaniyanı 5 istiqamətdə aparmağı tövsiyə edir: əhalinin maarifləndirilməsi, zorakılığın profilaktikası, zorakılıq qurbanlarının müdafiə və bərpası üzrə qanunvericiliyin təkmilləşdirilməsi və yeni qanunların qəbulu. Azərbaycanda bu kampaniya çərçivəsində ölkə parlamentində dinləmələr keçirilir, Ombudsman, habelə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Bakıda və respublikanın regionlarında maarifləndirmə tədbirləri və təlimlər təşkil edir.

Qadınlara münasibətdə zorakılıq cəmiyyətdə kişi ilə qadın arasında mövcud olan bərabərsizliyin və ayrı-seçkiliyin səbəbi kimi meydana çıxır və bütün dünyada milyonlarla qadın və qızların həyatını məhv edir. Belə hallar həyata və şəxsi toxunulmazlığa təhlükə yaradır, hər bir ölkədə qadınların və qızların öz sağlamlıq və təhsil hüquqlarından, həmçinin iqtisadi müstəqillikdən bərabər faydalanmasına və cəmiyyətdə baş verən proseslərdə iştirakına mane olur.

BMT, digər irimiqyaslı beynəlxalq təşkilatlar, akademik qurumlar və mütəxəssislər tərəfindən aparılan hərtərəfli araşdırmalar qadınlara münasibətdə zorakılığın bir çox cəmiyyətlərdə mövcud olduğunu göstərir. Bu məsələnin bir çox mədəniyyətlərdə "qanuniləşdiyinin" qəbul olunmasını əks etdirən kifayət qədər dəlillər vardır. BMT Baş Katibinin "Qadınlara Münasibətdə Zorakılığın bütün Formalarının Tədqiqi"nə dair hesabatına görə, dünyada hər üç qadından ən azı biri döyülür, cinsi əlaqəyə məcbur edilir, yaxud həyatı boyunca digər formada təhqir olunur və bu hallar çox vaxt onların yaxınları tərəfindən törədilir. Qadınlara münasibətdə zorakılığın ən geniş

yayılmış formalarından biri cinsi partnyor zorakılığıdır və bu elə bir zorakılıq növüdür ki, çox vaxt əhəmiyyətsiz hesab edilir və ailənin şəxsi məsələsi kimi qiymətləndirilir.

Bütün bunlara baxmayaraq, qadınlar öz ictimai fikirlərində siyasətin subyekti kimi çıxış edirlər. Bir ictimai qrup kimi, onlar cəmiyyətin həyatına təsir göstərir, həm də spesifik qadın maraqlarını qoruyur, nəticə etibarilə, öz sosial statuslarının artmasına nail olurlar. Eyni zamanda qadınlar siyasətin ənənəvi obyekti olmaqla, cəmiyyətdə baş verən bütün dəyişikliklərin nəticələrini öz üzərlərində hiss edirlər. Qadınlara qarşı zorakılığın müxtəlif növləri sosiologiya, sosial iş, psixologiya, ictimai səhiyyə və cinayət ədliyyəsi kimi mühüm elm sahələri daxilində tədqiq olunur və öyrənilməkdədir.

Qadınlara qarşı zorakılıq dünyamiqyaslı bir bəladır. O, nə coğrafi sərhədlər, nə də yaş hədləri tanıyır və heç bir etnik və ya dini qrup bu bəladan sığortalanmayıb. Xüsusən silahlı münaqişələr zamanı qadınlar kütləvi şəkildə qəddar zorakılıq əməllərinin qurbanı olurlar. Azərbaycan xalqı öz təcrübəsində bunun acı nəticələrini görmüşdür. Ermənistanın ölkəmizə silahlı təcavüzü nəticəsində minlərlə azərbaycanlı qadın həlak olmuş, yaralanmış, əsir götürülmüş, ağlasığmaz işgəncələrə və təhqirlərə məruz qalmışdır. Bu gün də yüzlərlə əsir və girov qadın Ermənistanda və Azərbaycanın işğal edilmiş ərazilərində dözülməz şəraitdə saxlanılır, məcburi əməyə cəlb edilir və hər cür zorakılıq əməllərinə məruz qalır.

Azərbaycan cəmiyyətində qadına hörmət təməl dəyərlərdən olub, xalqımızın əxlaqının və mentalitetinin dərin qatlarına söykənir. Qadınlara qarşı hər bir zorakılıq, o cümlədən məişət zorakılığı halları cəmiyyət tərəfindən həmişə mənfi qarşılanmışdır. Cəmiyyətin bu bəlaya aşkar mənfi münasibətinə və dözümsüzlüyünə, son illərdə Azərbaycan dövlətinin bu sahədə həyata keçirdiyi təsirli tədbirlərə baxmayaraq, dünyanın bir çox ölkələrində olduğu kimi, qadınlara qarşı zorakılıq hələ də mövcuddur.

## 2. Qadınlara qarşı zorakılıqla bağlı hüquqi aktlar

Bu aktlar, ilk növbədə, zorakılıq qurbanlarının müdafiəsini, onlara dəstəyi və yardımı, habelə bu cür hüquqazidd hərə-

kətləri törədən şəxslər barəsində müvafiq sanksiyaları nəzərdə tutur. Məişət zorakılığının qarşısının alınması insanların təhlükəsizliyinin təmin olunmasında böyük əhəmiyyət kəsb edir. Qadınlara və uşaqlara qarşı məişət zorakılığı, xüsusilə də bu hüquq pozuntusunun cinayət xarakterli tərəfləri tək qadınların problemi olmamalıdır. Cəmiyyət qəbul etməlidir ki, məişət zorakılığı vətəndaş cəmiyyətinin əsaslarına ciddi zərbə vurur. Ailədə, cəmiyyətdə və dövlətlər arasında sülhün yaradılması biri-biri ilə əlaqəli proseslərdir.

Ailə insanların qarşılıqlı fəaliyyətinin təkrarsız institutudur. Ailə, şübhəsiz, müasir dövrdə, istər ayrılıqda götürülmüş şəxsiyyət, istərsə də bütövlükdə cəmiyyət üçün əhəmiyyəti artmaqda olan ümumbəşəri dəyər, mədəni irsin, əxlaqi norma və qaydaların ötürücüsü rolunu oynayır. Alimlər ailənin cəmiyyətə, şəxsiyyətin formalaşmasına, mənəvi dəyərlərin ideallarına, onların mədəni irsə münasibətinə təsirini qeyd edirlər. Bununla bağlı onlar ailənin bütün özəkləri tərəfindən yerinə yetirilən və əsas, ən vacib mövqe kimi qəbul edilən ailə funksiyalarını qeyd edirlər. Bunlara aşağıdakılar aiddir:

*Reproduktiv funksiya* həm ailədə uşağın anadan olması, həm də böyüklərin üzərinə uşağın düzgün böyüməsi, nikah və ailənin strukturunu tənzimləyən qaydalara riayət olunması ilə bağlı məsuliyyətini qoyur. Bununla uşağın və ümumiyyətlə ailənin salamat qalmasına təminat verilir.

*Tərbiyəvi funksiya* xüsusi əhəmiyyətli hesab edilir, burada mədəniyyətin bir nəsildən digərinə ötürülməsində müəyyən cəmiyyətin üzvü olan uşağın davranışını təmin edən proses nəzərdə tutulur.

*İqtisadi funksiya* kimi ailədə aparılan işlər nəzərdə tutulur. Bir çox sosioloqlar hesab edir ki, sənaye cəmiyyətində iqtisadi funksiya istehsalla deyil, daha çox istehlakla bağlıdır, yəni birbaşa malları hazırlamaqla deyil, malları satın almaqla və onların istifadəsi ilə məşğul olan ailələrdir.

Bir çox mənbələrdə ailələrin guya əvvəlki funksiyalarını itirməsi və müvafiq olaraq sosial institut kimi mənasının itməsi qeyd edilir. Lakin bir sıra sosioloqlar, xüsusilə T.Parsons qeyd edir ki, ailənin funksiyaları daha da məxsusiləşir və cəmiyyət üçün xüsusi əhəmiyyət kəsb etməyə başlayır. Məişət münasi-

bətlərində baş verən zorakılıq halları hər bir insanı narahat etməlidir. Bundan ümumilikdə cəmiyyətin gələcəyi asılıdır.

Ailədə azad tərbiyə olunan, zorakılığa məruz qalmayan uşaq cəmiyyətə asan inteqrasiya edir və yaşadığı ailə münasibətlərinə uyğun pozitiv funksiyalar daşıyır.

Beynəlxalq cəmiyyət artıq bu problemin əhəmiyyətini dərk edib. Məişət zorakılığına qarşı çox sayda beynəlxalq sənədlər qəbul edilib, beynəlxalq aktlar əsasında xüsusi müdafiə mexanizmləri yaradılıb. Lakin onların təminatı hər bir ölkənin bu problemlə mübarizə etmək istəyindən, iradəsindən asılıdır.

Praktiki olaraq bütün ailə münaqişələri gender münaqişələridir, belə ki, ilk növbədə, ailə kişi ilə qadın arasında (ərlə arvad arasında) şəxsi münasibətlər üzərində qurulur. Məişət şəraitində qadın və uşaqlara qarşı zorakılıq, ilk növbədə, insan hüquqlarının təminatına təhlükə yaradır.

Bütövlükdə, ailədə zorakılıq deyərkən adətən ər (arvad) və ya partnyor tərəfindən baş verən fiziki təzyiq nəzərdə tutulur, eyni zamanda bu, böyüklər tərəfindən uşaqlara qarşı fiziki təsirlərə də aid edilə bilər. Ailə zorakılığının müxtəlif təzahür formaları vardır: fiziki, cinsi, psixoloji və iqtisadi zorakılıq.

Çox vaxt məişət zorakılığı ailədaxili məsələ hesab olunur. Nəticədə belə hallar barəsində məlumat verilmir və buna görə də onların dəqiq miqyasını müəyyən etmək çətindir. Evdə zorakılıq ailənin hər bir üzvünə təsir edir, amma uşaqlar bu məsələdə xüsusilə həssasdırlar. Onlar ailə üzvləri arasında zorakılığın şahidi olduqda, ya da onların özlərinə qarşı zorakılıq tətbiq edildikdə, böyüyəndə oğlanların öz həyat yoldaşlarına və uşaqlarına qarşı zorakılığa yol verəcəkləri, tətbiq edəcəkləri, qızların isə zorakılıq olan ailədə yaşayacaqları, yəni zorakılıq tətbiq edən həyat yoldaşı ilə ailə quracaqları iddia edilir.

Hazırda 89 ölkənin qanunvericiliyində məişət zorakılığı ilə əlaqədar konkret normalar öz əksini tapmışdır. Azərbaycan da məişət zorakılığının bütün formalarının ləğv edilməsi ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində əhəmiyyətli uğurlar əldə etmişdir.

Ailə münasibətlərinə müdaxilə, "qanunvericiliklə müəyyən edilmiş hallar və hüdudlar istisna olmaqla, hər kəsin şəxsi və ailə həyatına müdaxilənin yolverilməzliyi" prinsipinə əsaslan-

malıdır. Bu baxımdan ailədə zorakılıq hallarının qarşısının alınmasına yönələn bir qanunun qəbul olunması kifayət deyildir. Ailə zorakılığı probleminin həlli kompleks yanaşma, məqsədli tədbirlərin həyata keçirilməsini tələb edir. Kompleks tədbirlər zəruri hüquqi bazanın, o cümlədən inzibati cəza və cinayət təqibinə yönəlmiş qanunvericilik aktlarının qəbul olunması, xüsusi mexanizmlərin yaradılması, zorakılığın qarşısının alınması, qurbanların müdafiəsi və reabilitasiyasını əhatə etməlidir. Yaxın illərə qədər məişət zəminində baş verən zorakılıqlara qarşı mübarizə yalnız cinayət təqibini həyata keçirməklə kifayətlənirdi. Belə ki, məişətdə (ailədə) cinayət əsaslı zorakılıq baş verdikdə, cinayət qanunvericiliyinin müvafiq müddəaları tətbiq edilməklə cinayət təqibi həyata keçirilirdi. Lakin məişət zorakılığı, qadına qarşı zorakılıq yalnız kriminal xarakterli hadisə deyildir. Ona görə də məişət zorakılığına qarşı mübarizə yalnız cinayət qanunvericiliyi ilə aparıla bilməz.

Qadınlara dair zorakılıq problemlərinin həllində beynəlxalq qanunvericilik təkmilləşməyə doğru gedir. Əgər Nayrobidə keçirilmiş Ümumdünya konfransının (1985) qəbul etdiyi qətnamənin yalnız iki paraqrafı qadına qarşı zorakılıq probleminə həsr edilmiş və bu səhiyyə problemi kimi təqdim edilmişdirsə, Pekin platforması (1995) bu problemə daha çox yer ayırmış, öz yekun sənədində əlavə olaraq, hər zorakılıq aktı üzrə təhqiqat aparılmasının, bu barədə məlumat verilməsinin, qadınlara qarşı zorakılıq etmiş şəxslərin cəzalandırılmasını, bu problemə hökumətlərin münasib davranışının işlənməsinin və qadınlara qarşı zorakılıq etmiş şəxslərin məhkəməyə cəlb olunmasının vacibliyinə diqqəti yönəltmiş, bu məsələnin həllinə insan hüquqları problemi mövqeyindən yanaşmışdır. Pekin Fəaliyyət Platformasında deyilir ki, dövlət və ya dövlət qurumları qadına qarşı zorakılıq tətbiq edilməsinə göz yumarsa, bu, insan hüquqlarının pozulması deməkdir. Qadınların və qızların öz hüquq və fundamental azadlıqlarından istifadə imkanlarını pozan, məhdudlaşdıran və ya sıfra endirən zorakılığın, o cümlədən ailə daxilində törədilən zorakılıqların qarşısının alınması və bu hallara qarşı mübarizə baxımından məlumatlılıq və məsuliyyət dərəcəsi təkmilləşdirilmiş, qanunvericilik, siyasət və proqramlar səviyyəsinə qaldırılmışdır. Zorakılıq halla-

rının qarşısını almaq məqsədilə hökumətlər qurumlararası komitələr, qaydalar və protokollar, milli çoxşaxəli və əlaqələndirilmiş proqramlar kimi siyasi islahatlar və mexanizmlər tətbiq etməlidirlər. Bəzi hökumətlər qadın və qızları hər cür zorakılıq hallarından qorumaq və günahkarları məsuliyyətə cəlb etmək üçün müvafıq qanunlar qəbul etmiş və yaxud mövcud qanunlarda dəyişikliklər, təkmilləşdirmə tədbirləri aparmışlar.

Bu sənəd dövlət proqramlarının hazırlanmasını, eləcə də qadın problemləri ilə bağlı dəqiq və təcili tədbirlərin görülməsini nəzərdə tuturdu.

ATƏT-in Bakı Ofisinin Qanunun Aliliyi və İnsan Hüquqları Şöbəsi tərəfindən 2013-cü ildə hazırlanmış “Azərbaycan Məhkəmə Sistemində Məişət Zorakılığı ilə bağlı İşlər” adlı hesabatda qeyd edilir ki, Azərbaycan hökuməti 2010-cu ildə “Məişət zorakılığının qarşısının alınması haqqında” Qanunu qəbul etməklə, qlobal problem olan məişət zorakılığının aradan qaldırılması üçün irəliyə doğru əhəmiyyətli addım atmışdır. Qanunda əks olunan normativ hallar və Mülki Prosessual Məcəlləyə, İnzibati Məcəlləyə və digər aidiyyatı olan qanunlara edilən dəyişikliklər Azərbaycanda məişət zorakılığı probleminin həlli istiqamətində mühüm başlanğıc addımlar olmuşdur.

Bu Qanun yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşayışdan sui-istifadə etməklə törədilən zorakılığın, onun doğurduğu mənfi hüquqi, tibbi və sosial nəticələrin qarşısının alınması, məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial müdafiəsi, hüquqi yardımla təmin edilməsi, habelə məişət zorakılığına səbəb olan halların aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirləri müəyyən edir və tənzimləyir.

Azərbaycan Respublikasının 22 iyul 2010-cu il tarixli “Məişət zorakılığının qarşısının alınması haqqında” qanunu (bundan sonra, məişət zorakılığı haqqında qanun) məişət zorakılığının və “onun neqativ hüquqi, tibbi və sosial nəticələrinin” qarşısının alınmasını, qurbanları “hüquqi yardım və sosial müdafiə” ilə təmin etməyi və “məişət zorakılığına səbəb olan şəraitin” aradan qaldırılmasını özündə ehtiva edir. Məişət zorakılığına dair qanuna əsasən, “məişət zorakılığı yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşamaqlarından

sui-istifadə etməklə, bu Qanunun şamil edildiyi şəxslərin birinin digərinə qəsdən fiziki və ya mənəvi zərər vurması" kimi müəyyən olunur. 1-ci maddə "fiziki məişət zorakılığı", "psixoloji məişət zorakılığı" və "seksual məişət zorakılığı" hallarını müəyyən edir və onları bir-birindən fərqləndirir. Bu maddə həmçinin digər əsas anlayışları da müəyyən edir. Qanuna əsasən, məişət zorakılığı ilə bağlı şikayətlərə cinayət, inzibati və ya mülki qaydada və ya cinayətin baş verməsi və ya hazırlanmasından, eləcə də şikayətin cinayət tərkibi (corpus delicti) halı ilə bağlı olmasından asılı olaraq, icra hakimiyyətləri tərəfindən baxıla bilər. Əgər şikayət törədilmiş və ya planlaşdırılan cinayət haqqındadırsa və ya şikayətdə belə hallar varsa, o zaman işə cinayət qaydasında baxılmalıdır. Əks halda şikayət "müvafiq icra hakimiyyəti orqanı" tərəfindən araşdırılmalıdır.

Həm məişət zorakılığı, həm də məişət zorakılığı ilə bağlı məhkəmə icraatı, beynəlxalq və yerli normativ sənədlərdə nəzərdə tutulan hüquqlarla əlaqədardır. Xüsusilə, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (UDHR), Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt (ICCPR) və İnsan Hüquqları və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyası (AİHK), hüquqlarla bağlı geniş formada müdafiəni nəzərdə tutur.

Bu normaların mətnində məişət zorakılığına rast gəlinməsə də, Avropa İnsan Huquqları Məhkəməsi (AİHM) bu işlərlə bağlı geniş tərkibli presedent hüququ yaradıb. AİHM-in yurisprudensiyası AİHK ilə daha geniş formada müəyyən edilmiş hüquqların qorunması naminə, dövlətin məişət zorakılığı ilə bağlı işləri araşdırmasını nəzərdə tutan xüsusi halları özündə ehtiva edir.

Məhkəmə, məişət zorakılığının qadınlara qeyri-mütənasib şəkildə təsir etdiyini tanıyaraq, CEDAW-nun birinci maddəsində də nəzərdə tutulduğu qaydada, qadına qarşı zorakılığın ayrı-seçkiliyin bir növü olması ilə bağlı CEDAW Komitəsinin mövqeyini qəbul etdi. Özünün presedent kimi müəyyən etdiyi Opuz Türkiyəyə qarşı işində, İnsan Hüquqları üzrə Birləşmiş Millətlər Komissiyasına istinad edən Məhkəmə bildirdi: "qadına qarşı zorakılığın bütün formaları qadınlara qarşı hüquqi və faktiki ayrı-seçkilik kontekstində və cəmiyyətdə qadınların

aşağı statuslu şəxslər hesab edilməsi kontekstində baş verir və qadınların hüquqi müdafiə vasitələri üçün dövlətə müraciət edərkən çox zaman maneələrlə üzləşməsi bu zorakılığı daha da gücləndirir". Sonda Məhkəmə ərizəçinin 2-ci və 3-cü maddələrlə birlikdə, 14-cü maddədə nəzərdə tutulan ayrı-seçkiliyə məruz qalmamaq hüququnun pozulduğunu tanıdı və bildirdi ki, Dövlətin, qadınları məişət zorakılığından qorumaması "hətta bu qorumama hərəkəti məqsədli şəkildə baş vermədikdə belə, qadınların qanunla bərabər şəkildə qorunmaq hüququnu pozur."

AİHM-in yurisprudensiyası həm də Dövlətin üzərinə, şəxsləri digər şəxslərin zorakılıq və təhqir hərəkətlərindən qorumaq öhdəliyi kimi pozitiv öhdəlik qoyur. Bu pozitiv öhdəlik həm də AİHK-in 2-ci və 3-cü maddələrində, eləcə də 8-ci maddədə və ya 3-cü maddə ilə birlikdə 8-ci maddədə nəzərdə tutulan hüquqlarla bağlı da tətbiq olunur. Bu hal Dövlətlərdən tələb edir ki, "ayrı-ayrı şəxslərin zorakılıq xarakterli əməlinin qarşısını almaq üçün adekvat qanunvericilik bazası yaratmalı və bu qanunvericiliyi tətbiq etməlidir."

Qeyd olunmalıdır ki, çoxsaylı başqa beynəlxalq "yumşaq hüquq" sənədləri məişət zorakılığı, gender bərabərsizliyi və insan hüquqları ilə bağlı Dövlətlərin öhdəliklərini müəyyən edib.

Bu istiqamətdə ən son sənədlərdən biri Avropa Şurasının İstanbul Konvensiyası kimi də tanınan "Qadına qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması haqqında Konvensiya"dır. İstanbul Konvensiyası dünyada qadını hər növ zorakılıqdan qoruyan və eləcə də qadına qarşı zorakılığı və məişət zorakılığını məhkəmə qaydasında araşdıran və aradan qaldıran, məcburi öhdəlik yaradan ilk müfəssəl hüquqi sənəddir. Konvensiya, həmçinin yerli səviyyədə icrasının beynəlxalq qaydada müşahidə olunması mexanizmini də nəzərdə tutur. Konvensiya, səkkizi üzv dövlət olmaqla, on dövlət tərəfindən ratifikasiya olunduqdan sonra qüvvəyə minəcək. Hələ ki, iyirmi iki ölkə sənədi ratifikasiya edib, 22-i isə imzalayıb, amma hələ ratifikasiya etməyib. Azərbaycan Konvensiyanı nə imzalayıb, nə də ratifikasiya edib. Baxmayaraq ki, İstanbul Konvensiyası Azərbaycanda hüquqi qüvvəsi olmayan bir sənəddir, Azərbaycan əvvəldə qeyd olunan sənədlərə qoşulub və buna görə

də həmin sənədlər ölkəmizdə tətbiq olunandır. Ölkəmizin Əsas Qanununa — Konstitusiyasına əsasən, "Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq sənədlər Azərbaycan qanunvericiliyinin tərkib hissəsidir." Bu müqavilələrdə nəzərdə tutulan hüquqlar yerli qanunvericilikdə nəzərdə tutulan hüquqların əhatəsini genişləndirir və onları tamamlayır. Konstitusiyada əks etdirilən hüquqlar və azadlıqlar "Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun şəkildə həyata keçirilməlidir." Hətta müəyyən hallarda beynəlxalq normalar yerli qanunvericilikdən üstün hüquqi qüvvəyə malik ola bilər.

Azərbaycan Respublikasının 12 noyabr 1995-ci il tarixli Konstitusiyası məişət zorakılığı kontekstinə uyğun bir sıra hüquq normaları nəzərdə tutur. Xüsusilə "Ailə, uşaqlar və dövlət" adlanan 17-ci maddənin I hissəsində "Cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir" müddəası qeyd olunmuşdur. Bu maddədə həmçinin, valideynlərin üzərinə "Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək", dövlətin üzərinə isə "bu öhdəliyin yerinə yetirilməsinə nəzarət etmək" öhdəliyi qoyulur. Konstitusiya məişət zorakılığına dair işlərə və həmçinin məişət zorakılığına dair məhkəmə icraatı tətbiq oluna bilən bütün digər hüquqları da nəzərdə tutur. Bu hüquqlara inter alia - bərabərlik hüququ, yaşamaq hüququ, sərbəst hərəkət etmək azadlığı, mülkiyyət hüququ, təhlükəsiz yaşamaq hüququ, şəxsi həyat və ailə həyatı ilə bağlı şəxsi toxunulmazlıq və məxfilik hüququ, mənzil toxunulmazlığı hüququ, nikah hüququ, sosial müdafiə hüququ, mənzil hüququ, şərəf və ləyaqətin müdafiəsi hüququ, hüquq və azadlıqların məhkəmə təminatı, hüquqi yardım almaq hüququ, məhkəməyə təkrar müraciət hüququ və ailə üzvlərinin əleyhinə ifadə verilməyə məcbur edilməmək hüququ aiddir.

1 oktyabr 2010-cu il tarixdə, Azərbaycan Respublikasının Prezidenti məişət zorakılığı haqqında qanunun icrasını nəzərdə tutan Fərman imzaladı. Bu Fərmanla Nazirlər Kabinetinə dörd ay ərzində Qanunun icrası ilə bağlı genişmiqyaslı tədbirlər görmək, həmçinin məişət zorakılığı haqqında qanunun tam şəkildə icra edilməsi üçün müvafiq normativ aktlara dair zəruri təkliflər hazırlamaq barədə tapşırıq verildi. Həmin Fərmana əsa-

sən həm də bu qanunun ilkin addım olması qəbul edilərək, qanunun icrasına yol açan zəruri tədbirlərin görülməsi barədə Nazirlər Kabinetinə tapşırıq verildi. Bu tapşırıqlara cinayət tərkibi olmayan şikayətlərə baxılması qaydalarının müəyyən edilməsi, zorakılıq törətmiş şəxsin qeydiyyata alınması, məlumat bankının, QHT yardım mərkəzlərinin fəaliyyət qaydasının, təkrar-təkrar qeyd olunan, lakin dəqiq müəyyən olunmayan "müvafiq icra hakimiyyəti orqanları" barədə təkliflərin hazırlanması və öz səlahiyyətləri daxilində məişət zorakılığına dair qanundan irəli gələn digər məsələlərin həll edilməsi daxildir.

24 noyabr 2011-ci il tarixdə ölkə Prezidenti "Məişət Zorakılığı Qanununun tətbiqi ilə əlaqədar" ikinci Fərmanı imzalamışdır. Fərman Məişət zorakılığının qarşısının alınması haqqında Qanunda təsbit olunan, lakin izahı verilməyən "müqafiq icra hakimiyyəti orqanı"nı "yerli icra hakimiyyəti orqanı" kimi müəyyən etmişdir. Prezidentin Fərmanına cavab olaraq, Nazirlər Kabineti bir sıra qərarlar qəbul etmişdir. Buraya "Məişət zorakılığı törətmiş şəxslərin profilaktik qeydiyyata götürülməsi və həmin şəxslərlə tərbiyəvi-qabaqlayıcı işin aparılması Qaydası" (19 dekabr 2011), "Məişət zorakılığı ilə bağlı məlumat bankının təşkili və aparılması Qaydaları" (19 dekabr 2011), "Məişət zorakılığı barədə şikayətlərdə cinayət tərkibinin əlamətləri olmadıqda, şikayətlərə baxılma Qaydası" (24 fevral 2012), "Məişət zorakılığı qurbanlarına yardım mərkəzlərinin fəaliyyət Qaydası" və "Məişət zorakılığı qurbanlarına yardım etmək üçün yaradılan qeyri-ictimai yardım mərkəzlərinin akkreditasiya Qaydası"nın təsdiq olunması haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı" (25 aprel 2012) daxildir. Bu sonuncu qərar iki hissədən ibarətdir: "Məişət zorakılığı qurbanlarına yardım mərkəzlərinin fəaliyyət Qaydası" və "Məişət zorakılığı qurbanlarına yardım etmək üçün yaradılan qeyri-ictimai yardım mərkəzlərinin akkreditasiya Qaydası". Bir gədər sonra müzakirə ediləcək çoxsaylı boşluqların hələ də mövcud olmasına baxmayaraq, bu qərarlar həmin mexanizmin təkmilləşdirilməsi istiqamətində səylərin davam etdirilməsini və bu istiqamətdə xoş məramın olmasını göstərir və məişət zorakılığına dair qanunun ehtiva etdiyi müdafiə mexanizminin müəyyən hissələrini konkretləşdirir. Məişət zorakılığı

məsələsi həmçinin "Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planı"na daxil edilib. Milli Fəaliyyət Planı mütəmadi şəkildə görülməli olan tədbirlərin siyahısını müəyyən etmişdir: "məişət zorakılığı da daxil olmaqla, qadına qarşı zorakılıqla mübarizəni gücləndirınək, müfaviq hüquqi yardım vasitələri ilə təminetmə, zəruri kompensasiyalar, tibbi və psixoloji yardım və bu cür zorakılığın qurbanı olmuş şəxslərin reabilitasiyası", həmçinin "bu sahədə geniş ictimai məlumatlandırmanın təşkili". Bu tədbirlər Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Səhiyyə Nazirliyi tərəfindən həyata keçirilməlidir.

24 iyun 2011-ci il tarixdə "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu" qəbul olundu. Bu qanun, məişət zorakılığı qurbanları üçün digər xüsusi icraatla bağlı məsələlərdə, hansı halda uzunmüddətli mühafizə orderinin təyin olunmasına ehtiyac olduğunu şərtləndirir. Bu qanunla Mülki Prosessual Məcəlləyə, "Məişət zorakılığından əziyyət çəkən şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi barədə işlər üzrə icraat" adlı 40-1 saylı yeni fəsil əlavə edildi. Bu dəyişiklikdən sonra həmin Məcəllənin 355.1.1-ci maddəsində qeyd olunur: Məişət zorakılğı ilə bağlı hərəkətlər törətmiş şəxs verilmiş xəbərdarlığa və qısamüddətli mühafizə orderinin tələblərinə əməl etmədikdə, zərərçəkmiş şəxs və ya müvafiq icra hakimiyyəti orqanı uzunmüddətli mühafizə orderinin verilməsi üçün məhkəməyə müraciət etmək hüququna malikdir. Bundan başqa, bu maddə həmçinin, şikayət məhkəməyə daxil olduqdan sonra ona üç gün ərzində qapalı məhkəmə iclasında baxılmasını şərtləndirir. İnzibati Xətalar Məcəlləsi "məişət zorakılığı" ilə bağlı əməlləri cəzalandıran iki əsas normanı müəyyən etmişdir. Bura 157-ci maddədə nəzərdə tutulan döymə əməlinə və 158-ci maddədə əks etdirilmiş məişət zorakılığının qarşısının alınması haqqında qanunvericiliyin pozulmasına görə inzibati tənbeh tədbirləri daxildir. Buraya "məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqinə, yeni şəxs tərəfindən digər şəxsin onun mülkiyyətində, sərəncamında və ya istifadəsində olan əmlakdan, gəlirlərdən məhrum edilməsinə, iqtisadi asılılıq yaradılmasına, belə asılılığın saxlanılmasına

və ya ondan sui-istifadə edilməsinə yönəlmiş hərəkətlər", "məişət zəminində psixi zorakılığa, yəni şəxs tərəfindən digər şəxsə qəsdən psixi təzyiq göstərilməsinə və ya dözülməz psixi şərait yaradılmasına yönəlmiş hərəkətlər" və s. aiddir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsində məişət zorakılığı ayrıca cinayət əməli kimi və ya digər cinayət əməlində ağırlaşdırıcı hal kimi nəzərdə tutulmur. Daha dəqiq desək, Qanun məişət zorakılığına yol vermiş şəxslərin Cinayət Məcəlləsində nəzərdə tutulmuş cinayətlərə uyğun cəzalandırılmasını nəzərdə tutur. Əlbəttə, əməl, kontekstindən asılı olaraq, müxtəlif növ cinayət əməli kateqoriyasına aid edilə bilər. Nəzərə alsaq ki, məişət zorakılığı haqqında qanun "məişət zorakılığını" qismən "qəsdən fiziki və mənəvi zərərvurma" kimi müəyyən edir, məişət zorakılığı ilə əlaqədar əksər cinayətlər Cinayət Məcəlləsinin VIII bölməsinin (şəxsiyyət əleyhinə olan cinayətlər) altına düşür. Məişət zorakılığına dair qanunun tərtibatı zamanı, ATƏT/DİİHB qanunun layihəsini hazırlayan işçi qrupun təqdim etdiyi rəydə, məişət zorakılığı anlayışına həm də məişət zorakılığı xarakterli cinayətləri müəyyən edən əməllərin siyahısını daxil etməyin əhəmiyyətini vurğulamışdı: "Məişət zorakılığına yol verən əksər şəxslər tərəfindən törədilən cinayət əməlinin bu cür dəqiqləşdirilməsi, tez-tez baş verən zorakılıq cinayətlərinin, qorxu yaradan və ya zərər vuran əməllərin əhatə dairəsini müəyyənləşdirməyə kömək edərdi və daha önəmli, həmin cinayətləri əks etdirən qanunu tətbiq edən qurumlara, üçüncü şəxslərə aid bu cinayətlərin evdə və/və ya ailədə yaşayan şəxslər arasında və ya oxşar münasibətdə olan şəxslər arasında baş verdiyini daha aydın çatdırardı." Bundan əlavə, ATƏT Avropa Şurası Nazirlər Kabinetinin "ailə daxilində baş verən zorakılığın bütün formalarının cinayət əməli kimi tövsif olunması" ilə bağlı tövsiyəsini də bir daha xatırlamışdır.

Məişət zorakılığı ilə bağlı cinayətlərin istintaqı, Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinə (bundan sonra Cinayət Prosessual Məcəllə) uyğun aparılmalıdır. Lakin Cinayət Prosessual Məcəllə məişət zorakılığı ilə bağlı cinayətlər üçün hər hansı xüsusi prosedur nəzərdə tutmur. Buna görə də "məişət zorakılığı" xüsusi prosessual tədbirlər üçün müstəqil

meyar hesab olunmur.

Azərbaycan Respublikasının bir sıra digər hüquq normaları da məişət zorakılığı ilə bağlı müəyyən hallara tətbiq oluna bilər.

• Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında Qanun: Bu qanunun 3-cü maddəsinin 2-ci bəndinə əsasən, məişət zorakılığının qurbanları "müdafiə olunan şəxslər" kimi təsnifatlandırıla bilər. Bu halda, onlara qanunun 7-ci maddəsində nəzərdə tutulan təhlükəsizlik tədbirləri tətbiq olunacaq.

• Ailə Məcəlləsinin: 64.0.5-ci maddəsinə əsasən, uşaqlarına qarşı məişət zorakılığı ilə bağlı hərəkətlər törədən valideynlər, valideynlik hüququndan məhrum edilə bilərlər.

• Gender Bərabərliyi haqqında Qanun: inter alia, gender əsaslı ayrı-seçkiliyin və seksual qısnamanın anlayışını müəyyən edir və qadağan edir. Bu qanun həmçinin Dövlətin üzərinə gender bərabərliyini təmin etmək öhdəliyi qoyur. İcra haqqında Qanun, Sosial Xidmət haqqında Qanun və İnformasiya əldə etmək haqqında Qanun daxil olmaqla digər qanunlar da mövcuddur ki, onlar məhkəmələrin deyil, fərqli dövlət orqanlarının və ictimai qurumların üzərinə müvafiq vəzifələr qoyur. Bununla yanaşı, Əhalinin Sağlamlığının Qorunması haqqında Qanunun 17-1-ci maddəsi məişət zorakılığı qurbanlarının dövlət səhiyyə sisteminin müəssisələrində ixtisaslaşdırılmış pulsuz tibbi yardımla təmin olunmasını nəzərdə tutur.

Əvvəldə qeyd edilmiş qanunvericilik tədbirləri ilə yanaşı, beynəlxalq və milli tərəfdaşlıq, müxtəlif tədbirlər, o cümlədən geniş maarifləndirmə işləri aparılır, təlimlər təşkil edilir, gender bərabərliyinin təmin olunmasına yönəlmiş real addımlar atılır, əldə edilmiş tərəqqinin monitorinqi və qiymətləndirilməsi aparılır. Bu işlərin görülməsinə qeyri-hökumət təşkilatları da mühüm töhfələr verir. Qadınlara qarşı zorakılıq, o cümlədən məişət zorakılığı ilə mübarizə qadınların və kişilərin əsas hüquqlarına eyni dərəcədə hörmət bəslənilən daha ədalətli cəmiyyətin qurulmasına xidmət etməkdədir.

**3.“Qadınlara qarşı zorakılıq” konsepsiyasının tarixi icmalı**

Qeyd edək ki, qadınlara qarşı zorakılıqla mübarizə müəyyən tarixi dövr keçib. Bu proses XIX əsrin ortalarından fəallaşmağa başlamışdır. İngiltərədə yaranan ilk qadın ittifaqlarının təzyiqi altında “Qadınlara və uşaqlara qarşı zorakılığın aradan qaldırılması və cəzalandırılması haqqında” Akt qəbul edildi. Qeyd edilən normativ akt ailədə fiziki zorakılığı törədən kişiyə münasibətdə qısa müddətə azadlıqdan məhrum etmək sanksiyasını nəzərdə tuturdu. “Nikah işləri haqqında” 1857-ci ildə qəbul edilən növbəti Akt qadınlara çox məhdud əsaslarla ərindən ayrılmağa icazə verirdi. 1872-ci ildə dünyada ilk dəfə Amerikanın Massaçusets və Alabama ştatlarında qadınlara qarşı zorakılıq cinayət kimi qəbul edildi. XIX əsrin sonuna qədər hətta Avropa ölkələrində nikah qanunvericiliyinə əsasən, ərdə olan qadının şəxsi əmlakının sahibi olmaq hüququ yox idi. Rusiyada isə onlar hətta fərdi adla yaşamaq hüququndan məhrum idilər, arvadın adı ərinin adına daxil edilirdi.

Bəzi tədqiqatçılar hesab edirlər ki, bu problemə xüsusi diqqət ayrılmasının səbəbini XX əsrin sonu, XXI əsrin əvvəllərində sosial-tarixi vəziyyətdəki inkişafla əlaqələndirmək doğru olardı. Belə ki, XX əsr tarixə ən böyük kəşflər əsri kimi daxil olmaqla yanaşı, öz eybəcərlikləri ilə də yadda qalan bir dövr oldu. Məhz bu əsrdə bəşəri cinayətlər, müharibələr və onlardan kütləvi zərərçəkənlər, terrorlar, totalitar rejimlər, özünə qəsdlər, insanlarda soyuqqanlılıq və biganəlik kimi keyfiyyətlər daha intensiv xarakter aldı. Güclünün zəif üzərində hakimiyyətini zorakılıq yolu ilə əldə etməsi, eləcə də şərin xeyir üzərində qələbəsi bu əsrin fenomenal xüsusiyyəti kimi, XXI əsrə miras olaraq ötürüldü. Ümumilikdə zorakılıq termini başqalarına münasibətdə müxtəlif məcburetmə formalarının tətbiqi kimi başa düşülür. Bu mövzunun araşdırılması ilə məşğul olan ekspertlərin fikirinə əsasən, “məişət-qadın zorakılığı” dedikdə, beynəlxalq termin kimi, ailədaxili və ya qadına qarşı zorakılıq başa düşülür. Yəni bu bir ailə üzvünün digər ailə üzvünü öz nəzarəti altında saxlamaq istəyidir. Bu, xüsusən keçmiş patriarxal adət-ənənələrin qaldığı, üstünlük təşkil etdiyi regionlarda daha qabarıq şəkildə müşahidə olunur.

Qadın malik olduğu insan hüquqlarından bir çox hallarda qadın olduğu üçün məhrum edilir. Tarix boyu qadınların kişilərlə eyni səviyyədə, tam bərabər hüquq və azadlıqlara sahib olduğu zaman və məkan olmayıb. Fiziki olaraq qadının kişidən daha zəif olması onun daim ikinci plana keçməsinə, əzilməsinə və ədalətsizliklə üzləşməsinə səbəb olmuşdur. Bütün dünyada qadınlar ayrı-seçkiliyə və zorakılığa məruz qalmış və müasir dövrümüzdə bu sahədə nəzərəçarpacaq tərəqqiyə baxmayaraq, bu proses hələ də davam etməkdədir.

Qadın doğulduğu andan, hətta ondan daha əvvəl ana bətnində cinsiyyəti məlum olan gündən, habelə qadın həyatının bütün sahələrində daim ayrı-seçkilik münasibəti, fərqli yanaşma ilə üzləşir. Qadınlara qarşı ayrı-seçkiliyə yol verilməsi açıq-aşkar bəşəri insan hüquqlarının pozulmasıdır və artıq dünya ictimaiyyəti də bunu qəbul etmişdir. "Qadınlara qarşı zorakılıq" qadın hüquqları problemi kimi meydana çıxaraq XXI əsrin əsas insan hüquqları məsələsinə çevrilməzdən öncə, mürəkkəb transformasiya prosesinə məruz qalır. Qadınlara qarşı zorakılığın beynəlxalq miqyasda insan hüquqlarının pozulması kimi tanınması uğurlu vətəndaş səfərbərliyinin və intellektual səylərin nəticəsində mümkün olub.

1946-cı ildə Qadınların Statusu üzrə Komissiya yaradıldı və bu Komissiya 1967-ci il Qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması Bəyannaməsi də daxil olmaqla, bir sıra konvensiya və Bəyannamələrin mətnini hazırladı. 26 iyun 1945-ci ildə BMT-yə üzv dövlətlər Birləşmiş Millətlər Təşkilatının Xartiyasını imzalayaraq bütün insanların irqinə, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan onların əsas hüquq və azadlıqlarının təşviqini öz öhdələrinə götürdülər. 1948-ci ildə BMT-nin Baş Assambleyasında qəbul edilmiş Ümumdünya İnsan Hüquqları Bəyannaməsi İnsan hüquqları üzrə əsas prinsipləri, o cümlədən yaşamaq hüququ, azadlıq hüququ, şəxsi təhlükəsizlik hüququ və hər kəs üçün hüquqi müdafiə hüququnu müəyyənləşdirdi. Sözügedən Bəyannamə iki Pakt - Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt, həmçinin İqtisadi, Sosial və Mədəni hüquqlar haqqında Beynəlxalq Pakt ilə birlikdə insan hüquqları haqqında Beynəlxalq Billi formalaşdırdı. Bu, BMT-yə üzv dövlətlərə insan hü-

quqları sahəsində nailiyyətlər baxımından standartlar təyin edən və insan hüquqları ilə bağlı məsələlərə dair beynəlxalq hüququn inkişafı üçün təməl təşkil edən əsas sənədlər toplusudur.

Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbul edilməsindən qısa müddət sonra, əvvəldə göstərildiyi kimi, BMT qadın hüquqları ilə bağlı vəziyyəti tədqiq etmək məqsədilə üzv dövlətlərin təmsilçilərindən ibarət Qadınların Vəziyyəti üzrə Komissiya yaratdı (1946), üzv dövlətlərin milli qanunvericiliklərinə uyğun gender bərabərsizliyinin aradan qaldırılmasına yönəlmiş bir sıra beynəlxalq sazişlər bağlandı (məsələn, 1952-ci ildə Baş Assambleya tərəfindən qəbul edilmiş Qadınların Siyasi Hüquqlarına dair Konvensiya və s.)

BMT-nin Qadın Onilliyi (1975-1985) Qadın fəallarının ictimai forumlarda iştirak etməsi, fikir mübadiləsi aparması və transmilli şəbəkələr yaratması üçün mühüm mexanizm təmin etdi. Qadınların vəziyyətinə dair artmaqda olan informasiyalar göstərdi ki, onlar üçün insan hüquqlarının təmin olunması üzrə səylərin artırılaraq, qadınların yaşamaq, azadlıq və fiziki təhlükəsizlik hüquqlarının ciddi şəkildə pozulduğu sahəyə, yəni özəl sahəyə də tətbiqi olmadan mümkün deyildir. 1990-cı illərdən başlayaraq ABŞ-da və Avropada səhiyyə işçiləri zorakılığın qadınların ölümünə və xəstələnmələrinə təsiri ilə bağlı narahatlıqlarını ifadə etmişlər. İctimai səhiyyənin tədqiqatları imkan verdi ki, psixoloji zorakılığı, məhrumetmə və etinasızlıq məsələlərini də qadınlara qarşı zorakılıq anlayışına daxil etsin və zorakılığın qadınlara, ailələrə və cəmiyyətlərə mənfi təsirini ictimaiyyətin diqqətinə çatdırsın. Qadınlara qarşı zorakılıqla bağlı cinayət ədliyyəsi və ictimai səhiyyə nöqteyi-nəzərindən aparılan akademik tədqiqatlar bu zorakılığın əsas səbəbləri, xarakteri və nəticələri barədə geniş biliklər əldə etdi.

Qadın onilliyi ərzində BMT tərəfindən təşkil edilmiş qadınlara dair ümumdünya konfransları qadınlara qarşı zorakılıq problemlərini onların insan hüquqlarına dair artmaqda olan müzakirələrin gündəliyinə salmağa çalışan QHT-lərin və qadın qruplarının səylərini cəmləşdirməyə köməklik etdi. Bu fəaliyyət nəticəsində 1993-cü ildə Vyanada keçirilən İnsan Hüquqlarına dair Ümumdünya Konfransı qadınlara qarşı zorakılığın

insan hüquqları bazası çərçivəsində müəyyənləşdirilməsi istiqamətində əhəmiyyətli töhfə verdi. Konfransda iştirak edən hökumət nümayəndələri qadınlara qarşı zorakılığın tədbirini gündəliyinə salınmış əsas mövzulara daxil edilməsinə və gender problemlərinin BMT-nin insan hüquqları üzrə mexanizmlərinə daxil edilməsi prosesinə başlamağa razılaşdı. Bu addım nəticəsində BMT-nin İnsan hüquqları üzrə Komissiyası 1994-cü ildə qadınlara qarşı zorakılıq üzrə xüsusi məruzəçi təyin etdi. Bu mübarizədə digər bir vacib mərhələ 1993-cü ildə BMT-nin Baş Assambleyası tərəfindən müəyyənləşdirildi. 20 dekabr 1993-cü ildə Baş Assambleya Qadınlara qarşı zorakılığın aradan qaldırılmasına dair Bəyannamə qəbul etdi. Bəyannamədə qadınlara qarşı zorakılıq anlayışına yalnız fiziki deyil, həm də cinsi və psixoloji zorakılıq da daxil edilmişdi. Həmin termin həmçinin adətlərlə bağlı bir sıra ziyanlı təcrübələri də əhatə edirdi. Bu, ailə daxilində baş verən zorakılığı konkret olaraq insan hüquqlarının pozulması kimi göstərirdi və beləliklə də, şəxsi zəmində baş verən qadınlara qarşı zorakılığa aid olunan cəzasızlığı da aradan qaldırmış oldu.

**4. "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiya (CEDAW)**

Konvensiya 18 dekabr 1979-cu ildə qəbul edilmiş və 20 sentyabr 1981-ci ildə qüvvəyə minmişdir. Konvensiyanın hazırlanması kişi və qadın bərabərliyini özündə əks etdirən Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə, Qadınların Siyasi Hüquqları haqqında Konvensiyaya, Vətəndaş və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakta, habelə İqtisadi, Sosial və Mədəni Hüquqlar Haqqında Pakta əsaslanmışdır.

Azərbaycan Respublikası bu Konvensiyanı 30 iyun 1995-ci ildə ratifikasiya etmişdir. İnsan hüquqlarına dair konvensiya olan CEDAW ona tərəfdaş çıxmış dövlətlər üçün öhdəlik yaradan bir beynəlxalq hüquq mənbəyidir.

Bu sənəd milli və yerli səviyyələrdə, eləcə də hökumətin bütün qolları - icraedici hakimiyyət, parlament və məhkəmələr üçün icbari öhdəçilik yaradır.

Əvvəlki beynəlxalq konvensiyalarda ayrı-seçkiliyin yolverilməzliyi və bərabərlik məsələsi qaldırılsa da, həmin sənəd-

lərdə “real bərabərlik” və ya “nəticələrin bərabərliyi” məsələsinə, yaxud kişilər və qadınlar arasında olan bərabərsizliyin davam etməsinə şərait yaradan köklü sosial səlahiyyət məsələlərinə heç bir şəkildə toxunulmamışdır. Konvensiyanı qəbul edən dövlətlər qadına münasibətdə diskriminasiyanın bütün formalarını pisləyir, müvafiq vasitələrlə qadına münasibətdəki ayrı-seçkiliyin aradan qaldırılması üzrə dərhal siyasət aparmağa razılaşır və bu məqsədlə aşağıdakı öhdəlikləri götürürlər:

- kişi və qadın arasındakı hüquq bərabərliyi prinsipini öz milli konstitusiya və ya digər uyğun qanunlara daxil etmək, bütün diskriminasiya xarakterli qanunları ləğv etmək və qadınlara qarşı diskriminasiyanı qadağan edən qanunlar qəbul etmək;
- qadınların diskriminasiyadan təsirli müdafiəsinə zəmanət verən milli mexanizmləri qurmaq;
- ayrı-ayrı fərdlər, təşkilat və ya müəssisələr tərəfindən qadınlara qarşı diskriminasiya xarakterli bütün fəaliyyətlərin aradan qaldırılmasına zəmanət vermək.

Bütün beynəlxalq müqavilələr, konvensiyalar kimi, Konvensiyanı imzalayan və ona qoşulan dövlətlər, onun müddəalarını əyani tətbiq etməli və de-yure bərabərliyindən, qadınların və kişilərin orta hesabla nail ola biləcəyi bərabərliyə, yəni nəticələrə görə bərabərliyin de-facto təmin olunmasına borcludurlar. 30 maddədən ibarət olan Konvensiyanın 1-ci maddəsində, qadınlara qarşı ayrı-seçkilik anlayışı, qadınların ailə vəziyyətindən asılı olmayaraq, kişi və qadınların hüquq bərabərliyi əsasında, siyasi, iqtisadi, sosial, mədəni, mülki və ya hər hansı digər sahədə insan hüquqlarının və əsas azadlıqlarının tanınmasının, istifadə edilməsinin və ya həyata keçirilməsinin əngəlləşməsinə və ya heçə endirilməsinə səbəb olan və ya bu məqsədi daşıyan, cinsi əlamətə görə hər hansı fərqləndirmə, istisna, yaxud məhdudiyyət deməkdir. Konvensiyanın 6-16 maddələri ayrı-ayrı sahələrdə qadınlara qarşı yol verilən ayrı-seçkiliyin aradan qaldırılmasına həsr olunmuşdur. Bu maddələr qadınların siyasi və ictimai həyatda bərabər hüquqlarını, təhsildə, işdə, tibbi xidmət sahəsində bərabər imkanları, maliyyə, iqtisadi və sosial hüquqlar sahəsində ayrı-seçkiliyə son qoyulmasını təmin edir. Konvensiya ailə vəziyyətindən, siyasi, iqtisadi, sosial,

mədəni vəziyyətindən və baxışlarından asılı olmayaraq, kişi və qadınların bərabər hüquqlara malik olmalarını təsbit etməklə kifayətlənmir. Konvensiyanı qəbul edən dövlətlər hüquqi, siyasi və proqram xarakterli tədbirlər həyata keçirməklə qadınlara münasibətdə mövcud olan ayrı-seçkilik hallarını aradan qaldırmağı öhdəlik olaraq öz üzərlərinə götürürlər. Bu öhdəliklər həyatın bütün sferalarını, o cümlədən nikah, ailə münasibətləri, həmçinin istənilən şəxs, təşkilat və təsisat tərəfindən qadınlara qarşı hər hansı ayrı-seçkiliyi aradan götürməyə yönəlmiş müvafiq tədbirləri əhatə edir.

Konvensiyada dolayı ayrı-seçkilik anlayışı da qəbul edilir. Yəni ayrı-seçkilik yalnız məqsədli, birbaşa deyil, həm də dolayısı yolla ola bilər. Dolayı ayrı-seçkilik dedikdə, praktikada müəyyən bir qrup qoyulan tələblərə cavab verə bilmədiyi üçün ondan istifadə edə bilmir və bu da ayrı-seçkilik sayılır. Hər hansı fərqləndirmə, istisna və ya məhdudiyyətin ayrı-seçkilik hesab olunması üçün onun mütləq şəkildə məqsədli baş verməsi vacib deyil. Məqsədsiz atılan addımlar qadınların hər hansı sahədə hüququnun tanınmasını, ondan istifadə edilməsini çətinləşdirərsə, bu, ayrı-seçkilik sayılır. Konvensiyadan əvvəl qəbul edilmiş beynəlxalq sənədlərdə ayrı-seçkilik anlayışı yalnız dövlət orqanları tərəfindən törədilmiş diskriminasiyanı əhatə edir. Qadın hüquqları sahəsində hüquqlar daha çox özəl, qeyri-dövlət sferasında da pozulduğundan, Konvensiyaya görə bu subyektlər tərəfindən olan ayrı-seçkilik də ləğv olunmalıdır.

Konvensiyanın 17-ci maddəsinə uyğun olaraq, Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması üzrə Komitəsi yaradılmışdır. Konvensiyanın 18-ci maddəsinə uyğun olaraq, iştirakçı dövlətlər, Komitədə baxılmaq üçün bu Konvensiyanın müddəalarını yerinə yetirmək məqsədilə qəbul etdikləri qanunvericilik, məhkəmə, inzibati və ya digər tədbirlər haqqında və bu sahədə əldə edilən nailiyyətlər barəsində hesabat təqdim etmək öhdəliyini öz üzərinə götürür. Ölkənin daxili, yəni milli qanunvericiliyi və onun beynəlxalq öhdəlikləri, o cümlədən CEDAW Konvensiyası arasında ziddiyyət olarsa, Azərbaycan Respublikası Konstitusiyasının 151-ci maddəsinə uyğun olaraq həll edilməlidir. Bu maddəyə əsasən, ölkənin daxili normativ aktları ilə (Azərbaycan Respublikasının

Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) beynəlxalq öhdəliklər arasında ziddiyyət mövcud olduğu hallarda üstünlük beynəlxalq normalara verilir. Dövlət Konvensiyanı ratifikasiya etdikdən sonrakı bir il ərzində CEDAW Komitəsinə ilk hesabatı, sonrakı dövrlərdə isə hər 4 ildən bir dövri hesabatı təqdim etməlidir. Hökumətlərin müvafiq BMT Komitələrinə təqdim etdikləri ilk və dövri hesabatlarla yanaşı, paralel və ya alternativ (kölgə) məruzə və hesabatlar da təqdim oluna bilər. Belə məruzə və hesabatlar milli qeyri-hökumət təşkilatları (QHT), insan hüquqlarını müdafiə və təşviq edən fərdlər, fərdlər qrupu və ya təsisatlar, Beynəlxalq QHT-lər, İnsan hüquqlarını müdafiə edən milli təsisatlar, o cümlədən Ombudsman tərəfindən təqdim edilir.

Azərbaycan Respublikası artıq BMT-nin Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması üzrə Komitəsinə 5 hesabat təqdim edib. Hökumət tərəfindən 2013-cü ildə BMT-yə təqdim edilən sonuncu hesabatda qeyd olunub ki, bu Komitənin 2009-cu ildə keçirilmiş 44-cü sessiyasında qəbul edilmiş Azərbaycan dövlətinin 4-cü dövri hesabatı ilə bağlı yekun qeyd-şərtlərin və tövsiyələrin əksəriyyəti icra edilmişdir.

Hesabatda stereotiplər və erkən nikahın artmasına şərait yaradan patriarxal münasibətləri aradan qaldırmaq üçün tədbirlər, qadın və qız uşaqlarının alverinə qarşı mübarizə səyləri, doğulan uşağın cinsinə nəzarət metodu kimi istifadə olunan abortların azaldılması üzrə tədbirlər, əmək haqlarında gender əsaslı fərqlərin aradan qaldırılması və s. mövzulara toxunulmuşdur.

Gender bərabərliyi barədə 2006-cı ildə və Məişət zorakılığına qarşı 2010-cu ildə qanunlar qəbul edilsə də, onları tam həyata keçirmək, həqiqətən, asan deyil, xüsusilə, çoxsaylı patriarxal və stereotiplər mövcud olan cəmiyyətlərdə. Azərbaycanda isə bu sahədə böyük işlər görülüb, regionlarda rəhbər vəzifələrə qadınlar təyin edilir, Milli Məclisə deputatlığa namizəd olan, bələdiyyələrə seçilən qadınların sayı artır.

Komitənin fəaliyyətində QHT-lərin böyük rolu vardır. QHT-lərin, xüsusən də qadın hüquqlarının müdafiəsi üzrə ixtisaslaşmış vətəndaş cəmiyyəti institutlarının və milli təsisatların məlumatları Komitə üçün olduqca dəyərli informasiya

mənbəyidir.

Əgər Komitəyə Konvensiyada təsbit edilmiş hüquqların üzv dövlət tərəfindən ciddi və sistemli şəkildə pozulduğunu təsdiq edən etibarlı məlumat daxil olmuşdursa, Komitə həmin dövlətə bu məlumatın araşdırılması üçün əməkdaşlıq etməyi və bununla əlaqədar olaraq, sözügedən məlumat barədə öz mülahizələrini təqdim etməyi təklif edir. Konvensiyanın 21-ci maddəsi Komitənin ümumi xarakterli təklif və tövsiyələr verə bilməsini göstərir. Bu maddəyə görə, Komitə hesabatı öyrənərək və müzakirə edərək, həmçinin dövlətlərdən digər informasiyaları əldə edərək tövsiyələr verməlidir. Lakin bir çox hallarda tövsiyələr ümumi xarakter daşıdığından dövlətlər təqdim edilən tövsiyələrə etinasız yanaşırlar. Komitə ölkənin geniş ictimaiyyətini, xüsusilə, hakimlər, müəllimlər, sosial işçilər, hüquq-mühafizə orqanlarının və cəzaçəkmə müəssisələrinin əməkdaşları, tibb işçiləri və Konvensiyanın müddəalarını tətbiq etməli olan digər peşə sahiblərini Konvensiyanın müddəaları ilə tanış olmağa tövsiyə edir. Komitə Konvensiya da daxil olmaqla insan hüquqlarına dair məsələlərlə əlaqədar məktəblər və universitetlərdə təlim kursları təşkil etməyi tövsiyə edir. Bu səbəbdən Bakı Dövlət Universitetinin hüquq və digər fakültələrində "Genderə giriş" fənninin tədris olunması gender anlayışının təbliğinə, gender nəzəriyyəsinə yeni yanaşmaların formalaşmasına, gender münasibətlərinin təkmilləşməsinə və perspektiv inkişafına, həmçinin müxtəlif sahələr üzrə mütəxəssislərin gender savadlılığının artmasına xidmət edir. Bu kursda öyrənilmiş biliklər zəruri anlayışlar sistemini qurur, cəmiyyətin demokratik inkişafı və insan hüquqlarının qorunması üçün lazım olan şəxsi mövqeyi formalaşdırır.

## 5. Gender əsaslı zorakılıqla mübarizədə KİV-in rolu

Qadın hüquqlarının qorunması və təşviqi, gender zəminli zorakılıq və digər bu kimi həssas mövzular da daxil olmaqla, hər hansı spesifik məsələ ilə bağlı ictimai məlumatlılığın artırılmasında media hədəf auditoriyasına aydın mesajlar çatdıran ən zəruri vasitələrdən biridir. Medianın fəal iştirakı olmadan, qadınlarla bağlı mənfi stereotiplərin və gender əsaslı zorakılıqla əlaqədar yanlış anlayışların aradan qaldırılmasını təsəvvür et-

mək mümkün deyil. Məişət zorakılığına məruz qalan şəxs öz hüquqlarının müdafiəsinə qalxmazsa, hüquq-mühafizə orqanlarına müraciət etməzsə, "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunun tətbiqi təsirli nəticə verə bilməz.

Qadınlar və cəmiyyətdə onların rolu haqqında fikirlərin formalaşmasında media böyük rola malikdir. Gender mövzusunda yazan jurnalistlər üçün seminarların keçirilməsinin əhəmiyyəti danılmazdır. Bu mühüm məsələ haqqında yazarkən, jurnalistlər xüsusi həssaslıq nümayiş etdirməlidirlər.

Çox vaxt gender problemi və məişət zorakılığı KİV-də düzgün işıqlandırılmır və ailə daxilində baş verən zorakılıqlar, cinayətlər TV-lərdə emosional şəkildə təqdim olunur. Problemin bu şəkildə cəmiyyətə təqdim olunması insanlarda psixoloji problemlər yaradır. Hələ 2011-ci ildə 7 televiziya kanalında və 18 qəzetdə bu problemə həsr olunan məlumatların monitorinqinin nəticəsinə görə, il ərzində TV-lərdə bu mövzuda 110 veriliş və reportaj yayımlanmışdır. Qəzetlərdə isə 142 məlumat və araşdırma yazıları dərc olunmuşdur. Yayımlanan materiallar həddindən az və onların keyfiyyəti də aşağı idı. Monitorinq zamanı mətbuatın daha çox valideyn və uşaqlar arasında olan, qadınların zərər çəkdiyi münaqişələrə aid mövzulara yer verdiyi məlum olmuşdur.

Məişət zorakılığı ilə bağlı yazılar hazırlanarkən mütləq hərtərəfli araşdırma aparılmalı, problemi yaradan səbəblər aydınlaşdırılmalıdır. Bu mövzu mətbuatda sensasiya kimi işlənməməlidir. Məişət zorakılığı, gender problemi ilə bağlı verilişlər hazırlanarkən aparıcılar düzgün seçilməlidir. Həyat təcrübəsi, səriştəsi olan ziyalı şəxslər bu verilişlərə aparıcılıq etməlidir.

Məişət zorakılığı ilə mübarizənin düzgün təşkilində insanların düşüncə tərzi, problemə baxışının dəyişməsi də vacibdir. Jurnalistikada bu sahədə ixtisaslaşmanın olmaması problemin hərtərəfli araşdırılmasına imkan vermir.

Azərbaycanda Gender Əsaslı Zorakılıqla Mübarizə Layihəsinin tərkib hissəsi olan media komponentinin də əsas məqsədi yerli KİV nümayəndələrini bu problemi daha obyektiv və geniş əhatə etməyə çağırmışdır. Layihə nümayəndələri jurnalistlər arasında gender mövzusu ilə bağlı məlumatlılığı artırmaq və bu mövzunu işıqlandırmaq bacarıqlarının artırılması məqsə-

dilə keçirilən müxtəlif seminar və təlimlərdə də iştirak etmişlər.

2015-ci il ərzində gender problemi və məişət zorakılığı ilə bağlı mətbuatda 450 yazı verilib. Mətbuatda yayımlanan yazıların 30 faizi gender bərabərliyi, 25 faizi rəsmi nikah münasibətlərinə laqeyd yanaşma, 15 faizi uşaq hüquqlarının pozulması 10 faizi isə ailə dəyərləri mövzularına həsr olunub. Milli-mənəvi dəyərlərin, ailə adət-ənənələrinin qorunub saxlanmasında və gələcək nəsillərə ötürülməsində KİV-in üzərinə böyük vəzifələr düşür.

Azərbaycanda gender əsaslı zorakılıqla bağlı məlumatlılığın artırılması yönündəki əngəlləri aradan qaldırmaq və ailə zorakılığı ilə mübarizəni gücləndirmək məqsədilə BMT-nin Əhali Fondunun keçirdiyi Azərbaycanda Gender Əsaslı Zorakılıqla Mübarizə Layihəsinin və XXI Əsrdə Qadınlara Qarşı Zorakılıq Əleyhinə Layihəsinin tərkib hissəsi media komponenti olmuş və bu layihələrin əsas məqsədi yerli KİV nümayəndələrini bu problemi daha obyektiv və geniş əhatə etməyə çağırmaq, jurnalistlər arasında gender mövzusu ilə bağlı məlumatlılığı və onların bu mövzunu işıqlandırmaq bacarıqlarının artırılması məqsədilə müxtəlif seminar və təlimlər keçirməkdir.

Bu seminarlarda və müxtəlif treninqlərdə qadın hüquqları üzrə əsas beynəlxalq sənəd olan CEDAW, onun yaranması tarixi, konvensiyada nəzərdə tutulan əsas müddəalar, ratifikasiya statusu və Azərbaycan hökumətinin bu sənədlə bağlı üzərinə götürdüyü öhdəliklər haqqında, gender konsepsiyaları, gender anlayışları, gender stereotipləri, gender ayrı-seçkiliyi, gender əsaslı zorakılığın əsas formaları, onun səbəb və nəticələri, gender əsaslı zorakılığın maliyyələşməsi və gender əsaslı zorakılığın mediada işıqlandırılması məsələləri ilə bağlı ətraflı məlumat verilir.

Professor Elmira Süleymanovanın təşəbbüsü ilə 1994-cü ildə yaradılmış Azərbaycan Qadın və İnkişaf Mərkəzinin (AQİM) də Bu sahədə fəaliyyətini qeyd etmək lazımdır. Mərkəz kütləvi informasiya vasitələri ilə sıx əlaqədə işləyir, qadın məsələləri ilə bağlı dəfələrlə televiziya və radio verilişləri təşkil edilmişdir. Aparılan işlərlə əlaqədar müxtəlif mövzularda məqalələr, hesabatlar, məlumat vərəqələri və s. dərc etmişdir. AQİM-in fəaliyyətini geniş əhali kütləsinə çatdırmaq məq-

sədilə müxtəlif əyani vəsaitlər, broşuralar, lifletlər və digər ədəbiyyatlar, maarifləndirmə plakatları nəşr olunub, ölkənin şəhər və rayonlarında aparılan tədbirlərdə əhaliyə paylanmışdır. Həmçinin, AQİM BMT-nin tədqiqatlar və treninqlər institutunun Azərbaycan üzrə təmsilçisidir.

Gender əsaslı zorakılığın işıqlandırılmasından ötrü müvafiq qanunvericiliyin və media nümayəndələri üçün bu istiqamətdə etik davranış qaydalarının olmaması səbəbindən gender problemi, məişət zorakılığı mövzularında yazan jurnalistlərin maarifləndirilməsi mütləqdir. Bu mövzu ilə bağlı materiallar hazırlanarkən media nümayəndələri ətraflı araşdırma aparmalı, ekspertlərin rəylərini öyrənməlidir.

**Tələbələrin biliklərinin qiymətləndirilməsi üçün suallar:**

1. Qadınlara qarşı zorakılığın hansı növləri var?
2. Psixoloji zorakılığın digər zorakılıq növlərindən fərqi nədir?
3. “Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında” Konvensiyanın ( CEDAW) şərhi.
4. Qadınlara qarşı zorakılıqla bağlı hüquqi aktlar hansılardır?
5. Məişət zorakılığı insan hüquqlarının təminatına niyə təhlükə yaradır?
6. “Məişət zorakılığı haqqında” Azərbaycan Respublikası Qanununun təhlili.
7. Qadınlara qarşı zorakılıq və onun nəzəri əsasları.
8. Avropa Şurasının İstanbul Konvensiyasının qadınlara qarşı zorakılıqla mübarızədə əhəmiyyəti.

## Mühazirə 11. Mьlki və Siyasi Hьquqlar haqqэnda Beynəlxalq Paktda təsbit olunmuє qadэn hьquqlarэ

*1. Mülki və siyasi hüquqlar anlayışı*
*2. Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın beynəlxalq hüquqda yeri*
*3. İnsan hüquqları komitəsinin yaradılması və səlahiyyətləri*
*4. Mьlki və Siyasi Hьquqlar haqqэnda Beynəlxalq Paktda təsbit olunmuє qadэn hьquqlarэnэn təhlili*
*5. Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə qoşulması*

### 1. Mülki və siyasi hüquqlar anlayışı

Mülki və siyasi hüquqlar öz əksini müxtəlif beynəlxalq sənədlərdə, o cümlədən Avropa İnsan Hüquqları Konvensiyasında, Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, BMT-nin Mülki və Siyasi Hüquqlar haqqında Sazişdə tapıb.

Mülki və siyasi hüquqlar təbii hüquqlardır və bu baxımdan bunların belə adlanması, anqlo-sakson hüquqdan irəli gələn bir ənənədir. Təbii hüquq nəzəriyyəsinin məşhur nümayəndələrindən olan Con Lokka görə, təbii hüquqlar insanlarla birgə doğulduqlarından onlardan ayrılmazdır, heç kəs, heç vaxt, heç yerdə bu hüquqları poza bilməz. Lokk, həmçinin insanın təbii hüquqlarını yaşamaq, azadlıq və mülkiyyət hüquqları olaraq üç yerə ayırmışdır. Təbii insan hüquqlarının əsas müddəaları insan hüquqlarının mütərəqqi mənbələrindən sayılan ABŞ 1776-cı il tarixli "İstiqlaliyyət Bəyannaməsi"ndə, Fransa Burjua İnqilabının öz dövrünə görə möhtəşəm nəticəsi olan "İnsan və vətəndaş hüquqları haqqında Bəyannamə"də öz əksini tapmışdır. Amma bəzi alimlər, məsələn, Rousseau mülkiyyət hüququnu təbii hüquq saymır.

İnsan hüquqlarının ən geniş yayılmış təsnifatı onların mülki (fərdi), siyasi, iqtisadi, sosial (sözün dar mənasında), mədəni və ekoloji hüquqlara bölünməsidir. Mülki (şəxsi) hüquqlar – əsasən neqativ hüquq xarakteri daşıyan təbii, əsas və ayrılmaz insan hüquqlarıdır. Mülki hüquqlara, hər şeydən əvvəl, yaşamaq hüququ, azadlıq və şəxsi toxunulmazlıq, təmiz adın və qürurun

müdafiəsi, yaşamaq üçün yer seçimi və hərəkət etmək hüquqlarıdır.

Siyasi hüquqlar vətəndaşların dövlətin idarə olunmasında və ictimai həyatda fəal iştirakı imkanlarını müəyyən edir. Buraya əsasən, insanın vətəndaşlıq hüququ, seçki hüququ, ittifaq və assosiasiya qurmaq, nümayiş və sərbəst toplaşmaq azadlığı, söz, fikir azadlığı, eyni zamanda mətbuat və vicdan azadlığı aiddir.

Mülki və siyasi hüquqları çox vaxt liberal hüquq, yaxud birinci nəsil hüquqları adlandırırlar. Onların hamısı, əsasən, şəxsiyyətin və yalnız dövlətin müdafiəsinə ehtiyacı olan digər şəxslərin azadlığını məhdudlaşdıran neqativ hüquq xarakteri daşıyır.

Mülki hüquqlar ətraflı şəkildə "mülki hüquq" fənnində öyrənilir. Qısaca olaraq demək lazımdır ki, mülki hüquq əmtəə-pul və digər əmlak münasibətlərini, habelə bunlarla əlaqədar olan şəxsi qeyri-əmlak münasibətlərini tənzim edir. Mülki hüquq münasibətlərinin mühüm ünsürlərindən biri də bu münasibətlərin obyektləridir. Mülki hüquq münasibətlərinin obyektləri dedikdə, bu münasibətlərin nəyə qarşı yönəldiyini başa düşmək lazımdır. Mülki hüquq subyektlərinin öz aralarında, hüquq münasibətlərinə daxil olmalarına səbəb olan maddi və mənəvi nemətlər mülki hüquq münasibətlərinin obyektləri adlanır. Belə nemətlərin (obyektlərin) dairəsi olduqca geniş və müxtəlifdir. Mülki Məcəllənin 4-cü maddəsinə uyğun olaraq, əmlak və ya qeyri-əmlak dəyəri olan, qanunvericiliklə mülki dövriyyədən çıxarılmamış maddi və ya qeyri-maddi nemətlər mülki hüquq münasibətlərinin obyektləri ola bilər. Mülki hüquq münasibətlərinin obyektlərinə aşağıdakılar daxildir: 1) əşyalar; 2) yaradıcılıq fəaliyyətinin nəticələri; 3) işlər və xidmətlər; 4) qeyri-maddi nemətlər.

Hüquq ədəbiyyatında əşyalar öz təyinatına, iqtisadi xarakterinə və əlamətlərinə görə aşağıdakı kimi təsnifləşdirilir: 1) istehsal vasitələri və istehlak predmetləri; 2) daşınan və daşınmaz əşyalar; 3) dövriyyədən çıxarılmamış, dövriyyəsi məhdudlaşdırılmış və dövriyyədən çıxarılmış əşyalar; 4) istehlak edilən və istehlak edilməyən əşyalar; 5) fərdi və cinsi əlamətə görə müəyyən edilən əşyalar; 6) bölünən və bölünməz əşyalar;

7) əsas və yardımçı əşyalar; 8) cüt və tək əşyalar; 9) bəhər, gəlir və məhsul.

Əşyaların xüsusi qrupunu pul və qiymətli kağızlar təşkil edir. Mülki hüquq münasibətlərinin obyekti kimi pulun əsas xüsusiyyəti onun ümumi əvəzedici olması və bu xüsusiyyətinə görə digər əşyalardan əhəmiyyətli dərəcədə fərqlənməsindən ibarətdir.

Mülki hüquq münasibətlərinin böyük bir hissəsi yaradıcılıq fəaliyyətinin nəticələri — elm, ədəbiyyat, incəsənət əsərləri, kəşf, sənaye nümunələrinin yaradılması və istifadəsi ilə əlaqədar əmələ gəlir. Mülki hüquq münasibətlərinin xüsusi qrupunu qeyri-maddi nemətlər təşkil edir. Qeyri-maddi nemətlər dedikdə, qüvvədə olan qanunvericiliklə nəzərdə tutulan və mühafizə edilən, şəxsiyyətdən ayrılması qeyri-mümkün olan və iqtisadi məzmuna malik olmayan nemət və azadlıqlar başa düşülür. Onlara həyat və sağlamlıq, şərəf və ləyaqət, şəxsi toxunulmazlıq, işgüzar nüfuz, şəxsi və ailə sirri, ad, müəlliflik hüququ və s. qeyri-maddi nemətlər daxildir.

Siyasi hüquq və azadlıqlar vətəndaşın subyektiv hüquq və azadlıqlarının mühüm kateqoriyasıdır. Bu hüquq və azadlıqlar insanın (həm fərdi, həm də kollektiv şəkildə) dövlətin ictimai-siyasi həyatında və idarə olunmasında iştirak etmək imkanı kimi başa düşülür. Bununla da dövlətin vətəndaşdan təcrid olunması aradan qaldırılır. Vətəndaşların siyasi hüquqları bütün digər hüquqların həyata keçirilməsinin zəruri şərtidir, çünki bunlar demokratik sistemin üzvi əsasını təşkil edir və hakimiyyətin, özünü məhdudlaşdırmalı olduğu dəyərlər kimi çıxış edirlər. Dövlətin təbiətini müəyyən edən faktor, hakimiyyətə nəzarət vasitəsi, demokratik rejimin qiymətləndirici meyarı kimi çıxış edən siyasi hüquq və azadlıqlar mədəni cəmiyyətin mütləq elementləridir. Hüquq ədəbiyyatında onların aşağıdakı bölgüsü həyata keçirilir:

1. Dövlətin və onun orqanlarının təşkili və fəaliyyətində nümayəndəli və birbaşa demokratiyanın müxtəlif formaları ilə iştirak etmək üzrə hüquqlar (seçki hüquqları, petisiya hüququ);

2. Cəmiyyətin həyatında aktiv iştirak etmək üzrə hüquqlar (söz və mətbuat azadlığı, sərbəst toplaşmaq azadlığı, birləşmək hüququ). Şəxsi hüquqlardan fərqli olaraq, siyasi hüquq və

azadlıqların məqsədi insanın muxtariyyətini təmin etməkdən deyil, siyasi prosesin aktiv iştirakçısı kimi təzahür etməsinin təminindən ibarətdir. Bu kateqoriya hüquqların dəyərliliyi ondan ibarətdir ki, onlar dövlət və vətəndaş arasında münasibətlərin möhkəmləndirilməsi üçün şərait yaradılmasına xidmət edirlər.

**2. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın beynəlxalq hüquqda yeri**

Əsas insan hüquq və azadlıqlarını hüquqi sənəd çərçivəsində təsbit etmək məqsədilə 1966-cı ildə iki universal müqavilə imzalandı – İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt (BMT Baş Məclisinin 1966-cı il 16 dekabr tarixli Qətnaməsi ilə qəbul edilmişdir və 3 yanvar 1976-cı ildə qüvvəyə minmişdir, Azərbaycan Respublikası bu Paktı Milli Məclisin 1992-ci il 21 iyul tarixli, 226 nömrəli qərarına əsasən ratifikasiya etmişdir) və Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt (BMT Baş Məclisinin 1966-cı il 16 dekabr tarixli Qətnaməsi ilə qəbul edilmişdir, 23 mart 1976-cı ildə qüvvəyə minmişdir, Azərbaycan Respublikası bu Paktı Milli Məclisin 1992-ci il 21 iyul tarixli, 227 nömrəli qərarına əsasən ratifikasiya etmişdir).

Pakta iki protokol əlavə olunmuşdur: İnsan hüquqları komitəsinə fərdi şikayətlərə baxmaq səlahiyyəti verən Fakültativ Protokolu (BMT Baş Məclisinin 1976-cı il 23 mart tarixli Qətnaməsi ilə qəbul edilmişdir, Azərbaycan Respublikası bu Fakültativ Protokolu 2001-ci il 29 iyun tarixli, 162-IIQ nömrəli Qanuna əsasən ratifikasiya etmişdir) və Ölüm cəzasının ləğvinə yönəlmiş ikinci Fakültativ Protokol (BMT Baş Məclisinin 1989-cu il 15 dekabr tarixli Qətnaməsi ilə qəbul edilmişdir, Azərbaycan Respublikası bu Fakültativ Protokolu 1998-ci il 11 dekabr tarixli, 582-IQ nömrəli Qanuna əsasən ratifikasiya etmişdir).

Adlarından göründüyü kimi, birinci Paktda iqtisadi, sosial və mədəni hüquqlar, ikinci Paktda isə mülki və siyasi hüquqlar öz əksini tapmışdır.

Formal-hüquqi baxımdan Mülki və siyasi hüquqlar haqqında Pakt (ingilis dilində adı "International Covenant on Civil and Political Rights") daha mükəmməldir və o, iştirakçı döv-

lətlər üçün daha aydın və dəqiq müəyyən olunmuş öhdəliklər nəzərdə tutur. Əslində "Covenant" sözü müxtəlif mənalarda tərcümə olunur, razılaşma, razılıq, saziş, müqavilə, pakt və sənədin bu adlarına müxtəlif tərcümələrdə rast gəlmək olar. "Pakt" isə latın sözü olub (Pactum*)*, saziş mənasını verir.

BMT Mülki və Siyasi Hüquqlar haqqında Saziş (Saziş əvəzinə "Pakt" da deyilir), adından da anlaşıldığı kimi, "birinci nəsil" ya da "klassik" hüquqlar sayılan mülki və siyasi hüquqları tənzimləyir. Bu sənəd dörd bölmə altında sistemləşdirilən 53 maddəni ehtiva edir.

Bu arada qeyd etmək lazımdır ki, Azərbaycan 1992-ci il iyul ayının 21-də bu Pakta qoşularkən onun adı "Vətəndaşlıq hüquqları və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakt kimi adlandırılmışdır. Sənəddə hər kəsin yaşamaq hüququ, azad düşüncə, əqidə və din azadlığı tanınır. Paktda qeyd olunur ki, heç kim işgəncə və ya kobud, qeyri-insani, eləcə də şərəf və ləyaqəti alçaldan hərəkətlərə məruz qalmamalıdır. Heç kim qul kimi saxlanılmamalı və zorla hər hansı işə cəlb edilməməlidir.

Paktda nəzərdə tutulmuş başlıca öhdəlik ondan ibarətdir ki, dövlət öz ərazi hüdudlarında və yurisdiksiyası çərçivəsində olan hər bir şəxsin bu Paktda təsbit olunmuş hüquqlarına hörmət etməli və onları təmin etməlidir (2-ci maddənin 1-ci hissəsi). Paktdan irəli gələn öhdəlikləri həyata keçirmək üçün dövlət zəruri qanunvericilik, inzibati və digər tədbirlər görməli (2-ci maddənin 2-ci hissəsi) və habelə pozulmuş hüquqların müdafiəsi və bərpası məqsədilə şəxsə effektiv dövlətdaxili hüquqi müdafiə vasitələri təmin etməlidir (2-ci maddənin 3-cü hissəsi). Mülki və siyasi hüquqlar haqqında Paktdan irəli gələn öhdəliklərin yerinə yetirilməsini dövlət özü istədiyi kimi, tutaq ki, maliyyə çətinliklərinə və yaxud da ölkədə siyasi və ya iqtisadi sabitliyin olmamasına istinad etməklə, təxirə sala bilməz. Bu öhdəliklər dərhal yerinə yetirilməli olan öhdəliklərdir.

Paktda sadalanan hüquq və azadlıqlar 2-ci maddə 1-ci bəndində göstərildiyinə görə, hər bir iştirakçı dövlət tərəfindən onun ərazisində və yurisdiksiyası altında olan bütün şəxslərə hər hansı bir ayrı-seçkilik qoyulmadan təqdim olunmalıdır. Həmin maddənin 2-ci bəndində isə deyilir ki, bu məqsədlə iştirak edən dövlətlər öz konstitusiyasına müvafiq olaraq, Paktda

qəbul olunan hüquqların həyata keçirilməsi üçün qanunvericilik və digər tədbirlərin görülməsini öhdələrinə götürürlər.

Paktın III hissəsində hər bir dövlətdə təmin olunmalı vətəndaş və siyasi hüquqların konkret siyahısı verilir: yaşamaq hüququ (maddə 6), işgəncələrin, qul alveri və məcburi əməyin qadağan edilməsi (maddə 7 və 8), hər kəsin azadlıq və şəxsi təhlükəsizlik hüququ (maddə 9), bütün adamların qanun qarşısında bərabərliyi və heç bir ayrı-seçkilik olmadan qanunun bərabər müdafiəsinə olan hüququ (maddə 26), hər kəsin fikir, vicdan və din azadlığı (maddə 18) və s.

Paktın 25-ci maddəsində hər bir vətəndaşın siyasi hüquqlarına aid olan hüquqlar - birbaşa, həm də özünün azad seçilmiş nümayəndələri vasitəsilə dövlət işlərinin aparılmasında iştirak etmək hüququ; gizli səsvermə yolu ilə ümumi və bərabər seçki hüququ əsasında keçirilən və seçkilərin öz iradəsini azad ifadə etməsini təmin edən vaxtaşırı seçkilərdə seçmək və seçilmək hüququ; öz ölkəsində ümumi bərabərlik şəraitində dövlət xidmətinə buraxılmaq hüququ və imkanları bəyan edilir.

Paktın bəzi maddələri həmçinin iqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktla tənzimlənən məsələlərə aiddir. Belə ki, 22-ci maddəyə görə, hər bir insan, öz mənafelərini müdafiə etmək üçün həmkarlar ittifaqları yaratmaq hüququna, başqaları ilə birlikdə assosiasiyalar qurmaq azadlığına malikdir.

Paktın 23 və 24-cü maddələri ailə, uşaq və nikah haqqında məsələlərə aiddir. Belə ki, 23-cü maddədə bəyan olunur ki, ailə cəmiyyətin təbii və əsas özəyi olmaqla, cəmiyyət və dövlət tərəfindən müdafiə olunmaq hüququna malikdir. Bu maddələr ər və arvadın hüquq və vəzifələrinin bərabərliyini, hər bir uşağın ailə, onun azyaşlı vəziyyətində tələb olunan cəmiyyət və dövlət tərəfindən müdafiəsi tədbirlərinə olan hüququnu bəyan edir.

Mülki və Siyasi Hüquqlar haqqında Pakt işlənərkən, mürəkkəb və mübahisəli məsələ olan ayrı-ayrı şəxslərin şikayətlərinin baxılması proseduru haqqında məsələ uzun müddət müzakirə edilmişdir. Bunun nəticəsində qərara alınmışdır ki, ayrı-ayrı şəxslərin şikayətlərinin baxılmasına dair müddəalar Mülki və Siyasi Hüquqlar haqqında Pakta daxil edilməsin və bu məsələ xüsusi müqavilədə - Pakta aid qeyri-məcburi protokolda

həll edilsin. Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakta aid qeyri-məcburi protokol həmin Paktla birgə BMT Baş Məclisi tərəfindən 16 dekabr 1966-cı il tarixdə qəbul olunmuşdur. Protokolun 1-ci maddəsində göstərilir ki, həmin protokolun və Paktın iştirakçısı Dövlət İnsan Hüquqları Komitəsinin yurisdiksiyasında olan və həmin dövlət tərəfindən Paktda sadalanan hər hansı hüququn pozulması qurbanı olduğunu təsdiq edən şəxslərdən məlumatları qəbul etmək və baxmaq səlahiyyətlərini tanıyır. Paktın iştirakçısı olan, lakin Protokolun iştirakçısı olmayan dövlətə aid heç bir məlumatı komitə qəbul etmir. 3-cü maddəyə görə, anonim şikayətlər komitə tərəfindən qəbul olunmur. Qəbul edilmiş şikayətlərin baxılması qaydaları 4-cü və 5-ci maddələrdə müəyyən olunmuşdur.

Bütövlükdə Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakta aid qeyri-məcburi protokol proseduras pozulan hüquqların bərpasında və eləcə də milli qanunların beynəlxalq normalara uyğunsuzluğunun üzə çıxarılmasında mühüm əhəmiyyət kəsb edir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsi və hər iki Beynəlxalq Pakt hər kəsin yaşamaq hüququnu bəyan etsə də, ölüm hökmünü qadağan etmirdi. Mülki və Siyasi Hüquqlar haqqında Pakt yalnız kimi isə əsassız olaraq yaşamaqdan məhrum etməyi qadağan edirdi. Bununla əlaqədar Paktın 6-cı maddəsində qeyd olunurdu: "Yaşamaq hüququ hər bir insanın ayrılmaz hüququdur. Bu hüquq qanunla mühafizə olunur. Heç kəs əsassız olaraq həyatdan məhrum edilə bilməz..."

Bu cəza yalnız səlahiyyətli məhkəmə tərəfindən çıxarılmış qəti hökmün icrası kimi həyata keçirilə bilər. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakta aid ikinci Qeyri-Məcburi Protokol dövlətlərarası münasibətlərin inkişafı nəticəsində əvvəllər dövlətlərin daxili səlahiyyətlərinə aid məsələlərdən biri olan ölüm cəzası məsələsinin beynəlxalq hüquqi tənzimlənməsinə yönəlmişdir. Bu sənəd BMT Baş Məclisinin 44/128 saylı 15 dekabr 1989-cu il tarixli qətnaməsi ilə qəbul olunmuşdur.

İkinci Qeyri-Məcburi Protokolun preambulasında qeyd olunur ki, protokol qəbul olunarkən onun iştirakçısı olan dövlətlər Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 3-cü maddəsinə, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 6-cı maddəsinə istinad etmişlər. İştirakçı dövlətlər, həmçinin

əmin olduqlarını bildirmişlər ki, ölüm hökmünün ləğvinə dair bütün tədbirlərə yaşamaq hüququnun təmin edilməsində tərəqqi kimi baxmaq lazımdır. Bütün bunlar da sənədin ümumi razılıqla qəbul edilməsini şərtləndirmişdir. Protokolun elə 1-ci maddəsində ümumi razılıqla qəbul olunmuşdur ki, bu protokolun iştirakçısı dövlətin yurisdiksiyasında olan heç bir şəxs ölüm cəzasına məruz qala bilməz və hər bir iştirakçı dövlət öz yurisdiksiyası çərçivəsində ölüm cəzasının ləğv edilməsi üçün bütün zəruri tədbirləri görəcəkdir.

İkinci Qeyri-Məcburi Protokol yalnız müharibə vaxtı törədilmiş daha ağır cinayətlərə görə ölüm hökmü istisna olunmaqla, həmin protokola dövlətlər tərəfindən hər hansı bir düzəlişin aparılmasını yolverilməz hesab edir. Protokolun maddələrinə müvafiq olaraq, onun müddəalarına iştirakçı dövlətlər tərəfindən riayət edilməsinə nəzarət Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 28-ci maddəsinə uyğun yaradılmış İnsan Hüquqları üzrə Komitənin üzərinə qoyulur (maddələr 3-5). 3-cü maddəyə görə, Paktın 40-cı maddəsinə əsasən iştirakçı dövlətlər Komitəyə təqdim etdikləri məruzəyə bu protokolun həyata keçirilməsi üçün gördükləri tədbirlər barədə informasiyanı daxil edirlər.

Hazırda BMT üzvləri olan dövlətlərin əksəriyyəti Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın iştirakçısıdır. Hər il komitə İqtisadi və Sosial Şura vasitəsilə BMT Baş Məclisinə görülmüş işlər barədə məruzə təqdim edir.

Dövlətdaxili hüquqdan fərqli olaraq, beynəlxalq hüquq bir neçə dövlət arasındakı münasibətləri nizamlamağa xidmət edir. Yəni, beynəlxalq hüquq dövlətlər arasındakı siyasi, iqtisadi, mədəni və digər münasibətləri qaydaya salan, tənzim edən hüquqi qanunların xüsusi bir sistemidir.

İnsan hüquqları və azadlıqları probleminin beynəlxalq aspektləri tədqiq edilərkən məlum olmuşdur ki, bu sahədə mövcud olan beynəlxalq sənədlər elmi ədəbiyyatda xarakterinə görə bir neçə istiqamət üzrə qruplaşdırılır. Belə ki, bu baxımdan əsas qrupu universal xarakterli beynəlxalq sənədlər təşkil edir. Bunlar insan hüquqlarına ümumi hörmət və riayət edilməsi prinsipini ifadə edən, hüquq və azadlıqlara üstünlük verməklə onları dövlətlər və vəzifəli şəxslərin özbaşınalıqlarından mü-

dafiə edən beynəlxalq sənədlərdir. Bu qrupa aid edilən BMT Nizamnaməsi və İnsan Hüquqları haqqında Beynəlxalq Bill bizim tərəfimizdən artıq təhlil edilmişdir. Bundan başqa, bu qrupa dair sənədlərə tədqiqatçılar beynəxalq konfransların müvafiq qərarlarını, xalqların hüquqlarını təsbit edən, bütün növ diskriminasiyaların qarşısının alınmasına yönələn, qadın və uşaqların hüquqlarını müdafiə edən və s. sənədləri aid edirlər.

### 3. İnsan Hüquqları Komitəsinin yaradılması və səlahiyyətləri

Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın IV hissəsində tərkibi 18 nəfərdən ibarət olan İnsan Hüquqları üzrə Komitənin yaradılması, onun üzvlərinin seçilməsi qaydaları və funksiyaları müəyyən olunmuşdur. Buna müvafiq olaraq, 1976-cı ildə tərkibi iştirakçı dövlətlər tərəfindən öz vətəndaşları sırasından seçilmiş və yüksək əxlaqi keyfiyyətlərə və insan hüquqları sahəsində mükəmməl bacarıqlara malik olan, 4 il müddətinə seçilən 18 ekspertdən ibarət insan hüquqları üzrə komitə yaradılmışdır. Baş Məclisin köməkçi orqanı olan bu komitənin əsas funksiyalarına iştirakçı-dövlətlərin Paktda qəbul edilən hüquqların gerçəkləşdirilməsinə dair keçirdikləri tədbirlər və bu hüquqların təmini ilə bağlı qazanılan tərəqqi barədə məruzələrinə baxılması, onlara iradlar tutulması və həmin ümumi iradlarla birgə təqdim edən dövlətə qaytarılması və s. daxildir.

Bundan başqa, komitə iştirakçıların bu və ya digər dövlət tərəfindən götürülmüş öhdəliklərin yerinə yetirilməməsi barədə şikayətlərə baxır (maddə 41). Lakin bu prosedurdan yalnız onu xüsusi formada qəbul edən, yəni bəyanat təqdim edən dövlətlər istifadə edə bilərlər. Paktın 168 iştirakçısından yalnız 50-si indiyə qədər belə bəyanat vermişdir. Pakta görə, belə bir şikayət qəbul edən Komitə əvvəlcə vasitəçilik cəhdi edir, bir nəticə hasil olmadıqda isə, o, tərəflərin razılığı ilə məsələni *ad hoc* razılaşma komissiyasına göndərə bilər. Komitənin axır mərhələdə çıxardığı qərar məcburi xarakter daşımır. Qeyd edək ki, siyasi mülahizələr ucbatından dövlətlərarası şikayət proseduru bir dəfə də olsun istifadə edilməmişdir. Paktın iştirakçısı olan hər bir dövlət, öz növbəsində, komitəyə onun iradları ilə bağlı öz rəyini göndərə bilər.

İnsan hüquqları komitəsinin daha bir səlahiyyəti Fakultativ Protokolla müəyyən olunmuşdur. Protokolun 1-ci maddəsinə görə, Komitə, özünü Paktda təsbit olunmuş hər hansı bir hüququn pozulmasının qurbanı hesab edən şəxsdən müvafiq dövlətə qarşı şikayət qəbul edə bilər və ona baxa bilər. Azərbaycan Respublikasının Milli Məclisi 2001-ci ildə "Vətəndaş və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakta birinci Fakültativ Protokolu ratifikasiya edərək, bu Pakt çərçivəsində müəyyən edilmiş şikayət mexanizmlərini və həmin Fakültativ Protokolla yaradılmış BMT-nin İnsan Hüquqları Komitəsinin fərdi şikayətlərin qəbulu ilə bağlı imkanını da tanımışdır.

Protokolun adından göründüyü kimi, fərdi şikayət proseduru məcburi deyildir və o, yalnız Protokolu ratifikasiya etmiş Paktın iştirakçılarına, yəni bu günə qədər 90-dan artıq dövlətə şamil edilmişdir. Şübhəsiz ki, İnsan hüquqları komitəsinin əvvəldə göstərilmiş ilk iki səlahiyyətinə görə, fərdi ərizə proseduru daha əhəmiyyətli və daha səmərəlidir. Şəxsin onun hüququnu pozan dövlətə qarşı çıxış edə bilməsi və beynəlxalq səviyyəyə çıxması dövlət üzərində mühüm nəzarət vasitəsidir. Komitənin fərdi şikayəti qəbul etməsi üçün müəyyən şərtlər mövcuddur: a) şəxs yalnız dövlətdə olan bütün effektiv hüquqmüdafiə vasitələrindən (məsələn, bütün məhkəmə instansiyalarından) istifadə etdikdən və müsbət nəticəyə nail olmadıqdan sonra şikayət vermək hüququ qazanır; əks halda, ərizə baxılmaq üçün qəbul edilməyəcəkdir; b) dövlətdaxili orqanın çıxardığı qəti qərardan sonra altı aydan artıq müddət keçməməlidir; c) ərizə anonim olmamalıdır; ç) ərizə abstrakt olmamalıdır: şəxs Paktın konkret maddəsinin pozulması nəticəsində bilavasitə onun özünə zərər dəydiyini göstərməlidir və s. Dövlət tərəfindən insan hüquqlarının pozulmasını müəyyən etdiyi hallarda Komitə onun qarşısında aşağıdakı tələbləri qoya bilər: hüquqazidd əməlin dayandırılması; bu cür pozuntuları gələcəkdə təkrar etməmək barədə təminat verilməsi; əvvəlki vəziyyətin (status kvo, lat. *status quo ante*) bərpa edilməsi (məsələn, qeyri-qanuni həbsdə saxlanılan şəxsin buraxdırılması; əmlakın iddiaçıya geri qaytarılması və s.); şəxsə dəyən zərərin ödənilməsi və s.

Komitə, ona göndərilən hər hansı bir halda müvafiq tərəf

Dövlətlərə məsələ ilə bağlı məlumatların çatdırılmasını istəyə bilər. Baxılan işə aidiyyəti olan tərəf Dövlətlər işə Komitədə baxılarkən, orada təmsil oluna bilərlər və sözlü və ya yazılı təqdimatlarını da irəli sürə bilərlər. Komitə işin qəbulundan sonrakı on iki ay ərzində bir məruzə hazırlayır. İş barışıq sazişi ilə (dostcasına həll) nəticələnərsə, Komitə məruzəsini ancaq faktları və əldə olunan nəticəni əhatə edən qısa açıqlama şəklində verir. Barışıq sazişi əldə olunmazsa, Komitənin məruzəsində həm hadisəyə aid faktlar, həm də işdəki Dövlətlər tərəfindən verilən yazılı və sözlü təqdimatlar yer alır. Belə halda, məruzə müvafiq tərəf Dövlətlərə göndərilir.

Lakin İnsan hüquqları komitəsinin çıxardığı qərarlar hüquqi cəhətdən məcburi deyildir. Dövlət bu qərarı yerinə yetirməyə də bilər və təəssüf ki, praktikada belə hallar az deyildir; bu halda həmin dövlətə qarşı Komitənin hər hansı bir səmərəli tədbir görmək imkanı yoxdur. Bununla belə, əksər qərarlar dövlət tərəfindən icra olunur, gələcəkdə belə pozuntulara yol verməmək üçün lazımi qanunvericilik, inzibati, təşkilati və s. tədbirlər görülür.

Ədəbiyyatda göstərildiyi kimi, İnsan Hüquqları Komitəsi öz fəaliyyəti dövründə yüzlərlə məlumatlara baxmış və müvafiq tövsiyələr çıxarmışdır ki, onların da əksəriyyəti dövlətlər tərəfindən icra üçün qəbul olunmuşdur. Beləliklə, insan hüquqlarının müdafiəsini, ilk növbədə, məhkəmələr də daxil olmaqla milli orqanlar təmin etməlidirlər. Lakin dövlət orqanları tərəfindən səmərəli hüquqi müdafiə təmin edilmədiyi halda, fərd bilavasitə İnsan Hüquqları Komitəsinə müraciət edə bilər.

### 4. Mьlki və Siyasi Hьquqlar haqqənda Beynəlxalq Paktda təsbit olunmuю qadən hьquqlarənən təhlili

Bu Paktda əks olunan əsas Mülki və Siyasi hüquqların təhlili göstərir ki, burada istifadə edilən "hər kəs" ifadəsi hər iki cinsi ehtiva edir.

1. Yaşamaq hüququ. Heç kim özbaşınalıqla həyatdan məhrum edilə bilməz. Qeyd etmək lazımdır ki, müvafiq maddə Azərbaycan Respublikasının Konstitusiyasında da öz əksini tapmışdır. Belə ki, Konstitusiyanın 27-ci maddəsinə əsasən, hər kəsin yaşamaq hüququ vardır. Dövlətə silahlı basqın zamanı

düşmən əsgərlərinin öldürülməsi, məhkəmənin qanuni qüvvəyə minmiş hökmünə əsasən, ölüm cəzasının tətbiqi və qanunla nəzərdə tutulmuş digər hallar istisna olmaqla, hər bir şəxsin yaşamaq hüququ toxunulmazdır.

2. Ölüm hökmünün ləğv edilmədiyi ölkələrdə ölüm hökmünün ən ağır cinayətlərə görə verilməsi.

3. Ölüm hökmü verilən hər bir kəsin əfv olunmasını və ya bu hökmün yumşaldılmasını xahiş etmək hüququ. Burada yalnız xahiş etmək hüququ nəzərdə tutulur və təmin edilməsi icbari hal deyil.

4. On səkkiz yaşı tamam olmamış şəxslərə ölüm hökmü verilmir və hamilə qadınlara münasibətdə ölüm hökmü icra edilmir.

5. Heç kəs işgəncələrə və ya ağır, qeyri-insani və ya onun ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qalmamalıdır. Azərbaycan Respublikası Konstitusiyasının 46-cı maddəsinə əsasən, hər kəsin öz şərəf və ləyaqətini müdafiə etmək hüququ vardır. Heç bir hal şəxsiyyətin ləyaqətinin alçaldılmasına əsas verə bilməz. Heç kəsə işgəncə və əzab verilə bilməz. Heç kəs insan ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qala bilməz.

6. Heç kəs kölə halında saxlanılmamalıdir; köləlik və kölə alverinin bütün növləri qadağan edilir.

7. Heç kəs asılı vəziyyətdə saxlanılmamalıdır.

8. Azadlıqdan məhrum edilərkən insani rəftar və insan şəxsiyyətinə xas olan ləyaqətlərə hörmət hüququ.

9. Heç bir kəsin özünün sərbəst razılığı olmadan tibbi və ya elmi təcrübələrə məruz qalmamaq hüququ. Qeyd etmək lazımdır ki, təhlükəli təcrübələrin aparılması qadağandır. Azərbaycan Respublikası Konstitusiyasının 46-cı maddəsinə əsasən, özünün könüllü razılığı olmadan heç kəsin üzərində tibbi, elmi və başqa təcrübələr aparıla bilməz.

10. Azadlıq və şəxsi toxunulmazlıq hüququ. Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq (28-ci maddə), hər kəsin azadlıq hüququ var, azadlıq hüququ yalnız qanunla nəzərdə tutulmuş qaydada tutulma, həbsəalma və ya azadlıqdan məhrumetmə yolu ilə məhdudlaşdırıla bilər, 32-ci maddəyə müvafiq olaraq, hər kəsin şəxsi toxunulmazlıq hüququ vardır.

Hər kəsin şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ vardır. Qanunla nəzərdə tutulmuş hallardan başqa, şəxsi və ailə həyatına müdaxilə etmək qadağandır. Hər kəsin şəxsi və ailə həyatına qanunsuz müdaxilədən müdafiə hüququ vardır.

11. Heç kəs özbaşınalıqla həbs edilə və ya dustaqda saxlanıla bilməz.

12. Heç kəs qanunla müəyyən edilən əsaslardan başqa və qanuni prosedura uyğun olmadan, heç bir halda azadlıqdan məhrum edilə bilməz.

13. Həbs edilən hər bir kəsə həbs zamanı onun həbs olunmasının səbəbləri barədə məlumat verilir.

14. Həbs və ya dustaq edilmək nəticəsində azadlıqdan məhrum edilən hər kəsin işinin məhkəmədə araşdırılması hüququ.

15. Qeyri-qanuni həbs və ya dustaq edilmənin qurbanı olan hər bir kəs kompensasiya hüququna malikdir. Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 58.1-ci maddəsinə əsasən, cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində vurulmuş maddi ziyan əsaslandırılaraq hesablandıqdan sonra kompensasiyası verilməklə tam həcmdə ödənilməlidir. Fiziki və mənəvi ziyan Azərbaycan Respublikasının qanunvericiliyi ilə digər hal nəzərdə tutulmayıbsa, məhkəmə tərəfindən ədalətli hesab olunmuş məbləğdə ödənilir.

16. Yetkinlik yaşına çatmamış müttəhimlərin yetkinlik yaşına çatmış müttəhimlərdən ayrı saxlanmaq hüququ.

17. Heç kəs, yalnız hansısa müqavilə öhdəliyini yerinə yetirmək iqtidarında olmaması əsasında azadlıqdan məhrum edilə bilməz. Nəzərə alınmalıdır ki, məhkəmənin qanuni qüvvəyə minmiş qərarının qəsdən icra edilməməsinə görə cinayət məsuliyyəti nəzərdə tutula bilər.

18. Ölkə hüdudları daxilində sərbəst hərəkət etmək və yaşayış yerini sərbəst seçmək, istənilən ölkəni tərk etmək hüququ və öz ölkəsinə gəlmək hüququ. Müvafiq müddəalar Azərbaycan Respublikası Konstitusiyasının 28-ci maddəsində əks olunmuşdur.

19. Bütün şəxslər məhkəmələr və tribunallar qarşısında bərabərdirlər.

20. Səlahiyyətli, müstəqil və qərəzsiz məhkəmə tərəfindən ədalətli və açıq araşdırma hüququ.

21. Cinayət əməlində ittiham olunan hər bir şəxsin, günahı qanuna uyğun olaraq sübut edilməyənə qədər günahsız hesab edilmək hüququ. Bunun digər adı "təqsirsizlik prezumpsiyası"dır. Həmin norma Azərbaycan Respublikası Konstitusiyasının 63-cü maddəsində geniş şəkildə əks olunmuşdur. Hər kəsin təqsirsizlik prezumpsiyası hüququ vardır. Cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs, onun təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməyibsə və bu barədə məhkəmənin qanuni, qüvvəyə minmiş hökmü yoxdursa, təqsirsiz sayılır. Şəxsin təqsirli olduğuna əsaslı şübhələr varsa, onun təqsirli bilinməsinə yol verilmir. Məhkəmənin hökmü olmasa, kimsə cinayətdə təqsirli sayıla bilməz.

22. Ona qarşı irəli sürülən ittihamın xarakteri və əsasları barədə başa düşdüyü dildə, təcili qaydada və ətraflı xəbərdar edilmək hüququ.

23. Öz müdafiəsinə hazırlaşmaq və özünün seçdiyi müdafiəçi ilə əlaqə saxlamaq üçün kifayət qədər vaxta və imkana malik olmaq hüququ.

24. Əsassız gecikdirmələrə yol verilmədən mühakimə olunmaq hüququ.

25. Öz iştirakı ilə mühakimə olunmaq və özünü şəxsən və ya seçdiyi müdafiəçisi vasitəsilə müdafiə olunmaq hüququ.

26. Kifayət qədər vəsaiti olmadığı halda, pulsuz müdafiəçiyə malik olmaq hüququ.

27. Onun əleyhinə çıxış edən şahidləri dindirmək, və ya bu şahidlərin dindirilməsi hüququna malik olmaq və onun əleyhinə çıxış edən şahidlər üçün mövcud olan şərtlərdə öz şahidlərini çağırmaq və dindirmək hüququ. Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 19-cu maddəsinə əsasən, cinayət prosesini həyata keçirən orqan şübhəli və ya təqsirləndirilən şəxsin onun əleyhinə ifadə vermiş şahidlərin məhkəmə istintaqı zamanı dindirilmə hüquqlarını təmin etməlidir.

28. Məhkəmədə şəxs istifadə olunan dili başa düşmürsə, yaxud bu dildə danışa bilmirsə, pulsuz tərcüməçi köməyindən istifadə etmək hüququ.

29. Öz əleyhinə ifadə verməyə və günahkar olduğunu zorla etiraf etməyə məcbur edilməmək hüququ.

30. Məhkum edilən hər bir şəxs onunla bağlı ittihamnaməyə

və hökmə yuxarı məhkəmə instansiyası tərəfindən qanunauyğun olaraq yenidən baxılmasına nail olmaq hüququna malikdir.

31. Heç kəs məhkum olunduğu və yaxud bəraət aldığı cinayətə görə ikinci dəfə mühakimə edilə və ya cəzalandırıla bilməz.

32. Heç kəs cinayət əməli hesab olunmayan hər hansı bir hərəkət və ya xəta nəticəsində hər hansı bir cinayət əməli törətməkdə müqəssir sayıla bilməz.

33. Cinayət əməlinin törədildiyi anda tətbiq edilməli olan cəzadan daha ağır cəza təyin edilə bilməz.

34. Əgər cinayət törədildikdən sonra qanunla daha yüngül cəza təyin edilibsə, bu qanunun təsiri həmin cinayətkara şamil edilir.

35. Hər bir insanın harada olmasından asılı olmayaraq, hüquq subyekti kimi qəbul edilmək hüququ. Burada “hər bir insan” anlayışına diqqət yetirmək lazımdır. Belə ki, insan anlayışı vətəndaş və qeyri-vətəndaş ola bilər.

36. Heç kimin şəxsi və ailə həyatına özbaşınalıqla və yaxud qeyri-qanuni müdaxilə, onun evinin toxunulmazlığına və məktublaşmalarının gizliliyinə özbaşınalıqla və ya qeyri-qanuni qəsd və ya onun ləyaqəti və nüfuzuna qeyri-qanuni qəsd edilə bilməz.

37. Hər bir insan maneəsiz olaraq öz fikirlərində qalmaq hüququna malikdir.

38. Hər bir insan öz fikrini sərbəst ifadə etmək hüququna malikdir.

39. Ayrı-seçkiliyə, düşmənçiliyə və ya zorakılığa təhriki özündə əks etdirərək milli, irqi və ya dini nifrətə sövq edən çıxışların hər cür forması qanunla qadağan edilir.

40. Dinc yığıncaqlar keçirmək hüququndan istifadə etməyə qanuna müvafiq surətdə qoyulan və demokratik cəmiyyətdə dövlətin və ictimaiyyətin təhlükəsizliyi, ictimai asayiş, əhalinin sağlamlığının və mənəviyyatının və yaxud başqa şəxslərin hüquq və azadlıqlarının qorunması mənafeləri üçün zəruri olan məhdudiyyətlərdən başqa, heç bir məhdudiyyət qoyula bilməz.

41. Hər bir insan, öz mənafelərini müdafiə etmək üçün həmkarlar ittifaqları yaratmaq və belə təşkilatlar yaratmaq hüququ da daxil olmaqla, başqaları ilə birlikdə assosiasiyalar qurmaq azadlığına malikdir

42. Heç kəs icbari və yaxud məcburi əməyə vadar edilməməlidir.

Aşağıdakılar icbari və məcburi əmək hesab edilmir:

1) məhkəmənin qanuni hökmü əsasında həbsdə olan şəxsin yerinə yetirməli olduğu istənilən iş və xidmət;

2) hərbi xarakterli istənilən xidmət və ya alternativ hərbi xidmət;

3) fövqəladə vəziyyət və fəlakətlər halında məcburi olan istənilən xidmət;

4) adi mülki vəzifələrə daxil olan istənilən iş və xidmət.

43. Ailə cəmiyyətin təbii və əsas özəyidir, cəmiyyət və dövlət tərəfindən müdafiə olunmaq hüququna malikdir. Eyni hüquqlar Azərbaycan Respublikası Konstitusiyasının 34-cü maddəsində əks olunur. Hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququ vardır. Nikah könüllü razılıq əsasında bağlanılır. Heç kəs zorla evləndirilə (ərə verilə) bilməz.

44. Nikah yaşına çatmış kişi və qadınların nikah bağlamaq hüququ və ailə qurmaq hüququ qəbul edilir.

45. Heç bir nikah onu bağlayanların sərbəst şəkildə və tam razılığı olmadan bağlana bilməz.

46. Hər bir uşaq irqi, dərisinin rəngi, cinsi, dili, dini, milli və ya sosial mənsubiyyəti, mülki vəziyyəti və doğum əlamətinə görə heç bir ayrı-seçkiliyə yol verilmədən, ailəsi, cəmiyyət və dövlət tərəfindən eyni müdafiə tədbirləri görülməsi hüququna malikdir.

47. Hər bir uşaq doğulan kimi dərhal qeydiyyata alınmalı və onun adı olmalıdır. Hər bir uşağın vətəndaşlıq əldə etmək hüququ var.

48. Hər bir vətəndaş ayrı-seçkiliyin heç bir növünə yol verilmədən və heç bir əsassız məhdudiyyət qoyulmadan aşağıdakı hüquq və imkanlara malik olmalıdır:

- dövlət işlərinin aparılmasında həm bilavasitə, həm də azad seçilmiş nümayəndələr vasitəsilə iştirak etmək;
- ümumi və bərabər seçki hüququ əsasında, gizli səsvermə yolu ilə keçirilən və seçicilərin öz iradələrini azad şəkildə bildirmələrinin təmin edildiyi həqiqi vaxtaşırı seçkilərdə səs vermək və seçilmək;
- öz ölkəsində ümumi bərabərlik əsasında dövlət qullu-

ğuna buraxılmaq.

49. Bütün insanlar qanun qarşısında bərabərdirlər və heç bir ayrı-seçkiliyə yol verilmədən qanunla bərabər müdafiə olunmaq hüququna malikdirlər. Bununla bağlı ayrı-seçkiliyin bütün növləri qanunla qadağan olunmalıdır və istənilən əlamətə: irqi, dərisinin rəngi, cinsi, dili, dini, siyasi və digər əqidələri, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti, doğuşu və ya digər halları ilə bağlı əlamətlərə görə ayrı-seçkiliyə qarşı bütün şəxslərə bərabər və səmərəli müdafiə təminatı verilməlidir.

## 5. Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə qoşulması

Beynəlxalq hüquqi aktların implementasiyası prosesinin nizamlanmasında ölkə Prezidentinin 16 avqust 1994-cü il tarixli "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə qoşulmasının nizama salınması sahəsində bəzi tədbirlər haqqında" Sərəncamı mühüm rol oynamışdır. Bu proses 13 iyun 1995-ci il tarixli "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" Qanun ilə tənzimlənir.

Bundan əlavə, 6 iyun 2000-ci il tarixdə "Beynəlxalq xüsusi hüquq haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. Azərbaycan Respublikası Konstitusiyasının 10-cu, 69-cu, 70-ci, 151-ci və digər maddələrində beynəlxalq hüquqa istinad olunur. Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsinin II hissəsinə görə, Azərbaycan Respublikasının qanunvericiliyinin tərkib hissəsi beynəlxalq adət hüququ deyil, beynəlxalq müqavilə hüququdur. Lakin Konstitusiyamızın beynəlxalq adət hüququna tam biganə qaldığını da söyləmək olmaz. Belə ki, 10-cu maddədə beynəlxalq münasibətlərin prinsipləri kimi hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarının prinsiplərini nəzərdə tutur.

Hamılıqla qəbul edilmiş prinsiplər beynəlxalq hüququn ümumi prinsipləridir ki, bunlar da beynəlxalq adət hüququnun əsasını təşkil edir. Azərbaycan Respublikası Konstitusiyasının 151-ci maddəsi ilk baxışdan beynəlxalq hüquq normalarının primatını qəbul etsə də, əsas məqsəd beynəlxalq müqavilə ilə daxili normativ aktlar arasında mümkün kolliziyaları aradan qaldırmaqdır.

1995-ci il 12 noyabr tarixində qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk milli Konstitusiyasında, Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, “İqtisadi, sosial və mədəni hüquqlar haqqında” Beynəlxalq Paktda, “Mülki və siyasi hüquqlar haqqında” Beynəlxalq Paktda, “İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında” Konvensiyada və digər insan hüquqlarına dair beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş insan hüquq və azadlıqları tam, əhatəli şəkildə təsbit olunmuşdur. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının II bölməsinin III fəsli bütünlüklə insan hüquq və azadlıqları ilə bağlı müddəaları əhatə edir. Konstitusiyanın “Əsas insan və vətəndaş hüquqları və azadlıqları” adlanan III fəslində mülki, siyasi, iqtisadi, sosial, mədəni, habelə digər hüquqlar təsbit olunmuşdur. Konstitusiyada təsbit olunmuş insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir. Konstitusiyaya əsasən, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir.

22 fevral 1998-ci il tarixdə insan hüquqlarının və azadlıqlarının təmin olunması istiqamətində çox mühüm Fərman imzalandı. Fərmanda insan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının layihəsinin hazırlanması, insan hüquqları üzrə səlahiyyətli müvəkkil təsisatının yaradılmasına dair təkliflərin hazırlanması, qaçqınların və məcburi köçkünlərin, əlilliyi olan şəxslərin, müharibə iştirakçılarının, aztəminatlı ailələrin iqtisadi, sosial hüquqlarının daha səmərəli təmin edilməsi ilə əlaqədar təkliflərin hazırlanması, insan hüquqları üzrə elmi tədqiqat institutunun yaradılmasına dair təkliflərin hazırlanması, hüquqi islahatların həyata keçirilməsi ilə əlaqədar normativ hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunu təmin etmək, kimi məqsədlərə nail olmaq üçün tədbirlər planı müəyyən olunmuşdur.

Bu Fərmandan irəli gələn məqsəd və vəzifələri nəzərə alaraq, Azərbaycanın konkret inkişaf mərhələsinə uyğun insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 iyun tarixli 832 saylı Sərəncamı ilə

təsdiq edilmiş İnsan hüquqlarının müdafiəsinə dair ilk Dövlət Proqramını xüsusilə qeyd etmək lazımdır. Dövlət Proqramında İnsan hüquqları üzrə Azərbaycan Respublikasının səlahiyyətli müvəkkili təsisatının yaradılması, Azərbaycan Respublikasının insan hüquqları haqqında beynəlxalq sazişlərə qoşulması, bu sahədə elmi-tədqiqat institutunun yaradılması, normativ hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, hüquqi mexanizmlərin təkmilləşdirilməsi, insan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi, bu sahədə fəaliyyət göstərən beynəlxalq institut və mərkəzlərdə tədqiqat və təhsil proqramları üzrə mütəxəssislərin hazırlanması, insan hüquqları haqqında öhdəliklərə riayət edilməsi və digər mühüm məsələlər nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının Milli Məclisi ölkəmizdə ölüm cəzasının ləğv olunması ilə əlaqədar Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual və Cəzaların İcrası Məcəllələrinə dəyişikliklər və əlavələr edilməsi haqqında 10 fevral 1998-ci il tarixli qanun qəbul etmişdir. Bu qanunla ölüm cəzası ləğv olunaraq, cəza sistemindən çıxarıldı, ömürlük azadlıqdan məhrumetmə isə müstəqil cəza növü kimi, keçmiş Cinayət Məcəlləsinin 21-ci maddəsində müəyyən edilən cəza sisteminə daxil edildi. Həmin qanuna, habelə "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın ölüm cəzasının ləğvinə yönəlmiş İkinci Fakültativ Protokoluna qoşulmaq barədə" Azərbayan Respublikasının qanununa görə, müharibə dövründə və ya müharibə təhlükəsi mövcud olduqda ağır cinayətlərə görə ölüm hökmünün tətbiqi imkanı saxlanılmışdır. Paktın 6-cı maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 57-ci maddəsində ömürlük azadlıqdan məhrumetmənin qadınlara, cinayət törədərkən on səkkiz yaşı tamam olmamış şəxslərə, habelə hökm çıxarılanadək altmış beş yaşına çatmış kişilərə təyin edilməməsi qeyd olunub.

Paktın müasir dünyada qadın statusunu müəyyən edən 3-cü maddəsi böyük əhəmiyyət kəsb edir. İctimai tərəqqinin vacib göstəricisini ifadə edən bu maddədə iştirakçı dövlətlər Paktda nəzərdə tutulan bütün vətəndaş və siyasi hüquqlardan istifadə edilməsində kişi və qadınların bərabər hüquqlarının təmin

olunmasına zəmanət verir.

Bu maddəyə müvafiq olaraq, Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsində əks etdirilmiş kişi ilə qadının bərabərliyi prinsipi ölkənin qanunvericiliyinin bütün sahələrinə (əmək, ailə, cinayət, mülki, sosial və s.) tətbiq edilmiş, Nazirlər Kabineti tərəfindən Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı (2000-2005-ci illər) təsdiq edilmiş və icra olunmuşdur.

Azərbaycan Respublikası 6 iyun 2000-ci ildə imzalanmış və 16 fevral 2001-ci ildə Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında Konvensiyanın Fakültativ Protokoluna qoşuldu.

6 mart 2000-ci il tarixdə qadın və kişilərin hüquq bərabərliyini təmin etmək, xüsusilə dövlətin idarə olunmasında lazımi səviyyədə onları təqdim etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi" haqqında Fərman imzalamışdır.

10 oktyabr 2006-cı il tarixdə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları" haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Qanunun məqsədi cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaqla, kişi və qadınlara ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanlar yaratmaqla gender bərabərliyinin təmin edilməsindən ibarətdir. Bu qanunda aşağıdakı anlayışlardan istifadə edilir: gender, gender bərabərliyi, bərabər imkanlar, cinsi mənsubiyyətə görə ayrı-seçkilik, seksual qısnama. Gender bərabərliyinin təmin edilməsi üzrə dövlət siyasətinin əsas istiqamətləri aşağıdakılardır: gender bərabərliyinin təmin edilməsi üçün normativ hüquqi bazanın formalaşdırılması, təkmilləşdirilməsi və inkişafı; normativ hüquqi aktların gender ekspertizasından keçirilməsi; gender bərabərliyinin təmin edilməsi üçün dövlət proqramlarının hazırlanması və həyata keçirilməsi; gender bərabərliyi mədəniyyətinin təbliği.

29 noyabr 2006-cı il tarixdə Azərbaycan Respublikasının Prezidenti "Gender (kişi və qadınların) bərabərliyinin təminatları" haqqında Qanunun tətbiqi ilə bağlı Fərman imzalamışdır. Azərbaycan Respublikasının Hökuməti cinsi mənsubiyyətə

görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması, qadın və kişilərə bərabər imkanlar yaradılması üzrə tədbirlər görür. Qanunla:

- cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formaları, o cümlədən seksual qısnama qadağandır;
- seksual qısnamaya məruz qalmış işçilərə qarşı hər hansı təzyiqin yolverilməzliyi;
- işəgötürənin aşağıdakı vəzifələri vardır: cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin aradan qaldırılması, işəgötürən tərəfindən əmək fəaliyyətində kişi və qadınların bərabərliyinin təmin edilməsi;
- işə qəbul haqqında elanlarda kişi və qadınlara fərqli tələblərin irəli sürülməsinə, hər hansı cinsin nümayəndələrinə üstünlük verilməsinə, işaxtaranın ailə vəziyyəti və ya şəxsi həyatı barədə məlumatlar sorğusuna yol verilmir;
- kişi və qadınlara təhsil hüququnun həyata keçirilməsi üçün bərabər imkanların yaradılması, iqtisadi və sosial münasibətlərdə, siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının və həmkarlar ittifaqlarının fəaliyyətində gender bərabərliyinin təminatları, həmçinin zərərin ödənilməsini tələb etmək hüququ təmin edilir.

Əmək Məcəlləsinin 16-cı maddəsinə (Əmək münasibətlərində ayrı-seçkiliyin yolverilməzliyi) müvafiq olaraq, əmək münasibətlərində vətəndaşlığına, cinsinə, irqinə, dininə, milliyyətinə, dilinə, yaşayış yerinə, əmlak vəziyyətinə, ictimai-sosial mənşəyinə, yaşına, ailə vəziyyətinə, əqidəsinə, siyasi baxışlarına, həmkarlar ittifaqlarına və ya başqa ictimai birliklərə mənsubiyyətinə, qulluq mövqeyinə, həmçinin işçinin işgüzar keyfiyyətləri, peşəkarlıq səriştəsi, əməyinin nəticələri ilə bağlı olmayan digər amillərə görə, işçilər arasında hər hansı ayrı-seçkiliyə yol verilməsi, həmin amillər zəminində bilavasitə və ya dolayısı ilə imtiyazların və güzəştlərin müəyyən edilməsi, habelə hüquqlarının məhdudlaşdırılması qəti qadağandır. Həmin maddədə nəzərdə tutulur ki, əmək münasibətlərində qadınların sosial müdafiəsi üçün onlara verilən güzəştlər, imtiyazlar və əlavə təminatlar ayrı-seçkilik hesab edilmir.

Əmək münasibətlərində ayrı-seçkiliyə yol verən işəgötürənlər qanunvericilikdə nəzərdə tutulmuş qaydada müvafiq

məsuliyyət daşıyır.

Əmək Məcəlləsinin 240-cı maddəsinə müvafiq olaraq, hamilə və ya 3 yaşına çatmamış uşağın olması səbəbinə görə, qadınla əmək müqaviləsinin bağlanmasından imtina etmək yolverilməzdir. Bu qayda işəgötürənin müvafiq işi (vəzifəsi) olmadığı, habelə qadın əməyindən istifadəyə yol verilməyən iş yerlərinə işə götürməkdən imtina olunan hallara şamil edilmir. İşəgötürən hamilə və ya 3 yaşına çatmamış uşağı olan qadınla bu səbəblərə görə əmək müqaviləsi bağlamaqdan imtina etdikdə, qadın imtinanın səbəbi barədə işəgötürəndən yazılı cavab verilməsini tələb etmək hüququna malikdir. Qadın əmək müqaviləsi bağlamaqdan imtina edilməsinin səbəblərinə görə hüququnun müdafiə olunması üçün məhkəməyə müraciət edə bilər.

Qadınlara qarşı zorakılığın yolverilməzliyi üzrə optimal informasiya kampaniyasının təşkili üçün Azərbaycan Respublikasının 1 sentyabr 2004-cü il tarixli müvafiq qanunu ilə Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 31-ci maddəsinin hissəsinə tərəflərin vəzifələrini nizama salan aşağıdakı dəyişikliklər edilmişdir:

- iş yerində və ya işlə əlaqədar olaraq, ayrı-ayrı işçilərə qarşı ələsalma, aşkar düşmənçilik hərəkətləri və təhqiramiz hərəkətlər barəsində izahat işi aparılmasına və informasiya verilməsinə yardım göstərilməsi və belə hərəkətlərin qarşısının alınması, işçiləri bu cür davranışdan qorumaq üçün bütün lazımi tədbirlərin görülməsi;
- iş yerində və ya işlə əlaqədar olaraq, seksual təhrik məsələlərinə dair izahat işi aparılmasına və informasiya verilməsinə yardım göstərilməsi və belə təhriklərin qarşısının alınması, işçiləri bu cür davranışdan qorumaq üçün bütün lazımi tədbirlərin görülməsi.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 149-cu maddəsinə müvafiq olaraq, zorlamaya görə cəzalandırılma nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə cinayətlərin bu kateqoriyası işlərinin ardıcıllığı prokurorluq orqanlarının səlahiyyətlərinə aid edilmiş və prokurorluq orqanları tərəfindən zorlama ilə mübarizə üzrə müəyyən iş aparılmışdır. İldə iki dəfə əvvəldə göstərilən qanun pozuntuları ilə mübarizə üçün təcrübə ümumiləşdirmələri apa-

rılır, zorlamanın törədilməsinə şərait yaradan səbəb və şərtlərin aradan qaldırılması üçün tədbirlər görülür.

Azərbaycan Respublikası Prezidentinin 14 yanvar 1998-ci il tarixli Fərmanı ilə təsis edilmiş Qadın Problemləri üzrə Dövlət Komitəsi 2005-ci ildə "Koalisiya 1325" qadın təşkilatı ilə birgə Azərbaycanın müxtəlif regionlarında gender prioritetlərinin müəyyənləşdirilməsi üzrə 14 yerli forum keçirmişdir. Bu forumlar çərçivələrində seçilmiş prioritet istiqamətləri (qadın və iqtisadiyyat, qadın və təhsil və s.) üzrə gərgin müzakirə aparılmışdır. Mövcud olan problemlər üzrə yerli sakinlərin fikirləri səsləndirilmiş və forumun iştirakçılarının təklifləri nəzərə alınmışdır.

2008-cı ildə Yoxsulluğun azaldılması və davamlı inkişaf üzrə Dövlət Proqramı (2008-2015-ci illər) qəbul edilmişdir. Bu proqramda gender bərabərliyinə "Gender siyasəti" hissəsi həsr olunmuşdur.

Ötən dövrdə Azərbaycan Respublikası Regionlarının Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı uğurla həyata keçirilmişdir. Bu proqram Azərbaycanın balans iqtisadi inkişafının, o cümlədən, inkişafın əsas sahələrində kişi və qadınlar üçün yaxşı şəraitin təminatına yönəlmişdir. Bu proqram çərçivəsində qadınların məşğulluğu üzrə məsələlər də diqqət mərkəzində olub və önəm kəsb edir.

Azərbaycan Respublikası Prezidentinin 6 fevral 2006-cı il tarixli Fərmanı ilə ailə, qadın və uşaq problemləri ilə iş sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı olan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Həmin qurum 1998-ci ildə yaradılmış Qadın problemləri üzrə Dövlət Komitəsini əvəz etmişdir. Komitə gender bərabərliyinin təmin edilməsi sahəsində vaxtaşırı monitorinq və gender təhlilini həyata keçirir, əhali ilə maarifləndirmə işinə xüsusi diqqət ayırır.

Bu istiqamətdə atılan addımlardan biri də Cinayət Məcəlləsində dəyişiklik edilərək qanunların sərtləşdirilməsidir. Cinayət Məcəlləsinin 20-ci fəsli öz normaları ilə şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətləri (149-153 maddələr), Cinayət Məcəlləsinin 22-ci fəsli isə yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan cinayətləri

əhatə edir (170-176-1 maddələr).

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 141-ci maddəsinə müvafiq olaraq (Qanunsuz abort etmə), həkim tərəfindən tibb müəssisələrindən kənarda abortetmə iki yüz manatadək miqdarda cərimə və ya altı ayadək müddətə islah işləri ilə cəzalandırılır. Xüsusi ali tibbi təhsili olmayan şəxs tərəfindən abortetmə isə üç yüz manatadək miqdarda cərimə və ya üç yüz altmış saatdan dörd yüz saatadək müddətə ictimai işlər və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır. Həmin əməllər nəticəsində zərərçəkmiş şəxsin sağlamlığına ehtiyatsızlıqdan ağır zərər vurulduqda, üç yüz manatdan beş yüz manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə bir ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Bu göstərilmiş əməllər nəticəsində ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Azərbaycan Respublikasının hökuməti tərəfindən UNW ilə birlikdə Ailə və qadın problemləri üzrə növbəti Milli Fəaliyyət Planı (2005-2010-cu illər) hazırlanmışdır. Bu planın hazırlanmasında 25 dövlət müəssisəsi, 40-a qədər qeyri-hökumət təşkilatı və beynəlxalq qurum iştirak etmişdir.

"Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" BMT Konvensiyasının əhəmiyyətini nəzərə alaraq, həmin sənəd Azərbaycan dilinə tərcümə edilmiş, həmçinin Ədliyyə Nazirliyində çap nəşrləri və hüququn müxtəlif sahələrində şəffaflığın təmin edilməsi üçün yaradılmış internet saytında (www.justice.gov.az) yerləşdirilmişdir.

Hüquqi maarifləndirilmə işinin səmərəliliyinin artırılması məqsədilə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı tərəfindən hüquqi nəşrlər, hüquq lüğətləri, tematik lifletlər, müxtəlif məcmuələr, broşürlər, kitabçalar və yaddaş vərəqələri hazırlanır, çap olunur və əhali arasında yayılır. Artıq 180 adda hüquqi nəşr hazırlanmış, insan hüquqlarına və layiqli idarəetməyə dair 25-dək xarici

ədəbiyyat dilimizə tərcümə olunmuş, o cümlədən Azərbaycan dilində olan 51 vəsait ingilis dilinə, 39-u isə rus dilinə tərcümə olunaraq çap edilmiş, geniş oxucu auditoriyası arasında yayılmış və kitabxanalara paylanmışdır. 2014-cü ildə Pekin Deklarasiyası və Fəaliyyət Platforması da Azərbaycan dilinə tərcümə edilmiş və cap olunmuşdur.

Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktda hüquq əleyhinə şərh qadağası nəzərdə tutulur. Paktın müstəqilliyini yenicə əldə etmiş üçüncü dünya ölkələrinə böyük təsiri olub. Həmin paktda "hüquq əleyhinə şərh qadağası" ilə bərabər, belə bir fikir deyilir ki, "Bu Paktın heç bir müddəası bütün xalqların öz zənginlik və resurslarını tam olaraq və azad şəkildə istifadə etməsi və bunlardan yararlanmasında təbii olan hüquqları məhdudlaşdırıcı kimi şərh edilə bilməz…". Paktın müddəaları baxımından, federal dövlətlər daxili əyalətlərin ancaq bəzilərində tətbiq olunma ilə bağlı qeyd-şərt qoya bilməzlər.

Azərbaycan Respublikasında ictimai həyatın bir çox sahələrində dərin islahatlar həyata keçirilmişdir. Ölkənin demokratikləşdirilməsi sahəsində aparılan islahatlar sırasında Azərbaycanın hüquq sisteminin Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktda təsbit edilmiş beynəlxalq standartların tələblərinə uyğunlaşdırılması istiqamətində atılan addımlar mühüm yer tutmuşdur.

**Tələbələrin biliklərinin qiymətləndirilməsi üçün suallar:**

1. Mülki və siyasi hüquqlar hansılardır?
2. Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın beynəlxalq hüquqda yeri.
3. Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakta aid 1 və 2-ci Qeyri-Məcburi Protokolların əhəmiyyəti.
4. İnsan hüquqları komitəsinin yaranması və səlahiyyətləri.
5. Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktda təsbit olunmuş qadın hüquqları.
6. Azərbaycan Respublikası tərəfindən beynəlxalq hüquqi aktların implementasiyası necə həyata keçirilir?
7. Azərbaycan Respublikasının Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakta və əlavə Protokollara qoşulması.

## Mühazirə 12. Эqtisadi, Sosial və Mədəni Hьquqlar haqqэnda Beynəlxalq Paktda təsbit olunmuю qadэn hьquqlarэ

***1. Эqtisadi, sosial və mədəni hьquqlarэn anlayэюэ və rolu***

***2. İqtisadi, sosial və mədəni hüquqların beynəlxalq hüquqda müdafiə mexanizmi***

***3. İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktda təsbit olunan qadın hüquqlarının təhlili***

***4. Azərbaycan Respublikasında iqtisadi, sosial və mədəni hüquqların təmin edilməsi***

***5. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin iqtisadi, sosial və mədəni hüquqlara dair bərabər imkanlarla bağlı bəzi qərarları***

### 1. Эqtisadi, Sosial və Mədəni Hьquqlarэn anlayэюэ və rolu

İnsan hüquq və azadlıqlarını araşdırarkən müxtəlif növ təsnifatına rast gəlinir və ayrı-ayrı ədəbiyyatlarda bunların bir tərəfdən birinci nəsil olan mülki və siyasi, digər tərəfdən isə ikinci nəsil sayılan iqtisadi, sosial və mədəni hüquqlara bölündüyü qeyd olunur. "İkinci" sözü bunların birinci nəsil hüquqlardan daha sonra gəldiyi, xronoloji olaraq daha sonra irəli sürüldüyü və tələb olunduğu mənasını kəsb edir.

Həqiqətən də, liberal fəlsəfə, ilk növbədə, birinci nəsil hüquqlar üzərində dayanırdı. İkinci nəsil hüquqları isə ilk dəfə sosialistlər irəli sürüblər. İqtisadi, sosial və mədəni hüquqlara pozitiv hüquqlar da deyilir. İkinci nəsil hüquqları belə səciyyələndirmək olar:

- pozitivdir, yəni bunların reallaşması üçün dövlət bir iş görməlidir;

resurs tələb edirlər, yəni bunların reallaşması üçün dövlətdən konket maliyə tələb olunur;

- zaman tələb edirlər, çünki bunların reallaşmasında həm maliyyə

vəsaitləri, həm də bir fəaliyyətin icrası tələb olunur;

- qeyri-müəyyəndir, yəni bunların təmin edilib-edilmədiyini qiymətləndirmək çətindir, bu kateqoriyada hansı hüquqların yer alacağına dair konsensus yoxdur;
- hüquqi (məhkəmə) təminatları zəifdir, yəni pozulduğu halda, onların bərpa olunması üçün hüquqi mexanizmlər zəifdir.

Birinci nəsil hüquqlar azadlıqla bağlı olduğu kimi, ikinci nəsil hüquqlar da bərabərlik hüququ ilə bağlıdır. Lakin bərabərlik hüququ, siyasi həyat baxımından birinci nəsil hüquqlara daxil olduğu halda, "iqtisadi bərabərlik" insanın əmlakı və iqtisadi statusu baxımından ikinci nəsil hüquqlara aiddir.

İkinci nəsil hüquqlar, cəmiyyətin müxtəlif üzvlərinə eyni şərtləri və eyni rəftarı təmin etməyə yönəlir. Bunlar əsasən, II Dünya Müharibəsindən sonra dövlətlər tərəfindən tanınmağa başlanıb. Bu hüquqlar arasında aşağıdakıları göstərmək olar:

- mənzil hüququ (mənzil toxunulmazlığı ilə qarışdırılmamalıdır);
- əmək hüququ;
- sağlamlıq hüququ (dövlət tərəfindən güzəştli şərtlərlə müalicə hüququ);
- sosial sığorta hüququ (pensiya yaşına çatıb, təqaüd alma imkanı);
- işsizlik sığortası;
- təhsil hüququ.

İqtisadi-sosial və mədəni hüquqlar uzun müddət insan hüquqları sahəsinə daxil edilmirdi. Buna səbəb olaraq isə, qeyd edilən hüquqi müddəaların daha çox proqram xarakteri daşıması göstərilir və vurğulanırdı ki, onlara praktikada əməl edilməsi o qədər də asan deyil. Eyni zamanda bu hüquqların əsas insan hüquqları sırasına daxil edilməsi digər insan hüquqlarının təsir gücünü azalda bilər. Amma təbii hüquqlardan başqa, elə amillər və hallar var ki, bunlar təmin edilmədən birinci nəsil hüquqların həyata keçirilməsi xeyli çətin olur. Məsələn, pulu olmayan və çox kasıb bir insan üçün hərəkət (səyahət) azadlığı böyük bir məna və əhəmiyyət kəsb etmir. Digər tərəfdən, təhsil ala bilməyən insan üçün, söz və ifadə azadlığının böyük əhəmiyyəti yoxdur. Habelə əmək hüquqları təmin olunmayan bir insan üçün şəxsi və ailə həyatına hörmət edilməsi məsələsi

xəyali bir hədəfdir. Həmçinin mədəniyyət hüququ olmadan mürəkkəb siyasi-sosial, iqtisadi-hüquqi və beynəlxalq münasibətlərin bütün sistemini qiymətləndirmək qeyri-mümkündür. Mədəniyyət hüququ XXI əsrdə həyatın ümumi normalarından biri kimi universal dəyərlərdən hesab olunur.

Mədəniyyət hüququ da geniş bir anlayışdır.Bu, fərdin mədəni-mənəvi tələbatının ödənilməsində ən əsas rol oynayan hüquqdur. Həmin anlayış o qədər ümumidir ki, başqa hüquq və azadlıqların predmetinə daxil olan davranışları belə, dolayı yolla mədəniyyət hüququ ilə əlaqələndirmək olar. Mədəniyyət, maddi və mənəvi mədəniyyət olmaqla, iki yerə bölünür. Mədəniyyət anlayışı kimi, mədəni həyat da mürəkkəb anlayışdır. Bura mədəni dəyərləri mənimsəmək və onlardan istifadə etmək daxildir.

Sosial və iqtisadi hüquqların elə bir minimum həddi var ki, bu həddin altında olan həyat tərzinə məruz qalmış insan birinci nəsil hüquqlarından da faydalana bilməz.

Burada yenə bir məqama diqqət yetirməliyik. İnsan hüquqları nəzəriyyəsi Qərb mədəniyyətinin bir məhsuludur. Qərb ölkələri üstünlüyü daha çox birinci nəsil hüquqlara verir. ABŞ-da indiyə kimi, *due proses of law* (lazımi hüquqi prosedurları) deyilən məhkəmə təminatı ancaq həyat, azadlıq və mülkiyyət hüquqları ilə bağlı mübahisələrdə tətbiq olunur. Avropa qitəsində sosial hüquqlara daha çox diqqət yetirilir, amma birinci dərəcə hüquqlar orada yenə əsasdır. Köhnə sosialist dövlətləri və Asiya ölkələri iqtisadi və sosial hüquqlara daha böyük əhəmiyyət verdikləri halda, birinci nəsil hüquqları çox vaxt təmin etməkdə aciz olublar. Məsələn, SSRİ-də pulsuz müalicə, təhsil, istirahət hüquqları təmin edildiyi halda, söz azadlığı kimi əsas hüquqlar qətiyyən tanınmırdı. ABŞ-da isə bunun əksinə, iqtisadi və sosial hüquqlar mütləq şəkildə təmin olunmalı hüquqlar sayılmır.

Tarixi baxımdan beynəlxalq iqtisadi hüququn norma və prinsipləri, institutları, sahələri beynəlxalq iqtisadi münasibətlərin formalaşmasındakı mərhələlərə uyğun yaranmış və formalaşmışdır.

Beynəlxalq ticarət münasibətlərinin beynəlxalq hüquqi tənzimlənməsinin növbəti mərhələsi xristian və islam dəyərlərinin

bərqərar olduğu dövrə təsadüf edir. Etnik baxımdan müxtəlif xalqların ümumi dəyərlərlə bir-birlərinə bağlanması beynəlxalq ticarətin də inkişafına xidmət edirdi.

İkinci nəsil hüquqların vacib xüsusiyyəti ondan ibarətdir ki, bunlar dövlət tərəfindən tanınır və mahiyyətcə ictimai olan hüquqlardır, yəni insanın cəmiyyət halında yaşamasından irəli gəlir. Həmin meyarı nəzərə alaraq, bunları siyasi hüquqlarla qarışdırmaq olmaz. Siyasi hüquqlar nə qədər cəmiyyətə yönəlik olsa da, bunların məqsədi və səbəbi azadlıq hüququnu təmin etməkdir.

İqtisadi, sosial və mədəni hüquqlar insanın cəmiyyət daxilində özünü ləyaqətli şəkildə inkişaf etdirə bilməsinə yönəlir. Bu səbəbdən, ikinci nəsil hüquqları, hardasa birinci nəsil hüquqların dolayı təminatçısı kimi görmək mümkündür.

### 2. İqtisadi, sosial və mədəni hüquqların beynəlxalq hüquqda müdafiə mexanizmi

Demokratik-hüquqi dövlətdə sosial-iqtisadi və mədəni hüquqlar insanın əmək, məişət, məşğulluq, rifah və sosial müdafiəsi sahəsində hüquqlarının müdafiəsini nəzərdə tutur. Sosial-iqtisadi hüququn əhəmiyyəti ondadır ki, şəxsiyyətin hüquqi statusunu təmin edir.

Sosial-iqtisadi hüquqların müdafiəsi sahəsində hüquqi dövlətin vəzifəsi ondan ibarətdir ki, mütərəqqi sosial-iqtisadi islahatlar həyata keçirir, öz xalqının əlverişli iqtisadi inkişafda iştirakını təmin edir, öz ehtiyatlarından hamının sosial-iqtisadi hüquqlarından bərabər istifadə etməsi imkanlarını yaradır. 1974-cü il 12 dekabr tarixli "Dövlətin iqtisadi hüquq və vəzifələri Xartiyasında" göstərilir ki, hər bir dövlət öz xalqının iqtisadi, sosial və mədəni inkişafına yardım etmək üçün məsuliyyət daşıyır.

Sosial-iqtisadi hüquq və azadlıqları hüquqi cəhətdən tənzimləyən bir çox beynəlxalq hüquqi normalar mövcuddur. Bəzi universal normalar BMT-nin Nizamnaməsində və Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, əsas normalar isə Beynəlxalq Əmək Təşkilatı və "İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktın" sənədlərində öz əksini tapmışdır. Beynəlxalq Əmək Təşkilatı bu sahədə 170 konvensiya

qəbul etmişdir. Bundan başqa, bəzi regional razılaşmalarda — insan hüquqları və əsas azadlıqları haqqında Avropa Konvensiyasında sosial-iqtisadi hüquqları tənzimləmə normaları mövcuddur. Dövlətlərin milli qanunvericiliyində də sosial-iqtisadi hüquqlar öz əksini tapır.

İqtisadi hüquqlara əmək hüququ, mülkiyyət hüququ, sahibkarlıq hüququ daxildir. Bundan başqa, əməklə məşğul olanlar kollektiv müqavilələr bağlamaq, öz maraqlarını qorumaq üçün milli və beynəlxalq təşkilatlarda birləşmək hüququna da malikdirlər.

Sosial-iqtisadi hüquqlar bir tərəfdən əhalinin müvafiq fəallığını təmin edir, digər tərəfdən onu mümkün risklərdən qoruyur. İqtisadi azadlıq, bərabərlik hüquqi dövlət - vətəndaş cəmiyyətində insan hüquq və azadlıqlarının ayrılmaz tərkib hissəsi kimi, sosial ədalət, inteqrasiya, dövlət və vətəndaşın qarşılıqlı məsuliyyətilə sıx əlaqədardır. Sosial-iqtisadi hüquqların təminatı hüquqi dövlətin demokratik və sosial formalarının stabil mövcudluğu üçün mühüm zəmindir.

Mədəni hüquqlar insanın mənəvi inkişafını təmin edir, hər kəsin mənəvi, sosial, mədəni və siyasi tərəqqidə faydalı iştirakına yardım edir. Mədəni hüquqlara təhsil hüququ, cəmiyyətin mədəni inkişafında azad iştirak etmək hüququ, yaradıcılıq hüququ, elmi tərəqqinin nəticələrindən istifadə etmək hüququ və onları praktikaya tətbiq etmək hüququ daxildir.

Beynəlxalq təşkilatların sənədlərində hamı üçün məcburi, pulsuz ibtidai təhsil, orta, ali təhsil, valideynlərin öz uşaqlarının dini və mənəvi inkişafını təmin etmək üçün məktəbləri azad seçmək hüququnun həyata keçirilməsi, təhsil sahəsində ayrı-seçkiliyin qadağan olunması öz əksini tapıb.

İqtisadi, Sosial və Mədəni hüquqların beynəlxalq-hüquqi müdafiəsinin sahəvi prinsiplərinə gəldikdə, son dövrün inkişaf xüsusiyyətləri ilə bağlı olaraq meydana çıxan inkişaf prinsipi xüsusi qeyd edilməlidir. Həmin prinsip öz normativ təsdiqini bir sıra beynəlxalq sənədlərdə tapmışdır. Belə ki, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 29-cu maddəsinin 1-ci bəndində göstərilir ki, hər bir insan şəxsiyyətinin azad və tam şəkildə inkişaf etməsi imkanının olduğu cəmiyyət qarşısında öhdəliklərə malikdir. İnkişaf prinsipinin formalaşmasında mü-

hüm istiqamətlərdən biri də BMT Baş Məclisi tərəfindən 1986-cı ildə qəbul edilmiş İnkişafa olan hüquq haqqında Bəyannamə sayılır. Belə ki, Bəyannamənin preambulasında inkişafın bütün əhalinin və bütün şəxslərin inkişafda və onun gedişində yaradılan nemətlərin ədalətli bölgüsündə fəal, azad və konstruktiv iştirakı əsasında onların rifahının durmadan yüksəldilməsinə yönəldilmiş hərtərəfli iqtisadi, sosial, mədəni və siyasi proses olduğu göstərilir.

İkinci Dünya müharibəsindən, bəşəriyyətə qarşı faşizm tərəfindən törədilən cinayətlərdən sonra 26 iyun 1945-ci il tarixində mьasir dцvlətlər tərəfindən əsas insan hьquqlarэ və azadlэqlarэna hцrmət prinsipini ifadə edən sənəd — Birləєmiє Millətlər Təюkilatэnэn Nizamnaməsi qəbul olunmuєdur. Nizamnamənin birinci maddəsində BMT-nin məqsədlərindən biri kimi, iqtisadi, sosial, mədəni və humanitar xarakterli beynəlxalq problemlərin həll edilməsində və irqindən, cinsindən, dilindən və dinindən asэlэ olmayaraq, bьtьn insanlarэn hьquq və azadlэqlarэna hцrmətin dəstəklənməsində və həvəsləndirilməsində beynəlxalq əməkdaюlэpa nail olmaq qeyd edilmiюodir (1-ci maddənin 3-cь bəndi).

1946-cı ildə BMT-nin İqtisadi və Sosial Şurası özünün köməkçi orqanı kimi İnsan Hüquqları üzrə Komissiyanı təsis etmiş, ona 16 fevral 1946-cı il tarixli 5(1) saylı qətnaməsi ilə İnsan Hüquqları üzrə Beynəlxalq Bill barədə öz mülahizələrini təqdim etməyi tapşırmışdır.

Ümumiyyətlə, iqtisadi, sosial və mədəni hüquqlara beynəlxalq sənədlərdə də anlayışlar və izahlar verilmişdir. Belə ki, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 22-28-ci maddələri qeyd edilən hüquqlara aid edilmişdir. Məsələn, 22-ci maddəyə əsasən, cəmiyyətin üzvü kimi, hər bir insan sosial təminat hüququna və öz ləyaqətini qoruyub saxlaya bilmək və öz səxsiyyətini azad inkisaf etdirmək üçün iqtisadi, sosial və mədəni sahələrdə zəruri olan hüquqlarını milli səylər və beynəlxalq əməkdaşlıq vasitəsilə, hər bir dövlətin strukturu və resurslarına müvafiq olaraq həyata keçirmək hüququna malikdir. 27-ci maddədə qeyd edilir ki, hər bir insan, cəmiyyətin mədəni həyatında iştirak etmək, incəsənətdən həzz almaq, elmi tərəqqidə iştirak etmək və onun nemətlərindən istifadə etmək

hüququna malikdir. Hər bir insan, müəllifi olduğu elmi, ədəbi və bədii əsərlərin nəticəsi olan mənəvi və maddi mənafelərinin müdafiə olunması hüququna malikdir.

Hər bir insan, bu Bəyannamədə ifadə edilən hüquq və azadlıqların tam səkildə həyata keçirilməsinə sərait yaradan sosial və beynəlxalq idarə üsulu hüququna malikdir. Həmçinin hər bir insan, qida, geyim, mənzil, tibbi xidmət və zəruri sosial xidmətlər də daxil olmaqla özünün və ailəsinin sağlamlığının və rifahının qorunub saxlanılması üçün zəruri olan həyat səviyyəsinə malik olmaq hüququna və işsizlik, xəstəlik, əlillik, dulluq, qocalıq halında və ondan asılı olmayan digər səbəblərə görə dolanışıq vəsaitlərini itirdiyi halda, təminat hüququna malikdir.

Digər beynəlxalq sənəd Avropa Sosial Xartiyasıdır və bu, insan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında 1950-ci il Avropa Konvensiyasında əks olunmuş vətəndaş və siyasi hüquqların təbii davamı olaraq, qarşılığı olan sosial və iqtisadi hüquqların qorunmasını təmin edən, Avropa Şurası çərçivəsində qəbul edilmiş hüquqi məcburi xarakter daşıyan regional beynəlxalq müqavilədir. Avropa Sosial Xartiyasının nəzarət sistemindəki əsas orqan olan Avropa Sosial Hüquqlar Komitəsi müəyyən etmişdir ki, “İnsan hüquqlarının müdafiəsi aləti kimi Xartiyanın məqsədi və məramı subyektiv hüquqları təkcə nəzəri olaraq deyil, həm də faktiki müdafiə etməkdir”. 1961-ci il Xartiyasının ayrılmaz tərkib hissəsi hesab edilən 1988-ci il Əlavə Protokolu, habelə Dəyişdirilmiş Sosial Xartiyaya Əlavənin 1-ci maddəsi aydın şəkildə müəyyən edir ki, Xartiyanın müddəaları iştirakçı dövlətin öz vətəndaşlarına, habelə onun ərazisində qanuni əsaslarla yaşayan və daimi olaraq işləyən, Xartiyanın digər İştirakçı Tərəflərin vətəndaşlarına şamil edilir.

Xartiyaya əsasən, bütün əməkçilərin və onların himayəsində olanların sosial təminat hüquqları vardır. Kifayət qədər maddi vəsaitləri olmayan hər bir kəsin sosial və tibbi yardım almaq hüququ var. Miqrant əməkçilərin və onların ailələrinin müdafiə və yardım hüququ var. Bundan əlavə, hər bir kəsin sosial təminat xidmətlərindən istifadə etmək, əlilliyi olan şəxslərin müstəqillik, sosial inteqrasiya və ictimai həyatda iştirak

etmək, cəmiyyətin əsas özəyi olan ailənin, onun hərtərəfli inkişafının təmin edilməsi üçün münasib sosial, hüquqi və iqtisadi müdafiə hüququ var. Xartiyanı təsdiq etmiş ölkələr öz üzərinə müəyyən öhdəliklər götürmüşdür ki, bunların sırasında:

- qadınlara ödənişli məzuniyyət və ya sosial təminat üzrə münasib müavinətlərin və ya ictimai fondlardan müavinətlərin ödənilməsi yolu ilə ümumi müddəti on dörd həftədən az olmayan doğuşdan əvvəl və sonra məzuniyyət təqdim etmək;
- işəgötürənin hər hansı qadına həmin qadının işəgötürənə öz hamiləliyi barədə məlumat verdiyi andan başlayaraq, onun hamiləlik üzrə məzuniyyətinin başa çatmasına qədər müddət ərzində işdən azad etmə haqqında bildiriş verməsini və ya işdən azad etmə vaxtının həmin müddətə təsadüf edəcəyini, azad etmə haqqında bildiriş verməsini qanunsuz hesab etmək;
- südəmər uşaqlarına qulluq etməli olan anaların bunun üçün iş vaxtında kifayət qədər fasilələrə malik olmasını təmin etmək;
- hamilə qadınların, təzəlikcə doğuş keçirmiş qadınların və öz südəmər uşaqlarına qulluq etməli olan qadınların gecə vaxtında işini tənzimləmək;
- hamilə qadınların, təzəlikcə doğuş keçirmiş qadınların və öz südəmər uşaqlarına qulluq etməli olan qadınların əməyinin mədənçıxarma sahələrində, yeraltı işlərdə və təhlükəli, səhhət üçün zərərli və ya ağır olduqlarından onlara münasib olmayan bütün digər işlərdə istənilən istifadəsini qadağan etmək, həmçinin bu cür qadınların məşğulluqla bağlı hüquqlarının müdafiəsi üzrə müvafiq tədbirlər görmək.

Qadınların müdafiəsinə aid, xüsusilə də hamiləlik, doğuş və analığın qorunması ilə bağlı olan müddəalar bu maddənin mənasında ayrı-seçkilik kimi baxılmamalıdır.

Avropa Sosial Xartiyasının 40 illiyi münasibətilə 2001-ci ilin 18 oktyabrında keçirilən mərasimdə bu sənəd Azərbaycan hökuməti adından imzalanmışdır. 2004-cü ilin sentyabr ayında Azərbaycanın Dəyişdirilmiş Avropa Sosial Xartiyasına qoşulmasıyla bağlı ratifikasiya Fərmanı Avropa Şurasına təqdim edildikdən sonra həmin il noyabr ayının 1-dən sözügedən beynəlxalq sənəd Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir.

İnsan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi sahəsində müxtəlif mexanizmlər mövcuddur - müqavilə və qeyri-müqavilə mexanizmləri. Müqavilə mexanizmlərinə İnsan hüquqları komitəsi, İrqi ayrı-seçkiliyin ləğvi üzrə komitə, İşgəncə əleyhinə komitə, Uşaq hüquqları komitəsi, Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması üzrə Komitə, Aparteid cinayəti ilə mübarizə və onun cəzalandırılması haqqında 1973-cü il Beynəlxalq Konvensiyasının həyata keçirilməsinə nəzarət edən Üçlər qrupu, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Paktın yerinə yetirilməsinə nəzarət edən, amma əslində Paktın əsasında deyil, ECOSOC-un qətnaməsinə uyğun olaraq 1985-ci ildə təsis olunmuş İqtisadi, sosial və mədəni hüquqlar üzrə komitə, habelə BƏT və UNESCO çərçivəsində fəaliyyət göstərən insan hüquqlarının müdafiəsi də daxildir.

Sadalanan orqanlardan yalnız əvvəlki üçü həm fərdi, həm də dövlətlərarası şikayətlərə baxmaq səlahiyyətinə malikdir. Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması üzrə Komitəyə isə yalnız fərdi şikayətlərə baxmaq hüququ verilmişdir.

ECOSOC BMT Baş Assambleyasının rəhbərliyi altında fəaliyyət göstərir. BMT-nin iqtisadi və sosial siyasətini, habelə, xüsusi müvafiq qurumların (İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitə kimi) fəaliyyətini əlaqələndirir və 54 üzvdən ibarətdir. ECOSOC beynəlxalq sosial və iqtisadi problemlərin müzakirə edildiyi bir forumdur. ICESCR-in yerinə yetirilməsinə nəzarət edir. Dövlətlərin iştirakının təsdiq edilməsi ilə bağlı ümumi mülahizələrini verir. Bu qurumun şikayətləri qəbul etmək səlahiyyəti yoxdur, ancaq dövlətlərin məruzələrini oxuyur. İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitəni müşahidə edir. Bu Komitə ECOSOC tərəfindən yaradılıb və ildə iki dəfə Cenevrədə toplanır. Digər bütün müqavilə orqanları kimi, bu Komitə də "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" və "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktların tərəfdarı olan dövlətlərin götürdükləri öhdəliklərin yerinə yetirilməsi barədə hesabatlara baxır. İştirakçı dövlətlər ilk hesabatlarını Pakta qoşulandan iki il sonra, sonrakıları isə 5 ildən bir təqdim edirlər. İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə

Komitə hesabatlara baxdıqdan sonra yekun qeydlərini dərc edir.

İqtisadi, sosial və mədəni hüquqlar üzrə komitə İqtisadi, sosial və mədəni hüquqlar haqqında Paktın iştirakçı dövlətlərinin təqdimatı ilə ECOSOC tərəfindən seçilən 18 ekspertdən ibarətdir. Komitə dövlətlərdən Paktın həyata keçirilməsi barədə dövri məruzələr alır, habelə Paktın ayrı-ayrı müddəaları ilə bağlı mühüm əhəmiyyət kəsb edən Ümumi Şərhlər verir.

### 3. İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktda təsbit olunan qadın hüquqlarının təhlili

Beləliklə, BMT-nin İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Paktı Baş Məclisin 16 dekabr 1966-cı il tarixli qətnaməsi ilə qəbul edilmişdir.

Qeyd olunan Paktın qəbul olunması ilə bu hüquqların beynəlxalq-hüquqi tənzimlənməsində keyfiyyətcə yeni mərhələ başlayır.

İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt Preambuladan, 5 hissədən və 31 maddədən ibarətdir. Paktın Preambulasında ümumi razılıqla ifadə olunan belə bir müddəa qəbul olunmuşdur: qorxu və ehtiyacdan azad olan insan şəxsiyyəti idealı yalnız hər kəsin özünün iqtisadi, sosial və mədəni hüquqlarından, eləcə də özünün vətəndaş və siyasi hüquqlarından istifadə edə bilməsi üçün şərait yaradıldığı təqdirdə həyata keçirilə bilər.

Paktda insan hüquqları hər kəsin əmək hüququnun bəyan edilməsindən başlayır. Belə ki, 6-cı maddədə göstərilir ki, həmin Paktda iştirak edən dövlətlər hər bir şəxsin əmək hüququnu tanıyır və bu hüququn təmin olunmasına dair lazımi addımlar atacaqlar. Burada əmək hüququ anlayışına hər bir insanın özünün azad seçdiyi, yaxud könüllü razılaşdığı işlə həyatını təmin etmək imkanlarını əldə etmək hüququ daxil edilir. 7-ci maddədə iştirakçı dövlətlər hər bir şəxsin ədalətli və münasib iş şəraiti hüququnu tanıyır. Paktın 9-cu maddəsində hər kəsin sosial sığorta daxil olmaqla sosial təminat hüququ, 11-ci maddəsində hər kəsin özü və ailəsi üçün münasib həyat səviyyəsi hüququ, 13-cü maddəsində təhsil hüququ və başqa hüquqların iştirakçı dövlətlər tərəfindən tanınması bəyan edilir.

15-ci maddəyə görə, iştirakçı dövlətlər hər kəsin mədəni həyatda iştirak etmək, elmi tərəqqinin və onun praktiki tətbiqi nəticələrindən istifadə etmək və başqa hüquqlarını tanıyır, elmi tədqiqatlar və ya yaradıcılıq fəaliyyəti üçün zəruri olan azadlığa hörmət etməyi öhdələrinə götürürlər. 12-ci maddədə Dünya birliyinin insan sivilizasiyasının gələcəyinə qayğısının təzahürü kimi, hər bir insanın yüksək fiziki və psixi sağlamlığa olan hüququnun tanınması ilə bağlıdır.

Bu hüququn tam həyata keçirilməsi üçün Pakt dövlətlərə uşaq ölümünün azaldılması və uşaqların sağlam inkişafının təmin edilməsi, ətraf mühitin və əmək gigiyenasının sağlamlaşdırılması, bütün ehtiyacı olanlara tibbi yardımın təşkilinə dair tədbirlərin görülməsini tövsiyə edir.

İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktda göstərilir ki, hər kəs iqtisadi, sosial və mədəni hüquqlarından öz vətəndaş və siyasi hüquqları kimi istifadə edə bilər. Bu mənada BMT-nin Baş Assambleyası 1986-cı il 4 dekabr tarixli qətnaməsində iqtisadi, sosial, mədəni, vətəndaş və siyasi hüquqların qarşılıqlı asılılığı və bölünməzliyini bəyan etmişdir.

Sosial-iqtisadi hüququn əhəmiyyəti ondadır ki, şəxsiyyətin hüquqi statusunu təmin edir. Bir sıra elmi ədəbiyyatlarda və keçirilən tədbirlərdə iqtisadi, sosial və mədəni hüquqlarla bağlı müəyyən fikirlər söylənilməkdədir. Bu, xüsusilə İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın təhlili ilə bağlı məsələlərdə özünü daha aydın şəkildə büruzə verir. Ədəbiyyatda qeyd edilir ki, Pakt yalnız dövlətlərin cəhd etməli olduqları məqsədə çatmağa dair standartları müəyyən edir.

D.Trubek isə iqtisadi-sosial hüquqların həyata keçirilməsinin fəaliyyət proqramlarının uzun müddət ərzində qəbul edilməsi yolu ilə reallaşmasını məqsədəmüvafiq sayır. Hollandiyanın Limburq Universitetində 1986-cı ildə keçirilən toplantıda müxtəlif dövlətləri təmsil edən aparıcı ekspertlər müvafiq Paktın iştirakçı-dövlətlərinin öz üzərlərinə götürdükləri hüquqi öhdəliklərin təbiəti və dərəcəsi barədə bir sıra müddəaları müzakirə edərək, aşağıdakı əsas nəticələrə gəlmişlər: iqtisadi və sosial hüquqlar da daxil olmaqla, bütün insan hüquq və azadlıqları bölünməz, qarşılıqlı əlaqədədir, o cümlədən beynəlxalq hüququn ayrılmaz tərkib hissəsidir; Pakt iştirakçı-döv-

lətlərin üzərinə beynəlxalq müqavilədə təsbit edilmiş hüquqların həyata keçirilməsi üçün qanunvericilik və inzibati tədbirlər də daxil olmaqla, bütün zəruri tədbirləri təxirəsalınmadan həyata keçirmək öhdəliyi qoyur; iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq, Paktın iştirakçı-dövlətləri ən azı minimal səviyyədə iqtisadi, sosial və mədəni hüquqları təmin etmək öhdəliyinə malikdirlər.

Qeyd etmək lazımdır ki, BMT Baş Məclisi öz qətnamələrində (16 dekabr 1977-ci il 32/130 saylı Qətnamə və 4 dekabr 1986-cı il 41/117 saylı Qətnamə) dəfələrlə beynəlxalq ictimaiyyət tərəfindən insan hüquq və əsas azadlıqlarının bölünməzliyi və qarşılıqlı asılılığı, bir sıra kateqoriya hüquqların müdafiəsi və təşviqinin dövlətləri digər hüquqların müdafiəsi və həvəsləndirilməsi öhdəliyindən azad etməməsi barədə fikrini təsdiq etmişdir. BMT Baş Məclisinin 9 dekabr 1970-ci il tarixli 2675 saylı Qətnaməsinə müvafiq olaraq, əsas insan hüquq və azadlıqlarına hətta hərbi münaqişələr zamanı da riayət olunmalı və təmin edilməlidir.

Qeyd etmək lazımdır ki, İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt həcmcə kiçik olan beynəlxalq sənəddir, buna baxmayaraq, kifayət qədər prinsipial müddəalardan təşkil olunmuşdur.

Pakta əsasən, bütün xalqlar öz müqəddəratını təyin etmək hüququna malikdirlər. Bu hüquq əsasında onlar azad şəkildə öz siyasi statuslarını müəyyənləşdirir və sosial-iqtisadi və mədəni inkişaflarını təmin edir, öz məqsədlərinə çatmaq üçün mənfəət prinsiplərinə əsaslanan beynəlxalq iqtisadi əməkdaşlıqdan və beynəlxalq hüquqdan irəli gələn hər hansı öhdəliklərə zərər vurmadan öz təbii sərvət və ehtiyatlarından azad şəkildə istifadə etmək hüququna malikdirlər.

Bu Pakta əsasən, təmin etməyi öhdələrinə götürdükləri hüquqlardan istifadəni dövlətlər yalnız bu hüquqların təbiətinə uyğun olduğu qədər və yalnız demokratik cəmiyyətin ümumi rifahının yaxşılaşdırılması məqsədilə, qanunla müəyyənləşdirilən dərəcədə məhdudlaşdıra bilərlər (maddə 4, II hissə).

Hər bir dövlət fərdi şəkildə və xüsusilə də iqtisadi və texniki sahələri əhatə edən beynəlxalq yardım və əməkdaşlıq qaydasında bu Paktda nəzərdə tutulan hüquqların tam şəkildə

həyata keçirilməsini bütün vasitələr, o cümlədən qanunverici tədbirlərin görülməsi yolu ilə mümkün ehtiyatları maksimum səviyyəsində təmin etmək üçün addımlar atmalıdır.

Paktda qeyd edilir ki, cəmiyyətin başlıca özəyi olan ailəyə imkan dairəsində, xüsusilə də onun yaranma dövründə və öhdəsinə kiçik yaşlı uşaqların böyüməsi və tərbiyə olunması məsuliyyəti düşdüyü zaman hərtərəfli mühafizə və kömək təmin olunmalıdır. Nikah, ona daxil olanların azad razılığı ilə bağlanmalıdır. Analar doğumdan əvvəl və sonra, müəyyən müddət ərzində xüsusi himayə ilə təmin olunmalıdır. Bu müddət ərzində işləyən analar haqqı ödənilən məzuniyyət və ya sosial təminat üçün qaneedici müavinətla təmin olunmalıdır. Həmçinin bütün uşaqlara və yeniyetmələrə münasibətdə, ailə mənşəyinə və digər əlamətlərə görə heç bir ayrı-seçkiliyə yol verilmədən xüsusi himayə və kömək tədbirləri görülməlidir. Uşaqlar və yeniyetmələr iqtisadi və sosial istismardan müdafiə olunmalıdırlar. Onların əməyinin mənəviyyatları və səhhətləri üçün zərərli, həyatları üçün təhlükəli olan və ya normal inkişaflarına ziyan vura biləcək sahələrdə istifadəsi qanunla cəzalandırılmalıdır. Bundan başqa, dövlətlər muzdlu uşaq əməyindən istifadə üçün yaş hədlərini müəyyənləşdirməlidirlər, həmin hədlərdən aşağı yaşlarda bu cür əməkdən istifadə qadağan edilməli və cəzalandırılmalıdır.

Qeyd edilməlidir ki, bu sənədin 2-ci maddəsinin 2-ci hissəsində ayrı-seçkiliyin aradan qaldırılmasına dair göstərişlər mövcuddur. Belə ki, sənədi imzalamış dövlətlər bu Paktda bəyan edilmiş hüquqların irqi, dərinin rəngi, dil, din, siyasi və digər əqidə, milli və sosial mənşə, əmlak vəziyyəti, doğum və s. fərqlər əsasında ayrı-seçkiliyə yol vermədən həyata keçirilməsini öhdələrinə götürürlər.

Dövlətlər elmi və texniki biliklərdən geniş istifadə edərək, ərzaq məhsullarının istehsalının, saxlanmasının və paylanmasının üsullarını yaxşılaşdırmaq, qidalanmanın prinsipləri haqqında bilikləri yaymaq və aqrar sistemləri təbii ehtiyatların daha səmərəli istifadəsinə nail olmaq üçün təkmilləşdirmək və istehsal etmək və həm ixracatçı, həm də idxalatçı ölkələrin tələbatlarını və problemlərini nəzərə alaraq, dünya ərzaq ehtiyatlarının ədalətli paylanmasını təmin etmək üçün fərdi şəkildə və

beynəlxalq əməkdaşlıq yolu ilə konkret proqramların qəbulunu əhatə edən addımlar atmalıdırlar.

Paktda müəyyən istisnalar da nəzərdə tutulmuşdur və misal olaraq, inkişaf etməkdə olan ölkələr insan hüquqlarını və milli iqtisadiyyatlarının imkanlarını qiymətləndirərək, öz ölkələrinin vətəndaşları olmayan şəxslərə bu Paktda nəzərdə tutulan iqtisadi hüquqları hansı dərəcədə təmin edəcəklərini müəyyənləşdirə bilərlər.

Bu Paktda iştirak edən dövlətlər kişi və qadınların Paktda nəzərdə tutulmuş bütün iqtisadi, sosial və mədəni hüquqlarından bərabər istifadə etmələrini təmin etməyi öhdələrinə götürürlər.

Qeyd olunan sənədə əsasən, qadınların aşağıdakı hüquqları tanınır:

- Azad seçdiyi və ya könüllü razılaşdığı işlə həyatını təmin etmək hüququnu əhatə edən əmək hüququnun tanınması və bu hüququn təmin olunması üçün müvafiq addımların atılması. Buraya həmçinin texniki-peşə təhsili və hazırlığı proqramları, insanların əsas siyasi və iqtisadi hüquqlarının təmin olunduğu şəraitdə durmadan iqtisadi, sosial və mədəni inkişafa, tam və məhsuldar məşğulluğa nail olmağın yolları və üsulları daxildir;
- Ədalətli əmək haqqı və eyni dəyərli iş üçün heç bir fərq qoyulmadan hamının bərabər mükafatlandırılması. Bu zaman qadınlara kişilər üçün olduğundan pis olmayan iş səraiti təmin edilməli və eyni əmək üçün bərabər haqq ödənilməlidir;
- Onların özləri və ailələri üçün bu Paktın qərarlarına müvafiq olaraq qənaətbəxş yaşayış;
- Təhlükəsizlik və gigiyena tələblərinə cavab verən iş şəraiti;
- İş stajı və ixtisas səviyyəsi əsasında daha yüksək vəzifələrə irəli çəkilmək üçün eyni şərait və imkan;
- İstirahət, asudə vaxt və iş gününün ağlabatan şəkildə məhdudlaşdırılması və ödənilən mütəmadi məzuniyyət, eləcə də bayram günlərinin haqqının ödənilməsi;
- Sosial sığorta da daxil olmaqla hər bir şəxsin sosial təminat hüququ;
- Özünün və ailəsinin kifayət qədər qidalanmasını, geyi-

mini, yaşayış yerini və həyat şəraitinin daimi yaxşılaşmasını əhatə edən münasib həyat səviyyəsi hüququ;

- Təhsil hüququ. Bu zaman:

- ibtidai təhsil hamı üçün icbari və pulsuz olmalıdır.
- orta təhsil və onun müxtəlif formaları, orta texniki-peşə təhsili də daxil olmaqla, bütün tədbirləri görmək, xüsusilə və tədricən pulsuz təhsilə keçmək yolu ilə açıq və hamıya müyəssər olmalıdır.
- ali təhsil bütün lazımi tədbirlərin, xüsusilə də tədricən pulsuz tədrisin tətbiq edilməsi yolu ilə hər kəsə qabiliyyətinə görə eyni dərəcədə müyəssər olmalıdır.
- ibtidai təhsil alma, ibtidai təhsil almamış və ya onu tam bitirməmiş şəxslər üçün imkan dairəsində həvəsləndirilməli və intensivləşdirilməlidir.
- məktəblər şəbəkəsinin fəal inkişafı həyata keçirilməli, qənaətbəxş təqaüd sistemi təyin olunmalı və müəllim heyətinin maddi vəziyyəti daim yaxşılaşdırılmalıdır.

- Mədəni həyatda iştirak etmək hüququ;
- Elmi tərəqqinin nəticələrindən və onların praktiki tətbiqindən istifadə etmək hüququ;
- Müəllifi olduğu hər hansı elmi, ədəbi, yaxud incəsənət əsərlərinin nəticəsində meydana çıxan maddi və mənəvi maraqların müdafiəsindən istifadə etmək hüququ;
- Elmi tədqiqatlar və yaradıcılıq fəaliyyəti üçün qeyri-şərtsiz lazım olan azadlıq hüququ.

Əvvəldə qeyd olunanlardan əlavə, bu Paktı imzalayan ölkələr aşağıdakı öhdəlikləri də öz üzərinə götürmüşlər:

- Hər bir şəxsin öz iqtisadi və sosial maraqlarını həyata keçirmək və müdafiə etmək üçün həmkarlar ittifaqları yaratmaq və müvafiq təşkilatın qaydalarını gözləmək şərti ilə, onlara daxil olmaq hüququna, həmin hüquqdan istifadə olunmasına qanunda nəzərdə tutulandan və demokratik cəmiyyətdə dövlət təhlükəsizliyinin, yaxud ictimai asayişin və yaxud başqalarının hüquq və azadlıqlarının qorunması üçün zəruri olanlardan əlavə heç bir məhdudiyyət qoymamaq;
- Həmkarlar ittifaqlarının milli federasiyalar və konfederasiyalar yaratmaq və bunların beynəlxalq həmkarlar ittifaqları təşkilatları yaratmaq, yaxud onlara qoşulmaq hüququ;

- Həmkarlar ittifaqlarının qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə dövlət təhlükəsizliyi və ictimai asayişin qorunması məqsədilə olan məhdudiyyətlərdən başqa heç bir məhdudiyyət olmadan fəaliyyət göstərmək hüququ;
- Hər bir ölkənin qanunlarına uyğun şəkildə keçirilməklə tətil hüququ;
- Ətraf mühitin gigiyenasının və sənayedə əmək gigiyenasının bütün aspektlərinin yaxşılaşdırılması;
- Epidemik, endemik, peşə xəstəlikləri və digər xəstəliklərin qarşısının alınması və onların müalicəsi;
- Valideynlərin və müvafiq hallarda qəyyumların öz uşaqları üçün təkcə dövlət tərəfindən təsis olunmuş məktəbləri deyil, həmçinin dövlətin təhsil üçün təyin etdiyi minimum tələblərə cavab verən digər məktəbləri də seçmək və öz etiqadlarına əsasən uşaqlarının dini və mənəvi tərbiyəsini təmin etmək hüququna hörmət etmək;
- Xəstəlik təqdirində hamı üçün tibbi yardımın və tibbi xidmətin təmin olunması üçün şəraitin yaradılması;
- Elmi və mədəni sahələrdə beynəlxalq əlaqə və əməkdaşlığın həvəsləndirilməsi məqsədilə atılan addımlar daxildir.

İstisna hal kimi, silahlı qüvvələrdə, polisdə və dövlət idarəetmə orqanlarında xidmət edən şəxslərin bu hüquqlardan istifadə etmələrinə qanuni məhdudiyyətlərin qoyulmasına maneə törətmir.

Bu Paktda iştirak edən dövlətlər, onun bu hissəsinə əsasən görülən tədbirlər və Paktda nəzərdə tutulan hüquqların həyata keçirilməsindəki tərəqqi haqqında hesabatlar verməyi öhdələrinə götürürlər.

### 4. Azərbaycan Respublikasında iqtisadi, sosial və mədəni hüquqların təmin edilməsi

İqtisadi, sosial və mədəni hüquqlara həm beynəlxalq qurumlar, həm də dövlət tərəfindən verilən qiymət xüsusi önəm daşıyır. Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının, xüsusilə də iqtisadi, sosial və mədəni hüquqların təmin edilməsi sahəsində mühüm fəaliyyət aşağıdakı üç əsas istiqamətdə həyata keçirilir: bu sahədə beynəlxalq müqavilələrə qoşulmaq; müvafiq sferada dövlətdaxili normativ-hüquqi aktlar

qəbul etmək; qəbul edilmiş normativ-hüquqi aktları beynəlxalq hüquq normalarının tələblərinə uyğun təkmilləşdirmək.

Hər bir xalqın müstəqil dövlət quruculuğu yolu bir sıra mühüm daxili və xarici amillərlə şərtlənir. Azərbaycan xalqı əlverişli tarixi şəraitdən və özünün siyasi, iqtisadi, mədəni və intellektual potensialından istifadə edərək, XX əsrin sonunda öz istiqlal arzusunu gerçəkləşdirmişdir.

1970-ci ilə qədər iqtisadi, sosial və mədəni inkişafın əksər göstəricilərinə görə, Azərbaycan keçmiş SSRİ-nin müttəfiq respublikaları arasında axırıncı yerlərdən birini tuturdu. 1960-1970-ci illərdə SSRİ-də milli gəlir istehsalı 99 faiz artdığı halda, respublikada 66 faiz artmışdı. Milli gəlirin adambaşına düşən həcmi də başqa respublikalarla müqayisədə ilbəil azalırdı. Mərkəzin Azərbaycanın problemlərinə diqqət və qayğı göstərməməsi, respublikada idarəetmə sahəsində ciddi nöqsanların olması nəticəsində ictimai, iqtisadi, mənəvi həyatda böhran yaşanırdı. 1969-cu ildə Heydər Əliyevin hakimiyyətə ilk gəlişindən sonra həyata keçirdiyi kompleks tədbirlər nəticəsində ölkənin sənaye, kənd təsərrüfatı, istehsal infrastrukturunun yüksək inkişafı baş verdi. Sənayenin emal və istehsal sahələrinin şəbəkəsi genişləndi. 1969-1982-ci illərdə respublikada 250-dən çox zavod, fabrik və digər istehsal müəssisələri istifadəyə verilmişdir. 20 milyon kvadratmetr mənzil sahəsi, yüzlərlə məktəb, klub, xəstəxana, istirahət evləri tikilmişdir. Bakının ətrafında yeni mikrorayonlar, Badamdar, Əhmədli, Günəşli, Hövsan və sair kimi yeni yaşayış massivləri salınmışdır. 1983-cü ildə Bakı-Qroznı neft kəmərinin, 1985-ci ildə Dərin Dəniz Özülləri Zavodunun, Bakıda "Ulduz" Elektrik Cihazqayırma, Sumqayıtda Məişət Kompressorları zavodlarının, 1981-1984-cü illərdə Şəmkir Su Elektrik Stansiyasının və digər sənaye obyektlərinin tikilib istifadəyə verilməsi sürətlə inkişaf edən Azərbaycanda əhalinin rifahının yaxşılaşmasına ciddi təsir göstərmişdir.

Sənayedə əmək məhsuldarlığı 2,1 dəfə artmış, 581 adda yeni tipli maşın, avadanlıq və cihaz nümunələri yaradılmışdır. 1056 adda mühüm sənaye məhsulunun kütləvi istehsalına başlanılmış, 310 avtomatlaşdırılmış xətt, 1300 kompleks mexanikləşdirilmiş xətt və avtomatlaşdırılmış məntəqə, istehsal sahəsi

istismara verilmişdir. Beləliklə, Azərbaycan aqrar ölkədən aqrar-sənaye ölkəsinə çevrilmişdir.

XX əsrin 70-80-ci illəri xalqımızın tarixində yalnız iqtisadiyyatın bütün sahələrinin inkişafı dövrü kimi deyil, həm də elmin, təhsilin, mədəniyyətin misilsiz tərəqqisi illəri kimi ayrıca mərhələ təşkil edir. Həmin dövrdə gələcək müstəqilliyimizin təməli qoyulmuş, iqtisadi, sosial və mədəni potensial formalaşdırılmışdır. Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanın iqtisadi-mədəni inkişafı, sənayenin, kənd təsərrüfatının, mədəniyyət, elm, təhsil və digər prioritet sahələrin idarə edilməsi üçün bacarıqlı və yüksək ixtisaslı kadrların hazırlanmasının vacibliyini mühüm vəzifə kimi qarşıya qoyaraq, təhsilin inkişafına xüsusi qayğı göstərmişdir. 1969-1978-ci illərdə orta ümumtəhsil məktəblərinin sayı 77 faiz artmışdır. 1979-cu ildə SSRİ-nin 43 şəhərinin 152 ali məktəbində 3315 nəfər azərbaycanlı təhsil alırdı. Hərbi kadrların hazırlanmasına da xüsusi diqqət yetirilmişdir. Azərbaycanda iki ali hərbi məktəb – Ali Ümumqoşun Komandirləri Məktəbi və Ali Hərbi Dənizçilik Məktəbi var idi. Lakin bu məktəblərdə yalnız bir neçə nəfər azərbaycanlı təhsil alırdı. 1971-ci ildə C.Naxçıvanski adına Hərbi Məktəb yaradılmışdır. 1976-1977-ci illərdə 800 nəfərdən çox gənc SSRİ-nin ali hərbi məktəblərinə göndərilmişdir. 1982-ci ildə artıq hərbi məktəblərə göndərilənlərin sayı 1000 nəfərdən çox idi.

Vətəndaş cəmiyyəti quruculuğu, demokratik proseslərin möhkəmləndirilməsi, hüquqi dövlətin formalaşdırılması Azərbaycanın hərtərəfli inkişafının başlıca şərtidir. Demokratik dövlətin bir təsisat kimi başlıca vəzifəsi bütövlükdə cəmiyyətin və ayrılıqda hər bir vətəndaşın maddi rifah halının yüksəldilməsi, onların sosial müdafiəsi və layiqli həyat səviyyəsinin təmin olunması, habelə şəxsiyyətin azad inkişafı üçün bərabər imkanların yaradılmasıdır.

Respublikamızda formalaşmaqda olan yeni makroiqtisadi mühit ümumi daxili məhsulun artımı, iqtisadiyyatda sahibkarlar sinfinin mövqelərinin əsaslı şəkildə güclənməsi, beynəlxalq iqtisadi münasibətlər sisteminə uğurlu transformasiya, qlobal enerji, kommunikasiya, innovasiya layihələrinin həyata keçirilməsi nəticə etibarilə demokratikləşmə və vətəndaş cəmiyyəti

təsisatlarının sürətli inkişafına, tətbiq olunan mütərəqqi yeniliklərin ictimai şüurda mənimsənilməsinə imkan yaratmışdır. Müasir mərhələdə demokratik inkişafı şərtləndirən başlıca amillərdən biri də insanların iqtisadi azadlıqlarının, səmərəli təşəbbüskarlıqlarının artması, mülkiyyət münasibətlərinin yeni forma və məzmun kəsb etməsidir. İqtisadi azadlıqlarını təmin edən vətəndaşın siyasi cəhətdən yetkinləşməsi, tədricən cəmiyyətin demokratikləşməsi xəttinin fəal iştirakçısına çevrilməsi də qaçılmaz proseslərdəndir.

Heydər Əliyevin həyata keçirdiyi sosial siyasətin iki əsas xarakterik cəhətini xüsusilə qeyd etmək yerinə düşərdi. Bunlardan biri sosial siyasətin dayanıqlı olması, ölkənin iqtisadi bazisinə əsaslanması, ikincisi isə onun mükəmməl və dünya təcrübəsində uğurla sınaqdan çıxmış normativ-hüquqi bazaya söykənməsidir.

Keçid cəmiyyətlərində demokratiyanın mərhələli səciyyə daşıması da iqtisadi inkişaf və demokratikləşmə xəttinin biri-birini tamamlaması ilə şərtlənir. Daha dəqiqi, iqtisadi problemlər şəraitində sıxılan kasıb dövlətlərdə demokratik dəyərlərin sürətli inkişafından danışmaq mümkün deyildir. Dövlət nə qədər varlı olsa, onun sabit demokratiyaya nail olmaq şansları da bir o qədər yüksəkdir.

Sosial siyasətin inkişaf tarixinə nəzər yetirsək, görərik ki, ölkədə sosial sahədə əhəmiyyətli addımlar atılmışdır. Ayrı-ayrı kateqoriyalı şəxslərin sosial müdafiəsi üzrə müxtəlif qanunlar – "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Veteranlar haqqında" və digər qanunlar qəbul edildi, şəhid ailələrinin, qaçqınların, məcburi köçkünlərin, müharibə və 20 Yanvar əlillərinin, veteranların sosial təminatının yaxşılaşdırılması istiqamətində çoxsaylı Fərman və Sərəncamlar imzalandı.

Azərbaycan Respublikasının qoşulduğu İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt üzrə götürdüyü öhdəliklərin yerinə yetirilməsinə dair ölkə Prezidentinin Sərəncamları əsasında aidiyyəti nazirlik və komitələrin rəhbər işçilərindən ibarət xüsusi işçi qrupu tərəfindən tərtib edilmiş dövri

məruzələri hazırlanaraq Birləşmiş Millətlər Təşkilatının İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitəsinə göndərilir.

Azərbaycan Respublikası Konstitusiyasında da sosial, iqtisadi və mədəni hüquqlar öz əksini tapmışdır. Buraya layiqli həyat, əmək hüququ, ədalətli əmək şəraiti və əmək haqqı, sosial-müdafiə və sosial- mənzil hüququ, sosial təminat, mədəniyyət, yaradıcılıq, təhsil və sağlamlıq hüquqları daxildir. Ölkəmizin Əsas Qanununda vətəndaşların əmək hüququ (35-ci maddə), istirahət hüququ (37-ci maddə), sosial təminat (38-ci maddə), mədəniyyət hüququ (40-cı maddə), sağlamlığın qorunması hüququ (41-ci maddə), təhsil hüququ (42-ci maddə), yaradıcılıq azadlığı (51-ci maddə), azad sahibkarlıq (59-cu maddə) təsbit olunmuşdur. İqtisadi hüquqda əsas yeri əmək hüququ tutur. Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsində əmək hüququ belə təsbit olunur:

Əmək fərdi və ictimai rifahın əsasıdır.

- Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır.
- Heç kəs zorla işlədilə bilməz.
- Əmək müqavilələri sərbəst bağlanılır. Heç kəs əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz.
- Məhkəmə qərarı əsasında şərtləri və müddətləri qanunla nəzərdə tutulan məcburi əməyə cəlb etmək, hərbi xidmət zamanı səlahiyyətli şəxslərin əmrlərinin yerinə yetirilməsilə əlaqədar işlətmək, fövqəladə vəziyyət zamanı və hərbi vəziyyət zamanı vətəndaşlara tələb olunan işləri gördürmək hallarına yol verilir.
- Hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əmək haqqı miqdarından az olmayan haqq almaq hüququ vardır.
- İşsizlərin dövlətdən sosial müavinət almaq hüququ vardır.

Dövlət işsizliyin aradan qaldırılması üçün bütün imkanlardan istifadə edir.

Hər bir Azərbaycan vətəndaşı azad və müstəqil əmək seçmək hüququna malikdir, ölkəmizdə məcburi əmək qadağan

edilmişdir.

Azərbaycanda hər kəs azad sahibkarlıq hüququna malikdir. Azad sahibkarlıq hüququ Azərbaycan Respublikası Konstitusiyasının 59-cu maddəsində təsbit edilmişdir: “Hər kəs öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək, təkbaşına və ya başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər”.

Azərbaycan Respublikası Konstitusiyasında tətil hüquqları da öz əksini tapıb: “Hər kəsin təkbaşına və ya başqaları ilə birlikdə tətil etmək hüququ vardır. Əmək müqaviləsi əsasında işləyənlərin tətil etmək hüququ yalnız qanunla nəzərdə tutulmuş hallarda məhdudlaşdırıla bilər. Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmət edən hərbi qulluqçular və mülki şəxslər tətil edə bilməzlər.”

Fərdi və kollektiv əmək mübahisələri qanunla müəyyənləşdirilmiş qaydada həll edilir: “Hər kəsin istirahət hüququ vardır. Əmək müqaviləsi ilə işləyənlərə qanunla müəyyən edilmiş, lakin gündə 8 saatdan artıq olmayan iş günü, istirahət və bayram günləri, ildə azı bir dəfə 21 təqvim günündən az olmayan ödənişli məzuniyyət verilməsi təmin edilir.”

Azərbaycan vətəndaşları azad iqtisadi fəaliyyət göstərmək hüququna da malikdirlər. Sosial hüquqlar insanın layiqli həyat şəraitini və sosial müdafiəsini təmin edir. Buraya sosial təminat, sosial sığorta, pensiya təminatı və tibbi xidmət daxildir. Yaşa, xəstəliyə, əlilliyə, uşaqları tərbiyə etməyə görə qanunla müəyyən edilmiş sosial təminat hüququnun mahiyyəti ondan ibarətdir ki, dövlət vətəndaşlara işləmək imkanlarını və ya əməkdən gəlir əldə etmək kimi iş qabiliyyətini itirdikdə kifayət qədər vəsait ayırır. Bu hüquqlar Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin maddələrində, eləcə də, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Paktın 9-12-ci maddələrində öz əksini tapıb. Azərbaycan Respublikası Konstitusiyasının 38-ci maddəsində göstərilir:

- Hər kəsin sosial təminat hüququ vardır.
- Yardıma möhtac olanlara kömək etmək, ilk növbədə, onların ailə üzvlərinin borcudur.
- Hər kəs qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda,

xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat hüququna malikdir.

- Təqaüdlərin və sosial müavinətlərin minimum məbləği qanunla müəyyən edilir.
- Dövlət xeyriyyəçilik fəaliyyətinin, könüllü sosial sığortanın və sosial təminatın başqa növlərinin inkişafı üçün imkanlar yaradır.

Sağlamlığın qorunması hüququ Azərbaycan Respublikası Konstitusiyasının 41-ci maddəsində öz əksini tapıb:

- Hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ vardır.
- Dövlət müxtəlif mülkiyyət növləri əsasında fəaliyyət göstərən səhiyyənin bütün növlərinin inkişafı üçün zəruri tədbirlər görür, sanitariya-epidemiologiya salamatlığına təminat verir, tibbi sığortanın müxtəlif növləri üçün imkanlar yaradır.
- İnsanların həyatı və sağlamlığı üçün təhlükə törədən faktları və halları gizlədən vəzifəli şəxslər qanun əsasında məsuliyyətə cəlb edilirlər.

Azərbaycan Respublikası vətəndaşlarının sağlamlığının qorunması hüququnun əsas prinsipləri qanunvericiliklə müəyyən edilib:

1. Sağlamlığın qorunması sahəsində insan və vətəndaşların hüquqlarına riayət olunması;
2. Profilaktik tədbirlərin keçirilməsi;
3. Sağlamlığını itirən vətəndaşların sosial müdafiəsi;
4. Tibbi-sosial yardımın hamı üçün mümkünlüyü;
5. Mülkiyyət formasından asılı olmayaraq, idarə, müəssisə, təşkilat, dövlət orqanları və vəzifəli şəxslərin vətəndaşların sağlamlığının qorunması sahəsində məsuliyyət daşıması.

Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsində təhsil hüququ ilə bağlı aşağıdakılar göstərilir:

- Hər bir vətəndaşın təhsil almaq hüququ vardır;
- Dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir;
- Təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir;
- Maddi vəziyyətindən asılı olmayaraq, istedadlı şəxslərin təhsili davam etdirməsinə dövlət zəmanət verir;

- Dövlət minimum təhsil standartlarını müəyyən edir;
- Şəxsiyyətin hüquqi statusunun əsas cəhətlərindən biri də azad elmi, bədii, ədəbi və s. yaradıcılıq növlərilə bağlı mədəni həyatda hər kəsin sərbəst iştirak etmək hüququdur;
- Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır.

İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktda mədəni hüquqlara da geniş yer verilmişdir. Azərbaycan Respublikası Konstitusiyasının 40-cı maddəsinin I-ci hissəsinə uyğun olaraq, hər kəsin mədəni həyatda iştirak etmək, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək hüququ vardır.

Mədəni sərvətlərdən istifadə hüququ yalnız Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hallarda və qaydada məhdudlaşdırıla bilər.

Ölkəmizin ərazisində əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər mədəniyyət hüququna malikdirlər. 6 fevral 1998-cı il "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda mədəniyyət və yaradıcılıq fəaliyyəti ilə məşğul olan subyektlərin hüquqlarının və azadlıqlarının müdafiəsi təmin edilmişdir.

Müvafiq dövlət orqanları mədəniyyət və yaradıcılıq fəaliyyəti ilə məşğul olan subyektlərin hüquqlarının və azadlıqlarının pozulmasına yönəldilmiş hərəkətlərin qarşısını almalıdırlar. Mədəni fəaliyyət növlərinə muzey, ədəbiyyat, tətbiqi və yaradıcı sənət, teatr, musiqi və s. aid edilir. Dövlət bütün vətəndaşların mədəni dəyərlərdən istifadəsi üçün bərabər imkanlar təmin etməlidir.

## 5. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin iqtisadi, sosial və mədəni hüquqlara dair bərabər imkanlarla bağlı bəzi qərarları

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IX hissəsinin tələbinə görə, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi öz səlahiyyətlərinə aid edilən məsələlərə dair qərarlar qəbul edir. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarı Azərbaycan Respublikası ərazi-

sində məcburi qüvvəyə malikdir.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi fəaliyyəti dövründə iqtisadi, sosial və mədəni hüquqlarla bağlı da bir sıra qərarlar qəbul etmişdir ki, həmin qərarlarda qadınların kişilərlə bərabər hüquqlara malik olması birbaşa və ya dolayısı ilə öz əksini tapmışdır. Misal olaraq, həmin qərarlardan aşağıdakıları göstərmək olar:

***1) Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 307.2.4-cü maddəsinin şərh edilməsinə dair 2 noyabr 2010-cu il tarixli Qərarı.***

Bakı şəhəri Yasamal rayon məhkəməsi icraatında olan iş üzrə mülki prosessual hüquq normasının tətbiqi ilə bağlı Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət edərək, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (Mülki Prosessual Məcəllə) 307.2.4-cü maddəsinin şərh edilməsini xahiş etmişdir.

Müraciətdə göstərilmişdir ki, Mülki Prosessual Məcəllənin 307.2.4-cü maddəsinə görə, məhkəmə ər-arvaddan birinin vəfat etməsi nəticəsində müvafiq icra hakimiyyəti orqanında nikah qeydə alına bilməzsə, qanunla müəyyən edilmiş hallarda faktiki nikah münasibətlərində olma faktının müəyyən edilməsi barədə işlərə baxır. Lakin Mülki Prosessual Məcəllənin 307.2.4-cü maddəsində nəzərdə tutulan "qanunla müəyyən edilmiş hallarda" müddəası təcrübədə qeyri-müəyyənlik yaradır.

Bununla əlaqədar Konstitusiya Məhkəməsinin Plenumu qərara almışdır ki:

1. Azərbaycan Respublikasının Milli Məclisinə Mülki Prosessual Məcəllənin 307.2.4-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 34-cü maddəsinin I və II hissələrinə və ailə qanunvericiliyinin tələblərinə uyğunlaşdırılması tövsiyə edilsin.

2. Azərbaycan Respublikasının Milli Məclisi Mülki Prosessual Məcəllənin 307.2.4-cü maddəsinə dair müvafiq qərar qəbul edənədək məhkəmələr nəzərə almalıdırlar ki, faktiki nikah münasibətlərindən irəli gələn hüquqi nəticələr qanunvericiliklə tanınmadığından, 1944-cü il 8 iyul tarixindən sonra başlanmış

faktiki nikah münasibətlərində olma faktı onlar tərəfindən müəyyən edilə bilməz.

***2) Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 8.1 və 8.3-cü maddələrinin Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair 01 dekabr 2010-cu il tarixli Qərarı***

Sorğuverən qismində çıxış edən Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) qənaətinə görə həmin maddələr bəzi kateqoriya qadınların sosial təminat hüququnun qanunla müəyyən edilmiş güzəştlərindən kənarda qalmasına, övladlığa beş və daha çox uşaq götürən və qəyyum kişilərə güzəştlərin nəzərdə tutulduğu halda, qadınlar barəsində bu güzəştlərin nəzərə alınmaması cinsi ayrı-seçkiliyə səbəb olur.

Konstitusiya Məhkəməsinin Plenumu sorğu ilə əlaqədar qeyd etmişdir ki, "Əmək pensiyaları haqqında" Qanunun 8.3-cü maddəsində beş və daha çox uşağı səkkiz yaşınadək böyüdən qəyyum kişilərə güzəştli şərtlərlə pensiya hüququnun nəzərdə tutulması, qadınlar barəsində isə belə güzəştlərin nəzərə alınmaması kişi və qadınlar arasında bərabərliyin təminatının pozulması kimi qiymətləndirilməlidir.

Azərbaycan Respublikası 1995-ci ildə tərəfdar çıxdığı BMT-nin 1979-cu il tarixli "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında" Konvensiya ilə öz üzərinə cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaqla, kişi və qadınlara ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanlar yaratmaqla gender bərabərliyinin təmin edilməsi öhdəliyini götürmüşdür. Həm Azərbaycan Respublikası Konstitusiyasında, həm də "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" 10 oktyabr 2006-cı il tarixli Azərbaycan Respublikasının Qanununda kişi və qadınların sosial təminat hüquqları arasında cinsi mənsubiyyətə görə ayrı-seçkilik birmənalı şəkildə qadağan edilmişdir.

Göstərilənlərə əsasən, Konstitusiya Məhkəməsinin Plenumu beş və daha çox uşağı övladlığa götürüb səkkiz yaşınadək

böyüdən anaların, beş və daha çox uşağı səkkiz yaşınadək tərbiyə etmiş ögey anaların yaşa görə pensiya hüququ "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 8.1-ci maddəsinə; beş və daha çox uşağı səkkiz yaşınadək böyüdən qəyyum qadınların yaşa görə pensiya hüququ 8.3-cü maddəsinə bu Qərarda əks olunan hüquqi mövqelər nəzərə alınmaqla uyğunlaşdırılmasının Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilməsini qərara almışdır.

***3) Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1193-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinin I və II hissələrinə, 29-cu maddəsinin I, II və III hissələrinə uyğunluğunun yoxlanılmasına dair" 20 oktyabr 2011-ci il tarixli Qərarı***

Azərbaycan Respublikası Mülki Məcəlləsinin (Mülki Məcəllə) 1193-cü maddəsində qeyd edilir ki, vəsiyyət edənin uşaqlarının, valideynlərinin və arvadının (ərinin) vəsiyyətnamənin məzmunundan asılı olmayaraq, mirasda məcburi payı vardır. Bu pay qanun üzrə vərəsəlik zamanı onlara çatası payın yarısını (məcburi pay) təşkil etməlidir. Həmin maddədə vəsiyyətnamənin məzmunundan asılı olmayaraq, mirasda məcburi pay almaq hüququ olan şəxslərin dairəsi müəyyən edilmişdir.

Sorğuverən qismində çıxış edən Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) fikrincə, mirasda məcburi pay almaq hüququ Konstitusiyanın 13, 29-cu maddələri ilə ziddiyyət təşkil edir və Mülki Məcəllənin 152.1-ci maddəsi ilə müəyyən olunan mülkiyyət hüququnu əsassız olaraq məhdudlaşdırır.

Konstitusiya Məhkəməsi Plenumunun adıçəkilən Qərarı ilə Mülki Məcəllənin 1193-cü maddəsi hüquq sisteminin ayrılmaz tərkib hissəsi olan sosial ədalətlilik prinsipi baxımından Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinin I və II hissələrinə, 29-cu maddəsinin I, II, III və V hissələrinə uyğun hesab edilmişdir. Eyni zamanda qərara alınmışdır ki, mirasda məcburi pay almaq hüququ olan şəxslərin dairəsi və vərəsələrin məcburi payının həcminin dəyişdirilməsi məsələsini zamanın tələbi baxımından Azərbaycan Respublikasının

Milli Məclisi öz səlahiyyəti çərçivəsində müəyyən edə bilər.

***4) Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci, 5-ci və 12-ci maddələrinin şərh edilməsinə dair 21 dekabr 2012-ci il tarixli Qərarı***

Adıçəkilən Qərarda Konstitusiya Məhkəməsinin Plenumunun hüquqi mövqeyi aşağıdakılarla bağlı olmuşdur:

1. Azərbaycan Respublikası Ailə Məcəlləsinin (Ailə Məcəlləsi) 32.1-ci maddəsində və Mülki Məcəllənin 225.1-ci maddəsində müəyyən edilmiş ər-arvadın birgə (ümumi) mülkiyyətinin əldə olunmasının hüquqi əsaslarından fərqli olaraq, "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 1 və 5-ci maddələrinə əsasən, özəlləşdirilən mənzillər əvəzsiz əldə edildiyindən və ər və ya arvad həmin mənzilin onlardan birinin adına özəlləşdirilməsinə (mülkiyyətinə verilməsinə) könüllü razılıq verdiyindən həmin mənzil ər-arvadın birgə (ümumi) mülkiyyəti sayıla bilməz.

2. Özəlləşdirilən mənzildə faktiki yaşayan ailə üzvlərinin həmin mənzilin onlardan birinin mülkiyyətinə verilməsi haqqında razılığının olması, onların həmin mənzildə yaşamaq hüququndan imtinası kimi qiymətləndirilə bilməz.

3. Mənzil fondunun özəlləşdirilməsi zamanı mülkiyyətçi və onun ailə üzvləri arasında yaranmış qarşılıqlı hüquq və vəzifələrin, o cümlədən özəlləşdirilmiş mənzil üzrə əqdlərin bağlanması zamanı mülkiyyətçinin və onunla birlikdə yaşayan ailə üzvlərinin hüquqi vəziyyətinin bu Qərarda əks olunmuş hüquqi mövqelərə uyğun olaraq təkmilləşdirilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilsin.

***5) Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun Azərbaycan Respublikası Ailə Məcəlləsinin 17.2.3-cü maddəsinin və 182-ci maddəsinin bəzi müddəalarının Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsinə uyğunluğunun yoxlanılmasına dair 9 iyul 2013-cü il tarixli Qərarı***

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Konstitusiya Məhkəməsinə müraciət edərək, Ailə Məcəlləsinin 17.2.3-cü maddəsinin və 182-ci maddəsinin bəzi müddəalarının Mülki Prosessual Məcəllənin 36.4-cü maddəsinə, Azərbaycan Respublikası Konstitusiyasının 25, 60, 71-ci maddələrinə və 149-cu maddəsinin I və III hissələrinə uyğunluğunun yoxlanılmasını xahiş etmişdir.

Sorğuverənin qənaətinə görə, Ailə Məcəlləsinin 17.2.3 və 182.1-ci maddələrində müəyyən olunmuş "ər (arvad) cinayət törətməyə görə ən azı 3 il müddətinə azadlıqdan məhrum olunduqda" müddəası şəxsin Konstitusiyanın 25, 60, 71-ci maddələrində və 149-cu maddəsinin I və III hissələrində təsbit olunmuş hüquqlarını pozur, habelə hüquq bərabərliyi, bərabər mənafelərə bərabər münasibət bəslənilməsi, normativ hüquqi akta qarşı irəli sürülən haqq-ədalət meyarları prinsiplərinə cavab vermir.

Göstərilənləri nəzərə alaraq, Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlmişdir:

- Ailə Məcəlləsinin 17.2.3-cü maddəsi Azərbaycan Respublikası Konstitusiyasının hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verən 60-cı maddəsinin I hissəsinə uyğun olmadığından qüvvədən düşmüş hesab edilməlidir;

- nikahın pozulmasının qeydə alınması qaydalarını müəyyən edən Ailə Məcəlləsinin 182.1-ci maddəsinin "yaxud da arvadın (ərin) azı 3 il müddətinə azadlıqdan məhrum edilməyə məhkum olunduğu barədə hökmdən çıxarışı" müddəası, həmin Məcəllənin 182.2-ci maddəsinin "azadlıqdan məhrumetmə növündə cəza çəkən ərə (arvada) və ya" müddəası və Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nın təsdiq edilməsi haqqında" 31 oktyabr 2003-cü il tarixli, 145 saylı Qərarının 5.11.2-ci maddəsinin "azadlıqdan məhrumetmə növündə cəza çəkən ərə (arvada) və ya" müddəası qüvvədən düşmüş hesab edilməlidir.

Buna görə də Konstitusiya Məhkəməsinin Plenumu qərara almışdır ki, Ailə Məcəlləsinin 17.2.3-cü maddəsi Azərbaycan Respublikası Konstitusiyasının hər kəsin hüquq və azadlıqla-

rının məhkəmədə müdafiəsinə təminat verən 60-cı maddəsinin I hissəsinə uyğun olmadığından qüvvədən düşmüş hesab edilsin.

***6) Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 37.3.4-cü maddəsinin Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair 14 noyabr 2014-cü il tarixli Qərarı***

Sorğuverən qismində çıxış edən Azərbaycan Respublikası Ali Məhkəməsinin qənaətinə görə, "Əmək pensiyaları haqqında" Qanunun 20.1-ci və 37.3.4-cü maddələrində işləyən pensiyaçıların əmək pensiyalarına əlavələrin ödənilməsi ilə bağlı fərqli qaydalar müəyyən olunmuş, bu hüquqi tənzimləmə isə Konstitusiyanın müvafiq müddəalarına (12-ci maddəsinin I hissəsinə, 16-cı maddəsinin I hissəsinə, 25-ci maddəsinin I, III, IV və V hissələrinə, 29-cu maddəsinin IV hissəsinə, 35, 38 və 71-ci maddələrinə) uyğun deyildir.

Göstərilənlərlə bağlı Konstitusiya Məhkəməsinin hüquqi mövqeyi belə olmuşdur ki, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 37.3.4-cü maddəsinə əsasən, həmin Qanunun 20.1.5-ci, 20.1.14-cü, 20.1.18-ci, 20.1.20-ci maddələrində göstərilən şəxslərdən (yalnız həmin orqanlarda azı 25 il qulluq stajı olan) fərqli olaraq, bu Qanunun 20.1.1-ci—20.1.10-cu və 20.1.14-cü—20.1.21-ci maddələrində sadalanan digər işləyən pensiyaçılara həmin vəzifədə çalışdıqda, qulluq stajına görə əmək pensiyasına əlavələrin ödənilməsinin dayandırılması Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsi, 29-cu maddəsinin IV hissəsi və 71-ci maddəsinin II hissəsi ilə uyğunsuzluq təşkil etmir.

Eyni zamanda Konstitusiya Məhkəməsi qərara almışdır ki, Dövlət orqanlarının fəaliyyətində sabitliyin və davamlılığın möhkəmləndirilməsi məqsədilə "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 20.1.1-ci—20.1.10-cu və 20.1.14-cü—20.1.21-ci maddələrində nəzərdə tutulmuş şəxslərin qulluq stajına görə əmək pensiyasına əlavələrin hesablanması qaydasının və şərtlərinin təkmilləşdirilməsi qanunvericilik qaydasında tədricən həyata keçirilə bilər.

***7) Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun Azərbaycan Respublikası Ailə Məcəlləsinin 15-ci maddəsinin şərh edilməsinə dair 16 oktyabr 2015-ci il tarixli Qərarı***

Bakı şəhəri Yasamal rayon Məhkəməsi Konstitusiya Məhkəməsinə müraciət edərək, Ailə Məcəlləsinin 15-ci maddəsinin "uşağın doğulmasından sonra 1 il müddətində" müddəasının şərh olunmasını xahiş etmişdir.

Bununla bağlı Konstitusiya Məhkəməsinin Plenumu qərara almışdır ki, Azərbaycan Respublikası Ailə Məcəlləsinin 15-ci maddəsinin "uşağın doğulmasından sonra 1 il müddətində arvadın razılığı olmadan ər nikaha xitam verilməsi barədə iddia qaldıra bilməz" müddəası uşağın ölü doğulduğu və ya doğulduqdan sonra 1 il müddətində öldüyü halları da ehtiva edir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin əksər sorğuları əsasında Konstitusiya Məhkəməsi tərəfindən qəbul etdilmiş qərarları istər nəzəri, istərsə də praktiki əhəmiyyət kəsb edərək, qanunların və normativ-hüquqi aktların daha ətraflı, daha dürüst başa düşülməsinə və təsvir edilməsinə, habelə əsas insan və vətəndaş hüquq və azadlıqlarının daha dolğun təmin edilməsinə xidmət edir.

**Tələbələrin biliklərinin qiymətləndirilməsi üçün suallar:**

1. İqtisadi, Sosial və Mədəni Hüquqlar anlayışı.
2. İqtisadi, Sosial və Mədəni Hüquqların beynəlxalq hüquqda rolu.
3. İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktda təsbit olunmuş qadın hüquqlarının təhlili.
4. İqtisadi, Sosial və Mədəni Hüquqların müdafiə mexanizmləri.
5. Sosial və iqtisadi hüquqların müdafiəsində Avropa Sosial Xartiyasının əhəmiyyəti.
6. Azərbaycan Respublikasında İqtisadi, Sosial və Mədəni hüquqların konstitusion təminatı.
7. Azərbaycan Respublikasının İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakta qoşulması və ohdəlikləri.

## Mühazirə 13. Qadınların təhsil hüququ

1. ***Qadın təhsilinin tarixi***
2. ***Azərbaycan Respublikasında Dövlətin təhsil siyasəti***
3. ***Beynəlxalq sənədlərdə qadınların təhsil hüququ***
4. ***Qadın və gender tədqiqatları***
5. ***Azərbaycan Respublikasında qadınların təhsil hüququ***

### 1. Qadın təhsilinin tarixi

Dünyanın ilk əhalisi olan ibtidai quruluş dövründə yaşayan insanların yeganə qayğısı yaşamaq naminə qida əldə etmək idisə, sonralar üzləşdikləri təbii fəlakətlərdən, vəhşi canlılardan qorunmaq, məişət ehtiyaclarını ödəmək zərurəti onları istər-istəməz canlı və cansız aləmin, təbiət hadisələrinin sirlərini öyrənməyə sövq etdi. Məhz öyrənmə prosesi onlarda ictimai şüurun, idrakın, ünsiyyət vasitələrinin formalaşmasına böyük təkan verdi. Çox güman ki, min illərlə davam etsə də, bu öyrənmə prosesi və onun nəticəsi kimi meydana çıxan tətbiqi bacarıqlar insanların ilk təhsillənmə fəaliyyətinin rüşeymlərini təşkil etmişdir. Zaman keçdikcə, həyati tələbatların çoxalması ilə əlaqədar öyrənməyə meyl və maraq xeyli güclənmiş, bu da, öz növbəsində, ətraf aləmə aid biliklərin daha sistemli şəkildə öyrənilməsi zərurətini yaratmışdır. Beləliklə, bəşəriyyət ibtidai əl əməyi alətlərinin yaradılmasından, odun əldə olunmasından başlamış, mexanikanın qanunlarının, elektrikin kəşfinədək və nəhayət, kosmosun fəthinədək möhtəşəm bir tarixi inkişaf yolu keçmişdir. Nəsillər bir-birini əvəz etdikcə sələflər və xələflərin nümunəsində əvvəlkilərə möcüzə kimi görünən hadisələrin onları əvəz edənlər tərəfindən həqiqətə çevrilməsi isə yalnız təhsil sayəsində təşəkkül tapmış insan zəkasının qüdrəti ilə mümkün olmuşdur.

Bütövlükdə, bəşər sivilizasiyasının təşəkkülü, formalaşması və inkişafı bilavasitə təhsillə bağlıdır.

Qədim zamanlardan XVIII əsrin sonlarınadək təhsil hakim elitanın, daha doğrusu, əhalinin bir neçə faizinin imtiyazı olub. Lakin o zamanlar musiqi, poeziya, ədəbiyyat, fəlsəfə üzrə təhsil almış, siyasətdən xəbərdar olan təhsilli qadınlar da olub. Məsələn, Spartada qadınlar gimnaziyalara kişilərlə bərabər ge-

dirdilər. Orta əsrlərdə təhsil inhisarı kilsəyə mənsub idi. Zadəgan ailəsindən olan qızları çox zaman qadın monastırlarına göndərirdilər. Burada onlara təhsil və dini tərbiyə verirdilər. Bəzən isə qızlar evlərinə gələn keşişlər tərəfindən tərbiyə olunurdular.

Orta əsrlərdə qadınlar üçün ilk təhsil müəssisələri yaradılırdı. XIV əsrdə Florensiyada sənətkarların qızlarına tərbiyə vermək və sənət öyrətmək üçün xüsusi məktəblər var idi. Şəhərin sənət mühitində qadınlar kişilərlə bərabər təhsil alırdılar. Çünki sənətkarların həyat yoldaşı və qızları emalatxanalarda onlarla bərabər çalışırdılar.

Qadın təhsilinin əsl çiçəklənməsi Renessans dövrü, XVII əsrin sonlarına təsadüf edir. Bu zamanlar Avropada əsasən aristokrat ailələrin qızları üçün pansionlar yaranmağa başladı. Bu pansionlarda hakim elitanın kişi nümayəndələri üçün həyat yoldaşı hazırlanırdı. XIX əsrin əvvəllərində İngiltərədə, daha sonra isə Almaniya və Fransada yoxsullar, o cümlədən, qızlar üçün məktəblər təşkil olunurdu. Burada qızlara toxuculuq, maşın və dəzgahlarla işlənən peşə vərdişləri aşılanır, hesablamağı öyrədən kurslar da açılırdı. XIX əsrin ortalarında Avropa və Amerikada qadın hərəkatı qadınların geniş miqyasda təhsilə buraxılması məsələsini tələb formasında qoyurdu. 60-cı illərdə qızlar üçün çox sayda orta və ibtidai məktəblər təşkil olundu. XIX əsrin 70-ci illərinin sonlarından başlayaraq, avropalı və amerikalı qadınlar ali təhsil almaq imkanı əldə etdilər: ilk növbədə, İsveçrədə (Sürix Universiteti) və Fransada (Sarbonna Universiteti). Bundan fərqli olaraq, İngiltərənin Oksford və Kembric universitetlərinə qadınlar yalnız XX yüzilliyin 60-cı illərində daxil olmaq hüququ qazandı. Buna baxmayaraq, İngiltərədə təhsil kifayət qədər yüksək inkişaf etmişdi. XX əsrin əvvəllərində ABŞ-da qızlar və oğlanlar birgə təhsil almağa başladılar.

Rusiyada qadınların təhsili 1764-cü ildə Smolnı İnstitutunun açılması ilə başlandı. 1800-ci ildən başlayaraq, bütün sosial təbəqələri əhatə etməklə qadın gimnaziyaları təsis olundu. XX əsrin əvvəllərində isə qadınların ali və xüsusi (tibbi, texniki və s.) təhsil alması genişləndi. Peterburq, Moskva, Kiyev, Kazan, Odessa, Xarkov kimi şəhərlərdə qadınlar üçün ali kurslar

fəaliyyətə başladı. 20-ci illərdə Sovet hakimiyyətinin ilk dekretləri məhz qadınların tam təhsil almaq hüquqlarına aid idi.

On əsr bundan əvvəl yazılı abidəsi mövcud olmuş xalqımızın maarifpərvər, elm və təhsilyönümlü xarakteri real faktlarla çoxdan sübuta yetirilmişdir. Hələ eramızın ilk əsrlərindən başlayaraq Azərbaycanda salınmış xüsusi memarlıq üslubuna malik şəhərlər, mədəni abidələr və kommunikasiya vasitələri indinin özündə də mühəndis-texniki təfəkkürün nadir nümunələri kimi hamını valeh edir. Bütün bunlar onları yaradan insanların dövrünə görə fundamental təhsil almasından, intellektual səviyyəsindən, əqli kamillik dərəcəsindən xəbər verir.

Tarixi mənbələr göstərir ki, Azərbaycanda ibtidai savad təlimi verən ilk məktəblərin yaranması yeni eranın əvvəllərinə təsadüf edir. VII əsrdə artıq təhsil sistemi formalaşmaqda idi. Daha sonralar inkişaf elə bir səviyyəyə çatmışdı ki, X-XIII əsrlərdə Azərbaycanın bir çox şəhərləri, o cümlədən Təbriz, Marağa, Gəncə, Naxçıvan, Şamaxı, Ərdəbil Şərq aləmində elm, təhsil, incəsənət və mədəniyyət mərkəzləri kimi tanınırdı. Təkcə onu göstərmək kifayətdir ki, XVII əsrin ortalarında Təbrizdə 600 ibtidai, 47 orta, Şamaxıda 40 ibtidai, 7 orta məktəb fəaliyyət göstərirdi. O dövrlərdə təhsil kütləvi xarakterdə və pulsuz olmasa da, bu sistem daxilində təhsil alanların əksəriyyəti tanınmış yaradıcı şəxsiyyətlər kimi formalaşaraq, ictimai-siyasi, iqtisadi, sosial-mədəni həyatda fəal iştirak edir, ümumi inkişafa böyük töhfələr verirdi. Əgər belə olmasaydı, elm və tədqiqatlar mərkəzi kimi şöhrət qazanmış intibah rəmzi sayılan Marağa rəsədxanası XIII əsrdə yarana bilməzdi.

Zənnimizcə, bu inkişafın sirlərini xalqımızın yaradıcı təbiətində, humanist xarakterində, xeyirxah və nurlu mənəvi dünyasında, ən başlıcası, həyati təcrübəni öyrənib onu elmi dünyagörüşə çevirmək istedadında axtarmaq lazımdır. Doğrudan da, "həyatdan dərs ala bilməyən adam heç kəsə dərs verməməlidir, çünki əməyi hədər gedər" (Keykavus ibn İsgəndər, XI əsr). Tarixi keçmişimizin təhsillə baglı səhifələrini vərəqlədikcə sonrakı dövrlərdə, xüsusilə XIX-XX əsrlərdə, bu sahədə irəliləyişlərin xeyli gücləndiyinin şahidi oluruq. O vaxtlar milli maarifçilik hərəkatının öncülləri olan Abbasqulu Ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Seyid Əzim

Şirvani, Mirzə Şəfi Vazeh, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Məmməd Tağı Sidqi, Firudin bəy Köçərli, Həbib bəy Mahmudbəyov, Sultan Məcid Qənizadə, Üzeyir Hacıbəyli, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Cəlal Rəfibəyli, Aleksandr Osipoviç Çernyayevski, Nəriman Nərimanov və digər görkəmli şəxsiyyətlərin azərbaycanlı balaların təhsillənməsi sahəsində gördükləri işlər, çəkdikləri əzablar əsl fədakarlıq və vətənpərvərlik nümunəsi idi. O dövrdə milli maarifçilik ənənələrinin yaşadılması və inkişafı istiqamətində böyük maarifpərvər xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin və başqa neft sənayeçilərinin, "Nicat", "Nəşri-maarif", "Səadət" kimi xeyriyyə cəmiyyətlərinin açdıqları məktəblər Azərbaycanda ümumi təhsil sisteminin formalaşmasında tarixi əhəmiyyət kəsb etmişdi.

Azərbaycan tarixində öz zamanının bir çox savadlı qadınları olmuşdur. Əvvəllər qadınlar dini mədrəsələrdə təhsil alırdılarsa, XIX əsrin sonlarında neft sənayesində zənginləşmiş milyonçular qadın təhsilinə xüsusi diqqət yetirməyə başladılar.

XIX əsrin ikinci yarısında və XX əsrin əvvəllərində qadın hərəkatının əsas tələblərindən biri qadınlara kişilərlə bərabər təhsil hüququnun verilməsi idi. O zaman qadınlar universitetlərə qəbul edilmirdi, qızlar üçün məktəblər də çox az idi, ya da onlar üçün qısaldılmış təhsil proqramlarından istifadə olunurdu. Buna baxmayaraq, qadınların tam savadsız və təhsilsiz olduğunu iddia etmək düzgün deyildir.

XIX-XX əsrlərdə milli təhsilimizin təşəkkülü sahəsində həyata keçirilən genişmiqyaslı tədbirlər və bunların göz qabağında olan real nəticələri Azərbaycanın şimal hissəsi Rusiyanın tərkibinə qatıldıqdan sonra meydana gəlmiş ədalətsiz bir mülahizəni, yəni həmin vaxta qədər guya Azərbaycanda milli təhsil sisteminin olmaması fikrini puça çıxarır.

Bununla belə, sovet dövrü Azərbaycanın tarixində müəyyən mərhələ təşkil edir və ziddiyyətlərlə dolu olsa da, bir sıra sahələrdə, o cümlədən təhsil sahəsində də irəliləyişlər, inkişafın baş verməsi obyektiv qiymətləndirilməlidir.

İbtidai təhsilin artıq icbari elan edilməsi, 1935-1958-ci illərdə yeddiillik, 1959-1966-cı illərdə səkkizillik, sonrakı dövrlərdə isə orta təhsilin icbariliyinin həyata keçirilməsi, şüb-

həsiz, böyük uğur sayılmalıdır. Araşdırmalar göstərir ki, 1920-ci illə müqayisədə ümumtəhsil məktəblərinin sayı 57 faiz artaraq, 965-dən 1929-cu ildə 1687-yə çatmışdı. 1940-1941-ci dərs ilində ölkədə artıq 3575 məktəb fəaliyyət göstərirdi. Ötən əsrin 70-ci illərinin sonuna yaxın isə Azərbaycanda 4195 məktəb qeydə alınmışdır. Şagirdlərin sayına gəlincə isə 1920-ci ilə nisbətən artım 79.402 nəfərdən yüksələrək, 1970-ci illərdə 1.035.846 nəfər təşkil etmişdi, 2015-2016-cı tədris ilində isə 1.353.309 nəfər olmuşdur.

## 2. Azərbaycan Respublikasında dövlətin təhsil siyasəti

Təhsil haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Təhsil haqqında Qanundan, təhsil sahəsinə aid olan digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

Azərbaycanda yüksək ixtisaslı, vicdanlı və peşəkar kadrların hazırlanması, dövlət idarəçiliyi sisteminin sağlamlaşdırılması məsələlərinə hər zaman ciddi fikir verilib. Hələ sovet dövründə 10 mindən artıq tələbə oğlan və qızlar keçmiş SSRİ respublikalarının ali məktəblərinə təhsil almağa göndərilmişdir. Azərbaycanda bir sıra yeni ixtisaslar üzrə – informasiya texnologiyaları, beynəlxalq hüquq, beynəlxalq münasibətlər, neft sənayesi, aviasiya və s. üzrə mütəxəssis hazırlayan ali məktəblərin olmadığını nəzərə alaraq, minlərlə azərbaycanlı gənc Moskva, Kiyev, Minsk və başqa şəhərlərdəki nüfuzlu ali məktəblərə göndərilmişdir.

Bütün dövrlərdə cəmiyyətin tərəqqisi bilavasitə təhsilin inkişafından və onun əhəmiyyətinin düzgün qiymətləndirilməsindən asılı olub. Cəmiyyətin tələbatı təhsilin inkişafını sürətləndirmiş, elmi və texnoloji nailiyyətlər isə təhsil sistemi qarşısında həlli vacib olan daha mürəkkəb vəzifələr qoyub. Qloballaşmanın geniş vüsət aldığı hazırkı mərhələdə, informasiya cəmiyyətində sosial-iqtisadi fəaliyyət sahələrindəki rəqabətin gücləndiyi bir vaxtda təhsilin rolu daha da artmaqdadır. Birləşmiş Millətlər Təşkilatı XXI əsri "təhsil əsri" elan etmişdir. Yüksək intellektə malik insan kapitalının formalaşmasında, davamlı inkişafa zəmin yaradan güclü iqtisadiyyatın qurulma-

sında xüsusilə ali təhsilin rolu mühüm əhəmiyyət kəsb edir.

Müasir dövrdə ölkələrin inkişafı təkcə iqtisadi göstəricilərlə, təbii sərvətlərlə, əhalinin həyat səviyyəsi ilə deyil, həm də insanla cəmiyyət arasındakı münasibətin forması, cəmiyyətdəki demokratiklik və insanların azadlıq dərəcəsi ilə müəyyən olunur. Əgər iqtisadi dirçəliş, elmi-texniki tərəqqi daha çox rasional düşüncə, intellektual potensialla şərtlənirsə, insanın sosial və mənəvi yüksəlişi daha çox siyasi mədəniyyət və hüquqi təfəkkürlə bağlıdır. Bütün bunların inkişafı isə ilk növbədə təhsil sisteminin necə təşkil olunmasından asılıdır.

1995-ci il ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsində və Təhsil haqqında qanunda respublikamızın bütün vətəndaşlarının təhsil almaq hüququ vacib hüquqlarından biri kimi elan olunmuşdur. Dövlət vətəndaşların pulsuz icbari, ümumi və orta təhsil almaq hüququnu təmin edir.

1999-cu ildə "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" təsdiq olunduqdan sonra bütün təhsil sistemində, o cümlədən ali təhsil pilləsində islahatlar məqsədyönlü şəkildə aparılmağa başlandı. Həmin Proqrama müvafiq olaraq, digər pillələrdə olduğu kimi, ali təhsildə də struktur dəyişiklikləri aparılıb, müəssisələrin şəbəkəsi optimallaşdırılıb, mütəxəssis hazırlığı strukturuna yeni ixtisaslar əlavə olunub.

Ölkə Prezidentinin "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 13 iyun 2000-ci il tarixli Fərmanı üzrə mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq, təhsilin keyfiyyətinə nəzarət səlahiyyəti Təhsil Nazirliyinə verildikdən və Nazirlər Kabineti tərəfindən "Ali və orta ixtisas təhsili müəssisələrinin attestasiyası və akkreditasiyası haqqında əsasnamə" təsdiq edildikdən sonra qısa müddət ərzində təhsilin keyfiyyətinə nəzarət mexanizmi yaradılıb.

Müstəqil dövlət quruculuğu şəraitində Azərbaycan təhsil sisteminin Avropa təhsil məkanına qatılması istiqamətində mühüm işlər görülmüşdür.

Hər bir mütərəqqi islahatın uğuru, şübhəsiz, onun ictimai şüurla nə dərəcədə uyğunlaşması, cəmiyyət tərəfindən qəbul olunub-olunmamasından bilavasitə asılıdır. "Təhsil sistemi elə bir sistemdir ki, burada heç bir inqilabi dəyişiklik ola bilməz.

Ümumiyyətlə, bizim həyatımızın bütün sahələrində dəyişikliklər təkamül xarakteri, tədrici dəyişikliklər xarakteri daşıyır. Təhsil Qanunu elə bir qanundur ki, təhsil islahatları elə islahatlardır ki, iqtisadiyyatdan, maliyyədən, başqa sahələrdən fərqli olaraq, bunda bütün cəmiyyətin iştirakı lazımdır" – deyən Heydər Əliyev bu məsələyə böyük həssaslıqla yanaşdığını nümayiş etdirmişdir.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, ixtisaslı kadrların hazırlanmasına yönəldilmiş investisiyalar insanın formalaşmasına sərf edilən investisiya sayılır. Başqa sözlə, bu, insana kapital qoyuluşu da adlandırılır və belə investisiyalar insan kapitalı yaradır. Müasir dövrdə bu növ investisiyalar rəqabətdə üstün olmağın həlledici amili sayılır. İnsana kapital qoyuluşu – insanların mütəxəssis kimi hazırlanmasına yönələn investisiyadır. Dünya təcrübəsində insana kapital qoyuluşu ən çox gəlir gətirən investisiya hesab olunur. Prezident İlham Əliyevin "Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almasına dair Dövlət Proqramı haqqında" 19 oktyabr 2006-cı il tarixli Sərəncamı da insan kapitalının inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Dövlət proqramı məhz azərbaycanlı gənclərin müəyyən elmi istiqamətlər üzrə dövlət hesabına xaricdə təhsil almalarını nəzərdə tutur. Bu Sərəncam əsasında "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" hazırlanaraq ölkə Prezidentinin 16 aprel 2007-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuşdur. Azərbaycanlı tələbələrin xaricdə təhsilini təmin etməkdə əsas məqsəd, şübhəsiz, bütün sahələrdə sürətlə inkişaf edən respublikamız üçün yüksək səviyyəli kadrların hazırlanmasıdır. Ümumiyyətlə, elmin inkişafına, bu sahədə problemlərin kompleks həllinə xidmət edən bir sıra Sərəncamlar və Dövlət Proqramları imzalanmışdır. Belə ki, 4 may 2009-cu il tarixli "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın" və bu strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramının təsdiq edilməsi haqqında, 22 may 2009-cu il tarixli 2009-2013-cü illərdə "Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" Sərəncamlar bu baxımdan xüsusi vurğulanmalıdır. Ölkəmizdə təhsilin dünya təhsil sisteminə inteqrasiyası

prosesini sürətləndirmək məqsədilə Prezident İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında" 31 yanvar 2008-ci il tarixli Sərəncam imzalanıb.

Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun icrasını təmin etmək məqsədilə Nazirlər Kabinetinin 17 sentyabr 2009-cu il tarixli, 247s №-li Sərəncamına uyğun olaraq Təhsil Nazirliyinin 25 sentyabr 2009-cu il tarixli, 1084 №-li əmri ilə Tədbirlər planı təsdiq edilib. Həmin plana əsasən, təhsillə bağlı normativ-hüquqi bazanın Təhsil Qanununun tələblərinə uyğunlaşdırılması istqamətində geniş iş aparılmışdır.

1993-cü ildən ölkədə ikipilləli ali təhsilin (bakalavriat və magistratura) tətbiqinə başlanılması Azərbaycanın təhsil tarixində mühüm hadisələrdən biridir. Ötən illər ərzində bakalavr təhsilinin məzmununda köklü dəyişikliklər və yeniləşmələr baş verib. Belə ki, mövcud qaydalar təkmilləşdirilib, dünya təhsil sisteminin tələblərinə uyğun standartlar yaradılıb, tədrisdə kredit sisteminin tətbiqinə başlanılıb.

Azərbaycanın 2005-ci ildə Bolonya prosesinə qoşulması ilə əlaqədar ali təhsildə kredit sisteminin tətbiqinə zərurət yaranıb. Bu sistemin tətbiqi ilə bağlı hüquqi-normativ bazanın yaradılması istiqamətində bir çox xarici ölkələrin təcrübəsi öyrənilib, "Ali təhsil müəssisələrində kredit sistemi ilə tədrisin təşkili barədə nümunəvi Əsasnamə" təsdiq olunub, ilkin mərhələdə bir neçə ali məktəbdə eksperiment şəklində kredit sisteminin tətbiqi qərara alınıb. 2006-2007-ci tədris ilində 10 ali məktəbdə başlanan eksperiment 2009-2010-cu tədris ilindən 27 dövlət ali məktəbinin bütün ixtisaslarını əhatə etmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı üzrə "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili qaydaları" təsdiq edilmiş, artıq respublikanın bütün ali məktəbləri bu prosesə qoşulmuşdur.

Bundan əlavə, xarici ölkələrdə təhsil alanların diplomlarının Azərbaycanda tanınması üzrə müvafiq tədbirlər həyata keçirilib. Belə ki, Nazirlər Kabinetinin qərarı ilə "Xarici dövlətlərin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalent-

liyinin müəyyən edilməsi (nostrifikasiyası) qaydaları" təsdiq edilmişdır.

Ölkənin sosial-iqtisadi inkişafı ilə bağlı məsələlərin həllində, bazar münasibətləri şəraitində şəxsiyyətin və cəmiyyətin peşə-ixtisas təhsilinə olan tələbatının ödənilməsində orta ixtisas təhsilinin özünəməxsus yeri var. Təhsilin bu pilləsi iqtisadiyyatın müxtəlif sahələrinin ixtisaslı kadrlarla təmin olunmasında mühüm rol oynayır. Orta ixtisas təhsili fasiləsiz təhsil sisteminin tərkib hissəsi olmaqla, bir-biri ilə bağlı iki məsələni — gənclərin müxtəlif peşələrə yiyələnməsini və onların ümumi icbari təhsil almalarını həll edir.

Son illər dövlət tərəfindən təhsil sahəsində aparılan islahatlar nəticəsində orta ixtisas təhsili müəssisələrinin müstəqil fəaliyyəti və inkişafı üçün hüquqi, iqtisadi zəmin yaranıb, orta ixtisas təhsili şəbəkəsi xeyli təkmilləşdirilib, ölkədə təhsil komplekslərinin yaradılması sahəsində müəyyən işlər görülür. Belə ki, "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2000-ci il tarixli Fərmanı ilə Milli Rəssamlıq Akademiyasının nəzdində İncəsənət Kolleci, Milli Konservatoriyanın nəzdində isə Musiqi Kolleci təşkil edilib. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 dekabr 2004-cü il tarixli 195 saylı qərarı ilə Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kolleci yaradılıb.

"Azərbaycan 2020: Gələcəyə Baxış" inkişaf konsepsiyasında təhsilə bilavasitə və birbaşa aidiyyəti olan hissələrdə elmi potensialın möhkəmləndirilməsi, innovasiya fəaliyyətinin dəstəklənməsi, informasiya və kommunikasiya texnologiyalarının inkişafı, informasiya cəmiyyətinə keçidin təmin edilməsi, insan kapitalının inkişafı və müasir təhsil sisteminin formalaşdırılması kimi prioritetlər irəli sürülmüş, konkret fəaliyyət sahələri müəyyənləşdirilmişdir. "Azərbaycan 2020: Gələcəyə Baxış" inkişaf konsepsiyasının təhsillə bağlı ana xəttinə uyğun olaraq, 2013-cü ilin oktyabrında ölkə Prezidentinin Sərəncamı ilə "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası" qəbul edilmişdir. Strategiya respublikamızda keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında aparıcı mövqeyə malik olan, səriştəli müəllim və təhsil me-

necerlərinə, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılmasını nəzərdə tutur:

• Birinci strateji istiqamət səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılmasına yönəlmişdir və təhsilin məktəbəqədər, ümumi, ilk peşə-ixtisas, orta ixtisas və ali olmaqla, bütün pillələri üzrə kurikulumların inkişafı kimi vacib hədəfi əhatə edir.

• İkinci strateji istiqamət təhsil sahəsində insan resurslarının müasirləşdirilməsini nəzərdə tutur. Bu istiqamət innovativ təlim metodlarını tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsilverənin formalaşdırılmasına xidmət edir və özündə təhsilverənlərin peşəkarlığının yüksəldilməsi, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulmasını, təhsilalanların istedadının aşkar olunması və inkişafı ilə bağlı, habelə xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlim metodologiyasının yaradılmasını ehtiva edir.

• Üçüncü strateji istiqamət təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılmasına yönəlmişdir. Bu istiqamət təhsil sistemində tənzimləmə və idarəetmənin qabaqcıl beynəlxalq təcrübə əsasında müasirləşdirilməsi, təhsil müəssisələrində nəticəyönlü və şəffaf idarəetmə modelinin, təhsilin keyfiyyətinin təminatı və idarə olunması üzrə yeni məlumat və hesabat sistemlərinin yaradılması kimi hədəfləri əhatə edir.

• Dördüncü strateji istiqamət müasir tələblərə uyğun və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılmasını irəli sürür. Bu istiqamət təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları əsaslı təlim metodologiyasına uyğun infrastrukturun yaradılması, 156 təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması, distant təhsil, istedadlı və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil və inkişaf, yaşlıların təhsili, peşə-ixtisas və təhsil məsələləri üzrə məsləhət xidmətləri göstərən regional universal mərkəzlərin, müasir təminatlı peşə-tədris mərkəzlərinin və komplekslərinin qurulması, kampusların yaradılması kimi tədbirləri ehtiva edir.

• Beşinci strateji istiqamət Azərbaycan Respublikasında iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistem-

lərinin standartları ilə eyni səviyyəyə uyğun təhsil sisteminin maliyyələşdirilməsi modelinin qurulmasıdır. Bu istiqamət müxtəlif mənbələrdən istifadə olunmaqla, təhsili maliyyələşdirmə mexanizminin təkmilləşdirilməsini, təhsil müəssisələrinin adambaşına maliyyələşdirilməsinə keçidi, ödənişli təhsil xidmətlərinin göstərilməsinin dəstəklənməsini, Təhsilin İnkişafı Fondunun yaradılmasını nəzərdə tutur.

Azərbaycan Respublikası BMT-nin Avropa (21 dekabr 1979-cu il Paris Konvensiyası) və Asiya-Sakit okean (16 dekabr 1983-cü il Banqkok Konvensiyası) regionları üzrə Ali təhsil sahəsində elmlərin, diplomların və elmi dərəcələrin qarşılıqlı tanınması haqqında konvensiyalarına, eləcə də UNESCO-nun Avropa Şurası ilə birlikdə hazırladığı Avropa regionu üzrə ali təhsil sahəsində ixtisasların qarşılıqlı tanınması haqqında 11 aprel 1997-ci il tarixli Lissabon Konvensiyasına qoşulmuşdur.

Artıq Azərbaycan təhsil sisteminin nümayəndələri BMT-nin Təhsil, elm və mədəniyyət təşkilatı (UNESCO), BMT-nin Uşaq Fondu (UNICEF), İslam ölkələri Təhsil, elm və mədəniyyət təşkilatı (İSESCO), Avropa Təhsil Fondu, Avropa Şurası və Avropa İttifaqı kimi nüfuzlu beynəlxalq təşkilatların təhsil problemləri ilə məşğul olan qurumlarının işində fəal iştirak edir, onların təcrübə və köməyindən maksimum dərəcədə istifadə edirlər.

Ölkəmizdə ilk dəfə olaraq, elmi fəaliyyətin təşkili, idarə edilməsi və inkişafı sahəsində dövlət siyasətinin əsas prinsiplərini, elmin və elmi-innovasiya fəaliyyətinin məqsədlərini, elmi fəaliyyət subyektlərinin hüquq və vəzifələrini, elmin maliyyələşdirilməsi mexanizmlərini, elmi nailiyyətlərin stimullaşdırılması və onlardan istifadənin təşkilati-hüquqi əsaslarını müəyyən edən "Elm haqqında" qanun 14 iyun 2016-cı ildə qəbul edilmişdir. Bu Qanun ölkənin siyasi, iqtisadi, sosial və mədəni inkişafının təmin edilməsi, hər bir Azərbaycan Respublikası vətəndaşının rifahının və elmi səviyyəsinin yüksəldilməsi, yeni biliklərə yiyələnməsi və dünyanı dərk etmək kimi təbii və mənəvi ehtiyaclarının ödənilməsində elmin aparıcı rolunu və vəzifələrini müəyyənləşdirir.

## 3. Beynəlxalq sənədlərdə qadınların təhsil hüququ

Vətəndaşların əsas hüquqlarından olan təhsil hüququ BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktda, İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasında və digər aktlarda təsbit olunmuşdur. Təhsil həmişə insanın inkişafı və cəmiyyətin irəliləməsi üçün fundamental bir hüquq kimi tanınmışdır, ona görə də beynəlxalq təşkilatlar qəbul etdikləri sənədlərdə təhsil hüququna hər zaman önəmli yer veriblər.

Hazırda dünyada təhsil sahəsində aşağıdakı inkişaf meylləri müşahidə olunmaqdadır:

- cəmiyyətin inkişaf tempinin sürətlənməsi, siyasi və sosial seçim imkanlarının genişlənməsi;
- informasiya cəmiyyətinə keçid, ünsiyyət və dözümlülük amillərinin vacib əhəmiyyət kəsb etməsi, mədəniyyətlərarası əlaqələrin miqyasının genişlənməsi;
- yeni nəsildə müasir təfəkkürün formalaşmasını tələb edən və yalnız beynəlxalq əməkdaşlıq çərçivəsində həll edilə bilən qlobal problemlərin sayının artması;
- iqtisadiyyatın dinamik inkişafı, rəqabətin güclənməsi, sadə əmək sferasının məhdudlaşması, mütəmadi olaraq peşə ixtisasının artırılmasını və yenidən hazırlanmasını tələb edən ciddi struktur dəyişikliyi;
- gənclərin və yaşlı nəslin təhsilinin artırılması nəticəsində formalaşan insan kapitalının rolunun yüksəlməsi;
- təhsilin ölkənin aparıcı dövlətlər sırasına daxil olmasını təmin edən əsas faktor olması;
- vətəndaşların xaricdə təhsil almasının dəstəklənməsi.

Təməl bacarıqlar uşaqlıq dövrünün ilk illərindən əldə edildiyinə görə uşaqların zehninin erkən yaş dövründən inkişaf etdirilməsi vacibdir. Bu səbəbdən məktəbəqədər təhsilin inkişafı dövlət siyasətində əhəmiyyətli yer tutur.

Bir çox qabaqcıl ölkələrdə təhsil müddətinin tədricən artırılması istiqamətində addımlar atılır. Kanada, Fransa, Hollandiya və Çexiyada ümumi təhsilin müddəti 14 il, Almaniya, Böyük Britaniya, İsveç, Avstraliya və Yeni Zelandiyada 13 il, ABŞ, Finlandiya, Cənubi Koreya, Polşa və bir sıra digər

ölkələrdə isə 12 il təşkil edir. Ümumi təhsil müddəti az sayda ölkədə 11 il təşkil edir. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının məlumatına görə, hər hansı ölkədə istənilən təhsil pilləsi üzrə təhsil müddətinin bir il artırılması ölkədə Ümumi Daxili Məhsulun 3–6 faiz artımına gətirib çıxarır.

Ali təhsildə özəl sektorun rolu tədricən güclənir, dövlət maliyyələşdirməsi özəl sektorun maliyyəsi ilə əvəzlənir. Dövlət maliyyələşdirməsinin həcmi Almaniya, Avstriya və İtaliyada 90 faiz olduğu halda ABŞ, Avstraliya, Yaponiya və Kanadada cəmi 50–70 faiz təşkil edir.

Bütün bu amillər ali milli maraqları əks etdirməklə,təhsil sahəsində islahatların istiqamətlərinin qeyd olunan tendensiyalara uyğun müəyyənləşdirilməsi zərurətini yaradır.

Müvafiq beynəlxalq sənədlərdə olduğu kimi, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt da iştirakçı dövlətləri hər bir şəxsin təhsil hüququnu tanımağa çağırır:

1. Bu Paktda iştirak edən dövlətlər hər bir şəxsin təhsil hüququnu tanıyırlar. Onlar razılaşırlar ki, təhsil insan şəxsiyyətinin tam inkişafına və ləyaqətinin dərk olunmasına yönəldilməli, insan hüquqlarına və əsas azadlıqlara hörməti möhkəmləndirməlidir. Bütün millətlər, irqi, dini və etnik qruplar arasında qarşılıqlı anlaşmaya, dözümlülüyə və Birləşmiş Millətlər Təşkilatının sülhü qoruma sahəsində fəaliyyətinə yardım etməlidirlər.

2. Bu Paktda iştirak edən dövlətlər tərəfindən bu hüququn tam şəkildə həyata keçirilməsi üçün:

a) ibtidai təhsil hamı üçün icbari və pulsuz olmalı;

b) Orta təhsil və onun müxtəlif formalarının, orta texniki-peşə təhsili də daxil olmaqla, tədricən pulsuz təhsilə keçməsi üçün bütün tədbirlər görülməli və hamı üçün əlçatan olmalı;

c) Ali təhsil bütün lazımi tədbirlərin, xüsusilə də tədricən pulsuz tədrisin tətbiq edilməsi yolu ilə hər kəsə qabiliyyətinə görə eyni dərəcədə əlçatan olmalı;

d) İbtidai təhsil, ibtidai təhsil almamış və ya onu tam bitirməmiş şəxslər üçün imkan dairəsində intensivləşdirilməli;

e) Qənaətbəxş təqaüd sistemi təyin olunmalı və müəllim heyətinin maddi vəziyyəti daim yaxşılaşdırılmalıdır.

3. Bu Paktda iştirak edən dövlətlər, valideynlərin və ya

qəyyumların öz uşaqları üçün təkcə dövlət məktəblərində deyil, həmçinin, dövlətin təhsil üçün təsis etdiyi digər məktəblərdə, yəni uşaqlarının dini və mənəvi tərbiyəsinə uyğun məktəb seçmək hüququna hörmət etməyi öhdələrinə götürürlər.

4. Bu maddənin birinci bəndində irəli sürülmüş prinsiplərə mütləq şəkildə əməl olunmaqla və belə təhsil müəssisələrində verilən təhsilin dövlət tərəfindən müəyyən edilmiş tələblər minimumuna cavab verməsi şərti ilə ayrı-ayrı şəxslərin və qurumların da təhsil müəssisələri yaratmaq və onlara rəhbərlik etmək hüququ vardır.

Maddə 14-də deyilir ki, bu Paktda iştirak edən hər bir dövlət, onun iştirakçısı olana qədər öz ərazisində və yaxud onun yurisdiksiyası altında olan ərazilərdə icbari pulsuz ibtidai təhsil prinsipinin tədricən, planda göstərilən müəyyən müddət ərzində həyata keçirmək üçün əhatəli fəaliyyət planı hazırlamağı öhdəsinə götürür.

1998-ci ildə Parisdə keçirilən Ümumdünya Konfransında qəbul edilmiş "İyirmi birinci əsr üçün ali təhsil: yanaşmalar və praktiki tədbirlər" adlı Dünya Bəyannaməsində insan hüquqlarının, davamlı inkişafın, demokratiyanın və sülhün təmin olunmasında ali təhsilin çox mühüm rolu olduğu vurğulanıb. Bəyannamə bütün insanların təhsil almaq hüququnu, fərdi bilik və qabiliyyət əsasında ali təhsilin hamı üçün əlçatan olmasının zəruriliyini bir daha təsdiqləyib.

Pekin Fəaliyyət Platforması təhsilin qadınların irəliləyişinin təmin edilməsinin vacib şərti olduğunu bildirmişdir. Bu Platformada qadınların təhsili 12 prioritet problem kəsb edən sahələrdən biri olaraq, onların imkanlarının artmasının mütləq amili kimi göstərilir. Fəaliyyət Platforması bütün səviyyələrdə gender əsaslı ayrı-seçkiliyin ləğv olunmasına, qadınlar arasında savadsızlığın aradan qaldırılmasına və onların peşələrə, elm və texnologiyalara yiyələnməsinə çağırır.

Ölkəmizin qoşulduğu "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" BMT Konvensiyasının 10-cu maddəsi də iştirakçı dövlətləri qadınların təhsil sahəsində kişilərlə bərabər hüquqlara malik olmasını təmin etmək məqsədilə onlar barəsində ayrı-seçkiliyin ləğv edilməsini tələb edir, o cümlədən kişi və qadınların hüquq bərabərliyi əsa-

sında bütün müvafiq tədbirlərin görülməsinə çağırır. Bu sahədə digər ən mühüm sənəd kimi 14 dekabr 1960-ci il tarixli "Təhsil sahəsində ayrı-seçkiliklə mübarizə haqqında" Konvensiyanı göstərmək olar.

2006-cı il oktyabrın 2-də Azərbaycan Respublikası bu Konvensiyaya, eləcə də "Təhsil sahəsində ayrı-seçkiliklə mübarizə haqqında" Konvensiyada iştirak edən dövlətlər arasında meydana çıxa bilən ixtilafları həll etmək üçün Barışıq və Xeyirxah Xidmət Komissiyasının təsis edilməsi haqqında" 1962-ci il 10 dekabr tarixli Protokola qoşulmuşdur. Bu Komissiyaya təhsil sahəsində ayrı-seçkiliklə mübarizə haqqında Konvensiyada iştirak edən dövlətlər arasında Konvensiyanın tətbiqi və təfsirinə dair meydana çıxan ixtilafların qarşılıqlı məqbul həllini axtarıb-tapmaq həvalə olunurdu.

Təhsil, elm və mədəniyyət üzrə Birləşmiş Millətlər Təşkilatının 1960-cı il noyabrın 14-dən dekabrın 15-dək Parisdə XI sessiyasına toplaşan Baş konfransı, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin ayrı-seçkiliyin yolverilməzliyi prinsipini bərqərar etdiyini və hər bir insanın təhsil hüququnu elan etdiyini xatırladaraq, təhsil sahəsində ayrı-seçkiliyin həmin Bəyannamədə ifadə edilmiş insan hüquqlarının pozulması olduğunu nəzərə alaraq, Təhsil, elm və mədəniyyət məsələləri üzrə Birləşmiş Millətlər Təşkilatının öz Nizamnaməsinə əsasən, insan hüquqlarına hər yerdə riayət olunmasını, hamı üçün təhsil almaq imkanlarının bərabərliyini təmin etmək məqsədilə millətlər arasında əməkdaşlıq yaratmağa səy göstərdiyini nəzərə alaraq bu Konvensiyanı qəbul etdi.

Konvensiyanın tərəfi olan dövlətlər ayrı-seçkiliyin ləğv edilməsi və qarşısının alınması üçün təhsil sahəsində ayrı-seçkilik xarakterli bütün qanunvericilik qərarlarını və inzibati sərəncamları ləğv etməyi və inzibati praktikaya son qoymağı; təhsil müəssisələrinə şagird qəbul edilərkən hər cür ayrı-seçkiliyi aradan qaldırmaq üçün, lazım olduqda, qanunvericilik qaydasında tədbirlər görməyi və təhsil haqqı məsələsində, şagirdlərə təqaüd verilməsi və ya hər hansı digər şəkildə yardım göstərilməsində, eləcə də təhsili xaricdə davam etdirmək üçün zəruri ola bilən icazə və güzəştlərin verilməsində məlum ölkənin vətəndaşı olan şagirdlərə dövlət orqanları tərəfindən, on-

ların uğurlarına və ya ehtiyaclarına əsaslanan fərqlərdən başqa, heç bir digər fərq qoyulmasına yol verməməyi öhdəsinə götürürlər.

Dövlətlər bundan başqa, təhsil sahəsində imkanlara və rəftara münasibətdə bərabərliyi həyata keçirməkdə öz milli şərait və adətlərinə uyğun metodlardan istifadə edən dövlət siyasətini işləyib hazırlamağı, inkişaf etdirməyi və həyata keçirməyi öz üzərinə götürürlər.

Bu Konvensiyada "təhsil" sözü təhsilin bütün növ və dərəcələrinə aiddir və təhsil almaq imkanlarını, təhsilin səviyyəsini və keyfiyyətini, eləcə də onun aparıldığı şəraiti əhatə edir, "ayrı-seçkilik" ifadəsi məqsədi və ya nəticəsi təhsil sahəsində rəftara münasibətdə bərabərliyi ləğv etmək, yaxud pozmaq olan irq, dərinin rəngi, cins, dil, din, siyasi, yaxud digər əqidə, milli, yaxud sosial mənşə, iqtisadi vəziyyət, yaxud doğum əlamətinə görə hər hansı fərqləndirməni, istisnanı, məhdudiyyəti, yaxud üstün tutmanı əhatə edir.

Eyni zamanda Konvensiyada ayrı-seçkilik sayılmayan məqamlara da aydınlıq gətirilir və bura aşağıdakılar aiddir:

a) müxtəlif cinsə mənsub şagirdlər üçün ayrı təhsil sistemlərinin, yaxud tədris müəssisələrinin yaradılması və ya saxlanması - bu sistem, yaxud müəssisələr təhsil almaq imkanlarının bərabərliyini təmin etdiyi, onların müəllim heyətinin eyni ixtisasa malik olduğu, onların bərabər keyfiyyətli binalara və avadanlığa malik olduğu və təlimin eyni proqramlar üzrə keçirilməsinə imkan verdiyi hallarda;

b) valideynlərin, yaxud qanuni qəyyumların istəyinə müvafiq təhsil verən dini motivli, yaxud dil xarakterli ayrıca təhsil sistemləri, yaxud tədris müəssisələrinin yaradılması və ya saxlanması - bu sistemlərə qoşulma, yaxud bu müəssisələrə daxilolma könüllü olduqda və onların verdiyi təhsil səlahiyyətli təhsil orqanlarının müəyyən və ya təsdiq etdiyi normalara, o cümlədən eyni dərəcədən olan təhsil normaları baxımından uyğun olduqda;

c) özəl tədris müəssisələrinin yaradılması və ya saxlanması - onların məqsədi hər hansı bir qrupun istisna edilməsi deyil, ancaq dövlətin təhsil imkanlarını tamamlamaq olduqda - bu şərtlə ki, onların fəaliyyəti, həqiqətən, yuxarıda göstərilən məq-

sədlərə cavab versin və verdikləri təhsil səlahiyyətli təhsil orqanlarının müəyyən və ya təsdiq etdiyi normalara, o cümlədən eyni dərəcədən olan təhsil normaları baxımından uyğun gəlsin.

Azərbaycan Respublikası 2 oktyabr 2006-cı il tarixli Qanunla "Təhsil sahəsində ayrı-seçkiliklə mübarizə haqqında" Konvensiyada iştirak edən dövlətlər arasında meydana çıxa bilən ixtilafları həll etmək üçün Barışıq və Xeyirxah Xidmət Komissiyasının təsis edilməsi haqqında Protokola qoşulmuşdur.

Bu Komissiyaya təhsil sahəsində ayrı-seçkiliklə mübarizə haqqında Konvensiyada iştirak edən dövlətlər arasında Konvensiyanın tətbiqi və təfsirinə dair meydana çıxan ixtilafların qarşılıqlı məqbul həllini axtarıb-tapmaq həvalə olunurdu.

Uşaq Hüquqları Konvensiyası, xüsusilə də bu Konvensiyanın 28-ci maddəsi, hər bir uşağın təhsil hüququna malik olduğunu bildirir.

UNESCO-nun təşəbbüsü olan "Təhsil hamı üçün" strategiyasının əsas müddəaları 1990-cı ildə Tailandın Comtyen şəhərində keçirilən "Təhsil hamı üçün" Ümumdünya Konfransında irəli sürülmüşdür. Konfransda qəbul edilmiş "Təhsil hamı üçün" Ümumdünya Bəyannaməsində vurğulanırdı ki, "təhsil dünyanın hər yerində hamının, yaşından asılı olmayaraq, bütün qadın və kişilərin təməl hüququdur... təhsil daha təhlükəsiz, sağlam, inkişaflı və ekoloji təmiz dünya üçün zəmin yaratmalı və eyni zamanda sosial, iqtisadi və mədəni tərəqqiyə, dözümlülüyə və beynəlxalq əməkdaşlığa yol açmalıdır... təhsil şəxsi və ictimai təkmilləşmənin zəruri şərtidir." "Təhsil hamı üçün" Konfransı və Comtyen Bəyannaməsi dövlətlərin milli inkişafı, eləcə də gənclərin XXI əsr cəmiyyətlərində fəal və məhsuldar həyata hazırlanmasından ötrü təhsilin həlledici rolunu ön plana çıxardı.

## 4. Qadın və gender tədqiqatları

Gender tədqiqatlarının qaynaqlarında, əsasən, qadınlar dururdu və buna görə də bəziləri səhvən, bəziləri isə bilərəkdən gender mövzusunu qadın problemi ilə paralel müstəviyə gətirirlər. Qadın tədqiqatları (Women's studies) gender tədqiqatlarının ilk mərhələsidir. Bu tədqiqatları, əsasən, feminizm mövqeyində duran qadın-alimlər aparırdılar. Tez-tez "qadın tədqi-

qatları", "qadınlar haqqında tədqiqatlar" kimi ifadələr sinonim və yaxud bərabərhüquqlu qiymətləndirildiyinə görə, onların istifadəsində müəyyən dolaşıqlıq yaranır. Lakin Renata Xofun ədalətli etirafına görə, "qadın tədqiqatları"nın, "qadın haqqındakı tədqiqatlar"dan fərqi ondadır ki, birinciyə qadının həyati təcrübəsi daxil edilir, nəticədə həm sübut olunma yolları dəyişdirilir, həm də elmi maraqlar formalaşdırılır. Belə düşünmək olar ki, "qadın tədqiqatları"nın məqsədi – gender problemlərinin öyrənilməsi səviyyəsini yüksəltmək, onları institut və ali məktəblərin humanitar şöbələrinin tədris prosesinin tərkib hissəsi kimi qələmə verməkdir.

Müasir gender tədqiqatlarının nəzəri mənbələri Avropa fəlsəfəsi fikrinin əldə etdiyi nailiyyətləridir. İlk növbədə, Platon, Aristotel, İ.Kant, G.Hegel, Z.Freyd və digər tədqiqatçıların əsərlərində cinsi fərqlərin mahiyyəti və rolu haqqındakı fikirlərini qeyd etmək lazımdır. Gender bərabərliyi nəzəriyyəsinin əsasında liberal fəlsəfənin maarifçi konsepsiyaları və insan hüququ nəzəriyyəsi (C.Lokk, J.J.Russo) durur. Gender nəzəriyyələrinin yaranmasının sosial şərtləri, şübhəsiz, qadınların ictimai istehsala cəlb edilməsi, qadın hərəkatının fəallaşması, qadınların feminizm düşüncəsinin artmasıdır.

Ali məktəblərdə qadın tədqiqatlarının ilk kursları 1960-1970-ci illərdə ABŞ və Qərbi Avropada qadınların vətəndaş və iqtisadi hüquqlar uğrunda feminist hərəkatlarının təsiri altında təşkil olunmuşdur. Nəzəri analiz sosial dəyişikliklərin tədqiq edilməsinin vacib şərti sayılırdı. Qadın əsarətinin tədqiqi isə, patriarxal və kapitalist cəmiyyətlərdə bərabərsizliyin aradan qaldırılması yollarının mümkünlüyü ilə assosiasiya edilirdi.

Qadın və gender təqdiqatlarının inkişaf tarixini şərti olaraq dörd dövrə bölmək olar. ABŞ-da qadınlar haqqında tədqiqatların inkişafının *birinci mərhələsi* (1960-1970-ci illərin sonu) yeni akademik sahələrin yaradılması ilə xarakterizə olunmuşdur. Qadınlar ilkin olaraq, akademik fənlər üzrə ədəbiyyat, tarix, fəlsəfə, sosiologiya və psixologiya çərçivəsində biliklərə yiyələnməyə başlamışlar. Qadın yazarların əsərlərinə laqeydlik, onlara qarşı böyük ədalətsizlik kimi qəbul edilirdi. Sonra onların əsərləri nəşr olunmağa və hətta tədris prosesində istifadə edilməyə başladı. Alimlər isə öz tədqiqatlarının mövzularını

qadın və gender problemləri ilə əlaqələndirirdilər. Tezliklə aydın oldu ki, qadınları sadəcə "əlavə etmək" yanaşması (tədqiqatlara, həmçinin qadınlar haqqında məlumatları mexaniki olaraq daxil etmək) qane etmir. O zamankı ənənəvi fənlərin heç biri qadınların həyatının mükəmməl anlayışını vermək gücündə deyildi. Odur ki, bir sıra universitetlərdə qadınlar haqqında xüsusi tədqiqatların məqsədyönlü inkişaf etdirilməsi ideyası meydana çıxdı.

Qadınlar haqqında tədqiqatların *ikinci mərhələsi,* 1980-ci illərin əvvəlinə təsadüf edir. Bu dövrdə ABŞ-da qadın tədqiqatlarının ali təhsilə inteqrasiyasına başlandı. Gender nöqteyinəzərindən balanslaşdırılmış tədris planlarının inkişafı vasitəsilə ənənəvi fənlərə qadınlar haqqında yeni biliklər daxil edildi. Bu yolla qadın psixologiyası, qadın tarixi, qadın ədəbiyyatı kimi fənlər meydana çıxdı. Qadın tədqiqatlarının *üçüncü mərhələsi* 1980-cı illərin ortasına təsadüf edir. Artıq dərs proqramlarına sosial azlıqlar, həssas qruplar və s. mövzular daxil edilirdi. Bununla yanaşı, qara dərili qadınlar "qadın" konsepsiyasına irqi və sinfi fərqləri daxil etməyi tələb edirdilər. Bu mərhələdə yeni jurnallar təsis edilir, ağ irqə mənsub olmayan qadınlar üçün ali məktəbdə layihələr və şəbəkə proqramları maliyyələşdirilir, konfranslar və yay məktəbləri təşkil edilirdi.

Qadın tədqiqatlarının *dördüncü mərhələsi* 1990-ci illərdə başladı və qlobal infrastrukturların inkişafı və qadınların beynəlxalq problemlərinə diqqətin artırılması ilə bağlı idi. Qadın və gender probleminə dair tədqiqat layihələrinin və təhsil proqramlarının genişlənməsi Qərbi Avropa, Afrika, Yaxın Şərq, Asiya və Latın Amerikası ölkələrində müəllimlər və alimlər arasında intensiv informasiya, təcrübə və vəsaitin mübadiləsinə gətirib çıxardı. Qadın təşkilatlarının dəstəyi ilə həyata keçirilən müntəzəm beynəlxalq yay institutları, konfranslar və konqreslər təsis edildi. İnkişafda olan ölkələrdə təhsil proqramlarının, xüsusən nəşrlərin artması ilə əlaqədar olaraq, tədqiqatlar qlobal xarakter aldı. Bu proqramlarda siyasət, sosial-iqtisadi inkişaf, militarizm problemləri, iş, ailə və qadınların reproduktiv hüquqları xüsusi qeyd edilirdi.

1980-1990-ci illərdə Avropada qadın və gender tədqiqatları proqramları tərtib edildi. Elə həmin dövrdə genderlə bağlı müs-

təqil kafedralar və proqramlar açıldı, adlarında gender sözü olan tədqiqat assosiasiyaları təsis edildi. Gender tədqiqatlarının beynəlxalq şəbəkəsi 1996-ci ildə təşkil edilmiş London iqtisadiyyat məktəbinin Gender institutunda fəaliyyət göstərir.

Son illər qadın və gender tədqiqatları MDB ölkələrində də genişlənmişdir. Azərbaycanda bu sahədə işlərin aparılmasına BMT-nin Gender layihəsi təkan vermişdir. Hazırda gender tədqiqatları ölkə üçün aktual istiqamətlərdə aparılır.

Uzun illər ərzində keçmiş SSRİ-də qadın probleminə dair hər hansı elmi görüşlərin meydana çıxmasına və inkişafına imkan verilmirdi. Qərb isə belə hesab edirdi ki, bu mövzu ilə bağlı keçmiş SSRİ məkanında heç bir ciddi tədqiqat işi aparılmadığından bu işə istiqamət verə biləcək xüsusiləşdirilmiş tədqiqat mərkəzləri olmamışdır. Qeyd etmək yerinə düşər ki, yalnız "qadın məsələsi" mövzusuda araşdırmalar olmuşdur. Bu, təsadüfi deyildir. Uzun illər keçmiş Sovetlər İttifaqının təbliğat aparatı bütün dünyaya sübut etməyə çalışırdı ki, "bizim ölkədə" qadın məsələsi birdəfəlik həll edilmiş, qadınlarla kişilərin bərabər hüquqluluğuna tam nail olunmuşdur. Sovet hökuməti 1981-ci ildə "Qadınlara münasibətdə ayrı-seçkiliyin ləğv olunması haqqında Konvensiyaya" imza atmışdır. İlk dəfə isə 1990-cı ildə Moskva şəhərində UNESCO tərəfindən təşkil edilmiş "Gender tədqiqatları: vəziyyəti və prespektivləri" problemlərinə dair dünyanın qabaqcıl alimlərinin iştirakı ilə beynəlxalq konfrans keçirilmişdir.

Respublikamızın təhsil sisteminə gender tədqiqatlarının nəticələrinin tətbiqi çox vacibdir. Azərbaycan əlverişli geosiyasi mövqeyi, zəngin təbii sərvətlərinə görə həmişə daha güclü dövlətlər tərəfindən təzyiqlərə məruz qalıb. Bu səbəbdən Azərbaycanda gender tədqiqatları milli, irqi və kulturoloji səviyyələrdə geniş ümumiləşdirmələr halı alır. Azərbaycanda gender problemlərinin tədqiqatçıları, genderin adicə qadın hüquqları uğrunda mübarizənin deyil, daxilində ümumbəşəri dəyərlər təcəssüm olunmuş ahəngdar, bütöv bir cəmiyyətin yaradılması uğrunda mübarizənin olması ideyasını rəhbər tutaraq, bu sahədə qərb tədqiqatçılarının təcrübəsini nəzərə alırlar.

Azərbaycanda gender yönümlü tədqiqatların inkişafı işində BMT-nin "Gender inkişafda" adlı şöbəsinin böyük rolu qeyd

olunmalıdır. 1998-ci ildə "Gender: qadın probleminin yeni mərhələsi" adlı ilk respublika konfransı keçirilib. Bu konfransın işində geniş ictimaiyyət, çoxsaylı qadın təşkilatlarının nümayəndələri, qadın deputatlar iştirak edib. Son illər ərzində gender üzrə çoxsaylı yazılar, monoqrafiyalar çap olunub. Bütün bunlar o faktı təsdiqləyir ki, Azərbaycanda gender tədqiqatlarının özünəməxsus istiqaməti formalaşır və respublikanın bu sahədə inkişaf xüsusiyyətləri nəzərə alınır.

Artıq Azərbaycanda BMT-nin "Gender inkişafda" proqramı yekunlaşdırılıb. Bu proqramın əsasında respublikanın 16 rayonunda icra hakimiyyəti orqanları nəzdində fəaliyyət göstərən gender şöbələri yaradılıb, daha sonra Azərbaycan Respublikasının Qadın problemləri üzrə Dövlət komitəsi, bir sıra nazirlik və idarələrin nəzdində gender şöbələri açılıb. Respublikamızda Qərb Universiteti nəzdində Gender Araşdırmaları Mərkəzi fəaliyyət göstərir. Mərkəzə gənc tədqiqatçılar, müəllimlər və tələbələr sırasından könüllülər dəstək verir.

### 5. Azərbaycan Respublikasında qadınların təhsil hüququ

Azərbaycanın maarifçilik tarixində, dünyəvi təhsilin inkişafında, Azərbaycan qadınının təhsil almasında 1901-ci ildə görkəmli mesenat Hacı Zeynalabdin Tağıyevin təşəbbüsü və dəstəyi ilə açılmış qızlar məktəbi böyük rol oynamışdır. Bu məktəb müsəlman Şərqində ilk dünyəvi qızlar məktəbi idi və müsəlman ənənələrini Avropa modernizmi ilə birləşdirərək Azərbaycanda dünyəvi qadın təhsilinin əsasını qoydu. Bu məktəbi bitirən onlarca azərbaycanlı qız sonradan Azərbaycanın tərəqqisində yaxından iştirak etmiş, Cümhuriyyət fəallarından olmuşlar: Rəhilə Hacıbabəyova, Şəhrəbanu Şabanova, Şəfiqə Əfəndizadə, Səkinə Axundzadə, Məryəm Qembitskaya, Naxçıvanda qızlar məktəbi açan Nazlı Tahirova, Bakıda "Qadın Xeyriyyə Cəmiyyəti"ni yaradan Liza Muxtarova, Züleyxa Vəliyeva, Səltənət Vəliyeva və başqa qadınlarımız.

Hacı Zeynalabdin Tağıyevin başladığı bu mühüm işi Azərbaycan Xalq Cümhuriyyəti hökuməti davam etdirdi. Cümhuriyyət parlamenti xalq maarifinin inkişafına çox mühüm təkan verən ilk tədbirlərdən biri olaraq, 1918-ci il 27 iyun tarixli qərarı qəbul etdi. Qərara əsasən, Azərbaycan-türk dili dövlət dili

elan edildi. Cümhuriyyət hökuməti milli kadrların yetişdirilməsinə, bu sahədə təhsilin tamamilə yenidən qurulmasına xüsusi əhəmiyyət verirdi.

Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlər nəticəsində artıq 1919-cu ilin əvvəllərində ölkədə dövlət hesabına 637 ibtidai məktəb və 23 orta ixtisas təhsili məktəbi fəaliyyət göstərirdi. Orta məktəblər arasında 6 kişi və 4 qadın gimnaziyası, 5 "realnı" məktəb, 3 müəllimlər seminariyası, "Müqəddəs Nina" qızlar üçün 3 tədris müəssisəsi, politexnik məktəb və kommersiya məktəbi var idi. 1919-cu ilin əvvəllərində Bakı qadın müəllimlər seminariyası kişi müəllimlər seminariyasına çevrildi. Valideynlər artıq heç nədən çəkinmədən qızlarını məktəbə göndərirdilər. Hökumət xalqın milli ənənələr, vətənpərvərlik ruhunda tərbiyə olunmasında əhəmiyyətli rol oynayan muzeylərin, digər maarif və sənət ocaqlarının açılması sahəsində də mühüm tədbirlər həyata keçirirdi.

Bu gün təhsilə ictimai tərəqqinin ən mühüm amillərindən biri kimi baxılır. Cəmiyyətin tələblərini ödəmək üçün təhsil daha səmərəli və məqsədyönlü qurulmalıdır. Elə buna görə də qadınların təhsilin verdiyi imkanlardan dolğun istifadə etmələri günün aktual problemlərindən biridir. Təhsil kişilərlə qadınların hüquq bərabərliyini təmin edən təməldir. Azərbaycanda ənənəvi olaraq yüksək təhsil səviyyəsi mövcuddur. Dövlət Statistika Komitəsinin 1999-cu ildə keçirdiyi siyahıyaalmanın nəticələrinə görə, ölkədə 15 və ondan yuxarı yaşda olan əhali qrupuna aid qadınlar arasında savadlılıq dərəcəsi 98,2 faiz, kişilər arasında isə 99,5 faiz olmuşdur.

2015/2016-cı tədris ilinin əvvəlinə dair məlumata görə, dövlət ali məktəblərində qadınların xüsusi çəkisi 49,7 faiz, kişilərin xüsusi çəkisi isə 50,3 faiz olub. Qadınlar əsasən pedaqoji, səhiyyə, qida məhsullarının texnologiyası, təbiət elmləri, eləcə də mədəniyyət və incəsənət ixtisaslarına üstünlük verirlər.

Qeyd etmək lazımdır ki, gender fərqliliyi təhsilalma prosesində öz təsirini göstərir. Təhsil maraqları qızlar və oğlanlar arasında müxtəlifdir. Oğlanlar adətən daha çox təbiət, texniki, humanitar fənlərə, qızlar isə daha çox humanitar fənlərə və tibb sahəsinə meyllidirlər. Son illər texniki profilli təhsil müəssisələrində qızların sayı artmaqdadır. Gender məsələləri ilə bağlı

ali və orta təhsil müəssisələrində davamlı maarifləndirmə işləri aparılmalıdır.

Yerli qanunvericiliyin təhlili göstərir ki, Azərbaycanda həm qadın, həm də kişilər təhsil almaqda bərabər hüquqlara malikdirlər. Göründüyü kimi, hüquqi-normativ aktlarda heç bir ayrı-seçkiliyə yol vermədən təhsil gender bərabərliyinə və qadınların imkanlarının genişləndirilməsinə nail olmağın mühüm və daha əhəmiyyətli vasitələrindən biridir. Keyfiyyətli təhsil həm də əhalinin yoxsulluqdan qorunmasına imkan verən ən vacib amillərdəndir. Bu, qismən onunla izah edilir ki, təhsillilər əmək bazarında daha çox rəqabət qabiliyyətinə malik olurlar.

2006-cı ildə qəbul edilmiş "Gender bərabərliyinin təminatları haqqında" qanuna görə, dövlət qadınlara ictimai həyatın bütün sahələrində, o cümlədən təhsildə kişilərlə bərabər imkanlar yaradılmasına təminat verir. Təhsil insanın inkişafını və həyat keyfiyyətlərini yaxşılaşdırmaq üçün onu vacib olan bilik və bacarıqlarla təmin edir, cəmiyyət üçün faydalı şəxslər formalaşdırır. Təhsilli qadınlar uşaqlarının təhsilinə daha çox əhəmiyyət verərək, gələcək nəslin yüksək rifahı üçün zəmin yaradırlar.

İnsan hüquqları təhsili və ümumiyyətlə, hüquqi maarifləndirmə baxımından müsbət təcrübələrdən biri də "Uşaq hüquqları üzrə pilləli tədris" proqramıdır. Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planının, İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının (MFP) müddəaları, o cümlədən BMT-nin Baş Məclisi tərəfindən bəyan edilmiş "İnsan hüquqları sahəsində maarifləndirmə" və "İnsan hüquqları sahəsində təhsil", UNESCO-nun "Davamlı inkişaf naminə təhsil" onilliyi əsasında başlanmış və Ombudsmanın təşəbbüsü və Təhsil Nazirliyi ilə əməkdaşlıqda orta ümumtəhsil məktəblərində insan hüquqları təhsili bazasında həyata keçirilən "Uşaq hüquqları üzrə pilləli tədris" proqramı geniş şəkildə tətbiq olunmaqdadır.

Bu interaktiv tədris proqramı bir tərəfdən insan hüquqları mədəniyyətinin formalaşmasına, digər tərəfdən isə məktəb mühitində insan hüquqlarının reallaşdırılmasına xidmət edir. Eyni zamanda bu təcrübə yüksək dəyərləndirilərək, həmin təhsil

ocaqlarında Uşaq hüquqlarının tədrisi mərkəzləri də yaradılmışdır. Müvafiq tədris vəsaitləri hazırlanmışdır ki, bu da uşaqlara ünvanlanan xüsusi hüquqi təhsil üçün Azərbaycan modelini formalaşdırmışdır. İnteraktiv metodlarla həyata keçirilən, insan hüquqları sahəsində bacarıqlara yiyələnmə məqsədi daşıyan tədris müəllimlər və şagirdlər tərəfindən böyük maraqla qarşılanır. Aidiyyəti fənn müəllimlərinin də bu proseslərə cəlb olunması onların bu sahədə bilik və bacarıqlarının artırılması ilə yanaşı, insan hüquqları təhsilinə yiyələnmiş ixtisaslı kadrların hazırlanması işinə öz töhfəsini verir.

Statistik materialların müqayisəli təhlili göstərir ki, 1965-ci ildə respublikanın xalq təsərrüfatında 414 min nəfər fəhlə və qulluqçu qadın çalışırdısa, 1980-ci ildə bu rəqəm 768 minə çatmışdı. 15 il ərzində respublikanın xalq təsərrüfatında çalışan fəhlə və qulluqçular arasında qadınların sayı 354 min nəfər artmışdı. Qeyd olunan dövrdə Azərbaycan SSR-də işləyən əhali arasında ali və orta (tam və natamam) təhsilli qadınların sayı kişilərə nisbətən yüksək olmuşdur. 1970-ci ildə 1959-cu ilə nisbətən ali və orta təhsilli kişilərin sayı 5,1 dəfə, qadınların sayı isə 7 dəfə artmışdı. Bu, qadınların nəinki ictimai istehsalatda işləməsinə, hətta onların yaradıcılıq və ictimai-siyasi fəaliyyətinin inkişafına geniş imkanlar açmışdır.

Azərbaycanda təhsil sistemi öndə gedən prioritet sahələrdən biri olaraq, ölkə rəhbərliyinin daim diqqət mərkəzindədir.

Bəzi ölkələrdə qadın və qızların savadsızlığının ləğvi və savadının artırılması istiqamətində aparılan fəaliyyət üçün resursların çatmaması, tələb olunan siyasi iradənin olmaması, təhsil sahəsində infrastrukturun təkmilləşdirilməməsi və islahatların keçirilməməsi, mövcud gender ayrı-seçkiliyi və mənfi təsirlər, xüsusən də müəllim hazırlığında, orta və ali məktəblərdə və icmalarda qadınların peşəsi ilə bağlı stereotip təsəvvürlərin olması, uşaqlara qayğı müəssisələrinin yoxluğu, tədris materiallarında daim gender stereotiplərindən istifadə olunması və ali məktəblərdə təhsil alan qadınların sayı ilə əmək bazarının dinamikası arasında olan əlaqəyə lazımi səviyyədə diqqət yetirilməməsi kimi amillər hələ də mövcuddur. Bir çox icmaların ucqar yerlərdə yerləşməsi və bəzi hallarda əmək haqqı və imtiyazların səviyyəsinin aşağı olması belə ölkələrdə təhsil

sahəsinə mütəxəssislərin cəlb edilməsini çətinləşdirir. Bu da təhsilin keyfiyyətinin aşağı düşməsi ilə nəticələnir.

Bundan əlavə, bəzi ölkələrdə iqtisadi, sosial və infrastrukturun zəif inkişafı ənənəvi olaraq, ayrı-seçkiliyə məruz qalan qızların məktəbə davamiyyətinin aşağı olmasına gətirib çıxarır.

Bir sıra inkişaf etməkdə olan ölkələrdə iqtisadi, sosial və siyasi səviyyələrdə qadınlara qarşı qeyri-bərabərliyin daha da kəskinləşməsinə səbəb olan savadsızlığın aradan qaldırılmasında tərəqqi müşahidə olunmaqdadır.

Azərbaycanda Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (indiki Dövlət İmtahan Mərkəzi) 1992-ci ildən qəbul imtahanları keçirir. 1996-cı ildən başlayaraq, komissiyanın elmi-statistik araşdırmalarında gender aspektləri nəzərə alınıb. TQDK-nın məlumatına görə, 2015/2016-cı tədris ilində ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün 93116 nəfər abituriyent sənəd vermişdir. Ali məktəblərə sənəd verən abituriyentlərin 52.80 faizini (49163 nəfər) oğlanlar, 47.20 faizini (43953 nəfər) isə qızlar təşkil etmişdir. Artıq ikinci ildir qəbul imtahanlarında iştirak etmək üçün ərizə verən abituriyentlər arasında oğlanların sayının qızların sayından çox olmasına baxmayaraq, qəbul imtahanlarında iştirak edənlərin cinsi tərkibi əhalinin ümumi tərkibinə uyğundur. Respublikamızın elmi-tədqiqat müəssisələrində kişilərlə bərabər qadınlar da elmi fəaliyyətlə məşğul olurlar. Azərbaycanda elm sahəsində çalışanların 43 faizi qadınlardır.

2014/2015-ci tədris ilində ölkədə fəaliyyət göstərən 61 orta ixtisas təhsili müəssisəsində 60478 tələbə təhsil alıb. Kolleclərdə təhsil alan tələblərin üçdə iki hissəsini qadınlar təşkil edib. Dövlət Statistika Komitəsinin hesabatına əsasən, 2015/2016-cı tədris ilinin əvvəlində Azərbaycanda bakalavr və magistrlərin hazırlanmasını həyata keçirən 39 dövlət və 14 qeyri-dövlət ali təhsil müəssisəsində təhsil alanların sayı 158212 nəfər olub. Onların da 48,5 faizini qadınlar təşkil edir.

Qızların ictimai fəallığı və qərar qəbuletmədə iştirakının artırılması, onların liderlik keyfiyyətlərinin inkişaf etdirilməsi hər zaman Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin diqqət mərkəzindədir. Ombudsmanın resurs mərkəzi olan Uşaq və Gənclərin Sülh Şəbəkəsinin nəzdində

fəaliyyət göstərən "Liderlik məktəbində" yüzlərlə yeniyetmə və gənc qızlar illik kursun müdavimi olaraq, sertifikat alırlar. Kurs çərçivəsində ekspertlər tərəfindən qadınlarımızın ictimai fəallığının və qərar qəbuletmədə iştirakının artırılması, yeniyetmələrə və gənclərə liderlik keyfiyyətlərinin aşılanması və s. mövzularda treninq-seminarlar keçirilir. Azərbaycan Ombudsmanı gender münasibətlərinin tədris proqramlarında, o cümlədən dərsliklərdə də nəzərə alınmasını, müəllim və tərbiyəçilərin uşaqlara yanaşmasında təmin olunmasını tövsiyə edir.

Müvəkkilin təşəbbüsü ilə Bakı Dövlət Universitetinin (BDU) hüquq fakültəsində "İnsan hüquqları" və "Genderə giriş" fənlərinin tədrisinə başlanmışdır. "Genderə giriş" kursunun məqsədi tələbələrin gender konsepsiyası və gender elmi – genderologiya ilə tanışlığıdır. Kurs BDU-nun 15 fakültəsində keçirilir.

Təhsil qadınların cəmiyyətdə fəallığının artmasına, sosial-iqtisadi imkanlarına, qərar qəbuletmədə kişilərlə bərabər səlahiyyətlərə malik olmasına, belə hallarda gender əsaslı bərabərsizliyi azaltmağa və qadınların tarix boyunca qarşılaşdığı əlverişsiz vəziyyəti aradan qaldırmağa geniş imkanlar yaradır. Təhsil gender bərabərliyinə və qadınların imkanlarının genişləndirilməsinə nail olmağın mühüm və daha əhəmiyyətli vasitələrindən biridir.

Keyfiyyətli təhsil həm də əhalini yoxsulluqdan müdafiə etməyə imkan verən ən vacib amillərdən biridir. Bu, qismən onunla izah olunur ki, təhsili olanlar əmək bazarında daha çox rəqabət qabiliyyətinə malik olurlar.

**Tələbələrin biliklərinin qiymətləndirilməsi üçün suallar:**

1. Qadın təhsilinin tarixi.
2. Azərbaycanda qadın təhsilinin inkişafı.
3. Azərbaycan Respublikasэnda dцvlətin təhsil siyasəti.
4. Təhsil sahəsində qəbul edilmiє Dцvlət Proqramlarэ.
5. Azərbaycan Respublikasэnda qadэnlarэn təhsil hьququ.
6. "Azərbaycan Respublikasэnda Təhsilin Эnkiюafэ ьzrə Dцvlət Strategiyasi"nэn əsas istiqamətləri.
7. Beynəlxalq sənədlərdə qadэnlarэn təhsil hьququ.
8. Qadэn və gender tədqiqatlarэnэn mərhələləri.

## Mühazirə 14. Reproduktiv Saplamləpən gender aspektləri və ətraf mühit

*1. Səhiyyə və reproduktiv sağlamlıq*
*2. Reproduktiv hüquqlar*
*3. Azərbaycanda reproduktiv saplamləpən gender aspektləri*
*4. Qadın sağlamlığı və ətraf mühit*
*5. Ombudsmanın ailə planlaşdırılması və reproduktiv sağlamlıqla bağlı fəaliyyəti*

### 1. Səhiyyə və reproduktiv sağlamlıq

Demokratikləşən müasir dünyada insan hüquqlarının qorunması və bu hüquqlara hörmət əsas prioritet istiqamətlərdən biridir. Bura bir sıra sahələrlə yanaşı, insan həyatının ən vacib şərtlərindən olan sağlamlıq hüququ da daxildir. Sağlamlıq hüququ insanın sağlamlığının qorunmasına, sağlam həyat sürməklə həm cismani, həm də mənəvi mənada sağlam cəmiyyətin qorunmasına şərait yaradır. İnsanların dünyada normal həyat sürməsi və fəaliyyət göstərməsi üçün bir çox amillərin yerində olması vacibdir. Bunların ən başlıcası sağlamlıqdır. İnsan bədəni sağlam olmadıqda, heç bir normal fəaliyyətdən və inkişafdan söz gedə bilməz. Sağlam insan dedikdə təkcə onun bədəninin sağlamlığı deyil, həm də əqli sağlamlığı nəzərdə tutulur.

Qeyd etmək lazımdır ki, səhiyyə sisteminin inkişaf etdirilməsi ölkə üçün ən prioritet sahələrdən biridir. Səhiyyə sistemi zəif olan ölkələrdə, bu, gec-tez digər mühüm sahələrə də öz mənfi təsirini göstərir.

Qadınların və bütövlükdə cəmiyyətin sağlamlıq göstəricilərindən biri olan reproduktiv sağlamlıq ictimai münasibətlərin tənzimləyicisidir. İnsanın reproduktiv funksiyası həyatın intim tərəfi ilə bağlıdır ki, bunun da xarakteri həm orqanizmin anadangəlmə xüsusiyyətləri, həm də milli, mədəni və dini adətlərin, həmçinin sosial-iqtisadi, amillərin təsiri altında formalaşan, sonradan qazanılmış əlamətlərlə müəyyən edilir. Məhz bunlar, reproduksiyanın effektivliyini sürətləndirərək, populyasiyanı və genofondu qoruyub saxlayır.

Cinsindən, irqindən, yaşından, dinindən və s. əlamətlərindən asılı olmayaraq, hər kəsin reproduktiv və sosial sağlamlıq hüququ vardır. Reproduktiv sağlamlıq həm ayrı-ayrı şəxslər, həm də bütövlükdə ailə üçün böyük əhəmiyyət kəsb edərək, cəmiyyətin və millətin sosial-iqtisadi inkişafının səviyyəsini xarakterizə edir.

Bu sahədə atılmış ən mühüm addımlardan biri 1997-ci ildə İstanbulda keçirilən "Habitat" Beynəlxalq konfransı olmuşdur. Demoqrafların fikrincə, yaş meyarı əhalinin təkrar istehsalının xüsusiyyət və dinamikasından birbaşa asılıdır. Əhalinin təbii hərəkəti, yaxud təkrar istehsalı, əhalinin doğum, ölüm və təbii artım (yaxud, azalma) göstəriciləri, yəni il ərzində doğulanların və ölənlərin nisbəti ilə ölçülür. Əhalinin təkrar istehsalına bir çox amillər təsir göstərir. Əhalinin təbii hərəkətində sosial-iqtisadi amillər – rifah halının səviyyəsi, səhiyyənin inkişafı, qadının ictimai vəziyyəti, əhalinin təhsil və mədəni səviyyəsi, dinlər və s. müəyyənləşdirici rol oynayır. Müharibələr, etnik münaqişələr və miqrasiyalar da yaş meyarına ciddi təsir göstərir. Müasir demoqrafiya həm də gender aspektindən əhalinin cins tərkibi problemini də nəzərdən keçirir. Son 50 ildə sosial cəmiyyətin demoqrafik strukturunda ciddi dəyişikliklər baş vermişdir. Tibbi texnika və texnologiyanın sürətli inkişafı ilə bərabər, insanların şüurunda müsbət irəliləyişlər də nəzərə çarpır. Bu amillər fəal olduqca, bəşəriyyət özünün uzunömürlülüyü haqqında düşünür. Demoqrafların tədqiqatları bizim müasirlərimizin bəşər tarixində ən uzunömürlü sivilizasiya olduğunu göstərir. Müxtəlif xəstəlik və epidemiyalar tədricən arxada qalmış, insanlar ən müxtəlif müalicə üsulları əldə etmişlər. Bir çox xəstəlikləri, o cümlədən qadın xəstəliklərini müəyyən etməyə imkan verən elmi-tibbi metodikalar həkimlərin tədqiqat obyektinə çevrilmişdir. Eyni zamanda, qadın ailənin həyat strukturunda yeniliklərlə qarşılaşmışdır. Ənənəvi çoxuşaqlı ailələr azsaylı ailələr ilə əvəz olunmuşdur ki, burada həm ata, həm də ana ailənin təminatçısı rolunda çıxış edir. Müasir qadın sabit, inkişaf etmiş cəmiyyətin fəal qurucusudur. Nəticədə, üzərinə düşən məsuliyyət çoxaldıqca, qadının sağlamlığı üçün risk ehtimalı artır. Müasir qadın öz cəmiyyətində yeni keyfiyyətləri ilə təmsil edilir. O, bütün ictimai proseslərdə

və siyasi fəaliyyətdə iştirak edir. Məhz buna görə onun mövcud dəyişikliklərə yaradıcı adaptasiyası bir çox dəyərlərin yeniləşməsinə gətirib çıxarır.

Reproduktiv sağlamlıq cinsi inkişaf və ginekoloji inkişaf məfhumlarından daha geniş anlayışdır. O, cinsi, fiziki, psixoseksual, psixososial inkişafın somatik və psixoloji sağlamlığının ahəngini və tarazlığını ehtiva edir.

Reproduktiv sağlamlıq – fiziki, mənəvi və sosial rifah vəziyyətidir. Bu, təkcə reproduktiv sistemlə onun funksiyası və problemləri ilə bağlı xəstəliklərin olmaması demək deyildir. Reproduktuv sağlamlıq nəsil artırmaq qabiliyyətinin olması və azad seçim deməkdir. Bu sağlamlığın təməli yeniyetmə dövründə yaranır və bütün həyat boyu qorunub-saxlanılır.

Reproduktiv sağlamlıq üzrə bilik və bacarıqlara yiyələnməklə yeniyetmələr sanitariya, gigiyenik qaydalara əməl etmək, həyatın bütün nemətlərindən şüurlu surətdə bəhrələnmək, hər cür zərərli vərdişlərdən (siqaret çəkmək, alkoqol və narkotik maddələrdən istifadə) uzaqlaşmağı öyrənirlər. Onlar qida ilə sağlamlıq arasındakı qarşılıqlı əlaqələri və qidaların seçilməsində düzgün qərar verməyi bacarırlar. Beləliklə, gənclər reproduktiv sağlamlığın qorunması yollarını mənimsəyir, həm öz sağlamlıqları, həm də gələcək nəslin sağlamlığı üçün məsuliyyəti öz üzərinə götürmək bacarıqlarına yiyələnirlər. Gənclər müxtəlif parazitar, infeksion və digər yoluxucu xəstəliklərdən qorunma vərdişləri qazanır, insanda immunçatışmazlığı virusu (İİV) vasitəsilə törənən QİÇS (Qazanılmış İmmun Çatışmazlığı Sindromu) xəstəliyi barədə bilgilər alır, ondan qorunma yollarını öyrənirlər.

Reproduktiv sağlamlıq məfhumunun tərkib hissələri aşağıdakılardır: *cinsi sağlamlıq* (məsuliyyətli, təhlükəsiz cinsi həyat), *ailənin planlaşdırılması* (reproduktiv sərbəstlik, informasiya, metod və xidmətlərdən istifadə etmək imkanı) və *təhlükəsiz analıq* (təhlükəsiz şəraitdə keçən hamiləlik, doğuş və sağlam uşaqlar).

Reproduktiv sağlamlığın mühafizəsi sadəcə reproduktiv funksiya və cinsi yolla yoluxan xəstəliklərlə bağlı məsləhət və tibbi xidmətlərlə məhdudlaşmır. O, eyni zamanda həyatın və şəxsi münasibətlərin yaxşılaşması məqsədinə yönəlmiş cinsi

sağlamlığın mühafizəsini ehtiva edir. Reproduktiv sağlamlıq anlayışı ilk dəfə XX əsrin 90-cı illərinin ortalarında BMT-nin iki konfransında — 1994-cü ildə Misirin Qahirə şəhərində keçirilmiş Əhali və İnkişaf üzrə və 1995-ci ildə Çinin Pekin şəhərində düzənlənmiş Qadınların IV Ümumdünya Konfranslarında təsdiqini tapmaqla beynəlxalq səviyyəyə çıxmış və bu günə kimi öz aktuallığını saxlamışdır. Burada əsas məqsəd fərdlərin, ailələrin öz seçimləri əsasında effektli, qanuni və ailə planlaşdırılması üçün əlverişli məlumat almaqdır. Reproduktiv sağlamlıq təhlükəsizlik, hamiləlik və doğum dövrü ilə yanaşı, müvafiq səhiyyə xidmətlərindən istifadə etməyi, kişi və qadınların gender bərabərliyi çərçivəsində hüquqlarını nəzərdə tutur.

2012-ci ildə BMT-nin Əhali Fondunun (UNFPA) İcraçı direktoru Dr. Babatunde Osotimehin demişdir ki: "Doğuş bir qadının həyatında ən xoşbəxt an hesab oluna bilər. Bununla belə, bu proses bütün dünyada bir çox qadının həyatına son qoyur. Hər gün, hamiləlik zamanı və ya çox vaxt qarşısı alına bilən ağırlaşmalar zamanı 800-dən çox qadın vəfat edir. Hər ölən qadın sayına əlavə olaraq, daha 20 qadın mamalıq fistülu kimi dözülməz doğuş travmalarından əziyyət çəkir. Bu problemin öhdəsindən gəlmək üçün artıq beynəlxalq razılıq əldə edilmişdir. Hazırda, ehtiyacımız olan yeganə amil imkanlar, sürətləndirilmiş və davamlı fəaliyyətdir."

Qadın və qızların həyatı və rifahı naminə çalışmaq insan hüquqları baxımından zəruridir. Xalqların inkişafında potensiallarından tam yararlana bilmək üçün qadınların həyatını və ailələrini planlaşdıra bilmələri şərtdir. Məhz buna görə də, beynəlxalq ictimaiyyət reproduktiv sağlamlıq xidmətlərindən universal istifadə imkanının təmin edilməsini prioritet kimi müəyyən etmişdir.

Qadın və uşaq sağlamlığı insan inkişafının ən vacib məqamlarından biridir. Buna baxmayaraq, qadın və uşaqlar qarşısı alına bilən xəstəliklərdən əziyyət çəkir və bəzən dünyalarını dəyişirlər. Hamiləlik və uşaq dünyaya gətirmək dünyada ən yaxşı hisslərdən biri olduğu kimi, bəzi hallarda bu, əlavə stress, sağlamlıq problemləri və ölümə gətirə bilər. Qadınların gənc yaşlarından tutmuş hamiləlik, uşaq doğumu və analıq müd-

dətinədək olan həyat səviyyəsi uşaqların da həyatına birbaşa təsir edir. Ona görə ana sağlamlığı və qadınların reproduktiv sağlamlıq xidmətlərinə əlçatanlığı çox əhəmiyyətlidir.

Dünya ölkələri və beynəlxalq təşkilatlar reproduktiv sağlamlığı insan inkişafının ən vacib məqamlarından biri hesab edirlər. Reproduktiv sağlamlıq Minilliyin İnkişaf Məqsədlərində 5-ci hədəf kimi qarşıya qoyulmuşdur. Buna baxmayaraq, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, bu sahədə inkişaf hələ də arzuolunan səviyyəyə gəlib çatmamışdır. Bu, özünü Afrika ölkələrinində daha çox göstərir. Afrika ölkələrinin çoxunda hələ də uşaq planlaşdırmaq üçün kontraseptiv üsullardan istifadə olunmur. Dünyada azyaşlılar arasında hamiləlik hələ də yuxarı səviyyədə qalmaqdadır. Cənubi Afrikada yerləşən ölkələrdə azyaşlılar arasında doğum göstəricisi dünyada ən yüksəkdir. Rəsmi statistikaya görə, Azərbaycanda 2015-ci ildə nikah yaşı çatmayan 15-17 yaşlı qızlar tərəfindən üç minə yaxın (2895) körpə dünyaya gətirilib. 2015-ci il ərzində abort edənlərdən 50 nəfəri 15-17 yaş arası yeniyetmə, 1485 nəfəri isə 18-19 yaş arası qızlar olub. Qeyd etmək lazımdır ki, 2014-cü ildə abort edən nikah yaşına çatmayan qızların sayı 88 nəfər olub.

Bir sıra ölkələr reproduktiv sağlamlıq anlayışının həm beynəlxalq müqavilələr, həm də milli qanunvericilik vasitəsilə əsaslandırılmış etik bir vəzifə kimi qüvvəyə minməsi üçün öhdəlik götürüblər.

Ailə planlaşdırılması əsas insan hüququdur. Lakin ayrı-ayrı şəxslər və cütlüklərin mayalanmaya qarşı vasitələrdən, informasiya və xidmətlərdən istifadə imkanı olmadıqda, bu, heç bir məna daşımır. Müasir qoruyucu vasitələrdən istifadə 21 milyon planlaşdırılmamış doğuşun, 79.000 ana ölümünün və 1.1 milyon uşaq ölümünün qarşısını almağa kömək edə bilər. Bir çox inkişaf etməkdə olan ölkələrdə hamiləlik və doğuş zamanı ağırlaşmalar 10-19 yaşlardakı qızlar arasında əsas ölüm səbəbi hesab edildiyi halda, cinsi yolla yoluxan infeksiyaların ən yüksək göstəricisi 15-24 yaşlardakı gənclər arasında müşahidə edilir. Bu gənclərin ehtiyaclarının ödənilməsi və insan hüquqlarının müdafiəsi üçün təcili tədbirlər görülməlidir.

Müasir dövrdə dünyanın demoqrafik vəziyyəti mürəkkəb

ikili xarakterlə izah edilir:

▪ Avropa və Şimali Amerika ölkələrində doğum sayının və əhalinin artım tempinin kəskin şəkildə aşağı düşməsi və əhalinin qocalması;

▪ Asiya, Afrika və Latın Amerikasının inkişaf etməkdə olan ölkələrində əhali “sayının” sürətlə artması, ana və uşaqların xəstəlik və ölüm göstəricilərinin yüksək olması.

İnkişaf etməkdə olan ölkələrdə yüksək fertillik, doğum sayı və bununla yanaşı, xüsusilə yeniyetmələr arasında ana və perinatal xəstəlik və ölüm hallarının yüksək göstəriciləri, həmçinin somatik, ginekoloji və cinsi yolla yoluxan xəstəliklərin yoluxma göstəricisinin yüksək olmasına təsir edən reproduktiv sağlamlığın aşağı səviyyəsi gənc nəslin reproduktiv sağlamlığının yaxşılaşdırılmasını prioritet problem kimi əvvəlcədən müəyyən edir.

Asiya, Afrika, Latın Amerikasının inkişaf etməkdə olan ölkələrində, həmçinin MDB məkanında və Şərqi Avropa dövlətlərində gənc əhalinin reproduktiv sağlamlıqla bağlı informasiya sahəsində tələbatının ödənilməsi labüddür. Mövcud sosial-iqtisadi şərait onları daha da ciddiləşdirir, bu isə yeniyetmə fertilliyi, ana və perinatal ölümünün, cinsi yolla yoluxan xəstəliklərin, ginekoloji və somatik xəstələnmələrin, zərərli vərdişlərin səviyyəsinin aşağı salınması və profilaktikası üzrə təcili tədbirlərin görülməsini tələb edir.

Digər regionlara nisbətən “seksual inqilabın” daha erkən baş verdiyi Qərbi Avropa ölkələrində gənc əhalinin müasir nəsli yalnız inkişaf etməkdə olan ölkələrdə yaşayan həmyaşıdları ilə deyil, həm də öz valideynləri ilə müqayisədə reproduktiv sağlamlıq baxımından daha yüksək fəallığı ilə xarakterizə edilir. Bu, həmin ölkələrdə dövlət səviyyəsində müvafiq problemlərin effektiv həlli strategiyasının işlənib hazırlanması ilə, ailə planlaşdırılması xidməti üzrə təşkilatların yalnız tədris müəssisələrində deyil, həm də kütləvi informasiya vasitələrində mütəmadi fəaliyyəti ilə, bu sahədə maarifləndirmənin yüksək keyfiyyətinin təmin olunması ilə izah edilir.

Aparılan iş nəticəsində Qərbi Avropa ölkələrində doğum sayının tənzim edilməsi metodlarından istifadə səviyyəsi 52-75 faiz arasında dəyişir, yeniyetmə fertilliyinin və cinsi yolla yo-

luxan xəstəliklərin səviyyəsi isə ildən-ilə azalır. Odur ki, seksual maarifləndirmə və ailə planlaşdırılması sosial inkişafın, insan amilinin və təbii resursların yaxşı vəziyyətinin ən mühüm elementidir.

Reproduktiv sağlamlıq xidmətləri, xüsusilə könüllü ailə planlaşdırılması xidmətindən yararlanmaq üçün götürülmüş öhdəliklər bir də nəzərdən keçirirməlidir. 1994-cü ildə Qahirədə keçirilmiş Əhali və İnkişaf üzrə Beynəlxalq Konfransda dünya liderləri tərəfindən götürülmüş bu öhdəlik, indi də eyni dərəcədə aktualdır.

Ümumdünya Əhali Fondu 2015-ci ildən sonra yeni beynəlxalq inkişaf planının, o cümlədən inkişaf və yoxsulluğun aradan qaldırılması ilə bağlı qəbul edilmiş bütün plan və taktikaların əsas elementlərindən olan, hər kəs üçün cinsi və reproduktiv sağlamlıq xidmətlərindən istifadə etmək imkanı, xüsusilə də könüllü ailə planlaşdırılmasını təmin etmək üçün bütün tərəfdaşları ilə fəaliyyət göstərəcəyinə dair götürdüyü öhdəlikləri bir daha təsdiq edir.

Minilliyin İnkişaf Məqsədlərinə (MİM) nail olmaq üçün üzv-ölkələr 2015-ci ildən sonrakı müddətə yeni inkişaf çərçivəsini planlaşdırmaq və inkişaf hədəflərini müəyyənləşdirmək üçün 2012-ci ilin iyun ayında Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilən Dayanıqlı İnkişaf üzrə BMT Sammitinə (Rio+20) yığışmış və Dayanıqlı İnkişaf Məqsədləri formalaşdırmağı qərara almışlar. Azərbaycan da 2015-ci ildən sonrakı inkişafa dair milli dialoqlara başlamış 87 ölkəyə qoşulmuşdur. Əhalinin dinamikası və miqrasiya, yaşlanma, reproduktiv sağlamlıq və gender məsələləri üzrə məsləhətləşmələri aparmaq məqsədilə, BMT-nin Əhali Fondu, Ombudsman təsisatı, Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) və milli QHT-lər əməkdaşlıq etmişlər.

2015-ci ilin sentyabrında dünya liderləri insanları və planeti dayanıqlı inkişaf yoluna aparacaq birgə razılaşdırılmış hədəflərdən ibarət olan yeni Dayanıqlı İnkişaf Məqsədlərini qəbul etdilər. Sayı 17 olan bu Məqsədlər aclığa son qoymaq, insan həyatını dəyişmək və planetimizi qorumaq üçün ölkələrin qlobal fəaliyyət istiqamətlərini müəyyən edəcək yeni inkişaf gündəliyinin təməlini qoymuşdur. Bu məqsədlərdə, əlbəttə,

yaxşı səhiyyə və gender bərabərliyi də mühüm yer almışdır.

## 2. Reproduktiv hüquqlar

Azərbaycan Respublikasının Konstitusiyasına (41-ci maddə) əsasən, hər bir vətəndaşa öz sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ verilmişdir. Bundan başqa, hər bir qadının dünyaya uşaq gətirməsi ilə əlaqədar olaraq öz sağlamlığını qorumaq hüququ vardır. Bu Qanuna əsasən, hər bir vətəndaşa pulsuz tibbi yardım göstərmək məqsədi ilə respublikada xəstəxana və müalicə ocaqları sistemi yaradılmış, uşaq və qadın müalicə mərkəzləri fəaliyyət göstərir.

Reproduktiv hüquqlar milli qanunvericilikdə, insan hüquqlarına dair beynəlxalq sənədlərdə, həmçinin Birləşmiş Millətlər Təşkilatının konsensus (razılıq) əsasında qəbul etdiyi sənədlərdə insanın etiraf edilən bəzi hüquqlarını əhatə edir. Bu hüquqlar ər və arvadın, ayrı-ayrı şəxslərin öz uşaqlarının sayı haqqında, onların doğulma vaxtı və doğulma vaxtları arasında olan zaman haqqında zəruri məlumatlara malik olaraq, cinsi və reproduktiv sağlamlıqları ilə əlaqədar öz hüququndan xəbərdar olaraq azad və məsuliyyətli qərar qəbuletmə imkanını əks edir. Bu, eyni zamanda onların gələcək övladlarını dünyaya gətirmələri haqqında hər hansı bir ayrı-seçkilik, təzyiq və zor olmadan qərar qəbuletmə hüququnu da əhatə edir. Həmin məsələ insan hüquqları haqqında sənədlərdə öz əksini tapmışdır. Bu hüququ həyata keçirərkən, ər, arvad, ayrı-ayrı şəxslər doğulmuş və doğulacaq uşaqlarının ehtiyaclarını və özlərinin cəmiyyət qarşısında məsuliyyətlərini nəzərə almalıdır. Bütün insanları bu hüquqların həyata keçirilməsinə məsuliyyətli yanaşmağa təşviq etmək, ailənin planlaşdırılması da daxil olmaqla, reproduktiv sağlamlıq sahəsində hökumət və icmaların siyasəti və proqramlarının təməlidir. Cinslərin, onların öhdəlikləri çərçivəsində qarşılıqlı hörmətə əsaslanan bərabərliyinin təbliğinə ciddi diqqət verilməli, xüsusilə yeniyetmələrin məlumatlanması və onların xidmətlərdən istifadəsi üçün imkanlar yaratmaq lazımdır ki, öz cinsi həyatları ilə müsbət və məsuliyyətli şəkildə davransınlar. Bu gün dünyada bəzi insanlar üçün reproduktiv sağlamlıq aşağıdakı amillər səbəbindən əlçatmazdır: insanların cinsi həyat haqqında məlumat səviyyəsinin aşağı olması və ya

onların əldə etdikləri məlumat və müvafiq xidmətlərin keyfiyyətsizliyi; ayrı-seçkilik səciyyəli sosial işlər; qadın və qızlara qarşı mənfi münasibət bir çox hallarda qadın və qızların öz cinsi və reproduktiv həyatlarına təsir etmək imkanlarını məhdudlaşdırır. Bir çox ölkələrdə yeniyetmələr informasiyanın və ya müvafiq xidmətlərdən istifadə imkanlarının olmamasından əziyyət çəkirlər. Yaşlı qadın və kişilər də reproduktiv və cinsi sağlamlıqla bağlı spesifik problemlərlə üzləşir və həmin problemlər çox vaxt lazımi həllini tapmır.

Qadının insan hüquqlarına onun cinsi əxlaqı, cinsi və reproduktiv sağlamlığı sahəsinə isə məcburiyyət, ayrı-seçkilik, zorakılıq olmadan azad və məsuliyyətlə qərar qəbul etməsi daxildir. Cinsi münasibət və reproduktiv davranış məsələlərində kişi və qadın münasibətlərinin bərabərliyi, şəxsiyyətin tam toxunulmazlığına hörmət, qarşılıqlı hörmət, razılıq, cinsi davranış və onun nəticələrinə görə hər iki cinsin məsuliyyəti tələb olunur.

Sağlam təməlli cəmiyyətin formalaşması önəm daşıdığı üçün, dünyanın bir sıra ölkələrində bu məsələyə çox ciddi yanaşılır, qanunvericilik sahəsində geniş islahatlar aparılır və beynəlxalq müqavilələr bağlanır. Qadın sağlamlığını əhatə edən səhiyyə proqramlarının işlənib hazırlanması bir çox ölkələrdə uzun ömürlülüyün təminatına təkan vermişdir. Bu, müxtəlif ölkələrin Proqramlarında qadın və qızların malyariya, vərəm, su vasitəsilə yayılan yoluxucu xəstəliklərdən, qarın-bağırsaq xəstəliklərindən və az qidalanmadan baş verən ölüm hallarının yüksək göstəricilərinə, Pekin Fəaliyyət Platformasının 94 və 95-ci maddələrində əhatə olunmuş cinsi və reproduktiv sağlamlıq və qadınların reproduktiv hüquqları məsələlərinə diqqət artırılır. Həmçinin bəzi ölkələrdə Platformanın 96-cı maddəsinin icrasına xüsusi diqqət yetirilir, ailə planlaşdırılması və qoruyucu (kontraseptiv) vasitələrdən istifadə metodlarının əhəmiyyəti barədə məlumatlar, eyni zamanda kişilərin ailə planlaşdırılmasında rolu və kontraseptiv vasitələrdən istifadə etmələrinin əhəmiyyəti barədə xəbərdarlıqları artırılır, cinsi yolla yoluxan xəstəliklərə, xüsusilə də qadınların və qızların insanın immunçatışmazlığı virusu ilə yoluxmalarına və bu növ yoluxucu xəstəliklərdən qorunma metodlarına xüsusi fikir

verilir. Eyni zamanda ana südü ilə körpələrin qidalandırılmasına, ümumi qidalanmaya, uşaq və ananın sağlamlığına, sağlamlıq və onunla bağlı təhsil və fiziki hazırlıq sahələrində gender məsələsinin tətbiq edilməsinə, məhz qadınlar üçün profilaktik və reabilitasiya proqramlarına narkomaniya, o cümlədən toksikomaniya, tənbəki, narkotiklər, spirtli içkilərlə mübarizə aspektlərinin daxil edilməsinə, qadınların əqli sağlamlığına, iş yerlərində sağlamlıq şəraitinə, ətraf mühit amillərinə və yaşlı qadınların xüsusi ehtiyaclarının tanınmasına diqqət artırılır.

Qadınların sağlamlıq hüququ insan hüquqları sahəsində mühüm əhəmiyyətə malikdir. Buraya qadınların səhiyyə xidmətlərindən bərabər istifadə etmək imkanları ilə yanaşı, reproduktiv sağlamlıq, vərəm, İİV/QİÇS, infeksion xəstəliklər və digər xəstəliklərdən qorunma, ana sağlamlığının müdafiəsi və bu kimi hüquqlar da daxildir.

Beynəlxalq sazişlərin müddəalarını rəhbər tutaraq, Azərbaycan Respublikası qadınların sağlamlıq hüququnun bərabər və tam şəkildə təmin edilməsinə böyük diqqət yetirir.

26 iyun 1997-ci ildə "Əhalinin sağlamlığının qorunması haqqında" Qanunun qəbul edilməsi bu istiqamətdə atılmış mühüm addım oldu. Əhalinin sağlamlığının qorunması siyasi, iqtisadi, hüquqi, tibbi və sanitariya-gigiyena tədbirləri kompleksindən ibarətdir. Bu qanuna əsasən, cinsi mənsubiyyətindən asılı olmayaraq, respublikamızın hər bir vətəndaşı öz sağlamlığının qayğısına qalmaq hüququnu qazanır. Həmçinin bu qanunda əhalinin reproduktiv sağlamlığı probleminə həsr olunmuş xüsusi bölmələr var.

Əhalinin reproduktiv sağlamlığı ilə bağlı bir çox məsələlər beynəlxalq hüquq normalarına və Azərbaycan Respublikası Konstitusiyasına əsasən, 6 mart 2000-ci il tarixində qüvvəyə minmiş və ailədə bərabərliyi təmin edən Azərbaycan Respublikasının Ailə Məcəlləsində təsbit olunmuşdur.

Nazirlər Kabinetinin 16 fevral 1999-cu il tarixli Sərəncamı ilə "Gənc ailə" Proqramı təsdiq edilmişdir. Proqramın əsas məqsədi yeni qurulan hər bir gənc ailənin nikahdan əvvəl və nikahdan sonrakı problemlərinin kompleks təhlili əsasında elə təkliflər sistemi hazırlamaqdır ki, həyata keçiriləcək tədbirlər

eyni zamanda həm hər bir ailənin xoşbəxtliyinə, həm də ölkənin tərəqqisinə ciddi kömək edə bilsin.

Nəzərdə tutulan tədbirlər gənclərin ailə qurarkən və ailə həyatında üzləşdiyi problemləri həll etməkdə dövlətin rolunu artırmaq, gənclərin sosial və ailə problemlərinin həllini harmonik surətdə uzlaşdırmağa kömək etmək, nəticədə ailə institutunun sabitləşməsinə, gənclər arasında ailə nüfuzunun və dəyərlərinin artmasına və sağlam nəslin yetişməsinə nail olmaqdan ibarətdir.

Bu Proqramın əsas istiqamətlərindən biri də Gənc ailənin reproduktiv sağlamlığının qorunması və gənclərin ailə, reproduktiv sağlamlıq problemlərinə dair məsələlər, istədikləri suallar ətrafında məlumat və məsləhətlər ala bilməsi üçün anonim etimad mərkəzlərinin yaradılması ilə bağlı tədbirləri nəzərdə tutmuşdur. Eyni zamanda gənclər arasında yaymaq üçün reproduktiv sağlamlığın, ailə planlaşdırılmasının mahiyyətini izah edən broşürlərin, yaddaş vərəqələrinin hazırlanması və reproduktiv sağlamlıqla bağlı əhalinin informasiya təminatının yaradılması işləri həyata keçirilmişdir.

Ölkə Prezidentinin 9 dekabr 1999-cu il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında demoqrafik vəziyyətin yaxşılaşdırılması və ölkənin demoqrafiya siyasətinin formalaşdırılması məqsədi ilə "Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası" təsdiq edilmişdir.

Bu Konsepsiyaya, əsasən, təhsil, məşğulluq, tibbi xidmət, o cümlədən cinsi və reproduktiv sağlamlıq, ailə planlaşdırılması sahələrində cinslər arasında bərabərliyin bərqərar olmasına yardım göstərmək dövlətin demoqrafiya sahəsində əsas vəzifələrinə aid edilmişdir.

Əhalinin reproduktiv sağlamlığının yaxşılaşdırılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsi, ailənin planlaşdırılması xidmətinin inkişafı, bu barədə əhalinin məlumatlandırılması və məlumat almalarının təmin edilməsi isə demoqrafiya sahəsində dövlət siyasətinin milli prioritetlərindəndir.

Ölkə Prezidentinin 11 noyabr 2004-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı qəbul edilmiş və bu sənəddə reproduktiv sağlamlıq haqqında bir çox məsələlər öz

əksini tapmışdır.

Azərbaycan Respublikası Prezidentinin 30 avqust 2005-ci il tarixli Sərəncamı ilə Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005-2009-cu illər) təsdiq edilmişdir. Dövlət Proqramının məqsədi Azərbaycan Respublikasında gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında onların fəal iştirakını təmin etmək üçün sosial-iqtisadi və təşkilati-hüquqi şərait yaratmaqdır. Bu mühüm sənəddə gənclərin reproduktiv sağlamlıq sahəsində biliklərə yiyələnməsi, müvafiq maarifləndirmə işinin səmərəliliyinin artırılması, gənclərə ailə planlaşdırılması və reproduktiv sağlamlıqla bağlı biliklərin verilməsi, bu sahədə xidmət göstərən müəssisələrin işinin təkmilləşdirilməsi məqsədilə orta ümumtəhsil məktəblərində reproduktiv sağlamlığın əsaslarına dair təhsil proqramlarının həyata keçirilməsi, yeni tövsiyələrin, dərsliklərin və dərs və-saitlərinin hazırlanması, ailə planlaşdırılması və reproduktiv sağlamlıq üzrə fəaliyyət göstərən mərkəzlərin işinin təkmilləşdirilməsi və yenilərinin yaradılması barədə tədbirlər nəzərdə tutulmuşdur.

Həmçinin, ölkə başçısının 7 iyul 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramında da sağlam həyat tərzi və reproduktiv sağlamlıq sahəsində maarifləndirmə işinin genişləndirilməsi təsbit olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 15 sentyabr 2006-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Ana və uşaqların sağlamlığının qorunması üzrə Tədbirlər Proqramı"nın məqsədi ana və uşaqların sağlamlığının möhkəmləndirilməsi, əhalinin reproduktiv sağlamlığının qorunması, sağlam və arzuolunan uşaqların doğulması üçün zəruri şəraitin yaradılması, ana və uşaqlar arasında xəstələnmə və ölüm hallarının azaldılmasıdır. Proqramın əsas vəzifələrinə əhalinin reproduktiv sağlamlığının qorunmasının təşkili və təhlükəsiz analığın təmin edilməsi aid edilmişdir. Proqram çərçivəsində ana və uşaqların sağlamlığının qorunması sahəsində çalışan tibb işçiləri üçün ailə planlaşdırılması və reproduktiv sağlamlıq mövzularında treninqlərin keçirilməsi, reproduktiv sağlamlıq, ana və uşaqların mühafizəsi sahəsində qanunvericilik aktlarının ÜST-nin tövsiyələrinə uyğunlaşdırılması məqsədi ilə təkliflərin hazırlanması,

o cümlədən əhali arasında sanitar-maarifçilik işinin genişləndirilməsi, radio və televiziyada reproduktiv sağlamlıq və ailə planlaşdırılması mövzusunda xüsusi verilişlərin təşkili nəzərdə tutulmuşdur.

2 oktyabr 2008-ci il tarixində Azərbaycan Respublikası "Əlillərin hüquqları haqqında" Konvensiyaya qoşulmuşdur. Konvensiyada reproduktiv sağlamlığa dair müəyyən müddəalar öz əksini tapmışdır. Məsələn, əlilliyi olan şəxslərin uşaqlarının sayı və onların doğulması arasındakı intervalla bağlı azad və məsuliyyətli qərar qəbul etmək, habelə ailənin reproduktiv davranışı və planlaşdırılması məsələlərində müvafiq yaşa uyğun məlumatları və maarifləndirməni əldə etmək hüquqları və onlara bu hüquqların həyata keçirilməsinə imkan verən vasitələrin təqdim olunması hüquqlarının tanınması Konvensiyaya qoşulmuş dövlətlər tərəfindən həyata keçirilməlidir.

Ana və uşaqların sağlamlığının qorunması və reproduktiv hüquqlar mövzusunda konfransın keçirilməsi, reproduktiv toxunulmazlıq hüququ və yetkinlik yaşına çatmayanların bu sahədə biliklərinin genişləndirilməsi istiqamətində tədbirlərin təşkil olunması isə Azərbaycan Respublikası Prezidentinin 18 fevral 2009-cu il tarixli Sərəncamı ilə təsdiq edilmiş 2009-cu ilin "Uşaq ili" elan edilməsi ilə bağlı Tədbirlər planında öz əksini tapmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramının məqsədi Azərbaycan Respublikasında qadınlara və uşaqlara göstərilən müalicə-profilaktik yardımın keyfiyyətini yüksəltmək, onların sağlamlıq vəziyyətini daha da yaxşılaşdırmaqdan ibarətdir. Proqrama əsasən, reproduktiv sağlamlıq xidmətinin vahid elektron sisteminin yaradılması və reproduktiv sağlamlıq, o cümlədən abortların qadınların reproduktiv sağlamlığına mənfi təsiri barədə maarifləndirmə işinin həyata keçirilməsi nəzərdə tutulur.

Son illər Ailə siyasətinin gücləndirilməsi sahəsində bir cox yeniliklər həyata keçirilmişdir. Azərbaycan Qadın və İnkişaf Mərkəzi (AQİM) tərəfindən hər il müntəzəm olaraq Reproduktiv sağlamlıq və ailə planlanşdırılması mövzusu ilə bağlı

tədbirlər həyata keçirilir. Bu tədbirlərin əsas məqsədi əhali arasında reproduktiv sağlamlıq, sağlam analıq, ailə planlaşdırılması - yalnız arzuolunan körpələrin doğulması, cinsi yolla yoluxan xəstəliklər və profilaktikası, sağlam gənclik və digər mövzularda icma səviyyəsində xidmətlərin təşkili, maarifləndirmə işi aparmaqla reproduktiv yaş dövründə olan insanların bu sahədə müvafiq biliklərə yiyələnməsini təmin etməklə abortların sayının azalmasına, körpələrin sağlam doğulmasına və nəticə etibarı ilə ana və körpə ölümünün sayının azalmasına, yoluxucu xəstəliklərin qarşısının alınmasına nail olmaqdan ibarətdir.

Tədbirlərdə iştirakçılara qadın və uşaqların sağlamlığı, reproduktiv sağlamlıq, ailə planlaşdırılması, yalnız arzuolunan körpələrin doğulmasının zəruriliyi, yoluxucu xəstəliklər, xüsusilə də İİV/QİÇS xəstəliyi və fəsadları, bu xəstəlikdən qorunma üsulları haqqında məlumatlar verilmişdir. İcma səviyyəsində maarifləndirmə işinin aparılması, nəşrlərin paylanması uşaq və qadınların sağlamlığının qorunmasına, erkən nikahların, abortların qarşısının alınmasına, tibb işçilərinin peşəkarlıq səviyyəsinin yüksəldilməsinə və onların biliklərinin artırılmasına xidmət edir.

Son illərin yeniliklərindən biri də nikahdan öncə icbari tibbi müayinədən keçmə tələbinin ailə qanunvericiliyinə daxil edilməsidir.

"Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2014-cü il 17 oktyabr tarixli 1080-IVQD nömrəli Qanununa əsasən, nikaha daxil olmaq istəyən şəxslərin icbari tibbi müayinədən keçmələri ilə bağlı tələb 2015-ci il iyunun 1-dən qüvvəyə minmişdi.

Qanunda Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 13-cü maddəsi (Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsi) yeni redaksiyada verilmişdir.

Bu dəyişiklikdən əvvəl nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçməsi könüllülük əsasında həyata keçirilirdi. Hazırda bu məsələ məcburidir.

Yenilik ondan ibarətdir ki, nikaha daxil olmaq istəyən şəxslər siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəy-

yən edilən xəstəliklər üzrə tibbi müayinədən keçməlidirlər. Bu zaman onlara müraciətləri əsasında tibbi-genetik, tibbi-psixoloji və ailə planlaşdırılması məsələləri üzrə pulsuz məsləhətlərin verilməsi də nəzərdə tutulur. Yəni nikaha daxil olmaq istəyən şəxsdə xəstəliklərdən hər hansı biri aşkar edilərsə, bu xəstəliyin ailə qurduqda yarada biləcəyi fəsadlar ona izah edilir. Bunu etməkdə məqsəd nikaha mane olmaq yox, gələcəkdə ailədə dünyaya gələcək uşaqların, habelə ailənin digər üzvlərinin riskli hallardan qorunmasını təmin etməkdir.

Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçdiklərini təsdiq edən arayış nikaha daxil olmaq barədə verdikləri ərizəyə əlavə olunur və nikahın qeydiyyatını aparan orqana təqdim edilir. Bu olmadıqda nikah qeydə alınmır. Tibbi müayinənin nəticələri həkim sirridir. Nikaha daxil olmaq istəyən şəxslər özləri könüllü olaraq tibbi müayinənin nəticələri haqqında bir-birini məlumatlandıra bilərlər. Təbii ki, bu təqdirəlayiq hal olardı və tərəflərin bir-birinə inam və etimadını artırardı.

Əslinə qalsa, Ailə Məcəlləsinə görə, nikaha daxil olan şəxslərdən biri özündə dəri-zöhrəvi xəstəliyinin və insanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliyin olmasını o birindən gizlətdikdə, digər tərəf nikahın etibarsız sayılması tələbi ilə məhkəməyə müraciət edə bilər. Bu xəstəliklərlə qarşı tərəfi bilərəkdən yoluxdurma və ya yoluxma təhlükəsi qarşısında qoyma isə AR Cinayət Məcəlləsinin 139-cu və 140-cı maddələrinə əsasən məsuliyyət yaradır.

Azərbaycan talassemiyanın geniş yayıldığı hesab edilən ölkələr sırasındadır. Hər il respublikada təxminən iki yüzdən artıq uşaq bu xəstəliklə doğulur. Son illər talassemiyanın profilaktikası və bu xəstəlikdən əziyyət çəkən insanların, eləcə də uşaqların müalicəsi istiqamətində mühüm tədbirlər görülmüşdür. Belə uşaqlar həm də qan qohumluğu nikahı əsasında dünyaya gəlirlər. Bu baxımdan Azərbaycanda həmin Qanunun qəbul edilməsi, yəni evlilikdən əvvəl aparılan məcburi tibbi müayinənin aparılması gələcəkdə daha xoşbəxt ailənin təməlinin qoyulması deməkdir.

**3. Azərbaycanda reproduktiv saplamlэpэn gender aspektləri**

Elmi cəhətdən cins insan biologiyasının amilidir. İnsanlar bir qayda olaraq, doğularkən bioloji cəhətdən kişi və ya qadın cinsinə mənsub olur.

Qərb ölkələrində qadın azadlığına doğru ilkin feminist meyl, təbii olaraq, "bioloji" anlamdan ("təbiilik" funksiyası) xilas olmaq və "sosial" anlama (cəmiyyətdə yeni, sosial qadın reallığı) can atmaq arzusu ilə bağlı olmuşdur. Kifayət qədər tez-tez "bioloji" səciyyə ideoloji simvollarla əvəz olunurdu, reproduktiv bioloji model isə "sosial təkrar istehsal" modeli arxasında gizlədilirdi.

Kiєilər və qadэnlar arasэndakэ bioloji fərqlər, bir зox hallarda qeyri-bərabərliyə və mədəni, sosial, iqtisadi və siyasi amillərə əsaslanan gender "norma"larэnэn yaradэlmasэna gətirib зэxarэr. Bir sэra цlkələrin mədəniyyətlərində mцvcud olan, patriarxal sistem həm siyasi qərarlar səviyyəsində, həm də ailədə qərarlar qəbul etmək məsələsində əsas məsuliyyəti kiєilərin ьzərinə qoyur.

Kiєi və qadэnlarэn funksional rollarэ fərqlidir və kiєilərlə assosiasiya olunan rollar, adətən, daha yьksək rol kimi qiymətləndirilir, məhz onlar bьtьn sahələrdə, o cьmlədən səhiyyə mьhitində, xьsusilə saplamlэq səviyyəsinə nail olma məsələlərində kiєi və qadэnlar arasэnda qeyri-bərabərlik yaradэrlar. Gender bərabərsizliyi səhiyyə xidmətlərindən istifadə imkanlarэnэn mьxtəlif mərhələlərinə, həmзinin єəxsi saplamlэpa dair qərarlarэn qəbul edilməsi məsələlərinə təsir edir ki, bu da зox vaxt qadэn saplamlэpэ ьзьn riskə зevrilir.

Reproduktiv saplamlэq hər єeydən зox gender bərabərsizliyi baxэmэndan daha həssas nцqtədir, belə ki, bir зox hallarda reproduktiv saplamlэq ьzrə qərar qapalэ ailə mьnasibətlərinə mane olur. Ailədə aparэcэ rolun kiюilərə məxsus oldupu və qadэnlarэn reproduktiv funksiyasэ ьzərində nəzarətin kiєilər tərəfindən həyata keзirildiyi hallarda, həmin qərarlar reproduktiv saplamlэq səviyyəsinə nail olmaq baxэmэndan heз də həmiєə mьsbət həll edilmir.

2007-ci ilin may ayэnda Ьmumdьnya Səhiyyə Təюkilatэnэn Ьmumdьnya toplantэsэnda cinsi mənsubiyyətin

saplamlэpэn tэyinedicilэrindэn biri kimi mьэyyэnlэєdirilmэsi ilэ gender strategiyasэ qэbul edilmiєdir. Hэmin strategiya ЬST-ьn ьzv dцvlэtlэrinin ьzэrinэ “gender mэsэlэlэrini, o cьmlэdэn reproduktiv saplamlэq sahэsini sэhiyyэ siyasэtinэ, proqram vэ tэdqiqatlara daxil edэn milli strategiyalar formalaюdэrmaq” vэzifэsi qoyur.

Bьtьn bunlarэ nэzэrэ alaraq, Azэrbaycan Respublikasэ saplamlэpэn mьhafizэsi mэsэlэsinэ prioritet sahэ kimi diqqэt yetirir. Dцvlэt nэinki qadэnlarэn sэhiyyэ xidmэtlэrindэn istifadэ etmэsi ьзьn bэrabэr hьquqlarэ tэmin edir, hэm dэ onlarэn saplamlэqla baplэ ehtiyaclarэna da xьsusi diqqэt yetirir. Sэhiyyэ Nazirliyi qadэn saplamlэpэna ьnvanlanmэю bьtьn siyasэt vэ proqramlarda gender perspektivinэ mэrkэzi yer verir. Dцvlэt hэmзinin sэhiyyэ xidmэtlэrindэn bэrabэr hьquqlarla istifadэ etmэk ьзьn imkanlar yaratmaq mэqsэdilэ hэm dцvlэt, hэm dэ цzэl sektorlar tэrэfindэn qadэnlara gцstэrilэn sэhiyyэ xidmэtlэrinin keyfiyyэtini ciddi nэzarэtdэ saxlayэr.

2006-cэ ildэ Azэrbaycan Respublikasэnэn Sэhiyyэ Nazirliyi aidiyyэti dцvlэt xidmэti orqanlarэ vэ beynэlxalq tэюkilatlarэn (BMT-nin Эhali Fondu, Dьnya Bankэ, Birlэюmiю Юtatlarэn Beynэlxalq Эnkiюaf Agentliyi, Ьmumdьnya Sэhiyyэ Tэюkilatэ, BMT-nin Uюaq Fondu) iюtirakэ ilэ sэhiyyэ sahэsindэ islahatlarэn hэyata keзirilmэsi layihэsinэ baюladэ, bura qadэnlarэn saplamlэpэna xьsusi diqqэt yetirmэklэ keyfiyyэtli sэhiyyэ xidmэtlэrinin inkiєaf etdirilmэsi mэqsэdilэ kompleks milli strategiya da daxildir.

Azэrbaycan Respublikasэnda ЬST-ьn tцvsiyэlэrinэ vэ obyektiv vэziyyэtэ эsaslanmaqla 2008-2015-ci illэr ьзьn Reproduktiv Saplamlэpa dair Milli Strategiya qэbul edilmiєdir. Bu strategiya gender mэsэlэlэrini цz hэlli dairэsinэ inteqrasiya edir vэ gender zorakэlэpэ mэsэlэlэrindэn bэhs edэn ayrэca hissэyэ malikdir. Bununla yanaюэ, эhalisinin reproduktiv saplamlэpэnэn qorunmasэ ьzrэ Milli Strategiya dцvlэtin bu sahэdэki siyasэtini mьэyyэn edir. Bu sэnэddэ reproduktiv saplamlэpэn yaxюэlaюdэrэlmasэ ilэ baplэ baюlэca mэqsэd vэ vэzifэlэr, habelэ BMT-nin Minilliyin Bэyannamэsindэ mьэyyэn edilmiє inkiєaf mэqsэdlэrinэ nail olmaq ьзьn эsas istiqamэtlэr

gцstərilmiюdir. Qarюэya qoyulmuю bьtьn tədbirlərin həyata keзirilməsinə hцkumətin, peєəkar assosiasiyalarэn, qeyri-hцkumət təюkilatlarэnэn və digər qurumlarэn ьmumi юəkildə razэlaюdэrэlmэю səyləri nəticəsində nail olunmaqdadэr.

Strategiya 2008-ci ildən 2015-ci ilə qədər olan dцvr ьзьn iєlənib hazэrlanmэюdэr və 5 bцlmədən ibarətdir. Burada strategiyanэn baюlэca prinsipləri, цlkədə reproduktiv saplamlэqla əlaqədar problemlər və fəaliyyətin strateji əsasэ, o cьmlədən gələcəklə baplэ dəqiq perspektiv, ьmumi və konkret məqsədlər, vəzifələr və onlarэn əldə olunmasэ istiqamətləri nəzərdən keзirilir və strategiyanэn ana xəttinə əsasən, qadэn saplamlэpэ mьəyyən edilir.

Milli Strategiya insan hьquqlarэna dair beynəlxalq strateji sənədlərə əsaslanэr:

• saplamlэpa, o cьmlədən reproduktiv saplamlэpa olan hьququnun insanlarэn əsas fundamental hьququ kimi təmin edilməsi;

• kiєi və qadэnlarэn hьquq bərabərliyinin təmin edilməsi ьзьn gender yanaюmasэnэn inteqrasiyasэ;

• ədalət prinsipinin təmin edilməsi və insanlarэn cinsindən, yaюэndan, dinindən, sosial-iqtisadi vəziyyətindən asэlэ olmayaraq, əhalinin mьxtəlif etnik, dini mənsubiyyətləri və mədəni irsi nəzərə alэnmaqla və ilkin tibbi-sanitar yardэma xьsusi diqqət yetirməklə reproduktiv saplamlэq ьzrə xidmətlərin gцstərilməsi;

• reproduktiv saplamlэqla baplэ məsələlərin həllində hцkumət və qeyri-hцkumət sektorunun, eləcə də beynəlxalq təєkilatlarэn və bьtцvlьkdə ictimaiyyətin sэx əməkdaюlэpэ və tərəfdaюlэpэ;

• reproduktiv saplamlэqla baplэ məsələlərin həllində sektorlararasэ fəaliyyətin və səhiyyə sisteminin digər nazirliklər və idarələrlə əlaqələndirilməsinin təmin edilməsi;

• səhiyyə sisteminin bьtьn səviyyələri və reproduktiv saplamlэpa aidiyyəti olan digər ixtisaslar arasэnda ardэcэllэpэn və inteqrasiyanэn təmin edilməsi.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili "Azərbaycanda insan hüquqlarının və azadlıqlarının təmin edilməsi və müdafiəsinin vəziyyəti haqqında" 2014-cü il üzrə

illik məruzəsində reproduktiv sağlamlığa dair 2008-2015-ci illər üzrə milli strategiyanın müddətinin bitməsi ilə əlaqədar yeni strategiyanın hazırlanıb qəbul edilməsini və “Reproduktiv sağlamlığın qorunması haqqında” qanunun qəbul edilməsinin sürətləndirilməsini də təklif etmişdir.

Məlumdur ki, iqtisadi və siyasi qьdrətindən asəlэ olmayaraq, hər bir цlkənin əsas prioritetlərindən biri ana və uюaq saplamlэpэnэn qorunmasэdэr.

Səhiyyə Nazirliyi analэq xidmətlərinin planlaюdэrэlmasэnda əsas diqqətin qadэnlara yцnəlməsinin vacibliyi prinsipinə əsaslanэr. Son illərdə ailə planlaюdэrэlmasэ, hamiləlik, dopuю və dopuюdan sonrakэ dцvrdə qadэnlara səhiyyə xidmətlərinin təєkilinə mьstəsna diqqət yetirilmiє və bu məsələyə зox bцyьk maliyyə vəsaiti ayrэlmэюdэr. Burada ailə planlaюdэrэlmasэ və cinsi maarifləndirmə vasitəsilə arzuolunmaz hamiləliyin qarюэsэnэn alэnmasэna, təhlьkəsiz mamalэq xidmətlərinin və dopuюqabapэ yardэmlarэn təєkili ilə ana цlьmь hallarэnэn sayэnэn azaldэlmasэna xьsusi əhəmiyyət verilir. Ölkəmizdə bu sahədə aparılan siyasət “Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair (2014-2020-ci illər) və “Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində” Dövlət Proqramlarında da öz əksini tapıb.

Ana və uюaq saplamlэpэ reproduktiv saplamlэqla baplэdэr. Reproduktiv saplamlэq yalnэz tibbi problem deyildir, həssas bir sahə olaraq xьsusi yanaєma tələb edir və yalnэz bir fərdin, bir ailənin deyil, bьtьn cəmiyyətin problemidir.

Qadэnlar da daxil olmaqla, əhalinin saplamlэq hьququnu mьxtəlif sahələrdə təmin edən bir neзə qanun mцvcuddur. Цlkəmizdə “İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə”, “Əhalinin sağlamlığının qorunması”, “Əhalinin radiasiya təhlükəsizliyi”, “Tibbi siğorta”, “Yoluxucu xəstəliklərin immunoprofilaktikası”, “Azərbaycan Respublikasında vərəmlə mübarizə”, “Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması”, “Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı” və “Dərman vasitələri haqqında” qanunlar qəbul olunmuş və həyata keçirilməkdədir.

Səhiyyə sahəsində mühüm addımlara baxmayaraq, ölkədə xüsusilə qadınların reproduktiv sağlamlığı ilə bağlı bir sıra problemlər, o cümlədən ana və uşaqlar arasında xəstələnmə və ölüm halları, həmçinin abortların sayının artması və bu kimi məsələlər mövcuddur.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycanda tibb müəssisələrində çalışanların 2/3 hissəsini qadınlar təşkil edir. Akademik Zərifə Əliyeva, professorlar Minə Davatdarova, Umnisə Musabəyova, Səyalı Tağıyeva və başqaları öz dövrünün ən görkəmli səhiyyə xadimləri olmuşlar. Onlar Azərbaycanın alimlər elitasının parlaq nümayəndələri olmaqla yanaşı, öz elmi məktəblərini yaratmışlar.

Bizim ölkəmizdə səhiyyə iqtisadiyyatın elə bir sahəsidir ki, burada qadınların üstünlüyü, müəyyən mənada, gender assimmetriyası kimi xarakterizə olunur: respublikanın tibb heyətinin 74,4 faizi qadınlardır. Respublikamızda 30 min ixtisaslı həkimdən 56,2 faizi qadındır. Orta tibb heyəti işçiləri arasında bu göstərici daha yüksəkdir – 90 faiz. Adı çəkilən sahədə rəhbər işçilərin də göstəricisi yüksəkdir – 30 faizdən çoxdur. Bu səbəbdən gender icmalı iki aspektdə aparılır: qadın – səhiyyə tədqiqatlarının obyekti kimi, qadın – səhiyyə tədqiqatlarının subyekti kimi.

### 4. Qadın sağlamlığı və ətraf mühit

Son illərdə bütün dünyada insanı yaşadan təbiətin həyəcan təbili çalınmaqdadır. Buna səbəb isə insanlar tərəfindən vəhşicəsinə istifadənin nəticəsi olan atmosferdə ozon dəliyinin əmələ gəlməsini, meşələrin qırılmasını, çirkab suların və kimya müəssisələrinin zərərli tullantılarının axar sulara və dənizlərə axıdılmasını, qazların havaya buraxılmasını, torpaqların çirkləndirilməsini göstərmək olar.

Təbiətə, onun sərvətlərinə zərər vuran münasibət XX əsrdə sanki özünün kulminasiya nöqtəsinə çatmışdır. Nəticədə ətraf mühit, canlı və cansız təbiət kəskin dəyişikliyə məruz qalmış, bir çox heyvan və bitki növlərinin kökü kəsilmiş, bəziləri isə məhv olmaq ərəfəsində olduqları üçün artıq "Qırmızı kitab"a düşmüşlər.

Hazırda dünyanın bütün ölkələrində ərzaq, içməli su, zülal

qıtlığı problemi, iqlim dəyişikliyi, demoqrafik partlayış və digər qlobal problemlər başlayıb, ekoloji tarazlığın pozulması qida məhsullarını yararsız hala salıb, insanlar və heyvanlar arasında çətin müalicə olunan ağır yoluxucu xəstəliklər əmələ gəlib.

Ona görə də insanlar təbiəti qoruyub saxlamaq üçün qlobal miqyaslı tədbirlər hazırlayıb həyata keçirməyə məcburdurlar. 1972-ci il iyunun 5-də Stokholmda BMT-nin “Ətraf mühitin mühafizəsi problemlərinə dair” konfrans keçirildi və burada BMT-nin “Ətraf mühit haqqında Proqramı” qəbul edildi. 1972-ci il dekabrın 15-də BMT-nin Baş Məclisi iyunun 5-ni “Ətraf Mühitin Mühafizəsi Günü” elan etdi. İndi bütün dünyada olduğu kimi, Azərbaycanda da əlamətdar gün iyunun 5-i müxtəlif müvafiq tədbirlərlə qeyd edilir.

Ölkəmiz müstəqilliyini qazandıqdan sonra, digər sahələrdə olduğu kimi, ətraf mühitin mühafizəsi sahəsində də öz müstəqil siyasətini formalaşdırmağa başladı.

Azərbaycan Respublikası Konstitusiyasında ilk dəfə olaraq, “Hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır” fikrini ehtiva edən 39-cu maddə öz yerini tapdı. Bu maddənin icrası üçün Azərbaycan Respublikasının Milli Məclisi ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən istifadə olunması ilə bağlı çoxsaylı qanunlar qəbul etdi. Eyni zamanda bu qanunların pozulması ilə əlaqədar olaraq müvafiq inzibati və cinayət məsulliyyətləri də müəyyənləşdirildi.

Ətraf mühitin çirklənməsinin ən təhlükəli nəticəsi insan orqanizmində mənfi mutasiyalara səbəb olmasıdır. Bu səbəbdən fiziki və əqli çatışmazlıqları olan uşaqlar dünyaya gəlir, sonsuzluq halları müşahidə edilir, irsi ağır xəstəliklər adi hal alır. Respublikamızda əhalinin reproduktiv sağlamlığının müdafiəsi üzrə 27 mərkəz fəaliyyət göstərir və bu müəssisələrdə ekoloji amillərin qadın orqanizminə təsiri öyrənilir. Bu mərkəzlər Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin BMT Əhali Fondunun maliyyə yardımı ilə həyata keçirilən ailə və reproduktiv sağlamlığın planldaşdırılması üzrə proqramı çərçivəsində yaradılmışdır.

Bu gün Azərbaycanda qadınların sağlamlığı ilə bağlı olan bir sıra problemlər mövcuddur. Çətin həyat şəraiti, normadan

artıq və ağır şəraitdə işləmək və digər hadisələr nəticəsində qadın orqanizmində zəifləmə müşahidə olunur. Bu da bədxassəli şişlərin yaranmasına gətirib çıxarır, uşaq doğmaq qabiliyyətini aşağı salır, bəzən əlil və xəstə uşaqlar dünyaya gəlir. Uşaqsalma, sonsuzluq, xəstə uşaqların doğulması ər və onun qohumları tərəfindən qadının ittiham edilməsinə səbəb olur, bu isə psixoloji streslərə, depressiyalara gətirib çıxarır. Nəticədə, gender assimmetriyası güclənir.

Bu gün tibbi-ekoloji vəziyyətdən danışarkən, respublikamızda yaranmış vəziyyətə təsir göstərən əsas amilləri qeyd etmək lazımdır. Bu, hər şeydən əvvəl, Qarabağ ətrafında 1988-ci ildən cərəyan edən hərbi-siyasi hadisələrdir. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın bitki örtüyünə, meşələrinə amansız divan tutulmuşdur. Dağlıq Qarabağ və onun ətrafında gedən hərbi əməliyyatlar nəticəsində 250 min hektardan artıq meşə sahəsi, o cümlədən Zəngilan rayonundakı Bəsitçay və Laçın rayonundakı Qarabağ dövlət qoruqları, həmçinin dörd təbiət yasaqlığı, digər çoxsaylı təbiət abidələri amansızlıqla məhv edilməkdədir. Erməni millətçilərinin 2006-cı ilin yaz və yay aylarında törətdikləri yanğınlar Azərbaycan təbiətinə, flora və faunasına vurduqları ağır zərbələrin, ziyanın izini itirməyə cəhddir. Meşələrin qırılması və yandırılması isə təkcə flora və faunanın məhvi demək deyil, eyni zamanda regionun iqliminə neqativ təsir göstərən amillərdəndir.

Qərb bölgələrindən olan böyük miqrant axını, keçid dövrünün iqtisadi çətinlikləri, kişilərin iş axtarmaq məqsədi ilə xaricə getməsi qadınları cəmiyyətin əsas işçi qüvvəsinə çevirmişdir. Üstəlik ailə ocağının qorunub saxlanılması və uşaqların tərbiyəsi üçün ənənəvi məsuliyyət qadınların sosial vəziyyətini ağırlaşdırır. Daim artan psixo-emosional təzyiq və fiziki gərginlik şəraitində qadın orqanizmi həm də zərərli ekoloji amillərin mənfi təsirinə məruz qalır.

Cəmiyyət qadınlar üçün təhlükə törədən ekoloji risklər və gender bərabərliyinin ətraf mühitin mühafizəsində əhəmiyyəti barədə hələ də kifayət qədər anlayışa malik deyildir. Qadın və kişilərə təsir edən ekoloji problemlərin müxtəlifliyi və onların nəticələrinə dair tədqiqatlar, tədbirlər, məqsədyönlü strategiyalar və ictimaiyyətin məlumatı məhdud olaraq qalmaqdadır.

Əhalinin sağlamlığının tibbi-ekoloji aspektlərinin müəyyənləşdirilməsi və orta xronoloji göstəricilərin nəzərdən keçirilməsi zamanı aşkar edilmişdir ki, Azərbaycanda ümumi xəstələnmə dərəcəsinin ən az miqdarı Abşeron yarımadasının və Mərkəzi Aranın, həmçinin Quba-Xaçmaz regionunun payına düşür. Tənəffüs orqanlarının xəstəlikləri (xüsusilə, respublikanın ən iri sənaye mərkəzləri olan Bakı və Sumqayıtda), zədələnmə və zəhərlənmə, anadangəlmə qüsurlar, dəri və dərialtı hüceyrələrin xəstəliyi daha geniş yayılmışdır. Hemofiliya və talassemiya kimi qan xəstəlikləri genetik faktorlarla, o cümlədən qohumlararası nikahların ənənəvi olması ilə izah olunur. Ətraf mühitin vəziyyətinin gərginləşməsi kontakt reaksiyalardan (allergiya, zəhərlənmə) əlavə, qadınların immun sisteminə təsir edir, onların sağlamlığını zəiflədir və reproduktiv fəaliyyətində gözlənilməyən nəticələrə gətirib çıxarır. Zərərli ekoloji amillər (radioaktiv maddələr, bioloji sintez maddələri parçalanıb, atmosferə daxil olan kimyəvi birləşmələri, qida əlavələri və s.) təbiətə kanserogen, mutagen və teratogen kimi təsir göstərir.

Müasir problemlərin xeyli hissəsi patogen və digər xəstəlik törədən mikroorqanizmlərlə bağlıdır. Onlar kanalizasiya sistemləri vasitəsilə suya düşərək, əhalinin xəstələnmə riskinin artmasına şərait yaradır.

Respublikamızın Sumqayıt zonası xüsusi təhlükə obyekti sayılırdı ki, onun da akvatoriyası ağır metalların, xüsusilə civənin yüksək göstəricisi ilə fərqlənirdi. Son illər Sumqayıtın ekoloji reabilitasiyası proqramı səmərəli şəkildə həyata keçirilir.

Bütövlükdə, ətraf mühitin zərərli amilləri ikili təzahür edə bilər: bir tərəfdən, onlar mutasiyaların yaranmasına səbəb olur (mutagen effekt), digər tərəfdən, onlar irsiyyəti dəyişdirə bilirlər (ekogenetik effekt).

Bəzən mutasiya proseslərinin dərhal meydana çıxması və aşkarlanması uzun müddət davam edir. Övladsız nikahlar, ağır keçən hamiləlik, spontan abortlar, ölü doğulmuş uşaqlar və anadangəlmə qüsurlarla uşaqların doğulması bunun nəticəsidir.

Məsələn, 1999-cu ildə kimya sənayesinin mərkəzi olan Sumqayıtda perinatal ölüm hallarının, anensefaliya, çənə-üz uyğunsuzluğu və digər çoxsaylı pozuntuların 50 faizini inkişaf

qüsurları təşkil edirdi. Aparılan tədqiqatlarda bir il ərzində doğulan uşaqlarda anadangəlmə qüsurların 3 faizdən çox olduğu göstərilmişdir.

Ölkənin yod çatışmazlığı müşahidə olunan bəzi regionlarında qadın orqanizminə və dünyaya gələn uşaqların sağlamlığına mənfi təsir müşahidə edilir. Bundan başqa, yod çatışmazlığı qadınlarda hamiləliyin çətinləşməsinə, doğuş vaxtı uşaqlarda endemik kretinizmin (əqli qüsurluluğun) yaranmasına, fiziki və əqli cəhətdən zəif inkişaf etmiş uşaqların doğulmasına səbəb olur.

Ağır metalların (qurğuşun, sink) da qadın orqanizminə mənfi təsirinə dair faktlar vardır. Neft-qaz istehsalının inkişaf etdiyi regionlarda səciyyəvi olan "çirkli" gölməçələri, həmçinin onların səthində qabarcıqların və dibində çöküntülərin yaranmasını da ən ağır ekoloji problemlərə aid etmək olar. Belə ki, neft-qaz "qabarcıqlarında" radionukleidlərin mövcudluğu suyun radioaktivliyini artırır.

Ekoloji tarazlığın saxlanılmasına dair problemlər aktual məsələlər kateqoriyasına aiddir.

Reproduktiv sağlamlıq problemləri insan ekologiyası anlayışı ilə sıx bağlıdır. İnkişaf etmiş ölkələrdə qadınlar öz qidalarına xüsusi diqqət yetirirlər: ət əvəzinə meyvə və tərəvəzə, şokolad əvəzinə taxıl və süd məhsullarına üstünlük verən və düzgün qidalanmaqla sağlamlığa dəyən ziyanın qarşısını almağa çalışırlar.

Hazırda dünya əhalisinin sağlamlığına təsir edən ən ciddi amillərdən biri də yararlı içməli su ilə təminat problemidir. Təmiz içməli su ilə təminat məsələsi əhalinin sağlamlığının əsaslarından biridir. Su – sosial ədalət, ətraf mühitin sabitliyi və mədəni müxtəliflik mənbəyidir. 2001-ci ildə Bonnda içməli su ilə bağlı problemlər üzrə keçirilən Beynəlxalq konfransda 118 dövlətin, 47 beynəlxalq təşkilatın və 73 müxtəlif ictimai təşkilatın nümayəndələri iştirak etmişlər. Azərbaycanın da nümayəndə heyətinin iştirak etdiyi bu konfransda su ilə təminat probleminin həlli üçün konkret yollar tövsiyə olundu, suyun sabit istifadəsi və ədalətli bölgüsü üzrə əməli tədbirlər görüldü.

Təbiət insanın mənəvi aləminə də böyük təsir göstərir. Təbiət – pozulmuş mənəvi tarazlığın bərpası, şəxsiyyətin mə-

nəvi kamilləşməsinin mənbəyidir. Azərbaycanda təbiətin mühafizəsi və yaşayış məntəqələrinin yaşıllaşdırması işi səmərəli həyata keçirilir.

Qeyd etmək lazımdır ki, 2000-ci ildə, yəni XX əsrin sonunda sağlamlıq və ətraf mühitin mühafizəsi baxımından hüquqi-normativ aktların hazırlanması və qəbul edilməsi sahəsində daha çox iş görüldü və ardıcıl olaraq, Azərbaycan Respublikasının iki Qanunu qüvvəyə mindi. Bu qanunlar belə adlanır: "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanunu və "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanunu. Bu Qanunlar ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılması, təbii ehtiyatların səmərəli istifadəsi və bərpası, ətraf mühitin mühafizəsi sahəsində qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi məqsədilə cəmiyyətlə təbiətin qarşılıqlı əlaqəsini tənzimləyir, həmçinin ölkə ərazisində xüsusi mühafizə olunan təbiət ərazilərinin təşkilinin və qorunmasının, habelə xüsusi mühafizə olunan təbiət obyektlərinin qorunmasının hüquqi əsaslarını müəyyən edir.

Azərbaycanda son illər ərzində bir sıra ekoloji təşəbbüslərin həyata keçirməsi nəticəsində hazırda ölkəmizin ekoloji göstəriciləri xeyli yaxşılaşıb. Belə ki, ABŞ-ın Yel (Yale University) və Kolumbiya universitetləri tərəfindən 2012-ci ilin yanvar ayında hazırlanmış Beynəlxalq Ekoloji Fəaliyyətin Nəticələrinin İndeksinə əsasən, ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın qorunması sahəsində son 10 ildə gördüyü işlərə görə Azərbaycan 132 ölkə arasında 2-ci yeri tutmuş, habelə ətraf mühitlə bağlı xəstəliklərin azalması sahəsində ölkəmiz ən yaxşı nəticə göstərərək, 1-ci yerə yüksəlmişdir. Bu uğurlar isə öz növbəsində insan sağlamlığına mənfi təsir edən ekoloji problemlərin aradan qaldırılması istiqamətində ölkəmizdə həyata keçirilmiş davamlı tədbirlərin uğurlu nəticəsidir.

Məlumdur ki, insanın həyat və fəaliyyətində yaşıllıqların rolu əvəzsizdir. Yaşıllıqlar öz bioloji təsiri ilə atmosferdə oksigen balansını tənzimləyir və karbon qazının çoxalmasının qarşısını alır.

2007-ci ildə Heydər Əliyev Fondu ətraf mühitin mühafizəsi və ekoloji durumun yaxşılaşdırılması məqsədi ilə "Hərəmiz bir

ağac əkək!" aksiyasını həyata keçirməyə başladı. Fond Bakı ətrafındakı qəsəbələrin istifadəsiz qalmış sahələrində 20 min həmişəyaşıl ağac əkməklə respublikada rezonans doğuran layihənin əsasını qoydu. Qısa zamanda Azərbaycanın bütün şəhər, qəsəbə və kəndlərində vətəndaşlar bu təşəbbüsə qoşularaq yaşıllaşdırma kampaniyasını davam etdirdilər. Ətraf mühitin qorunmasına yönəlmiş layihə çərçivəsində ölkə ərazisində bir milyondan çox yeni ağac əkildi. Bu proses hələ də davam edir.

Qeyd etmək lazımdır ki, ölkəmizdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2011-ci ildən İDEA (Ətraf Mühitin Mühafizəsi Fəaliyyəti üzrə Beynəlxalq Dialoq) beynəlxalq ictimai maarifləndirmə kampaniyası başlanmış və davam etdirilir. Bu kampaniya çərçivəsində həm ətraf mühitin mühafizəsi, həm də gənclər siyasəti sahələrində bir sıra işlər həyata keçirilmişdir. Kampaniyanın "Qlobal ətraf mühitin tarazlığını yaratmaq üçün gənclərin qüvvəsinin səfərbər edilməsi" devizi səylərin gənclərə yönəlməsində və onların ətraf mühitə münasibətlərini dəyişməkdə mühüm vasitə olmuşdur.

**5. Ombudsmanın ailə planlaşdırılması və reproduktiv sağlamlıqla bağlı fəaliyyəti**

Ana və uşaqların sağlamlığının möhkəmləndirilməsi, əhalinin reproduktiv sağlamlığının qorunması, sağlam və arzuolunan uşaqların doğulması üçün zəruri şəraitin yaradılması, ana və uşaqlar arasında xəstələnmə və ölüm hallarının azaldılması, o cümlədən əhalinin sağlamlığının qorunmasının təşkilinin və təhlükəsiz analığın təmin edilməsi, mama-ginekoloji və pediatriya xidmətində çalışan tibbi kadrların hazırlanması və ixtisaslarının artırılması işinin yaxşılaşdırılması, respublika və rayonlararası perinatal mərkəzlərin təşkili, tibb müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi və onların müasir müalicə-diaqnostika avadanlığı ilə təchiz edilməsi, doğuşayardım müəssisələrinin dərman preparatları ilə təminatının yaxşılaşdırılması məqsədilə 2006-2010-cu illər üçün Nazirlər Kabinetinin 2006-cı il 15 sentyabr tarixli qərarı ilə "Ana və uşaqların sağlamlığının qorunması üzrə Tədbirlər Proqramı" təsdiq edilmişdir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) ana və körpələrin, uşaqların sağlamlıq hüquqlarının təmin edilməsi və müdafiəsinə daim diqqət yetirir, anaların sağlamlığının qidalanma, yaşayış şəraiti, erkən nikahla əlaqəli olduğunu daim diqqətə çatdırır və bu sahədə səmərəli fəaliyyətini davam etdirir.

Müvəkkil mütəmadi olaraq, "Ana və uşaqların sağlamlıq hüquqları" mövzusunda dəyirmi masalar təşkil edir, dövlət orqanlarının, beynəlxalq təşkilatların, həmçinin QHT və KİV nümayəndələrinin iştirakı ilə müzakirələr aparır. Müvəkkil hesab edir ki, analığın mühafizəsi, reproduktiv sağlamlıq, gənc ailələrin sosial müdafiəsi, o cümlədən məşğulluğunun təmin edilməsi, yeni iş yerlərinin açılması, ailənin və uşaqların müdafiəsinə yönəldilmiş müavinətlər sisteminin tətbiqi, kənd rayonlarında torpaq sahələrinin ayrılması və güzəştli kreditlərin verilməsi, mənzil şəraitinin yaxşılaşdırılması məsələlərinə diqqətin daha da artırılması zəruridir. Bölgələrdə ailə planlaşdırılması xidmətləri işinin təkmilləşdirilməsi və yenilərinin yaradılması, bu sahədə icmaların iştirakı ilə xidmətlərdən istifadə olunması, analığın və uşaqların mühafizəsi məqsədi ilə maddi-texniki bazanın gücləndirilməsi, uşaqların sağlamlığının mühafizəsi, qəsəbə və kəndlərdəki ambulatoriyalarda uşaq sağlamlığı kabinetlərinin təşkili və həkim-pediatrlarla təmin edilməsi zərurəti mövcuddur. Milli Məclisdə müzakirə edilən "Reproduktiv sağlamlıq haqqında" qanunun layihəsinin qəbul edilməsi bu sahədə mövcud problemlərin həllində yardımçı olacaqdır.

Müvəkkil fəaliyyəti dövründə bu sahə üzrə bir sıra təkliflər irəli sürmüş, bununla bağlı dövlət orqanları, QHT-lər, ailə, həkim, psixoloq dəstəyindən, həmçinin ən yaxşı nümunə olan - ananın anaya dəstəyindən, o cümlədən ana südü donorluğundan istifadə etmək, bu sahədə vəziyyətin öyrənilməsi üçün ölkənin ayrı-ayrı bölgələri üzrə tədqiqatlar aparmış, "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında" Qanunu geniş təbliğ edərək, onun icrasının monitorinqini aparmış, qadınlar arasında sağlamlıq və digər hüquqlarla bağlı maarifləndirmə, təbliğat işini daha da genişləndirmiş və bu sahədə bir sıra seminar və treninqlər təşkil etmişdir. O, UNICEF və müvafiq dövlət orqanları ilə birgə hazırlanmış çap məmulatlarını ölkə ərazisində

yaymış, ictimaiyyətin iştirakı ilə vahid şəbəkədə birgə fəaliyyət göstərərək, icmaların və regionların diqqətini bu məsələyə cəlb etmişdir.

Bu prosesin davamlı, müntəzəm xarakter almasını təmin edərək, Müvəkkil uşaq qidalarına nəzarət və keyfiyyətinin monitorinqini aparmaq, gənc ailələrin sosial müdafiəsini yaxşılaşdırmaq, sosial təminatı, əkizlərə və üçəmlərə müavinətləri artırmaq, 2, 3 və daha çox uşağı olan analara önəmli maliyyə dəstəyi vermək, doğum evlərinin şəraitini yaxşılaşdırmaq və bu qəbildən olan problemləri müzakirə etmək, qanunlara müvafiq təkliflər hazırlayaraq, aidiyyatı dövlət qurumlarına göndərmək, birgə proqramlar hazırlamaq və s. təkliflər irəli sürmüşdür. Bununla yanaşı, İnsan Hüquqları üzrə Müvəkkil tənha analar, fiziki qüsurlu, xəstə, əlil uşağı olan analar üçün əlavə ünvanlı sosial yardımların nəzərdə tutulmasını, körpələrin düzgün qidalanması məsələsinin də Ünvanlı Sosial Yardım Proqramında əksini tapması üçün yeni təkliflərin irəli sürülməsi və tətbiqini vacib saymışdır.

Bioloji müxtəliflik və bioetika da reproduktiv sağlamlıq problemləri ilə sıx bağlıdır. Qeyd olunmalıdır ki, bu sahə üzrə daha bir mühüm sənəd ─ Bioloji Müxtəliflik haqqında BMT Konvensiyası 5 iyun 1992-ci il tarixdə qəbul olunmuş və ölkəmiz həmin Konvensiyanı 2000-ci ildə ratifikasiya etmişdir.

Müvəkkil tərəfindən 17-19 iyun 2009-cu il tarixlərində "Bioetika, insan hüquqları və yeni texnologiyalar: reproduktiv sağlamlığın və ailə planlaşmasının hüquqi və etik aspektləri" mövzusunda Ombudsmanların VII Bakı Beynəlxalq konfransı təşkil olunmuşdur.

Ombudsman Elmira Süleymanovanın vaxtilə yaratdığı Azərbaycan Qadın və İnkişaf Mərkəzinin fəaliyyətində gender bərabərliyi, ana və uşaq sağlamlığı, habelə reproduktiv sağlamlıq və ailə planlanlaşdırılması məsələləri mühüm yer tutmuş, ölkənin ayrı-ayrı bölgələrində əhali arasında bu istiqamətdə məlumatlandırma işləri aparılmışdır. Müvəkkil reproduktiv sağlamlıq və ailə planlanlaşdırılmasının böyük önəm daşıdığını və yerli icmalarla bu sahədə iş aparılmasının, könüllülərlə əməkdaşlığa, iş birliyinə önəm verilməsinin vacibliyini dəfələrlə vurğulamışdır. Onun "Ailə planlanlaşdırılmasında ictimai

xidmətin təşkili üzrə vəsait"i, habelə "Sağlam və xoşbəxt olun!" adlı lifleti tibb işçiləri, müvafiq dövlət qurumlarının əməkdaşları və könüllülərin stolüstü kitabına çevrilmişdir. Bu vəsaitdə gender məsələləri, erkən nikahların yolverilməzliyi, ana və uşaq sağlamlığı, döşlə əmizdirmə, cinsi yolla yoluxan infeksiyalar, narkomaniya, QİÇS və hepatitlər, hamiləlikdən qorunma vasitələrindən istifadənin vacibliyi və digər məsələlər öz əksini tapmişdir. Müvəkkilin təşəbbüsü ilə reproduktiv sağlamlıq və ailə planlaşdırılmasına dair broşürlər, müvafiq plakatlar hazırlanıb əhali arasında paylanmışdır.

Milli Fəaliyyət Proqramının icrası ilə bağlı Müvəkkil tərəfindən təşkil edilmiş tədbirlərdə qadınların təhsil, sağlamlığın qorunması, o cümlədən reproduktiv sağlamlıq hüquqlarının təmini və təbliği işinə geniş yer verilmişdir. Müvəkkil və aparatın əməkdaşları vətəndaş cəmiyyətinin üzvləri ilə birlikdə bölgələrdə, ucqar rayon və kəndlərdə yaşayan qadınlar üçün reproduktiv sağlamlıq və erkən nikah mövzusunda maarifləndirici seminar və məşğələlər keçirmişlər. İntensiv maarifləndirmə işinin nəticəsi olaraq, yüzlərlə qadın öz hüquqları barədə bilgilər əldə etmiş və onların müraciətləri əsasında onlara təmənnasız hüquqi yardım göstərilmişdir.

Müvəkkil reproduktiv sağlamlıq strategiyasının inkişaf etdirilməsini, "Reproduktiv sağlamlıq haqqında" qanunun qəbul edilməsini, Ailə Planlaşdırılması Mərkəzlərinin işinin səmərəliliyinin artırılmasını, habelə azyaşlı qızların təhsildən kənarda qalmasının və erkən nikahların qarşısının alınması üzrə tədbirlər görülməsini təklif etmişdir.

Heydər Əliyev Mərkəzində keçirilmiş III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda Müvəkkil çıxış etmiş, "Qadın hüquqlarının təmin edilməsində milli insan hüquqları təsisatlarının rolu", "Bioetika, insan hüquqları və yeni texnologiyalar: reproduktiv sağlamlığın və ailə planlaşdırılmasının hüquqi və etik aspektləri" və digər mövzular müzakirə olunmuşdur. Qeyd edilmişdir ki, cinsi və reproduktiv sağlamlıq hüquqlarının (CRSH) sağlamlıq, sağ qalma, ləyaqət və digər insan hüquqları ilə sıx bağlılığı vardır.

Bununla yanaşı, İnsan Hüquqları üzrə Müvəkkil BMT-nin Əhali Fondu ilə birlikdə Azərbaycan Respublikasında "Cinsi

və Reproduktiv Sağlamlıq və hüquqlar" üzrə müqavilə qurumlarının tövsiyələrinin icra vəziyyətinin təhlili ilə bağlı tədqiqat həyata keçirmişdir.

Hazırlanmış hesabat Azərbaycan Respublikasında müstəsna olaraq Cinsi və Reproduktiv Sağlamlıq və hüquqlar üzrə müqavilə qurumlarının tövsiyələrinin icra vəziyyətinin təhlilinə həsr olumuş ilk qiymətləndirmənin nəticələrini əks etdirir.

Müvəkkilin təşəbbüsü və BMT-nin Əhali Fondu ilə əməkdaşlıqda Cəlilabad rayonunda 11 iyul 2015-ci ildə geniş ictimaiyyətin iştirakı ilə Ümumdünya Əhali gününə həsr olunmuş konfrans keçirilmişdir.

Həmin tədbirdə Müvəkkil ana və uşaqların sağlamlığının möhkəmləndirilməsi, əhalinin reproduktiv sağlamlığının qorunması, qadınların istənilən zaman, arzuolunan sayda sağlam uşaqlar dünyaya gətirməsi, ana və uşaqlar arasında xəstəlik və ölüm hallarının azaldılması, təhlükəsiz analığın təmin edilməsi, insan hüquqlarının, o cümlədən sağlamlıq hüququnun müdafiəsi, vətəndaşlar üçün tibbi-sosial yardımın əlçatan olması məsələlərinin diqqət mərkəzində olduğunu bildirilmişdir. O, Ailə Planlaşdırılması Mərkəzlərinin işinin səmərəliliyinin artırılması, reproduktiv sağlamlıq və ailə planlaşdırılması mövzusunda silsilə maarifləndirmə tədbirlərinin regionlarda, qaçqın və məcburi köçkün icmalarında davamlı olaraq keçirilməsi, geniş əhali kütlələrinə ətraflı bilgilər verilməsi, Uşaq Yaradıcılıq Mərkəzlərinin tabeliyində olan Gənclərin Resurs Mərkəzinin potensial imkanlarından istifadə olunmasının zəruriliyini diqqətə çatdırmışdır. Müvəkkil artıq 2006-cı ildən dəfələrlə illik məruzələrində və səlahiyyətli qurumlara – Milli Məclisə, Nazirlər Kabinetinə, Maliyyə Nazirliyinə rəsmi müraciətlərində təklif etdiyi Aliment Fondunun yaradılmasının vacibliyini qeyd etmişdir. O, erkən nikahların qarşısının alınması, məişət zorakılığı ilə mübarizənin gücləndirilməsi məqsədilə seminarlar və treninqlərin təşkil edilməsi, hüquqi nəşrlər, çap məmulatlarının hazırlanaraq ölkə ərazisində yayılması, şəbəkə şəklində birgə fəaliyyət göstərməklə müntəzəm iş aparılması, gənc ailələrin sosial müdafiəsinin yaxşılaşdırılması, patronaj xidmətinin bərpa edilməsi, nəsillərarası körpünün yaradılması, İİV/QİÇS, narkomaniyaya qarşı mübarizənin daha da güclən-

dirilməsi, müvafiq monitorinq sisteminin təkmilləşdirilməsi, hamilə qadınlar, analar və körpələr üçün pulsuz tibbi xidmətlərin və məsləhətlərin təşkili və digər təklifləri bir daha vurğulamışdır.

Qeyd olunan təkliflərin gələcəkdə aidiyyəti qurumlar tərəfindən nəzərə alınması ölkəmizdə əhalinin reproduktiv sağlamlığının və ümumən genofondun qorunmasına öz müsbət təsirini göstərəcəkdir.

**Tələbələrin biliklərinin qiymətləndirilməsi üçün suallar:**

1. Reproduktiv sağlamlığın tərkib hissələri hansılardır?
2. Reproduktiv sağlamlığın insan inkişafında rolu.
3. Dünyada demoqrafik vəziyyət və ailə planlaması.
4. Reproduktiv hüquqlar və cəmiyyət.
5. Azərbaycanda reproduktiv saplamlıpən gender aspektləri
6. Qadın sağlamlığı və ətraf mühit
7. Ombudsmanın ailə planlaşdırılması və reproduktiv sağlamlıq məsələləri üzrə fəalliyəti.

## Mühazirə 15. Qadınlar və Kütləvi İnformasiya Vasitələri

*1.Kьtləvi Эnformasiya Vasitələrinin yaranma tarixi və nцvləri*
*2.Azərbaycanda Kьtləvi Эnformasiya Vasitələrinin inkiюafэ*
*3.Kьtləvi Эnformasiya Vasitələrində Gender məsələləri*
*4.Media sahəsində qanunvericiliyin təhlili*
*5.Kьtləvi Эnformasiya Vasitələrinin inkiюafэ tarixində qadэnlarэn rolu*

### 1. Kütləvi İnformasiya Vasitələrinin yaranma tarixi və növləri

Tarix boyu informasiyanın növündən asılı olaraq, onun əldə edilməsi və digərinə çatdırılması vasitələri də müxtəlif olub, elm və texnikanın inkişafı ilə dəyişərək getdikcə təkmilləşib. Hələ qədim dövrlərdə ölkə daxilində baş verən yeniliklər, ölkə başçısının əmr və göstərişləri şəhərin baş meydanına yığışan əhaliyə, adətən, carçılar vasitəsilə çatdırılırdı. Bir-birindən müəyyən məsafədə yerləşən şəhərlərə xəbər ötürülməsində isə çaparlardan istifadə olunurdu. Hərdən bu çaparları əhlilləşdirilmiş poçt göyərçinləri də əvəz edirdi.

Təbii ki, bütün bunlar məlumatı ötürmək ehtiyacının cüzi hissəsini ödəyirdi. İnsanlar hər gün, hər saat məsafədən asılı olmayaraq, baş verənlərdən dərhal xəbər tutmaq, başqaları ilə qısa müddətdə əlaqə yaratmaq arzusunda idilər. Qatarın, elektrik enerjisinin, telefonun, Morze əlifbasının və s. kəşfi informasiyanın yayılma sürətini əhəmiyyətli dərəcədə artırdı. Ötən əsrdə bu sahədə çox böyük uğurlar qazanıldı, hətta XX əsri "informasiya əsri" adlandıranlar da oldu. Qloballaşma prosesinin baş verdiyi bir zamanda cəmiyyət həyatında informasiyanın yeri və rolu daha da artıb. Müasir dünyada informasiya ən bahalı məhsul sayılır. İnformasiya işini və siyasətini düzgün quranlar başqalarını qabaqlayır, daha böyük nailiyyətlər əldə edirlər.

Kütləvi İnformasiya Vasitələri (KİV) cəmiyyətin inkişafında, onun maariflənməsində özünəməxsus rola malikdir. Hər bir dövrün mətbuatı həm də onun aynasıdır. Dünyada KİV-in ya-

ranması uzun bir tarixi yol keçib. Artıq mətbuatın müxtəlif növləri fəaliyyət göstərir: qəzet-jurnal, radio, televiziya, internet.

***Qəzet.*** Dünyada ən "yaşlı" kütləvi informasiya vasitəsi qəzetdir. İlk qəzet nə vaxt və harada yaranıb? Bu sualın cavabı çoxları üçün maraqlıdır. Tədqiqatlar nəticəsində məlum olub ki, dünyada birinci qəzet bizim eradan əvvəl 59-cu ildə qədim Romada Yuli Sezarın hakimiyyəti dövründə gildən hazırlanmış lövhələr formasında nəşr olunub. Onu hazır edəndən sonra ictimai yerlərdən asıblar ki, yazı-pozudan başı çıxanlar oxuya bilsinlər. Yeri gəlmişkən, "Günün hadisələri" adlı bu mətbu orqan gündəlik nəşr olunub.

Ondan sonra dünyada əl ilə yazılan ikinci gündəlik qəzet bizim eranın 911-ci ilində qədim Çində çap olunub. Həmin nəşrin adının "Paytaxt xəbərləri" olduğu qeyd edilir.

1450-ci ildə İohan Qutenberqin mətbəə üsulunu kəşf etməsindən sonra kitab və qəzet çapı sürətlənir. Getdikcə, dünyanın digər yerlərində də qəzetlərin çap olunmasına başlanır. Dünyada mətbəə üsulu ilə nəşr edilən ilk qəzet 1609-cu ildə Almaniyada buraxılan "Zaytunq" adlı çap məhsulu olub.

Qəzetlər xəbərləri təqdim edən və dərc edən bir nəşrdir. Kütləvi informasiya vasitələrinin yaranması ictimai fikrin formalaşmasında və baş verən hadisələrlə bağlı insanların məlumatlandırılmasında mühüm rol oynayıb. Qəzetlər əsasən gündəlik və həftəlik olur. Gündəlik qəzetlərin həftə sonu buraxılışları həcmcə, adətən, adi qəzetlərdən böyük olur. Həftəlik qəzetlər isə səhifələrinin sayına, hadisələrin işıqlandırılma tərzinə görə bir qədər fərqlənir.

***Jurnal.*** Qəzetlərdən sonra ikinci yaşlı kütləvi informasiya vasitəsi jurnallardır. Ilk jurnallar XVIII əsrdə Avropada çap olunub. Bu jurnallar qəzetlərdən və kitab tacirlərinin kataloqlarından təşkil olunub.

Qəzetlərdən fərqli olaraq, jurnallar gündəlik baş verən və tez-tez dəyişən hadisələrin işıqlandırılması ilə məşğul olmur. Onlar həftə, ay kimi müəyyən bir dövrü əhatə edən zaman ərzində baş vermiş hadisələri dərindən təhlil edirlər. Jurnallar uzun müddətli istifadə üçün nəzərdə tutulur, bu səbəbdən də onlar daha qalın cildə malik olur və daha keyfiyyətli kağızda

çap edilir.

**Radio.** Dünyada ilk radionun kəşfi məşhur rusiyalı mühəndis Aleksandr Stepanoviç Popovun adı ilə bağlıdır. Bu hadisə 1895-ci ilin aprelində baş verib. 1901-ci ildə isə italiyalı Gulielma Markoni tərəfindən ilk radio yayımı reallaşdırılıb. “Kağızsız və məsafəsiz qəzet” sayılan radio uzun illər bəşəriyyətə xidmət göstərmişdir.

***Televiziya.*** Televiziyanın yaranma tarixi XX əsrin 20-ci illərindən başlayır. Həm də bu vasitənin kəşfi bəşər elminin nailiyyətləri sayəsində mümkün olur. 1923-cü ildə rusiyalı alim Vladimir Zvorıgin ilk tam elektron televiziya sistemi yaradıb. 1931-1932-ci illərdə Amerikanın RCA firmasının təklifi əsasında V. Zvorıginin başçılığı ilə ikonoskop və kineskopun konstruksiyalarında bir sıra ciddi təkmilləşdirmələr aparılıb və ilk televiziya yaradılıb. V.Zvorıginin kəşfi sayəsində artıq 1936-cı ildə İngiltərədə və Almaniyada, 1941-ci ildə isə ABŞ-da mütəmadi olaraq televerilişlərin yayımına başlanılıb. Hazırda görüntünü və səsi birbaşa insanların evlərinə çatdıran televiziya ən çox izlənilən KİV-dir.

***İnternet.*** Müasir həyatı internetsiz təsəvvür etmək mümkün deyil. İndi bu şəbəkənin imkanlarından gündəlik həyatın, demək olar ki, bütün istiqamətlərində istifadə olunur. İnternet dünya çərçivəsində bir çox kompüter sistemini bir-birinə bağlayan və getdikcə böyüyən bir şəbəkədir. Bu şəbəkə dünyanın istənilən nöqtəsindəki informasiyanın bir yerdən başqa yerə ötürülməsini təmin edir. Kompüterlər arasında ilk şəbəkə 1969-cu ildə ABŞ Müdafiə Nazirliyi Perspektiv Araşdırmalar Agentliyi tərəfindən qurulub. Ötən əsrin 70-ci illərindən sonra “İnternet” adlandırılan bu şəbəkə dünya miqyasında genişlənməyə başlayıb.

Azərbaycana gəldikdə isə 1875-ci il iyulun 22-də görkəmli maarifçi Həsən bəy Zərdabi “Əkinçi” qəzetini dərc etdirməklə milli mətbuatımızın əsasını qoyub. Azərbaycan dilində işıq üzü görən bu ilk mətbu orqanın 1877-ci ilin 29 sentyabrına qədər 56 sayı işıq üzü görüb. Qəzet ayda iki dəfə 300-400 tirajla nəşr olunub. Milli mətbuatımızın qaranquşu olan bu qəzet iki illik ömür yaşasa da, xalqın maariflənməsində çox böyük rol oynayıb.

Ölkəmizdə radionun tarixi 1926-cı il noyabrın 6-dan başlayır. Həmin gün Bakının küçə və meydanlarında qurulmuş reproduktorlardan ilk dəfə "Danışır Bakı!" sözləri ətrafa yayılıb. O zaman bu hadisə Azərbaycan xalqının siyasi və mədəni həyatında böyük bir yenilik idi.

1956-cı il fevralın 14-də Bakıda "mavi sehrkar" adlanan Azərbaycan televiziyası ağ-qara təsvirlərlə fəaliyyətə başlayıb. Televiziya vasitəsilə dünyanın müxtəlif nöqtələrində baş verən hadisələri seyr etmək mümkün olub.

Ötən əsrin 90-cı illərinin sonlarından Azərbaycanda internetdən istifadə etməyə başladılar. İnternetdən hər kəsin istifadə edə bilməsi sayəsində o, cəmiyyətin axtarışlarını və problemlərini əks etdirən obyektiv güzgüyə çevrilməkdədir.

Kütləvi informasiya vasitələrinin mahiyyəti, növləri və fəaliyyətinin hüquqi əsasları "Kütləvi İnformasiya Vasitələri haqqında" Azərbaycan Respublikasının qanununda (21 iyul 1992-ci il) öz əksini tapmışdır.

Həmin qanuna əsasən, "kütləvi informasiya vasitələri" dedikdə, dövri mətbuat orqanları: daimi adı, cari nömrəsi olan qəzet, jurnal, toplu, bülleten, azı ildə bir dəfə çıxan başqa nəşrlər, habelə birdəfəlik tirajı yüz nüsxədən çox olan digər mətbuat növləri; radio-televideo proqramları, kinoxronika proqramları və ya daimi adı ilə azı ildə bir dəfə çıxan (efirə və ya ekrana buraxılan) dövri audio-audiovizual xəbər və materialların (verilişlərin) məcmusu başa düşülür. "Kütləvi informasiya vasitəsinin məhsulu" dedikdə isə mətbu nəşrin ayrıca götürülmüş nömrəsinin tirajı, yaxud onun bir hissəsi, radio-teleproqramın, kinoxronika proqramının ayrıca buraxılışı, proqramın audio və ya videoyazısının tirajı, yaxud tirajının bir hissəsi qəbul edilməlidir.

Qeyd etmək lazımdır ki, bu günə kimi kütləvi informasiya vasitələri haqqında iki qanun qəbul edilmişdir – artıq qüvvəsini itirmiş 21 iyul 1992-ci il tarixli və qüvvədə olan 7 dekabr 1999-cu il tarixli qanun.

Müasir texnologiyaları və beynəlxalq standartları nəzərə alaraq, 7 dekabr 1999-cu il tarixli qanunda kütləvi informasiya vasitələrinə dövri mətbu nəşrlər, teleradio proqramları, informasiya agentlikləri, internet, kinoxronika proqramları və digər

yayım formaları daxil edilmişdir. Kütləvi informasiyaya isə axtarılması, əldə olunması, hazırlanması, ötürülməsi, istehsalı və yayımı Azərbaycan Respublikasının qanunvericiliyi ilə məhdudlaşdırılmayan, ümumi istifadə üçün nəzərdə tutulmuş mətbu, audio, audiovizual xəbər və digər məlumatlar aiddir.

Bu qanunda digər anlayışlara da aydınlıq gətirilir, belə ki, teleradio və kinoxronika proqramlarına daimi adı, nömrəsi olan və ildə azı bir dəfə efirə buraxılan audio, audiovizual xəbər və materialların (verilişlərin) məcmusu, dövri mətbu nəşrlərə isə çap prosesinin və ya hər hansı surətçıxaran texnikanın vasitəsilə hazırlanmış, birdəfəlik tirajı 100 nüsxədən çox, daimi adı və cari nömrəsi olan, ildə azı on iki dəfə çıxan qəzetlər və ildə azı iki dəfə çap olunan jurnal, toplu, bülleten və başqa dövri nəşrlər aid edilmişdir.

Kütləvi informasiya vasitəsinin məhsulu mətbu nəşrin bir nömrəsinin tirajı, yaxud onun bir hissəsi, teleradio, kinoxronika proqramlarının ayrıca buraxılışı, proqramın audio və ya videoyazısının tirajı, yaxud tirajının bir hissəsidir.

Elektron media yazılı mətbuatı müəyyən qədər sıxışdırsa da, qəzetlərin tam sıradan çıxarılması mümkün deyil. Oxucuya seçim etmək imkanı verməsi, heç bir texniki vasitədən istifadə etmədən istənilən vaxtda onunla tanış olmağın mümkünlüyü və s. xüsusiyyətlərinə görə yazılı mətbuat bundan sonra da informasiya mənbələrindən biri kimi qalacaqdır.

İnternetin tükənməz imkanlarını görüb televiziyanın gələcəyini şübhə altına alanların da narahatlığı əbəsdir. Çünki ən yeni xəbəri televiziyadan eşidib görmək istəyənlərin sayı internet istifadəçilərinin sayından heç də az deyildir. Hər halda, reallıq belədir və heç kim təminat verə bilməz ki, gələcəkdə interneti üstələyəcək daha modern informasiya texnologiyaları yaranmayacaqdır.

Mətbuatın hansı növünün üstün olub-olmaması barədə hökm vermək düzgün olmazdı. Çünki informasiya cəmiyyətində media texnologiyaları heyrətamiz sürətlə dəyişir. Ancaq dəyişməyən mətbuatın təməl prinsipi - KİV-in siyasi proseslərə təsir edən, ictimai rəyi formalaşdıran əsas vasitə olmasıdır. Ona görə də müasir kütləvi informasiya vasitələri dünyada baş verən hadisələri operativ işıqlandırmaqla yanaşı, həm də informa-

siyanı geniş təhlil etməli, onu ilkin süzgəcdən keçirməli və məqsədyönlü şəkildə seçməlidir.

Qloballaşan dünyada mass-mediada təzahür edən yeniliklərdən biri də sosial şəbəkələrdir. Sosial şəbəkələrin informasiya məkanında rolu getdikcə artır.

## 2. Azərbaycanda Kütləvi İnformasiya Vasitələrinin inkişafı

XIX əsrin sonu - XX əsrin əvvəllərində ictimai fikrin digər ifadə vasitələrinin kifayət qədər inkişaf etmədiyi bir zamanda Azərbaycan mətbuatının milli şüurun, mədəniyyətin, maarifçiliyin inkişafında rolu danılmazdır.

1870-ci ildən 1889-cu ilə qədər Qafqazda 56 qəzet, jurnal və bülleten mövcud idi. Onlardan 20-si rus, 15-i gürcü və yalnız 3-ü Azərbaycan dilində çıxırdı. Bu disbalansa səbəb insana "Quran"dan başqa digər məlumat mənbələrinin lazım olmadığı barədə müsəlman ruhanilərinin cəmiyyətdə apardığı təbliğat idi.

Azərbaycan milli mətbuatının formalaşma mərhələləri cəmiyyətin inkişaf xüsusiyyətlərinə uyğun olaraq, mürəkkəb təkamül yolu keçmiş və müasir səviyyəyə gəlib çatmışdır. Milli mətbuatın bu illər ərzindəki tarixi inkişafını əsasən 4 mərhələyə bölmək olar: birincisi, "Əkinçi" qəzetindən Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına qədər olan dövr; ikincisi, Cümhuriyyət dövrü; üçüncüsü, sovet dövrü; dördüncüsü, müstəqillik dövrü.

Tarixi faktlar göstərir ki, Bakıda ilk qəzetin nəşrinədək Azərbaycan xalqının iqtisadi və mədəni həyatına aid faktları XIX əsrdə Tiflisdə çıxan rus qəzetləri əks etdirirdi. 1832-ci ildə Tiflisdə Azərbaycan dilində nəşr olunan belə qəzetlərdən biri də "Tiflis əxbarı" qəzeti idi. Lakin çarizmin ideoloji-siyasi təsiri altında olan həmin qəzetlərin mövcudluğu ilə barışmayan Azərbaycan xalqı özünün milli mətbuatını yaratmaq üçün uzun illər mübarizə aparmalı oldu. Bu mübarizənin nəticəsi olaraq görkəmli maarifçi Həsən bəy Zərdabi İstanbuldan nəşriyyat şriftini gətirmiş, ilk nəşriyyat və mətbəə yaratmış, Azərbaycanın ilk mətbuat orqanı – "Əkinçi" qəzeti 1875-ci il iyulun 22-də işıq üzü görmüşdür.

Qəzet çarizmin aşkar təzyiq və təhdidləri ilə üzləşir, çapına ciddi əngəllər törədilirdi. Bu təzyiqlərin şiddətlənməsi nəticəsində Həsən bəy Zərdabi 1877-ci ildə "Əkinçi"nin nəşrini dayandırmalı oldu.

XIX əsrin sonları XX əsrin əvvəllərində isə Bakıda çap olunan "Kaspi", "Ziyayi-Qafqaziyyə", "Kəşkül", "Şərqi-Rus", "Bakinski listok", "Hümmət", "Həyat", "İrşad", "Füyuzat", "Açıq söz" və digər qəzetlər, habelə "Molla Nəsrəddin" jurnalı Azərbaycanda mütərəqqi mətbuat ənənələrinin formalaşmasında, azad sözün, müstəqil düşüncənin inkişafında mühüm rol oynayırdı.

1918-ci ilin mayında müsəlman Şərqində ilk demokratik və dünyəvi dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə milli mətbuatın inkişafında ikinci mühüm mərhələ başlandı. Cümhuriyyyətin 23 aylıq fəaliyyəti dövründə söz, fikir, mətbuat azadlıqlarının inkişafı istiqamətində müəyyən addımlar atıldı, "Mətbuat haqqında Nizamnamə" qəbul edildi.

Azərbaycan mətbuatının üçüncü mühüm dövrü sovet hakimiyyəti illərinə təsadüf edir. Sovet dövründə bütün postsovet məkanında olduğu kimi, kütləvi informasiya vasitələri də totalitar rejimə və kommunist ideologiyasına xidmət edirdi.

Yalnız ötən əsrin 70-80-cı illərində, Heydər Əliyevin sovet Azərbaycanına rəhbərliyi dövründə mətbuata ideoloji basqılar azalmağa başladı, qəzet və jurnalların müstəqilliyi xeyli dərəcədə təmin olundu. Respublika mətbuatı o illərdə müxtəlif sahələrdəki problemlərlə bağlı çox cəsarətli, qətiyyətli yazılar dərc edirdi.

Nəhayət, jurnalistikamızın inkişafında dördüncü əsas mərhələ ötən əsrin 90-cı illərinin əvvəllərinə — Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonrakı dövrə təsadüf edir. Respublikamız müstəqillik əldə etdikdən sonra azad, demokratik mətbuat yarandı, kütləvi informasiya vasitələrinin obyektiv elmi tədqiqinə başlandı. Azərbaycanın dünya ictimaiyyətinə inteqrasiyasının güclənməsi müasir Azərbaycan jurnalistikasında aparıcı mövqe tutan müstəqil KİV-in rolunu artırır. Ölkəmizdə müstəqil jurnalistika yaranandan bəri çox şey dəyişilib, saysız-hesabsız internet-portallar yaradılıb. Bloqlar və podkastlar isə daha aktualdır.

Azərbaycan Respublikasının müstəqillik qazandığı və suveren dövlət quruculuğu prosesini yaşadığı müasir dövrdə kütləvi informasiya vasitələrinin qarşısında tamamilə yeni vəzifələr durur. Bu gün mətbuat müstəqil dövlət, sivil, demokratik vətəndaş cəmiyyəti quruculuğunda, iqtisadi və sosial islahatların həyata keçirilməsində, cəmiyyətdə sosial ədalət və şəffaflığın təmin edilməsində, insan hüquqlarının müdafiəsində, həmrəylik və tolerantlıq mühitinin yaradılmasında, milli şüurun, siyasi mədəniyyətin və bütövlükdə sağlam mənəvi dəyərlərin formalaşmasında mühüm rol oynamaqdadır. Hazırda ölkəmizdə həyata keçirilən bu proseslərin mətbuatın, kütləvi informasiya vasitələrinin iştirakı olmadan reallaşdırılması təsəvvür edilə bilməz.

Bu gün Azərbaycanda dünya standartlarına uyğun azad, plüralist media formalaşmışdır. Dövlət KİV-in müstəqil və hərtərəfli inkişafı üçün zəruri şərait yaratmışdır. KİV vətəndaş cəmiyyətinin də dinamik inkişafına mühüm təsir göstərən güclü amildir. Kütləvi informasiya vasitələrinin kəmiyyətinə görə, Azərbaycan Respublikası MDB və Şərqi Avropa ölkələri arasında lider mövqelərdən birini tutur. Azərbaycanda 5000-ə qədər çap orqanı və digər kütləvi informasiya vasitələri müvafiq dövlət orqanında uçota götürülmüş və ya qeydiyyatdan keçmişdir. Təsis edilən KİV-lər müxtəlif siyasi, ictimai mövqeli təşkilatlara, özəl qurumlara və fiziki şəxslərə məxsusdur. Ölkədə 40-a yaxın gündəlik, 200-dən artıq həftəlik və aylıq qəzet nəşr olunur. 80-dən artıq elmi-praktiki, ictimai-siyasi, sosial-iqtisadi məsələləri, uşaq və qadın problemlərini işıqlandıran və əyləncə xarakterli jurnal çıxır. Azərbaycanda 20-yə yaxın informasiya agentliyi ölkədə və dünyada baş verən hadisələrlə bağlı müntəzəm və çeşidli məlumat yayır. Bölgələrdə 100-ə yaxın qəzet və jurnal nəşr olunur.

1998-ci ildən sonra Azərbaycanda yeni özəl televiziya və radio kanalları açılmış, son illər kabel televiziyasının miqyası genişlənmişdir.

Hazırda Azərbaycanda 10 ümumrespublika, 13 regional, 17 kabel, 15 internet, 1 peyk televiziyası, 13 ümumrespublika və 3 regional radio fəaliyyət göstərir. Azərbaycan internetin tam azad olduğu ölkədir və əhalinin 75 faizindən çoxu fəal internet

istifadəçisidir. Azərbaycanda sosial mediadan istifadə edənlərin sayı 2 milyondur.

2005-ci ildə Azərbaycan Dövlət Televiziyasının bazasında "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti yaradılmışdır. Həmin ilin avqust ayında ölkədə İctimai televiziya yayıma başlamışdır.

2016-cı ildə 60 illiyi qeyd olunan Azərbaycan Televiziyası və 90 illiyi qeyd edilən Azərbaycan Radiosu əhalini ölkəmizin prioritet məsələləri, milli maraqlar ətrafında birləşdirir, insanların ictimai düşüncəsini və bədii-estetik zövqünü formalaşdırır, hərtərəfli və ahəngdar inkişafa kömək edir.

2005-cı ildə ikinci dövlət kanalının bazasında İctimai Televiziya və Radio Yayımları Şirkəti təsis edilmiş və fəaliyyətə başlamışdır. İctimai Televiziyanın maddi-texniki təminatı və real olaraq fəaliyyətə başlaması üçün bütün zəruri tədbirlər görülmüşdür. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il tarixli qərarına əsasən, ölkə ərazisində rəqəmsal yayımın tətbiqinə başlanmışdır.

Qeyd olunmalıdır ki, ölkə Prezidentinin 20 sentyabr 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı"nın gerçəkləşdirilməsi üzrə Tədbirlər Planının 5.1.7-ci bəndinə uyğun olaraq, respublikanın bütün bölgələrində yayımlanan TV proqramlarının yerüstü analoq yayımı Milli Televiziya və Radio Şurasının 27 sentyabr 2016-cı il tarixli 10 saylı qərarı ilə 20 dekabr 2016-cı il tarixdən etibarən tam dayandırılmışdır.

Azərbaycanda 50-dən artıq jurnalist təşkilatı qeydiyyatdan keçmiş, 30-a yaxın təşkilat söz və məlumat azadlığının inkişaf etdirilməsi, mətbuatın iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin hüquqlarının müdafiəsi, KİV-in informasiya əldə etmək imkanlarının genişləndirilməsi, cəmiyyətlə KİV arasında münasibətlərin tənzimlənməsi və digər məsələlərlə fəal məşğul olur. Ölkədə mətbuat yayımı həyata keçirən müstəqil kommersiya şirkətlərinin sayı artmışdır. Hazırda 23 mətbuat yayımı firması paytaxt və bölgələrdə geniş fəaliyyət göstərir.

## 3. Kütləvi İnformasiya Vasitələrində Gender məsələləri

İnformasiyanın siyasi proseslərə və münasibətlərə, beynəlxalq və ölkədaxili ictimai rəyə təsir imkanları genişdir. Üstəlik, dövlətin məqsədyönlü informasiya siyasətinin onun müəyyən etdiyi ideologiyanın həyata keçirilməsinə xidmət etməsi şərhsizdir.

Heç bir qəzet və ya jurnal nə qədər çalışsa da, cəmiyyətin bütün təbəqələrinin, maraq qruplarının arzu və istəklərini tam şəkildə müəyyənləşdirə, informasiyaya tələbatını yetərincə təmin edə bilməz. Bu, sadəcə mümkün deyil. Lakin konkret auditoriyanın şüurunda nəyi dəyişmək, nəyi sıxışdırıb aradan qaldırmaq, hansı dəyərləri təbliğ etmək, hansı suallara cavab vermək, dünyagörüşünü zənginləşdirmək üçün hansı məlumatları vermək – bütün bunlar diqqət tələb edən vacib məqamlardır.

Gender problemi qlobal informasiya cəmiyyətinin yaradılması prosesində mühüm yer tutur. Gender tədqiqatları genişləndikcə mediada gender bərabərliyinin təbliği məsələsi ən aktual mövzulardan birinə çevrilir.

Həqiqi bərabərliyi təmin edən əsas amil, əvvəllər güman edildiyi kimi, hökumətlər, siyasi liderlər, qeyri-hökumət təşkilatları deyil, həm də informasiyadır, çünki virtual məkanda fərdin bioloji və sosial cinsinin əhəmiyyəti yoxdur. Bu məkanda əhəmiyyətli cəhət yalnız fərdin hansı informasiyanın daşıyıcısı olması, onun təklif etdiyi informasiyaya nə dərəcədə tələbat olmasıdır. Müasir gender problematikasında informasiya texnologiyalarının spesifikasını müəyyən edən sosial-mədəni və iqtisadi proseslərdir.

Gender təsəvvürlərinin düzgün izahı və KİV proqramlarında peşəkar prinsiplərin, könüllü davranış qaydalarının qəbul edilməsində xeyli irəliləyiş əldə olunub.

Müstəqil Azərbaycan dövləti demokratik cəmiyyət və bazar iqtisadiyyatı qurur. Lakin qadınların vəziyyətini yaxşılaşdırmadan, milli siyasətdə gender metodlarını tətbiq etmədən, həqiqi demokratik inkişafa nail olmaq mümkün deyil. Bu gün hər iki cinsdən olan insanların bərabər hüquqa malik olması beynəlxalq sənədlərdə qəbul edilsə də, cəmiyyətdə qadınlara və kişilərə münasibət hələ də eyni deyil. Onlar şəxsi və ictimai sahələrdə özlərini ifadə etmələri üçün bərabər imkanlara malik

deyillər.

Gender mədəniyyəti cəmiyyətin demokratikləşmə dərəcəsindən, həmin cəmiyyətdə hamılıqla qəbul edilmiş dəyər və normaların olub-olmamasından asılıdır.

Virtual aləm real dünyamızda müxtəlif gender mədəniyyətlərinin eyni vaxtda, paralel mövcud olmasını əks etdirən ən yaxşı vasitədir və hüquq, iqtisadi münasibətlər, səhiyyə, ailədə qarşılıqlı münasibətlər, sosiologiya, təhsil, ədəbiyyat, mədəniyyət və s. sahələrdə yaranan aktual gender problemlərini əks etdirir.

Müvafiq saytlarda gender termini feminizmin sinoniminə çevrilmişdir, halbuki son illərdə qadınların problemləri ilə yanaşı, kişilərin problemləri də informasiya məkanına çıxarılır.

Bəzi hallarda qadınlar haqqında həqiqətə uyğun olmayan və mənfi təsəvvürlər, onları ləyaqətsiz göstərən təsvirlər, o cümlədən yeni kommunikasiya texnologiyalarından istifadə edərək pornoqrafiya və stereotipləndirilmiş obrazların yayılma miqyası genişlənmiş və kütləvi informasiya vasitələrində qadınlara qarşı mənfi rəyə əsaslanan münasibət qalmaqdadır. Yoxsulluq, imkansızlıq, savadsızlıq və dil məhdudiyyətləri bəzi qadınların informasiya və kommunikasiya vasitələrindən və internetdən istifadə etməsinə mane olur. Əsasən inkişaf etməkdə olan ölkələrdə internet infrastrukturunun tərəqqisi və ilk növbədə, qadınların ondan istifadə imkanları xeyli məhdud olaraq qalmaqdadır.

Son 20 ildə gender bərabərliyinin təmin edilməsi sahəsində xeyli işlər görülmüşdür. Gender problemləri üzrə bütün dünyada çoxsaylı tədqiqatlar aparılır, kütləvi informasiya vasitələrində, qlobal internet şəbəkəsində geniş məlumatlandırma prosesi gedir. Lakin o da məlumdur ki, həm bütün dünyada, həm də Azərbaycanda gender elmi, onun bitkin nəzəriyyəsi, elmi sistemi hələlik formalaşma mərhələsindədir. Bu da bütövlükdə dünya üçün əhəmiyyətli olan gender probleminin qoyuluşu və optimal həlli yollarını, metodlarını və vasitələrini düzgün dəyərləndirməyi zərurətə çevirir. Daha doğrusu, problemin, istənilən sahədə olduğu kimi, düzgün qoyuluşu onun məqsədəuyğun inkişafının tanınmasını bilavasitə şərtləndirir. Bu baxımdan gender probleminin müasir dünya inkişafının

aparıcı tendesiyaları və istiqaməti kimi son illər xüsusilə vurğulanan qloballaşma prosesindən kənarda və ya ondan təcrid olunmuş şəkildə qoyuluşu və təhlili cəhdi qeyri-məqbul sayılmalıdır.

Jurnalistikada qadınlar barəsində tədqiqatlar dalğasının meydana gəlməsi XX əsrin 80-ci illərinin əvvəllərinə aiddir, amma diqqət əsasən sosial-iqtisadi problemlərə, qadınların peşə ayrı-seçkiliyinə, eyni əmək müqabilində kişilərlə müqayisədə öz əmək haqqı almasına, ailə həyatının çətinliklərinə ayrılmışdır. Daha sonralar xaricdə jurnalistikada gender münasibətlərinin öyrənilməsinə, həmçinin yaradıcılıqda və informasiyanın təqdim edilməsində qadın-jurnalistin roluna dair ictimai şüurda transformasiyaya həsr olunmuş bir sıra ciddi tədqiqatlar yarandı. Göstərilən problemin ilk dərin tədqiqatı Amerikada həyata keçirilib, amma qadın aparıcıların ekrana çıxması baxımından birincilik Britaniya KİV-ə məxsusdur. Xüsusi olaraq qadınlara ünvanlanmış yeni jurnalistikanın və informasiyanın yaranması tendensiyası (əvvəllər Britaniya "kişi" qəzetlərinə əlavələrdə, sonrakı xüsusi qadın jurnal və qəzetlərində) hələ XIX əsrin sonlarında müşahidə olunurdu.

Azərbaycanın və keçmiş SSRİ ərazisində yaranmış dövlətlərin KİV-dəki gender stereotiplərindən danışarkən, hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, jurnalistikada gender stereotipləri bu sahənin özü ilə birlikdə yaranıb. Onlar o vaxt mövcud olan cəmiyyətin gender fərqini əks etdirir, ənənəvi gender rollarını mühafizə edirdilər.

1995-1996-cı illərdə jurnalistikada gender rollarını anlamağın yeni dövrü və yeni etalonların axtarışı mərhələsi başlandı. Bu hadisənin əsasında ən müxtəlif proseslər dururdu.

Aydındır ki, cəmiyyətdə sosial dəyişikliklər, xəbərlərin kommersiyalaşması, habelə radiodinləyici və teletamaşaçıların auditoriyasını daim genişləndirmək cəhdi jurnalistikanın uzun müddət əməl etdiyi bəzi qanunlardan uzaqlaşmasına səbəb olub. Belə ki, 50-ci illərin ortalarında Britaniyada yaranan kommersiya tele-görüntüsü geniş məişət sferasında tətbiq edilmək üçün evdar qadınlara ünvanlandı. Yeni informasiya əyləncəli proqramlar (sonralar, 1980-1985-ci illərdə), çoxsaylı reklam çarxları və tez populyarlıq qazanmış "sabun operası" məhz

onların diqqətinə yönəldilmişdi. Ümummilli Britaniya radio və televiziya şirkətinin (BBC və BBC1) yaranması tarixinə dair sənədlər, arxiv materialları o vaxt Britaniya TV-də qadınların teleproqramlarda "balanslaşdırılmış iştirakını" nəzərdə tutan dəqiq siyasətin işlənilib hazırlandığını təsdiq edir: telediktorlar qrupu, adətən, üç kişi (radioefirdən dəvət olunurdular) və bir qadın (professional aktrisa) jurnalistdən ibarət olurdu. Bu da qadın kimi professional olmaq (həm studiyada, həm də ondan kənarda) hüququ uğrunda çoxillik mübarizəni qadınlara xatırlatmaq üçün idi. Bununla belə, əvvəlcə qadın diktorlar hava proqnozunu səsləndirmək və xəbər oxumaqla, sonralar isə müxbir və veriliş aparıcıları kimi ekranda daha tez-tez görünməyə başladılar. Britaniya televiziyasının ilk qadın aparıcısı Coan Beykuel (Joan Bakewell) daimi komandanın üzvü kimi, 1964-cü ildə BBC2-də incəsənət və son hadisələrə dair xəbərlər oxuyurdu.

Qadın aparıcıların məhz bu dövrdə pərvəziş tapması təsadüfi deyil. XX əsrin 60-cı illərinin əvvəli və ortalarında Qərbi Avropa və Amerikada feminist hərəkatının yüksəlməsi, qadınların istənilən sferada özlərini reallaşdırması üçün bərabər hüquqlarının olması ideyasının yayılması müşahidə olunub. Bu dövrdə qadınlar həm də müxtəlif verilişlərin: tok-şou, viktorina, konkursların və s. iştirakçısı kimi televizor ekranlarına çıxmağa başladılar. Qadın auditoriyası üçün verilişlər hazırlamaq məqsədilə BBC-də Marqaret Adamsın (radio verilişləri sahəsində peşəkar) rəhbərliyi ilə xüsusi şöbə yaradılmışdı ki, bu da qadınlar üçün xəbərlərin çatdırılması siyasətini, onun kişilərə nisbətən auditoriyaya daha həssas olduğunu göstərir. P.Hollandın qeyd etdiyi kimi, tədricən, XX əsrin 80-ci illərinin əvvəllərinə doğru, xəbərlərin oxunmasına Britaniyada qadın işi kimi baxmağa başladılar. Bununla qadın diktora özünəməxsus dekorativ rol ayrıldı. Fars körfəzindəki hadisələri və "səhrada fırtına" əməliyyatını ABŞ-da işıqlandırmaq üçün, demək olar ki, eynilə qadın obrazından istifadə edildi. 90-cı illərdə teletamaşaçılar arasında keçirilmiş çoxsaylı sorğular əsasında müəyyən edildi ki, hətta ən qorxulu xəbərlər qadınların dilindən daha az tragik, bəzən isə hətta "rahat və ailəvi" səslənir.

Azərbaycan teleməkanında da əsasən qadın diktorlar və

analitik proqramların qadın aparıcıları üstünlük təşkil edir. Müasir dövrdə önəm kəsb edən model KİV-də işləyən qadınların ekrandakı qadınlığı və peşəkarlığı özünə uyğunlaşdırmaq cəhdini özlərinin necə müəyyən etməsi ilə xarakterizə olunur. Peşəkarlıq dedikdə, hər şeydən əvvəl, davranışın gender-neytral tərzi və fikrin dil tərtibatı başa düşülüb. Müasir tələblərə cavab verən jurnalist təfəkkürünün formalaşdırılması və jurnalistin fəaliyyət göstərdiyi kütləvi informasiya vasitələri sisteminin ehtiyaclarına uyğun olan praktik fəaliyyətə hazırlanması – bir sıra şərtlər kompleksi ilə bağlı uğurlu qərardır.

Qadın və qızların kompüterə yiyələnmə və internetə daxil olma azadlığı, həmçinin informasiya texnologiyaları, gender asimmetriyası ilə qarşılıqlı əlaqə zamanı cinsi fərqlərin təhlili və qadınların şəxsiyyət potensialının özünü reallaşdırması üçün şəraitin yaradılmasını müəyyən etməlidir. Bununla bərabər, qadınların demokratik, sabit inkişafda iştirakının gücləndirilməsində İKT-nin necə şərait yaratdığını, öz hüquqlarının müdafiəsi, gender bərabərliyinə nail olmaq üçün qadın şəbəkələrinin yaradılmasını müəyyən etməyə imkan verən məlumatlar əldə edilməlidir. Bu məlumatlar həmçinin İKT mütəxəssisləri üçün qadınların elektoral proseslərdə, elektron seçkilərdə, elektron ticarətdə iştirak imkanlarını proqnozlaşdırmağa kömək etməlidir. İKT-yə daxil olarkən hansı regional problemlərin olması, icra və bələdiyyə hakimiyyətlərinin qadınların virtual informasiyadan istifadə etmək hüquqlarının həyata keçirilməsində necə kömək etdiklərini açıqlayan məlumatlar alınmalıdır.

Qadın sosial informasiya məkanının genişləndirilməsi qadınlara cəmiyyətin sosial və siyasi sahələrində iştirak etmək üçün səmərəli imkanlar təqdim edir, bununla da onların peşəkar, mədəni və yaradıcı potensialını artırır. Belə təmayül, praktiki siyasət məqsədi cəmiyyətin hər iki sosial-cins qrupunun maraqlarının nəzərə alınması üçün xüsusi strategiyaların işlənib hazırlanması zərurəti kimi gender ölçüsünün inteqrasiyasını bildirən, yəni gender bərabərliyinə nail olmaq üçün gender yanaşması konsepsiyasına daxildir.

Gender yanaşması əsas beynəlxalq informasiya istiqamətləri siyasətinə — insanlara, onların potensialının, resurslarının, vərdiş və biliklərinin inkişafına yönəldilmiş siyasətə də

uyğundur. XXI əsrin əvvəllərinin informasiya siyasətini müəyyən edən ən mühüm vasitələrdən biri informasiya-kommunikasiya texnologiyalarıdır. İnformasiya Cəmiyyətinə dair Ümumdünya sammitinin sənədlərində qeyd edilmişdir: "Biz informasiya cəmiyyətində qadınlara bütün hüquq və imkanların verilməsinin, onların cəmiyyət həyatının bütün sahələrində və qərar qəbuletmənin bütün proseslərində bərabər əsaslarla iştirak etməsinin vacib olduğunu qəbul edirik. Bunun üçün biz fəaliyyətimizin əsas istiqamətlərinə qadın və kişilərin bərabərlik prinsiplərini daxil etməli və İKT-ni bu məqsədə nail olmaq üçün vasitə kimi tətbiq etməliyik". Artıq informasiya-kommunikasiya texnologiyalarının üstünlüklərindən istifadə edilməsi bir sıra ölkələrə az və ya çox dərəcədə səmərə gətirmişdir. Heç şübhəsiz, informasiya ilə yaxşı təmin olunmuş cəmiyyət bəşər sivilizasiyasının tərəqqisində mühüm addımdır.

### 4. Media sahəsində qanunvericiliyin təhlili

Mətbuat azadlığının sərhədləri barədə geniş konsensus vardır, bunlara Konstitusiyada təsbit olunmuş məhdudiyyətlər, şərəf və ləyaqətin təhqir olunmasına qoyulan qadağalar da aiddir.

Mətbuat azadlığı, adətən, ölkənin mətbuat qanunları ilə tənzimlənir. Bəzi ölkələrdə informasiya haqqında və məlumat əldə etmək haqqında qanunlar vardır. Bu qanunlar isə nəinki bir-birini inkar etmir, hətta bir-birinin sərhədlərini müəyyənləşdirir.

Mətbuat azadlığında əsas istiqamətlərdən biri də insan hüquqları amilidir. İnsan hüquqları aspektindən çıxış edərək, mətbuat azadlığının təmin edilməsi bir sıra mühüm hüquqların təmin edilməsi ilə sıx bağlıdır. Belə ki, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 19-cu maddəsində göstərilir ki, hər bir insan maneəsiz olaraq öz fikirlərində qalmaq hüququna malikdir. Eyni zamanda, həmin maddənin 2-ci bəndində göstərilir ki, hər bir insan öz fikrini sərbəst ifadə etmək hüququna malikdir; bu cür hüquqa hər cür informasiyalara və ideyalara dövlət sərhədindən asılı olmayaraq, şifahi və ya yazılı şəkildə, mətbuat və ya bədii ifadə formaları vasitəsilə və yaxud öz seçiminə uyğun olaraq digər üsullarla axtarmaq, almaq və yaymaq hüququ daxildir.

1950-ci il tarixli İnsan hüquqları və əsas azadlıqların mü-

dafiəsi haqqında Avropa Konvensiyasının 10-cu maddəsində qeyd edilir ki, hər kəs öz fikrini ifadə etmək azadlığı hüququna malikdir. Bu hüquqa öz rəyində qalmaq azadlığı, dövlət hakimiyyət orqanları tərəfindən hər hansı maneə olmadan və dövlət sərhədlərindən asılı olmayaraq, məlumat və ideyaları almaq və yaymaq azadlığı daxildir. Bu maddə dövlətlərin radioyayım, televiziya və kinematoqrafiya müəssisələrinə lisenziya tələbi qoymasına mane olmur. Eyni zamanda, həmin maddənin 2-ci bəndində göstərilir ki, bu azadlıqların həyata keçirilməsi milli təhlükəsizlik, ərazi bütövlüyü və ya ictimai asayiş maraqları naminə, iğtişaşın və ya cinayətin qarşısını almaq üçün, sağlamlığın, yaxud mənəviyyatın qorunması üçün, digər şəxslərin nüfuzu və hüquqlarının müdafiəsi üçün, gizli əldə edilmiş məlumatların açıqlanmasının qarşısını almaq üçün və ya ədalət mühakiməsinin nüfuz və qərəzsizliyini təmin etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan müəyyən rəsmiyyətə, şərtlərə, məhdudiyyətlərə və ya sanksiyalara məruz qala bilər.

Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 19-cu maddəsində qeyd edilir ki, hər bir insan əqidə azadlığı və onu sərbəst ifadə etmək azadlığı hüququna malikdir. Bu hüquqa maneəsiz olaraq öz əqidəsində qalmaq azadlığı və istənilən vasitələrlə və dövlət sərhədlərindən asılı olmayaraq, informasiya və ideyalar axtarmaq, almaq və yaymaq azadlığı daxildir. Avropa Şurası Nazirlər Komitəsi tərəfindən 11 sentyabr 1996-cı ildə qəbul edilmiş İctimai teleradio xidmətinin müstəqilliyinin təminatı haqqında Nazirlər Komitəsinin üzv-dövlətlərə (96) 10 saylı Tövsiyəsində elektron informasiya vasitələri də daxil olmaqla, kütləvi informasiya vasitələrinin müstəqilliyinin demokratik cəmiyyətin fəaliyyəti üçün vacibliyi xüsusi olaraq vurğulanmışdır. Bu müddəalar digər beynəlxalq sənədlərdə də əks olunmuşdur. Belə ki, Avropa Şurası Nazirlər Komitəsi tərəfindən 9 sentyabr 1999-cu ildə qəbul edilmiş Seçki kampaniyalarının kütləvi informasiya vasitələrində işıqlandırılması haqqında Nazirlər Komitəsinin üzv dövlətlərə (99) 15 saylı Tövsiyəsi, Avropa Şurası Nazirlər Komitəsi tərəfindən 20 dekabr 2000-ci ildə qəbul edilmiş Teleradio yayımı sektorunda tənzimləyici orqanların müstəqilliyi və funksiyaları haqqında

Nazirlər Komitəsinin üzv dövlətlərə (2000) 23 saylı Tövsiyəsi və s. Məsələn, 9 sentyabr 1999-cu ildə qəbul edilmiş Tövsiyədə qeyd edilir ki, seçkilərin kütləvi informasiya vasitələrində işıqlandırılmasını tənzimləyən tədbirlər qəzet və jurnalların redaksiya müstəqilliyinə, habelə onların hər hansı siyasi rəğbətlərini ifadə etmək hüququna xələl gətirməməlidir. Avropa Şurası çərçivəsində qəbul edilmiş bir sıra beynəlxalq sənədlərin də böyuk əhəmiyyəti var.

Bunlara Avropa Şurası Nazirlər Komitəsi tərəfindən qəbul edilmiş Söz və informasiya azadlığına dair 29 aprel 1982-ci il tarixli Bəyannamə, Avropa Şurası Nazirlər Komitəsi tərəfindən qəbul edilmiş Cinayət prosesi ilə bağlı məlumatların media vasitəsilə verilməsi haqqında 10 iyul 2003-cü il tarixli Bəyannamə, KİV-də siyasi müzakirələrin azadlığı haqqında 12 fevral 2004-cü il tarixli Bəyannamə, Avropa Şurası Nazirlər Komitəsi tərəfindən qəbul edilmiş Jurnalistlərin münaqişə və gərginlik vəziyyətlərində müdafiəsinə dair 3 may 1996-cı il tarixli Tövsiyə və Prinsiplər, Avropa Şurası Nazirlər Komitəsi tərəfindən qəbul edilmiş Media və dözümlülük mədəniyyətinin həvəsləndirilməsinə dair 30 oktyabr 1997-ci il tarixli Tövsiyə və s. aiddir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev AzərTAC-ın 90 illik yubileyi mərasimində demişdir: “Ölkələr və xalqlar arasında qarşılıqlı anlaşmanın möhkəmləndirilməsində informasiya agentliklərinin, kütləvi informasiya vasitələrinin fəaliyyətindən çox şey asılıdır. Həqiqi məlumatın vaxtında verilməsi operativ qərarların qəbulunda, proseslərin düzgün şərh edilməsində, ölkələr arasında ikitərəfli və çoxtərəfli əlaqələrin qurulmasında mühüm rol oynayır”.

Bu gün Azərbaycan dövləti mətbuatın fəaliyyətinə normal şərait yaradılması, onun cəmiyyət həyatına təsirinin, demokratikləşmə proseslərində rolunun təmin edilməsi və artırılması üçün ardıcıl tədbirlər görür.

Azərbaycan Respublikasının Konstitusiyası, “Məlumat azadlığı haqqında” Qanun (1998), “Kütləvi informasiya vasitələri haqqında” Qanun (1999), habelə “İnformasiya əldə etmək haqqında” Qanun (2005) ölkəmizdə söz və mətbuat azadlığı, jurnalistlərin fəaliyyətinin müstəqilliyini tamamilə təmin edir. Dövlət “dördüncü hakimiyyət” adlandırılan KİV-in

sərbəst inkişafı üçün şərait yaratmışdır.

1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul olunması ölkənin siyasi və iqtisadi prioritetlərini müəyyənləşdirdi. Ölkədə fikir plüralizminə, söz və məlumat azadlığına Konstitusiya təminatı verildi.

Azərbaycan Respublikası Konstitusiyasında mətbuat azadlığı və onunla əlaqədar məsələlərin kompleks tənzimlənməsini həyata keçirmək üçün bir sıra mühüm normalar mövcuddur. Məsələn, maddə 46 - Şərəf və ləyaqətin müdafiəsi hüququ, maddə 47 – Fikir və söz azadlığı, maddə 48 – Vicdan azadlığı, maddə 49 – Sərbəst toplaşmaq azadlığı. Məlumat azadlığı adlanan 50-ci maddənin 1-ci hissəsində qeyd edilir ki, hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır. Eyni zamanda, həmin maddənin 2-ci hissəsində qeyd edilir ki, kütləvi informasiyanın azadlığına təminat verilir. Kütləvi informasiya vasitələrində, o cümlədən mətbuatda dövlət senzurası qadağandır. Mətbuat azadlığı qarşı tərəflərin də hüquqlarına hörmətlə yanaşmanı tələb edir. Belə ki, Konstitusiyanın 50-ci maddəsinin 3-cü hissəsində qeyd edilir ki, hər kəsin kütləvi informasiya vasitələrində dərc edilən və onun hüquqlarını pozan və ya mənafelərinə xələl gətirən məlumatı təkzib etmək və ya ona cavab vermək hüququna təminat verilir.

KİV-in sərbəst fəaliyyətinin təmin edilməsi üçün qanunvericilik bazası tam təkmilləşdirilmiş və beynəlxalq standartlara uyğunlaşdırılmışdır.

"Məlumat azadlığı haqqında" 19 iyun 1998-ci il tarixli Azərbaycan Respublikası Qanununun 1-ci maddəsində qeyd edilir ki, Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsinə uyğun olaraq, hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır. 5-ci maddə ilə məlumat azadlığının həyata keçirilməsinin əsas prinsipləri müəyyən edilmişdir ki, bunlar da insan hüquqlarının həyata keçirilməsində xüsusilə əhəmiyyətlidir. Məsələn, məlumat azadlığının təmin edilməsi, məlumatın açıqlığı və onun mübadilə edilməsinin azadlığı, məlumatın obyektivliyi, tamlığı və həqiqiliyi; məlumatın axtarılmasının, əldə edilməsinin, istifadə olunmasının, yayılmasının və qo-

runmasının qanuniliyi; hər kəsin şəxsi və ailə həyatının sirrinin saxlanması; şəxsiyyətin, cəmiyyətin və dövlətin təhlükəsizliyinin qorunması.

"İnformasiya əldə etmək haqqında" 30 sentyabr 2005-ci il tarixli Azərbaycan Respublikası Qanununun 1-ci maddəsində qeyd edilir ki, bu Qanunun məqsədi Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsi ilə təsbit olunmuş məlumat əldə etmək hüququnun sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə, açıq cəmiyyətin və demokratik hüquqi dövlətin prinsipləri əsasında təmin edilməsinin hüquqi əsaslarını müəyyənləşdirməkdən, həmçinin ictimai vəzifələrin yerinə yetirilməsinə vətəndaşlar tərəfindən nəzarət olunmasına şərait yaratmaqdan ibarətdir. Eyni zamanda, 2-ci maddədə əks etdirilmiş "İnformasiya əldə etmək azadlığı" ilə əlaqədar həmin maddənin 1-ci bəndində qeyd edilir ki, Azərbaycan Respublikasında informasiyanın əldə olunması azaddır. Həmin maddənin 2-ci bəndində göstərilir ki, hər kəs özü birbaşa və ya nümayəndəsi vasitəsilə informasiya sahibinə müraciət etmək, informasiyanın növünü və əldə etmə formasını seçmək hüququna malikdir. 6-cı maddədə "İnformasiya əldə olunmasının əsas prinsipləri" kimi aşağıdakılar göstərilir: informasiya sorğusunun sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə təmin edilməsi; informasiyanın əldə olunmasının qanuniliyi; dövlət orqanlarının və bələdiyyələrin informasiyanı açıqlamaq vəzifəsi; informasiyanın maksimum açıqlığı; informasiya sorğusunun ən qısa zamanda və ən münasib üsulla təmin edilməsi; informasiyanın əldə edilməsinə o şərtlə icazə verilir ki, bu, Azərbaycan Respublikasının siyasi, iqtisadi, hərbi, maliyyə-kredit və valyuta siyasəti sahələrində maraqlarının qorunması, ictimai qaydanın, sağlamlığın və mənəviyyatın mühafizəsi, digər şəxslərin hüquq və azadlıqlarının, kommersiya və digər iqtisadi maraqlarının qorunması, məhkəmənin nüfuzunun və qərəzsizliyinin, cinayət işləri üzrə ibtidai araşdırmanın normal gedişinin təmin edilməsi məqsədlərinə zidd olmasın; informasiya əldə etmək hüququnun dövlət tərəfindən qorunması, o cümlədən məhkəmə yolu ilə müdafiəsi; bu Qanunla müəyyənləşdirilmiş hallar istisna olmaqla, informasiyanın əldə edilməsinin ödənişsiz həyata keçirilməsi; informasiya əldə etmək hüququnun pozulmasına görə

informasiya sahiblərinin məsuliyyət daşıması; informasiya əldə edilməsinə qoyulan məhdudiyyətin bu məhdudiyyəti doğuran əsaslardan daha artıq müəyyənləşdirilməməsi; ictimaiyyətdə maraq doğuran hüquq pozuntuları barədə məlumatı açıqlamağa görə vəzifəli şəxslərin təqib olunmaması. Aparılan təhlil göstərir ki, prinsiplər bu sahədəki mühüm beynəlxalq normalarla əks olunmuş müddəaların dövlətdaxili qanunvericiliyə praktiki və real implementasiyasını həyata keçirməkdə mühüm əhəmiyyət kəsb edirlər.

Həmçinin, "Kütləvi informasiya vasitələri haqqında" Qanunun 1-ci maddəsində qeyd edilir ki, Azərbaycan Respublikasında kütləvi informasiya azaddır. Kütləvi informasiya azadlığı vətəndaşların qanuni yolla informasiya axtarmaq, əldə etmək, hazırlamaq, ötürmək, istehsal etmək və yaymaq hüququna dövlət tərəfindən təminat verilməsinə əsaslanır və qanunvericilikdə nəzərdə tutulan hallardan başqa, məhdudlaşdırıla bilməz. Həmin Qanunun 7-ci maddəsində qeyd edilir ki, kütləvi informasiya vasitələri üzərində dövlət senzurasına, habelə bu məqsədlə xüsusi dövlət orqanlarının və ya vəzifələrin yaradılmasına və maliyyələşdirilməsinə yol verilmir. Məlumatın və ya müsahibənin müəllifi olduqları hallardan başqa, dövlət orqanlarının, bələdiyyələrin, idarə, müəssisə və təşkilatların, ictimai birliklərin, vəzifəli şəxslərin, habelə siyasi partiyaların kütləvi informasiya vasitələrində yayılan məlumat və materialların qabaqcadan onlarla razılaşdırılmasını tələb etmək və ya yayılmasını qadağan etmək hüququ yoxdur. Fövqəladə vəziyyətin qüvvədə olduğu müddət ərzində şərtləri və bu şərtlərin həyata keçirilməsi qaydası göstərilməklə, kütləvi informasiya vasitələrinin azadlığı müvəqqəti məhdudlaşdırıla bilər. Dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılması zonasında kütləvi informasiya vasitələri işçilərinin fəaliyyəti əməliyyat aparan orqan tərəfindən müəyyən edilir. Dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat barədə ictimaiyyətə məlumatlar əməliyyat aparan orqanın müəyyən etdiyi formada və həcmdə verilir.

Teleradio yayımı sahəsində də əhəmiyyətli qanunvericilik tədbirləri görülmüşdür. "Televiziya və radio yayımı haqqında" qanun 2002-ci ilin iyun ayında qəbul edilmiş, 5 oktyabr 2002-ci il tarixində Milli Televiziya və Radio Şurası haqqında Əsas-

namənin təsdiq edilməsi barədə Fərman imzalanmışdır. "Televiziya və radio yayımı haqqında" Qanunun 3-cü maddəsində teleradio fəaliyyətinin əsas prinsipləri qeyd olunmuşdur: yayımçı öz fəaliyyətində informasiyanın əhatəliliyi, obyektivliyi, tam və doğru-dürüstlüyü, vətəndaşların öz fikir və baxışlarını sərbəst ifadə etməsi, ideoloji və siyasi plüralizm, tərəfsizlik və qərəzsizlik, insanların şəxsi və ailə həyatına müdaxilənin yolverilməzliyi, milli-mənəvi dəyərlərin qorunması, peşə etikasına və əxlaq normalarına riayət edilməsi və proqramların keyfiyyətliliyi prinsiplərinə əsaslanır.

"İctimai Televiziya və radio yayımı haqqında" Qanunun 3-cü maddəsinə uyğun olaraq, ictimai yayım xidmətinin prinsipləri bunlardır: müstəqillik; informasiyanın tərəfsizliyi, qərəzsizliyi və doğru-dürüstlüyü; plüralizm və dözümlülük; açıq siyasi maraqlardan uzaqlaşma; ümumi maraqların uzlaşdırılması və təmin edilməsi; milli özünüdərkin inkişaf etdirilməsi; universallıq; rəngarənglik; başqalarından fərqlənmə.

İfadə və informasiya azadlığının təmin edilməsi istiqamətində növbəti mühüm addım 2003-cü il mart ayının 15-də Azərbaycan jurnalistlərinin ilk qurultayında müstəqil surətdə, dövlətin heç bir müdaxiləsi olmadan jurnalistlərin özləri tərəfindən Mətbuat Şurasının yaradılması olmuşdur. Mətbuat Şurasının əsas funksiyası KİV ilə fərdlər, həmçinin KİV ilə özəl şirkətlər arasında mübahisələr məhkəməyə qədər həll etməkdən ibarətdir. Şura həmçinin qəzetlərin monitorinqi və özünün hazırlayıb qəbul etdiyi Jurnalist etikası kodeksinin müddəalarının həyata keçirilməsi funksiyalarını yerinə yetirir.

Müstəqil informasiya agentliklərinin və qəzetlərin əsas problemi, adətən, maliyyə məsələsidir. Bununla əlaqədar, 2002-ci ildə Azərbaycan Respublikası Prezidentinin "KİV-in inkişafı haqqında dövlət qayğısının artırılması üzrə əlavə tədbirlər barədə" Fərmanı vaxtında atılmış addım oldu. KİV-in müstəqilliyini inkişaf etdirmək məqsədilə 2008-ci il avqustun 31-də ölkə Prezidenti "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nın təsdiq olunması haqqında Sərəncam imzaladı. 2009-cu ildə isə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu yaradıldı.

**5. Kütləvi İnformasiya Vasitələrinin inkişafı tarixində qadınların rolu**

Bakıda 1881-ci ildən 1919-cu ilədək rus dilində çıxan "Kaspi" qəzeti müxtəlif dövrlərdə cəmiyyətin həyatını öz baxışları nöqteyi-nəzərindən əks etdirmişdir. "Kaspi"də ictimai-siyasi mövzuda publisist məqalələri ilə M.Şahtaxtlı da çıxış edirdi. Müəllif öz yazılarında dövrün ciddi problemlərini — qadın hüquqlarının qorunması, mühafizəkarlıq və elmsizliyi gündəmə gətirirdi.

Görkəmli ədib Əliqulu Qəmküsar 1908-ci ildən başlayaraq "Molla Nəsrəddin" jurnalında mənzum və mənsur əsərləri ilə çıxış edirdi. Onun çap etdirdiyi yazılarda cəmiyyətdə kök salan sosial ziddiyyətlər, yoxsulluq, dini fanatizm, qadın azadlığı məsələləri öz əksini tapırdı. 1913-cü ildən başlayaraq məcmuənin səhifələrində rəssam Xəlil Musayevin çəkdiyi, cəhaləti və qadın hüquqsuzluğunu kəskin tənqid edən karikaturalar da diqqəti cəlb edir.

"Şərqi-rus" qəzetində isə hicab məsələsi, islamda qadın azadlığına baxışlar, maarifin yayılması, məktəblərdə tədrisin yaxşılaşdırılması kimi önəmli məsələlər əksini tapmış, problemlərdən çıxış yolları aranmışdı.

Azərbaycanda qadınlara məxsus ilk mətbu orqan da bu dövrdə nəşrə başlamışdır. "İşıq" adlanan qəzetin ilk sayı 1911-ci ilin yanvar ayının 22-də çapdan çıxmışdır. Azərbaycanın qüdrətli yazıçı-publisisti Yusif Vəzir Çəmənzəminli ilk qadın məcmuəsinin çapdan çıxması münasibətilə Kiyevdən göndərdiyi təbrik məktubunda yazırdı: "Xanımlar qəzetəsi dedikdə, ən əvvəl, "arvad məsələsi" yada düşür. "Arvad məsələsi" də insanlar üçün həyati və zəruri bir məsələdir".

Qadın mətbuatının yaradılmasının artıq dövrün zərurətinə çevrildiyini görən Hacı Zeynalabdin Tağıyev millət qarşısındakı xidmətləri sırasına bir xeyriyyəçilik də əlavə etdi. O, "İşıq" adlı ilk qadın mətbu orqanını yaratdı. Azərbaycan qadınlarının oyanmasında, ictimai-mədəni həyatda fəallaşmasında bu jurnalın da müəyyən rolu vardır. Onun səhifələrində Azərbaycanın maarifpərvər qadınlarının zəmanəyə qarşı alovlu etiraz səsləri ucalıb. "İşıq" jurnalında 30 nəfərə yaxın müxtəlif əqidəli qadının imzası ilə yazılar dərc edilmişdir. Onların arasında

ədəbiyyat həvəskarları, şair və nasir qadınlar da vardı. Asiya Axundzadə, Sona Axundova, Pərnis Səriyyə, Zəhra Hümmət, Nigar Osmanpaşazadə şeirlərini bu jurnalda çap etdirmişlər.

Jurnal Azərbaycan qadınları üçün tibbə və məişətə dair məsləhətlər də dərc edirdi.

Nəşrin redaktoru Azərbaycanın ziyalı qadınlarından biri, ali təhsilli həkim, ictimai işlərdə fəallığı ilə seçilən, xeyriyyə cəmiyyətlərində təşəbbüskarlıq göstərən Xədicə xanım Əlibəyova, naşiri isə onun həyat yoldaşı Mustafa Əlibəyov idi. M.Əlibəyov hüquqşünas, vəkil kimi tanınır, həm də insan hüquqları ilə də məşğul olurdu.

"İşıq"ın işıq üzü görməsi tərəqqipərvər adamları, xüsusilə qadınları çox sevindirmişdi. Azərbaycanın ziyalı qadınları öz təbriklərini, şeirlərini, ürək sözlərini bu ilk qadın jurnalına göndərirdilər. Jurnala təbrik məktubu göndərən ilk qadınlar arasında Nəcabət Zeynalova, Səriyyə Həsənova, Salatın Əhmədzadə də vardı. Salatın xanım fərəhlə qeyd edirdi: "Qafqaz müsəlman xanımlarının üfiq istiqbalını işıqlandıracaq "İşıq"ı təbrik edirəm". Qarabağdakı Malıbəyli kənd qız məktəbinin müəllimi Məhəmməd Qarayevin məktubu da çox səmimi idi. Burada deyilirdi: "Axır ki, elm, mərifət, tərbiyə, təlim gülünün ətri müsəlmanlara təsir etdi. İnsaniyyət və ədəb çiçəklərinin qoxusu müsəlman bacılarımızı canbişə gərirdi. Hər bir hüquqdan məhrum qalmış müsümələr "heyhat, nə çox yatmışıq!" deyib xab-qəflətdən gözlərini açdılar".

"İşıq"da rus dilində məqalələr də çap olunurdu. Məcmuənin 1911-ci ilin yanvarından 1912-ci ilin dekabrına qədər 64, bəzi mənbələrə görə isə 68 sayı işıq üzü görmüşdü. 1912-ci ildə "İşıq" qaranlıq mühitin, cəhalətin qurbanı oldu. Cəmi iki il ömür sürsə də, o, nəinki XX əsrin əvvəllərində Azərbaycan qadınlarının gözlərinə işıq, zəkalarına nur oldu, islam dünyasının qanunları ilə ömür sürən qadınları silkələdi, o həm də Azərbaycan mətbuatı tarixində qadın mətbuatının əsasını, bünövrəsini qoydu.

Bir çox əsərlərini qadınlara həsr etmiş Y.V.Çəmənzəminli "İşıq" jurnalının redaktoru Xədicə xanım Əlibəyovaya Kiyevdən göndərdiyi məktubunda bu fikirləri də yazmışdı: "Arvadlarımızın zülmət içində yaşadıqları bir zamanda onlar üçün

öhdənizə götürdüyünüz qəzetə nəşri böyük və müqəddəs bir vəzifədir. Bu böyük vəzifəni lazımınca ifa edib məqsədə nail olmaq da çox hünər, çox cəsarət istəyir”.

Məktubda qadın məsələsinin əhəmiyyəti göstərildiyi kimi, jurnalın qarşısında duran vəzifələrə də toxunulmuşdu. Onun həqiqi “İşıq” olması, maarif və mədəniyyət nuru ilə şölə saçması arzu edilirdi. Bu, təkcə Yusif Vəzirin deyil, o dövrün ziyalılarının istəyi və tələbi idi.

“İşıq” jurnalının fəaliyyətindən narazı olan cahillərin hücumlarından mütəəssir olan Həlimə xanım Axundova “Övrət millət anasıdır” sərlövhəli məqaləsində yazırdı: “İndi başqa zamandır. Bütün millətlər günü-gündən tərəqqi edir, elm və maarif yolunda çalışırlar. Amma biz? Mövhumatpərəstlərin sözlərinə inanmayın!..”.

Münəvvər xanım Əlixanova yazırdı: “Əgər biz öz hüquqlarımıza malik olmaq istəyiriksə, lazımdır və vacibdir ki, qeyrət edərək, ciddi bir surətdə müttəfiq olub, öz amal və arzularımızı kəndi əql və fərasətimiz müavinəti ilə ələ keçirək. Gərək hamımız tamam bacarıqlarımızı hərəkətə gətirib iş dalınca yüyürək, öz yaralarımıza ittihadilə məlhəmlər qoyaq. Bunu da bilməliyik ki, tək əldən səs çıxmaz, hər bir əqdamatda birlik, ittifaq böyük rollar oynayır”.

Münəvvər xanım bu dəyərli məqaləsinin axırında qeyd edirdi ki, “qadınları cəhalətdən elm, mədəniyyət, tərbiyə çıxaracaqdır. Bizə elmlə bərabər azadəlik də vacibdir”.

Mövhumatın, qadın hüquqsuzluğunun hökm sürdüyü bir dövrdə qadının mətbuatda çıxış etməsi, cəsarətli fikirlər söyləməsi əsl qəhrəmanlıq idi. “İşıq” jurnalında biz onlarca qadının imzasına rast gəlirik. Gəncə qız məktəbinin müəllimi Asiya Axundzadə, onun qızı müəllimə Xuraman xanım Rəhimbəyzadə, şəkili Maral Nəbizadə, Şamaxı qız məktəbinin müəllimi Gövhər Şövqiyyə, Bakıdakı qız məktəblərinin müəllimləri Səidə Şeyxzadə, Nabat Nərimanova və başqaları öz məqalə və şeirləri ilə xalqı maarifə səsləyirdilər. Jurnalın redaktoru Xədicə xanım Əlibəyova yazdığı “Hüququmuz” sərlövhəli baş məqaləsində qadınların hüquqlarından danışır, onları elm və tərbiyə məsələləri ilə məşğul olmağa çağırırdı. Yazırdı ki, ana və bacılarımız oxumuş olsalar, onların övladları da gələcəkdə

tərbiyəli olarlar.

"İşıq" jurnalının bu az müddət ərzində sorağı bütün ölkəyə yayıldı. Jurnalın ünvanına Tiflisdən, Kiyevdən, Dağıstandan, Gəncədən, Şəkidən, Şamaxıdan, Ağdaşdan və başqa yerlərdən, əksəriyyətini qadınların yazdığı məktublar axın-axın axışıb gəlirdi.

XIX əsrin axırlarında və XX əsrin əvvəllərində Azərbaycanda nəşr edilən qəzetlər, jurnallar qadın məsələsinə, qadının cəmiyyətdə, maarif və mədəniyyətin inkişafında oynadığı roluna dair yazılar verməyə başladılar. Bu işdə "Molla Nəsrəddin" (1906-1931), "Füyuzat" (1906-1907), "Yeni Füyuzat" (1911), "Dirilik" (1914-1916), "Məktəb" (1911-1917) jurnalları, "Şərqi-Rus" (1903-1905), "Həyat" (1905-1906), "İrşad" (1905-1908), "İqbal" (1912-1915), "Açıq söz" (1915-1918), "Azərbaycan" (1918-1920) və s. qəzetlər daha fəallıq göstərirdilər.

1918-1920-ci və daha sonrakı illərdə qadın hərəkatının güclənməsi daha davamlı qadın mətbuatının yaranmasını zəruri etdi. Azərbaycan hökuməti qadın hərəkatına istiqamət vermək, bu sahədə qadınlara kömək etmək məqsədilə əvvəlcə ayrı-ayrı səhifələr, sonra "Zəhmətkeş qadınların yolu" və "Qafqaziya zəhmətkeş qadınlarının yolu" adlı qəzetlərin nəşrini qərara aldı. 1922-ci ildə Tiflisdə "Zaqafqaziya zəhmətkeş qadını" adlı jurnal nəşr olunmağa başladı. Jurnal qadınları azadlığa səsləyir, qadın hüquqlarından bəhs edirdi.

Lakin mətbu nümunələr genişlənən qadın hərəkatını əhatəli işıqlandıra bilmirdi. Odur ki, hər respublikanın özündə, ana dilində ayrıca qadın jurnalının nəşr edilməsi qərara alındı.

Beləliklə, 1923-cü ildə Azərbaycan qadınlarının siyasi həyatında mühüm bir hadisə oldu. Həmin il noyabr ayında Azərbaycan Qadınlar Şurasının orqanı "Şərq qadını" jurnalının ilk sayı çapdan çıxdı və o, 40 səhifədən ibarət min nüsxə tirajla işiq üzü gördü.

Qarşısına böyük məqsədlər qoyan bu jurnalın ilk redaktoru Ayna Sultanova, redaksiya heyətinin üzvləri Azərbaycanın ilk publisist qadını Şəfiqə xanım Əfəndizadə, görkəmli maarif xadimi Mədinə xanım Qiyasbəyli, qadın hərəkatının mübariz xadimləri Mina xanım Mirzəyeva və Xanımnaz Əzizbəyova olmuşdular.

“Şərq qadını” bütün qadınları ayağa qalxmağa, öz azadlığı, hüquqları uğrunda mübarizəyə çağırırdı, Azərbaycanda həyata keçirilən mədəni tədbirləri tərənnüm edir, qadınları ictimai həyata səsləyirdi.

“Şərq qadını” tərəqqipərvər müəllimlərin və ictimai xadimlərin qüvvəsinə arxalanaraq qadın təhsilinin, məktəbəqədər tərbiyənin mühüm problemlərinin həllində görkəmli rol oynayırdı. Azərbaycanda qadınların, qızların təhsili, qız məktəblərinin, kursların təşkili, burada aparılan təlim-tərbiyə işi məsələlərinə müntəzəm yer verilirdi. Azərbaycanın ən ucqar yerlərində belə jurnalın nüsxələri əldən-ələ gəzirdi.

Jurnalın səhifələrindən ucalan azadlıq səsi Türkiyənin, İranın, Əfqanıstanın qadınlarını da hərəkətə gətirmişdi. Redaksiyanın ünvanına İstanbuldan, Tehrandan, Təbrizdən, Qəzvindən məktublar gəlirdi. 1926-cı ildə İranın Rəşt şəhərindən alınmış məktubda deyilirdi: “Şərq qadını” jurnalının nəşri İran qadınları arasında da böyük intibah yaratmışdır. İndi İran qadınları öz hüquqlarının qeydinə qalmağa çalışırlar. Belə ki, Rəşt şəhərində ilk dəfə ziyalı qadınlardan Mərziyə Zərabi xanım təşəbbüs göstərərək “Nameyi-Nisvani-Şərq” adlı məcmuə nəşr etməyə başlamışlar”.

“Şərq qadını” jurnalının bir tarixi rolu da odur ki, bu azad nəfəsli, xoşməramlı mətbuat orqanının ətrafında Azərbaycanın bütün savadlı, mübariz qadınları toplaşmışdılar. Jurnal qadın publisistlərin, şair və yazıçıların yetişməsi üçün bir məktəb rolunu oynamışdır. Elmə, mədəniyyətə, incəsənətə, təbabətə marağı olan qadınların, qızların ilk məqalələri bu jurnalın səhifələrində dərc edilmişdir.

“Şərq qadını” 1938-ci il fevral ayından “Azərbaycan qadını” adı ilə nəşr olunmağa başladı. Repressiya nəticəsində həbs edilib sürgünə göndərilmiş görkəmli ictimai xadim, alovlu publisist, jurnalın redaktoru Gülarə Köylü qızının yerinə qısa müddətdə – 1937-1940-cı illərdə o zaman biliyi, təcrübəsi az olan Zəhra Kərimova, Barat Kərimova, Züleyxa Əliyeva redaktor təyin edildilər. Jurnalın bir çox müəllifi, müxbiri həbs olundu, bu mətbu nəşr böhran dövrünü yaşadı.

1941-1945-ci illər Böyük Vətən Müharibəsi də jurnalın fəaliyyətinə ağır zərbə vurdu. Həmin qanlı-qadalı illərdə onun

fəaliyyəti müvəqqəti olaraq dayandırıldı.

1951-ci ilin mart ayında "Azərbaycan qadını" jurnalı yenidən nəşrə başladı. Bu jurnal qadınların elm, mədəniyyət, incəsənət, təhsil, təsərrüfat, ictimai-sosial sahələrdə qazandıqları nailiyyətlərdən yazır, onların məişət və həyat şəraitinin yaxşılaşdırılması məsələlərini işıqlandırırdı.

"Azərbaycan qadını" bu dövrdə yeniliyi, mədəni yüksəlişi təbliğ etməklə bərabər, sənaye müəssisələrində, bölgələrdə tez-tez görüşlər, oxucu konfransları keçirirdi. Bu tədbirlərdə söylənilən arzular, təkliflər jurnalın səhifələrində öz əksini tapırdı. Həmin yazılar, məqalələr, oçerklər, fotolar Azərbaycan qadınlarının yazılı mənbələri kimi çox qiymətlidir.

1965-1972-ci illərdə Şəfiqə xanım Ağayeva, 1972-1996-cı illərdə isə yazıçı Xalidə xanım Hasilova jurnala başçılıq etmişlər. Onların böyük səyləri nəticəsində jurnalın ideya-bədii səviyyəsi xeyli yaxşılaşmış, tirajı 30 mindən artıb 320 mini ötmüşdü. Respublikamızın görkəmli alimləri, incəsənət xadimləri, yazıçılar öz elmi-nəzəri və bədii fikirləri ilə oxucuların zövqünün, mədəni səviyyəsinin yüksəlməsinə çalışmaqla yanaşı, xalqımızın istedadlı qadınlarını da öz məqalələri, yazıları ilə tanıtmışlar.

1974-cü ildə jurnalın dövlət səviyyəsində keçirilmiş yarım əsrlik yubileyində Prezident Heydər Əliyev iştirak etmiş, geniş nitq söyləmişdir. Jurnal "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

"Azərbaycan qadını" jurnalı 90-cı illərin ağrılı-acılı, şərəfli, mübarizəli günlərini də yaşadı. Cəbhədə hünər göstərən qızlarımızın, igid oğullar itirmiş şəhid analarının, çadır düşərgələrində əzab-əziyyət çəkən qadınların, uşaqların ağır, dözülməz həyatını "Azərbaycan qadını" ön səhifələrində müntəzəm işıqlandırırdı.

2009-cu ildən yeni tərtibatla işıq üzü görən "Azərbaycan qadını" jurnalının səhifələrində ölkənin ictimai həyatında mühüm rol oynayan müxtəlif layihələr, elmimizin, mədəniyyətimizin inkişafına təkan verən tədbirlər, eləcə də fəaliyyəti, yaradıcılığı ilə daim diqqət mərkəzində olan müasirlərimizlə maraqlı müsahibələr yer almışdır.

Müasir dünyada müxtəlif modelləri ilə bir-birindən fərq-

lənən ölkələrdə KİV-in sayı sürətlə çoxalır, texniki və maliyyə imkanları genişlənir.

Dünya birliyi hüquqi dövlət quruculuğunun, demokratiyanın, vətəndaş cəmiyyətinin inkişaf səviyyəsinin mühüm meyarı kimi qadın hüquqlarının təmin olunmasını, həmçinin qadınların cəmiyyətdə, siyasi hakimiyyətdə təmsilçiliyini qəbul edir.

Bu bir faktdır ki, XX əsr qadınların cəmiyyətdə statusunu dəyişdirmiş, onların dövlət quruculuğuna cəlb edilməsi, idarəçilik və idarəetmə sahəsində qadın və kişilərin bir-birini tamamlamasına zəmin yaratmışdır. İnformasiya və kommunikasiya texnologiyalarının, xüsusilə də internet sisteminin inkişafı qadın və qızların biliklərinin bölüşdürülməsinə, şəbəkə və elektron kommersiya fəaliyyətində imkanların artırmasına zəmin yaradır, ümumdünya miqyasında gender bərabərliyi uğrunda hərəkata təkan verir.

İnformasiya mübadiləsinin texniki imkanları sayəsində son illərdə cəmiyyətin diqqətini qadın problemlərinə, cinslərin faktiki hüquq bərabərliyinə nail olmaq məsələlərinə cəlb etmək vasitəsi kimi internetdən getdikcə fəal istifadə edilməkdədir. Belə ki, bu və ya digər qadın təşkilatının və ya qadın hərəkatı liderinin Veb-saytlarını (səhifələrini) yaratmaqla müxtəlif sosial aksiyaları dəstəkləməyə hazır olan könüllüləri səfərbər etmək, liderlərə müraciət edənlərin suallarına cavab vermək, qeyri-hökumət təşkilatlarına və qadın hərəkatlarına maliyyə yardımı toplamaq, sosial bazarda öz yerini tapmaq məqsədilə marketinq əməliyyatları aparmaq üçün əlavə imkanlar əldə etmək mümkündür.

Hökumətlər, işgüzar dairələr, beynəlxalq və qeyri-hökumət təşkilatları, vətəndaş cəmiyyətləri informasiya və telekommunikasiya texnologiyalarının inkişafı ilə bağlı problemlərin həllində gender problemlərini nəzərə almalı, qərar qəbulu prosesi də daxil olmaqla, qadınların maksimal iştirakını təmin etməlidirlər.

**Tələbələrin biliklərinin qiymətləndirilməsi üçün suallar:**

1. Kütləvi İnformasiya Vasitələrinin hansı növləri var?
2. Kütləvi İnformasiya Vasitələrinin yaranma tarixi.
3. Azərbaycanda Kütləvi İnformasiya Vasitələrinin inkişafı.
4. İnformasiya cəmiyyətində Gender problemi.
5. Qadınlar və Kütləvi İnformasiya Vasitələri.
6. Azərbaycan Respublikasında media sahəsində qanunvericiliyin təhlili.
7. Azərbaycanda qadın mətbuatının yaranması və rolu.

## İstifadə edilmiş normativ-hüquqi aktlar

### Beynəlxalq sənədlər


1. Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, 10 dekabr 1948.
2. "Vətəndaş və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakt, 19 dekabr 1966.
3. "Vətəndaş və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakta ikinci Fakültativ Protokol, 15 dekabr 1989.
4. "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Konvensiya, 4 noyabr, 1950.
5. "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafıəsi haqqında" Konvensiyanın 1 saylı Protokolu, 20 mart 1952.
6. "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Pakt, 19 dekabr 1966
7. "Avropa Sosial Xartiyası", 1961.
8. "Uşaq hüquqları haqqında" Konvensiya, 20 noyabr 1989.
9. "Qadınların siyasi hüquqları haqqında" Konvensiya, 20 dekabr 1952.
10. "Nikaha daxil olma, nikaha daxil olmaq üçün minimal yaş həddi, nikahların qeydə alınması haqqında" Konvensiya, 1962.
11. "Qadınlara münasibətdə bütün növ ayrı-seçkiliyin aradan qaldırılması haqqında" Konvensiya, 18 dekabr 1965.
12. "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiya, 18 dekabr 1979.
13. "Bərabər əməyə görə kişilərə və qadınlara bərabər haqq verilməsi haqqında" 100 saylı BƏT Konvensiyası, 1951.
14. "Analığın mühafizəsi haqqında" 103 saylı BƏT Konvensiyası, 1952.
15. "Əmək və məşğulluq sahəsində ayrı-seçkilik haqqında" 111 saylı BƏT Konvensiyası, 1958.

## Milli normativ-hüquqi aktlar

16. Azərbaycan Respublikasının Konstitusiyası, 12 noyabr 1995.

17. "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanunu, 28 dekabr 2001.

18. "Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu, 24 dekabr 2002.

19. Azərbaycan Respublikasının Ailə Məcəlləsi, 28 dekabr 1999.

20. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu, 26 iyun 1997.

21. "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası, denonsasiyası haqqında" Azərbaycan Respublikasının Qanunu, 13 yanvar 1995.

22. "Təbiəti mühafizə və təbiətdən istifadə haqqında" Azərbaycan Respublikasının Qanunu, 25 fevral 1992.

23. "Kütləvi informasiya vasitləri haqqında" Azərbaycan Respublikasının Qanunu, 7 dekabr 1999.

24. "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında" Azərbaycan Respublikası Qanunu, 10 dekabr 2002.

25. "Azərbaycan Respublikasında yaşayan milli azlıq, azsaylı xalq və etnik qrupların hüquq və azadhqlarının qorunması, dil və mədəniyyətinin inkişafı üçün dövlət yardımı haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 16 sentyabr 1992.

26. "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 22 fevral 1998.

27. "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 6 mart 2000.

28. Azərbaycan Respublikasında qadınlara dair dövlət siyasətinin daha mütəşəkkil şəkildə həyata keçirilməsini təmin etmək məqsədi ilə Qadın Problemləri üzrə Dövlet Komitəsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin

Fərmanı, 14 yanvar 1998.

29. "Qadın Problemləri üzrə Dövlət Komitəsinin Əsasnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 20 fevral 1998.

30. "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 6 mart 2000.

31. "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 832 saylı Sərəncamı, 18 iyun 1998.

32. "Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 33 saylı Qərarı, 6 mart 2000.

33. "Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı, 6 mart 2000.

# ƏDƏBİYYAT SİYAHISI


1. Abdullayev Ə., Azarov A., Hüfner K., Röyter V. İnsan hüquqları. Beynəlxalq və milli müdafiə mexanizmləri. Bakı, 2008
2. Azərbaycanda milli siyasət və strateji inkişaf XXI əsrin astanasında (sosial, siyasi və ideoloji aspektlər). Bakı, Yazıçı, 2005
3. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) - 10 il. Bakı, Vəfa Print, 2013
4. Azərbaycan Respublikasında Qadınların vəziyyəti haqqında Hesabat. Bakı, 1999
5. Azərbaycanda gender tədqiqatları. Bakı, 2002
6. Abbasov Ə. İnsanın gender dünyagörüşü. Bakı, 2002
7. Azərbaycan Respublikası Qadın Problemləri üzrə Dövlət Komitəsinin Hesabatı. Bakı, 2007
8. Azərbaycan qadınları. Bakı, 1999
9. Abasov Ə., Mirzəzadə R. Müasir Azərbaycanda gender siyasəti. Bakı, Səda, 2006
10. Azərbaycan Respublikasında Qadınların vəziyyəti haqqında Hesabat. Bakı, UNDP, 1999
11. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərnest Parlament Assambleyasının II sessiyasındakı çıxışı // "Xalq qəzeti", 4 aprel 2012, № 71
12. Babaoğlu H. İnsan hüquqları və azadlıqları. Bakı, 2006
13. Cavadova İ., Məmmədov S. İnsan hüquqlarının müdafiəsi. Bakı, Adiloğlu, 2004
14. Cəfərova T. Qərar qəbulu prosesində qadınların iştirakı. "Gender. Mədəniyyət" məcmuəsi. Bakı, Adiloğlu, 2003
15. Əliyev Ə.İ. Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri. Dərslik. Bakı, Bakı Universiteti, 2007
16. Əliyev İ.H. İkinci Humanitar Forumda çıxışı. Bakı, 2011// "Respublika" qəzeti, 23 may 2011-ci il
17. Əliyev R. "İslamda ailə və nikah münasibətləri". Bakı, 2003
18. Əliyev Ə.İ. İnsan hüquqlarının beynəlxalq hüquqi müdafiəsi. Dərslik, Bakı, 2009

19. Gəncəli S. İgid oğullarla bir cərgədə. Ensiklopedik toplu. Bakı, 2015
20. Gəncəli S. Qadın, gözəllik və ülviyyət. Ensiklopedik toplu. Bakı, 2001
21. Həsənov Ə.M. Heydər Əliyev və Azərbaycanın xarici siyasət fəaliyyətinin formalaşması// Heydər Əliyev və müasir Azərbaycan. Bakı, 2003
22. Həsənova M. Azərbaycanda ailə: hüquqi və demoqrafik aspektləri. Bakı, 2004
23. Hüseynov L.H. İnsan hüquqlarının beynəlxalq müdafiəsi. Dərs vəsaiti. Bakı, Azərbaycan Beynəlxalq Universiteti, 2008
24. Həsənova M. Heydər Əliyev və Azərbaycan qadınları. Bakı, 2001
25. Həbibbəyli Ə. Bəşəriyyət yol ayrıcında: multikulturalizm, yoxsa sivilizasiyaların toqquşması? // Qlobal siyasət: təhdidlər, çağırışlar, ümidlər. Bakı, Qanun, 2013
26. İnsan hüquqları üzrə Beynəlxalq müqavilələr toplusu. BMT. Bakı, 1998
27. İsmayılov F. Ermənistan-Azərbaycan münaqişəsinin tarixi kökləri və müasir dövr. Bakı, 2009
28. İbrahimbəyova R. Təhsilin gender aspektləri. "Azərbaycanda gender tədqiqatları". Bakı, Adiloğlu.
29. Qurani-Kərim. Ərəb dilindən tərcümə edənlər: Ziya Bünyadov, Vasim Məmmədəliyev. Qismət, Bakı, 2006
30. Quluzadə Z. Azərbaycanda gender maarifinə dair// Genderşünaslıq, 2000, №4
31. Qadınlar və zorakılıq. Bakı, 2000
32. Quluzadə Z. Gender Azərbaycanda. Bakı, 2006
33. Mirzəzadə R. Multikulturalizm siyasəti və şərq-qərb müxtəlifliyi: gender, din və mənəviyyat. Təknur, Bakı, 2013
34. Mirzəzadə R. Gender və feminizm: fəlsəfi, tarixi və nəzəri-metodoloji aspekt . Bakı. Adiloğlu, 2002
35. Mehdiyev R. Azərbaycan: qloballaşmanın tələbləri. Bakı: XXI əsr. YNE, 2004
36. Məmmədov M. Ombudsmanın sorğuları əsasında Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən qəbul edilmiş aktların toplusu. E.Süleymanovanın

ümumi redaktəsi ilə. Bakı, 2015
37. Mehdiyev F. Nəzəriyyədə və təcrübədə insan hüquqları, Bakı. 2009
38. Məmmədov R., İsmayilova Ə., Hacıyev C. Qanunun aliliyi və insan hüquqlarının müdafiəsi mexanizmləri. Bakı, Azərnəşr, 2009
39. Mehdiyev R. Azərbaycanın efir məkanı: problemlər və vəzifələr // "Xalq qəzeti", 2001
40. Paşayeva G. Sülhyaratma prosesinin gender perspektivi. "Gender. Mədəniyyət" məcmuəsi. Bakı, Adiloğlu, 2003
41. Rəcəbli H., İbayev V. Avropa Şurası. Bakı, 1999
42. Rəna İbrahimbəyova, Gender terminlərinin izahlı lüğəti. Bakı, 2015
43. Sosial və humanitar fənlərə gender nəzəriyyəsinin inteqrasiyası// Konfrans materialları. 23 dekabr 2000-ci il. Bakı, 2001
44. Süleymanova E. Azərbaycanda insan hüquqlarının və azadlıqlarının təmin edilməsi və müdafiəsinin vəziyyəti (illik məruzələrin qısa icmalı 2003-2015-ci illər). Bakı, Qanun.
45. Süleymanova E.T., Əliyev Z.H. İnsan hüquqları mühazirələr toplusu. Bakı, 2014
46. Süleymanova E. Azərbaycan Respublikasında Ombudsman təsisatı və insan hüquqlarının inkişafı. Elmi-praktiki konfransın materialları. Bakı, Bakı Universiteti, 2007
47. Süleymanova E. BMT-nin İnsan Hüquqları Şurası və Azərbaycan: Universal Dövri İcmal mexanizmi. Ombudsmanların VII Bakı Beynəlxalq konfransının materialları. Bakı, Oğuz eli, 2009
48. Süleymanova E. Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsi - 10 il. Bakı, 2010
49. Süleymanova E.T., Əliyev Z.H. Avropa İnsan Hüquqları Konvensiyasında təsbit olunmuş insan hüquq və azadlıqları ilə bağlı müddəaların Azərbaycan təcrübəsində təminatında Ombudsmanın rolu. Beynəlxalq hüquq və inteqrasiya problemləri (elmi-analitik və praktiki jurnal), 2007, № 2 (10)
50. Səfixanlı A., Əliyev Z. Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq konvensiyaların milli qanun-

vericilikdə təsbiti. Bakı, Qanun, 2003
51. Səfixanlı A. İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasında insan hüquq və azadlıqları ilə bağlı müddəaların Azərbaycan Respublikasının qanunvericilik sistemində təsbiti. Bakı, Azərnəşr, 2003
52. XX əsr, век, centure. Azərbaycan qadınları. Женщины Азербайджана. Women of Azerbaijan. Энциклопедический сборник. Баку, 2001
53. Akıllıoğlu Tekin, İnsan Hakları, AÜSBF Yayınları, Ankara, 1995
54. Bozkurt Enver, Uluslararası İnsan Hakları, tərcumə: Bilal Canatan, Liberte Yayınları, Ankara, 2006
55. Gölcüklü F., Gözübüyük Ş. Avrupa insan hakları sözleşmesi və uyğulaması. Ankara, 1998
56. İsmail Karagöz, "Dini kavramlar sözlüyü", Diyanet İşleri Başkanlığı nəşriyyatı, Ankara, 2005
57. Абашидзе А.Х., Алисиевич Е.С. Право Совета Европы. Конвенция о защите прав человека и основных свобод. М.: Международные отношения, 2007
58. Азаров А.Я. Права человека. Новое знание. М., Общество "Знание" России, 1995
59. Бутрос - Гали Б. ООН и права человека. М., Права человека. 1995
60. Брайсон В. Политическая теория феминизма. Москва, 2001
61. Бок Г. История, история женщин, история полов// Женщина, мужчина, семья. Москва, 1994, №6
62. Бетти А. Реардон. Образование в области культуры мира в гендерной перспективе. Баку, 2004
63. Байрамова Л.А. Проблемы репродуктивного здоровья женщин (в рамках региональных экологических исследований). Материалы научно-практической конференции "Теоретико-методологические аспекты проблем гендерного обучения в системе высшего образования". Баку, 2002
64. Вардиман Е. Женщина в древнем мире. М., Наука, Главное управление восточной литературы, 1990

65. Введение в гендерную науку. Баку, 2006
66. Василенко В.А. Основы теории Международного права. Киев, 1988
67. Венская конвенция о праве международных договоров. Комментарий. М., Юрид. лит., 1997
68. Глотов С.А., Петренко Е.Г. Права человека и их защита в Европейском суде. Краснодар, 2000
69. Глухарева Л.И. Права человека в современном мире: Социально-философские основы и государственно-правовое регулирование. М., Юристь, 2003
70. Головистикова А.Н., Грудцына Л.Ю. Права человека. Учебник. М., Эксмо, 2006
71. Гомьен Д. Путеводитель по Европейской конвенции о правах человека. Страсбург, Совет Европы, 2000
72. Гомьен Д., Харрис Д., Зваак Л. Европейская конвенция о правах человека и Европейская социальная хартия: право и практика. М., Издательство МНИМП, 1998
73. Гендер и общество// Под общ. ред. Широковой А.А., Ураловой С.В. Иркутск, 2001
74. Глобализация и мультикультурализм. Москва, 2005
75. Гусейнов Л.Г. Международные обязательства государств в области прав человека. Баку, Издательство “Hüquq ədəbiyyatı”, 1998
76. Громова О.Н. Конфликтология. Курс лекций. Москва, ГКМОС, 2000
77. Гендерные исследования в гуманитарных науках: современные подходы// Материалы международной научной конференции. Иванова, 2000
78. Гусейнов Л.Г. Международная ответственность государств за нарушения прав человека. Монография. К., Институт государства и права НАН Украины, 2000
79. Гусейнов Т.И. Региональные органы контроля в области защиты прав и свобод человека. Международное право, Баку, 2000, № 3-4
80. Дождев Д.В. Римское частное право. Учебник для вузов. М. Издательская группа ИНФРА Норма, 1997
81. Карташкин В.А. Права человека в международном и внутригосударственном праве. М., Институт госу-

дарства и права РАН, 1995
82. Кнут В.Бергем, Гуннар М. Карлсен, Беата Слюдал. Введение в права человека. Осло, 2003
83. Конфликтология// Под ред. В.П.Ратникова. Москва, 2001
84. Клецина И.С. Гендерный подход и внутриличностные конфликты/ Женщина. Образование. Демократия. Материалы второй международной междисциплинарной научно-практической конференции. Минск, М., 2000
85. Кулиев Р. Бытовое насилие против женщин: состояние и пути преодоления. Б., 2001
86. Конвенция о ликвидации всех форм дискриминации в отношении женщин и факультативный протокол к ней. Руководство для парламентариев. ООН, 2004
87. Материалы Всемирной Конференции ООН по народонаселению. Бухарест (Румыния), 1974
88. Мерчант Кэролин. Смерть природы. Женщина, экология и научная революция. Сан-Франциско, 1990
89. Мехтиев Р. Азербайджан: вызовы глобализации. Баку: XXI-ЙНЕ, 2004
90. Петрова Р.Г. Гендерология и феминология. Учебное пособие. Москва, 2006
91. Права человека и вооруженные конфликты. Учебник для высших военных учебных заведений. Отв. ред. В.А.Карташкин. М., Издательство НОРМА (Издательская группа НОРМА-ИНФРА·М), 2001
92. Робер М.-А., Тильман Ф. Психология индивида и группы. М.,1988
93. Симона Де Бовуар. Второй пол. Москва, 1998
94. Теория и история феминизма. Москва, 1996
95. Тополь Э. Женское время. М.1997
96. Феминизм и гендерные исследования. Хрестоматия (Под общ. ред. В.И.Успенской). Тверь, 1999
97. Элиот П., Мендел М. Теория феминизма. Гендерные исследования: феминистская методология в социальных науках. Харьков, 2006
98. Элисон Е. Вудвард. Как достичь гендерного баланса. Совет Европы, 2003

99. Betti A. Reardon. Education for a Culture of Peace in a Gender Perspective. Bakı, 2003
100. Brown, Michael E. 1996. The Causes and Regional Dimension of Internal Conflict. In: Brown, Michael E. The International Dimensions of Internal Conflict. Massachusetts (chapter 17)
101. Breines, Ingeborg 1999. A Gender Perspective on a Culture of Peace. In: Breines, Ingeborg, Dorota Gierycz and Betty Reardon (eds.) 1999. Toward a Women's Agenda for a Culture of Peace. Paris: UNESCO (chapter 2) (Müntəxəbat)
102. Crompton R. Discussion and Conclusions// Restructuring Gender Relations and Employment. The Decline of the Male Breadwinner. Oxford University Press, 1999
103. Clare Ovey and Robin White. The European Convention on Human Rights. Oxford University Press, 2002
104. De Schutter, Olivier (ed), Transnational Corporations and Human Rights (Hart), Cambridge: Cambridge University Press, 1999
105. Farideh Heyat. Azeri Women in Transition. London, 2002
106. "Gender responsive budgeting and women's reproductive rights: a resource pack" UNFPA, UNIFEM. New-York, 2006
107. Jude Roof Aulette. Changing Families. Belmont, California, 1994
108. Ortner S. The virgin and the state, In Feminist studies
109. Harris D.J. The European Social Charter. University Press of Virginia: 1984
110. Sisk, Timothy D. 1996. Power Sharing and International Mediation in Ethnic Conflicts. Washington, DC: United States Institute of Peace (chapter 2)
111. Skjelslak, Inger and Dan Smith 2001. Gender, Peace and Conflict. Oslo: International Peace Research Institute (Müntəxəbat).
112. "Women and Poverty" Canadian Research Institute for The Advancement of Women. Third Edition-2005

## MÜNDƏRİCAT

Ön söz .......................................................................... 5

"Genderə giriş" fənninin proqramı ................................... 10

**Mühazirə 1.** Эnsan hьquqlarэ anlayэюэ, klassifikasiyasэ və təminolunma mexanizmləri ................................................. 13

**Mühazirə 2.** Mьstəqil Azərbaycan Respublikasэnda Эnsan Hьquqlarэ ьzrə Mьvəkkil (Ombudsman) və onun qadэn hьquqlarэnэn təmin olunmasэ sahəsində fəaliyyəti ....................................................... 37

**Mühazirə 3.** Qadэn hərəkatэnэn inkiюaf mərhələləri. Feminizm ....................................................... 66

**Mühazirə 4.** Gender anlayэюэ və Azərbaycanda gender siyasəti ............................................... 93

**Mühazirə 5.** Azərbaycan Respublikasэnэn strategiya və Dцvlət Proqramlarэnda qadэn hьquqlarэ və gender məsələləri ..................... 121

**Mühazirə 6.** Qadэnlarэn qərar qəbuletmədə rolu və ictimai fəallэрэ............................................... 150

**Mühazirə 7.** Gender mьnaqiєələrinin həll olunmasэnэn texnologiyasэ ................................................ 171

**Mühazirə 8.** Mədəni mьxtəliflik, multikulturalizm, dini etiqad və tolerantlэq. Gender və mədəniyyət..................................................... 194

**Mühazirə 9.** Beynəlxalq sənədlərdə qadэn hьquqlarэ. Pekin Bəyannaməsi və Fəaliyyət

Platformasэ ..................................................... 222

**Mühazirə 10.** Qadınlara qarşı zorakılıq beynəlxalq və milli sənədlərdə ............................................ 252

**Mühazirə 11.** Mьlki və Siyasi Hьquqlar haqqэnda Beynəlxalq Paktda təsbit olunmuю qadэn hьquqlarэ............................................ 280

**Mühazirə 12.** İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktda təsbit olunmuş qadın hüquqları .............................. 305

**Mühazirə 13**. Qadэnlarэn təhsil hьququ ............................ 335

**Mühazirə 14.** Reproduktiv Saplamlэpэn gender aspektləri və ətraf mьhit .............................. 361

**Mühazirə 15.** Qadэnlar və Kьtləvi Эnformasiya Vasitələri ..................................................... 392

Ədəbiyyat siyahısı.............................................................. 424

***Çapa imzalanmışdır 03.07.2017.***

***Kağız formatı 60x84 1/16. Sifariş 116. Həcmi 27,0 ç.v. Sayı 200 (I b. 50).***

***«Bakı Universiteti Nəşriyyatı», Bakı, AZ 1148, Z.Xəlilov, 23.***